İSBN:978-9952-539-05-9



# Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş

## *"İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər"*

**Respublika elmi konfransının materialları**

***11 may 2022-ci il***

Bakı-2022

**Qərbi Kaspi Universiteti**

## TƏŞKİLATI VƏ ELMİ KOMİTƏ

**Prof. Hüseyn Bağırov** – Qərbi Kaspi Universiteti Qəyyumlar Şurasının sədri

i.e.d., dos. Rəhimə Nurəliyeva - Qərbi Kaspi Universitetinın "İqtisadiyyat və biznes" məktəbinin dekan müavini

Gülnarə Məmmədova – Qərbi Kaspi Universitetinın "Elm" şöbəsinin müdir müavini

Sadiq Əfəndiyev – Qərbi Kaspi Universitetinın "Elm" şöbəsinin müdiri

Məsul katib - L.İ. Arzumanzadə (məsul katib) - Qərbi Kaspi Universiteti

*Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi konfransın materialları (11 may 2022-ci il) – 2022. – c.452*

İSBN:978-9952-539-05-9

*Materiallardan istifadə zamanı jurnala istinad zəruridir.*

*©: Qərbi Kaspi Universiteti*

# MÜNDƏRİCAT

## İ BÖLMƏ

**Nuriyev Əli Xudu oğlu**
Daim yaşayan, böyük uğurlar qazanan siyasət........................................................... 11
**Gülalıyev Mayıs Gülalı oğlu**
Xarici ticarətdə tətbiq edilən orta tarif dərəcələrinin idxal həcminə təsirlərinin qiymətləndirilməsi.................................................................................................... 15
**Qənbərov Fuad Əlinağı oğlu**
Azərbaycanda qeyri neft sektoru ixracının stimullaşdırılması istiqamətləri ................. 23
**Məmmədov Məhəbbət Aşır oğlu, Məmmədova Fidan Əliağa qızı, Qəniyev Xanlar İlqar oğlu+**
Qarabağ iqtisadi rayonunun infranstrukturunun müasir vəziyyəti və inkişafı perspektivləri.................................................................................................... 28
**Əliyev Şəfa Tiflis oğlu**
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının strateji aspektləri.................................................................................................... 33
**Sultanova Rəna Polad qızı**
Azərbaycanın regional inkişaf siyasətinin Heydər Əliyev təməli..................................... 38
**Cümşüdlü Qəlib Cabir oğlu, Cümşüdov Sabir Cəbir oğlu, Məmmədova Günel Vaqif qızı**
Regionlarda nəqliyyat təsərrüfatlarinin resurslari və onlarinidarə edilməsinin əsas prinsipləri.................................................................................................... 40

## II BÖLMƏ
## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANIN DÜNYA TƏSƏRRÜFAT SISTEMİNƏ İNTEQRASİYASI

**Ağayev Üzeyir Cəbrayıl oğlu**
Azərbaycanın Dağlıq Şirvan bölgəsində yetişdirilən bəzi texniki üzüm sortlarının keyfiyyət xüsusiyyətləri..................................................................................... 43
**Balayev Turxan Nasir oğlu**
Davamlılıq layihələri üçün biznes intellektinin problemləri.......................................... 46
**Janmammadova R.R., Piriyeva Z.R., Sadigova T.R., Musayeva G.A., Aliyeva G.L., Ismayilova K.S., Hasanova S.B.**
Integratıon of Azerbaıjan to the world economıc system ın the context of globalızatıon 48
**Əhmədzadə Fidan Müslüm**
Mehmanxanalarda marketinq kammunikasiya effektliyinin qiymətləndirilməsi texnologiyası.................................................................................................... 52
**Hacıyev Urfan Vaqif oğlu**
Yaşıl iqtisadiyyat modeli və Azərbaycanda bu modelintədbiqi.................................... 54
**Hüseynova Arzu Doğru qızı**
Ukrayna müharibəsinin təsirləri.................................................................................. 57
**Kərimli İrşad Abdul oğlu, Abdulla Jasim Ashamsi, Eyvazov Elçin Təhməz oğlu**
Beynəlxalq nəqliyyat dəhlizləri müstəvisində Cənubi Qafqazın nəqliyyat-kommunikasiya potensialının artması imkanları......................................................... 59
**Kərimova Aygün Əziz qızı**
Şərqi Zəngəzur iqtisadi rayonunda dayanıqlı kənd təsərrüfatının inkişafı prinsipləri.... 62

**Şirinova Ləman Novruz qızı**
Bazar iqtisadiyyatı şəraitində kapitalın uçotu və auditinin təkmilləşdirilməsi məsələləri və istiqamətləri........................................................................................................ 64
**Şirinova Rəsmiyyə Varış qızı**
Rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğunda yeni özəlləşdirmə prosesinin rolu........ 66
**Şirvani Könül Vaqif qızı**
Azəbaycan Respublikasının inteqrasiya prosesində iştirakının dövlət tənzimlənməsi və hüquqi bazanın təkmilləşdirilməsi məsələləri............................................................... 67
**Tağıyev Cəmil Ənvər oğlu**
Azərbaycanın Türk dövlətlərinə ixracının müasir vəziyyəti.......................................... 70
**Teymurova Gunay Binyamin**
Human capital development in the context of the fourth industrial revolution………… 73
**Yaqubov Aqif Azad oğlu**
Ərzaq təhlükəsizliyinin təmin edilməsinin nəzəri məsələləri........................................ 78
**Şəkərəliyeva Zibeydə Arif qızı**
Azərbaycanda idxal və ixracın gömrük-tarif tənzimlənməsinin təkminləşdirilməsi istiqamətləri........................................................................................................... 80
**Бахышов Вюсал Буньямин оглы**
Оптимальная модель развития азербайджана в условиях глобализации на основе принципа «трех факторов»............................................................................. 84
**Мамедова Аида Гасым кызы, Мамедова Лейла Вагиф кызы, Джавадова Мехрибан Алим кызы**
Особенности нефтеперерабатывающего производства и их влияние на систему стратегического учета затрат.......................................................................... 88

## III BÖLÜM
## MALİYYƏ BAZARLARI VƏ PUL-KREDİT MEXANİZMLƏRİNDƏN İSTİFADƏSİ PROBLEMLƏRİ

**Abasov Elçin Arif, Suleymanov Natıq Vaqıf**
Data science - BAYES qaydası.......................................................................... 92
**Adilova Novruzə Qeys qızı, Ilqar Rafiq oğlu Kərimov**
Qeyri-ərzaq mallarının gömrük ekspertizasının səmərəliliyinin yüksəldilməsi istiqamətləri........................................................................................................... 95
**Alizada Shahla İbrahim, Balayev Mahir Zakir**
Advantages of attracting foreign investment to the country's economy……………… 96
**Balayev Turxan Nasir**
Türkiyədə özəl kapitallı kommersia banklarının maliyyə fəaliyyəti........................................ 98
**Bayramova Sevinc Elman qızı**
Azərbaycanda iqtisadi risklər və investisiya qoyuluşu................................................ 101
**Əhmədova Fidan Əkbər qızı**
Müəssisələrın maliyyə mexanizminin tənzimlənməsində marketinqin rolu.................. 103
**Əmiraslanova Dilarə Əmiraslan qızı**
Rəqəmsallaşdırmanın maliyyə bazarlarının inkişafına təsiri...................................... 107
**Əkbərzadə Aytac Valeh qızı**
Maliyyə bazarları və pul-kredit mexanizminin tənzimlənməsi istiqamətləri................. 110
**Əlbaba Oktay oğlu Əlihəsənov**
Maliyyələşdirmə aləti kimi faktorinqin xüsusiyyətləri.................................................. 113
**Əliyeva Nəzrin İldırım qızı**

Müəssisələrin fəaliyyətində qeyri-müəyyənliklər və onların aradan qaldırılması........... 115
**Haciyev Ağa-Kərim Hüseyn oğlu**
Azərbaycanda sərbəst büdcə vəsaitlərinin idarə olunmasının təkmilləşdirilməsi imkanları.................................................................................................................... 118
**Hashimli Lamiya Rovshan**
Investment security of production business in the oil and gas industry of Azerbaijan.. 120
**Həsənli Azər Rasim oğlu**
Postneft mərhələsində makroiqtisadi siyasət əməkdaşlığının əhəmiyyəti və məhdudiyyətləri.......................................................................................................... 123
**Xudaverdiyev Sənan**
İqtisadi inkişaf baxımından bank sisteminin hüquqi tənzimlənməsi iməsələləri............ 125
**Xudaverdiyev Sənan**
Bank fəaliyyətinin tənzimlənməsi və nəzarət sisteminin səmərəliliyinin yüksəldilməsi. 128
**İslamova Nuranə Mahmud qızı**
Gəlir vergisi dərəcəsinin iqtisadi artıma təsirləri (ədəbiyyata baxış).............................. 132
**Kərimli İslam Aydın oğlu**
Pul siyasəti və mərkəzi bankçiliq………………………………………………… 133
**Quliyeva Əfsanə Bəbir qızı**
Qiymətli kağızlarla əməliyyatların normativ-hüquqi tənzimlənməsi məsələləri........................ 136
**Mehdiyeva F.B., Quliyeva L.İ., Abışova G.O., Orucova N.A., Talışxanova R.M., Əfəndiyeva A.K., Məmmədova M.E., Gondolova N.M.**
Xarici ölkələrdə maliyyə bazarının əsas istiqamətləri.................................................... 138
**Məmmədhəsənov Fərid R.**
Azərbaycan regionlarının maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri............................ 140
**Pirverdiyev Müzəffər Elçin oğlu**
İnflyasiyanın müəssisənin iqtisadi göstəricilərinə təsirinin maliyyə nəticələrinin qiymətləndirilməsi......................................................................................................... 145
**Tağızadə Elvin Tağı oğlu**
Maliyyə bazarları haqqında müasir baxışlar.................................................................. 146
**Алиева Жаля Аббасовна**
Процессный подход к формированию моделей цепи поставок............................... 149

## IV BÖLMƏ
## SƏNAYENİN DİVERSİFİKASİYASI

**Aliyeva D.İ., Aliyev E,M., Calalova S.E., Kanan Mustafa.B.**
**Rahimova U.Sh., Iskandarova H.D., Hasanova T.A.** 151
The main directions of agriculture in the world……………………………………..
**Bəşirova Gülnar Şaddıq qızı, Dadaşov Əbdülrəhim Əbdülrəhman oğlu**
Kənd təsərrüfatı sahəsi üzrə dəyər zəncirinin yaradılmasının nəzəri məsələləri............ 152
**Cabbarova Şövkət Tahir**
Müəssisənin idarə olunmasında informasiya texnologiyalarının tətbiqi problemlərinin tədqiqi.......................................................................................................................... 156
**Dursunov Aslan Elşad oğlu**
Tikinti tullantıları əsasında tikinti materiallarının alınmasının iqtisadi səmərəliliyi...... 158
**Əhmədova Sədaqət, Qasımov Cavadxan**
Sənayenin diversifikasiyası Naxçıvan muxtar respublikasının iqtisadi inkişafında prioritet olaraq............................................................................................................. 159

**Əjdərli Elvin İsmayıl oğlu**
Qeyri neft sektorunda, tikintidə dayanıqlı inkişaf və məşğulluğun təmin edilməsi problemi........ 164
**Ələsgərova Nigar Mahal qızı, Quliyeva Nərminə Allahverdi qızı**
Halal sənayenin inkişaf istiqamətləri: Malayziya timsalında........ 168
**Haciyeva Esmira**
Sənayesnin rəqabətliliyi indeksində respublikamızın mövqeyinin yaxşılaşdırılması..... 171
**Hüseynov Mövlud Ərəstun oğlu, İbrahimli Reyhan Ramiz qızı, Eyyubova Leyla Ruslan qızı, Məmmədov Natiq Elçin oğlu, Cəfərova Həcər Abbas qızı, Baxşəliyeva Aysel İlham qızı**
Yerli üzüm sortlarından hazırlanan şərabların fiziki-kimyəvi və orqanoleptik xüsusiyyətlərinin öyrənilməsi........ 173
**Hüseynov Nihad Ramiz oğlu**
Pospandemiya dövründə Azərbaycanda turizm sənayesinin diversifikasiyalaşdırılması problemləri və perspektivləri……… 176
**İsayev Kamran Hidayət oğlu, Səmədov Sakit Müzəffər oğlu**
Rəqəmsal iqtısadiyyatda müəssisələrin uçot-idarəetmə fəaliyyəti........ 179
**Qasımzadə Emil Eyler oğlu**
Azərbaycandakı köhnə yataqlarda hasilata xarici neft şirkətlərinin cəlbinin əhəmiyyəti və yolları........ 182
**Quliyeva Aysel Akif**
Qeyri-neft sənayesi və onun innovasiya əsaslı inkişafa keçidinin əhəmiyyəti........ 184
**Rüstəmova Vəfa Xanlar qızı, Novruzov Rövşən İsmayıl oğlu**
Kimya sənayesində elmi-texniki kadrlarının gücləndirilməsi və idarə edilməsinin əsas fərqləndirici xüsusiyyətləri........ 188
**Sadıqov Şahin Telman oğlu**
Azərbaycanın "sənayenin rəqabətqabiliyyətliliyi indeksi" –ndə mövqeyinin yaxşılaşdırılması istiqamətləri........ 192
**Salıfova Ülkər Şahvələd qızı**
İqtisadi fəallığın artırılmasında kiçik və orta sahibkarların rolu........ 196
**Tağıyev Ayaz Rəhim oğlu**
Aqrobiznes sferasinda bazar infrastrukturunun inkişaf amilləri........ 199
**Uzun Elmaz İlyasovna**
Sənayesnin rəqabətliliyi indeksində respublikamızın mövqeyinin yaxşılaşdırılması...... 203
**Vəliyev Vüqar Nüsrət oğlu**
Sənaye məhsulu satışının proqnozlaşdırılması üsulları........ 205
**Zeynalov Mahir Həmzə oğlu**
Azərbaycanda qeyri-neft sənaye sektorunda biznes mühiti və sahibkarlığın inkişafı.... 207
**Гамидова Лала Адиль гызы**
Диверсификация как основа динамического развития промышленности........ 210
**Мамедова Аян Урфан кызы**
Прогнозирование стратегических изменений как рычаг системы управления на предприятиях........ 214
**Шихиева Айтан Энвер-Паша гызы, Гафарова Джейла Этибар гызы**
Промышленность как основа экономики........ 217

## V BÖLMƏ
## AQRAR İSLAHATLAR VƏ REGİONAL İNKİŞAF SİYASƏTİ

**Сулейманов Газанфар Салман, Шейдаи Туркан Али, Хатамова Туркан Машаллах**
Направления социально-экономического развития регионов: внедрение "Зеленой экономики"………………………………………………………… 219
**Abduyev Məhəmməd Abdu oğlu**
Böyük qafqazın cənub yamacının su ehtiyatlarının keyfiyyəti (Şəki-Zaqatala iqtisadi rayonu timsalında)........................................................................................... 224
**Ağayev Azər Əlyar oğlu**
Azərbaycanin aqroturizm potensiali və mövcud problemlər……………………… 228
**Əzizova Şəlalə Yabil qızı**
Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialı.................................................. 231
**Əliyev Pərviz Fuad oğlu**
Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin edilməsində aqrar sahənin dövlət tənzimləməsinin rolu və istiqamətləri.............................................................. 235
**Əmənov Elman**
Regionlarda turizmin inkişafının ölkə iqtisadiyyatında yeri.......................................... 238
**Həsənzadə Fuad Maqsud oğlu**
Aqrar sektorun iqtisadi inkişafda rolü………………………........................................ 240
**Xəlilov Elnur Möhübbət oğlu**
Kənd təsərrüfatı müəssisələrində uçot siyasəti............................................................ 244
**Qasımova Gülsüm Habil qızı**
İşğaldan azad olunmuş torpaqlarda turizmin inkişafına nəqliyyat amilinin təsiri.......... 247
**Qədirov Cəfər Kiçibəy oğlu**
Turizm Azərbaycanda regionların sosial-iqtisadi inkişafının əsas amili kimi................ 249
**Qəribova İlhamə Əhməd qızı**
Azərbaycan regionlarının inkişaf perspektivlərinin təhlili və proqnozları.................... 251
**Məmmədova Səxavət Tofiq qızı**
Regionlarda müasir biznes mühitinin formalaşdırılması istiqamətləri........................... 253
**Mammadova A.F., Bayramova M.A., Yusupova K.G., Rahimova U.Sh., Hasanova S.B., Shirinova F.Z.**
Current state and prospects for the development of agriculture……………………….. 255
**Məmmədova N,A., Əlizadə S.H.**
İqtisadiyyatın kənd təsərrüfatı sektorunda məhsuldarlığın proqnozlaşdırması............. 257
**Məmmədova Türkan Gülmalı qızı**
Gəncə-Qazax düzü və ətraf alçaqdağlığın landşaftlarından istifadənin müasir vəziyyəti 258
**Məsumova Jalə**
Regionlarda sahibkar subyektlərinin biznes fəaliyyətinin yaxşılaşdırılmasının rəqəmsallaşmanın təsiri........................................................................................... 261
**Mirzəyev Emil Mehrəli oğlu**
Kənd təsərrüfatı qarabağ iqtisadiyyatının aparıcı sahəsi kimi....................................... 262
**Mirzəzadə Günel Ağalar qızı**
Regional turizmin inkişafında investisiya qoyuluşunun yeri və istiqamətləri................ 264
**Nəcəfova A.N., Novruzova K.G., Əlibəyli A.A., Rüstəmzadə L.X., Şirinova F.Z., Sultanova S.İ., Rzayeva S.G., Əliyeva K.R., Xəlilzadə N.Q.**
Xəzər dənizinin Abşeron regionunda neft sənayesinin inkişafı və ekoloji vəziyyət ..... 268

**Rahimova G.P., Ismayilova Z.R., Izzatova R.N., Aslanova F.E., Yaqubzada N.Y**
Economic damage to the fish industry from oil pollution in the Caspian sea............... 270
**Rüstəmov Famil Vəli oğlu**
Kənd təsərrüfatında su resurslarının ıdarə edılməsının ıqtısadı problemlərı.................. 271
**Sadıqov Yunus Musa oğlu**
Aqroemal sahəsinin kənd təsərrüfatının inkişafında rolu və nəzəri əsasları................... 275
**Sadıqova T.R., Rustamova A.O., Aliyeva Sh.Z., Mammadova Z.J.**
Economic development of agriculture…………………………………………… 278
**Şirinova Sevil Tofiq qızı**
Изучение процесса осадконакопления на основе сейсмостратиграфического анализа........................................................................................................................ 279
**Soltanov Soltan Şahid oğlu**
Regional turizm klasterlərinin formalaşması və inkişafının maliyyələşdirilməsi......... 281
**Süleymanov Muraz İsa oğlu**
Yerli və beynəlxalq təcrübə əsasinda işğaldan azad olunmuş ərazilərin bərpasi............ 284
**Zeynalov Kamran Nizami oğlu**
Yol hərəkəti və avtomobil nəqliyyatının standartlaşdırılması üzrə beynəlxalq sazişlər və onların respublikamızda tətbiqi vəziyyətinin təhlili................................................. 287
**Абдалова Матанет Али кызы**
Региональный анализ экономики Азербайджана..................................................... 289
**Агамаммедов Намик Тахир оглы**
Роль государственных программ социально-экономического развития регионов в развитии социальной инфраструктуры (На примере образовательной инфраструктуры Горно Ширванского экономического района)............................ 292

## VI BÖLMƏ
## XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI VƏ İNNOVASİYA MENECMENTİ

**Abasov Elçin Arif oğlu, Mehdıxanova Əfsanə Eldənız qızı**
İnkışaf etməkdə olan e-hökumət trendlərı................................................................... 296
**Abbasov Elçin Elşən oğlu**
Turizmin müasir modellərinin tədqiqi......................................................................... 298
**Abdullayev Əlirza Gülməmməd oğlu**
Marketinq idarəetmə konsepsıyası kimi........................................................................ 302
**Axundova Nuranə**
Gömrük orqanlarında risklərin idarəolunması sisteminin tətbiqinin zəruriliyi............... 305
**Bayramov Sultan Rövşən oğlu**
Azərbaycanda turizm sektorunun mövcud vəziyyətinin təhlili................................................ 308
**Nurbəniz Cəfərli Müşviq qızı**
Turizm sənayesində kadr hazırlığının xidmət kefiyyətinə təsiri.............................................. 310
**Cəfərova Humay Vahid qızı**
Müasir dövrdə ekoloji turizmin inkişaf dinamikası...................................................... 314
**Ələkbərov Əli Namiq oğlu**
Otel biznesi müəssisəsi üçün inkişaf strategiyası........................................................... 315
**Əliyev Əlləz Hacıəhməd oğlu, Feyzullayev Elvin Bayram oğlu, Həsənov Fuad Azər oğlu, Musayev Sərxan Səfxan oğlu, Bayramlı Ataş Arif oğlu**
Əlilliyi olan şəxslərin hərəkətliliyinin təhlili................................................................. 318

**Əsədli Nicat Novruz oğlu**
Otel biznesinin tədqiqinin nəzəri aspektləri................................................................ 322
**Hajizadeh Nurlan Elshan oğlu**
Problems of technical regulation in the energy sector of Azerbaijan and directions for improvement of its institutional system....................................................................................... 323
**Heydərova Züleyxa Zahid qızı**
İdman turizminin birbaşa və ya dolayı yolla təsir göstərdiyi sahələr............................. 330
**Həbibli Kənan Mirağa oğlu**
Mehmanxana biznesində təşkilati davranışın qanunauyğunluqları................................ 333
**Həsənov Asif Abuzər oğlu**
İnvestisiya cəlbediciliyinin artırılmasında innovasiya siyasətinin rolu........................... 335
**Həsənov Ələkbər Ağasəf oğlu, Mehdıxanova Əfsanə Eldənız qızı**
Elektron xıdmətlərın ümumı təsnıfatı və funksıonal akseptlərı ..................................... 338
**Hümbətova Sevil Rafiq qızı**
Yaşil iqtisadiyyat indeksi…………………………………………………… 341
**Hüseynova Zümrüd Məhərrəm qızı**
Azərbaycanda turizmin yeni növlərinin inkişaf istiqamətləri ....................................... 343
**Hüseynov Zaman İsmət oğlu**
Satış kanallarının müəyyən edilməsində marketinqin əhəmiyyəti............................... 346
**Həsənzadə Nəzrin Etibar qızı**
Risklərin idarə edilməsinin nəzəri məsələləri................................................................. 348
**Xəlilova Kəmalə Elçin qızı**
Torpaq, tikili və avadanlıqların uçotu zamanı istifadə olunan əsas anlayışların vergi məcəlləsi və 16 № li beynəlxalq mühasibat uçotu standartları arasındakı fərqlər.......... 350
**Xudiyeva Aysel Əhməd qızı**
Ordumuzun şanlı qələbəsinin ekskursiya mətnində işıqlandırılması.............................. 352
**İdriszadə Hüseyn Vadər oğlu**
Müasir bazar iqtisadiyyatı dövründə Azərbaycanın xidmət sahələrinin mövcud fəaliyyəti və prioritetləri.................................................................................................... 355
**İsmayılova Turanə Cahangir qızı**
Elektron marketinq sisteminin tətqbiqi və onun proqram təminatı................................ 360
**Qasımov Araz Fazil oğlu**
Rəqəmsal xidmətlərin turizm xidmətlərinə və otel biznesinə inteqrasiyası................... 361
**Quluzadə Nuray Fizuli**
Turizmdə təhlükəsizlik problemi - Azərbaycanda terrora qarşı mübarizə və turizmin inkişafı........................................................................................................................... 363
**Quliyeva Bahar Eldar qızı**
Heydər Əliyevin Azərbaycanda mehmanxanaların yaradılmasında rolu....................... 367
**Qurbanov İsrafil Ayaz oğlu**
İnsan resurslarının idarə edilməsində informasiya təhlükəsizliyinin rolu və təkmilləşdirilməsi............................................................................................................ 369
**Qurbanov Pənah Bəhmən oğlu**
Etnik turların hazırlanması istiqamətləri......................................................................... 370
**Mammadaliyeva Shafa Ellaz qızı**
Online shopping using mobile application: analysis…………………………………… 372
**Məmmədov Vüsal Vüqar oğlu**
“Ağıllı ev” texnologiyası seçimləri.................................................................................. 375
**Məmmədova Ülkər İsgəndər qızı**
Turizm sahəsində fəaliyyət göstərən şirkətlərin innovasiya əsaslı inkişaf istiqamətləri.. 377
**Məmmədova Gülnar Eldar qızı**

The importance of advertising in social media marketing…………………………….. 380
**Məmmədova Mehriban Qabil qızı**
Azərbaycanın turizm tarixi və ölkə iqtisadiyyatının inkişafında rolu........................................ 381
**Məmmədova Mehriban Qabil qızı**
Qarabağ regionunda turizm sisteminin inkişaf perspektivləri................................................. 386
**Məmmədzadə Emin Eldar oğlu**
"İnnovasıya ınfrastrukturu" anlayışına müasir yanaşmalar.......................................... 391
**Nurəliyeva Günəş Rahil qızı**
İnteryerdə üslub növləri və bədii obrazın xüsusiyyətləri............................................ 392
**Orucova Mehparə Səttər qızı**
Elektron ticarətin sosial-iqtisadi aspektləri.................................................................. 394
**Osmanov Seyhun**
Tarif eskalasiyası prinsipinə əsasən tətbiq edilən gömrük rüsumlarının və dərəcələrinin oxşar və fərqli cəhətləri.......................................................................................... 397
**Orucov Mirismayil Nəsir oğlu**
The basic functions of business management and their ways of executing………… 400
**Paşa Tanrıverdi**
Mədəni irsin qorunması, bərpası və ondan istifadənın sosial-iqtisadi təsirləri........................ 407
**Rustamli Amin Allahverdi oğlu**
Ali təhsil sisteminin xərc komponentinin azaldılması yolları......................................... 412
**Rüstəmli Nurlan Rüstəm oğlu**
Mehmanxana xidmətləri sənayesində müştəri yönümlülüyün inkişaf meyarları........... 416
**Rüstəmova Gülbəs Rəsul qızı**
Müasir şəraitdə müəssisələrin biznes konsepsiyalarının hazırlanmasında rəqəmsal marketinqin rolu.......................................................................................... 421
**Rüstəmova Vəfa Xanlar qızı**
İnnovasıyalı ıqtısadı ınkışafda elmı – tədqıqat müəssıslərındə ıdmət sahələrının ınkışaf ıstıqamətlərı.......................................................................................... 425
**Rzazadə T.N.**
Kibercinayət sosial təhlükələr və hüquqi tənzimlənmənin obyekti kimi……………… 429
**Rzayev Əlsahib Bəyzadə oğlu**
Müasir şəraitdə reklam biznesinin təşkili xüsusıyyətləri.......................................................... 432
**Sadıqova T.R.**
Impact Of Environmental Issues On Tourism Development………………………….. 434
**Səməndərov Seyfəddin Sabir oğlu**
Müstəqillik illərində Azərbaycanda davamlı inkişaf konsepsiyası............................... 435
**Yusibli Toğrul Alov oğlu**
Menecmentdə risklər: təyinatı, göstəriciləri, qiymətləndirilmə metodları və azaldılması yolları.......................................................................................... 438
**Yusibli Toğrul Alov oğlu**
İdarəetmədə risklər: təyinatı, göstəriciləri, qiymətləndirilmə metodları və azaldılması yolları. 440
**Yusifova Kəmalə Xəlil qızı**
Qeyri-neft sektorunda aqroturizmin inkişafı.................................................................. 442
**Лятифова Эльнура Шакир гызы**
Пути решения проблем бренд-менеджмента и администрирования в посткризисных условиях.......................................................................................... 446

## İ BÖLMƏ

**Əli Xudu Nuriyev**
**AMEA-nın müxbir üzvü, i.e.d.prof.,**
**əməkdar elm xadimi**

## DAİM YAŞAYAN, BÖYÜK UĞURLAR QAZANAN SİYASƏT

Hörmətli konfrans iştirakçıları, hörmətli həmkarlar! Öncə sizi salamlayır, hər birinizə sağlam həyat, xoş əhval-ruhiyyə və müvəffəqiyyət arzulayıram.

Bu günlərdə biz, bütün Azərbaycan xalqı Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünü böyük razılıq, hörmət hissilə qeyd edirik. Bu heçdə təsadüfi deyil.

Biz müasir Azərbaycan və onun böyük nailliyyətləri haqqında düşünəndə gözlərimiz qarşısına birinci növbədə ümummilli liderimiz Heydər Əliyev, onun layiqli davamçısı prezident İlham Əliyev və onların yeritdiyi siyasət gəlir.

Heydər Əliyev görkəmli dövlət xadiminə, dünya miqyaslı siyasi liderə və dahi şəxsiyyətə məxsus bütün yüksək keyfiyyətləri özündə birləşdirirdi. Onun həyatı və fəaliyyəti narahatlıq, axtarış, vətənə, xalqa bağlılıq, iş güzarlılıq, təşəbbüskarlıq, uzaqgörənlik, qayğıkeşlik və tələbkarlığın bir insanda üzvü surətdə birləşməsinin parlaq nümunəsidir. Heydər Əliyevin bütün bu yüksək insani keyfiyyətləri, xalqa bağlılığı və xalqa xidmət etmək istəyi, onun həm XX əsrin 70-80-ci illərində, həm də Azərbaycanın müstəqilliyi illərində yeritdiyi siyasətdə birləşmiş, həm bir insan, şəxsiyyət kimi özünə, həm də siyasətinə böyük uğurlar qazandırmışdır.

1969-cu il iyul aynın 14-də Heydər Əliyev Azərbaycan KPMK-nın birinci katibi seçiləndə Respublikamız iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində idi. Əvvəlki illərdə öz nefti ilə SSRİ iqtisadiyyatında liderlik mövqeyinə malik olmuş Respublikamız bu mövqeni itirdikdən sonra SSRİ hökümətinin diqqətindən kənarda qalmışdı. Qeyri neft sektorunun inkişafına kifayət qədər maliyyə vəsaiti ayrılmırdı. O zaman sənayeyə bütün kapital qoyuluşunun 49-50%-i neft sənayesinin payına düşürdü. Neft sənayesinə ayrılan maliyyə vəsaiti azalanda digər sahələrin inkişafına ayrılan maliyyə vəsaiti ayrılmalı idi. Lakin bu olmadığına görə 60-cı illərin əvvəllərindən Azərbaycan iqtisadiyyatının bütün sahələrində artım sürəti həm ittifaqın orta göstəricilərinə, həm də müttəfiq respublikaların göstəricilərinə nisbətən aşağı düşdü. 1960-1969-cu illərdə Respublikamızda sənaye məhsulu 78% artmışdı. Bu göstəriciyə görə Respublikamız müttəfiq respublikalar arasında axırıncı yeri tuturdu. Bəzi Regionlarımızda artım daha az idi. Məs., Naxçıvan MR-də sənaye məhsulu istehsalı 1961-1965-ci illərdə cəmi 8% artmışdı, 1966-1969-cu illərdə isə artım olmamışdı. 1960-cı ilə nisbətən SSRİ-də milli gəlir 2,0 dəfə, müttəfiq respublikalarda 2,2-2,4 dəfə artdığı halda Azərbaycanda bu artım cəmi 1,6 dəfə olmuşdu.[1] Neft maşınqayırması və neft emalı zavodlarının maddi-texniki bazası köhnə idi, 30-40-cı illərdən qalmış texnika əsasında işləyirdi, neftin emalından az məhsullar alınırdı və keyfiyyət aşağı idi. İqtisadiyyatın digər sahələrində də belə vəziyyət hökm sürürdü, sənayedə çox fond, xammal tutumlu sahələr üstünlük təşkil edirdi, səmərəlilik aşağı idi, bir çox ittifaq əhəmiyyətli böyük müəssisələrin tikintisi yarımçıq qalmışdı. Kənd təsərrüfatında məhsuldarlıq aşağı düşmüşdü, bütün sənaye müəssisələrinin 90%-i İttifaq əhəmiyyətli olmasına baxmayaraq, sənaye məhsulunun cəmi bir faizi keyfiyyət nişanı almışdı. Sənaye məhsulunun 72,8 %-i Bakı şəhərinin payına düşürdü. Heydər Əliyev əmək intizamının möhkəmlənməsi, plan tapşırıqlarının yerinə yetirilməsi üçün məsuliyyət hissinin artırılması, elmi potensialdan səmərəli istifadə etmək üçün tədbirlər gördü.

Heydər Əliyev 1970-1975-cı illərdə gördüyü tədbirlərlə bütün istehsal potensialını hərəkətə gətirdi və iqtisadiyyatın bütün sahələrində sürətli artıma nail oldu. 1976-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrini səmərəli və kompleks inkişaf etdirmək, iqtisadiyyatın strukturunda Azərbaycanın ittifaq əmək bölgüsündə geniş iştirakını təmin edəcək sahələrin və bütövlükdə iqtisadiyyatın inkişafına müsbət təsir edən mütərəqqi sahələrin üstün sürətlə inkişafı istiqamətində dəyişikliklər edilməsi, neft maşınqayırması və neft emalının yeni texniki baza üzərinə keçirilməsi istiqamətində əsaslı, proqram xarakterli tədbirlər həyata keçirdi. Qarşıda duran strateji vəzifələrin yerinə yetirilməsinə etibarlı təşkilatı və maliyyə təminatı yaratmaq üçün Heydər Əliyevin təkidli

təşəbbüsü ilə Azərbaycan hökuməti ittifaq hökumətinə müraciət etmiş və ittifaq hökuməti iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına aid beş mühüm qərar qəbul etmiş və neft emalının yenidən qurulması üçün əlavə olaraq 2,0 mlrd. rubl maliyyə vəsaiti ayrılmışdı.[2] Heydər Əliyev yüksək ixtisaslı ali təhsilli azərbaycanlı kadr hazırlığına xüsusi qayğı göstərirdi. Bu məqsədlə azərbaycanlı gənclər ölkənin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilirdi. Əgər 1969-cu ildə SSRİ şəhərlərində cəmi 47 azərbaycanlı gənc təhsil alırdısa, 1981-ci ildə onların sayı 3600 nəfərdən çox idi. Bütün bu və ya digər tədbirlər nəticəsində 1970-1982-ci illərdə Azərbaycan iqtisadiyyatına əvvəlki 5 0 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuş, 213 yeni sənaye müəssisəsi ("Ozon"elmi-istehsalat birliyi", Dərin özüllər zavodu, Sumqayıt Kompressor zavodu və s.) istismara verilmiş, 581 adda yeni tipli maşın, avadanlıq, aparat və i.a. nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi yaradılmışdı.[3] 10 il ərzində Azərbaycan ən sürətlə inkişaf edən respublika kimi sosializm yarısının qalibi olmuşdur. Istehsal edilən məhsullun keyfiyyət göstəricilərinə görə müttəfiq respublikalar arasında sonuncu yerdən 4-5-ci illiyə yüksəlmişdir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra - 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Respublikamızda vəziyyət 1969-cu illə müqayisə olunmaz dərəcədə ağır idi. Azərbaycan dərin və hərtərəfli iqtisadi, siyasi, mənəvi-psixoloji böhrana düşmüşdü. Ölkəmizdə vətəndaş müharibəsi başlanmış, müstəqilliyin itirilməsi təhlükəsi reallığa çevrilmişdi, işsizlik, yoxsulluq ən yüksək səviyyəyə qalxmışdı, ərazimizin 20%-i Ermənistan tərəfindən işğal olunmuşdu, əhalinin Azərbaycanın müstəqil yaşamaq imkanının olmasına inamı tamamilə sarsımışdı. Azərbaycan iqtisadiyyatı dərin böhrana düşmüş, sənaye məhsulu istehsalı 3,2 dəfə azalmış, müəssisələr arası borclar 11 mlrd. dollardan çox olmuşdu, əhalinin ərzaq məhsulları ilə təminatında böyük çətinliklər yaranmışdı. Heydər Əliyev aşağıdakı üç istiqamətlə tədbirlər həyata keçirdi:[4]

- Respublikamızda siyasi sabitliyi bərpa etmək, müstəqil dövlətçiliyi qoruyub saxlamaq, demokratik, hüququ dövlət qurmaq və inkişaf etdirmək.
- Respublika iqtisadiyyatını düşdüyü dərin böhrandan çıxarmaq, islahatlar aparmaq, bazar iqtisadiyyatına keçmək və onu sürətlə inkişaf etdirmək.
- Respublikanın iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, xarici investisiyanı, elmi-texniki yenilikləri, qabaqcıl istehsal təcrübəsini ölkəmizə cəlb etmək.

Heydər Əliyev bu istiqamətlərdə tədbirlər kompleksi həyata keçirərək (Heydər Əliyevin 1993-cü il avqust ayında televiziya ilə xalqa müraciəti, 1993-cü il noyabrın 17-də Respublikada olan siyasi partiyaların rəhbərlərilə görüş, 1994-cü il may ayının 12-də Ermənistanla Qarabağda atəşkəs haqqında bağlanan müqavilə, 1995-ci il noyabrın 12 yeni demokratik Konstitusiyanın qəbulu, özəlləşdirməyə aid qanunlar qəbulu, 1994-cü il sentyabrın 20-də 8 dövlətin 12 şirkətinin daxil olduğu Azərbaycan Beynəlxalq əməliyyat şirkətilə Azərbaycan dövlət Neft Şirkəti arasında əsrin neft müqaviləsi adını almış "Hasilatın pay bölgüsü sazişi"nin imzalanması və i.a.) 1995-1996-cı illərdə iqtisadiyyatın bütün sahələrinin sabitləşməsinə nail oldu, işsizliyin, yoxsulluğun artmasının qarşısı alındı, 1996-2000-ci illərdə həyata keçirilən tədbirlər, xüsusilə Dövlət mülkiyyətinin özəlləşdirilməsinə aid birinci dövlət proqramın icrası, neftdən daxil olan gəlirlərin artması, Dövlət sektoruna investisiya qoyuluşunun orta müddətli proqramının qəbulu, (1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa kömək Dövlət proqramının qəbulu, 1999-2000-ci illərdə Neft fondunun, Sahibkarlığa kömək milli fondunun yaradılması və s. tədbirlərin həyata keçirilməsi respublika iqtisadiyyatının bütün sahələrinin sürətli inkişafına səbəb oldu. 2000-2002-ci illərdə Azərbaycanda ÜDM hər il orta hesabla 10% artdı. [5]

Sahibkarlığa kömək milli fondunun, Neft fondunun gəlirləri də artırdı, bütün bunlar qeyri-neft sektorunun, bu sektorda kiçik və orta sahibkarlığın inkişafına diqqəti artırmağa imkan verirdi. 2002-ci ildə "Kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramı (2002-2005-ci illər)" qəbul edildi. Bu proqramda ilk dəfə olaraq regionlarda qeyri neft sektorunun və sahibkarlığın inkişafına şərait yaratmaq və beləliklə regionları inkişaf etdirmək məsələsi ayrıca qeyd olundu. 2003-cü ildə qəbul edilən "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nda (2003-2005-ci illər) regionların inkişafı məsələsi daha geniş miqyasda qoyuldu.

2003-cü ilin mart ayında bu proqramın təqdimat mərasimindəki çıxışında Heydər Əliyev Azərbaycan iqtisadiyyatının gələcək inkişafının strategiyasını və bu inkişafın strateji məqsədlərini

açıqlayaraq demişdi: "Bazar iqtisadiyyatının bütün sahələri inkişaf etməlidir, Neft Fondu onun inkişafının təminatçısıdır. Ancaq eyni zamanda bizim qeyri neft sektorunda da böyük imkanlarımız vardır. Bu imkanlardan istifadə etməklə qeyri-neft sektorunu inkişaf etdirmək, yoxsulluğu və işsizliyi azaltmaq bizim vəzifəmizdir". [6] Eyni zamanda Heydər Əliyev bu çıxışında qeyd etmişdir ki, özünün yerinə yetirilməsi gedişində bu proqram təkmilləşdiriləcək, əlavə tədbirlər həyata keçiriləcəkdir. Lakin amansız ölüm Heydər Əliyevə bu proqramda təkmilləşdirmə aparmağa, qeyri-neft sektorunu inkişaf etdirmək üçün hansı təşkilati-iqtisadi tədbirlər həyata keçirməli olduğunu müəyyən etməyə imkan vermədi. Bütün bunları Heydər Əliyevin layiqli varisi prezident İlham Əliyev etdi.[7]

Prezident İlham Əliyev özünün "Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanında Heydər Əliyevin qarşıya qoyduğu strateji vəzifəni daha da konkretləşdirmək, bu vəzifəni yerinə yetirmək üçün həyata keçirilməsi vacib olan tədbirləri müəyyən etməklə özünün Heydər Əliyev siyasətinə sadiqliyini, bu siyasəti yaradıcılıqla davam və inkişaf etdirəcəyini bəyan etdi.

İlham Əliyev həmin fərmanda ilk dəfə olaraq Azərbaycanın hərtərəfli inkişafı, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsindən ibarət olan uzun müddətli sosial-iqtisadi inkişaf strategiyasını müəyyənləşdirməklə Heydər Əliyevin strategiyasını daha uzun müddətli etdi və təkmilləşdirdi. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının hazırlanması və icrasını bu strateji vəzifənin yerinə yetirilməsinin başlıca təşkilati forması kimi irəli sürdü. Regionların sosial-iqtisadi inkişafı üzrə dörd Dövlət proqramı (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) qəbul edildi.

Proqramın maliyyələşdirilməsi mənbələri, onun icrasının təşkilatçıları, o cümlədən icrasına məsuliyyət daşıyan hökümət, dövlət orqanları daha konkret və aydın müəyyənləşdirildi.

Prezident İlham Əliyev dövlət Proqramlarının icrası üçün çoxsaylı və müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilməsini təmin etdi. Bu tədbirlərin içərisində prezidentin regionlara mütəmadi səfərlərini xüsusi qeyd etmək istərdik. Prezident hamıdan yaxşı bilir ki, Dövlət proqramlarını hökümət strukturları, mütəxəssislər, alimlər işləyib hazırlayırlar. Onun əsas icraçıları isə xalq kütləsidir. Xalq kütləsinin bu proqramlarda qarşıya qoyulan vəzifələri, onların icrasının əhəmiyyətini nə dərəcədə başa düşməsi, proqram məqsədli siyasəti dəstəkləməsi həmin proqramların yerinə yetirilməsinin çox mühüm şərtidir. Bunlardan başqa 2014-2015-ci illərdən başlayaraq aparılan islahatlar da proqramların yerinə yetirilməsində mühüm rol oynamış və yenə də oynamaqdadır. Bütün bunlar və digər tədbirlər birinci 3 dövlət proqramının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etdi və dördüncü proqram da qarşıya çıxmış bütün çətinliklərə baxmayaraq müvəffəqiyyətlə yerinə yetirilməkdədir. Bu proqramların yerinə yetirilməsi nəticəsində keçən illər ərzində Azərbaycan iqtisadiyyatının sürətli inkişafı təmin edilmişdir. Keçən illər ərzində ÜDM 3,3 dəfə, qeyri neft sektoru 2,8, sənaye məhsulu 2,6, kənd təsərrüfatı 1,8 dəfə artmışdır. 2021-ci ildə və 2022-ci ilin keçən aylarında da Azərbaycan iqtisadiyyatının demək olar ki, bütün sahələrində artım olmuşdur. 2022-ci ilin yanvar-mart aylarında ÜDM 6,7%, sənaye məhsulu 4%, qeyri-neft sənayesi 10%, qeyri-neft sektoru 13% artmışdır. [8] son 7-8 ildə ən yüksək artımdır. Bu Respublikamızda güclü energetika sistemi, beynəlxalq əhəmiyyətli nəqliyyat yol şəbəkəsi formalaşmışdır. Ən başlıcası Azərbaycan bütün dünyaya sübut etmişdir ki, o müstəqil yaşaya, öz problemlərini müstəqil həll edə bilər.

Azərbaycan beynəlxalq miqyasda da kifayət qədər layiqli yer tutmuşdur. 2013-cü ildə "qlobal rəqabət qabiliyyətlilik indeksi" nə görə Azərbaycan dünyada 46-cı yeri, 2015-ci ildə 35-ci yeri, MDB məkanında birinci yeri tutmuşdur. Dünya Bankının " Doinq Bizness-2019" hesabatında Azərbaycan ən islahatlı ölkələr sırasında 32 pillə yüksələrək 57-ci pillədən 25-ci pilləyə yüksəlmişdir. Bütün bu nailliyyətlər və çox saylı digər nailliyyətlərimiz Qarabağda ikinci Vətən müharibəsində prezident, ali baş komandan İlham Əliyevin rəhbərliyi altında Rəşadətli ordumuzun parlaq qələbəsində mühüm rol oynadı. Bu qələbə isə xalqımızın, dövlətimizin gücünə yalnız bizim deyil, dünya azərbaycanlılarının inamını artırdı, beynəlxalq aləmdə bir xalq, bir dövlət kimi nüfuzumuzu yüksəltdi.

Bütün bu nailliyyətlər, həmçinin Qarabağda ikinci vətən müharibəsində Ordumuzun parlaq qələbəsi bizi, bütün xalqımızı Prezident, ali baş komandan İlham Əliyevin ətrafında daha sıx

birləşməyə, özümüzün bütün əmək fəaliyyətimizi Qarabağda həyatın yeni keyfiyyətdə bərpasına, respublikamızın hər tərəfli inkişafı, iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilməsinə yönəltməyə çağrır.

## ƏDƏBİYYAT SİYAHƏSI:

1.Народное хозяйство Азербайджанской ССР в 1970 г. Статистический ежегодник. Аз.Госиздательство. Баку-1971г.

2.1976-1980-ci illərdə Respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Sovet İKP MK-nın qərarlarını yerinə yetirmək sahəsində Respublika Partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK-nın 1976-cı il oktyabrın 18-də keçirilmiş plenumunun materialları Azərnəşr-1976-cı il

3. Народное хозяйство Азербайджанской ССР в 1985 г. Статистический ежегодник.Баку-1986 г.

4. Azərbaycanın statistik göstəriciləri, 1997, ARDSK, Bakı-1998-ci il

5. Azərbaycanın statistik göstəriciləri, ARDSK "Səda" nəşriyyatı. Bakı-2001, 2002, 2003-cü illər

6. Yoxslluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının təqdimatına həsr olunmuş Ümummilli Konfransda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi: "Dirçəliş-XXI əsr", 2002-ci oktyabr, №56

7.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanı. "Respublika" qəzeti 25 noyabr

8. https://president.az/az/articles/view/23317

**Mayıs Gülalı oğlu Gülalıyev**
**İqtisad elmləri doktoru,**
**Azərbaycan Texnologiya Universiteti**

# XARİCİ TİCARƏTDƏ TƏTBİQ EDİLƏN ORTA TARİF DƏRƏCƏLƏRİNİN İDXAL HƏCMİNƏ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Əksər hallarda, beynəlxalq ticarətdə bir faktorun yox, bir neçə faktorun təsiri rol oynayır. Məsələn, ABŞ-da işçi qüvvəsinə nisbətən kapital amili daha zəngindir, amma ixrac olunan mallar arasında birincinin intensiv olduğu mallar üstünlük təşkil edir. *"Leontiyev paradoksu"* adlanan bu hadisəyə görə, kapitalla zəngin ölkələrdən əməktutumlu malların ixracı kapitaltutumlu malların ixracına nisbətən çox olur. 1954-cü ildə Heckscher-Ohlin nəzəriyyəsini empirik olaraq öyrənən V.Leontiyev müəyyən etdi ki, kapitalla zəngin olan ABŞ-da əməktutumlu malların ixracı, kapitaltutumlu malların isə idxalı daha çoxdur. Empirik tədqiqatlar göstərir ki, təqribən eyni mənzərə bəzi ölkələrin (məsələn, Misirin) xarici ticarətində də müşahidə edilir [1]. Əlbəttə, Heckscher-Ohlin modeli real iqtisadiyyatın xeyli dərəcədə sadələşmiş formasını ehtimal edir. Belə ki, bu modelə görə əmək və kapital müxtəlif sektorlar arasında azad hərəkət edir. Digər tərəfdən, nəzərdən keçirilən iki ölkədə əmək və kapitalın həcmi fərqlidir, bu ölkələr texnoloji nöqteyi-nəzərdən bir-birilərindən fərqlənmir və onların idxal və ixrac edilən mallara aid zövqləri də eynidir.

Bəzi nəzəriyyələr beynəlxalq ticarətlə bağlı klassik nəzəriyyələri köhnəlmiş hesab edərək yeni yanaşmanı təklif edirlər. Məsələn, yeni texnoloji məktəbin nümayəndələri əsas üstünlüyü istehsal amillərinin ucuzluğu ilə yox, novatorluq ilə əlaqələndirirlər. Onlar iddia edirlər ki, elə mal istehsal etmək lazımdır ki, daha çox istehlakçı tərəfindən tələb olunsun və bu malı digərləri istehsal edə bilməsinlər. R.Vebnonun *"məhsulun həyat tsikli nəzəriyyəsi"* bu qəbildəndir [2].

M.Porter klassik və neoklassik iqtisadçıların baxışlarını neotexnoloji məktəbin ideyaları ilə uzlaşdıraraq ölkələrin rəqabət üstünlüyü ideyasını irəli sürdü [4]. O, beynəlxalq ticarət problemlərinə aid tamamilə yeni bir yanaşma ortaya qoydu. M.Porterə görə, beynəlxalq ticarətdə ölkənin rəqabət qabiliyyətliliyi dörd əsas komponentin qarşılıqlı əlaqəsi ilə müəyyən olunur:1) faktor şərtləri, yəni konkret sahədə uğurlu rəqabət üçün zəruri olan konkret istehsal amilləri; 2) konkret sahənin təklif etdiyi mal və xidmətlərə daxili bazarda olan tələb şərtləri; 3) daxili bazarda olan rəqabətin xarakteri, həmçinin konkret ölkənin firmalarının strategiyası, strukturu və yarışması; 4) ölkədə mövcud olan yaxın və bir-birini dəstəkləyən iqtisadi sahələrin xarakteri.

P.Kruqman və Obstfeld [5] beynəlxalq mal mübadiləsi nəzəriyyəsinin klassik modelinə yeni müddəalar əlavə edərək , onu daha da zənginləşdirdilər. P.Kruqmanın [5] təklif etdiyi model beynəlxalq mübadilədən daha geniş gəlir əldə etməyə imkan verir. Onun modelinin sadə izahı ondan ibarətdir ki, ümumilikdə iqtisadiyyatın, xüsusi halda isə firmanın miqyasından asılı olmayaraq, eyni gəlirlərin əldə edilməsi ideyasından əl çəkmək lazımdır. Əlbəttə, firmanın gəlirinin onun miqyasından asılı olması fikirlərinə C.Jonesin [6], S.Kortumun [7] əsərlərində də rast gəlmək olar. P.Kruqmanın və onun ideyalarını bölüşən nəzəriyyəçilərin baxışlarına əsasən, iqtisadiyyatın miqyasına və qeyri-təkmil rəqabətə görə oxşar ölkələr arasında ticarət mübadiləsi baş verir.

Kruqman modelinin özündən əvvəlki modellərdən fərqi ondan ibarətdir ki, bu model daimi faydalı iş əmsalı olan texnologiyalar ideyasından firma daxilində firmanın miqyasından yaranan qənaət ideyasına keçid edir. "Firmanın miqyasından yaranan qənaət" o deməkdir ki, istehsalın miqyasının genişlənməsi ilə istehsal xərclərinin xüsusi çəkisi azalır. Məhz firmanın istehsal həcmi xüsusi xərclərin səviyyəsini müəyyən edir.

Ölkələr arasında ticarət əlaqələrinə müxtəlif amillər, o cümlədən tariflər, malların qiyməti və keyfiyyəti, ölkələrarası məsafə, ölkələrarası münasibətlər və sair amillər təsir göstərir. Lakin

konkret ölkə üçün bu amillərin hansının daha mühüm əhəmiyyət daşıması məsələsi xarici ticarətin həcminin idarə edilməsində və xarici ticarətin inkişaf etdirilməsində mühüm əhəmiyyətə malikdir.

Bu problem Nobel mükafatı laureatı Y.Tinbergen tərəfindən araşdırılıb. Y.Tinbergen iki ölkə arasında ticarətin həcmini müəyyən edən əsas faktorları statistik olaraq müəyyən etmək məqsədi qoyur. Onun fikirincə, ticarətə qoyulan məhdudiyyətlər stoxastik mahiyyət daşıyır [8]. İki ölkə arasında ticarətin həcmini müəyyən edən əsas faktorların statistik olaraq müəyyən edilməsi ölkələrarası ticarət həcminin, müəyyən yaxınlaşmada, proqnozlaşdırılmasına imkan verir. Əslində ölkələrarası ticarətə heç bir məhdudiyyət olmayanda ticarət həcminin əsas faktorlardan nəzəri asılılığı real asılılıqdan bu məhdudiyyətlər qədər fərqlənir. Müsbət deviasiya olduqda bu ölkələr arasında daha əlverişli şəraitin, mənfi deviasiya olduqda isə, əksinə diskriminasiyanın mövcudluğu üzə çıxır. Faktiki və nəzəri hesablanan ölkələrarası ticarət həcmi arasındakı deviasiyanın əhəmiyyətliliyi, əlbəttə, hesablamaların nə dərəcədə etibarlı olmasına işarədir. Hansı ölkələrlə real ticarət həcmi nəzəri həcmə nisbətən daha çox mənfi deviasiaya malikdirsə, bu o deməkdir ki, bu ölkələrdə ticarət əməliyyatlarına müxtəlif baryerlər qoyulub və bu ölkə ilə ticarət optimal həcmdən kəskin fərqlənir. Y.Tinbergenin təklif etdiyi model ticarətin normallaşmış strukturundan kənaraçıxmanı müəyyən etməyə imkan verir. Belə kənaraçıxmanın xarici ticarətin liberallaşması ilə əlaqəsini tapmaqla, rəsmi diskriminasiya ilə qeyri-rəsmi diskriminasiyanın dərəcəsini də müəyyən etmək olar.

Beləliklə, xarici ticarət nəzəriyyələrinin hamısında, hətta merkantilist nəzəriyyədə ölkələrarası ticarətin zəruriliyi birmənalı olaraq əsaslandırılır. Bu nəzəriyyələrin əsaslandığı əsas arqument ondan ibarətdir ki, ayrıca götürülən heç bir ölkə istehlak üçün zəruri olan bütün mal və xidmətləri istehsal etmək gücündə deyil. İqtisadi nəzəriyyələr xarici ticarətin (idxalın və ixracın) mahiyyətini və məqsədini birmənalı qiymətləndirmir. Demək olar ki, bütün nəzəriyyələrdə əsas diqqət xarici ticarətin, daha doğrusu, ixracın genişləndirilməsinin təşviqinə yönəlir. İxracın genişləndirilməsi və daha çox valyuta ehtiyatının toplanması xarici ticarətin əsas məqsədi kimi qeyd edilir. İqtisadi nəzəriyyələrdə beynəlxalq ticarətin mahiyyətinin müqayisəli analizi bunu deməyə əsas verir ki, 1) ixrac heç də əsas məqsəd deyil; 2) əsas məqsəd ölkəni zəruri mallarla və xidmətlərlə təmin etməkdir. Bunları etmək ölkənin öz imkanları sayəsində mümkün olmadıqda onların idxal edilməsi zərurəti yaranır. İdxal isə valyuta ehtiyatlarının olmasını tələb edir. Valyuta ehtiyatlarının əsas mənbəyi isə ixracdır. Deməli, idxala zərurət azaldıqca ixraca da zərurət azalır. İqtisadi nəzəriyyələrin əksəriyyəti beynəlxalq ticarətin hər bir ölkə üçün mənfəətli ola bildiyini sübut etməyə çalışır. Lakin əks fikirlərin əsaslandığı arqumentlər də güclüdür. Nəzərdən keçirilən nəzəriyyələrdə xarici ticarətlə 1) ölkənin milli sərvəti; 2) iqtisadi təhlükəsizliyi; 3) iqtisadi artımı; 4) rəqabətqabiliyyətliliyi arasındakı əlaqənin birqiymətli olmadığı bəlli olur. Bəzi iqtisadi nəzəriyyələr xarici ticarətin məhdudlaşdırılmasının vacibliyini əsaslandırmağa çalışır. İqtisadi nəzəriyyədə xarici ticarətin genişlənməsi və ya məhdudlaşdırılması arasındakı optimallıqla bağlı aydın nəzəriyyələr və əsaslandırmalar yox dərəcəsindədir.

Dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin əsas mexanizmləri kimi 1) gömrük tariflərini; 2) məhdudlaşdırıcı şərtləri; 3) dövlətlərarası müqavilələri və razılaşmaları; 4) idxal və ixracı stimullaşdıran tədbirləri və sair göstərmək olar. Hər bir ölkədə bu mexanizmlər özünəməxsus iqtisadi siyasətlə əlaqəli olduğundan mahiyyətcə bir-birindən fərqlənir. Belə ki, xarici iqtisadi fəaliyyətdə bir-birinə zidd iki əsas siyasət-iberalizm və proteksionizm hər bir ölkənin xarici ticarət fəaliyyətində müxtəlif dərəcədə özünü göstərdiyindən özünəməxsusluq və fərqlər yaradır.

Xarici ticarətdə liberalizm müəyyən səviyyədən sonra özünü *"azad ticarət"* siyasəti kimi göstərir. Azad ticarət siyasətinin mahiyyətində gömrük orqanlarının yalnız qeydiyyat funksiyasını yerinə yetirməsi dayanır. Belə ki, "azad ticarət" şəraitində idxal-ixrac rüsumları alınmır və xarici ticarət fəaliyyəti üçün heç bir məhdudiyyətlər qoyulmur. Əlbəttə, azad ticarət şərtlərinə malik olan ölkələr olduqca azdır. Lakin məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, yüksək inkişaf etmiş ölkələr "azad ticarət" şərtini bütünlükdə qəbul etmirlər. Yuxarıda qeyd

etdiyimiz kimi “azad ticarət” siyasəti XIX əsrdə İngiltərədə rəsmi iqtisadi siyasət kimi qəbul edilsə də, İngiltərə öz iqtisadi inkişaf tarixində “azad ticarətin” bütün şərtlərini qəbul etməyib və bəzi hallarda ondan geri çəkilib. Başqa sözlə desək, hər bir ölkə azad ticarət siyasətini o zaman qəbul etməyə razı olur ki, onun daxili bazarı daha möhkəm qorunmuş olsun və azad ticarət onun daxili sabitliyinə zərər gətirməsin. Belə təhlükələr olduqda ölkələr azad ticarətdən bir qədər uzaqlaşaraq proteksionist siyasətə əl atırlar. Proteksionizm - xarici ölkə sahibkarlarına və mallarına nisbətən ölkə sahibkarlarına və mallarına daha üstün və güzəştli şəraitin yaradılmasını nəzərdə tutan siyasətdir. Proteksionizm siyasəti ilə “azad ticarət” siyasəti arasında balansın idarə edilməsi dövlət tənzimlənməsi mexanizmləri vasitəsilə reallaşır.

Əslində proteksionizm siyasəti azad ticarətin hər hansı dərəcədə məhdudlaşdırılmasıdır. Yaxud azad ticarət siyasəti proteksionist tədbirlərin olmadığı siyasətdir. Lakin nəzərə alsaq ki, 100% azad ticarətin olduğu ölkələr demək olar ki, yoxdur, həmçinin xarici ticarət fəaliyyətini 100% məhdudlaşdıran (yəni xarici ticarət həyata keçirməyən) ölkələr də yoxdur, onda əminliklə demək olar ki, bütün ölkələrin xarici ticarət siyasəti azad ticarətin proteksionist tədbirlərlə müəyyən dərəcədə məhdudlaşdırılması ilə xarakterizə edilir. Fərq yalnız ondan ibarətdir ki, bəzi ölkələrə belə tədbirlər daha geniş və sərt, bəzilərində isə daha az və yumşaq ola bilər.

Proteksionizm və ya xarici ticarətin dövlət tənzimlənməsi iki əsas metodla reallaşır: tarif və qeyri-tarif metodlarla. Xarici ticarətdə tarif metodları müəyyən gömrük rüsumlarının qoyulması ilə xarakterizə olunur. Gömrük tarifləri hökumətin müəyyən etdiyi və idxal-ixrac əməliyyatları zamanı müəyyən qrup mal və xidmətlərdən tutulan sistemləşdirilmiş rüsumların siyahısıdır. Gömrük rüsumu isə ölkə sərhədindən keçən mal və xidmətlərə görə, əmlaka və qiymətli əşyalara görə tutulan vergidir.

Xarici ticarət üzrə konkret fəaliyyətdə hələ də merkantilizm fəlsəfəsi (ixracın stimullaşdırılması və idxalın məhdudlaşdırılması) əksər ölkələrdə dövlət tənzimləməsi siyasətinin əsasını təşkil edir. İxracın stimullaşdırılması üçün müxtəlif tədbirlərdən, o cümlədən kreditləşdirmə və maliyyə instrumentlərindən istifadə edilir. İxracın kreditləşdirilməsi tədbirləri isə 1) ixracatçıya daha əlverişli şərtlərlə kreditlərin verilməsini və 2) ixrac fəaliyyətininin güzəştli şərtlərlə sığortalanmasını nəzərdə tutur.

Beləliklə, hər bir ölkə üçün xarici ticarətin genişlənməsi və daxili bazarın qorunması kimi iqtisadi dixotomiya bunlar arasında optimal tarazlığın tapılmasını zəruri edir. Çünki daxili bazarın qorunması məqsədilə xarici ticarətin hər iki əməliyyatının (idxal və ya ixrac) məhdudlaşması özünəməxsus iqtisadi fəsadlar yarada bilər. Belə ki, idxalın məhdudlaşması ölkə iqtisadiyyatının inkişafına və iqtisadi təhlükəsizliyə, xüsusilə ərzaq təhlükəsizliyinin təminatına, ölkədə istehsal olunan malların rəqabətqabiliyyətinin inkişafına mənfi təsir göstərə və inflyasiya yarada bilər. İxracın məhdudlaşması isə ölkədə xarici valyutaya təklifi azalda və milli valyutanın devalvasiyasına səbəb ola bilər. İxraca qoyulan məhdudiyyətlər ölkə iqtisadiyyatına əlavə investisiyaların qarşısını almaqla və istehsal həcmini azaltmaqla yanaşı, həm də məşğulluğa mənfi təsir göstərə bilər. Daxili bazarın qorunması məqsədilə idxal-ixrac əməliyyatlarına qoyulan əlavə məhdudiyyətlər, əksinə, daha ciddi çətinliklər yarada bilər [9; 10]

Eyni ilə globallaşma prosesinin əsas subyektlərinin tələbi ilə daxili bazarın qorunmasından vaz keçmək və idxal-ixrac əməliyyatlarının müəyyən dərəcədən daha çox liberallaşmasına nail olmaq daxili istehsala və məşğulluğa mənfi təsir göstərə bilər. Belə ki, ölkəyə birbaşa xarici investisiyaların yüksək mənfəətlə və asanlıqla daxil olmasının və ya çıxmasının təmin edilməsi, milli valyutanın təbii ehtiyatların ixracından gələn gəlirlərlə möhkəmləndirilməsi, həmçinin idxal əməliyyatlarının liberallaşması ölkədə istehsal prosesi üçün zəruri olan amillərin, o cümlədən, insan kapitalının yetişməsinə, texnologiyaların inkişafına və fiziki kapitalın yaradılmasına ciddi çətinliklər törədə bilər. Çünki daxili bazar qorunmadığından daxili istehsal və onun amilləri zəifləyir. Bu halda təbii resurslardan gələn gəlirlərin hər hansı səbəbdən azalması nəticəsində milli valyutanın devalvasiyası baş verə bilər. Bu isə real gəlirlərin azalması ilə yanaşı ölkədə iqtisadi təhlükəsizliyə ciddi təhdidlər yarada bilər. Beləliklə, “azad” xarici ticarət ilə daxili bazarın qorunması arasında optimal müvazinətin yaradılması ölkə

iqtisadiyyatının səmərəli inkişafı üçün zəruridir. Bu dixotamiya üçün optimal müvazinətin tapılması dövlət tənzimləməsi mexanizmi ilə həyata keçirilir. Nəzərə almaq lazımdır ki, bu sahədə dövlət tənzimləməsinin universal səviyyəsi yoxdur və hər bir ölkə üçün özünəməxsus optimal müvazinət sahəsi səmərəli ola bilər.

Azərbaycanda xarici ticarətin dövlət tənzimlənməsi digər ölkələrdə mövcud olan mexanizmlərin tətbiqi ilə həyata keçirilir. Xarici ticarətin dövlət tənzimlənməsi üçün tətbiq edilən 1) Gömrük-tarif tənzimlənməsi; 2) qeyri-tarif tənzimlənməsi; 3) antidemping, kompensasiya, xüsusi müdafiə tədbirləri; 4) valyuta tənzimlənməsi, 5) ixraca nəzarət və 6) ixracın təşviqi metodlarının hər biri Azərbaycanda tətbiq edilir.

Azərbaycanda dövlətin gömrük-tarif tənzimlənməsi "Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir [11]. Bu Qanun Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir.

Azərbaycanda xarici ticarətin dövlət tənzimlənməsinin qeyri-tarif metodları da dünyada tətbiq edilən praktikaya uyğundur. Qeyri-tarif tədbırlərini əsasən iki qrupa bölmək olar: iqtisadi və inzibati tədbirlər. İqtisadi qeyrı-tarif məhdudiyyətlərə aşağıdakıları aid etmək olar: 1)xüsusi növ rüsumlar; 2)müxtəlif vergi və yığımlar; 3)idxal depozitləri; 4)valyuta tənzimlənməsi tədbirləri.

İnzibati qeyri-tarıf məhdudıyyətlərinə isə 1) embarqo; 2) ixracın məhdudlaşdırılması; 3) inhisarçı tədbirlər; 4) proteksionist məqsədlər üçün standart və texniki normalardan istifadə edilməsi; 5) əlavə gömrük sənədləri və əməliyyatları və sair kimi tədbirləri aid etmək olar [11].

Beynəlxalq reyting təşkilatları, o cümlədən Heritage Fondu xarici ticarətdə qeyri-tarif tənzimlənməsini qiymətləndirərkən aşağıdakı altı tədbiri nəzərə alır [12]:

1. İdxal-ixrac əməliyyatlarında kəmiyyətcə məhdudlaşdırma. Bura idxal olunan malların kəmiyyətcə məhdudlaşdırılması üçün idxal kvotaları, ixracın məhdudlaşdırılması, könüllü ixrac məhdudiyyətləri, idxal-ixraca embarqoların qoyulması və sair daxildir;
2. Qiymət məhdudiyyətləri. Bura antidemping rüsumları, kompensasiyaedici rüsumlar, sərhəd rüsumlarının uyğunlaşdırılması, dəyişən rüsumların tətbiqi və sair daxildir;
3. Tənzimləyici məhdudiyyətlər. Bura lisenziyalaşma, yerli və qarışıq tələblər, sanitar və fitosanitar standartlar, təhlükəsizlik və sənaye standartları tələbləri, qablaşdırma, etiketləşdirmə, ticarət markalarının tənzimlənməsi, reklam və media tənzimlənməsi aiddir.
4. İnvestisiya məhdudiyyətləri. Bura mübadilə və digər maliyyə nəzarəti daxildir.
5. Gömrük məhdudiyyətləri. Bura depozit qoyulması tələbləri, gömrük qiymətləndirilməsi prosedurları, gömrük təsnifləşdirmə prosedurları, həmçinin gömrük təmizlənməsi prosedurları daxildir.
6. Birbaşa hökumət müdaxiləsi. Bura subsidiyalar və maddi yardımlar, hökumətin sənaye siyasəti və regional inkişaf tədbirləri, hökumət tərəfindən maliyyələşən tədqiqatlar və digər texnoloji siyasət, milli vergi və sosial sığorta, rəqabət siyasətləri, immiqrasiya siyasəti, hökumət satınalmaları siyasəti, dövlət ticarəti, hökumət monopoliyası və imtiyazlı françaysiz daxildir.

Qeyd etdiyimiz kimi, hər bir ölkə öz milli marağından çıxış edərək xarici ticarət fəaliyyətinə müxtəlif dərəcədə müdaxilə edir. Beləliklə, xarici ticarət fəaliyyətində ölkələr bir-birindən dövlətin xarici ticarət fəaliyyətinə müdaxilə dərəcəsinə görə fərqlənirlər. Bu fərq ölçülə biləndir və bu fərqin əsasında hansı ölkənin xarici ticarət fəaliyyətində daha "azad" olması haqqında mülahizə yürütmək mümkündür.

Xarici ticarət azadlığının müqayisəli şəkildə qiymətləndirilməsi Heritage Fondu tərəfindən xüsusi metodologiya ilə hesablanaraq hər il hesabat şəklində dərc edilir. Bu metodologiyaya görə, "Ticarət azadlığı" (TA) tariflərin və qeyri-tarif məhdudiyyətlərin birgə ölçülməsi ilə hesablanır. Hər bir ölkədə TA-nın qiymətləndirilməsi üçün iki göstəricinin hesablanması vacibdir:

- Xarici ticarətlə bağlı tarif dərəcələri (T)

- Qeyri-tarif məhdudiyyətləri (QTM)

Bu metodologiyaya görə, orta tarif ölçüsü hər bir mal üçün tətbiq edilən tarif ölçüsünə əsaslanır. Orta tarif ölçüsü təmiz kəmiyyət ölçüsü olaraq, aşağıdakı kimi hesablanır:

$$TA_i =(((T_{max} - T_i)/(T_{max} - T_{min}))*100)\text{- } QTM_i \qquad (1)$$

Burada $TA_i$ – i-ci ölkədə ticarət azadlığı dərəcəsi, $T_{max}$ ölkələr arasında tətbiq edilən maksimum tarif (%), $T_{min}$- ölkələr arasında tətbiq edilən minimum tarif (%), $T_i$-i-ci ölkədə tərbiq edilən orta tarif dərəcəsi (%), $QTM_i$ i-ci ölkədə tətbiq edilən qeyri-tarif məhdudiyyətləridir. Heritage Fondu minimum tarif dərəcəsini $T_{min}$=0 və maksimum tarif dərəcəsini $T_{max}$=50 kimi qəbul edir. QTM üçün isə *"0", "5", "10", "15"* və *"20"* ballıq qiymətləndirmə tətbiq edilir. QTM *"0"* balla o zaman qiymətləndirilir ki, xarici ticarətdə heç bir qeyri-tarif məhdudiyyətləri yoxdur. QTM-nin "5" ballıq qiyməti o deməkdir ki, yalnız bəzi az miqdarda mallara görə qeyri-tarif məhdudiyyətləri var və belə məhdudiyyətlər xarici ticarət fəaliyyətinə çox az təsir göstərir. QTM-nin *"10"* balla qiymətləndirilməsi o deməkdir ki, xarici ticarət fəaliyyətində müəyyən mal və xidmətlərə qeyri-tarif məhdudiyyətlər tətbiq edilir və belə məhdudiyyətlər xarici ticarət fəaliyyətinə müəyyən qədər mane olur. QTM-nin *"15"* ballıq qiyməti o deməkdir ki, xarici ticarət fəaliyyətində əksər mal və xidmətlərə qeyri-tarif məhdudiyyətləri tətbiq edilir və belə məhdudiyyətlər xarici ticarət fəaliyyətinə şübhəsiz mane olur. QTM-nin *"20"* ballıq qiyməti o deməkdir ki, xarici ticarət fəaliyyətində mütləq əksər mal və xidmətlərə qeyri-tarif məhdudiyyətlər tətbiq edilir və belə məhdudiyyətlər xarici ticarət fəaliyyətinə ciddi şəkildə mane olur.




**Qrafik 1 Xarici ticarətdə tətbiq edilən çəkili orta tarif dərəcələrinin ölkə qrupları üzrə dinamikası (Dünya Bankının [14] məlumatları əsasında)**

Adətən ölkələr xarici iqtisadi fəaliyyətdə qeyri-tarif məhdudiyyətlər haqqında geniş məlumatlar vermirlər. Məsələn, Dünya Bankının tarif və qeyri-tarif məhdudiyyətləri haqqında tədqiqat materiallarında bu məlumatları bildirən ölkələrlə yanaşı çoxlu sayda bildirməyən ölkələr də var. Xüsusilə, qeyri-tarif məhdudiyyətlər haqqında məlumatlar daha çox gizlədilir. 1-ci qrafikdə gəlirlərinə görə fərqli ölkələrdə tətbiq edilən tarif dərəcələrinin dinamikası verilib. Qrafikdən görünür ki, inkişaf etməkdə olan ölkələrdə qeyri-tarif məhdudiyyətləri tarif dərəcələrindən dəfələrlə çox olur. Aşağı və orta gəlirli ölkələrdə tarif dərəcələri (orta hesabla 10%) yüksək gəlirli ölkələrə, o cümlədən OECD ölkələrinə nisbətən ən azı 3-4 dəfə çox olur [14]. Lakin inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında qeyri-tarif dərəcələri üzrə fərqlər də getdikcə azalmaqdadır. Məsələn, Fraser İnstitutunun məlumatlarına əsasən, 2018-ci ildə ABŞ-da sadə orta tarif 8.39%, qeyri-tarif dərəcəsi isə 6.52%, Çində isə, uyğun

olaraq, 8.12% və 5.81% olub. Maraqlıdır ki, inkişaf etməkdə olan ölkələrdə tarif dərəcələri azalmağa meyllidir.

Məsələn, 1990-cı ildə aşağı və orta gəlirli ölkələrdə sadə orta tarif dərəcəsi 33.3% idisə, 2010 ilə qədər mütəmadi olaraq azalaraq 9.36%, 2017-ci ildə isə 6.84% olub. Əlbəttə, belə tendensiya inkişaf etmiş ölkələrə aid deyil. Belə ki, 1990-cı ildə OECD-yə daxil olmayan və daxil olan ölkələrdə orta tarif dərəcəsi uyğun olaraq 6,2% və 8,5% olub. Lakin 2010-cu ilə qədər OECD-yə daxil olmayan yüksək gəlirli ölkələrdə tarif dərəcəsi artıb-azalaraq 2010-cu ildə hətta 7,8% yüksəlib. OECD-yə daxil olan ölkələrdə isə tarif dərəcələri mütəmadi olaraq azalaraq 2010-cu ildə 2,8% enib. Maraqlı məqam ondan ibarətdir ki, qloballaşma prosesinin əsas aparıcıları olan və "azad ticarəti" təbliğ edən inkişaf etmiş ölkələr tarif dərəcələrini tamamilə ləğv etmirlər. Lakin bütün hallarda, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə orta tarif dərəcələri son 20 ildə azalaraq, bir-birinə xeyli yaxınlaşıb. Bununla belə, bu ölkələrin xarici ticarət rejimləri arasında əhəmiyyətli fərq qalmaqdadır.

İnkişaf etməkdə olan və OECD-yə daxil olmayan ölkələr üzrə tarif dərəcələrinin daim azalıb-artması isə bu ölkələrdə xarici ticarətin liberallaşması və daxili bazarın qorunması arasındakı optimal tarazlığın müəyyən edilməsi ilə bağlı axtarışların aparıldığını göstərir [9].

**Cədvəl 1**

**Xarici ticarətdə tətbiq edilən çəkili orta tarif dərəcələrinin idxal həcminə və onun loqarifminə təsiri (1990-2017)**

| | Orta dünya | Orta dünya ($b_0 \sim \beta_0 * (1-\rho)$) |
|---|---|---|
| $R^2$ | 0.766090 | 0.279530 |
| | 0.858361 | 0.690651 |
| Müşahidələrin sayı | 28 | 27 |
| $b_0$ | 2.93E+13 | 6.63E+12 |
| | 31.51403 | 17.46002 |
| Standart xəta | 1.92E+12 | 8.40E+11 |
| | 0.127628 | 0.094751 |
| t-statistika | 15.25916 | 7.891582 |
| | 246.9205 | 184.2721 |
| p-qiymət | 0.0000 | 0.0000 |
| | 0.0000 | 0.0000 |
| $b_1$ | -3.64E+12 | -1.84E+12 |
| | -0.328675 | -0.270806 |
| Standart xəta | 3.94E+11 | 5.89E+11 |
| | 0.026184 | 0.036248 |
| t-statistika | -9.227879 | -3.114410 |
| | -12.55250 | -7.470933 |
| p-qiymət | 0.0000 | 0.0046 |
| | 0.0000 | 0.0000 |
| Darbin-Watson statistikası | 0.602248 | 1.325802 |
| | 0.882778 | 1.477929 |
| F-statistika | 85.15374 | 9.699552 |
| | 157.5653 | 55.81484 |
| Ehtimal (F-statistika) | 0.000000 | 0.004579 |
| | 0.000000 | 0.000000 |

Qeyd: müəllif tərəfindən hesablanıb

Hesablamalar göstərir ki, (cədvəl 1) aşağı, aşağı orta, orta, yuxarı orta və yüksək gəlirli ölkələr qrupunda ayrı-ayrılıqda idxal həcmi və onun loqarifmi ilə çəkili orta tarif dərəcələri arasında neqativ əlaqə müşahidə edilir. Lakin bu əlaqələrdə avtokorrelyasiyanın güclü olması səbəbindən onları ifadə edən cüt reqresiya

$$İMP_t = b_0 + b_1 * AWTR_t + \varepsilon_t \quad (2)$$

Və ya

$$Ln\dot{I}MP_t = b_0 + b_1 * AWTR_t + \varepsilon_t \quad (3)$$

modellərini adekvat hesab etməyəcəyik. Burada $\dot{I}MP_t$- t ilində cari ABŞ dolları ilə idxal həcmi, $AWTR_t$- t ilində çəkili orta tarif dərəcəsidir. Avtoreqresiyanın aradan qaldırılması üçün metodların tətbiqindən sonra məlum olur ki, yalnız orta dünya üçün çəkili orta tarif dərəcələrinin idxal həcmi və onun loqarifminə təsirləri ifadə edən modellər adekvatdır və bu əlaqələr neqativdir:

$$\dot{I}MP_t = \underset{(8.4*10^{11})}{6.63 * 10^{12}} + 0.70 * \dot{I}MP_{t-1} \underset{(5.89*10^{11})}{-1.84 * 10^{12}} * (AWTR_t - 0.70 * AWTR_{t-1}) \quad (4)$$

$$Ln\dot{I}MP_t = \underset{(0.09)}{17.46} + 0.59 * Ln\,\dot{I}MP_{t-1} \underset{(0.036)}{-0.27} * (AWTR_t - 0.59 * AWTR_{t-1}) \quad (5)$$

Müxtəlif gəlirli ölkələr üzrə orta çəkili tarif dərəcələri ilə idxal həcmi və onun loqarifmi arasında birqiymətli əlaqənin olmaması müxtəlif tədqiqatlarla da sübut olunur (məsələn, [15]). Müqayisəli analiz deməyə əsas verir ki, tarif dərəcələri ilə yanaşı qeyri-tarif dərəcələrinin tətbiqi xarici ticarətin azadlıq səviyyəsində mühüm çəkiyə malikdir və bu çəki artmaqda davam edir.

Xarici ticarətin qeyri-tarif metodlarla məhdudlaşdırılması da xarici ticarət fəaliyyətində liberallaşma prosesi ilə dövlət tənzimləməsi arasındakı ziddiyyətdə mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, qeyri-tarif metodları daha çox inzibati məhdudiyyətləri əhatə etdiyindən onun kəmiyyətcə qiymətləndirilməsi nisbətən çətindir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Selvanathan, S., Selvanathan, E.A. and Viswanathan, B. Causality between Foreign Direct Investment and Tourism: Empirical Evidence from India// Tourism Analysis, - 2012. 17(1) - p. 91-98.
2. Vebnon, R. İnternational investment and international trade in the product cycle // The Quarterly Journal of Economics. - 1966. Volume 80, issue 2, - p.190-207. URL: http://bev.berkeley.edu/ ipe/ readings/ International%20Investment%20and%20International%20Trade% 20in % 20the%20Product%20Cycle.pdf
3. Viscusi, W.Kip Economics of Regulation and Antitrust, Fifth Edition /- W.K Viscusi, J.M. Vernon, E. Josep. [et al]- Cambridge, MA: MIT Press, - 2018. - 955p.
4. Ramey, V. The macroeconomic consequences of infrastructure investment // - Cambridge: National Bureau of Economic Research Working Paper Series, - 2020. w27625. – p. 65.
5. Krugman, P.R. Strategic trade policy and the new international economics / P.R. Krugman. – Cambridge: The MIT Press, - 1999. - 326p.
6. Jones, Ch. I., Christopher T. Nonrivalry and the Economics of Data // American Economic Review. - 2020. September, Vol. 110, Issue 9. – p. 2819-2858.
7. Kortum, Samuel. Trade wedges, inventories, and international business cycles // Journal of Monetary Economics. – 2013. 1 (60), - p. 21-24.
8. Tinbergen, Jan. An Analysis of World Trade Flows / - New York, NY: Twentieth Century Fund, In Shaping the World Economy, -1962. - p.27-30.

9. Gülalıyev, M.G. Xarici ticarətə dövlət müdaxiləsi dərəcəsi və onun makroiqtisadi təsirləri // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, - 2016. №1, - s. 19-28.

10. Искендеров, Р., Гюльалиев, М., Насирова, О. Оценка основных факторов продовольственной безопасности // - Московска: Russian Journal of Agricultural and Socio-Economic Sciences, - 2016. 10(58), - с.128-138. URL: https://rjoas.com/issue-2016-10/article_15.pdf.

11. Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu // 13 iyun 2013 - № 687-IVQ. - Bakı, - Qanun, - 2013, - URL: http://www.president.az/articles/8618.

12. Məmmədov, N.M. Azərbaycan Milli iqtisadiyyatının formalaşması və inkişaf problemləri / N.M. Məmmədov. - Bakı: 2004. - 504 s.

13. The Human Capital Report: [Elektron resurs] / World Economic Forum. URL: http://www3.weforum.org/docs/WEF_HumanCapitalReport_2013.pdf

14. World Investment Report 2011., Non equity Modes of International Production and Development // UNCTAD, - 2011. - p.12.

15. Hozouri, Naeimeh. The Effect of Trade Liberalization On Economic Growth: Selected MENA Countries // International Journal of Economics and Finance, - 2017, Vol. 9, No. 1, - p.88-95.

**i.e.d., prof. Fuad Əlinağı oğlu Qənbərov**
**AMEA İqtisadiyyat İnstitutu Şöbə müdiri**

# AZƏRBAYCANDA QEYRİ NEFT SEKTORU İXRACININ STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Hər bir ölkənin iqtisadi inkişafının əsas göstəricilərindən biri ixrac etdiyi məhsulların həcmidir. İxracyönümlü iqtisadi artım hipotezinə görə ixracın artımı məşğulluğu artıra, əlavə gəlir mənbələri yarada, məhsuldarlığı və valyuta ehtiyatlarını artıra bilər ki, bu da daxili və xarici tarazlığın formalaşmasına şərait yaradır. Bununla belə ixracın artması bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətini və inkişafın effektivliyini göstərir.

Azərbaycan Respublikasında müstəqillliyin ilk illərində ixrac edilmiş məhsulların həcmi aşağı olsa da, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin birbaşa təşəbbüsü ilə xarici investorlarla bağlanan "Əsrin Müqaviləsi" ölkənin qitisadi inkişafında, xüsusilə ixrac edilmiş məhsulların həcminin artırılmasında xüsusi rol oynadı. Müqaviləyə uyğun olaraq neft hasilatının və ixracının artması 2000-ci ildən başlayaraq Azərbaycanın bütün iqtisadi göstəricilərində müsbətə doğru dəyişikliklərə səbəb oldu. Əgər 1995-ci ildə Azərbaycanda ixracın həcmi 637.2 mln USD, ÜDM-in həcmi isə 2415.3 mln USD təşkil ediridisə, 2021-ci ildə bu göstəricilər müvafiq olaraq 34.8 dəfə və 22.6 dəfə artmışdır.

**Azərbaycanda ixracın əsas göstəriciləri**

| İllər | İxrac (mln dollar) | ÜDM (mln dollar) | Q/N ixracı (mln dollar) | Q/N ÜDM (mln dollar) | Adambaşına düşən ixrac (dollar) | Adambaşına düşən ÜDM (dollar) | Adambaşına düşən Q/N ixracı (dollar) | Adambaşına düşən Q/N ÜDM (dollar) |
|---|---|---|---|---|---|---|---|---|
| 1995 | 637,2 | 2415,3 | 264,1 | - | 83,4 | 316 | 34,5 | - |
| 2000 | 1745,22 | 5272,8 | 259,6 | 3415,1 | 217,7 | 657,8 | 32,3 | 425,1 |
| 2005 | 4347,15 | 13238,7 | 1008,7 | 6401,3 | 514,6 | 514,6 | 119,4 | 757,8 |
| 2010 | 21360,2 | 52909,3 | 1240,3 | 23896,1 | 2374 | 5880,4 | 137,8 | 2655,8 |
| 2011 | 26570,9 | 65951,6 | 1458,4 | 29373,3 | 2916,3 | 7238,6 | 160,1 | 3223,9 |
| 2012 | 23908 | 69683,9 | 1626,8 | 34196 | 2588,8 | 7545,5 | 176,2 | 3702,8 |
| 2013 | 23975,4 | 74164,4 | 1719,6 | 38911,3 | 2562,4 | 7926,5 | 183,8 | 4158,7 |
| 2014 | 21828,6 | 75234,7 | 1635,1 | 42320,1 | 2303,3 | 7938,6 | 172,5 | 4465,5 |
| 2015 | 12729,1 | 52996,8 | 1525,7 | 33270,5 | 1326,9 | 5524,5 | 159 | 3468,2 |
| 2016 | 13457,6 | 37862,8 | 1156,4 | 22527,2 | 1386,6 | 3901,1 | 119,1 | 2321 |
| 2017 | 15320 | 40867,9 | 1408 | 23431,5 | 1561,7 | 4165,9 | 143,5 | 2388,5 |
| 2018 | 19489,1 | 47112,9 | 1564,8 | 24507 | 1969 | 4759,8 | 158,1 | 2475,9 |
| 2019 | 19635,2 | 48174,2 | 1782,5 | 26165,7 | 1967,2 | 4826,3 | 178,6 | 2621,4 |
| 2020 | 13732,6 | 42693 | 1704,2 | 26654,2 | 1364,1 | 4240,8 | 169,3 | 2647,7 |
| 2021 | 22206,7 | 54622,2 | 2511,6 | 30048,8 | 2194,5 | 5397,9 | 248,2 | 2969,5 |

*Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb.

Bu illər ərzində neft ixracının artması qeyri neft sektorunun inkişafında da əsas rol oynamışdır. 2021-ci ildə qeyri neft sektoru üzrə adambaşına düşən ÜDM 2969 dollar, qeyri neft ixracı üzrə isə 248.2 dollar təşkil etmişdir. Qeyd edək ki, 2021-ci ildə adambaşına düşən qeyri neft ÜDM-i 2000-ci illə müqayisədə 7 dəfə, adambaşına düşən qeyri neft ixracı isə 7.7 dəfə artmışdır.

Lakin hələ də qeyri neft ixracı üzrə qarşıya qoyulan hədəflərə çatılmamışdır. Bu baxımdan Azərbaycanda qeyri neft sektorunun ixracının genişləndirilməsi zəruruidir. Hesab

edirik ki, ölkədə qeyri-neft sektorunun inkişafı sahəsində dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi mahiyyət etibarilə dörd istiqamətdə olmalıdır:

- qeyri-neft sektoruna investisiya yerləşdirilməsinin maliyyələşdirilməsi istiqamətində daha məqbul şəraitin yaradılması;
- istehsalın səmərəliliyinin yüksəldilməsi;
- risklərin azaldılması və diversifikasiyası;
- Qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin inkişafına müdaxilələrin azaldılması və dövlət dəstəyinin artırılması.

Qeyd etdiyimiz kimi, qeyri-neft sektoruna investisiya yerləşdirilməsinin maliyyələşdirilməsi istiqamətində daha məqbul şəraitin yaradılması üçün əsas şərtlərdən biri bu və ya digər formada bu sahəyə yönələn faiz dərəcələrinin aşağı salınması ilə bağlıdır.

**Qeyri neft sektorunun ixracının artırılması üçün aşağıdakıların edilməsi əhəmiyyətli ola bilər:**

**1.Xarici investisiyaların cəlb edilməsi ilə bağlı.**

Qeyri neft sektorunun inkişafı üçün xarici investisiyaların cəlb edilməsi əhəmiyyətlidir. Bunun üçün ixrac üçün qeyri neft sektoruna qoyulan xarici investisiyalara İnvestisyaların Sığortalanması Fondu yaradıla bilər. Bu təcrübədən dünya ölkələrində istifadə edilir və Azərbaycanda da tətbiq edilməsi qeyri neft sektoruna xarici investisiyaların cəlb edilməsini artıra bilər.

**2. İxrac yönümlü istehsalın stimullaşdırılması ilə bağlı**

a) Xarici ticarətin sahə və əmtəə strukturunun diversifikasiyası və Azərbaycan müəssisələrinin müasir beynəlxalq ticarət sistemində iştirak mexanizminin təkmilləşdirilməsi. Xarici ticarətin strukturunun təkmilləşməsi kiçik və orta sahibkarlığın xarici iqtisadi fəaliyyətə cəlb edilmə səviyyəsindən və onların beynəlxalq əmək bölgüsündə iştirakının xarakterindən asılı olacaq. Gələcəkdə Qərb ölkələrində geniş yayılmış françayzinq əməliyyatlarından istifadə etmək mümkündür. Bu əməliyyatın əsas mahiyyəti - böyük firmaların kiçik firmalara müəyyən ödəniş qarşılığında marka və patentlərdən istifadə etmək hüququ verir, zəruri hallarda isə müxtəlif məsləhət xidmətləri göstərir və onlara avadanlıqlar icarə verir.

b) Xarici bazarların araşdırılması və Azərbaycanın müqayisəli üstünlüyə malik olduğu məhsulların müəyyən edilməsi ilə qeyri neft sektorunun yeni ixracat xəritəsinin hazırlanması;

c) İxracla məşğul olan kiçik və orta sahibkarları (KOS) bir arada toplayan Sektorlar üzrə Xarici Ticarət Şirkətlərinin yaradılması. Xarici Ticarət Şirkətləri müxtəlif fəaliyyətlə məşğul olan KOS-ları ixracatda vahid bir təşkilat altında birləşdirən və onları dünya bazarına istiqamətləndirən bir qurumdur. Bu təşkilatların fəaliyyəti aşağıdakı istiqamətlər üzrə olur:

- inzibati və sənədləşmə işlərində KOS-lara dəstək verilməsi;
- tədris və ixtisasartırma ilə bağlı dəstək; Burada ayrı-ayrı müəssisələrin ehtiyac duyduğu sahələr üzrə ixtisaslı kadrların hazırlanmasına kömək göstərilməsi nəzərdə tutulur.
- maliyyə və kredit dəstəyi; KOS-lara ucuz daxili və xarici maliyyə mənbələrinin tapılmasına kömək göstərilməsi;
- miqdar üstünlükləri: Xarici Ticarət Şirkətləri daxilində birləşən KOS-lar xaricdən gələn böyük həcmli sifarişləri birlikdə yerinə yetirmək imkanına malik olurlar;
- reklam və tanıtım dəstəkləri;
- ortaq Ar-Ge fəaliyyətlərinin həyata keçirilməsi.

d) Yeni fəaliyyətə başlamaq və xarici bazarlara çıxmaq niyyətində olan sahibkarlara xarici bazarlarda hansı məhsula daha çox tələbatın olduğu, yüksək rentabelli məhsullar, rəqiblər, xarici bazarlara daxil olmağın yolları, tələb olunan sənəd, rüsum, vaxt və sertifikatlar, daşınma vasitələri və s. haqqında məlumat verəcək İxrac Məsləhət-Məlumat Büroları Publik Hüquqi Şəxsin yaradılmasını;

e) İllik istehsal həcminin 75%-ni ixrac etmiş müəssisələrə vergi, rüsum, kommunal ödənişlər və işçilərə görə ödənilən sosial müdafiə xərclərinin 50% azaldılmasını;

Daxili bazarda fəaliyyət göstərən müəssisələrin ixrac fəaliyyətinə cəlb edilməsinin stimullaşdırılması; Bu barədə dəqiq statistik məlumat olmadığından, təqribi hesablamalara görə, ixrac müəssisələrinin il ərzində ödədiyi vergi və ödənişlər 100-110 mln manat təşkil edir. Bunu 50%-i təqibən 50 mln manat edir.

g) Xam məhsul ixrac edən subyektlərə həmin məhsulları emal edərək son məhsul kimi ixrac etdikdə yaratdıqları əlavə dəyərin 5%-i miqdarında subsidiya verilməsini;

Hazır emal məhsulların ixracının stimullaşdırılması;

Bu barədə dəqiq statistika olmadığına görə, təqribi hesablamalara görə ixracla məşğul olan emal müəssilərinin yaratdığı əlavə dəyər illik 67-70 mln manat təşkil edir. Bunun 5%-i illik təqibən 3-3.5 mln manat təşkil edə bilər.

k) Cənub, Şimal və Qərb istiqamətində, o cümlədən Naxçıvanda Sərhədyanı ticarətin inkişaf etdirilməsi. Qlobal miqyasda dünya qiymətləri ilə aparılan ticarətlə müqayisədə sərhədyanı ticarətin iqtisadi inkişafda rolu daha xarakterikdir. Əvvəla, o, qlobal iqtisadi vəziyyətdən deyil, əsasən qonşu ölkələrin müvafiq regiondakı xüsusiyyətindən asılıdır. Burada qiymətlər dünya qiymətləri ilə deyil, qarşılıqlı razılaşma əsasında müəyyən edilir. İkincisi, sərhədyanı ticarət ölkə iqtisadiyyatında regional və sahələr üzrə struktur dəyişikliklərinə səbəb ola bilər. Üçüncüsü, nəqliyyat xərclərinin aşağı olması, hətta çox da böyük olmayan ticarət əməliyyatlarını sərfəli edir və bu da sərhədyanı rayonlarda kiçik biznesin inkişafını stimullaşdırır. Dördüncüsü, sərhədyanı ticarət dövriyyəsi ölkə miqyası ilə müqayisədə daha diversifikasiyalaşmışdır.

**3. İxracın dəstəklənməsi və təşviqi ilə bağlı**

Azərbaycanda ixracın stimullaşdırılması üçün önəmli məsələlərdən biri - İxracat Bankının yaradılmasıdır. Bu bankın əsas funksiyaları aşağıdakılardan ibarətdir:

a) İxracla məşğul olan firmaların kreditləşməsi. Azərbaycanda ixracla məşğul olan firmaların əsas problemlərindən biri ucuz maliyyə vəsaitlərinin olmamasıdır.

b) Valyuta məzənnələri opsionunun həyata keçirilməsi. Bu əməliyyat son illər qeyri-sabit valyuta bazarında baş vermiş dalğalanmalardan daha az zərər etməsi üçün firmalara verilən dəstəkdir. Müəyyən komisyon qarşılığında valyuta məzənnəsi qısa müddətə bank ilə razılaşdırılır və müəyyən dövrdən sonra valyuta məzənnəsi ixracatçı müəssisələrin zərəri hesabına dəyişdikdə, xarici valyuta əvvəlcədən razılaşdırılmış məzənnə ilə ixracatçı müəssisədən alınır.

c) Sığorta fəaliyyətinin aparılması. Bu proses ixracatçı firmaların həyata keçirdiyi ixrac əməliyyatlarının ixrac etdikləri ölkədəki bütüm ticari və siyasi risklərdən sığortalanmasını əhatə edir.

**4. İxracatçıların imkanlarının artırılması və maarifləndirilməsi ilə bağlı**

- Hədəf bazarlar haqqında ətraflı və əsaslandırılmış, eləcə də praktik əhəmiyyətə malik tədqiqatların aparılmasına dair müsabiqələrin elan edilməsini;
- Dövlət-Elm-Sahibkar üçbucağının yaradılmasını və ixracın inkişafı ilə bağlı elmi əsaslandırılmış təkliflərin hazırlanmasını - Buraya gömrük prosedurlarının sadələşdirilməsi, idxala və ixraca tətbiq edilən rüsum dərəcələrinin optimallaşdırılması, xarici bazarların araşdırılması, rəqabət qabiliyyətli məhsulların müəyyənləşdirilməsi və s. kimi istiqamətlər aid ola bilər.
- İxrac şirkətləri üçün yüksək ixtisaslı kadr hazırlığının təşkilini - Bununla bağlı konkret bilik və bacarlıqlara sahib kadr hazırlığı üçün Universitetlərdə və texnikomlarda "ixrac və logistika" ixtisası yaradıla bilər, tədris prosesinə nüfuzlu elm adamları ilə yanaşı ölkədə fəaliyyət göstərən iri şirkətlərin ixrac departamentlərinin praktik bilik və bacarıqlara sahib əməkdaşları cəlb edilə bilər.

**5. İxracatçıların təşkilatlanma səviyyəsinin artırılması ilə bağlı**

a) Xarici ticarət üzrə statisitikanın təkmilləşdirilməsi; Regionların ixrac potensialının müəyyən edilməsi üçün Azərbaycanın hər bir rayonu üzrə ixrac göstəricilərinin hesablanması; İxrac edən müəssisələrin istehsal etdikləri məhsulların həcmi, əsas fondlar, işçi sayı, büdcəyə ödənilən vergi, sosial müdafiə fonduna, kommunal ödənişlərinin dəqiq hesablanması;

Azərbaycanda ixrac əməliyyatlarının komleks təhlil edilməsi üçün göstəricilərin əldə edilməsi;

b) Azərbaycanda ixracın stimullaşdırılması üçün önəmli məsələlərdən biri - İxracat Bankının yaradılmasıdır. Bu bankın əsas funksiyaları aşağıdakılardan ibarətdir:

1) İxracla məşğul olan firmaların kreditləşməsi. Azərbaycanda ixracla məşğul olan firmaların əsas problemlərindən biri ucuz maliyyə vəsaitlərinin olmamasıdır.

2) Valyuta məzənnələri opsionunun həyata keçirilməsi. Bu əməliyyat son illər qeyri-sabit valyuta bazarında baş vermiş dalğalanmalardan daha az zərər etməsi üçün firmalara verilən dəstəkdir. Müəyyən komisyon qarşılığında valyuta məzənnəsi qısa müddətə bank ilə razılaşdırılır və müəyyən dövrdən sonra valyuta məzənnəsi ixracatçı müəssisələrin zərəri hesabına dəyişdikdə, xarici valyuta əvvəlcədən razılaşdırılmış məzənnə ilə ixracatçı müəssisədən alınır.

3) Sığorta fəaliyyətinin aparılması. Bu proses ixracatçı firmaların həyata keçirdiyi ixrac əməliyyatlarının ixrac etdikləri ölkədəki bütüm ticari və siyasi risklərdən sığortalanmasını əhatə edir.

c) İxrac Kooperativlərinin yaradılması məqsədilə ixracatçıların maarifləndirilməsini, onlara zəruri texniki-məsələhət dəstəyinin göstərilməsini (Türkiyə təcrübəsi);

d) Azpromo-nun təşkilati-institusional fəaliyyətinin təkmilləşdirilməsini (regionlarda filiallarının yaradılması və s);

e) E-ticarət platformalarının inkişafına dəstəyin göstərilməsini (b2b, b2c və s);

**6. İxracın infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı**

a) Xarici ölkələrdə ixrac logistika mərkəzlərinin yaradılmasını (artıq Qazaxıstanın Aktau şəhərində mövcuddur);

b) Xarici ölkələrin konkret məhsullar üzrə tələb etdiyi sənədlərin siyahısı, qablaşdırma, etiketləmə və s. kimi texniki tələblər, ixrac zamanı itirilən vaxt və çəkilən xərclər, habelə idxalın həcmi və s. kimi ixracatçılara faydalı ola biləcək məlumatların toplandığı və onlayn rejimdə fəaliyyət göstərən İxrac Məlumat Portalının yaradılmasını;

**Məsələn**, EU Export Helpdesk
http://exporthelp.europa.eu/thdapp/display.htm?page=form%2fform_MyExport.html&docType=main&languageId=en

**7. Gömrük prosedurlarının asanlaşdırılması ilə bağlı**

a) İxrac zamanı tələb olunan sənədlərin sayının azaldılmasını;
b) İxrac proseslərinə sərf edilən müddətin azaldılmasını;
c) İxrac əməliyyatları zamanı çəkilən xərclərin azaldılması;

**7. İxracatçıların həvəsləndirilməsi və mükafatlandırılması ilə bağlı**

a) Bir sıra nominasiyaların təsis edilməsini – Məsələn,
-İlin 20 milyon ABŞ dolları və daha çox qeyri-neft məhsulu ixrac edəni;
- İlin ən çox aqrar məhsul ixrac edən müəssisəsi;
-İlin ən çox emal məhsulu ixrac edən müəssisəsi;

b) İxrac yönümlü məhsul istehsal edən və ixrac edən müəssisələrin reklamına dövlət tərəfindən dəstəyin göstərilməsini;

c) Bu müəssisələrin beynəlxalq sərgi və yarmarkalarda iştirakına dəstəyin göstərilməsini.

**8.** İxrac fəaliyyəti ilə məşğul olan firmalar və onların istehsal etdikləri mallar barədə informasiyaların müxtəlif dillərdə kataloqunun hazırlanması və internet saytında yerləşdirilməsi. Yerli sahibkarların beynəlxalq sərgilərdə iştirakını təmin etmək və Azərbaycanda isə xarici firmaların iştirakı ilə sərgilər (əsasən sənaye avadanlıqları, xammal, material və yarımfabrikatlar üzrə) təşkil etmək xarici ticarəti genişləndirmək üçün ən zəruri məsələlərdəndir. Azərbaycanda bu sahədə müəyyən işlər getsə də, qənaətbəxş deyil. İl ərzində müxtəlif sahələri əks etdirən sərgilərin təşkil edilməsinə baxmayaraq, qeyri-neft sektorunu əhatə edən sərgilərdə aparıcı xarici firmalar iştirak etmir. Adətən qonşu ölkələrin, xüsusilə Türkiyə, İran və Rusiyanın bir neçə firmasının iştirakı ilə kifayətlənməli oluruq. Fikrimizcə, dövlət qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından dünyanın aparıcı şirkətlərinin istehsal avadanlıqlarının sərgisinin keçirilməsini təmin etməlidir. Bunun üçün potensial daxili istehsal sahələrinin monitorinqi aparılaraq, ehtiyac duyulan avadanlıqlar müəyyən edilməli və bu avadanlıqların dünyadakı istehsalçıları seçilərək onların bu sərgidə iştirakına nail olunmalıdır. Həmin şirkətlərin bu sərgilərdə iştirakını stimullaşdırmaq üçün avadanlıqların gətirilmə xərclərini və nümayəndələrin digər xərclərini dövlət öz üzərinə götürə bilər.

Beynəlxalq və regional bazarlarda yeni satış nöqtələrinin tapılmasına, mövcud olanların daha da genişləndirilməsinə, bu bazarlarda qarşıya çıxan maneələrin araşdırılmasına və bunların ikitərəfli və ya çoxtərəfli anlaşmalar və razılaşmalar sayəsində həll edilməsini təmin edə biləcək sistematik bir fəaliyyət planının hazırlanmasına ehtiyac var. İxracat firmalarının dünya bazarında gedən proseslər, konyunktura və tələbatlarda dəyişikliklər barədə informasiya ilə təmin edilməsi vacibdir. Bununla yanaşı, elektron informasiya mübadiləsinin dünya ticarətində əsas rola malik olduğunu nəzərə alaraq, xaricdəki alıcılar və Azərbaycandakı satıcılar arasında davamlı məlumat mübadiləsini həyata keçirəcək bir sistem qurulmalıdır. Bunun üçün hazır məhsul ixrac edən firmalar, onların məhsulları haqqında geniş məlumatları əks etdirən bir neçə internet saytının yaradılması əsas məsələlərdən biridir. Ümumiyyətlə, ixracı stimullaşdırmaq məqsədilə istehsal edilmiş məhsulların keyfiyyətinin artırılması ilə yanaşı marketinq və bazarlama işinə daha çox fikir verilməlidir.

**Məmmədov Məhəbbət Aşır oğlu**
İqtisad elmləri doktoru, professor
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: m.m.asirl@mail.ru

**Məmmədova Fidan Əliağa qızı, i.ü.f.d. dos.əvəzi**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: fidanmammadova@hotmail.com

**Qəniyev Xanlar İlqar oğlu**
Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi
E-mail: khanlar.ganiyev@gmail.com

# QARABAĞ İQTİSADİ RAYONUNUN İNFRANSTRUKTURUNUN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAFI PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə i.e.d.,prof. M.A. Məmmədov, i.ü.f.d., dos. əvəzi F.Ə.Məmmədova və b.m. X.İ.Qəniyev tərəfindən post-konfilikt dövründə Qarabağ iqtisadi rayonunda müasir innovasiyalara əsaslanan "yaşıl artım" regionunun formalaşmasını təmin edən təşkilatı-iqtisadi mexanizmin yaradılması və strateji istiqamətləri, "Milli prioritetlər-2030"a müvafiq böyük qayıdışın təmini, bu məqsədlə azad olunmuş ərazilərdə iqtisadiyyatın sahələri üzrə yeni infrastrukturların yaradılması və investisiya qoyuluşunun digər mərhələsində sərmayənin cəlb edilməsinin dövlət-özəl əməkdaşlığın zəruriliyi prioritet istiqamətlər kimi nəzərdən keçirilmişdir.

Eyni zamanda "Böyük Qayıdış"ın təmini məqsədi ilə yeni yol-nəqliyyat, infrastrukturun, regionun "Yaşıl Enerji" zonasına çevrilməsi məqsədilə müasir enerji infrastrukturunun yaradılması vəziyyəti təhlil edilmişdir.

**Giriş**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatının bütün sahələrinin infrastrukturlarının bərpası və yenidən qurulması istiqamətlənmiş həyata keçirilən tədbirlər ölkədə post-konflikt dövründə Qarabağda iqtisadiyyatın sahələrində müasir innovasiyalara əsaslanan və "yaşıl artım" regionunun formalaşdırılması təmin edən təşkilati-idarəetmə mexanizmin yaradılmasının strateji istiqamətilərindəki əsasını yaradılmasını təmin edir.

**Qarabağ iqtisadi rayonunda azad olmuş ərazilərin bərbasının təşkilati-iqtisadi mexanizmləri**

Bu məqsədlə**, 29 oktyabr 2020-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili"**-ni təmin edən ölkə prezidenti İlham Əliyevin haqqında imzaladığı müvafiq fərman ilə bu regionda xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendatlığın yaradılması, post-konflikt quruculuğu strategiyasının həyata keçirilməsinin ilkin mərhələsinin formalaşması təmin edilmiş və bunları həyata keçirmək məqsədi müvafiq qurumlara işğaldan azad edilmiş ərazilərdə dövlət qurumlarının normal fəaliyyət göstərməsi üçün onların elektrik enerjisi , su və təbii qaz ilə təminatı tədbirlərinin həyata keçirilməsi prioritet sahələr kimi müəyyənləşdirilmiş və mərhələlərlə həyata keçirilməsi davam etdirilir.[1,2] Çünki, işğaldan azad olunmuş Qarabağ və onun ətraf ərazilərinin demək olar ki, bütün sahələrinin infrastrukturları – su, qaz, elektrik rabitə, yol infrastrukturları tamamilə dağıdılmışdır. Ona görə də ilkin mərhələdə sosial, məişət, təhsil, yaşayış və sonrakı dövrdə isə istehsal və qeyri-istehsal infrastrukturlarının yaradılması istiqamətində bərpa işlərinin aparılması ilkin prosesin mühüm mərhələsi kimi nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müvafiq inzibati ərazi bölgüsünün hər bir rayonu üzrə xüsusi idarəetməni həyata keçirən komendatliqlarının yaradılması yuxarıda qeyd olunan mühüm əhəmiyyətli xüsusi obyektlərin mühafizəsinin təmin edilməsini həyata keçirilməklə post-konflikt dövründə regionun iqtisadi potensialının qorunmasını və nəticədə bu ərazilərin bərpası, iqtisadiyyatının yenidən qurulmasını təmin edən zəruri təşkilati-idarəetmə mexanizmi kimi çox vacibdir.

Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonların və ətraf ərazilərin post-konflikt quruculuğu strategiyasını həyata keçirilmək məqsədi ilə **prezident İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı ilə yaradılmış "Qarabağ Dirçəliş Fond"**-u publik hüquqi şəxs, regionun sosial-iqtisadi inkişafının təmin edilməsində növbəti təşkilati-iqtisadi mexanizm olaraq regionun bərpa və inkişafına əlverişli imkanlar yaradacaqdır. [3]

**"Qarabağ Dirçəliş Fondu"** post-konflikt dövründə işğaldan azad edilmiş bölgənin ərazilərində dayanıqlı məskunlaşma şəraiti yaratmaq üçün müasir tələblərə müvafiq həyat şəraitinin təmin edilməsini, iqtisadiyyatının bütün sahələrinin infrastrukturlarının bərpasını, yenidən qurulmasını, əhalinin təhlükəsiz yaşayışının təşkili istiqamətində həyata keçiriləcək tədbirlərə maliyyə dəstəyinin göstərilməsində və sərmayələrin cəlb edilməsində mühüm rola malik olacaqdır. Qarabağın inkişaf strategiyasındanəzərdə tutulan tədbirlərin həyata keçirilməsində dövlət özəl investisiyaları və dövlət-özəl əməkdaşlığının formalaşması mühüm əhəmiyyətə malikdir. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə yerli və xarici özəl sərmayələr, kreditlər, qrantlar, texniki yardımlar, yerli sahibkarların, beynəlxalq maliyyə qurumlarının və cəmiyyətlərin vəsaitləri cəlb edilməsi regionun inkişafına mühüm təkan verə bilər.

Dünyada post-konflikt dövründə ərazilərin bərpa prosesinin beynəlxalq təcrübəsinin təhlili göstərir ki, bu prosesdə ən vacib amillərdən biridə işğaldan azad olunmuş ərazilərdə sahələrin bərpa prosesinin prioritetlərinin düzgün müəyyən edilməsi və onun həyata keçirilməsini təmin edən mexanizmlərin işlənilməsidir. Bunun üçün ilk növbədə azad olunmuş ərazilər üzrə zərərlər müəyyənləşdirilir, sonrakı mərhələlərdə minimum yaşayış səviyyəsinin təmin edilməsi, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, elektrik, içməli su, irriqasiya və sanitar-qovşaqların və sistemlərin, yaşayış sahələrinin bərpası və yenilərinin yaradılması, hava limanlarının bərpası tədbirləri həyata keçirilir. Həyata keçirilən bu tədbirlər azad olunmuş ərazilərdə məskunlaşan əhalinin təhlükəsizliyini, yaşayış sahələri ilə əlaqələrini, zəruri təminatların aparılmasını, həyat səviyyəsinin yaxşılaşdırılmasını və bu ərazidə normal istehsal və qeyri istehsal fəaliyyətinin təşkil edilməsi mərhələlərlə yerinə yetirilirlməsidir.

Beləliklə, aparılan araşdırmaya əsasən fond ərazilərdə nəzərdə tutulan tədbirlərin prioritetliliyinə müvafiq onların maliyyələşdirilməsi, sərmayələrin cəlb olunması, bu məqsədlə ölkə daxilində və xaricində qeyd olunan istiqamətlər üzrə işlərin aparılması məqsədilə digər tədbirlər ilə yanaşı təşviqat işlərinin aparılmasını həyata keçirən səmərəli təşkilati-idarəetmə mexanizmidir.

Azərbaycanın müstəqillik illərində inkişaf modelinin əsas prioritetləri iqtisadiyyatın bütün sahələrində dayanaqlı inkişafı və dünya iqtisadi sistemə səmərəli inteqrasiyanı təmin etməklə ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi nəticəsində ərazi bütövlüyünün bərpası, strateji inkişaf mərhələsində rəqabətli iqtisadiyyatın formalaşması, **"Milli Prioritetlər- 2030"**-da əsas istiqamətlər kimi müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmini və "yaşıl artım" ölkəsinin formalaşdırılması, Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi regionların iqtisadiyyatının sahələrinin infrastrukturunun bərpa və inkişaf etdirməsi, bu ərazilərə investisiya qoyuluşlarının və digər mənbələrdən sərmayələrin cəlb edilməsi, dövlət-özəl iqtisadi əməkdaşlıq mexanizmini formalaşdırmağı və bu mexanizmdə tədbirlərin zamana və həyata keçirilmə ardıcıllıqla aparılma prioritetlərinin müəyyənləşdirilmiş post-konflikt dövründə iqtisadiyyatın sahələrinin prioritetliyini dəyərləndirmək imkanlarını və buna müvafiq mərhələli həll edilməsini təmin edir.[5] Dünyada işğaldan azad olunmuş ərazilərin bərpa prosesi təcrübəsinin araşdırılması göstərir ki, ilkin mərhələdə sahələr üzrə zərərlərin dəyərləndirilməsindən sonra bu ərazilərdə minimum yaşayış səviyyəsinin və bununla əlaqədar müvafiq infrastrukturların yaradılması vacib prioritet məsələdir.

Qeyd etmək lazımdır ki, azad edilmiş ərazilərin bərpa edilməsinin dünya təcrübəsinin təhlili göstərir ki,bu ərazilərdə müasir infrastrukturun yaradılması bu regionların inkişafının əsas strateji istiqamətlərindən biridir və bu strateji istiqamətləri nəzərə almadan bərpa prosesinin həyata keçirilməsi Qarabağda bu ərazilərin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyildir. Bu strategiyanın həyata keçirilməsi Qarabağın iqtisadiyyatının Azərbaycanın ümumi iqtisadiyyatının tərkibində inkişafına təkan verəcək, bu ərazilərdə istehsal müəssisələrini və qeyri istehsal müəssisələrinin yaradılmasına bu isə yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır. Qarabağ

regionunda iqtisadiyyatın bütün sahələrinin infrastrukturu tamamilə dağıdıldığı üçün yəni bu ərazilərin bərpası prosesində yeni texnoloji strukturunun və müasir standartlara müvafiq infrastrukturun yaradılması ərazilərin bərpası üzrə strateji planların əsas məqsədlərdən biridir.

Bu strateji istiqamətlərin həyata keçirilməsində əsas məqsəd bərpa prosesinin prioritetliyi nəzərə almaqla onun keyfiyyətlə və qənaətlə aparılmasıdır. Bu zaman dünya təcrübəsini nəzərə almaqla müasir standartların tələbinə cavab verən reqionun inkişaf modelinin yaradılması, bərpa olunan ərazilərinin "Yaşıl Enerji" zonasına çevrilməsi; beynəlxalq təcrübəni nəzərə almaqla regionun ərazilərinin texnoloji baxımından yüksək inkişaf etmiş əraziyə çevrilməsi; dünyanın inkişaf etmiş texnoloji şirkətlərinin işğaldan azad olunmuş ərazilərin bərpa prosesinə cəlb edilməsi, eyni zamanda qeyd olunanların həyata keçirilməsini təmin edən xarici ölkələrin təcrübəsini nəzərə almaqla Qarabağ regionun inkişafına yönəldilmiş Dövlət Proqramlarının İnkişaf konsepsiyasının və Strateji planın hazırlanması məqsədəmüvafiqdir.

Qarabağ regionunun işğaldan azad olunmuş ərzailərində müasir infrastrukturunun yaradılması və bu regionun iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatının tərkibində inkişafının təmin etmək məqsədilə 2020-ci ildə yaradılmış Qərargahı İdarələrarası Mərkəz və prioritet istiqamətlər üzrə İşçi qrupu post-konflikt dövründə bu ərazidə həyata keçiriləcək bütün fəaliyyət istiqamətlərini özündə əks etdirən Strateji Fəaliyyət planı hazırlanmışdır. Bu planda , Hərbi-siyasi məsələlər; Fövqəladə hallar və humanitar məsələlər; hüquqi və beynəlxalq hüquqi məsələlər; nəqliyyat və logistika üzrə tədbirlər; minalardan və partlamamış sursatlardan təmizləmə; beynəlxalq təşkilatlar və QHT-lərlə əlaqələr; tarix və mədəniyyət abidələri, mədəniyyət müəssisələri; şəhidlər və itkin düşmüş şəxslər; media ilə iş və informasiya təminatı; iqtisadi məsələlər; şəhid ailələri, müharibə əlilləri, veteranları və iştirakçılarının sosial müdafiəsi; akademik məsələlər; ekoloji məsələlər; şəhərsalma məsələləri ; nəqliyyat, rabitə və yüksək texnologiyalar; işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri; enerji təminatı məsələləri istiqamətində tədbirlərin formalaşdırılması və həyata keçirilməsini təmin edən işçi qrupları yaradılmış və onlar qeyd olunan prioritet sahələr üzrə icra müddətinə müvafiq tədbirlərin mərhələlərlə icra edilməsini təmin edir.

Post-konflikt dövründə azad olunmuş ərazilərdə müasir infrastrukturun yaradılması istiqamətində eyni zamanda 2020-ci ildə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair "Milli Prioritetlər" də beş prioritetdən **"Böyük qayıdış"** biri kimi müəyyən edilmişdir. Milli prioritet:2030-da nəzərdə tutulmuş işğaldan azad olunmuş ərazilərə böyük qayıdış tədbirinin uğurlu yerinə yetirmək üçün dayanıqlı məşğulluq və iqtisadi fəaliyyətə reinteqrasiya məqsədləri nəzərdə tutulmuş və bu prioritetin həyata keçirilməsi azad edilmiş ərazilərin ölkə üzrə iqtisadi fəaliyyətdə payının işğaldan əvvəlki vəziyyətə çatdırılmasında və davamlı inkişafının təminində mühüm rola malik olacaqdır. Bu isə öz növbəsində nəinki Qarabağ regionunun və eyni zamanda ölkənin ümumi iqtisadiyyatının inkişafında xüsusi əhəmiyyətə malikdir. Qarabağ iqtisadi regionda ərazilərin bərpa edilərək inkişafını təmin edəcək strateji istiqamətlərə müvafiq sahələr üzrə konkret tədbirlər və bunlar ilə əlaqədar müvafiq işlər müəyyənləşdirilmiş və hal-hazırda onların icrası ilə əlaqədar konkret işlər aparılır.

**Təhlil**

Beləki, İşğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında ilkin olaraq nəqliyyat infrastrukturun yaradılması nəzərdə tutulmuş və bu isə "Böyük Qayıdış" proqramının birinci mərhələsi olan işğal olunmuş ərazilərdə yeni yol-nəqliyyat infrastrukturu olaraq, bu nəqliyyat layihələri Şimal, Cənub və Şərq istiqamətindən Qarabağa nəqliyyat infrastrukturunun və əlaqələrin yaradılmasını təmin edəcəkdir. "Böyük Qayıdış" proqramının tərkib hissəsi olan Suqovuşanın və Talış avtomobil yolunun inşası Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulmasını aparır və qeyd olunan yaşayış məntəqələrini birləşdirərək 28.5 km məsafədə olacaq və eyni zamanda Çaylı kəndindən Talış kəndinə 8 kilometr, Talış kəndindən isə Naftalan şəhərinə doğru 22 kilometr uzunluğa malik yeni yolun inşa edilməsi nəzərdə tutulur, bununla yanaşı Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu ümumi uzunluğu 101.5 km olan bu yol Füzuli hava limanı ilə əlaqələndirmək məqsədi ilə yolun 27-ci km-də yol qovşağının və hava limanına giriş yolunun inşası da nəzərdə tutulur və bu yolu ölkə başçısı "Qələbə Yolu" adlandırmışdır. Bunlar ilə yanaşı Şimal istiqamətində inşa olunacaq Toğanalı-Kəlbəcər

avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndi, Murov dağı ,Kəlbəcər, İstisu və Laçın istiqamətində davam edən 190 km-ə məsafəni əhatə edəcəkdir.

Beləliklə qeyd edilən avtomobil yolları həm şimaldan, həm də cənubdan Laçın və Kəlbəcər rayonlarına aparan müasir yol-nəqliyyat infrastrukturunu yaradacaq və Qarabağ iqtisadi zonanın inkişafında mühüm əhəmiyyətə malik olan infrastruktur layihəsidir. Qarabağ regionun sosial-iqtisadi inkişafının təmin edilməsində dəmiryolu infrastrukturunun bərpası və yenidən qurulması regionun strateji istiqamətlərindən biridir. Hal-hazırda həmin yolun Bərdədən başlayaraq Ağdama qədər uzanan 45 kilometrlik hissəsi yenidən inşa edilir. Birinci mərhələdə Bərdə-Təzəkənd istiqamətində 19 kilometr, ikinci mərhələdə isə Təzəkənd-Ağdam istiqamətində 26 km-lik dəmiryolu yolu bərpa edilərək müvafiq infrastrukturlar yaradılacaqdır. Bunlar ilə yanaşı Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolu xətlərinin də inşa olunması və Şuşanın Qarabağda əsas turizm və mədəniyyət mərkəzlərindən birinə çevrilməsi dəmiryolu infrastrukturunun yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda Qarabağ regionun enerji təchizatının yenidən qurulması prioritet xüsusi yanaşma aparılır, beləki, işğaldan azad edilmiş ərazilərdə müasir enerji infrastrukturunun yaradılması regionun enerji təhlükəsizliyinin təmin edilməsinin ən aktual məsələlərdəndir. Qeyd etmək lazımdır ki, azad edilmiş ərazilərdə ən müasir standartlara cavab verən enerji sisteminin yaradılması və ölkənin ümumi enerji sisteminə inteqrasiya edilməsi istiqamətində konkret tədbirlər həyata keçirilir, belə ki, "Azərenerji" və "Azərişıq" tərəfindən Şuşa şəhərinə iki elektrik enerjisi xətti çəkilmiş bu xətlər ilə yanaşı "Azərişıq" işğaldan azad edilmiş ərazilərdə olan xüsusi dövlət əhəmiyyətli binaların elektrik enerjisi ilə təchizatının təcili təmin olunması məqsədilə "Azərişıq Qarabağda" layihəsini həyata keçirir və bu layihənin daha geniş sahələri əhatə etməsi məqsədi ilə müvafiq tədbirlər planı hazırlanır və icra müddətinə müvafiq mərhələlərlə yerinə yetirilir. Bunlar ilə yanaşı azad edilmiş ərazilərdə mövcud olmuş Su Elektrik Stansiyalarının (SES) da bərpası və yenidən qurulması istiqamətində Laçında yerləşən 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatına imkan verən layihələr hazırlanır və 8 meqavat gücündə olan "Güləbird" SES 2021-ci ilin fevralın 14-də ölkə prezidenti İlham Əliyev stansiyanın açılışını etdi. Bu stansiyada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və bu stansiyaya yaxın ərazilərdə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcəkdir. Bununla yanaşı Suqovuşanda yerləşən "Suqovuşan-1" və "Suqovuşan-2" SES-lər də də əsaslı təmir işləri aparılır, Cəbrayıl rayonundakı "Xudafərin" və "Qız qalası" SES-lərinin tikintisi həyata keçirilir və Füzuli rayonundakı "Şükürbəyli" yarımstansiyasının da yenidən qurma tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Qarabağ regionunun enerji təminatının tərkibi olan təbii qazla təminatını yenidən qurmaq məqsədilə SOCAR tərəfindən ümumi uzunluğu 416 kilometr olan magistral qaz xəttinin çəkilməsi aparılır. Bunlar ilə yanaşı regionun təbii resursları hesabına bərpa olunan enerji istehsalını təmin etmək üçün bu məqsədlətərtib edilmiş proqram və layihələrə müvafiq bölgəni "Yaşıl Enerji" zonasına çevirməsi prioritet istiqamət kimi həyata keçirilir və bu isə öz növbəsində bərpa olunan enerji mənbələrindən istifadəyə və ekoloji təmiz enerji istehsalını təmin edəcəkdir.

Aparılan tədqiqat göstərir ki, Qarabağ regionunun Kəlbəcər və Laçın rayonları böyük külək enerjisi potensialına və Zəngilan, Cəbrayıl rayonları isə daha çox günəş enerjisi potensialına malikdir. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin ilkin qiymətləndirmələrinə görə, azad edilmiş ərazilərdə 4 min Meqavatdan çox Günəş, 5 yüz Meqavatadək külək enerjisi potensialına malikdir. Qarabağ regionunda işğaldan azad olunmuş ərazilərdə yeni modern infrastrukturların yaradılması bu regionda "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrin formalaşmasının və bu işlərlə dünyanın qabaqcıl texnologiyaya malik şirkətlərinin cəlb edilməsinə imkan yaradacaqdır.[9]

**Nəticə**

Azad edilmiş ərazilərin bərpası ilə bağlı həyata keçirilən layihələr ölkələrin bu ərazilərini regionun ən inkişaf etmiş ərazilərindən birinə çevirməyə imkanı verəcəkdir. Beləki, azad edilmiş ərazilərin böyük təbii resurslara və ehtiyatlara malik olması, həyata keçirilən nəqliyyat infrastruktur layihələrinin əhatəli olması və Qarabağda mükəmməl nəqliyyat infrastrukturunun yaradılması bu regionun qonşu ölkələr ilə iqtisadi əlaqələrin qurulması, tranzit əraziyə çevrilməsinə və daxili nəqliyyat şirkətinin genişləndirilməsi, nəticəsində regional ölkələr ilə iqtisadi əlaqələrin

genişlənməsini təmin ediləcək. Qarabağda azad edilmiş ərazilərdə zəruri infrastrukturların yaradılması Azərbaycanın qonşu ölkələri ilə bütün sahələrdə iqtisadiyyatın sahələri üzrə idxal-ixrac əməliyyatlarının aparılmasında xüsusi rola malik olaraq, eyni zamanda hava limanlarının tikintisi Qarabağın malik olduğu turizm potensialının reallaşdırılmasına son nəticədə isə Azərbaycanın turizm sektorunun inkişafını təmin edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xusisi idarəetmənin təşkili haqqinda " ölkə prezidentinin 2020-ci il 29 oktyabr tarixli fərmanı. Bakı 2020.
2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı Bakı şəhəri, 4 fevral 2021-ci il № 1278
3. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirənin materialları. 8 yanvar 2021-ci il. Bakı 2021.
4. "Qarabağ Dirçəliş Fondu'' AR Prezidentinin 4 yanvar 2021-ci il fərmanı .Bakı 2021.
5. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" 2021-ci il 2 fevral tarixli Sərəncamı
6. Azərbaycan Respublikası regionlarının 2019-2023–cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının 2019-cu ildə yekun hesabatı. Bakı 2020.
7. M.Məmmədov Keçid iqtisadiyyatında proqram-məqsədli idarə etmə, monoqrafiya, Bakı – 2008 –ci il.
8. Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişafı modeli , monoqrafiya, Elmi Redaktor M.Məmmədov, Bakı- 2020, 495 səh. AzMİU Nəşriyyat – Poliqrafiya Mərkəzi
9. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Qarabağın iqtisadi inkişafı mövzusunda materialları Bakı 2020

**Şəfa Tiflis oğlu Əliyev**
Sumqayıt Dövlət Universiteti "İqtisadiyyat və İdarəetmə" fakültəsinin "Dünya iqtisadiyyatı və marketinq" kafedrasının professoru, iqtisad elmləri doktoru,
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri
E-mail: shafaaliyev@gmail.com

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ STRATEJİ ASPEKTLƏRİ

Keçmiş SSRİ-nin süqutundan sonra Azərbaycan özünün müstəqilliyini bərpa etməklə, dövlətçilik baxımından tarixi və strateji vəzifələrdən biri olan milli mənafeyə söykənmiş iqtisadi inkişaf modelinin formalaşdırılmasını təmin etməli idi. Amma, 1990-cı illərin əvvəllərində baş verən bu proseslərdə xaotiklik, səriştəsizlik, müstəqilliyin bərpasının ilk illərində milli lider səviyyəsinə yüksələn dövlət başçısının olmaması bu tarixi missiyanın reallaşdırılmasında çətinliklər yaratdı. Nəticədə Azərbaycan dövləti və Azərbaycan xalqı arasında dərin uçurum yaranmış, sosial-iqtisadi gərginlik artmış, torpaqlarımız xain ermənilər tərəfindən işğal olunmuş və iqtisadiyyatımız tənəzzül fazasına keçmişdir. Dövlət büdcəsi boşalmış, əhalinin gəlirləri sürətlə dəyərsizləşmiş, hiperinflyasiya baş vermiş, yenicə dövriyyəyə buraxılmış milli valyuta – manat xarici valyutalar qarşısında öz dəyərini itirmiş, alıcılıq qabiliyyəti ən aşağı həddə düşmüş, yoxsulluq və işsizlik səviyyəsi sürətlə artmağa başladı. Azərbaycan iqtisadiyyatı ağır çöküş fazasına düşdü, Azərbaycan xalqı isə çarəsizliyə və ümidsizliyə qapılmışdı, vətəndaşlarımızın sual dolu baxışları xilaskar axtarışında idi.

Məhz belə bir şəraitdə - xalqımız üçün ağır olan bu proseslər kontekstində, 1993-2003-cü illərdə Ümummilli lider Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişaf modelinin formalaşdırılmasında və təkmilləşdirilməsində tarixi xidmətlərini qeyd etmək istərdim. 1993-cü ilin ortalarından başlayaraq Ümummilli lider Heydər Əliyevin titanik səyləri nəticəsində Azərbaycanda dövlət idarəçiliyi və iqtisadiyyatda baş verən mənfi proseslərin qarşısı qətiyyətlə alındı. Bütün idarəçilik səviyyələrində dəmir intizam təmin olundu və Heydər Əliyev zəkası Azərbaycanın iqtisadi inkişaf modelinin milli maraqlar kontekstində formalaşdırılmasını və dayanıqlı inkişaf yoluna çıxarılmasını təmin etdi. 1993-2003-cü illər ərzində Azərbaycanda iqtisadi inkişafın müstəqil modeli formalaşdırılmış, ölkəmiz özünün milli sərvətlərindən istifadə etmək strategiyasını reallaşdırmağa nail olmuş və əksər sahələrdə islahatlar aparılmış, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün əsaslı zəmin yaradılmışdır. Azərbaycanda neft startegiyasının reallaşdırılması ilə milli iqtisadiyyatın lokomotivi formalaşdırılmış, iqtisadi inkişaf prosesləri intensivləşməyə başlamış, iqtisadiyyatın strukturu təkmilləşdirilmiş və idarəetmə mexanizmləri yenilənmişdir. Bu tədbirlərin sayəsində Azərbaycan regionda və dünyada çox mühüm əhəmiyyət kəsb edən enerji və nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış etməyə başlamışdır və iqtisadi gücümüz artım fazasına keçmişdir.

2003-2021-ci illərdə ölkəmizdə regionların sosial-iqtisadi inkişafının modelləşdirilməsi və regionların inkişafının sürətləndirilməsi tədbirləri geniş miqyas almış, pandemiya dövründə nisbətən səngisə də, hazırda bu temp bərpa olunmuşdur. Həmin dövr ərzində ölkənin mərkəzi şəhərlərində və regionlarda geniş miqyaslı infrastruktur şəbəkəsinin yaradılması, sosial-iqtisadi inkişafın dayanıqlılığının gücləndirilməsi mümkün olmuşdur. İqtisadiyyatın əksər sahələrində dinamik artım tempi baş vermiş, milli iqtisadiyyatımız sürətlə böyüməyə başlamışdır. Burada təkcə iqtisadi artım yox, həm də milli iqtisadiyyatın strukturu diversifikasiyalaşdırılma mərhələsinə keçmişdir. Ölkəmizdə iqtisadi sistemin bazar iqtisadiyyatı mexanizmləri bərqərar olmuş və iqtisadi mexanizmlərin məhsuldarlığı, səmərəliliyi təmin edilmişdir. İşsizliyin və yoxsulluğun səviyyəsi minimum həddə düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldı. Sosial-iqtisadi problemlərin həllinə yeni nəfəs verilmiş, məcburi köçkünlərin həyat şəraiti yaxşılaşdırılmış və çadır şəhərciklərinin birdəfəlik ləğv edilməsinə nail olunmuşdur.

Regional səviyyədə iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı üçün sistemli tədbirlər görülmüş və dövlət dəstəyi mexanizmləri gücləndirilmişdir, sahibkarlığa süni müdaxilələr aradan qaldırılmış və yoxlamalar dayandırılmışdır. Milli iqtisadiyyatın müxtəlif perspektivli sahələrinə

investisiyaların yönəldilməsi təmin olunmuş və məqsədli dövlət əsaslı vəsait qoyuluşu siyasəti təkmilləşdirilmiş, regionlarda fəaliyyət göstərən iqtisadi subyektlərin maliyyə resurslarına çıxışları asanlaşdırılmışdır. Ümumilikdə, regionlarda sahibkarlığın və biznesin dayanıqlı inkişafı məqsədilə dövlət dəstəyi mexanizmləri yeni çağırışlara uyğun olaraq tənzimlənmişdir. Bu sıradan güzəştli texnika və kənd təsərrüfatı gübrələri ilə təminat, subsidiyaların verilməsi daha çox səmərəliliyi ilə diqqət çəkmişdir. Görülən tədbirlər nəticəsində regionların qeyri-neft sektorunun inkişafında rolu artmış və ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün əsaslı zəmin yaradılmışdır. Regionların siması dəyişmiş, əhalinin gəlirləri və istehlak səviyyəsi artmış, məşğulluğun təminatında daha cəlbedici mexanizmlər işlənərək tətbiq olunmuş, xüsusilə, özünəməşğulluq mexanizmi geniş yayılmaqdadır.

Ölkə regionlarında müasir texnologiyalar əsaslı sənaye məhəllələrinin, sənaye parklarının, texnoparkların, aqroparkların və aqro-sənaye parklarının yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər diqqət çəkməkdədir. Qlobal təsirdən yaranan şəraiti müdrükcəsinə və obyektiv qiymətləndirən dövlət başçısının təşəbbüsü ilə sosial-iqtisadi inkişafın mühüm istiqamətləri üzrə yaxın və uzaq perspektivi əhatə edən strateji yol xəritələri hazırlandı və sistemli şəkildə icrasına başlanıldı. İqtisadiyyatın perspektivli sahələrində iqtisadi fəallıq gücləndirildi, ehtiyatlar üzə çıxarıldı və iqtisadiyyatın şaxələndirilməsi proseslərinə yeni nəfəs verildi. Azərbaycan beynəlxalq reytinqlərdə, o cümlədən BMT-nin maliyyə institutlarının və Davos İqtisadi Forumun hazırladığı müxtəlif beynəlxalq hesabatlarda bir çox göstəricilər üzrə əhəmiyyətli irəliləyişə nail oldu və MDB dövlətlərini rəqabətqabiliyyətlilik göstəricilərinə görə geridə qoydu. Ölkəmizdə dünya təcrübəsində özünün mütərəqqi və məhsuldar xüsusiyyətləri ilə seçilən və çoxfunksiyalı yüksək texnologiyalar əsaslı texnoparklar, sənaye məhəllələri, sənaye parkları, aqroparklar yaradılmış və ölkənin ilk azad iqtisadi zonasının – Ələt İqtisadi Zonasının yaradılması prosesləri sürətlə davam edir və bu ilin yayında həmin iqtisadi zonanın açılışı gözlənilir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafının modelləşdirilməsində tarixi vəzifələrin reallaşdırılması istiqamətində önəmli addımlar atılmaqdadır [10, s. 89]. Belə ki, işğaldan azad olunmuş ərazlərdə sıfırdan həyata keçirilən iri miqyaslı infrastruktur, sosial və istehsal sahələrinin inkişaf etdirilməsi üçün maddi-texniki bazanın formalaşdırılması, yerli, respublika, regional və dünya səviyyəli müxtəlif nəqliyyat növləri üzrə layihələrinin həyata keçirilməsi, dəmiryol şəbəkəsinin yenidən qurulması prosesləri intensiv xarakter daşıyır [11, s.135]. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsi, Zəngilan və Laçın Beynəlxalq Hava Limanlarının təməllərinin qoyulması, ümumilikdə 11 nəqliyyat layihəsiniun reallaşdırılması regionda Azərbaycan iqtisadiyyatının yeni inkişaf drayverlərini təmin edəcəkdir. Kənd təsərrüfatının müxtəlif istiqamətlərinin və bütövlükdə aqrar sahənin, turizm sektorunun inkişaf resurslarının dəyərləndirilməsi, səmərəli istifadə olunması üzrə tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Aqrar-sənaye emal müəssisələrindən ibarət olacaq Ağdam sənaye parkının yaradılması proseslərinə start verilmiş, Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası"nın təməli qoyulmuşdur [1].

Qeyd edək ki, postkonflikt ərazilərdə, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonunda zəngin təbii və iqtisadi resurs potensialı vardır və bunlardan səmərəli istifadə edilməsi hazırda strateji məsələlərdən hesab olunur. Hesab edirik ki, bu ərazilərin təbii və iqtisadi resurslarından məhsuldar istifadə olunması son nəticədə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində, yeni artım mənbələrinin formalaşdırılmasında, o cümlədən maliyyə mənbələrinin müəyyənləşdirilməsində önəmli rol oynayacaqdır. Bu regionda müxtəlif iqtisadiyyat sahələrinin, ilk növbədə isə region üçün ənənəvi olan kənd təsərrüfatının müxtəlif istiqamətlərinin inkişaf etdirilməsi prioritetlik təşkil edir [2]. Nəzərə alsaq ki, regionun münbit torpaqları, həmçinin kənd təsərrüfatının kifayət qədər gəlirli sahəsi olan heyvandarlığın və bunun da əsasında aqrosənaye kompleksinin sürətli inkişaf etdirilməsi perspektivləri vardır, bu halda fikrimizcə, yüksək texnologiyalar əsaslı kəndli fermer təsərrüfatlarının, aqrar-emal müəssisələrinin yaradılması xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

Digər tərəfdən hazırda minalardan təmizlənən ərazilərin reabilitasiyası, torpaq ehtiyatlarının obyektiv qiymətləndirilməsi və təsərrüfat dövriyyəsinə cəlb olunması tədbirləri görülür. Bu

proseslərdə potensial olaraq daxili və xarici investisiyaların cəlb olunması, investisiya fondlarının yaradılması, kiçik və orta biznes subyektlərinin fəallığının təmin edilməsi məqsədilə maliyyə təminatı mexanizmlərinin işlənməsi və tətbiqi vacibdir [3]. Bunlarla bərabər, yeni iqtisadi rayonların yaradılması və bununla bağlı zəruri tədbirlərin görülməsi yaxın perspektivdə təbii və iqtisadi resursların daha kompleks şəkildə öyrənilməsinə və qiymətləndirilməsinə əlavə stimullar verəcəkdir. Yəni, burada yaradılan iki yeni iqtisadi rayonların mövcud imkanlarının fundamental olaraq araşdırılması, daha adaptivlik imkanlarına malik iqtisadi fəaliyyət istiqamətlərinin inkişaf etdirilməsi və bununla da regionun ənənəvi iqtisadiyyat quruculuğunun bərpa edilməsi, eyni zamanda yeni iqtisadiyyat sahələrinin təşkili təmin olunmalıdır [8, s. 63]. Qeyd olunan proseslər regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə, başlanılmış pilot layihələrin daha intensiv reallaşdırılmasına, tələb olunan sosial və istehsal infrastruktur şəbəkəsinin yaradılmasına adekvat olmalıdır. Digər tərəfdən Covid 19 postpandemiya postulatları nəzərə alınmalı, iqtisadiyyatın müxtəlif sahələrində baş verən gerilik aradan qaldırılmalı, iflic vəziyyətinə düşən xidmət sektorunun bərpa edilməsi təmin olunmalıdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, ilk növbədə Böyük Qarabağ Zəfərindən sonra bu bölgədə yaranmış real situasiyanı özündə ehtiva edir. Başqa sözlə, qeyd olunan iqtisadi rayonların yaradılması və sürətlə inkişaf etdirilməsi sayəsində, uzun illər deqredasiyaya uğramış və talan edilmiş torpaqlarımızın fəal təsərrüfat dövriyyəsinə qaytarılması və ərazilərin inkişaf proseslərinin sürətləndirilməsi imkanları artmaqdadır. Burada başlıca məqsəd regional sosial-iqtisadi inkişafın daha mütərəqqi və məhsuldar idarəetmə formalarının tətbiq edilməsi, yeni biznes mühitinin yaradılması və bu mühitin əsas elementlərindən biri olan sahibkarlığın inkişafına münbit şəraitin yaradılmasıdır [4, s. 255]. "Böyük Köç" qayıdışına artıq başlanılmaqdadır və "ağıllı" texnologiyalar və idarəetmə formaları əsasında yaşayış məntəqələrinin yaradılması, həmçinin nəqliyyat, logistika və istehsal obyektləri şəbəkəsinin istismara verilməsi sürətləndirilməkdədir. Təsadüfi deyildir ki, postkonflikt ərazilərdə mühüm əhəmiyyət kəsb edən 11 nəqliyyat layihəsi həyata keçirilməkdədir. Bu layihələrin hər biri regionda iqtisadi fəallığın yüksəldilməsinə, müxtəlif iqtisadiyyat sahələrinin inkişafının intensivləşdirilməsinə və ümumilikdə ölkə iqtisadiyyatının "böyüməsi"nə əlavə stimullar verməkdədir. Xüsusilə, Qarabağın mərkəzi kimi sürətlə inkişaf edən və strateji əhəmiyyət kəsb edən Şuşa şəhərinə müasir beynəlxalq standartlara cavab verən avtomobil yolunun çəkilməsi tarixi hadisəyə çevrilmişdir. Füzuli beynəlxalq hava limanının istismara verilməsi isə, Qarabağa dünyanın hər yerindən turistlərin və qonaqların, potensial investorların gəlməsi üçün xüsusi əhəmiyyət daşıyır. Yaxın perspektivdə isə Zəngəzur Beynəlxalq Dəhlizinin açılması hədəfləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsində, regionun investorlar üçün cəlbediciliyinin artırılmasında önəmli olacaqdır.

Başqa bir məsələ, hazırda ölkəmizdə 2030-cu ilədək olan dövr üçün sosial-iqtisadi inkişafın intensivləşdirilməsi istiqamətlərində müəyyənləşdirilən Milli Prioritetlərdir. Maraqlıdır ki, həmin prioritetlər sırasında yüksək və "ağıllı" texnologiyaların tətbiqinin genişləndirilməsi, rəqəmsal mexanizmlərə üstünlük verilməsi, qeyri-neft qaz sektorunun inkişafının müasir dövrün tələbləri səviyyəsinə qaldırılması və "yaşıl" iqtisadiyyatın inkişafının ön plana çıxması daha çox diqqət çəkirlər. Bizə görə, bu prioritetlərin reallaşdırılmasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr həlledici və təkanverici rol oynayacaqdır. Belə ki, bu ərazilərdə mütərəqqi dünya təcrübəsi əsasında həyata keçirilən və milli koloriti, dəyərləri, adət-ənənələri özündə əks etdirən iqtisadi quruculuq, sosial-iqtisadi məmnunluq inkişaf modeli yaradılması prosesləri intensiv fazaya keçməkdədir və mühüm əhəmiyyət kəsb edirlər.

Azərbaycan postkonflikt vəziyyətdə real situasiyadan çıxış etməklə, yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının təmin edilməsi və dirçəldilməsi hədəflərini qarşıya məqsəd qoymuşdur [6; 9]. Bu mürəkkəb vəzifənin yerinə yetirilməsinin sürətləndirilməsi üçün daha güclü əsaslandırılmış elmi-iqtisadi yanaşamalar və praktiki mexanizmləri əks etdirən təkliflər hazırlanmalıdır və bunların bir qrupuna diqqətin yönəldilməsi səmərə verə bilərdi:

– işğaldan azad olunmuş ərazilərdə və postmüharibə şəraitində reallaşdırılması nəzərdə tutulan strateji tədbirlərin və hədəflərin dövlətlə cəmiyyət arasında vahid platforma və sosial

məmnunluq mühitinə adekvat olaraq müəyyənləşdirilməsi kifayət qədər strateji əhəmiyyət kəsb edir;

– postkonflikt vəziyyətdə mövcud problemlərin həlli ilə bağlı hər bir istiqaməti üzrə yaxın, orta və uzunmüddətli perspektivlər və hədəflər müəyyənləşdirməklə, məqsədli dövlət proqramlarının hazırlanması və fəaliyyət mexanizmlərinin tətbiqi təmin olunmalıdır;

– işğaldan azad olunmuş ərazilərinin bərpası və inkişaf proseslərinin dayanıqlı maliyyə təminatının təşkili və maliyyə vəsaitlərindən istifadənin şəffaflığı mexanizmlərinin yaradılması, ərazilərin bərpa və inkişafı proseslərinə cəlb olunmuş yerli və xarici şirkətlərin, sahibkarlıq subyektlərinin fəaliyyəti üçün şəffaf və stimullaşdırıcı investisiya-innovasiya mühiti təmin edilməlidir;

– İşğaldan azad olunmuş ərazilərdə "tikinti bum"u qaçılmazdır və ümumilikdə, tikinti materiallarına ehtiyac güclü şəkildə artmaqdadır, bu baxımından Qarabağ iqtisadi rayonunda tikinti materialları ehtiyatlarının zənginliyindən və sənaye əhəmiyyətindən yanaşmaqla, tikinti materialları istehsalı istiqaməti üzrə tikinti klasterlərinin yaradılması məqsədəuyğundur;

– İşğaldan azad olunmuş ərazilərin turizm-rekreasiya potensialı əsas götürülməklə, xüsusi güzəştlər paketinə malik olan turizm-rekreasiya zonalarının təşkili vacibdir;

– İşğaldan azad olunmuş ərazilərin aqrar potensialının yüksək olmasını əsas götürərək, yerli tələbatın ödənilməsi ilə bərabər, ixracyönlü aqrar və aqro-sənaye parklarının yaradılması səmərə verə bilər.

– Şərqi Zəngəzur iqtisadi rayonunun güclü iqtisadi potensialı nəzərə alınmaqla, "Azərbaycan Respublikasında dağ-mədən sənayesinin resurs potensialından səmərəli istifadənin təmin edilməsi üzrə Dövlət Proqramı (2022-2030-cu illər)"nın hazırlanması daha münasib və multiplikativ effektə səbəb olardı və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ağıllı şəhər (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 19 aprel 2021.
2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
3. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 oktyabr 2020-ci il. http://mct.gov.az/az/umumi-xeberler/13296.
4. Əliyev, Ş.T. Qarabağ regionunda bərpa və dirçəliş proseslərinin aktual aspektləri/ "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər", 22–23 aprel 2021-ci il, Sumqayıt Dövlət Universiteti. Sumqayıt. – S. 253-256.
5. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – S.67-72.
6. Qarabağ iqtisadi rayonu. AR İqtisadiyyat Nazirliyi. https://www.economy.gov.az/article/qarabag-iqtisadi-rayonu/31889.
7. Hüseyn, R.Z. İqtisadi rayonların yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun inkişafını sürətləndirəcək. 07 iyul 2021. https://ereforms.gov.az/az/media/xeberler/ramil-huseyn-iqtisadi-rayonlarin-yeni-bolgusu-qarabagin-ve-serqi-zengezurun-inkisafini-suretlendirecek-183.
8. Rəsulova, G.R. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad olunmasının və onların bərpa edilməsinin maliyyə təminatı // Audit jurnalı, 2021, 4 (34), pp. 60-69.
9. Şərqi Zəngəzur iqtisadi rayonu. AR İqtisadiyyat Nazirliyi. https://www.economy.gov.az/article/sherqi-zengezur-iqtisadi-rayonu/31896.
10. Алиев, Ш.Т. Региональные факторы интенсификации развития Карабахского и Восточно-Зангезурского районов Азербайджана / Сборник материалов IV международной научно-практической конференции «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе». г. Москва, 24 сентября 2021 года. – С.87-94.
11. Aliyev, Sh.T. Theoretical issues and models of socio-economic revival of the liberated regions / International Conference On "Reconstruction And Recovery In Post-Conflict

Situations-RRPCS-2021". 100 years of anniversary of Azerbaijan State Oil and Industry University. Ministry of Ecology and Natural Resources of Azerbaijan Republic, Azerbaijan State Oil and Industry University. Azerbaijan, Baku. February 25-26, 2021. – p. 128-137.

**Şəfa Tiflis oğlu Əliyev**

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ STRATEJİ ASPEKTLƏRİ

**Xülasə**

Məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının strateji aspektləri tədqiq edilmişdir. Müstəqillik dönəmində Azərbaycanda milli iqtisadiyyatın inkişaf modelinin formalaşdırılması və bu proseslərdə regionların sosial-iqtisadi inkişaf prioritetlərinə münasibətlər araşdırılmışdır. Ölkə regionlarında iqtisadi fəallığın artırılmasının vacibliyi və mövcud resurslardan daha səmərəli istifadə olunmasının prioritetliyi verilmişdir. İşğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişaf prioritetləri və bu istiqamətdəki konseptual yanaşmalar baxılmışdır. Yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafını sürətləndirə biləcək məsələlərə toxunulmuş və fikirlər bildirilmişdir. Yaxın və uzaq perspektivdə bu iqtisadi rayonların inkişaf hədəflərinə və mövcud potensiala baxılmış, strateji aspektlər üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Şərqi Zəngəzur, regionlar, iqtisadi rayonlar, sosial-iqtisadi inkişaf.

**Rəna Polad qızı Sultanova**
AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri, i.e.d., prof.

# AZƏRBAYCANIN REGİONAL İNKİŞAF SİYASƏTİNİN HEYDƏR ƏLİYEV TƏMƏLİ

90-cı illərdən başlayaraq indiyə qədər ölkədə həyata keçirilən iqtisadi islahatlar nəticəsində iqtisadi və siyasi sabitlik təmin edilmiş, iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuş və beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikası Prezidenti tərəfindən uğurla davam etdirilmiş iqtisadi inkişaf strategiyası ölkə regionlarının sosial-iqtisadi inkişafını ön plana çəkmişdir.

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi onun qarşısında bazar münasibətlərinə keçid şəraitində yeni imkanlar yaratmışdır. Qeyd etmək lazımdır ki, ölkənin dinamik və davamlı inkişafı obyektiv kriteriya baxımından bir sıra üstünlüklərə malikdir ki, bu da onun təbii resurslarla və əsasən neft və qazla zəngin olması ilə bağlıdır və ölkənin enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, bu dövrdə Azərbaycan iqtisadiyyatında islahatların aparılması, sənaye sahələrinin inkişaf etdirilməsi və bu istiqamətdə elmi əsaslandırılmış siyasətin işlənib hazırlanması vəzifəsini irəli sürmüşdür. Bu da öz ifadəsini Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra və 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasında tapır. Məhz bu dövrdən başlanan siyasi və iqtisadi dəyişikliklər respublika iqtisadiyyatının bütün sahələrinə, o cümlədən sənayeyə də öz təsirini göstərmiş və onların inkişaf tempini aşağı salmışdır. Sənaye üzrə məhsul istehsalının aşağı düşmə tempi 1995-ci ildə 30% təşkil etmişdir.

Belə ki, Azərbaycan Respublikasının inkişaf tarixində 70-80-ci illər dönüş illər hesab olunur ki, bu da Heydər Əlirza oğlu Əliyevin rəhbərliyi altında əsaslı quruculuq işlərinin, kənd təsərrüfatının və sənayenin inkişafının sürətləndirilməsi ilə müşahidə olunur. Məhz bu dövrdə əhalinin hər nəfərinə düşən milli gəlirin iki dəfə, sənaye istehsalının isə üç dəfə artması, respublikada 250-dən artıq mühüm müəssisələrin, yeni sexlərin texnika və mütərəqqi texnologiya əsasında tikilib istifadəyə verilməsi regionların inkişafına öz müsbət təsirini göstərmişdir.

Bu dövrdə Azərbaycanda 40-dan artıq maşınqayırma və metal emalı müəssisələri istismara verilmiş ki, onlar da 12 orta və kiçik şəhər və rayonlarda yerləşdirilmişdir. Qısa bir müddətdə respublika nəhəng tikinti meydanına çevrilmişdir ki, bu da Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və digər şəhər, rayon və kəndlərdə geniş quruculuq və abadlıq işləri, həmçinin məktəblər, mədəniyyət evləri, inzibati binalar, yaşayış evləri, səhiyyə ocaqları, suvarma kanallarının tikilib istifadəyə verilməsi ilə öz təsdiqini tapır.

Bütövlükdə, sonrakı illərdə keçirilən tədbirlər nəticəsində sənayenin tənəzzül sürəti azalmış, inkişaf meyli artmış və 1996-cı ildən istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmışdır. Beləliklə, iqtisadiyyatda müsbət meyllərin daha da möhkəmlənməsi müşahidə olunurdu.

Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən başlayaraq respublika regionlarının inkişafını təmin etmək məqsədilə dövlət tərəfindən bir sıra proqram, proqram məqsədli metodlar və vasitələr qəbul edilmişdir ki, onların da əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, 2001-2003-cü illərdə ölkə Prezidentinin xarici və milli sahibkarlarla görüşündə, respublika regionlarına səfəri zamanı etdiyi məruzə və çıxışlarında, "Yoxsulluğun azaldılması" və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının təqdimat mərasimindəki çıxışlarında əsas diqqəti neft sektoruna azaltmadan regionlarda qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsini əsaslandırmışdır. Belə ki, "Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın respublikada aktiv regional siyasət yeridilməsi və qeyri-neft sektorunun inkişafı üçün müstəsna əhəmiyyəti vardır. Proqram Azərbaycanın daxili sosial-iqtisadi problemlərinin həlli üçün respublikanın və beynəlxalq təşkilatların səylərinin birləşdirilməsi, yoxsulluğu azaltmaq və iqtisadi inkişafı təmin etmək üçün görülən ümumi işlərin tərkib hissəsidir. Beləliklə, regional siyasətin formalaşması və həyata keçirilməsi bilavasitə Heydər Əlirza oğlu Əliyevlə bağlıdır.

Azərbaycan Respublikasında ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və beləliklə, dinamik iqtisadi inkişaf təmin edilmişdir.

Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həlli tələb edilən vəzifələri ön plana çəkmişdir.

Məlumdur ki, ölkənin ayrı-ayrı regionlarının inkişafını müxtəlif amillər və yerli xüsusiyyətlər şərtləndirir. Bu amillərin isə hər biri regionların sosial-iqtisadi inkişaf planında nəzərə alınmalıdır.

İqtisadi inkişaf amillərinin geniş və hərtərəfli təhlili respublikanın sosial-iqtisadi inkişafının mühüm xüsusiyyətlərini aşkar etməyə, eyni zamanda, respublika iqtisadiyyatının inkişafında mütərəqqi meyllərin əmələ gəlməsinə, iqtisadiyyatın ərazi və sahə strukturunun təkmilləşdirilməsinə imkan yaradacaqdır.

Qeyd etmək lazımdır ki, əsas diqqəti mühüm perspektiv məsələlərin üzərində cəmləşdirmək, optimal sahələrarası və ərazi proporsiyaların müəyyən edilməsinə yönəltmək vacibdir. İqtisadiyyatın və respublika rayonlarının bir-biri ilə bağlı sahələrinin planlaşdırılmasına, iqtisadi və sosial problemlərin həllinə kompleks münasibətin gücləndirilməsi tələb olunur. Bu isə əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsini, sahə və rayonun inkişafının əlaqələndirilməsini tələb edir. Beləliklə, ölkə iqtisadiyyatı sahələri arasında optimal nisbətin yaradılması çox zəruridir.

**Rəna Polad qızı Sultanova**
AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri, i.e.d.,, prof.

## AZƏRBAYCANIN REGİONAL İNKİŞAF SİYASƏTİNİN HEYDƏR ƏLİYEV TƏMƏLİ

**Xülasə**

Məqalədə ölkədə həyata keçirilən iqtisadi islahatların iqtisadiyyatın dinamik inkişafına təsiri qeyd olunmuşdur. Belə ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə prezidenti tərəfindən uğurla davam etdirilmiş iqtisadi inkişaf strategiyası regionların sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərmişdir.

Qeyd olunur ki, hələ Heydər Əlirza oğlu Əliyevin rəhbərlik etdiyi dövrdə əsaslı quruculuq işlərinin, kənd təsərrüfatının və sənayenin inkişafının sürətləndirilməsi həmin illərdə qabarıq şəkildə müşahidə olunurdu.

Məhz sonrakı illərdə Azərbaycanda ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və bütövlükdə dinamik iqtisadi inkişafın təməlini qoymuşdur.

Sonda əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsi mövcud olan iqtisadi və sosial problemlərin həllinə yönəldilməsi əsas götürülür.

***Açar sözlər:*** *regional inkişaf, iqtisadiyyat, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, məhsul.*

**Qəlib Cabir CÜMŞÜDLÜ**
Bakı Dövlət Universitrti,

**CƏBİR SABİR CÜMŞÜDOV**
Bakı Dövlət Universitrti

**Günel Vaqif MƏMMƏDOVA**
*Azərbaycan Texniki Universitrti*

# REGIONLARDA NƏQLİYYAT TƏSƏRRÜFATLARININ RESURSLARI VƏ ONLARINIDARƏ EDİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

Nəqliyyat təsərrüfatlarının hərtəerəfli fəaliyyətinin səmərəliliyi təbii, material- texniki, enerji, əmək və maliyyə resurslarının məqsədəuyğun istifadəsinə əsaslanır.

Nəqliyyat təsərrüfatlarında istifadə olunan resursların mənfəətlilik nöqteyi- nəzərindən səmərəli istifadə olunması, həmin resursların cari və strateji planlaş- dırılması tələb edir. Bu məqsədlə nəqliyyat təsərrüfatlarının resurslarının səmərəli istifadəsinin biznes-plan işlənib hazrlanmalıdır. Nəqliyyat təsərrüfatlarının resurslarının səmərəli istifadəsinin biznes-planmm işlənib hazrlanması aşağıdakı nəzəri-metodoloji prinsiplərə əsaslanır. Nəqliyyat təsərrüfatlarının resurslarının səmərəli istifadəsinin nəzəri-metodoloji prinsipləri aşağıdakılardır:

– **Elmi yanaşma.** Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların səmərəli istifadəsinin planlaşdırılması, təşkili və idarə edilməsində obyektiv iqtisadi qanunların tələb- ləri nəzərə alınmalıdır. Belə ki, bu qanunlar təşkilati, plan-iqtisadi, idarəetmə ilə əlaqədar hadisə və proseslərin səbəb-nəticə əlaqələrini əks etdirir. Sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar tədbirlərin planlaşdırılmasmda obyektiv iqtisadi qanunların tələblərinin nəzərə almması zəruri hesab edilir.

– **Sistem yanaşma.** Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, sənaye istehsal birlik- lərinə vahid bir kibernetik sistem kimi baxılmalıdır. Belə ki, bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə almmalıdır. Sənaye istehsal bir- liklərinin bütün bölmələrinin qarşılıqlı əlaqələrinin məqsədəuyğun tənzimlənməsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, idarə olunan təsərrüfat sisteminin hər hansı bir elementinə göstərilən təsir, onun bütün digər elementlərinə müxtəlif dərəcədə keçmiş olur. Digər tərəfdən sənaye istehsal birliklərinin göstəricilləri, onların ayrı-ayrı bölmələrinin göstəricillərindən fərqlidir. Bununla yanaşı qeyd etmək lazımdır ki, bütövlükdə sənaye istehsal birliklərinin hərtərəfli fəaliyyətinin səmərəliliyi, onun ayrı-ayrı bölmələrinin işinin səmərəliliyindən asılıdır.

– **Kompleks yanaşma.** Bu prinsipin tələbinə görə sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəlili- yinin yüksəldilməsi məsələlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorun- ması, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fızioloji, sosial və iqtisadi amillər kom- pleks halmda nəzərə almmalıdır.

– **Qənaətçilik.** Bu prinsipin tələbinə görə sənaye istehsal birliklərinin və onların istehsal vahidlərinin sərəncamında olan bütün resurslardan tam səmərəli istifadə olunmalıdır. Sənaye istehsal birliklərində təbii, material-texniki, müxtəlif növ enerji, əmək və maliyyə resurslarının səmərəli istifadəsinin cari və strateji biznes- planı işlənib hazırlanmalıdır. Resursların səmərəli istifadəsinin cari və strateji biznes-planı əməli-təqvim tədbirlər proqramı-qrafiki üzrə reallaşdırılmalıdır. Bu əməli-təqvim tədbirlər proqrammm mərkəzində qənaət rejiminin mənfəətlilik me- yarı ilə tətbiqi durur.

– **Ekoloji təhlükəsizlik.** Nəqliyyat vasitələrinin ətraf mühitə mənfı təsirini aradan qaldırmaq üçün həmin texniki vasitələrin maye-qaza keçirilməsinə nail olmaq tələb olunur.

– **Kompleks yanaşma.** Bu prinsipin tələbinə görə sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəlili- yinin yüksəldilməsi

məsələlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorun- ması, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, sosial və iqtisadi amillər kom- pleks halmda nəzərə almmalıdır.

– **Optimallıq.** Nəqliyyat təsəeeqfatlarının resursların istifadəsinin plan-iqtisad, təşki- lati və idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variant- lardan qəbul edilmiş meyara (xərclərin minimum, ümumi mənfəətin maksimum olması şərti və s.) nəzərən ən yaxşısmm (optimal variantm) seçilməsi tələb edir.

– **Səmərəlilik.** Bu prinsipin tələbinə görə sənaye istehsal birliklərində və birliyin is- tehsal vahidlərində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yük- səldilməsi məsələlərin həlli ilə əlaqədar planlaşdırılacaq tədbirlər iqtisadi cəhətdən səmərəli olmalıdır. Odur ki, tətbiq olunacaq tədbirlərin iqtisadi səmərəliliyi qabaqcadan müəyyən edilməlidir. Sənaye istehsal birliklərinin resurslarından isti- fadənin iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodikası təkmilləşdirilməli, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əsasında hər bir xüsusi halda müvafiq hesabatlar aparılmalı və illik iqtisadi səmərənin ümumi məbləği müəyyən edilməlidir.

– **Maddi və mənəvi həvəsləndirmə.** Bu prinsipin tələbinə görə sənaye istehsal bir- liklərində və birliyin istehsal vahidlərində resursların istifadəsinin iqtisadi və eko- loji səmərəliliyinin yüksəldilməsində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir. Resursların səmərəli istifadəsinə cəlb edilmiş əməkçillərin maddi cəhətdən həvəsləndirilməsi, əmək haqqı forma və sistemlə- rinin düzgün seçilməsi, əmək haqqınm tarif sisteminin təkmilləşdirilməsi, habelə, mükafatlandırma sisteminin geniş tətbiqi ilə təmin edilir. Mənəvi həvəsləndirmə isə qabaqcıl əməkçillərin orden və medallarla təltif edilməsi, habelə, fəxri adların verilməsi, adlarının və şəkillərinin şərəf lövhəsində və təsərrüfatm şərəf kitabına daxil edilməsi və s. ilə həyata keçirilir.

– **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların qorun ması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar şəxsi, kollektiv və ümumxalq (dövlət) mənafeləri düzgün əlaqələndirilməli, uzlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, burada ümumxalq (dövlət) mənafei başlıca meyar kimi qəbul edilməlidir.

– **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Nəqliyyat Nazir- liyinin və yerli icra orqanlarının resursların səmərəli istifadəsi ilə əlaqədar planlları əlaqələndirilir.

– **Təkbaşına rəhbərlik və əməkçillərin hər birinin resursların qorunması, məni- msənilməsi və idarə edilməsində iştirakının təmin edilməsi.** Nəqliyyat təsərrü- fatlarının resurslarının qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəli- liyinin yüksəldilməsi istiqamətində tədbirlərin hazırlanması və həyata keçirilmə- sində vahid-təkbaşma rəhbərliklə yanaşı, əməkçillərin hər birinin fəal iştirakı təmin edilməlidir.

– **Nəzarətin təşkili və icranın yoxlanılması.** Sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsinə nəzarətin təşkili və icranm yoxlanılması zəruri hesab edilməlidir. Sənaye istehsal birliklərinin istehsal vahidlərində resursların qorunması və səmərəli istifadə edilməsi ilə əlaqədar xüsusi komissiya yaradılır. Qeyd etmək lazımdır ki, müxtəlif səviyyələrdə (Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, əlaqədar nazirlik və baş idarələrin, icra ha- kimiyyətlərinin) yaradılan komissiyalar həmin təşkilatlarda tərtib və təsdiq olunmuş proqram-qrafik əsasmda sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların qorunması və səmərəli istifadə edilməsini mütəmadi olaraq yoxlamaqla, toplanmış yoxlama materialları təhlil edilir və müvafiq hesabatlarla müvafiq səviyyələrdə, habelə, istehsalat müşavirələrində və kollektivin ümumi yığmcaqlarında müzakirə edillərək, müvafiq qərarlar qəbul edilir. Qəbul edilmiş qərara müvafiq olaraq sənaye istehsal birliklərində və birliyin istehsal vahidlərində resursların qorunması və istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar kompleks tədbirlər planı işlənib hazırlanır və bunun reallaşdırılması əməli-təqvim-qrafik üzrə həyata keçirilir.

– **Müəssisədaxili nəqliyyat və rabitə infrastrukturu bölmələrinin işinin səmərəli idarə edilməsinə nəzarətin təşkili və icranın yoxlanılması.** Göstərilən prinsiplər əsas götürülməklə

sənaye istehsal birliyinin hərtərəfl fəaliyyəti (birlikdaxili nəqliyyat və rabitə bölmələrinin işi nəzərə almmaqla) cari illik biznes-planda əks etdirlməlidir. Bazar iqtisadiyyatı şəraitində nəqliyyat və rabitə xidməti bölmələrinin cari (illik) biznes-planının əsas göstəricləri mənfəətlilik meyarı ilə planlaşdırılmalı, uçota alınmalı və müvafiq normativ göstəriclərlə müqayisəli təhlil edilməlidir. Bu təhlilin ümumləşdirilməsi və nəticələri əsasında nəqliyyat və rabitə xidməti bölmələrinin işinin səmərəliliyinin yüksəldilməsi yolları, istqamətləri, mənbələri və ehtiyatiarı müəyyən edilməlidir. Nəqliyyat və rabitə xidməti təsərrüfatlarının işinin səmərəliliyinin yüksəldilməsi mənbələr və ehtiyyatları əsasmda həmin təsərrüfatların xidmətlərinin mənfəətlik səviyyəsinin yüksəldilməsinə nail olmaq məqsədilə kompleks tədbirlər işlənməli və əməli-təqvim plan-qrafıklər üzrə həyata keçirlməlidir.

Yuxanda araşdırılan prinsiplərin reallaşdırılması texniki-texnoloji, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fızioloji, sosial və iqtisadi amillərin nəzərə alınmasmı tələb edir. Yuxarıda göstərilən amillərə müvafiq olaraq, nəqliyyat təsərrüfatlarının resurslarının qorunası, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar təşkilat və təsərrüfatlarda kompleks tədbirlər proqramı işlənib hazırlanaraq, əməli-təqvim-qrafık üzrə həyata keçirilməsi üçün cavabdeh - məsul şəxslərdən ibarət icraçı qrup yaradılır. Kompleks tədbirlərin tətbiqinir gedişatı ilə əlaqədar mütəmadi olaraq istehsalat müşavirələrində icraçı qrupun hesabatı dinlənilməli, müzakirə edilməli və əməli fəaliyyətin təkmilləşdirilməsi, onun səmərəliliyinin yüksəldilməsi üçün qərar qəbul edilməlidir.

Nəqliyyat təsərrüfatlarının resurslarının qorunması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar təşkilat və təsərrüfatlarında əmək haqqınm forma və sistemlərinin düzgün seçilməsi, əmək haqqının tarif sisteminin elementlərinin təkmilləşdirilməsi və məqsədəuyğun istifadə olunması, habelə, mükafatlandırma sisteminin geniş tətbiqi zəruri hesab edilir. Nəqliyyat təsərrüfatının sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarının səmərəlili istifadəsini xarakterizə edən göstəricilər - təbii resursların gəlirlilik və mənfəətlilik əmsalı, material-texniki resursların gəlirlilik və mənfəətlilik əmsalı, enerji resursların gəlirlilik və mənfəətlilik əmsalı, əmək resursların gəlirlilik və mənfəətlilik əmsalı, habelə, əmək məhsuldarlığı, maliyyə resurslarının gəlirlilik və mənfəətlilik əmsalı, rentabellikdən ibarətdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. K.M. Məmmədov, Z.S. Musayev, S.Q.Cümşüdov, İ.H. Qarayev. Meliorasiya və su təsərrüfatı sistemlərində əmək resurslarının səmərəli istifadəsinin planlaşdırılması. Ekologiya və su təsərrüfatı curnalı, № 1, sentyabr, 2018, səh. 66-70.
2. S.Q. Cümşüdov, T.T. Məmmədova. Meliorasiya və su təsərrüfatının idarə edilməsində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi məsələləri. Ekologiya və su təsərrüfatı curnalı, № 4, sentyabr, 2016, səh. 91-95.
3. Cümşüdov S.Q. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı, № 1 (9), Bakı, Çaşıoğlu, 2005, s. 96-104.
4. Cümşüdov S.Q. Dövlət idarəçiliyi sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi iqtisamətləri. AzTU-nun Elmi əsərləri, №3, Bakı, 2006, s. 37-39.
5. Cümşüdov S.Q. Azərbaycanda “Elektron hökumətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökumət Azərbaycanda: nailiyyətlər və perspektivlər. Beynəlxalq konfransının məruzə materialları. AzTU, Bakı, 26-28 aprel 2010, s. 157-160.

# II BÖLMƏ
# Qloballaşma şəraitində Azərbaycan dünya təsərrüfat sisteminə inteqrasiya problemləri mövzusunda

**Üzeyir Cəbrayıl oğlu Ağayev**
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin
Üzümçülük və Şərabçılıq Elmi Tədtiqat İnstitutunun doktorantı
E-mail: agazade.uzeyir@mail.ru,

## AZƏRBAYCANIN DAĞLIQ ŞİRVAN BÖLGƏSİNDƏ YETİŞDİRİLƏN BƏZİ TEXNİKİ ÜZÜM SORTLARININ KEYFİYYƏT XÜSUSİYYƏTLƏRİ

Dünya üzrə müxtəlif ölkələrdə şərab istehsalı həyata keçirilir. Azərbaycan 1980-ci illərdə üzümlüklərin sahəsi (284100 ha), üzüm istehsalı (2126100 ton) və şərab məhsulları istehsalına (140 mln dal) görə böyük nailiyyətlər əldə etməsinə baxmayaraq hazırda ölkəmizin dünya şərab istehsalındakı payı çox aşağı səviyyədədir. Respublikamızda son illər üzümlüklərin sahəsi və məhsul istehsalı nisbətən artmışdır. Ölkədə 2019-cu ildə 2008-ci ilə nisbətən bar verən yaşda olan üzüm bağlarının sahəsi 24% (3,2 min ha) artaraq 16,5 min hektara çatmış, ümumi üzüm istehsalı 74,3% (86 min ton), məhsuldarlıq 40,4% (3,52 ton) artaraq müvafiq olaraq 201,8 min ton və 12,23 s/ha təşkil etmişdir. 2020-ci ildə isə ümumi üzüm istehsalı 208 min ton olmuşdur (www.azstat.org AR DSK).

Azərbaycan keyfiyyətli texniki üzüm becərilməsi üçün mükəmməl ekoloji şəraitlərə sahibdir. Xüsusilə Şamaxı, Cəlilabad, Salyan, İsmayıllı, Samux, Göygöl, Tovuz, Şəmkir, Babək, Ağstafa, Qəbələ, Şabran, Culfa, Yevlax, Qazax, Şəki, Xaçmaz, Sədərək, Kürdəmir, Lənkəran, Qusar, Ağdaş, Ağsu, Füzuli, Abşeron, Beyləqan, Hacıqabul və b. bölgələrin dəmyə sahələri, isti və quraq yay inkişaf dövründə, gecələri sərinləyən havası ilə, keyfiyyətli şərab istehsalı üçün gilələrdə kifayət qədər səviyyədə şəkər toplama, yüksək turşuluq, aromatik maddə və tanin tərkibini təmin edir. Ölkəmizdə yerli və introduksiya olunmuş texniki üzüm sortlarının keyfiyyət xüsusiyyətlərinin öyrənilməsində müxtəlif araşdırmalar aparılmışdır [1, 2, 3, 4, 5, 6, 7, 8, 9].

Apardığımız araşdırmalar göstərir ki, şərabçılıq sənayesinin qarşısında duran əsas problem üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin nəzərə alınmaması, nəticədə yerli torpaq-iqlim şəraitinə uyğun olmayan üzüm sortlarından əldə edilən süfrə şərablarının olduqca aşağı keyfiyyətdə olmasıdır. Bundan başqa isti bölgələrdə ekoloji-coğrafi zonallıq xüsusiyyətləri nəzərə alınmadan salınan bağlardan əldə edilən tam yetişmiş üzüm şirəsində fenollar və xüsusilə uçucu aromatik birləşmələr, sərin bölgələrdən əldə edilənlərə görə əhəmiyyətli miqdarda aşağı səviyyədə olur. Məlumdur ki, yüksək temperatur şəraitində üzüm daha sürətlə formalaşması və yetişməsinə baxmayaraq, antosian ehtiyatı əhəmiyyətli dərəcədə az olur və çox zaman meyvə rəngi keyfiyyətli qırmızı şərab sənayesi üçün kifayət etmir. Lakin əksər bölgələrimizin ekoloji-coğrafi şəraiti texniki üzüm becərilməsi üçün uyğundur.

Bu tədqiqat işində, Azərbaycanın Dağlıq Şirvan bölgəsində yetişdirilən bəzi yerli və introduksiya olunmuş texniki üzüm sortlarının keyfiyyət xüsusiyyətləri və bu xüsusiyyətlərin bir-biri ilə olan əlaqələri araşdırılmışdır.

Tədqiq edilən xüsusiyyətlər baxımından təsviri statistikalar orta hesabla və standart xəta olaraq verilmişdir. Bu xüsusiyyətlər baxımından sortların qarşılaşdırılmasında "Bir faktorlu variasiya analizi" (One-way ANOVA) tətbiq edilmişdir. Variasiya analizləri ilə eyni zamanda fərqli sortların müəyyənləşdirilməsində Minimum Əhəmiyyətli Fərq (MƏF) metodu istifadə edilmişdir. Bundan başqa göstəricilər arasındakı əlaqələrin müəyyənləşdirilməsində Pirson korelyasiya əmsalı hesablanmışdır. Hesablamalarda statistik əhəmiyyətlilik səviyyəsi 1% və 5% olaraq götürülmüş və hesablamalar üçün SAS proqramından (SAS, 2005) istifadə edilmişdir.

**Cədvəl 1.**

**Bəzi texniki üzüm sortlarında salxım xüsusiyyətləri**

| Sort | Salxım eni (sm) | Salxım uzunluğu (sm) | Salxım kütləsi (q) | Salxım həcmi (ml) | 100 gilənin həcmi, $sm^3$ | Salxım iriliyi ($sm^2$) |
|---|---|---|---|---|---|---|
| Xindoqnı | 11,2±0,6 | 19,1±0,6 | 216,9±5,9 | 193,7±11,3 | 296,6±4.5 | 215,3±7,8 |
| Bayanşirə | 8,7±0,3 | 18,6±1,1 | 229,8±8,0 | 219,9±11,2 | 345,0±2.3 | 163,5±13,5 |
| Mədrəsə | 11,3±0,4 | 25,2±0,6 | 194,8±11,5 | 190,5±7,9 | 300,3±2.2 | 286,2±7,5 |
| Şirvanşahı | 12,8±0,5 | 28,6±0,7 | 336,8±24,5 | 306,5±18.8 | 325,4±3.5 | 367,2±7,7 |
| Roussanne | 9,4±0,4 | 21,2±0,5 | 238,1±2,3 | 226,3±6,2 | 287,8±1.8 | 200,7±7,2 |
| Chardonay | 7,6±0,6 | 14,7±1,0 | 146,2±6,8 | 136,7±4,9 | 278,5±2.6 | 112,8±13,4 |
| Carignane | 7,8±0,3 | 17,3±0,6 | 159,1±6,5 | 146,3±7,7 | 302,8±3.4 | 135,8±7,5 |
| Əhəmiyyətlilik | ** | ** | ** | ** | ** | ** |
| $P_{0,01}$(MƏF) | 0,8 | 1,7 | 37,6 | 31,4 | 38,1 | 21,2 |

**Cədvəl 2.**

**Bəzi texniki üzüm sortlarında gilə xüsusiyyətləri**

| Sort | Gilə uzunluğu (mm) | Gilə eni (mm) | Gilə kütləsi (q) | Gilə həcmi (ml) |
|---|---|---|---|---|
| Xindoqnı | 19.2±0.4 | 18,2 ±0.3 | 1,49±0.09 | 1.38±0.06 |
| Bayanşirə | 19,9±0.2 | 18,7±0.1 | 3,15±0.08 | 2.62±0.07 |
| Mədrəsə | 16,1±0.3 | 16,8±0.3 | 1.66±0.10 | 1.51±0.05 |
| Şirvanşahı | 19.2±0,5 | 18,3±0,3 | 2.17±0.12 | 2.06±0.02 |
| Carignane | 16.4±0.3 | 15.9±0.2 | 2.34±0.07 | 2.16±0.08 |
| Chardonay | 12.6±0.1 | 12.4±0.1 | 1.21±0.03 | 1.12±0.03 |
| Roussanne | 15.9±0.3 | 14.8±0.3 | 1.84±0.09 | 1.77±0.04 |
| Əhəmiyyətlilik | ** | ** | ** | ** |
| $P_{0,01}$ (MƏF) | 0.4 | 0.3 | 0.14 | 0.13 |

**Cədvəl 3.**

**Bəzi texniki üzüm sortlarının şirəsinin keyfiyyət xüsusiyyətləri**

| Sort | Brix(%) | pH | Turşuluq (%) | Brix/Turşuluq |
|---|---|---|---|---|
| Xindoqnı | 22.6±0.3 | 3.49±0.07 | 0.66±0.02 | 34,4±1.2 |
| Bayanşirə | 19.8±0.4 | 3.29±0.06 | 0.76±0.02 | 26.2±1.3 |
| Mədrəsə | 23.2±0.3 | 3.36±0.04 | 0.62±0.01 | 37.5±1.1 |
| Şirvanşahı | 24.4±0.6 | 3.16±0.03 | 0.58±0.03 | 42,2±1.5 |
| Carignane | 20.7±0.4 | 3.18±0.03 | 0.62±0.03 | 33,5±3,3 |
| Chardonay | 20.5±0.5 | 3.62±0.02 | 0.68±0.01 | 30.3±0.9 |
| Roussanne | 22.8±0.6 | 3.44±0.05 | 0.53±0.03 | 43.2±4.3 |
| Əhəmiyyətlilik | ** | ** | ** | ** |
| $P_{0,01}$(MƏF) | 0.8 | 0.08 | 0.03 | 4.8 |

**Cədvəl 4.**

2022-ci ilin fevral ayının 24-ə Rusiya ilə Ukrayna arasında başlanan müharibə dünya iqtisadiyyatına böyük zərbə vurdu. Bu münəqişə infiliyasiyanın sürətlənməsinə səbəb oldu.

Sirr deyil ki, Ukrayna və Rusiya beynəlxalq ticarətdə xüsusi yeri olan dövlətlərdi. Rusiya və Ukrayna ümumi bazar qiymətləri ilə qlobal ÜDM-in 2%-ni təşkil etmələrnə baxmayaraq, onlar əsas xammal və qida məhsulları, faydalı qazıntılar və enerji istehsalçısı və ixracatçısıdır.

Bu gün Ukrayna ərazisində gedən müharibəyə görə istehsalı dayandırmaq və ondan irəli gələrək idxalı dayandırmaq məcburiyyətindədir. Rusiya isə ölkəyə qoyulan sanksiyalar və daxili bazarın təminatının qorunması üçün strateji məhsulların xarici bazarlara ixacına qadağa qoyub [1].

Bir çox beynəlxalq təşkilatlar müharibənin nəticələri ilə əlaqəli proqnozlarını vermişdir. İqtisadi Əməkdaşlıq va inkifaf Tafkilatının (OECD), müharibənin mümkün gözləntiləri təhlil edərək proqnozlar vermişdir. OECD bildirmişdir ki, dekabr 2021-ci il hesabatinda 2022-ci ilda qlobal UDM-in 4.5% artacagi proqnozlaşdırılıldığı halda müharibənin başlanmasından etibarən əmtəə qiymətlərində və valyuta bazarında baş verən proseslər 2022-ci ildə qlobal ÜDM-in 1%-dən çox azalmasına və dunya üzrə inflyasiyanin 2.5% artmasina səbəb olacaq. Ukrayna və Rusiya münaqişəsi artıq iqtisadi va maliyyə şoklarina, xüsusilə də əmtəə bazarlarında neft, qaz va buğdanin qiymatlarinin artmasina səbəb olmuşdur.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) 2022-ci il üçün qlobal ticarət artımını proqnozlaşdırdığı 4,7% -dən 3,0%-ə endirib və səbəb olaraq. və qeyd edib ki, Ukraynadakı münaqişəsini qeyd edib. ÜTT proqnozlarına görə Ukraynda hərbi əməliyyatlar qlobal iqtisadiyyatına zərbə vurub, "bu, ÜTT iqtisadçılarını növbəti iki il üçün dünya ticarəti ilə bağlı proqnozlarına yenidən baxmağa vadar edib"[2].

ÜTT 2022-ci ildə mal ticarətinin 3,0% artacağını, əvvəlki 4,7% proqnozdan aşağı, 2023-cü ildə isə 3,4% artacağını gözləyir. ÜTT proqnozuna görə böhranın ən sürətli iqtisadi təsiri məhsul qiymətlərinin kəskin artmasıdır. ÜTT qeydlərinə görə, Rusiya və Ukrayna qlobal ticarət və istehsalatda kiçik paya malik olmalarına baxmayaraq, əsas malların, o cümlədən ərzaq, yanacaq-energetika məhsulları və gübrələrin, tədarükün əsas təchizatçılarıdır. Qara dəniz limanları vasitəsilə taxıl tədarükü artıq dayandığından yoxsul ölkələrin ərzaq təhlükəsizliyi üçün ciddi nəticələrə səbəb ola bilər.

Münaqişanin təsirlərinin əsas istiqaətləri yüksak enerji və xammal qiymətlari; beynalxalq ticaratin pozulmasıdır.

Nəzərə alcaq ki, dünyada taxıl ixraçının 30%-i bu dövlətlərin payına düşür (Ukrayna-11,5%, Rusiya – 16,8%). Dünyada qarğıdalı ixraçının 17%-I Ukrayna üzərinə düşür.

Rusiya və Ukrayna buğdanı Afrika və Yaxın Şərq ölkələrindən başqa Çin, Türkiyə və Hindistana ixrac edirlər.

Digər tərəfdən yanacaq və enerji daşıyıcılarının qiymətinin qalxması da ərzaq məhsullarının qiymətində əks olunur. Azərbaycana idxalın 17,4%-i ərzaq məhsullarının, 2,6%-i yanacaq enerji daşıyıcılarının üzərinə düşür [3].

Azərbaycan Rusiya və Ukrayna ilə sıx ticarət əlaqələrinə malikdir. Rusiya və Ukrayna Azərbaycanın idxal üzrə uyğun olaraq 1-ci və 7-ci tərəfdaşıdır. 2021-ci ildə bu ölkəlrdən uyğun olaraq 2,1 milyard dollar və 0,5 milyard dollar mal idxal olunub [3].

2021-ci ildə Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi 3,355 milyard ABŞ dolları təşkil edib, 2020-ci ilə nisbətən 16,12% artıb. Bunun 2,1 milyard dolları Rusiyadan idxal, 0,921 milyard dolları isə bu ölkəyə ixracın payına düşür. Ötən il Rusiya ilə ticarət xarici ticarət dövriyyəmizin 8,83 faizini təşkil edib. O cümlədən Azərbaycana idxalda Rusiyanın payı 17,72 faiz, ixracda isə 4,15 faiz təşkil edib. 2020-ci illə müqayisədə Rusiya ilə ticarətin həcmi 12,1 faiz, bu ölkəyə ixrac 29,8 faiz, bu ölkədən idxal 5,7 faiz artıb[4].

Azərbaycan taxılın 83%-ni, şəkərin isə 100%-ni Rusiyadan idxal edir. Taxıl idxalında Rusiyanın payı 98,8%, Qazaxstanın payı 1,2%-dir. Azərbaycanın Rusiyadan idxal etdiyi əsas məhsullardan biri də meşə məhsullarıdır (2021-ci ildə 100 milyon dollar). Azərbaycan bir çox məhsulları 100% Rusiyadan idxal edir [6].

2021-ci ildə Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 922,5 milyon ABŞ dollar təşkil edib. Azərbaycan Ukraynadan 452,5 milyon ABŞ dollar dəyərində məhsul idxal edib. Azərbaycanın Ukraynaya ixracının həcmi 470 milyon ABŞ dollar təşkil edib [6].

Ukrayna Azərbaycanın postsovet ölkələri arasında Rusiyadan sonra ikinci ticarət tərəfdaşıdır. Ukrayna ilə idxal məhsulları siyahısında əsasən tütün məmulatı və siqaretlər, ət və ət məhsulları, ərzaq məhsulları, dərman ləvazimatları üstünlük təşkil edir.

Bu siyahını davam etdirə bilərik. Hər iki ölkə üzrə idxal məhsullarının siyahısı çox böyükdür. Bu ölkələrdən məhsul idxalının dayanması Azərbaycan bazarında tələb-təklif nisbətinin dəyişməsinə, qiymət artımına səbəb olacaq.

Qiymət artımının qabağı alınması üçün alternativ bazarlar axtarılır. Təbii ki, ən uyğun yol idxaldan asıllığın aradan qaldırılmasıdır. Məsələn, 2021-ci ildə ölkədə 595 min hektar ərazidə buğda əkilib. Praktik olaraq əkin sahələrinin 38 faizi buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur və son illər istehsalda cüzi olsa da artımlar müşahidə edilməkdir. İşğaldan azad olunan ərazilər də buğda istehsalına cəlb ediliblər.

Rusiya və Ukraynadan idxal olunan məhsular digər ölkələrlə əvəzlənməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Астрид Пранге, Де Оливейра. Пшеница дорожает из-за войны и коронавируса. Есть ли выход?, https://beta.dw.com/ru/pshenica-dorozhaet-iz-za-vojny-v-ukraine-i-koronavirusa-est-li-vyhod/a-61212406
2. https://www.macmap.org/OfflineDocument/UKRRUS/Sanction_UKR_01.pdf
3. https://latifundist.com/
4. www.stat.gov.az – The State Statistical Committee of the Republic of Azərbaycan.
5. Food and Agriculture Organization of the United Nations (FAO). (2022). *Information Note*: The importance of Ukraine and the Russian Federation for global agricultural markets and the risks associated with the current conflict. https://www.fao.org/3/cb9013en/cb9013en.pdf.
6. www.trademap.org – Trade Statistics for International Business Development.

**İrşad Abdul oğlu Kərimli**
i.e.d., prof. Azərbaycan Dövlət
İqtisad Universiteti (UNEC)
E-mail: irshad.karimli@unec.edu.az

**Abdulla Jasim Ashamsi**
Azərbaycan Dövlət
İqtisad Universitetinin Dissertantı (UNEC)

**Elçin Təhməz oğlu Eyvazov**
i.f.d., dos. Azərbaycan Dövlət
İqtisad Universiteti (UNEC)
E-mail: unec.iqtisad030@gmail.com

# BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİ MÜSTƏVİSİNDƏ CƏNUBİ QAFQAZIN NƏQLİYYAT-KOMMUNİKASİYA POTENSİALININ ARTMASI İMKANLARI

**Xülasə**

Cənubi Qafqazın coğrafi mövqeyi və strateji əhəmiyyəti regiona daxil olan ölkələrin keçən əsrin 90-cı illərdən başlayaraq siyasi və iqtisadi müstəqillik əldə etmələri ilə daha da artmışdır. Siyasi və iqtisadi müstəqilliyə yalnız region çərçivəsində deyil daha çox regionun əhatə olunduğu yaxın və uzaq qonşu ölkələrin baxış müstəvisində də baxmaq lazımdır. Bu mənada Cənubi Qafqazın beynəlxalq nüfuz qazanan Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri ilə əlaqələnmək imkanlarının böyük olması regionun strateji və geoiqtisadi əhəmiyyətini daim artırır. Cənubi Qafqazın istər regional və istərsədə beynəlxalq müstəvidə iqtisadi və siyasi təsir dairəsinin genişlənməsi dünyanın super gücə malik ölkələrin diqqətini daha çox cəlb etməkdədir.

## Giriş

Türkiyənin Cənubi Qafqaz siyasəti yeni keyfiyyət mərhələsinə keçməsi, regiondakı mövqeyinin möhkəmlənməsi, regional iqtisadi əməkdaşlıq və inkişaf baxımından çox əhəmiyyətlidir. Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq əlaqələri müstəvisində enerji və nəqliyyat marşurutlarının çəkilməsinə və inkişaf istiqamətinə diqqət yetirmək lazımdır. Qeyd edilən marşurutlar regional təhlükəsizlik üzrə yeni əməkdaşlıq imkanlarının aşkara çıxarılması baxımından da çox əhəmiyyətlidir. Terrorçuluq, seperatçılıq, narkotik qacaqmalçılıq kimi beynəlxalq cinayətkarlıqla mübarizədə Azərbaycan, Gürcüstan və Türkiyə birgə əməkdaşlıq etməklə yanaşı, ticarət, enerji, nəqliyyat-logistika və bank xidmətləri sahələrində birgə layihələr hazırlayır [6, s. 117]. Bu istiqamətdə Bakı Beynəlxalq Dəniz Ticarət limanının fəaliyyəti Azərbaycanın, Gürcüstanın və Türkiyənin Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizində önəmli bir qapı rolunu oynaması Cənubi Qafqazın Türkiyə ilə birlikdə beynəlxalq iqtisadi inkişafa böyük töhfə verəcəyi həqiqətə çevrilməkdədir.

Cənubi Qafqazın Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat layihələrinin bir-başa iştirakçısı olması və bu layihələrin həyata keçməsində regionun lider ölkəsi olan Azərbaycanın bütün ərazisinin, xüsusən onun Qarabağ bölgəsinin müstəsna əhəmiyyətini görə bilərik.

Dünya təcrübəsindən və Qarabağ regionun mövcud reallığından göründüyü kimi infrastrukturun yarımsahələri sırasında nəqliyyat-kommunikasiyanın ilk öncə qurulması və onun danılmaz fakt olması bir daha özünü göstərməkdədir [1, s. 3]. Bu mənada Qarabağ regionunun bərpası və yenidən qurulması istiqamətində ilk öncə regionun nəqliyyat kommunikasiya şəbəkəsini, xüsusən Fizuli, Lçın və Zəngilan hava limanları tikintisinin aparılması, Qarabağın bütün bölgələrini əhatə edən dəmir və avtomobil yollarının salınması Zəngəzur dəhlizində işlərin sürətlə aparılması diqqəti daha çox cəlb edir. Fizuli hava limanının tikintisinə post müharibə düvrünün ilk günlərdən start verildiyi cəmi 8-9 ayda tikintini başa çatdırılmışdır. Fizuli beynəlxalq hava limanı iri həcimli müasir innovasiya texnologiya ilə təhciz edilmiş təyyarələrin istifadəsinə verilmişdir. Yaxın illərdə Laçın və Zəngilan hava limanları da istifadəyə veriləcəkdir. Belə coğrafi, iqtisadi və strateji üstünlük Azərbaycanı

gələcəkdə beynəlxalq nəqliyyat mərkəzinə çevirməyin obyektin ilkin şərtlərini də hazırlamışdır. Bu isə öz növbəsində Azərbaycanı beynəlxalq nəqliyyat layihələrin hər ikisində iştirak etmək imkanı yaratmışdır [2, s. 75]. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi çox az sayda dövlətlərin təşəbbüsü ilə yaradılsada, sonradan həmin layihəyə qoşulan ölkələrin sayı layihə üzrə saziş qüvvəyə mindikdən sonra daha da artmış və beləliklə həmin zamandan etibarən Türkiyə və Azərbaycanda həmin sazişə qoşularaq layihənin daha fəal iştirakçısına çevrilmişlər. Layihənin reallaşması qısa, orta və uzun müddətli məqsədə çatmaq vasitələrini qarşıya qoymaqla yalnız Cənubi Qafqaz regionu üçün deyil daha çox beynəlxalq əhəmiyyətli vəzifələri yerinə yetirməkdədir (bax şəkil 1).

**Şəkil 1.**

**Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsinin vasitələri və istiqamətləri**




Qeyd: Şəkil mövcud reallıqlara əsaslanaraq müəlliflər tərəfindən tərtib edilmişdir.

**"Şimal-Cənub", "Qərb-Şərq" beynəlxalq nəqliyyat dəhlizlərində Azərbaycanın iştirak imkanlarının artması.**

Cənubi Qafqaz regionun özünəməxsus iqtisadi və siyasi əhəmiyyəti ilə yanaşı böyük strateji əhəmiyyət kəsb edən və regionun ərazisindən keçən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin daha çox şaxələnə bilməsi dəhlizin bir neçə konkret marşurutlarını zəruri etmişdir. Marşurutlar Şimalı və Qərbi Avropa ölkələrindən başlamış Baltikyanı və Xəzər hövzəsi ölkələrini və əksinə istiqamətdə magistral-nəqliyyat kommunikasiya əlaqələrinin sistemli qarşılıqlı bağlılığını əks etdirə bilir.

**Beynəlxalq nəqliyyat dəhlizlərini şərtləndirən başlıca marşurutlar.**

Qeyd edilən dəhliz üzrə yük və sərnişin daşımaları Şimalı və Qərbi Avropadan başlayaraq Qafqaz istiqamətində dəmir və avtomobil yolu ilə, buradan isə Cənub Qafqaz (əsasən Azərbaycan və Gürcüstan) istiqamətində aşağıdakı 3 marşurut üzrə həyata keçirilir.

1.Transxəzər marşrutu.

2.Şərq marşrutu.

3. Qərb marşrutu.

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin qeyd edilən hər üç marşrutunun Cənubi Qafqazın ərazisi ilə birbaşa və dolayı əlaqələnməsi və həmin marşrutların İran ərazisindən keçib Körfəz ölkələrinin ərazisi vasitəsilə Hindistana qədər uzanması, bununla da Cənubi və Cənubi-Şərqi Asiya ölkələri ilə Avropa ölkələrinin arasında yük və sərnişin daşımalarının dəniz yolu ilə daşımalara nisbətən daha qısa zaman kəsiyində və daha az xərclərlə başa gəlməsinə səbəb olmuş olur [9].

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissələri olan həmin marşurutlarda yük və

sərnişin daşımalarının iqtisadi səmərəsi bütün hallarda daha sərfəli texniki, istismar imkanlarından, gömrük-tarif və sair başqa şərtlərdən asılı olaraq formalaşır. Sözsüz ki, qeyd edilən dəhlizin Cənubi Qafqazın, yəni Azərbaycanın və Gürcüstanın ərazisindən keçməsi həmin marşruta daha çox füsunkarlıq və cazibədarlıq verir. Məsafənin qısalığı, daşımalara daha az vaxt sərf olunması, mövcud nəqliyyat infrastrukturu və regionun tranzit əraziyə çevrilməsi amilləri xüsusi rol oynayır [4, s. 57].

Qeyd edilən amilləri daha da fəallaşdırmaq, onların təsir dairəsini genişləndirmək istiqamətində Cənubi Qafqazdan keçən Transxəzər marşrutuna qoşulacaq ölkələrlə iş birliyinin qurulmasına, iqtisadi əməkdaşlıq layihələrinin sürətlə reallaşmasına diqqəti artırmaq lazımdır. İlk növbədə həmin layihələrin nəinki təşəbbüskarı, daha çox isə onun reallaşmasında xüsusi əzmkarlıq göstərən Cənubi Qafqazın Azərbaycan və Gürcüstan kimi coğrafi mövqeli, tranzit potensiallı ölkələrinin təbii və iqtisadi imkanlarını nəzərə alınmalıdır. Bu istiqamətdə hər iki ölkənin mövcud nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsi və daha mükəmməl yeni nəqliyyat infrastrukturu layihələrinin həyata keçirilməsinə başlanılmış və hal-hazırda həmin layihələrin reallaşması öz nəticəsini verməkdədir.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi vasitəsilə Cənubi Qafqazın o, cümlədən Azərbaycanın və Gürcüstanın ərazisindən yüklərin böyük hissəsinin daşınmasında dəmir yolundan və avtomobil yolundan istifadə nəzərdə tutulur. Burada əsas vasitə kimi yüklərin bir nəqliyyat növü ilə iri partiyalarla tez bir zamanda daha uzaq məsafəyə daşınması diqqət mərkəzində saxlanılır. Beynəlxalq ekspertlərin rəyinə görə qeyd edilən göstəricilərə görə istər Qərb və istərsə Şərq istiqamətində Azərbaycanın ərazisi daha səmərəli sayıldığından Azərbaycan dəmir yollarının Türkiyə və İran dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və indi də həyata keçirilməkdədir.

Bakıdan Türkiyə istiqamətinə ayrılan dəmir yolu ilə daşınan yüklərin və sərnişinlərin "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üçün nə dərəcədə əhəmiyyətli olması aparılan təhlil materiallarından və bu təhlilin nəticələrindən görmək olar. Məsələn, qeyd edilən dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək imkanı əldə edilmişdir. Bakı – Tbilisi – Qars dəmir yolu Bakı – Tbilisi – Ceyhan neft boru kəməri və Bakı – Tbilisi – Ərzurum qaz kəməri xəttindən sonra 3-cü böyük layihədir.

Cənubi Qafqazın hər iki ölkəsi olan Azərbaycan və Gürcüstanla yanaşı Türkiyənin də iqtisadiyyatın inkişafına öz töhfəsini verməkdədir. Hesablamalar göstərir ki, yalnız Azərbaycan, Bakı – Tbilisi – Qars dəmir yolu istismara verildiyi ilk 2017-2020-ci illərdə 150 mln. dollar minimal tranzit gəliri əldə etmişdir [3, s. 275]. Bu məbləğə yaxın olan vəsaiti Gürcüstan, bir qədər çox isə Türkiyə əldə etmişdir. Fərq yalnız dəmir yolu xəttinin hansı ölkənin ərazisindən keçməsinin məsafəsindən asılı olaraq yaranır ki, bu da tranzit gəlirinin formalaşmasından asılı olaraq yaranır. Dəmir yolu xəttinin keçdiyi ölkələrin ərazi məsafəsi həlledici olsa da, hər halda bu beynəlxalq xətt Cənubi Qafqazı ilk öncə Türkiyə ilə, daha sonra isə Qərbi Avropa ilə birbaşa birləşdirmişdir.

**Nəticə**

Cənubi Qafqaz regionunu beynəlxalq əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək imkanları regionun strateji coğrafi mövqeyindən səmərəli istifadə edilməsinə şərait yaradır, beynəlxalq innestisiya axınlarını regiona cəlb edilməsini stimullaşdırır. Cənubi Qafqaz regionunun investisiyaların beynəlxalq hərəkəti üçün strateji coğrafi mövqeyə malik olması bütün hallarda regionun nəqliyyat logistika mərkəzinə cevrilməsindən asılılığı daha artır. Qeyd edilən strategiyanın tərkib hissəsi kimi formalaşan və eyni zamanda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət limanı kompleksi regionun tranzit imkanlarının genişləndirilməsində həlledici əhəmiyyətə malikdir. Regionda belə tranzit potensialının yaranması regiona daxil olan və regiondan ixrac olunan investisiyaların həcminin və dəyərinin artırılmasına imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri. Bakı 2021
2. Azərbaycan beynəlxalq aləmdə (cild 1-5). Bakı 1999

3. Azərbaycanın statistik göstəricilər 2020-ci il. Bakı Statistika komitəsi 2021
4. Quliyev R.İ. "Böyük transformasiya: Azərbaycan təşəbbüsləri". Bakı 2001
5. Иванов Г.И. «Региональное управление». Зарубежный опыт. Москва 1993
6. Vəliyev D. "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında". Bakı 2015, səh.504
7. Щетинин В.Д. «Экономическая дипломатия». Москва 2021
8. www.un.org.BMT

**Aygün Əziz qızı Kərimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Müəllim
AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu, doktorant
**E-mail:** kerimova_00@list.ru

## ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA DAYANIQLI KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI PRİNSİPLƏRİ

**Xülasə**

Məqalədə işğaldan azad olunmuş Şərqi-Zəngəzur iqtisadi rayonunda ətraf mühitə vurulan zərərdən, torpaq ehtiyatlarından, xüsusilə, kənd təsərrüfatına yararlı torpaqlardan istifadənin iqtisadi dəyərləndirilməsindən bəhs olunur. Kənd təsərrüfatı istifadəsinə yararlı hesab olunan torpaqların keyfiyyət göstəricilərinə görə aqroistehsalat qruplaşması verilmişdir.

Kənd təsərrüfatı ənənəvi istehsal sahəsi olmaqla, respublikamızın iqtisadiyyatının ən əsas sahələrindən biridir, ölkəmizin inkişafında, əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşmasında, yeni-yeni iş sahələrinin yaradılmasında mühüm rol oynamışdır. 1969-1982-ci illərdə Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə kənd təsərrüfatı sürətlə inkişaf etməyə başlayaraq, keçmiş SSRİ-nın ən çox kənd təsərrüfatı məhsulları istehsal edən bölgələrindən biri olmuşdur. Ümummilli Liderin yüksək təşkilatçılığı, misilsiz işgüzarlığı sayəsində vaxtilə kənd təsərrüfatı sahəsində olan gerilik aradan qaldırılmış, yeni emal müəssisələrinin, sənaye sahələrinin, zavodların fəaliyyətinə başlanılmışdır [7].

Kənd təsərrüfatı sahəsində əldə olunan nailiyyətlər, istifadəyə verilən bir çox zavod və fabriklər, heyvandarlıq kompleksləri, yaradılan su anbarları, ümumilikdə desək, küllü miqdarda maliyyə vəsaiti hesabına yaradılan və inkişaf etdirilən kənd təsərrüfatı çox təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərində qısa bir müddətdə daxildə olan bədxahlar tərəfindən AXC hakimiyyəti dövründə acınacaqlı vəziyyətə salındı, qəddar erməni işğalçıları tərəfindən bərəkətli torpaqlarımızın 20 faizi işğal olunmuş və həmin ərazilərdə mövcud olan çoxlu sayda kənd təsərrüfatı obyektləri dağıdılmış, məhv edilmişdir. 30 il ərzində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal altında olan əkinə yararlı torpaq sahələri istifadəyə yararlılıq vəziyyətini itirmişdir. Ərazilərdə qəsdən törədilmiş yanğınlar nəticəsində torpağın üst, münbit qatının strukturu korlanmış, torpaqlar eroziyaya uğramış, buradakı nadir bitki və heyvan növləri, bitkilər üçün vacib olan mikroorqanizmlər məhv olmuş, ümumilikdə ekoloji mühitdə tarazlıq pozulmuşdur. Təbii ki, bu da bütün region üçün olduqca təhlükəli problemlərin yaranmasına səbəb olmuşdur [4].

Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilmişdir. Bunun da mənfi nəticəsi birbaşa torpağa dəymişdir, əkinə yararlı torpaqlar sıradan çıxmışdır. Eyni zamanda, bu torpaqların uzun müddət əkilib-becərilməməsi onun pisləşməsinə səbəb olmuşdur ki, bu da gələcəkdə həmin torpaqlardan yüksək məhsul əldə etməyə zəmanət vermir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə yaradılmış* Şərqi Zəngəzur iqtisadi rayonu timsalında regiounun tədqiq edilməsi və təbii ehtiyatlarının (eləcə də, torpaq, su və meşə örtüyünün) hərtərəfli öyrənilməsi gündəmdə olan məsələlərdən biridir.

29 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidenti və Ali Baş Komandan cənab İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanın 7.4, 7.5, 7.7 və 7.8-ci yarımbəndlərində aşağıdakı məsələlər

qeyd olunur: infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılması və mühafizəsi; kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizodik vəziyyətinin ilkin qiymətləndirilməsi;...ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi; tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi [2, 6].

İşğaldan azad olunmuş kənd təsərrüfatına yararlı torpaqların 207,0 min hektarı (30,4%) əkinçilikdə, 54,7 min hektarı (8,0%) çoxillik əkmələr altında, 380 min hektardan çoxu (55,9%) heyvandarlığın inkişafı üçün mühüm əhəmiyyətə malik örüş-otlaq sahələrindən ibarət idi. Bu torpaqların əksəriyyəti yay otlaqlarından ibarət olmuşdur [1]. Kənd təsərrüfatına yararlı torpaqların 128,2 min hektarı, əkin torpaqlarının 80,5 min hektarı, çoxillik əkmələrin 38,2 min hektarı suvarılan olub (Cədvəl 1).

Bu torpaqların əksər hissəsi keyfiyyət xüsusiyyətlərinə görə respublikanın digər ərazilərinin torpaqlarına nisbətən daha münbit torpaqlardır. Respublikada I keyfiyyət qrupuna (yüksək keyfiyyətli torpaqlara) və II keyfiyyət qrupuna (yaxşı keyfiyyətli torpaqlara) daxil olan torpaqların 24%-dən çoxu Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində yayılmışdır.

Bu torpaqların uzun müddətdə işğal altında olduğuna görə istifadəsiz qalması, işğalçı "vandallar" tərəfindən qeyri-düzgün istifadəsi, çirkləndirilməsi, strukturuinun pozulması nəticəsində demək olar ki, yararsız vəziyyətə düşmüş, kənd təsərrüfatı dövriyyəsində birbaşa istifadəsi mümkünsüz olmuşdur.

**Cədvəl 1**

**Şərqi Zəngəzur iqtisadi rayonunun torpaq ehtiyatlarının tərkibi (ümumi/suvarılan, min ha)**

| Rayonlar | Ümumi sahə | Kənd təsərrüfatına yararlı | O cümlədən | | | | | Meşəliklər |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Əkin | Çoxillik əkmələr | Dinc | Biçənək | Örüş-otlaq | |
| Kəlbəcər | 199,0 | 91,2 | 4,0 | -- | 2,3 | 7,6 | 76,4 | 62,8 |
| | 1,4 | 1,4 | 1,2 | -- | -- | 0,1 | -- | -- |
| Laçın | 182,6 | 90,9 | 12,1 | 0,2 | 3,7 | 4,7 | 69,3 | 63,3 |
| | 1,5 | 1,5 | 0,9 | 0,2 | -- | -- | 0,1 | -- |
| Zəngilan | 72,6 | 34,6 | 7,7 | 2,7 | 0,1 | 0,2 | 23,3 | 19,6 |
| | 5,3 | 5,3 | 3,6 | 1,5 | -- | -- | -- | -- |
| Qubadlı | 84,2 | 34,6 | 15,0 | 0,9 | -- | 0,6 | 17,6 | 18,4 |
| | 5,3 | 5,3 | 4,5 | 0,6 | -- | -- | -- | -- |
| Cəbrayıl | 111,6 | 52,6 | 20,5 | 7,2 | 0,6 | -- | 23,2 | 14,0 |
| | 12,6 | 12,6 | 5,8 | 5,3 | -- | -- | 0,9 | -- |

Hal-hazırda bu torpaqların əsas hissəsi işğaldan azad edilmişdir və qarşıda duran ən vacib problemlərdən biri həmin torpaqların yenidən bərpası və maksimum səmərəli istifadə edilməsindən ibarətdir. İşğaldan azad olmuş torpaqlarımızda, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf istiqamətlərini düzgün müəyyən etmək, kənd təsərrüfatına yararlı torpaqlardan istifadənin səmərəliliyini təmin etmək üçün torpaq örtüyünün xüsusiyyətlərini və onun kənd təsərrüfatına yararlılıq səviyyəsini nəzərə almaq olduqca vacibdir. Beləliklə, kənd təsərrüfatı sahəsinin bərpası məsələlərini aşağıdakı əsas istiqamətlər üzrə qruplaşdırmaq olar [5]:

- Torpaq və su ehtiyatlarından səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və torpaq islahatının aparılması;
- Aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması;
- Heyvandarlıq fermalarının qurulması;
- Məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması;

- Aqro-emal müəssisələrinin yaradılması;
- Kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-məsləhət xidmətinin təşkili;
- Spesifik dövlət dəstəyi mexanizminin yaradılması.

Dövlət başçısı tərəfindən həyata keçirilən məqsədyönlü islahatlar digər sahələrdə olduğu kimi aqrar sahədə də öz dinamik inkişafı ilə mövcud çağırışlara cavab verir. Belə ki, “Aqrar sahədə yeni Elektron kənd təsərrüfatı mexanizminin yaradılması haqqında” imzalanmış Fərman kənd təsərrüfatının inkişafı istiqamətində yeni uğurların qazanılmasına yönəlmiş, dayanıqlı kənd təsərrüfatı istehsalına təkan verən yeni texnologiyaların tətbiqi genişlənmişdir. Həmin fərmana əsasən zaman itkisinin qarşısı alınmaqla, fermerlərin subsidiyalara əlçatanlığı daha da asanlaşacaq. Eyni zamanda yeni qaydalar kənd təsərrüfatı kooperativlərinin fəaliyyətinə təkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerləri üzrə bölgüsünə dair məlumat. Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, 2019, 4 səh
2. İlham Əliyev azad edilmiş torpaqlarla bağlı planları 2020-ci ilin yekunlarıma həsr olunmuş videoformat müşavirəsi. 7 yanvar 2021-ci il.
3. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: “Elm”, 2007, 664 s.
4. Süleymanov E., Süleymanov V. – Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2013, 176 s.
5. Vəliyev A.H. Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri. Bakı: “Avropa”, 2019, 386 s.
6. https://aqreqator.az/az/siyaset/1077208
7. http://anl.az/down/meqale/azerbaycan/2010/aprel/116455.htm

**Ləman Novruz qızı Şirinova**
Azərbaycan Universitetinin Magistrantı MBA Mühasibat uçotu

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KAPİTALIN UÇOTU VƏ AUDİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

*“Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya,sərbəst iqtisadiyyat və sahibkarlıq yoludur.”*
***H.Ə.Əliyev***

Ölkəmiz dövlət olaraq müstəqilliyinin təmin edilməsindən sonra istər bazar münasibətlərinin inkişafında,dərinləşməsində aparacı iqtisadi islahatlar sayəsində dünya təsərüfat sisteminə daha sürətli şəkildə daxil olunması üçün aktual şərait yaratmışdır. Belə bir şəraitdə iqtisadiyyatımızın formalaşması, milli iqtisadiyyatın inkişafı əsasında mövcud dünya bazarında yerinin müəyyən edilməsi və imkanlarının artırılmasında mövqeyinin möhkəmləndirilməsində dövlətin siyasi-iqtisadi fəaliyyətinin əsas istiqamətinə çevrilmişdir.

Məhz Heydər Əliyev Cənablarının siyasətinin xüsusi istiqamətləri əsasında müəyyən etdiyi strategiyada milli iqtisadiyyat istiqamətlərinin sabitləşdirilməsi, islahatlaşdırma aparılması,iqtisadi artımın təmin edilməsi, sosial rifahın yüksəldilməsi, dünya bazarında inteqrasiyaya nail olunması və bu kimi mühüm aspektlər təşkil edir.

Respublikamızda bazar iqtisaddiyyatına keçid dövründə müəyyən dəyişikər baş vermiş, bu dəyişikliklər öz əksini təbidir ki, islahatların aparılmasında və xüsusi məzmunlu yeni ictimai-siyasi əlaqələrin formalaşdırılmasında əks etdirir və bu siyasətin həyata keçirilməsində rəhbərimizin öncəlikli rolu vardır. Xüsusilə bazar iqtisadiyyatına keçidi nəzərdə tutduğumuz zaman əsas prioritet olaraq müxtəlif mülkiyyət növlərinə azad sahibkarlığa iqtisadi münasibətlər haqsız rəqabətə və inhisarçılığa yol verilməməsi və bu kimi inkişaf məsələlərinə daim önəm verilməlidir. Əlbətdəki Ümumilli Liderimiz Heydər Əliyev Cənabları bu baxımdan qeyd edir: “İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir”

Mövcud iqtisadiyyatımızın xüsusi çərçivədə inkişaf etdirilməsində möhtərəm prezidentimiz Heydər Əliyevin fikirləri daim diqqət mərkəzindədir. O ifadə edirdi ki, “20-ci əsrin son mərhələsində əsas fərqləndirici xüsusiyyətlər dünyada getdikcə artan qarşılıqlı asıllıq regionlaşma - dünya iqtisadiyyatının birləşməsidir. Ölkə olaraq ,heç bir ölkə nə qədər böyük imkanlara malik olsada yalnız öz çərçivəsində iqtisadiyyatının lazımı səviyyədə inkişaf etdirməyə qadir ola bilməz. İqtisadiyyatın inkişafına nail olunması üçün xarici investisiyaların səfərbər edilməsi ölkəmizdə milli iqtisadiyyatın formalaşması və inkişafı üçün əsas aslılıq meyarlarıdır. Müstəqilliyə nail olduqdan sonra ölkəmizin güclü dövlət kimi əsasını qoyulmasında neft saənayesi mühüm amil kimi rol oynamışdır.

Son dövrlərdə müstəqilliyə nail olmaqla Azərbaycan nefti kecmiş ittifaq ehtiyyaclarının qarşılanması üçün deyildə məhz öz ölkəsinin , xalqının , milətinin maddi rifah şəraitinin daim yüksək səviyyədə olması üçün isatifadə edilmişdir. Rəhbərimizin neft sanayesi ilə bağlı islahatları sayəsində inkişafını təmin etdirmək məqsədilə, mövcud vəsaitlərdən bu sahələrdə uyğun olaraq istifadə etməklə,əhalinin sosial şəraitinin təmin edilməsində və yaxşılaşdırılmasında misilsiz surətdə çıxış etməkdədir.

Azərbaycanda da həmçinin keçid dövrünə təsadüf edən sosial iqtisadi problemlər özünü büruzə vermişdir və bu problemlərin həllini həyata keçirilməsində neft strategiyası uğurla öz rolunu başa vurmuşdur.Azərbaycanda neft strategiyası çox mühüm istiqamətlərdə fəaliyyətlərin reallaşdırılmasında və işlərin görülməsində əsas olmuşdur. Azərbaycanın düzgün istiqamətdə idarə olunmasında və tətbiq edilən siyasətin və bu sahədə atılan addımların yüksək səviyyədə qiymətləndirilməsində möhtərəm Heydər Əliyev Cənablarının rolu əvəz olunmazdır. Keçid dövrünün başlanğıc illərində ölkə olaraq iqtisadi-siyasi baxımından aşağı səviyyədə öz yerini tutsada inkişafa nail olmaqda kifayət qədər çoxlu kapital tələbi mövcud idi. Bu tələbin ödənilməsində ölkəmiz də məhdud maliyyə imkanlarına malik idi [1,s2].

İlkin olaraq bu fəaliyyətlərin , problemlərin həll yolu kimi böyük miqdarda investisiyaların cəlb edilməsi tələbi aktual idi.

Məhz “Əsrin Müqaviləsi” kontraktı imzalanmaqla ölkənin iqtisadi inkişafa doğru addımlamasında ilkin rol almaqla əhəmiyyətini olduqca artırdı. Bu müqavilələr ölkədə iqtisadiyyatımızın dirçəlişi üçün əsassız zəmin yaratmaqla yanaşı , xalqda ruh yüksəkliyinin qalxmasına təkan verdi.

Müasir tələblərin həyata keçirilməsinin əsas reallıqları bunun əsasında qurulur ki, heç bir ölkə xarici iqtisadi əlaqələrsiz və müxtəlif ölkələrlə qarşılıqlı əşməkdaşlıq etmədən öz iqtisadiyyatında optimal inkişafının əsasını təmin edə bilməz. Bü yönümlü atılan addımlar ölkələri istər beynəlxalq , istərsədə regional səviyyədə əlaqələr qurmağa sövq edir. Bu əlaqələrin əsasını maddi nemətlərin, xidmətlərinin istehsal edilməsi və mübadiləsi sahəsində əlaqələr təşkil edir.

Azərbaycan dövlət olaraq elə bir siyasət həyata keçirdir ki, o öz əksini bəhrəsini verir və bunun əsasında xalqın maddi rifahı daim yüksək səviyyəyə qalxması müşayiət edilir. Nəhayət rəhbərimizin ilk olaraq qeyd etdiyimiz ifadədəki kimi əsaslı dövlətin strateji yolu qarşılıqlı şəkildə həyata keçirilən və tətbiq olunan ölkədə sahibkarlıq fəaliyyəti,biznesin inkişaf etdirilməsi,sərbəst bazar iqtisadiyyatı,demokratiya vəhdətindən ibarətdir [1,s3].

Bazar iqtisadiyyatı dedikdə,ilkin olaraq iqtisadi azadlığa üstünlük verilməlidir. İqtisadi azadlıq dedikdə isə mövcud olan bazar iqtisadiyyatı şəraitində firmaların,sahibkarların, fərdlərin və digər təsərüffat subyektlərin fəaliyyəti nəzərdə tutulmamalıdır. O əsaslı olaraq azad iqtisadiyyatın inzibati komanda iqtisadiyyatından fərqləndirən istiqamətlərə yönəlik əlaqələrdən təşkil olunmalı və onlar üzrərində ciddi təsiri olmalıdır.

Azərbaycan dövləti bazar iqtisadiyyatının fərqləndirilən xüsusiyyətlərində və digər müsbət cəhətlərindən çıxış edərək müasir sosial yönümlü açıq bazar iqtisadiyyatı qurmaqla öz yolunda irəliləməkdədir. Bazar əsas olaraq rəqabətdir, bu hər-hansısa birinin uğuru-müvəffəqiyyəti digərinin isə uğursuzluğu-müvəffəqiyyətsizliyidir. Bazar iqtisadiyyatı gəlir və bunu əsasında formalaşan istehlakdakı fərqlər kimi təzahür olunur [1,s5].

Müəssisənin fəaliyyətinin əsasında idarəetmə strukturu durur.İdarəetmə ümumi anlayışdır , hansı ki , bütün sahələrdə işin əsasını təşkil edir.Müəssisələrin idaretməsinin əsasında birbaşa olaraq əsaslı rol kapitalla bağlıdır.Müəssisələrdə tətbiq edilən idarəetmə müəyyən mərhələlərdən təşkil olunur.Bu mərhələlər 3hissəyə ayrılır : planlaşdırma,planın reallaşdırılması və nəzarət

Kapitalın idarə olunması dedikdə müəssisənin maliyyəsinin idarə olunması nəzərdə tutulur.Kapital gəlir gətirən və aktivlərə qoyulan vəsaitlərdən təşkil olunur. Şirkətin aktivləri əsas və dövriyyə vəsaitləridir. Müəssisənin aktivləri müəssisənin mülkiyyəti və pul vəsaitləridir. Kapital xüsusi bir

kateqoriyadır. Bütün maliyyə resursları kapitalı olaraq çıxış etmir. Maliyyə resursları sahibkarlıq fəaliyyətinə daxil olan kapitaldır.

Kapital bir-birilə əlaqəli olan iki əsas hissədən təşkil edilir. Birincisi aktiv kapital, ikincisi isə passiv kapital. Aktiv kapital dedikdə müəssisənin mühasibat balansında ikili blok şəklində təqdim edilən təsərrüfat subyektinin istehsal gücləri nəzərdə tutulur, bu isə əsas və dövriyyə kapitalında əks etdirilir.

Bazar iqtisadiyyatı şəraitində çıxış edən sahibkar və təsərrüfatçının fəaliyyəti bazar mexanizmi ilə tənzim edilməklə istehsalın nəyi nə qədər nə vaxt edilməli olduğunu istehlakçının tələbi əsasında müəyyənləşdirir. Bu o deməkdir ki, bazar iqtisadiyyatı şəraitində istehsalçı tələblərə uyğun olaraq istehlakçı üzərində üstünlükdən məhrum olmaqdadır. Bazar iqtisadiyyatı şəraitində həyata keçirilən islahatlarda zəhmətkeşlərin fəal iqtisadi fəaliyyətə cəlb edilməsində məqsəd onlarda müəyyən sahibkarlıq, maddi-maraq, əməyə qarşı münasibət, hüquqlara və qanunlara əməl etmək vərdişləri aşılayır. [2,s610]

Digər ölkələr kimi bazar iqtiadiyyatına keçid dövründə Azərbaycanda müəyyən problemlərlə və çətinliklərlə qarşılaşırdı, bu qaçınılmaz bir haldır. Biz bu çətinlikləri bu qaydada səciyyələndirə bilərik. İlkin olaraq ümümdaxili məhsulun strukturunda çıxış edən istehesal sahələrinin payı öz növbəsində azalmağa doğru gedərkən, xidmətlərin payı isə yüksəlişə doğru yönəlirdi. Belə bir şəraitdə ölkədə müxtəlif sahibkarlıq strukturalarının yaradılmasına baxmayaraq bu faəliyyətlər o qədərdə uğurlu nəticə əldə edə bilməmişdir. Həmçinin iqtisadiyyatda atılan adımlar əsaslı şəkildə elmtutumlu və yüksək texnoloji sahələrin inkişafına nail olmaq üçün yetərli olmamışdır.

Müasir dövrdə iqtisadi inkişafın yeni mərhələsi olan qloballaşma,transmilli kooperasiyaların təsir dairəsinin möhkəmlənməsi, xarici mühütin dəyişkənliyi, rəqabətin artması və bütün səviyyələrdə müşahidə edilməsi və bu kimi xüsusiyyətlərin xarakterizəsi kapital uçotunun Beynəlxalq Mühasibat Uçotu Standartlarına əsasən tətbiq edilməsinə və səmərəli istifadəsinə şərait yaratmaqdadır. Davamlı inkişafı ilə nəzərə çarpan kapital uçotu eyni zamanda müasir zaman çərçivəsində beynəlxalq standartlara cavab verməlidir.Növbəti mərhələ olaraq səmərəliliyi təhlil edilməklə inkişafa doğru düzgün fəaliyyətə nail olmaqdır.

Bunun nəticəsi olaraq təssərüfat və təşkilat subyektlərində kapital üzrə istifadə edilməyən daxili ehtiyyatların müəyyənləşdirilməsinə əlverişli şərait yaratmaqdadır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aqil Əliyev , Arif Şəkərəliyev «Baza iqtisadiyyatına keçid:dövlətin iqtisadi siyasəti». Bakı, 2002.
2. T.Ə. Hüseynov, « Müəssisənin iqtisadiyyatı» Bakı, 2005.

**Rəsmiyyə Varış qızı Şirinova**
AMEA-nın İqtisadiyyat İnstitunun
“İqtisadi siyasətin nəzəri əsasları və
iqtisadi fikir tarixi” şöbəsinin böyük elmi işçi
E-mail: rasmiyyashirinova@gmail.com

# RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYAT QURUCULUĞUNDA YENİ ÖZƏLLƏŞDİRMƏ PROSESİNİN ROLU

Rəqabətqabiliyyətli iqtisadiyyatda özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı aparılan islahatların həyata keçirilməsinin məqsədi ölkəmizdə iqtisadi artımı yüksəltməkdir. Ehtiyat mənbələrindən faydalanmaq, qeyri–neft sektoruna daha çox investisiyaları cəlb etmək, iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artırmaq mühüm məsələlərdən biridir.

Yerli şirkətlərin dünya bazarlarında rəqabət aparmasına şərait yaratmaq, onların idarəetmə təcrübələrinin, səmərəliliyinin və keyfiyyətinin artırılmasına yönələn proqramlar işlənib hazırlanmalıdır. Ölkədə iqtisadi yüksəlişi gücləndirmək, iqtisadiyyatda bu günün tələbinə uyğun olaraq dəyişikliklər aparmaq, sağlam rəqabət mühitini və milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədilə dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirmək iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatda özəl sektorun xüsusi

çəkisinin artırılması maliyyə və investisiyaların cəlb edilməsi əsas prioritetlərdən biridir. İqtisadiyyatda dövlət sektorunun mülkiyyət payının azalması rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğunda yeni özəlləşdirmə prosesinin rolunu artırır.

Qlobal sənaye və texnoloji inkişaf idarəetmə orqanlarının reaksiyasını və yeni tələblərə adaptasiyasını zəruri edir, idarəetmə və mülkiyyətçilik siyasətinə diqqəti artırır. Dövlət sektorunun maliyyələşməsinə ictimai nəzarətin güclənməsi dövlət müəssisələrinin dəyəryaratma prosesində iştirakını artırır.

Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı 2016-cı ilə qədər iki dövlət proqramı – “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin I Dövlət Proqramı” və “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı” (bundan sonra – “I Dövlət Proqramı” və “II Dövlət Proqramı”) həyata keçirilmişdir. Dövlət proqramının əsas məqsədi iqtisadiyyatda aparılan struktur islahatlarını, sahibkarlığın inkişafını və sağlam rəqabət mühitinin formalaşdırılmasını sürətləndirmək, investisiyalar cəlb etmək, iqtisadi səmərəliliyin artırılmasına nail olmaqdır. Azərbaycanda iqtisadi potensialın genişləndirilməsi, rəqabət mühitinin yaradılması, əksər dövlət müəssisələrinin fəaliyyətinin yenidən qurulması, yeni avadanlıq və texnologiyaların, həmçinin müasir idarəetmə metodlarının tətbiqi yeni özəlləşdirmə prosesinə şərait yaratmaqdir.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən yararlanaraq Azərbaycan dövlət əmlakının özəl sektorun inkişaf etdirilməsi istiqamətində təşviqedici fəaliyyətini davam etdirməkdədir. Dövlətin məqsədi idarəetmə funksiyalarının tədricən dövlətin tənzimləmə funksiyaları ilə əvəz edilməsi dövlət xərclərinin azaldılması, yeni özəlləşdirmə metodlarının tətbiq edilməsi yolu ilə bazar iqtisadiyyatının daha da gücləndirilməsindən ibarət olamaqdır. İnvestisiya banklarını və fondlarını cəlb etməklə Azərbaycan iqtisadiyyatına sərmayə axınının daha da artırılması xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Sahibkarlığın inkişafı, rəqabətqabiliyyətliliyinin artırılması dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğun biznes və investisiya mühitinin formalaşdırılması əsas məsələlərdir. Deyilən hədəflərə nail olmaq üçün məqsəd dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirmək, sahibkarlıq fəaliyyətinə müdaxilələrin aradan qaldırmaq, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi üçün sahibkarlara dövlətin dəstəyi olmalıdır.

## ƏDƏBİYYAT SİYAHİSİ:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.
2. Özəlləşdirmə: dövlət aktivlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi vasitəsi kimi.2017
3. https://emlak.gov.az/news/view/222-Az%C9%99rbaycanda-m%C3%BClkiyy%C9%99t-islahatlar%C4%B1-v%C9%99-%C3%B6z%C9%99ll%C9%99%C5%9Fdirm%C9%99:-sosial-iqtisadi-n%C9%99tic%C9%99l%C9%99r-v%C9%99-inki%C5%9Faf-meyill%C9%99ri
4. https://vergiler.az/news/economy/11695.html
5. http://anl.az/down/meqale/azerbaycan/2011/avqust/194811.htm

**Könül Vaqif qızı Şirvani**
Sumqayıt Dövlət Universiteti Dünya iqtisadiyyatı və marketinq kafedrasının assistenti
**E-mail:** konul.sirvani.75@mail.ru

# AZƏBAYCAN RESPUBLİKASININ İNTEQRASİYA PROSESİNDƏ İŞTİRAKININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Azərbaycanın beynəlxalq iqtisadi proseslərdə və inteqrasiya kanallarında səmərəlilik məsələləri ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Beynəlxalq inteqrasiya proseslərində gömrük orqanlarının rolu mühüm şərtdir. Xarici investisiyalar da inteqrasiya proseslərinin sürətləndirilməsində mühüm rol

oynayır. Son illər Azərbaycan Respublikasında qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülməkdədir.

***Açar sözlər: inteqrasiya, idxal, ixrac, milli iqtisadiyyat, investisiya, innovasiya, hüquqi baza***

Azərbaycanın beynəlxalq iqtisadi proseslərdə və inteqrasiya kanallarında daha fəal, səmərəli və məhsuldar olması məsələləri ölkəmiz üçün kifayət qədər strateji əhəmiyyət kəsb edir. Bütün bunların dünya standartları səviyyəsində formalaşdırılması və tənzimlənməsi dövlət siyasətinin əsasında yer almışdır. Müstəqilliyin bərpasından sonrakı illərdə ölkəmizdə kifayət qədər təhlükəli vəziyyət yaranmışdı. Belə ki, 1990-cı illərin əvvəlində ölkədə xaos hökm sürürdü, bir çox sahələrdə özbaşınalıq var idi. Ölkə iqtisadiyyatı tamamilə dağılmışdı, iri müəssisələr işləmirdi. Əvvəlki təsərrüfat əlaqələri itmiş, amma yeniləri yaranmamışdır. Kütləvi şəkildə ixtisarlar, işsizlik ordusunun yaradılması prosesləri gedirdi. Köhnə inzibati amirlik sistemi dağıdılsa da, yeni bazar sisteminə keçidin sürətləndirilməsi üçün görülən tədbirlər kifayət qədər deyildi və qanunvericilik bazası yox idi. Yalnız 1993-cü illərin ortalarından başlayaraq bu istiqamətlərdə məqsədli və davamlı şəkildə dövlət tənzimlənməsi mexanizmləri işlənib hazırlanmağa başladı.

Ölkəmiz özünün milli sərvətlərindən daha uğurlu və səmərəli şəkildə istifadə edilməsi istiqamətində tarixi addımlar atdı. Ulu öndərimiz Heydər Əliyevin gərgin əməyi nəticəsində Azərbaycan beynəlxalq inteqrasiya proseslərində daha fəal şəkildə istirak etmək üçün tələb olunan hüquqi bazanı qısa müddət ərzində yaratmağa nail oldu və dövlət tənzimlənməsi mexanizmlərinin səmərəliliyi yüksəldildi. Beynəlxalq investorlarla, dünya səviyyəli kompaniyalarla, maliyyə təşkilatları və kredit qurumları ilə əlaqələrin qurulmasına başlanıldı və ölkəmizin dünya səviyyəsində mövcud olan mühüm inteqrasiya məkanlarına çıxması üçün məqsədli və davamlı tədbirlər görüldü. Neft strategiyasının milli iqtisadi maraqlar çərçivəsində yaradılması və onun hüquqi bazasının dünya standartları səviyyəsinə uyğun olaraq formalaşdırılması, ölkəmizdə bir sıra sahələrdə iqtisadi islahatların aparılmasına, iqtisadi inkişaf proseslərinin sürətləndirilməsinə əlavə stimullar yaratdı. Artıq 1995-ci ilin ortalarından başlayaraq Azərbaycanda inflyasiyanın qarşısı alındı, iqtisadi proseslər sabitləşdirildi, dağıdılmış iqtisadiyyat sahələrinin bərpası başlandı, həmçinin sosial infrastrukturun yaradılması prosesləri sürətləndirildi. Ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi prosesləri də aktuallığı ilə yadda qalmışdır. Əvvəllər mövcud olan milli iqtisadiyat sahələri ilə bərabər, bir sıra digər yeni sahələrin, informasiya kommunikasiya texnologiyaları, turizm və kosmik sahənin inkişafına diqqət xeyli artırılmışdır. Ölkədə iqtisadi islahatların maliyyə təminatı məsələləri ön plana çəkilmişdir. Sahibkarlığa kömək milli fondunun yaradılması çoxsaylı kiçik və orta sahibkarlıq subyektlərinin inkişafının sürətləndirilməsində böyük əhəmiyyət kəsb etmişdir.

Bundan başqa Neft Fondunun yaradılması ölkədə valyuta ehtiyatlarının formalaşdırılmasına və ixrac neftindən daxil olan valyuta vəsaitlərindən səmərəli istifadənin təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Xüsusilə 2008-ci illərin sonlarından başlayaraq mənfi fəsadlarla yadda qalan dünya maliyyə böhranının təsirindən ortaya çıxan problemlərin tənzimlənməsində və ölkə iqtisadiyyatının makrosabitliyinin və maliyyə sabitliyinin təmin olunmasında Neft Fondunda yığılmış valyuta ehtiyatlarının əhəmiyyətli rolu olmuşdur.

Son illərdə Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla və qurumlarla strateji əməkdaşlıq münasibətlərində xeyli fəallıq nümayiş etdirir. 2016-cı il noyabrın 14-də Azərbaycanın Cənubi Qafqaz dövlətlərinin Avropa Qonşuluq Siyasəti çərçivəsində imzaladığı Fəaliyyət Planı əsasında ölkəmizdə bir çox strateji istiqamətlər üzrə kompelks tədbirlərin görülməsi təmin olunmuşdur. İlk növbədə Azərbaycan regionda sülhün və demokratiyanın tənzimlənməsində əhəmiyyətli rol oynayır, hələ də müharibə variantına üstünlük vermir. Digər tərəfdən ölkəmizdə demokratiyanın gücləndirilməsi, azad fəaliyyət prinsiplərinin formalaşdırılması, siyasi və iqtisadi sərbəstliyin genişləndirilməsi baxımından önəmli tədbirlər görülür, qanunlar qəbul edilir. Ölkədə qanunların işləkliyi və aliliyi məsələlərinə xüsusi önəm verilməkdədir.

Məlumdur ki, beynəlxalq inteqrasiya proseslərində və xarici ticarət fəaliyyətinin səmərəliliyinin artırılmasında gömrük xidməti orqanlarının rolu və gömrük xidməti işinin müasir şəraitə uyğun yaxşılaşdırılması mühüm şərtlərdəndir. Balanslaşdırılmış gömrük siyasəti ixracın stimullaşdırılması üçün əsas şərtlərdən biridir. Bundan başqa, yerli istehsalın artımında gömrük siyasətinin əhəmiyyətli

rolu vardır. Belə ki, idxalın tənzimlənməsi sayəsində ölkəyə lazım olan idxal məhsullarının əvəzində yerli istehsalın stimullaşdırılması və genişləndirilməsi tədbirlərinin həyata keçirilməsi mümkündür. İdxalın tənzimlənməsi və yerli istehsalın artırılması zəncirvari olaraq ölkədə idxal potensialını artırır və Azərbaycanın ixracyönümlü məhsullarla dünya bazarlarında geniş şəkildə təmsil olunmasına imkan verir. Hazırda Azərbaycanın gömrük sistemində şəffaflaşdırma və struktur dəyişiklikləri həyata keçirilir.

2013-cü ildə Azərbaycan Respublikasında "Gömrük Məcəlləsi" qəbul edilmiş və həmin ildə "Gömrük tarifi" haqqında Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu qanunla xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşması və onun tətbiqi, həmçinin ölkənin gömrük sərhədlərindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydaları müəyyən edilir. Tənzimlənmənin qeyri-tarif üsulundan xarici ticarətin liberallaşdırılmasında və qeyri-iqtisadi amillərin məhdudlaşdırılmasında istifadə edilir. Beynəlxalq ticarətin həyata keçirilməsi sahəsində Azərbaycan Respublikasında aşağıdakı rəsmi sənədlər qəbul edilmişdir:

- 10.01.1994-cü ildə "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında";
- 17.12.1996-cı ildə "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında";
- 17.12.1996-cı ildə "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" [1, s.82]

Hər bir ölkədə iqtisadiyyatın qloballaşması və beynəlmiləlləşməsində xarici investisiyaların böyük əhəmiyyəti vardır. Belə ki, investisiyalar respublika iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında daha səmərəli inteqrasiyanı təmin edir. Ölkənin iqtisadi inkişafında xarici iqtisadi investisiyaların əhəmiyyətli rolundan biri də onun sahibkarlıq fəaliyyətinə müsbət təsiri ilə əlaqədardır. Birbaşa xarici investisiyalar milli iqtişadiyyatın formalaşmasına, işgüzar münasibətlərin inkişafına, sahibkarlıq fəaliyyətinin həmçinin maliyyə-kredit münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradır. Bu əlverişli şəraitdən səmərəli istifadə edərək respublikamız təbii-iqtisadi, elmi-texniki potensialını beynəlxalq miqyasda tanıtmaq üçün çoxtərəfli iqtisadi inteqrasiya əlaqələrinə daxil olur [2, s.77].

Qeyd etdiymiz kimi, ən problemli məsələlərdən biri ölkəyə xarici investisiyaların gətirilməsi mexanizmlərinin xarici investorlar üçün cəlbediciliyinin artırılmasıdır, belə ki, daxil olan xarici investisiyaların 60%-dən çoxu neft sənayesinin payına düşür və qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinə cəlb olunan xarici investisiyaların həcmi xeyli zəifdir. Hesab edirik ki, bunun aradan qaldırılması və bu sahədəki problemlərin həll edilməsi məsələlərində intensivlik çatışmır. Xarici invetisiyaların gətirilməsi mexanizmlərinin yenilənməsi və müasir standartlara uyğunlaşdırılması üçün görülən tədbirlər daha sistemli və davamlı olmalıdır. Bunlarla yanaşı, müxtəlif istiqamətlərdə, o cümlədən ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlərin, proqram və layihələrin işlənib hazırlanması və həyata keçirilməsi davam etdiriləcəkdir [3, s.29]. Müasir dövrdə Azərbaycan Respublikasının qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatda karbohidrogen xammalının ixracından asılılığı azaltmaqla dünya iqtisadiyyatını xammal əlavəsinə və texnoloji "autsayderə" çevrilmək təhlükəsindən qorumaqdır.

İnteqrasiya proseslərinin tənzimlənməsinin normativ-hüquqi bazasının araşdırılması onu göstərir ki, inteqrasiya proseslərinin tənzimlənməsinin normativ-hüquqi aktlar sistemi demək olar ki, mövcud deyil. İqtisadi artımın normativ-hüquqi bazasının tənzimlənməsi və təkmilləşdirilməsi dedikdə iqtisadiyyatın normal fəaliyyət göstərməsini təmin edən normativ və hüquqi aktlar nəzərdə tutulur. Azərbaycan Respublikasında son illər qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Belə işlərdən investisiya fəaliyyəti, lizinq münasibətlərinin təkmilləşdirilməsi sahəsində Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi üçün müvafiq qanun layihələrinin hazırlanmasını və "Azərbaycan Respublikasının ərazisində xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununu, istehsal məqsədilə ölkəyə idxal edilən, lizinq predmeti olan əmlakın əlavə dəyər vergisindən azad edilməsinə dair qərar layihəsi hazırlanmasını qeyd etmək vacibdir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin maliyyə resurslarına olan ehtiyaclarının daha dolğun ödənilməsi məqsədilə kreditlərin verilməsi üçün girov təminatı münasibətlərinin təkmilləşdirilməsi, girovların satışının sadələşdirilmiş mexanizmlərindən istifadə edilməsi və torpaq sahələrinin qiymətləndirilməsi prinsiplərinin təkmilləşdirilməsi üçün "İpoteka haqqında" Qanun hazırlanmışdır.

Hazırda iqtisadi subyektlərin fəaliyyətini stimullaşdırmaq və onların mənfəətini artırılmaq məqsədilə "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 3 dekabr 2021-ci il tarixli 406-VIQD nömrəli Qanunu Azərbaycan Republikasının Prezidenti tərəfindən 29 dekabr 2021-ci ildə təsdiq edilmişdir. Nəzərə alsaq ki, son 10 ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 1000-dən artıq əlavə və dəyişikliklər edilmişdir və bu istiqamətdə işlər uğurla davam etdirilir. Buna misal olaraq, iqtisadiyyatın bütün sahələrində, o cümlədən qeyri-neft sahələrində sahibkarlıq və investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə mənfəət vergisi dərəcəsinin 28%-dən 20%-ə endirilməsini qeyd edə bilərik.

Son dövrdə lizinq obyekti olan əmlakın illik amortizasiya norması 2 dəfəyədək artırılmış və maliyyə lizinqi əməliyyatları əlavə dəyər vergisindən azad edilmişdir. 2005-ci ildən başlayaraq məcburi sosial sığorta haqlarının azaldılması prosesi gedir, əmək haqqından tutulan məcburi pensiya ödənişləri 2%-dən 3%-ə qaldırılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əhmədova Ş.H. Azərbaycan Respublikasının inteqrasiya proseslərində iştirakının perspektivləri və onun hüquqi bazasının təkmilləşdirilməsi istiqamətləri. Magistr dissertasiyası. Bakı, 2015
2. Əliyev Q.B. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, İqtisad Universiteti, 2003
3. Allahverdiyev H.B. İqtisadiyyatın hüquqi tənzimlənməsi. Bakı, 2009

**Cəmil Ənvər oğlu Tağıyev**
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
E-mail: cemil.tagi@mail.ru

# AZƏRBAYCANIN TÜRK DÖVLƏTLƏRİNƏ İXRACININ MÜASİR VƏZİYYƏTİ

**Xülasə**

Tarixi bağlılıq, etnik, milli yaxınlıq, eyni coğrafiyada yerləşmələri Azərbaycanın türk dövlətləri ilə əlaqələrində mühüm əhəmiyyətə malikdir. İnkişaf perspektivlərinin çox olması gələcək inkişaf layihələrində birgə iştiraka sövq edir. Özbəkistanla avtomobil istehsalında kooperativ əməkdaşlıq mövcuddur. Kommunikasiya, sənayeləşmə, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üzrə tərəfdaşlıq önəmlidir.

*Açar sözlər: türk dövlətləri, xarici ticarət, Azərbaycanın ixracı*

**Giriş**

1991-ci ildə Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri SSRİ-nin dağılması ilə dövlət müstəqilliklərini bərpa etdilər. Onların müstəqilliklərini ilk tanıyan da digər türk dövləti-Türkiyə oldu. Müstəqilliyin ilk onilliyində mərkəzləşdirilmiş sistemdən bazar iqtisadiyyatına keçid başladı, dövlət əmlaklarının özəlləşdirilməsinə başlanıldı. Sonrakı onilliklərdə inteqrasiya sürətlənməyə başladı. Bu baxımdan türk dövlətlərinin ikitərəfli və çoxtərəfli əməkdaşlıq perspektivləri ələ alınaraq iqtisadi münasibətlər quruldu. 2001-ci ildə Azərbaycanın türk dövlətlərinə ixracı 89.4 milyon dollar civarında idi, ondan üç il sonra isə 338.5 milyon dollara çatdı ki, bu da cəmi 3.6 milyard dollarlıq

ixracın 9.36 faizini təşkil edirdi. Sonrakı illərdə ixrac potensialı artdıqca həcmində də artım baş verdi. Xüsusilə də Azərbaycanın neft ixracı ilə bu artım daha da artdı.

Məqalədə Azərbaycanın türk dövlətlərinə ixracının müasir vəziyyəti araşdırılıb, müşahidə metodundan istifadə edilməklə BMT-nin, Gömrük Komitəsinin məlumatlarından istifadə edilib. Azərbaycanın ümumi ixracına nəzər yetirilərək ayrı-ayrı türk dövlətlərinə ixrac araşdırılmaqla ümumi ixracda türk dövlətlərinin yeri müəyyən edilmişdir.

**Azərbaycanın türk dövlətlərinə ixracı**

2017-ci ildə dünya əhalisinin 2 faizini, dünya ərazisinin 3.1 faizini təşkil edən Azərbaycan və digər müstəqil türk dövlətləri dünya ÜDM-nin 1.3%-ni, idxalının 1.5%-ni, ixracının 1.3%-ni gerçəkləşdirmişdir.(Balıkçıoğlu, 2019: 228) Etnik, mədəni yaxınlığın olması türk dövlətləri arasında münasibətlərin inkişafı üçün zəmin yaradır. Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətlərinin təbii ehtiyatlarla zəngin olması və ixrac potensialının artırılması üçün bazarların çeşitləndirilməsi üçün Türkiyə Avropaya açılan qapı rolunu oynayır. Azərbaycanın Türkiyəyə ixracında artım daha çoxdur. 2021-ci il Azərbaycanın gömrük statistikasına əsasən ixracda əsas 15 ölkə arasında 2.8 milyard dollar ilə ikinci yerdə Türkiyədir.(Gömrük Komitəsi, 2021: 28) Bu göstərici ümumi ixracın 12.69%-ni təşkil edir. Azərbaycanın ümumi ixracının həcminə baxdıqda türk dövlətlərinə ixrac həcmi azdır. Cədvəl 1-də Azərbaycanın 2016-2021-ci illər ərzində ümumi ixracı göstərilib. Ümumi ixraca baxanda 2016-2019-cu illər ərzində artım görünür. 2020-ci ildə pandemiyanın dünya iqtisadiyyatına mənfi təsirləri özünü göstərmişdir. Sərhədlərin bağlanması, əksər istehsal və xidmət sektorlarının işinin dayandırılması iqtisadiyyata təsirsiz ötüşməmiş, ixracda da azalmaya səbəb olmuşdur. Bunlara baxmayaraq 2021-ci ildə ixrac 2019-cu ilin səviyyəsindən çox olmuşdur.

**Cədvəl 1.**

**Azərbaycanın ümumi ixracı(milyon dollarla)**

| İllər | Həcm |
|---|---|
| 2016 | 13457.6 |
| 2017 | 15320 |
| 2018 | 19489.1 |
| 2019 | 19635.2 |
| 2020 | 13732.6 |
| 2021 | 22206.7 |

**Mənbə:** customs.gov.az

Cədvəl 2-dən göründüyü kimi, digər türk dövlətlərinə ixrac səviyyəsi aşağıdır. Bunun əsas səbəbi Azərbaycanın ixracında neft-qaz sektorunun payının daha çox olması və digər türk dövlətlərinin də neft-qaz ehtiyatları ilə zəngin olmasıdır.

**Cədvəl 2.**

**Azərbaycanın türk dövlətlərinə ixracı 2016-2021-ci illərdə(milyon dollarla)**

| Ölkələr | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Türkiyə | 1185.7 | 1393.8 | 1825.98 | 2862.69 | 2597.7 | 2818.1 |
| Qazaxıstan | 26.3 | 34.3 | 46.6 | 24 | 25.92 | 39.9 |
| Türkmənistan | 113.8 | 54.1 | 23.7 | 23.1 | 18.79 | 34.3 |
| Özbəkistan | 3.4 | 3.96 | 9.4 | 28.9 | 23.1 | 33.5 |
| Qırğızıstan | 5.6 | 0.6 | 4 | 2.75 | 1.8 | 6 |
| Cəmi | 1334.8 | 1486.76 | 1909.68 | 2941.44 | 2667.31 | 2931.8 |
| Ümumi ixracda yeri(faizlə) | 9.98 | 9.71 | 9.8 | 14.98 | 19.42 | 13.2 |

**Mənbə:** comtrade.un.org

Türk dövlətləri arasında xarici ticarət dövriyyəsinin inkişafına mane olan amillər var. Dikkayaya(2013) görə bu səbəblərdən biri də nəqliyyat infrastrukturunun olmamasıdır. Onun

fikrincə, türk dövlətləri arasında nəqliyyat problemlərinin olması Rusiyanın Azərbaycan və Mərkəzi Asiya ölkələrində ticari fəallığını artıran əsas amillərdən biridir. (Dikkaya, 2013: 1225) Nəqliyyat problemini aradan qaldırmaq üçün 2007-ci ildə Azərbaycanı Gürcüstan üzərindən Türkiyəyə birləşdirəcək və Mərkəzi Asiya ölkələrinin də qoşulmasına imkan verəcək Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin təməlinin qoyulması nəqliyyat probleminin həllində mühüm addım oldu. 2017-ci ildə açılışı olan xətt Azərbaycanın nəqliyyat mərkəzi olmasına səbəb olmaqla, Mərkəzi Asiya ölkələri məhsullarının qısa müddətdə Avropaya çatdırılmasına şərait yaradır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2018-ci ildə TANAP təbii qaz xəttinin açılışı ilə Azərbaycanla Türkiyə arasında ticarət həcmi artmağa başladı. Təkcə 2021-ci ildə Türkiyəyə 331.6 milyon ABŞ dolları həcmində xam neft ixrac olunub ki, bu Türkiyəyə ümumi ixracın 11.7%-ni təşkil edir.

Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətlərinə ixracında əsas mallar plastik məmulatlar, yeməli meyvələr, qoz-fındıq, sitrus meyvələrinin qabıqları, bostan məhsulları; maşınlar, nüvə reaktorları, qazanlar; elektrik, elektron avadanlıqlar, digər hazırlanmış toxuculuq məmulatları, dəstlər, köhnəlmiş geyimlər, dəmir və polad,yağlı toxum, oleagik meyvələr, taxıl, toxum, meyvələr təşkil edir. 21 İyun 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti ilə Özbəkistan Respublikasının Prezidenti mətbuata bəyanatlarla çıxışında iqtisadiyyatın hər sahəsində əməkdaşlığı daha da inkişaf etdirəcəklərini bir daha qeyd etdilər. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev bəyanatında demişdir:

*"Bu gün biz razılaşdıq ki, komandalarımızın və ya nümayəndə heyətlərimizin hazırladığı rəqəmlər üzərində dayanmayacağıq, çünki rəqəmlər heç nə demir. Əlbəttə, mən deyə bilərəm ki, onlar altı dəfə artıb, lakin məcmu halda onlar bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmirsə və deyiriksə ki, sıfırdan başlayaq, çox real, bütün istiqamətlərdə, iqtisadiyyatımızın bütün sahələrində geniş əhatəli layihələri inkişaf etdirəcəyik."(*president.az*)*

Qeyd edək ki, 21 iyun 2022-ci il tarixində "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"nin imzalanması Azərbaycan Respublikasının Prezidentinin dediyi kimi, bu, gələcək fəaliyyətimizin yol xəritəsidir.(president.az)

**Nəticə**

Türk dövlətlərinin təbii ehtiyatlarla zəngin olması və dünya bazarında enerji resurslarına tələbin yüksək olması böyük güclərin diqqətini cəlb edir. Buna görə də xaricdən gələcək mənfi təsirləri minimallaşdırmaq üçün türk dövlətlərinin vahid birlik şəklində təmsil olunması, əlaqələrinin sürətli inkişafı zərurəti yarandı. 12 noyabr 2021-ci ildə Türk şurası Türk Dövlətləri Təşkilatına çevrildi. Türk dövlətləri ikitərəfli və təşkilat daxilində əməkdaşlığı daha da gücləndirmək üçün bəyannamə və sazişlər imzaladılar. Öncə Türkiyə ilə "Şuşa Bəyannaməsi" imzalayan Azərbaycan hərtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün yuxarıda göstərilən Özbəkistanla da bəyannamə imzaladı. Iqtisadi əməkdaşlığı daha da yüksəltmək üçün əməli işlər görülməkdədir. Azərbaycanın 2016-2021-ci illər ərzində ixracına baxanda gördük ki, ümumi ixracda türk dövlətlərinin payı ən çox 2020-ci ildə 19.42% olmuşdur. Emal sənayesinin inkişafına nail olmaq, ixracda emaledici sənaye məhsullarının çəkisini artırmaq üçün kooperativ əməkdaşlığa başlanılır, qarşılıqlı təcrübə mübadiləsi aparılır, yaxın gələcək üçün ixracın çeşitlədnirilməsi üçün mümkün potensialdan istifa edilir.

## ƏDƏBİYYAT SİYAHƏSİ:

1. Nevzat Balıkçıoğlu (2019), "Türkiye İle Diğer Türk Cumhuriyetleri Arasinda Diş Ticaretin Gelişimi: 2000-2017 Dönemi", http://cujos.cumhuriyet.edu.tr/en/download/article-file/746317

2. Azərbaycan Respublikası Gömrük Komitəsi, https://customs.gov.az/uploads/foreign/2021/2021_12.pdf?v=1643353987

3. Dikkaya Mehmet (2013), "Türkiye Türk Cumhuriyetleri İlişkilerinin Ekonomi Politiği", Yeni Türkiye, 15(53), ss. 1223-1240

4. https://president.az/az/articles/view/56482

**Gunay Binyamin Teymurova**
Executive MBA Alumni, ADA University and Maastricht School of Management
E-mail: gunayteymurova@gmail.com

# HUMAN CAPITAL DEVELOPMENT IN THE CONTEXT OF THE FOURTH INDUSTRIAL REVOLUTION

**Abstract**

One of the most pressing problems of the innovative modern economy is the growing role of knowledge, transforming into one of the critical resources for economic growth and progress - intellectual capital. In particular, at the time of the Fourth Industrial Revolution, the role of intellectual capital in the production of services and goods is growing significantly. Each transformation affects all states, economic and political systems, private and public sectors, companies, and macro and micro environmental factors: the sectors in which the companies operate, competitors, customers, employees, etc.

The impact of the Fourth Industrial Revolution on business continues to be felt in some areas. For example, increasing the role of digital tools in the formation of demand, increasing transparency and customer loyalty, and expanding the boundaries of the elements that affect customer behavior require the adoption and adaptation of innovations in various industries.

The presented article highlights the innovations that emerged during the 4th Industrial Revolution and proposals for recommendations to be taken to build competitive human capital.

**Keywords:** development, fourth industrial revolution, human capital, client, innovation.

## Introduction

The progressive development of human civilization is carried out in two closely interrelated ways: processes - the deepening of the division of labor and the advanced progress of science and technology. The effectiveness of economic policy pursued by the state in a market economy depends significantly on the existing socio-economic structure of society and its quality characteristics. Socio-economic reforms are more successful in countries with high levels of human capital. While industrial development of the society demanded more raw materials, energy resources, materials, and workforce, the post-industrial and information society now needs more intellectual resources than physical resources, i.e., new skills in new technologies and new products. Manifests itself in the system of habits and new relationships with consumers because, in the modern economy, knowledge plays a locomotive role in development.

The idea of human capital has expanded and developed as a result of changes in the economy and other spheres of society, both in the content of labor and in human being themselves, in the range of labor-related processes, especially under the influence of scientific and technological progress. A human being is an integral part of society, individuals, and social beings. Concepts of human capital have evolved with the development of society and the expansion and development of scientific knowledge about human beings. As new knowledge increases the competitiveness and market value of the enterprise that uses it, this knowledge can be considered one of the main strategically important resources of the enterprise. Therefore, it has been one of the main topics of discussion and debate in various prestigious scientific and research circles worldwide, where the 4th Industrial Revolution has grown, and scientific and technological innovations and human behavior have accelerated it.

The next World Economic Forum conducted an interesting study on the future of the business world called The Future of Jobs. The study covered the economies of 15 different countries. One of the most important topics highlighted by research at the World Economic Forum was the Fourth Industrial Revolution. In particular, advances in genetics, artificial intelligence, robotics, nanotechnology, 3D printers, and biotechnology have been highlighted as serious factors supporting our entry into the 4th Industrial Revolution.

The period we live in today can be considered as the period of the threshold of the 4$^{th}$ Industrial Revolution or the "bridge" period that started in the 2000s. The difference between this industrial revolution and the other ones is its speed and breadth of coverage. Firstly, let's look at the period of

the emergence of the industrial revolutions. It is assumed that the Fourth Industrial Revolution will take place sooner, while a new revolution will take about 100 years to happen. The reason is that the conditions for this transformation already exist. The rapid spread of electronics and information technology, one of the main driving forces of the previous industrial revolution, the more positive results of its application in all spheres of life, and, most importantly, its integration with other spheres are presented as evidence that this transformation or revolution will take place sooner. Furthermore, in previous revolutions, information and other factors were distributed in a numerical series, while in the Fourth Industrial Revolution, this geometric series was observed.

Moreover, the main influencing factors of the 4$^{th}$ Industrial Revolution are cyber-physical systems. Cyber-physical systems combine the physical, digital and biological spheres. Information technology and the products it creates have direct and influential features in regulating these three spheres' systematic character and interrelationships. Another feature is the increase in the speed of the above information and applications. At the same time, there is a feature of "systemic influence," which will be more pronounced in all spheres of life. It continues to manifest itself in all spheres of the industry: in the integration of production systems and corporate governance, in labor relations between employer and employee, and company-customer relations.

We can also say that some of the beginning indicators of the 4th Industrial Revolution have already appeared. Examples include artificial intelligence, the rise of robotics in various fields and the rapid spread of human life, the concept of the Internet of Things, 3D printing and products, nanotechnology, biotechnology, quantum computing, energy storage, increasing the use of renewable energy, the emergence of self-propelled vehicles and s. Each transformation affects all states, economic and political systems, private and public sectors, companies, and macro and micro environmental factors of companies: the sectors in which they operate, competitors, customers, employees, etc., the effect is inevitable.

**Problem Statement**

The impact of the Fourth Industrial Revolution on business continues to be felt in some areas. For example, increasing the role of digital tools in demand formation, transparency, and customer loyalty and expanding the boundaries of elements that affect customer behavior (for example, the rapid spread of information and shopping through mobile networks) require companies to adopt and adapt innovations in this area.

This presents the analysis and structuring of conceptual studies on the impact of the 4th industrial revolution and competitive human capital development. The study includes the processes that change the requirements for human capital and have both destructive and positive effects on its development have been carried out.

**Research Findings**

**A look into the history of industrial revolutions**

As it is well known, there have been several industrial revolutions in history since the agricultural revolution. The first industrial revolution began with the invention of the steam engine by the English engineer James Watt. The first industrial revolution in Europe during the 18th and 19th centuries laid the foundations for the construction of railways and mechanical production. As a result of the First Industrial Revolution, from 1820 to 1900, the GDP per capita in the 12 leading European countries tripled from $ 1,000 to $ 3,000. As a result of the second industrial revolution in the late 19th and early 20th centuries, a production boom occurred due to the introduction of the conveyor and electric methods. Finally, the third industrial revolution, or digital revolution, which began in the 1960s, was characterized by the invention of mainframe computers, personal computers, and the Internet catalyst. The digital industrial revolution has provided production automation in many areas.

***Shaping People Strategies in the Fourth Industrial Revolution***

Human capital is the sum of knowledge and skills of employees of the company, practical skills, moral qualities, creativity and thinking skills, work culture, management, leadership and entrepreneurial skills, personal and leadership qualities, and the ability to behave in different situations, etc. These qualities are embodied in the form of resources as company employees. Unlike the other types of capital, human capital does not belong to the organization; its carrier and owner are the employees themselves. The main task for the company is to achieve maximum efficiency from

this capital (through material and moral incentives, creating opportunities for professional and personal development, etc.).

Human capital creates and develops technological capital by acquiring material and financial capital and leading to the economy's creation and transfer of knowledge [4]. "There is a close resemblance between human capital and ordinary capital - investments in human capital must bring income to the individual for the rest of his life while maintaining a normal level of income determined by market interest rates," said McCulloch. According to K. McConnell and S. Brue: "Investing in human capital is any activity related to improving the skills and abilities of the employee and increasing his productivity. These costs, which help increase productivity, can be considered an investment or current costs and expenses are realized (based on the assumption) that these costs will be repeatedly compensated by increasing future revenues."

The rules of competition in the economy of the Fourth Industrial Revolution are significantly different from the rules of previous periods. Thus, to withstand and keep pace with the existing competition, it is necessary to apply innovations in all forms and areas. Moreover, as businesses adapt to the growing importance of platforms and the changing competitive environment and cooperation landscape between firms, many of the challenges are strategic and organizational.

During the "Industry 4.0" period, countries invest in infrastructure development and finance to avoid lag. For example, Germany allocates 40 billion euros annually to support and develop industrial infrastructure. Since 2014, the UK has invested more than £ 70 million in developing the Internet of Things, called HyperCat. France has been allocating 200 million euros a year since 2015 to La French Tech, a program that supports the development of French IT companies and startups. According to a well-known Swiss financial holding UBS study, developed countries will remain winners in this period.

The 4th Industrial Revolution and the changes it brought will first require an increase in human capital skills and habits in the following structure:

- Theoretical skills: cognitive (intellectual) skills that determine the ability to learn, conceptual thinking, design, analysis, and initiative;
- Metacognitive habits, i.e., purposefully combining different patterns and critically evaluating their usefulness in a specific situation;
- Non-cognitive habits: accuracy, honesty, reliability, responsibility, honesty, perseverance, etc.
- Social (interpersonal) skills (ability to communicate or work in a team, ability to direct, coordinate and motivate employees);
- Digital skills: IT skills, i.e., internet usage, information processing and exchange, software use, and programming skills, i.e., independent use of computer programs and setting them up according to user requirements; digital literacy, that is, a basic understanding of how digital technologies work, what opportunities they offer, and what risks they involve.

The combination of mass data processing, computing, storage, and cognitive data will change industry and society at every level, creating incredible opportunities in the health, education, agriculture, manufacturing, and service sectors. As a result, organizations will need to rethink how they are established, work together, innovate, and make decisions to stay afloat.

In making the transition to innovation dictated by the times, a particular program must be established to maintain foresight over time, classify the desired leadership qualities, and develop new personnel in this direction. This program (or framework) can be used to identify new leaders and create individual development plans for continuous improvement [1]. According to Klaus Schwab, founder and CEO of the World Economic Forum, this revolution's fundamental and global nature will affect all countries, economies, sectors, and people [11]11.

Industry 4.0 for manufacturing organizations is mainly aimed at increasing the efficiency of the process. When it all started in 2010, it pointed out that production systems and strategies were constantly shifting towards greater productivity and plant efficiency; however, it reluctantly considered the human costs of optimizing processes. The fear of robots seizing workers' activities in manufacturing plants was just one example.

This combination of pairing people and machines will help organizations focus on improving brainpower and creativity to increase efficiency by combining workflows with intelligent systems. This next generation is called the Cobot (Collaborative Robot). Cobots will increase efficiency by

tracking, learning, and performing tasks as human operators to increase production efficiency and improve operations.

**Perspectives for Azerbaijan**

Today, the state is the main subject in financing the social sphere in our country, and the share of budget funds is more dominant. However, as the market economic system develops, there is a need for the participation of the private sector, civil society institutions, and local self-government bodies in the social development of society, which leads to an increase in the channels of financing social policy. Thus, it is becoming necessary to prepare the community itself for this process, to strengthen the activities of the state in this direction.

Cornell University in the United States, the INSEAD Business School in France, and the World Intellectual Property Organization (WIPO) at the United Nations present the results of their annual Global Innovation Index, which examines countries on various indicators: including ICT and innovation. According to the results for 2021, the leading innovation country is Switzerland, and the country with the most minor innovation is Angola. Sweden, the United States, the United Kingdom, and the Republic of Korea are in the top five. Azerbaijan ranks 80th in the Global Innovation Index with 28.4 points.

It should be emphasized that the changes brought about by the 4th Industrial Revolution are being kept in focus at the state level. On January 6, 2021, the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, signed a Decree on establishing the "Center for Analysis and Coordination of the Fourth Industrial Revolution" under the Ministry of Economy of the Republic of Azerbaijan. The decree contains relevant provisions for cooperation and coordination of the Center for Analysis and Coordination of the Fourth Industrial Revolution with the Republic of Azerbaijan and international organizations operating in the Fourth Industrial Revolution and analysis and coordination of challenges and strategies, initiatives, and projects.

In the context of "Industry 4.0", it is crucial to grow and increase the number of intellectuals who have the opportunity to apply innovations in Azerbaijan and who have a deep knowledge of the ecosystem. Because people create innovations, highly qualified IT specialists are needed to renew and develop the country's IT ecosystem. One of the key points is to prevent their outflow.

The main goal should be to ensure that the training and educational processes in the various educational institutions in our country are in line with the challenges of the new era, and the following provisions should be included in the main areas of activity:

• Ensure the availability of online education pedagogy. Pedagogy, psychology, levels of education, age levels, etc., of traditional education. Such issues should be investigated and applied to online education;

• Introduce and promote new communication opportunities for knowledge transfer and information storage;

• Adaptation to the level of individual knowledge using artificial intelligence technologies, machine learning, game-based training, activation of chatbots to identify topics, and the transmission of individual knowledge to the user through electronic assessment;

• Extensive use of artificial intelligence and virtual reality in the teaching process, the use of automated simulations;

• Continuous study of international experience and new approaches, identification, and strengthening of adaptive strategies in teaching.

According to the McKinsey Global Institute's research, the journey from technical automation potential to full adoption will likely take decades. The timing is affected by five factors: Technical feasibility, Cost of developing and deploying solutions, Labor market dynamics, and economic benefits [14].

According to the fifth edition of Business Outlook in Azerbaijan, the need to develop cybersecurity in many industries is one of the most important factors for the Economic Perspectives in Azerbaijan, a macroeconomic journal by the Deloitte Research Centre. The Center analyzed the public web resources of 40 organizations from the Banking, Energy, Oil, Gas, Telecommunication, and Transportation industries. However, one of the most striking findings of the survey is that the vast majority of respondents are optimistic about the future of the country's business environment [3].

**Conclusion**

The production world is not static; it is constantly moving toward new market conditions and challenges, so new Industrial Revolutions will occur as manufacturers begin to innovate and move away from comfort zones. Emerging Industrial Revolutions will require a unique mood and a desire to master advanced technologies and work in changing roles.

The interaction of human intelligence and computerized machines is expected to raise production to new levels of optimization and automation. As robots begin to replace some of their human-like abilities and artificial intelligence becomes more widely accepted, communication between robots and humans will be essential for survival. Therefore, there will be a need for strategies and concepts to manage the workforce that brings together collaborators and software robots in production processes between the two sides. The robot production worker will be a practical human companion and, conversely, will result in value-added production processes, waste, and cost reduction.

The central theme is cooperation, returning the human touch to production with this upcoming revolution. Human cognitive and critical thinking skills will enable manufacturers to focus on new industry automation collaboration systems to achieve new tasks, make more accurate decisions in real-time, improve strategic planning, and better control over quality and production processes.

**Reference**

1. Alexander Manu: Value Creation and the Internet of Things, 2015
2. David L. Rogers: The Digital transformation Playbook, Columbia University Press, 2016
3. Deloitte: Business outlook in Azerbaijan, Deloitte CIS Research Center H1 2021, Fifth Edition, 2021
4. Elena G. Popkova · Yulia V. Ragulina Aleksei V. Bogoviz: Industry 4.0: Industrial Revolution of the 21st Century, 2019
5. Макконел К.Р., Брю С.Л.:Экономикс: принципы, проблемы и политика. Т 2. 400 с., 1992
6. Richard Kelly: Constructing Leadership 4.0 Swarm Leadership and the Fourth Industrial Revolution, 2019
7. Satya Nadella: Shaping the Future of Fourth Industrial Revolution, World Economic Forum, 2018
8. https://president.az/az/articles/view/49932
9. https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2021.pdf
10. https://unec.edu.az/application/uploads/2020/07/IV-Senaye-Inqilabi-UNEC.pdf
11. https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs_2020.pdf
12. https://www.pwc.com/ee/et/publications/pub/future-of-work-report.pdf
13. https://www3.weforum.org/docs/Media/AM16/AM16_Programme.pdf
14. https://www.mckinsey.com/~/media/mckinsey/featured%20insights/Digital%20Disruption/Harnessing%20automation%20for%20a%20future%20that%20works/MGI-A-future-that-works-Executive-summary.ashx

**Teymurova Günay Binyamin qızı**
Magistr, ADA Universiteti və Maastrixt İdarəetmə Məktəbi
E-mail: gunayteymurova@gmail.com

## DÖRDÜNCÜ SƏNAYE İNQİLABI KONTEKSTİNDƏ RƏQABƏTQABİLİYYƏTLİ İNSAN KAPİTALININ İNKİŞAFI

**Xülasə**

Müasir innovasiyalı iqtisadiyyatın ən aktual problemlərindən biri biliyin rolunun artması, iqtisadi artımın və tərəqqinin təmin edilməsində əhəmiyyətli resurslardan birinə - intellektual kapitala çevrilməsidir. Xüsusilə, 4-cü sənaye inqilabının baş verdiyi bir dövrdə xidmət və əmtəə istehsalında intellektual kapitalın rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Hər bir transformasiyanın bütün dövlətlərə, iqtisadi və siyasi sistemlərə, özəl və dövlət sektorlarına, şirkətlərə və şirkətlərin makro və mikro mühit faktorlarına: fəaliyyət göstərdiyi sektorlara, rəqiblərə, müştərilərə, əməkdaşlara və s. təsiri qaçılmazdır.

IV Sənaye inqilabının biznesə təsiri bəzi sahələrdə daha çox özünü göstərməkdə davam edir. Tələbin formalaşmasında rəqəmsal vasitələrin rolunun artması, şəffaflığın artması, müştəri loyallığı və müştəri davranışlarına təsir edən elementlərin sərhəddinin genişlənməsi müxtəlif sənaye sahələrində yeniliklərin qəbul edilməsi və adaptasiya edilərək faydalanmasını tələb edir.

Təqdim olunan məqalədə 4-cü sənaye inqilabı dövründə ortaya çıxan yeniliklər və rəqabətqabiliyyətli insan kapitalının formalaşması üçün həyata keçirilməli olan tədbirlərə dair təkliflər qeyd edilir.

**Açar sözlər:** inkişaf, dördüncü sənaye inqilabı, insan kapitalı, müştəri, innovasiya.

**Aqif Azad oğlu Yaqubov**
Azərbaycan Dövlət Aqrar Universitetinini doktorantı
E-mail: Aqif990@gmail.com

## ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

Ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir dövlətin əsas vəzifəsidir və bu, milli iqtisadiyyatın davamlı iqtisadi inkişafına töhfə verməklə yanaşı, həm də vətəndaşların sosial rifahına təminat verir.

Müasir dövrdə kənd təsərrüfatı sahəsində elm və texnologiyanın nailiyyətlərinə baxmayaraq, ərzaq təminatı və onun keyfiyyət problemi hələ də kifayət qədər qalmaqdadır. Dünyada hərbi münaqişələrin sayının və miqyasının artması və COVID-19 pandemiyasının qlobal kənd təsərrüfatına təsirini nəzərə alsaq ərzaq təminatı və bu məsələdə keyfiyyətin gözlənilməsi bir problem kimi nəzərə alınmalıdır. Əgər nəzərə alsaq ki, birinci səbəbi aradan qaldırmaq üçün tədbirlər görmək son dərəcə çətindirsə, eyni zamanda kənd təsərrüfatının yeni post-COVID dünyaya uyğunlaşdırılması vəzifəsi də bütün bəşəriyyət üçün aktualdır.

Qeyd etmək lazımdır ki, ölkəmiz üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi vəzifəsi faktiki olaraq beynəlxalq aləmdə və xüsusilə də regionda siyasi ziddiyyətlərin kəskinləşməsi ilə əlaqəli xarici amilləri, həm də bununla əlaqəli daxili amilləri nəzərə almağı tələb edir.

Kənd təsərrüfatında məhsuldarlıq, sahənin innovativ inkişafı və rəqəmsal iqtisadiyyatın cari çağırışları və təhdidləri baxımından texnoloji yetkinlik kimi kompleks məsələlər zərurətə çevrilmişdir. Eyni zamanda, yeni bazar şəraiti ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün biznes modelin genişmiqyaslı təkmilləşdirilməsini (bəzi məsələlərdə - sıfırdan formalaşdırılmasını) və onun aqrar-sənaye kompleksi ilə maksimum maneəsiz inteqrasiyasını tələb edir ki, bu da faktiki olaraq, makroiqtisadi qeyri-sabitlik və ərzaq bazarlarında qlobal volatillik kontekstində məqsəd və vəzifələrin uyğunlaşdırılması ilə bağlı mübahisəli məsələləri ortaya çıxarır.

Regionda geosiyasi qeyri-sabitlik və dünya ərzaq istehsalındakı qlobal problemlər və qida təhlükəsizliyinin təmin edilməsi məsələləri mühüm və hətta strateji əhəmiyyətə malikdir. Bu məsələnin zahiri sadəliyinə baxmayaraq, kifayət qədər mürəkkəbdir, çünki iqtisadi, siyasi, hüquqi və digər problemlərlə yanaşı, bu gün bu problemin daha da böyüməsi faktdır. Bu məsələnin həllində müxtəlif elm adamları və praktiklərin hər birinin bu kateqoriyanı necə başa düşməsindən asılı olaraq təbii ki, yanaşmaları da fərqlənir.

Məlum olduğu kimi bu gün dünyada ərzaq təhlükəsizliyi sahəsində əsas təşkilat BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır (FAO). Bu təşkilat öz araşdırmalarına əsasən hesabatlarında dünyanın hamını təmin etmə imkanının mümkünlüyünü şübhə altına alır. Dünyadakı mövcud vəziyyət göstərir ki, hazırda kəskin sosial-iqtisadi təhlükəsizlik problemi var-fərdin, ailənin, cəmiyyətin, dövlətin təhlükəsizliyi. Bu istiqamətdə məhz ərzaq təhlükəsizliyi sosial-iqtisadi sabitliyin əsas amili kimi qiymətləndirilir.

Ərzaq problemi həm dünyada, həm də ayrı-ayrı ölkələrdə qida məhsullarının istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakıdır.

Ərzaq probleminin həllində beynəlxalq təşkilatlara və ilk növbədə Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumlarına böyük rol verilir. Ərzaq təhlükəsizliyinin ən mühüm göstəricisi adambaşına ərzaq istehlakının rasional normalarına nail olma səviyyəsidir. Ərzaq istehsalı, nəqliyyat və logistika

infrastrukturu, topdansatış və paylama mərkəzləri, topdan və pərakəndə ticarət daxil olmaqla, bütün əmtəə paylama zəncirləri şəbəkəsinin tarazlığını, stresə davamlılığını qorumaq və gücləndirmək lazımdır.

Ölkənin ərzaq təhlükəsizliyi milli təhlükəsizlik sisteminin mühüm tərkib hissəsidir və beləliklə, dövlətin iqtisadi sabitliyini və siyasi müstəqilliyini, milli dövlət maraqlarına xələl gətirmədən öz vətəndaşlarının elementar ilkin ehtiyaclarını təmin etmək qabiliyyətini xarakterizə edir.

Ərzaq təhlükəsizliyinin sistemli modeli ölkənin aqrar-sənaye kompleksinin və onun iqtisadi təhlükəsizliyinin problemlərini ehtiva edir. İnsanların güzəranının ən mühüm konseptual əsasının onların ərzaq məhsulları ilə fasiləsiz təmin olunması və özünü təmin etməsi kimi çıxış edərək, ərzaq təhlükəsizliyini əhalinin mövcudluğunun biososial əsası hesab etmək olar. Bu formada ərzaq təhlükəsizliyi iqtisadi və sosial münasibətlərin bir növ maddi substansiyası olmaqla demoqrafik və geosiyasi təhlükəsizliklə bilavasitə bağlıdır. Ərzaq təhlükəsizliyi təkcə millətin başqaları ilə birgə müdafiə olunan həyati mənafeyi deyil, millətin və dövlətin, bölgələrin, hər bir insanın mövcud olması üçün həqiqətən obyektiv və zəruri şərtdir.

Qida təhlükəsizliyi sistemi iyerarxik olaraq biososial sistemlər kompleksində qurulmuşdur və öz növbəsində ona daxil edilmiş və iyerarxik prinsipə uyğun təşkil edilmiş alt sistemlərdən ibarətdir. Bu sistem ərzaq təhlükəsizliyinin nəzərdə tutulmuş məqsədini - əhalinin ərzaq məhsulları ilə davamlı, yetərincə və keyfiyyətli təminatını həyata keçirmək üçün zəruri və kifayət qədər alt sistemlər kompleksi kimi formalaşır.

Qida təhlükəsizliyi sisteminin elementlərinin alt sistemlərə birləşdirilməsi funksional, təşkilati, resurs və texnoloji prinsiplər əsasında həyata keçirilir.

Ərzaq təhlükəsizliyi sisteminin formalaşması üçün sistem yaradan amil aqrar-sənaye kompleksidir ki, onun bütün subkompleksləri ölkənin ərzaq təhlükəsizliyinin və ərzaq müstəqilliyinin təmin edilməsi probleminin həllinə yönəlmişdir.

Aqrar-sənaye kompleksinin alt sistemləri, ərzaq məhsullarının marketinqi və bölüşdürülməsi, ərzaq ehtiyatı və istehlakı funksional-məqsədli alt sistemlərdir. Təcrübədə əsasən aşağıdakı alt sistemlərdən istifadə edilir: idarəetmə, maliyyə təhlükəsizliyi, informasiya dəstəyi, logistika, texnoloji dəstək, tədqiqat və innovasiya.

Hər bir dövlətin sosial-iqtisadi inkişafı, onun sabitliyi ərzaq təhlükəsizliyindən bilavasitə asılıdır. Dövlətin ərzaq siyasətinin etibarlılığı və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi proqramları ərzaq təhlükəsizliyi sisteminin tərkib hissəsi olan qurumların davamlı iqtisadi inkişaf strategiyalarına əsaslanmalıdır. Bu sahədə siyasətin əsas istiqaməti əhalinin həyat səviyyəsi və bununla bağlı sosial şərait olmalıdır.

Öz növbəsində, ərzaq təhlükəsizliyinin optimal səviyyəsinə nail olmaq əhalinin ərzaqla təmin edilməsini nəzərdə tutur ki, bu da hər bir dövlət üçün ən vacib vəzifədir.

Ərzaq təhlükəsizliyinin səviyyəsi birbaşa kənd təsərrüfatı istehsalı və emal sənayesinin inkişaf dərəcəsindən asılıdır. Bu mənada qida istehsalına sabit investisiya axını zəruri məsələlərdəndir.

İstənilən ölkənin ərzaq təhlükəsizliyinin təminatı daim araşdırılmalı və bu məsələ öyrənilməlidir. Bu istiqamətdə ölkənin ərzaq təhlükəsizliyinin konsepsiyası və strukturu öyrənilməli, ərzaq təhlükəsizliyinə əsas təhdidlər nəzərdən keçirilməli, ərzaq təhlükəsizliyinin hüquqi tənzimlənməsi təhlil edilməli, ölkənin ərzaq təhlükəsizliyi göstəricilərinin tədqiqi, təhlili və qiymətləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət-iqtisadi siyasətinin əsas istiqamətləri nəzərdən keçirilməli və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü illər);
2. Abbasov Anar Fazil oğlu. Ərzaq təhlükəsizliyi, Bakı 2007;
3. Abbasov İsmət Dursun oğlu. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri, Bakı 2011;
4. Abbasov Vahid Hacıbəy oğlu. Aqrar iqtisadiyyat, Bakı 2017.

**Zibeydə Arif qızı Şəkərəliyeva**
i.ü.f.d., dosent AZ.DİU (UNEC),
E-mail: zibeydashakaraliyeva 1977@gmail.com.
https://orcid.orq: İD0000-0003-1416-9926

# AZƏRBAYCANDA İDXAL VƏ İXRACIN GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİNİN TƏKMİNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə göstərilir ki, respublikamızın iqtisadi prioritetlərinin milli iqtisadi maraqlar əsasında formalaşdırılması prosesləri hal-hazırda xeyli intensivləşmişdir.

Belə ki, ölkəyə neft gəlirlərinin axını ilə əlaqədar olaraq, milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi, ayrı-ayrı sahələrin modernizasiyası prosesləri intensivləşmişdir. Azərbaycanda iqtisadi siyasətin daha iri miqyaslı hədəfləri özündə birləşdirən modeli işlənib hazırlanmış, ölkənin xarici ticarət siyasəti və xarici əlaqələri əhəmiyyətli səviyyədə güclənmişdir. Ölkə iqtisadiyyatının inkişafında, idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində ən mühüm meyllərdən biri gömrük tarif tənzimlənməsinin təkminləşdirilməsi, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşmasında oynadıcı rola geniş yer verilir.

**Açar sözlər:** İdxal-ixrac əməliyyatlarının tənzimlənməsi, idxal-ixracın strukturu, qeyri-neft sektoru, daxili bazarın qorunması, iqtisadi təhlükəsizliyin təmin edilməsi, idxal və ixracın tənzimlənməsi

## Giriş

Müasir qloballaşma şəraitində respublika iqtisadiyyatının rəqabətqabiliyyətliliyin artması və bu sahədə reytinqinin yüksəlməsi gözlənilir. Belə ki, ölkə iqtisadiyyatının diversifikasiyası və rəqabətqabiliyyətinin artması diqqəti cəlb edən əsas məsələdir. Bu işdə isə ölkədə gömrük tarif tənzimlənməsinin təkminləşdirilməsi müstəsna rol oynayır.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və eyni zamanda milli maraqların qorunması üçün xarici iqtisadi fəaliyyətin (XİF) dövlət tənzimlənməsinin metodları təsnifat əlamətlərinə görə iki qrupa bölünür:

- *tarif metodları ( iqtisadi tənzimləmə metodları);*
- *qeyri-tarif metodları (inzibati metodlar).*

Xarici ticarətə təsirinə görə təsnifatlanan birbaşa və dolayı tədbirləri əsasən səkkiz qrupa bölünür: *tarif, paratarif, maliyyə, qiymətlərə nəzarət, lisenziyalaşdırma, kəmiyyət nəzarəti, inhisarçı tədbirlər, texniki tədbirlər.*

Xarici ticarətin tənzimlənməsi metodlarının seçimi dövlətin bu istiqamətdə apardığı siyasətin növü ilə müəyyən edilir: *azad ticarət (liberal siyasət)* və *himayədarlıqsiyasəti (proteksionizm).* Dünya ölkələrinin təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələr, Ümumdünya Ticarət Təşkilatı və digər benəlxalq təşkilatlar əsasən liberal, yəni azad ticarət siyasətini dəstəkləyirlər. Dünyada xarici ticarətin dövlət tənzimlənməsində *tarif* və *qeyri-tarif* metodlarından istifadə edilir.

Azərbaycan Respublikasının "Gömrük Tarifi haqqında" Qanununda verilən tərifə görə gömrük tarifi gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.Daşıdığı funksiyaların xarakterindən asılı olaraq gömrük tarifi *proteksionist* və *fiskal* funksiyalı olaraq iki yerə ayrılır.[1]

Dünyanın əksər ölkələrində gömrük tarifindən istifadə edilir. Milli tarif sistemilə yanaşı, regional tarifləri də özündə birləşdirən vahid tarif sistemləri də mövcuddur. Tariflərin həddindən çox artırılmasının qarşısını almaq və qarşılıqlı razılaşmalar yolu ilə aşağı salmaq, ticarətə olan maneələri aradan qaldırmaq və digər məsələlər 1995-ci ilə qədər Tarif və Ticarət üzrə Baş Saziş (*GATT* –

*General Agreement on Tariffs and Trade*), həmin ildən sonra isə Ümumdünya Ticarət Təşkilatı (*WTO – World Trade Organization*) adlı qurum tərəfindən tənzimlənir. İkitərəfli və çoxtərəfli razılaşmalar yolu ilə güzəştlər müəyyən edilir və tətbiq olunur ki, bu da *preferensial rejim* (preferensiya – bir dövlətin idxal gömrük rüsumlarının dərəcələrinin azalması üzrə digərinə verdiyi xüsusi güzəştlər) sayılır. Bu cür güzəştlər yerli əmtəələrin digər ölkənin daxili bazarına çıxarılması imkanlarının artırılması üçün tətbiq edilir.

Azərbaycan Respublikasının *"Gömrük Tarifi haqqında" Qanunu* 13 iyun 2013-cü ildə gömrük tarifinin hüquqi tənzimlənməsi, formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən etmək üçün Milli Məclisdə qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin 4 iyul 2013-cü il tarixli fərmanı ilə qüvvəyə minmişdir.

Ölkə ərazisinə gətirilən, gömrük rüsumuna cəlb olunan və ya olunmayan malların siyahısı və tətbiq edilən rüsum dərəcələri, eyni zamanda, xarici iqtisadi fəaliyyəti tənzimləyən qeyri-tarif tədbirləri, ixrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən qanunlarla müəyyən edilir.

Gömrük rüsumları *mövsümi* və *xüsusi* olurlar. Mövsümi rüsumlar bəzi malların ixrac və idxalını operativ tənzimləmək üçün tətbiq edilir və bu rüsumların qüvvədə olduğu müddəti il ərzində 6 aydan çox olmamaq şərtilə tətbiq olunur.

Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaq üçün gömrük ərazisinə idxal edilən mallara müvəqqəti olaraq xüsusi, antidempinq və kompensasiya gömrük rüsumları tətbiq edilir ki, bu rüsumların formalaşması və tətbiqi qaydaları "Gömrük Tarifi haqqında" Qanunda nəzərdə tutulmuş hüquqi normalarla tənzimlənir.

Dünya ölkələrinin təcrübəsi görərik ki, *qeyri-tarif* tədbirlərinin tətbiqinə münasibət ziddiyyətlidir. İqtisadçıların əksəriyyəti bu tədbirlərin dünya iqtisadiyyatının inkişafına mənfi təsir etdiyini göstərirlər. Ümumdünya Ticarət Təşkilatı da belə tədbirlərin ləğv edilməsinin və beynəlxalq ticarətin əsasən tarif vasitələri ilə tənzimlənməsini əsas götürür. Bütün bunlara baxmayaraq, əksər ölkələrdə qeyri-tarif metodlarından (xaricdən idxal olunan malların kəskin artımı nəticəsində milli iqtisadiyyata vurulan zərərin qarşısının alınması üçün həyata keçirilən müdafiə tədbirləri, xarici ixracatçılar tərəfindən aparılan ədalətsiz rəqabətin qarşısının alınması və s.) hələ də istifadə olunur.

İdxal əməliyyatlarının tənzimlənməsində istifadə olunan inzibati metodlar idxalı məhdudlaşdıran qadağan xarakterli tədbirlər kompleksidir. Belə tədbirlərin məqsədi idxal edən ölkənin rəqabət mövqeyinin gücləndirilməsi ilə yanaşı, milli sənayenin inkişafı, ətraf mühitin, əhalinin həyat və sağlamlığının qorunması, milli təhlükəsizliyin müdafiə edilməsi ilə bağlıdır. İnzibati metodlar yalnız idxal əməliyyatlarında deyil, bəzi hallarda ixrac əməliyyatlarında da istifadə edilir.

Tədqiqatlar göstərir ki, dünyada məlum olan 800-ə qədər qeyri-tarif tənzimləmə metodu vardır və onların sayı artmaqda davam edir. Bütün qeyri-tarif tədbirlərini (QTT) isə *iqtisadi* və *inzibati* olaraq iki qrupa bölmək olar:

1. İqtisadi tədbirlər (*yerli istehsalçıların vergi, rüsum və kreditləşdirmə güzəştləri*, subsidiyalar, valyuta tənzimləmə tədbirləri və digər dolayı tədbirlər vasitəsilə dəstəklənməsi)
2. İnzibati tədbirlər (lisenziyalaşdırma və kvotalaşdırma, inhisarçı tədbirlər, embarqo (qadağa), ixracın məhdudlaşdırılması, proteksionist məqsədlər üçün standart və texniki normalardan istifadə edilməsi, əlavə gömrük sənədləri və əməliyyatları) [2]

Qeyd etmək lazımdır ki, respublikamızın iqtisadi inkişafı xarici ticarət əlaqələrinin keyfiyyətindən birbaşa asılıdır. Bu əlaqələrin tənzimlənməsi sistemi dövlətin iqtisadi siyasətinin təsiri altında formalaşır. Hal-hazırda respublikamızda milli istehsalın qorunmasına yönələn siyasətin əsas istiqamətləri bir-birini tamamlayan iki istiqamətdən ibarətdir:

1. Daxili bazarın qorunması üçün gömrük-vergi mexanizmlərinin inkişaf etdirilməsi;
2. Yerli istehsalın inkişaf etdirilməsi üçün institusional islahatların aparılması.

Respublikamızda iqtisadiyyatın gömrük-tarif tənzimlənməsinin hüquqi əsasları Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında" Qanunu və digər normativ-hüquqi aktlarla müəyyən edilir.[1]

Gömrük tariflərinin müəyyən edilməsi zaman ölkədə müəyyən əmtəələrin istehsalında olan mövcud vəziyyətlə yanaşı, bu əmtəələrin milli iqtisadiyyatımızın strukturundakı yeri, beynəlxalq əmək bölgüsü baxımından perspektivləri nəzərə alınmalıdır. İdxal əmtəələrin tətbiq olunan gömrük rüsumları və vergilər onların daxili bazarda qiymətlərini artırmaqla yerli istehsalçıların satış imkanlarını artırır və beləliklə, yerli istehsalın genişlənməsinə səbəb olur.

Respublikamızda qeyri-neft sektorunda istehsalın inkişafı məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixli 17 nömrəli qərarı ilə cins heyvan, qoyun, keçi və toyuqlar, əkin üçün paxlalı bitkilər və bir sıra toxumlar, ərzaq məhsullarının istehsalında istifadə olunan avadanlıqların ehtiyat hissələri və digər müvafiq əmtəələr də gömrük rüsumlarından azad edilən əmtəələrə aid edilmişdir.

Respublikamızın əmtəə qrupları üzrə idxalının strukturunun təhlili göstərir ki, diri heyvanlar və heyvan mənşəli məhsullar üzrə idxalın həcmi 2020-cü ildə 2010-cu ilə nisbətən 47% artmış və bu artım sonrakı dövrdə də davam etmişdir. Bitki mənşəli məhsullar üzrə idxalın artımı isə 2020-ci ildə 2010-cu il nisbətən 26,7% olmuşdur. Həm diri heyvanlar, həm də bitki mənşəli məhsulların idxalının 2020-ci ildə əvvəlki illərlə müqayisədə kəskin artımını (2015-ci ilin göstəriciləri ilə müqayisədə müvafiq olaraq 25,5% və 25,4%) aqrar sektorun inkişafı istiqamətində aparılan siyasətin uğurlu nəticələrindən biri kimi qiymətləndirmək olar. Belə artımın manatın devalvasiyasından sonrakı ildə, yəni 2016-cı ildə daha yüksək sürətlə davam etməsi faktı isə aparılan islahatların ünvanlılığının artmasından xəbər verir.

3. Гамза В.А. Цифровая трансформация финансовых рынков. 2020. Режим доступа: http://www.fa.ru/org/dep/frib/Documents/Гамза В.А. Цифровая трансформация финансовых рынков.pdf.
4. Гордеев К.В. Цифровизация финансовых рынков: проблемы и перспективы // Вопросы российского и международного права. –2021. Т. 11. № 1-1./2021. с. 35-41.
5. Блажевич О.Г., Сафонова Н.С. Особенности развития финансового рынка в условиях цифровизации // Научный вестник: финансы, банки, инвестиции. 2021. №1/2021. с. 106-124.

**Aytac Valeh qızı Əkbərzadə**
Azərbaycan Texnologiya Universitetinin magistrı
E-mail: aytac.akbarzada96@gmailşcom

## MALİYYƏ BAZARLARI VƏ PUL-KREDİT MEXANİZMİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Maliyyə bazarının əsas əmtəəsi xarici və daxili maliyyədə ifadə olunan istənilən maliyyə tələbidir. Formal olaraq başqa ölkələrdən borc alanlar tərəfindən buraxılmış xarici maliyyə qiymətli kağızlarla ödənilir, məsələn, funt sterlinqlə və s. Bazar mexanizmi nöqteyi-nəzərindən maliyyə mübadiləsi bir ölkənin maliyyəsinin digər ölkənin maliyyəsinə çevrilməsidir.

Beləliklə, kapitalın səmərəli sektorlara axını təmin edilir və maliyyə resurslarının bir sahədən digərinə yönəldilməsi ilə iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi imkanı əldə edilir. Bu üstünlüklər ölkənin maliyyə sektorunun, o cümlədən maliyyə bazarının dəyişən iqtisadi konfiqurasiyada inkişafı üçün böyük imkanlar yaradır.

**Açar sözlər:** maliyyə bazarı, iqtisadiyyat, pul-kredit sistemi, maliyyə sistemi, bank

**Ключевые слова:** финансовый рынок, экономика, денежная система, финансовая система, банковское дело

**Key words:** financial market, economy, monetary system, financial system, banking

Maliyyə bazarının əsas iştirakçıları idxalçılar, transmilli şirkətlər, ixracatçılar, maliyyə institutları, dövlət qurumları və investorlardır. Onların hamısının fərqli ehtiyacları var, o cümlədən dünyanın müxtəlif bölgələrinə sərmayə qoymaq və alıcılıq qabiliyyətini bir ölkədən digərinə ötürmək ehtiyacı var.

Maliyyə əməliyyatları ilə məşğul olan ən böyük banklar aparıcı maliyyə mərkəzlərinin (Nyu-York, Tokio, London, Frankfurt, Honq Konq, Sinqapur) satış şöbələrində işləyirlər. Əsas mərkəzlərdə, əsasən Nyu-York və Londonda bu bankların maliyyə bazarının müxtəlif sektorlarında fəaliyyət göstərən 30-40 brokeri var. Ən böyük banklarda belə sahələr və daha çox ola bilər və müvafiq maliyyələşdirmə ilə işləyirlər. [2; s.46]

Dünyanın maliyyə bazarları Nyu-York, Paris, London, Sürix, Sinqapur və Tokioda yerləşir. Onlar dünyada ən çox yayılmış valyutada fəaliyyət göstərirlər və etibarlılığından asılı olmayaraq praktikada yerli maliyyə ilə işləmirlər. Regional və yerli maliyyə bazarlarında banklar yalnız məhdud sayda sərbəst dönərli maliyyə əməliyyatları həyata keçirirlər. Milli maliyyə bazarları çərçivəsində əməliyyatların məcmusunu ölkə ərazisində yerləşən banklar həyata keçirir. Xarici müştəri xidmətlərinə şirkətlər, fiziki şəxslər, beynəlxalq maliyyə əməliyyatları üzrə ixtisaslaşmayan banklar daxil ola bilər.

Maliyyə bazarı fondların ölkələr arasında hərəkət etdiyi beynəlxalq bazardır. Əməliyyatlar əsasən telefon və digər müasir rabitə vasitələri ilə xarici vəsaitlərin alqı-satqısını həyata keçirən maliyyə institutları arasında həyata keçirilir, bununla da maliyyə dərəcələri və faiz dərəcələrində fərq əldə edilir. Dünyadakı maliyyə mərkəzləri iş saatlarında və ya müvafiq birjalar və banklar açıq olduqda ticarətə başlayırlar. [7; s. 24]

**Şəkil 1**

**Maliyyə bazarlarının strukturu və onun iştirakçıları**




**Mənbə:** Kərimova G.R., “Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri”, Audit 3, 2020, Cild 29, səh. 56

Dünyada maliyyə bazarlarının 3 modeli mövcuddur: Anglo-Sakson, Avropa və qarışıq. Avropa modelində əsas tənzimləyici Mərkəzi Bankdır (Almaniya, Belçika, Avstriya), çünki ölkənin maliyyə bazarının əsas iştirakçıları banklardır. Anglo-Sakson modelində maliyyə bazarının əsas iştirakçıları investisiya institutları və bank olmayan təşkilatlardır, ona görə də bu ölkələrin müxtəlif tənzimləyiciləri var. Bəzi ölkələrdə tənzimləmə funksiyaları yerli hakimiyyət orqanlarına həvalə edilmişdir. Məsələn, Amerikada ştatlar, Almaniyada federal ştatlar. Rusiyada qarışıq model var.

Maliyyə bazarının rolu və mahiyyəti onun yerinə yetirdiyi funksiyalar ilə müəyyən edilir. Bunlara aşağıdakılar aiddir: [4; 114]

- Yenidən bölgü funksiyası. Kreditordan - borc alana pul vəsaitlərinin hərəkətini təmin edir;
- İnformativ funksiya. Bazarda alıcıyla satıcının birbaşa görüşməsi vaxtı satışa çıxarılmış aktivlərin real qiymətlərini müəyyənləşdirir;
- Riski azaltma funksiyası. Pulları ən səmərəli istiqamətlərə yerləşdirmək üçün investorlara şərait yaradır;
- Qənaət funksiyası. Maliyyə vəsaitinin tədavül xərclərini ən aşağı həddə endirir.

Maliyyə bazarı dünya sisteminə inteqrasiya olunmuş bir sıra milli maliyyə bazarlarından ibarətdir. Bu sistem banka istənilən maliyyə mərkəzində aşağıdakı əməliyyatları həyata keçirməyə imkan verir:

1. Birinci səviyyə pərakəndə satışdır. Milli bazarda əməliyyatlar, diler bank alqı-satqı zamanı alıcıyla qarşılıqlı əlaqədə olur;

2. İkinci səviyyə - banklararası topdansatış ticarət. Daxili bazarda 2 diler bankı maliyyə brokeri vasitəsilə bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

3. Üçüncü səviyyə beynəlxalq formalı ticarətdir. Müxtəlif ticarət mərkəzlərinin diler banklarının bir-biri ilə qarşılıqlı əlaqədə olduğu 2 və ya daha çox milli bazarlar arasında əməliyyatlar bu səviyyəyə aid edilir.

**Şəkil1**

**Dollarlaşma səviyyəsi 2010-2018-ci illər üzrə**




**Mənbə:** AMB, Pul siyasəti icmalı, 2018

Son illərdə Milli valyutanın 2 dəfəyə qədər dəyər itirməsi nəticəsində ən yüksək inflyasiya səviyyəsi 2017-ci ildə qeydə alınmışdır və inflyasiya göstəricisi 12.8% təşkil edib. Yüksək inflyasiyanın qarşısının alınması məqsədilə sərt pul- kredit siyasəti həyata keçirmək zəruridir ki, bu da invesitisiya aktivliyinin, həmçinin iqtisadi fəallığın bərpasını müəyyən qədər ləngidir. Yüksək inflyasiya başqa tərəfdən milli valyutaya inamın bərpa edilməsinə mane olur. Bütün bunların nəticəsi olaraq biznes, həmçinin ev təsərrüfatları yığımlarında xarici valyutada ümumi vəsaitlərin üstünlüyü özünü göstərir. Beləki, 2017-ci il ərizndə 2016-cı ilə nisbətən bank sektoru üzrə ümumi depozitlərdə xarici valyutayla depozitlərin xüsusi çəkisi azalmaqla 72.4 faiz təşkil etmişdir. 2018-ci ildə tədiyə balansında müsbət saldonun olması, valyuta bazarında tarazlı durumun davam etməsi milli valyutanın məzənnəsinin sabitləşməsinə, bu isə nəticədə dollarlaşma prosesinin səngiməsinə səbəb olub. Beləki, 2018-ci il ərizndə dollarlaşma 2017-ci il iə müqayisədə azalaraq 65.3 faiz olmuşdur. [3]

Respublikamızda maliyyə bazarlarının inkişaf etməsinə təkan verən əsas sənədlərdən biri Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 16 may tarixli sərəncamıyla təsdiq edilən "2011-2020-ci illər ərzində Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişaf etməsi Dövlət Proqramı"dır. Bu Proqramında göstəriqeyd edilir ki, "Hazırda ölkəmiz yüksək sosial iqtisadi dirçəliş mərhələsinə qədəm qoyub. Artıq inzibati-amirlik üsulu idarəsinə söykənən formasiyadan azad sahibkar və bazar münasibətlərinə əsaslanmış sosial- iqtisadi quruluşa keçid tamamlanıb. Bu gün başlıca hədəf kimi bərqərar olan yeni iqtisadi sistemin yetkinləşməsi gündəlikdədir". [6; s. 217] "2011-2020-ci illər ərzində Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişaf etməsi" proqramının əsas məqsədi beynəlxalq standartlara uyğun, müasir, iqtisadiyyata geniş kapitallaşma imkanları təqdim edən, yüksək səmərə ilə fəaliyyətdə olan qiymətli kağızlar bazarının formalaşdırılmasıdır.

Dövlət maliyyə bazarının iqtisadiyyat üçün daha böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, bu sahədə genişmiqyaslı tədqiqatların aparılması, onun inkişaf istiqamətlərinin müəyyən edilməsi və ölkədə qiymətli kağızlar bazarının formalaşması vəzifəsini qoyur.

Maliyyə bazarları iqtisadi, investisiya, maliyyə və s. gəlirlərə və dividendlərə əhəmiyyətli təsir göstərən risklərin baş verməsində mühüm rol oynayır. [6; s. 77] Eyni zamanda, onun özəlliyi, ən əsası isə təhlükəli cəhəti ondan ibarətdir ki, burada aparılan əməliyyatlar, qiymətli kağızların və səhmlərin qiymətləri qısa müddət ərzində dəyişə bilir. Müştərilərdən də çox şey asılıdır. Eyni zamanda onun strukturunda qiymətli kağızların qiyməti haqqında məlumatlar dövr edir. Ona görə də burada tenderlə bağlı razılaşmalar vacibdir. Odur ki, riskin azaldılması nöqteyi-nəzərindən hansı səhmlərin alınıb satılacağını, hansı müddət ərzində alqı-satqı aparılacağını və cari dövrdə qiymətli kağızların

məzənnəsinin necə dəyişəcəyini müəyyən etmək üçün bütün aspektlər nəzərə alınmalıdır. Burada mühüm şərt səhmlərin gəlirliliyi, hansı dövrdə aşağı və yüksək gəlir verməsidir.

Maliyyə sabitliyinin təmin olunmasına yönəlmiş tədbirlər kompleksi, makroiqtisadi davamlılığın təmin edilməsi yönündə verilən qərarlar məzənnə rejiminin sürətinin artmasına əlverişli şərait yaratmışdır.

Pul-kredit siyasətinin təşəkkülünün əsas meylləri aşağıda göstərilən məsələlərin tərtib edilməsini tələb edir:

1. Strateji məqsədlərə çatmaqda xüsusi effekti olan pul-kredit siyasətinin əsaslı məqsədini ayırd etmək;
2. Pul-kredit siyasətinin inflyasiya ənənələrinə təsiretmə dərəcəsi.
3. Pul-kredit siyasətinin mütərəqqi obyektini ayırd etmək;
4. Pul-kredit siyasətinin tərtib olunması və yürüdülməsində mərkəzi bankın sərbəstlik dərəcəsi;
5. Siyasətin tsiklik və ya antitsiklik olması və b.

Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin yaradılması və maliyyə savadlılığının yüksəldilməsi üçün müasir intellektual vasitələrdən istifadə etməklə əhalinin maarifləndirilməsi istiqamətində işlər aparılmışdır. Ölkədə yoxsulluğun azaldılmasına və qeyri-neft sektoruna investisiyaların şaxələndirilməsinə baxmayaraq, maliyyə inklüzivliyinin səviyyəsi aşağı olaraq qalır. Beləliklə, təhlillər göstərir ki, Azərbaycanın maliyyə bazarının formalaşması və inkişaf mərhələləri belə bazarların formalaşmasında qlobal qanunauyğunluğu əks etdirir. Bu nümunə bütün inkişaf etmiş ölkələrə aiddir. Onların maliyyə bazarlarının formalaşması Azərbaycanın maliyyə bazarlarının keçdiyi mərhələlərdən keçib. Lakin tarixən ölkəmizdə bu proses qısamüddətli olub.

## ƏDƏBIYYAT SIYAHISI:


1. AMB, Pul siyasəti icmalı, 2018
2. Ataşov B., “Maliyyə bazarları”, Bakı, 2016, 456 səh.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018
4. Həsənov H.H., “Maliyyə və kredit”, Bakı, 209 səh.
5. Kərimova G.R., “Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri”, Audit 3, 2020, Cild 29, səh. 53-64
6. Məmmədov S.M., “İnflyasiya və maliyyə bazarı”, Bakı, 2014, 345 səh.
7. Sadıqov M.M, Zeynalov V.Z., Sadıqov Q.M., Əliyev V.F., “Bazar İqtisadiyyatı: maliyyə və vergilər, Bakı, 2013, 564 səh.



**Əlbaba oğlu Əlihəsənov**
**Elmi rəhbər: Sərvər Abbasov**
Bakı Dövlət Universitetinin magistri
E-mail: alihasanoff999@gmail.com


## MALİYYƏLƏŞDİRMƏ ALƏTİ KİMİ FAKTORİNQİN XÜSUSİYYƏTLƏRİ

Mövcud olduğu tarix boyu faktorinq anlayışını daha dəqiq müəyyənləşdirməyə çoxlu cəhdlər olmuş, onların bir hissəsi hazırki vaxtda öz əhəmiyyətini itirmiş, əksəriyyəti artıq köhnəlmiş və faktorinqin müasir inkişaf səviyyəsinə uyğun gəlmirlər, qalanlar isə tədqiqatçılar tərəfindən hələ də müzakirə olunur və müxtəlif variantlarda izah edilir. Bizim fikrimizcə, faktorinq əslində ümumləşdirilmiş anlayışdır, özündə bir sıra bir-birinə bağlı maliyyə xidmətlərini birləşdirir, hansıki istehlak bazarının təqdim etdiyi tələblər əsasında dəyişilə bilər.

Faktorinq dedikdə kompleks maliyyə xidmətləri başa düşülür, hansıki çərçivəsində şirkət-faktor malgöndərənin mühasibat, informasiya, təchizat, sığorta, hüquq və digər xidmətlərinin elementləri ilə əlaqədar müştərilərin ödənilməyən borc öhdəliklərinin əsas məbləğinin təcili ödənilməsi şəraitində həmin tələbatın müəyyən mükafatını qazanır. Faktorinq xidmətlərinin əsas məqsədi ödənişin

gecikdirilməsi nəticəsində yaranmış itkilərin azadılması, şübhəli borcların əmələ gəlməsinin qarşısının alınması, maliyyə riskinin yumşadılması üçün vaxtında inkassirləşmənin aparılmasıdır.

Faktorinq istehlakçıya göndərilmiş əmtəənin maliyyələşdirilməsini nəzərdə tutur, hansıki əmtəənin göndərilməsindən sonra malgöndərənə faktorinq firması (bank) göndərilmiş əmtəənin məbləğinin əhəmiyyətli hissəsini qabaqcadan ödəniş qismində ödəyir. Dünyanın müxtəlif ölkələrində qabaqcadan ödəniş göndərilən əmtəənin dəyərinin 50-90 faizini təşkil edir. Qalan məbləğ satıcıya debitordan pul daxil olan gün ödənilir .

Faktorinq ticarət əməliyyatlarının maliyyələşdirilməsinin uzunmüddətli aləti olduğuna görə faktorinq xidmətləri haqqında müqavilə qeyri-müəyyən müddətə bağlanılır və hər iki tərəf qarşılıqlı əməkdaşlıqdan qane olduqları ana qədər fəaliyyət göstərir.

Faktorinqin yerinə yetirdiyi funksiyaları blok-sxem şəklində təqdim etmək olar, hansıki faktorinqin mahiyyətini aşkarlamağı asanlaşdırır və faktorinq xidmətlərinin əsas təşkiledicilәri barədə aydın təsəvvür yaradır .

Xarici və yerli iqtisadcıların təklif etdikləri faktorinqin təsnifatına nəzər salsaq görərik ki, faktorinqin əsasını faktorinq şirkətinin ödənilməməyən borc tələblərinin malgöndərənə güzəşt edilməsi durur və bu faktorinqin bütün növləri üçün ümumi element sayılır.Faktorinq fəaliyyətə yeni başlayan və sürətlə inkişaf edən kiçik və orta biznes subyektləri üçün olduqca faydalıdır. Bu baxımdan faktorinq xidmətindən istifadə edən təsərrüfat subyektləri inkişaf prosesində vəsait qıtlığı problemini aradan qaldırır və debitor borcları ilə məşğul olmaq kimi ağır bir işdən azad olurlar.

Adi kreditləşmə ilə müqayisədə faktorinqin bir sıra fərqli xüsusiyyətləri vardır. Əvvəla, faktorinq xidmətindən iş təcrübəsi olmayan təsərrüfat subyektləri də istifadə edə bilərlər. Üstəlik, onlardan maliyyələşdirmə əvəzində girov qoymaq tələb olunmur. Bundan əlavə, faktorinq adi kreditdən fərqli olaraq verilmiş vəsaitin qaytartılmasının konkret müddətlərini nəzərdə tutmur, çünki malların satılma müddəti malgöndərəndən asılı deyil. Eyni zamanda kredit əvvəlcədən razılaşdırılmış məbləğdə verildiyi halda faktorinq üzrə maliyyələşdirmə məbləği məhdudlaşdırılmır və malgöndərənin satış həcmi artdıqca faktorinq maliyyələşdirilməsinin məbləği də artır. Kredit maliyyələşdirilməsi birdəfəlik əməliyyatdır və kreditin qaytarılması yeni kreditin alınması üçün təminat deyildir. Faktorinq isə fasiləsiz və müddətsiz maliyyələşdirmə formasıdır. Belə ki, malgöndərən bir faktorinq əməliyyatını başa çatdırdıqdan sonra istədiyi məbləğdə ikinci, üçüncü və s. əməliyyatları həyata keçirə bilər. Ən mühüm fərqlərdən biri də odur ki, bank krediti almaq üçün çoxlu sayda sənədləşmə tələb olunduğu halda, faktorinq maliyyələşdirilməsi üçün qaimə (malların göndərilməsi barədə sənəd) və hesab-fakturanın təqdim edilməsi kifayətdir .

Faktorinqin xidmətindən kredit risklərinin müdafiəsi aləti kimi istifadə edilə bilər. Dünya təcrübəsində bu məqsəd üçün ödəməmə riski sığortalanır. Sığorta şirkətləri öz müştərilərinə bütün aktivlərinin, o cümlədən debitor borclarını sığortalamağı məsləhət görürlər. Xarici ölkələrdə faktorinq və sığorta şirkətləri birgə fəaliyyət göstərirlər, yəni sığorta şirkəti kredit risklərinin sığortasını təşkil edir, faktorinq şirkəti isə nəzərdə tutulan bütün xidmətləri göstərir və bu zaman öz riskini azaldır.

Beynəlxalq ticarıtin inkişafında faktorinqin yeri və rolunu müəyyənləşdirmək üçün faktorinq kvotası təklif olunur, hansıki xarici iqtisadi fəaliyyətdə təsərrüfat subyektlərinin faktorinqdən nə qədər aktiv istifadə etdiklərini göstərir, konkret ölkədə faktorinqin həçminin həmin ölkənin xarici ticarət dövriyyəsinə olan nisbətini ifadə edir.

Azərbaycanın kommersiya banklarının faktorinq xidmətləri göstərməsi zamanı üzləşdikləri əsas problemlər bunlardır:

- bankın likvidliyinə xüsusi tələbin olması;
- faktorinq xidmətləri göstərmək üçün bankların proqam məhsullarının olmaması;
- faktorinq sahəsində ixtisaslı kadrların çalışmaması.

**Nəzrin İldırım qızı Əliyeva**
Magistr, Azərbaycan Texnologiya Universiteti
E-mail: nezrinaliyeva1997@gmail.com

# MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNDƏ QEYRİ-MÜƏYYƏNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI

**Xülasə**

Məqalədə müəssisələrin fəaliyyətində baş verən qeyri-müəyyənliklər, risk və onun əsas əlamətləri, risklərin növlərindən və onlareın arada qaldırılması yollarından bəhs edilmişdir. Qeyri-müəyyənlik müxtəlif səbələrdən yaranan və qərarların rəallaşdırılması sərtləri, o cümlədən, onlarla baglı xərclər və nəticələr haqda natamam və dəqiq olmayan informasiyadan yaranan yarımçıq, paramətrlər haqda qeyri-dəqiq təsəvvürlərdir.

**Açar sözlər:** Müəssisələrin fəaliyyətində qeyri-müəyyənliklər, aradan qaldırılması, qeyri-müəyyənliklərin aradan qaldırılması

**Ключевые слова:** Неопределенности в деятельности предприятий, устранение, устранение неопределенностей.

**Keywords:** Uncertainties in the activities of enterprises, elimination, elimination of uncertainties

Qeyri-müəyyənlik və risklər bu və ya digər şəkildə hər bir insanın həyatında mövcuddur. Potensial nəticənin ehtimalını qiymətləndirmək çətin olan hadisələrin qeyri-müəyyən nəticəsi ola bilən müxtəlif şərtlər, amillər, imkanlarla əlaqəli hər hansı qərar və hərəkətlərdir.

Qeyri-müəyyənlik və risklər daha çox iqtisadi fəaliyyətlərdə və idarəetmə proseslərində özünü göstərir. Bazar iqtisadiyyatına keçid zamanı müəssisənin maliyyə fəaliyyəti çoxsaylı risklərlə müşayiət olunur ki, bu da həm nəzarət obyektinin mühitinin multifaktorial dinamikası, həm də insan amilinin rolu ilə bağlıdır.

Öz növbəsində qeyri-müəyyənlik ətraf mühit və riskin əsas səbəbidir. Qeyri-müəyyənlik və risk arasındakı mahiyyət və fərqlərin ilk hərtərəfli tədqiqi qeyri-müəyyənliyin üç növünü: aprior, statistik və təxminləri ayıran F.Naytın adı ilə bağlıdır.

Qeyri-müəyyənlik,risklər və ehtimal anlayışları bir-biri ilə əlaqəlidir. Qeyri-müəyyənlik dedikdə, fəaliyyətin yekun nəticələrinin və əlaqədar xərclərin qismən və ya tam gözlənilməzliyinə səbəb olan bir prosesin və ya hadisənin vəziyyəti haqqında məlumatın olmaması, natamamlığı, etibarsızlığı, asimmetriyası başa düşülür.

Belə şəraitdə həll variantının seçilməsi əsasən qərar qəbul edənin subyektiv üstünlüklərindən asılıdır. Məsələn, məlumatın tam olmaması, onun qeyri-müəyyənliyi qeyri-müəyyənlik vəziyyətinə gətirib çıxarır ki, bu da qərar qəbul edən şəxsin həm səhv, qeyri-müəyyən hərəkətləri (qeyri-adekvatlıq, qeyri-dəqiqlik, yanlışlıq), həm də məcburi hərəkətsizliyi ilə nəticələnə bilər. Lakin məlumatın artıqlığı həm də effektiv qərar qəbul etməyi çətinləşdirir və qeyri-müəyyənliyə səbəb ola bilər. Buna görə də, vəziyyətin qeyri-müəyyənliyinə səbəb olan məlumat, onun kəmiyyət (yoxluğu, natamamlığı, artıqlığı) və keyfiyyət (qeyri-müəyyənlik, qeyri-müəyyənlik, etibarsızlıq, subyektivlik) xüsusiyyətləri qərar qəbul edən şəxsin reaksiyasını (hərəkət və ya hərəkətsizlik) müəyyən edir, riskə səbəb olur. Qeyri-müəyyənliyi tamamilə aradan qaldırmaq mümkün deyil, qaçılmazdır. Lakin yüksək keyfiyyətli, etibarlı, hərtərəfli məlumat əldə etməklə onu minimuma endirmək olar.[1]

Qeyri-müəyyənlik mənbələrinin təhlili onun əsas səbəblərini müəyyən etməyə imkan verdi, məsələn:

- qərar qəbul edən şəxsin reaksiyasına təsir edən məlumatın keyfiyyət və kəmiyyət xüsusiyyətləri (hərəkət və ya hərəkətsizlik);
- naməlum xarakterli amillərin yaratdığı və müxtəlif fors-major hadisələrə səbəb olan oxşar şəraitdə eyni hadisələrin gedişatının fərqliliyi və müstəqilliyi nəticəsində yaranan təsadüfilik;
- maraqların toqquşması, münaqişələr, rəqabət nəticəsində yaranan, riskə aparan müxalifət.

Göstərilir ki, müəyyən hadisələrin baş vermə ehtimalını kəmiyyətcə qiymətləndirmək qabiliyyəti riskli vəziyyətlərlə qeyri-müəyyənlik hallarını ayırd etməyə imkan verir. Riskin qiymətləndirilməsinin yanaşmaları və üsulları nəzərdən keçirilir.

Müəssisənin istehsal sferasında qeyri-müəyyənlik mənbələri aşağıdakılardır:

1. İstehsal və kommersiya fəaliyyətinin perspektivləri haqqında əsaslı nəticələr çıxarmağa imkan verməyən makroiqtisadi mühitin vəziyyəti və bazar proseslərinə təsir edən amillər və onların konkret iqtisadi vəziyyətdə gedişatının xüsusiyyətlərini müəyyən edən kifayət qədər məlumatın olmaması.

2. Müəssisənin fəaliyyəti və ən əsası əsas istehsal sahəsində gözlənilən maliyyə nəticələri.

Bazar konyukturasının qeyri-müəyyənliyinin bu cəhəti cəmiyyətlər tərəfindən onların biliklərinə obyektiv məhdudiyyətlərin olması səbəbindən müəyyən bir müəssisənin iqtisadiyyatı üçün bazar və sosial-iqtisadi proseslərin perspektivlərinin proqnozlaşdırılmasının əsaslı qeyri-mümkünlüyü ilə əsaslandırıla bilər (bu halda , onlarla birbaşa əlaqəli olan idarəçilər).

C. Uayzman qeyd edirdi ki, gələcəyin fundamental bilinməzliyi və onun yaratdığı qeyri-müəyyənlik XXI əsrin iqtisad elminin mərkəzi problemini təşkil edəcək və qeyri-müəyyənliyin məhdudlaşdırılması üsullarının axtarışı kimi onun tədqiqat predmetini əvvəlcədən müəyyənləşdirəcək. Məhz bu səbəbdən postindustrial cəmiyyətdə bilik və informasiya amillərinin əhəmiyyəti artır, informasiya mühüm spesifik resursa çevrilir və "informasiya" anlayışının özü də "qeyri-müəyyənlik"in antonimidir.[1]

3. Bazarın digər subyektlərinin təsadüfi və ya bilərəkdən müqaviməti (firma, personal və s. ilə qarşılıqlı əlaqədə olan agentlərin öhdəliklərinin pozulması və fürsətçi davranışı).

4. Gözlənilməz baş vermə səbəbindən proqnozlaşdırıla bilməyən təsadüfi fors-major amillərin təsiri

Beləliklə, müəssisənin istehsal sferasının qeyri-müəyyənliyi ya əsaslandırılmış qərar qəbul etmək üçün zəruri olan xarici və daxili mühitinin vəziyyəti haqqında məlumatın olmaması, ya da obyektiv qeyri-mümkünlüyünü əvvəlcədən müəyyən edən qeyri-dəqiqliyi və məhdudluğu (qeyri-kafi) ilə qeyri-sabit bazar mühitində müəssisə fəaliyyətinin bu sferasının işləməsi üçün etibarlı ssenarilərin işlənib hazırlanması əlaqələndirilir.

Öz növbəsində, bazar şəraitində fəaliyyət göstərən müəssisənin istehsal sferası aktivlərin hazır məhsula çevrilməsinin hər mərhələsində qeyri-müəyyənliklə səciyyələnən, tədarük, istehsal və satış üzrə müxtəlif risklər yaradan yüksək dinamik sistemdir. Qeyri-mükəmməl bazarlarda nadir və ödənişli əmtəə olan zəruri məlumatlara sahib olmaqla onu azaltmaq olar.

Digər tərəfdən, qeyri-müəyyənliyin mövcudluğu və onun yaratdığı risk müəssisənin "sığortası mümkün olmayan riskləri götürdüyünə" görə mükafat kimi əlavə mənfəət əldə etmək imkanını əvvəlcədən müəyyən edir.

Beləliklə, risk idarəetmə qərarlarının qəbulu şərtlərinin qeyri-müəyyənliyi ilə əlaqələndirilir, nəticələri yalnız bir müddət keçdikdən sonra aşkar edilə bilər. Əgər bu tezisi qəbul etsək, o zaman razılaşmaq lazımdır ki, riski azaltmaq üçün ilk növbədə qeyri-müəyyənliyi azaltmaq lazımdır.

Bəzi iqtisadçılar haqlı olaraq riski innovasiya ilə əlaqələndirirlər, "sahibkarlıq rəqabət sənəti və ya uğurla rəqabət aparmaq, yeni mal növləri yaratmaq, xərcləri azaltmağın yeni yollarını tapmaq, istehlakçılar üçün cəlbedici mallar yaratmaq bacarığıdır" .İnnovativ məhsulun istehsalının maya dəyərini azaltmağın yollarından biri istehsal amillərinin universal, spesifik və növlərarası qruplar üzrə birləşməsidir [2].

İnstitusional nəzəriyyə nöqteyi-nəzərindən iddia etmək olar ki, resursların yeni kombinasiyası qarşılıqlı təsir göstərən aktivlərin texnoloji və xərc heterojenliyinə görə müəssisənin istehsal sektorunun ümumi riskini əhəmiyyətli dərəcədə artıra bilər [2].

Buna baxmayaraq, resursların səmərəli bölüşdürülməsi, istehsal və qeyri-istehsal xərclərinin azaldılması, resursa qənaət edən texnoloji proseslərin mənimsənilməsi və bazar seqmentində istehlakçıları daha dolğun şəkildə təmin etmək üçün əsas stimul olan riskin mövcudluğu və eyni vaxtda mənfəətin gözlənilməsidir. müəssisə tərəfindən işğal edilmişdir. Bu səbəbdən innovativ və kiçik vençur müəssisələrində risk və mənfəət sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə yüksəkdir.

İ.Şumpeter innovasiyanın mahiyyətini təhlil edərək qeyd edirdi ki, "təkrarlanan rutin iqtisadi prosesin qurulduğu iqtisadiyyatda gələcəklə bağlı qeyri-müəyyənlik yoxdur və buna görə də sahibkarlıq gəlirinə yer yoxdur"və riskə meyllilik sahibkarlığın tərkib hissəsidir və innovativ iqtisadiyyatın inkişafının əsas amilidir. Bu baxımdan sahibkarı "kommersiya ideyasını həyata keçirmək və qazanc əldə etmək naminə iqtisadi risklərə əl atan mülkiyyətçi" kimi xarakterizə edəndir.

Risk və gəlirin yüksək korrelyasiyası risksiz zonada sahibkarlıq fəaliyyətinin azalması və suveren agentlərin bazar qarşılıqlı fəaliyyətinin əməliyyat xərclərinin artması ilə izah olunur.

Müasir post-sənaye iqtisadiyyatı sənaye korporasiyalarının fəaliyyəti üçün istehsal, texnoloji və təşkilati-texniki şəraitin son dərəcə sürətlənmiş dəyişməsi ilə xarakterizə olunur ki, bu da P.Drukerə onu "naxışsız dövr" adlandırmağa imkan verir [3]. Əmtəə və maliyyə bazarlarının yüksək volatilliyi ilə birlikdə bu, həm makro, həm də mikro səviyyədə qeyri-müəyyənliyin və onun başlatdığı riskin artmasına səbəb olur.

Bu səbəbdən resursların səmərəli bölüşdürülməsinin mərkəzi probleminin nəzərdən keçirilməsi şərtləri üçün əldə edilmiş neoklassik istehsal nəzəriyyəsinin bəzi nəticələrinə (ilk növbədə istehsal amillərinin marjinal faydası postulatlarına) tənqidi yanaşmaq lazımdır. Bazar fəaliyyətinin alternativ variantının seçilməsinə təsir göstərən bazar mühitində amil kimi hesab riskidir. [3].

Bu işin meydana çıxması ilə risk problemi iqtisadiyyat və maliyyə nəzəriyyəsi və praktikasında mərkəzi yerlərdən birini tutdu: yerli və xarici iqtisadçıların çoxlu sayda əsərləri ona həsr edilmişdir. Riskin öyrənilməsinə əhəmiyyətli töhfə K. Arrow, G. Markowitz, W. Sharp tərəfindən verilmişdir. Onlar riskin xarakterini və növlərini, onun qiymətləndirilməsi və nəzarət olunan azaldılması üsullarını müəyyən ediblər. İstehsal sektorunda bir layihənin bir neçə mümkün nəticəsi olduğu halda riskli hesab edilir və risk layihənin mənfi nəticələrinin baş verməsi ilə bağlı qeyri-müəyyənlik kimi xarakterizə olunur. Bunlara aşağıdakılar daxildir: planlaşdırılan nəticədən yayınma, planlaşdırılmış gəlirin əldə edilməməsi və (və ya) əlavə xərclər şəklində itkilər. Beləliklə, investisiya sferasında risk layihəyə qoyulan kapitalın gəlirliliyinin azaldılması ehtimalıdır.[4]

Nəzərdən keçirilən obyektdən və onun bazar mühitində fəaliyyət xüsusiyyətlərindən asılı olaraq, riskin çoxsaylı şərhlərini aşağıdakı qruplarda birləşdirmək məqsədəuyğundur:

1. Riskin gözlənilən maliyyə nəticələri baxımından izahı: risk arzuolunmaz hadisə baş verdikdə itki məbləğidir. Belə ki, risk işdə "planlaşdırılan və faktiki nəticələr arasında mənfi kənarlaşma ehtimalı, yəni gözlənilən qərar üçün əlverişsiz nəticə təhlükəsi" kimi müəyyən edilir. Beləliklə, risk müəssisənin xarici və daxili mühitinin xüsusiyyətləri və bazar fəaliyyətinin xüsusiyyətləri ilə əlaqəli itkilərin mümkünlüyü kimi başa düşülür.

2. Ehtimal nəzəriyyəsi və riyazi statistika alətləri əsasında riskin şərhi. Belə ki, İ.Balabanov, L.Şarşukova, M.Lapusta və başqa müəlliflərin əsərlərində qeyd olunur ki, "sahibkarlıq layihələrinin müəyyən variantları ilə nəinki nəzərdə tutulan nəticənin əldə edilməməsi təhlükəsi, həm də gözlənilən mənfəəti üstələyir. Bu, planlaşdırılan nəticələrdən həm arzuolunmaz, həm də xüsusilə əlverişli sapmalara nail olmaq imkanlarının birləşməsi ilə xarakterizə olunan sahibkarlıq riskidir.

Risklərin idarə edilməsində əsas şey müəssisə üçün ən təhlükəli tendensiyaları və bazar vəziyyətlərini müəyyən etməkdir. Müəllifin fikrincə, onları zərərsizləşdirmək və ya riskin mənfi nəticələrini minimuma endirmək üçün plan hazırlamaq lazımdır. Bu məqsədlərə nail olmaq üçün ondan təşkilati və idarəetmə qərarlarının təkrarlanması üçün bir vasitə kimi istifadə edilməsi təklif olunur.[4]

Riskləri aşağıdakılara bölmək olar:

a) sığortalı: əmlak, göndərilən məhsullar, nəqliyyat vasitələri və s.;

b) azaldılmış: kommersiya, maliyyə, şirkətdaxili.

İkinci qrupun risklərinin azaldılması baxımından müəllif "analitik iş, mümkün nəticələrin gözlənilməsi, nəticələrin proqnozlaşdırılması..." və s.-yə üstünlük verir, yəni yenə də etibarlı məlumatdan və ağlabatan idarəetmə qərarından istifadə edilməsidir. Təəssüf ki, bu tövsiyələr sırf deklarativ xarakter daşıyır.[5]

Beləliklə, müasir yanaşmalar müəyyən dərəcədə qeyri-müəyyənliyin azaldılması və cəlb olunan məlumatların keyfiyyətinin yaxşılaşdırılması əsasında risklərin idarə edilməsi ilə bağlıdır. Bu fakt risklərin idarə edilməsində səhvlərin səbəblərinin toplanmış statistikası ilə təsdiqlənir:

– ilkin məlumatların qeyri-dəqiqliyi – 82–84%;
– istifadə olunan risklərin qiymətləndirilməsi modelinin qeyri-adekvatlığı – 14–15%;
– risklərin qiymətləndirilməsində istifadə olunan metodun səhvi 2–3% təşkil edir.

İlkin məlumatların qeyri-dəqiqliyi ilə əlaqəli səhvlərin yüksək nisbətini nəzərə alaraq, risk şəraitində müəssisənin istehsal və kommersiya fəaliyyətinin optimal idarə edilməsi probleminin bu və yuxarıda göstərilən xüsusiyyətlərini nəzərə alan metodların işlənib hazırlanması zəruri olur.

Fikrimizcə, iki qrup üsula diqqət yetirilməlidir:

- ilkin məlumatların süzgəcdən keçirilməsi və hamarlanması, məlumatların ortalaşdırılması və çəkisi, çatışmayan məlumatların bərpası, interpolyasiya və s. tətbiqi hesabına qeyri-dəqiq məlumatların hesablamaların nəticələrinə təsirinin qarşısının alınması;
- qeyri-dəqiq və ya natamam məlumat şəraitində interval və ya qeyri-səlis alqoritmlərdən istifadə etməyə imkan verir. [5]

Hazırda qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərən müxtəlif iyerarxik səviyyəli sosial-iqtisadi sistemlərin idarə edilməsində qərarların qəbulu prosedurlarında vurğu risk altında olan fəaliyyətlərə alternativlərin optimal seçimi metodlarından qeyri-müəyyənlik və riskin öyrənilməsinə və istifadəsinə keçir. Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin fəaliyyətinin məcburi atributları hesab edilən amillər iqtisadiyyat, bazarların və öz resurs potensialının proqnozlaşdırılmasının düzgünlüyünün təkmilləşdirilməsi əsasında əlavə rəqabət üstünlüklərinin əldə edilməsindədir. Bu halda, müəssisənin bazar qarşılıqlı əlaqəsi sahəsi, alt sistemlərin və funksional komplekslərin qarşılıqlı əlaqəsi prosesində parametrlərdə məqsədyönlü dəyişiklik və ətraf mühit siqnallarına reaksiya xarakterini təmin edən fərdiləşdirilə bilən, öz-özünə öyrənilən dinamik sistem hesab olunur və onun təşkilati strukturunu təşkil edir.

Müvafiq texnologiyaların və təşkilati-texniki həllərin işlənib hazırlanması və tətbiqi əsasında risklərin minimuma endirilməsindən ibarət olan dominant adlanan yanaşma da məşhurlaşıb. Bununla belə, bu cür tədbirlər çox baha başa gəlir və riskin miqyası ilə onun azaldılması xərcləri arasında əlaqə qeyri-xəttidir: riski azaldan texnologiyaların xərclərinə yatırılan sonrakı bölmələrin effektivliyi azalır. [5]

## ƏDƏBİYYAT SİYAHISI:

1. Аакер Д. А. Стратегическое управление рынком. СПБ, Питер, 2002. 346 с.
2. Аббасов А. М. , Кулиев Т. А. Экономика в условиях неопределенности. Баку, 2002. 110с.
3. Абалкин Л. Ожидание перемен и уроки истории // РЭЗ №7,2000. С. 59-66.
4. Азоев Г. Л. Конкуренция: анализ, стратегия и практика. - М. 1996. 386 с.
5. Ансофф И. Стратегический менеджмент. Пер. с англ. «Экономика». 1989. 287-291с.

**Ağa-Kərim Hüseyn oğlu Haciyev**
PhD, AMEA İqtisadiyyat institutu,
E-mail: a.h.haciyev@gmail.com

## AZƏRBAYCANDA SƏRBƏST BÜDCƏ VƏSAİTLƏRİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARI

Dünya bankının tövsiyyələrinə əsasən "*cash management*" – sərbəst büdcə vəsaitlərinin idarə olunması üzrə gəlir əldə edilməsi, dövlət maliyyəsinin idarə olunmasında ən perspektiv istiqamətlərindən biridir. Hal-hazırda bu istiqamət inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsində geniş istifadə edilir (məsələn, qonşu Rusiyada sərbəst büdcə vəsaitlərinin idarə olunma mexanizmləri və alətləri istər Federal büdcə səviyyəsində, istərsədə ölkənin regionlarında, regional büdcələr səviyyəsində geniş tətbiqə malikdir) Məsələnin mahiyyəti ondadır ki, Dövlət büdcəsinin profisit və ya kəsirlə planlaşdırılmasından asılı olmayaraq büdcə ili ərzində Xəzinədarlığın Vahid Hesabında (XVH) müəyyən miqdarda sərbəst maliyyə vəsaitlərinin qalığı mövcud olur ki, bu vəsaitlərdən səmərəli istifadə ilə Dövlət büdcəsinə əlavə gəlirlərin təmin olunması mümkündür .

Yəni, qısa, cari və uzun müddətli dövrlərə xəzinəyə daxilolmalar və xəzinədən xərclənmələrin uzlaşması əsasında, konkret müəyyənləşən likvidlik əmsalları üzrə, VXH-da minimum tələb olunan gündəlik likvidlik səviyyəsini müəyyənləşdirmək (hədəfləmək), bu səviyyə üzrə isə maliyyə bazarlarında mövcud olan müxtəlif müddətli alətlər və mexanizmlərin istifadəsi əsasında dövlət büdcəsinə əlavə gəlirlər əldə etmək olar (hesablanan likvidlik əmsalları tətbiq olunan mexanizm və alətlər üzrə mümkün risklərin və neqativ nəticələrin minimumlaşdırılmasını təmin etməlidir).

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, sərbəst büdcə vəsaitlərinin idarə olunması alət və mexanizmləri geniş miqyaslıdır və bu qismdə bir qayda olaraq aşağıdakılar çıxış edir: komersiya banklarında depozitlərin yerləşdirilməsi; xarici valyutaların alınıb/satılması (ölkədə sərbəst məzənnə rejiminin tətbiqi şəraitində); REPO əməliyyatları (o cümlədən, overnayt-REPO, forvard-REPO, xarici valyutalı REPO və s.); SWOP əməliyyatları və s. Göstərilən alət və mexanizmlər dövlət büdcəsinə əlavə gəlirlərin təmin olunması ilə yanaşı, eyni zamanda, xəzinədarlığın sərbəst vəsaitləri əsasında bank sektorunda likvidliyin artırılması ilə iqtisadiyyatın real sektorunun kreditləşməsinin genişlənməsi təmin edilir. Başqa sözlə, bu mexanizmin tətbiqində əsas məqam ondan ibarətdir ki, 3 qurum (Maliyyə Nazirliyi, Mərkəzi bank və Vahid Xəzinədarlıq sistemi) tərəfindən reallaşdırılan siyasətlər - maliyyə-büdcə, pul-kredit və VXH-ın vəsaitlərinin idarə olunması, arasında əlaqələndirmə, tarazlıq hər bir qurumun konkret məsuliyyəti və cavabdehliyinin müəyyənləşməsi ilə əldə olunur.

Aydındır ki, sərbəst büdcə vəsaitlərinin idarə olunmasında mühüm məqam – xəzinədalığa vəsaitlərin daxil olması və çıxarılmasının intensivliyi, bu parametrlər əsasında VXH üçün müvafiq likvidlik göstəricilərinin hesablanmasıdır. Bu göstəricilərin əsaslandırılması dərəcəsindən asılı olaraq dövlət büdcəsinin gəlirliyi və sərbəst büdcə vəsaitlərinin idarə olunmasının dayanıqlığı müəyyənləşdirilir.

*Azərbaycanda bu sahədə* - sərbəst büdcə vəsaitlərinin idarə olunması əsasında gəlir əldə edilməsində, bir sıra çatışmazlıqlar mövcuddur (baxmayaraq ki, belə əməliyyatlar müəyyənləşib). Belə vəziyyət, maliyyə sistemində birja əməliyyatlarının aparılması üzrə müvafiq hazırlıqlara malik olan mütəxəssislərin olmaması (belə hazırlıqlar Maliyyə nazirliyinin mütəxəssisləri tərəfindən Mərkəzi bankda və fond bazarında keçirilməlidir); banklar tərəfindən öz öhdəliklərinin icra etməməsi risklərinin mövcudluğu (akseptsiz qaydada vəsaitlərin silinmə mexanizminin nəzərdə tutulması); Xəzinədarlıq sistemində vəsaitlərin VXH daxil olma/çıxmanın keyfiyyətli planlaşdırma və proqnozlaşdırma sisteminin olmaması və digər amillər ilə müəyyənləşir

Azərbaycanda dövlət maliyyəsinin idarə olunması üzrə istifadə oluna biləcək mexanizm və alətlərin inkişaf etdirilməməsinin əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

- *əvvəla, ölkədə mövcud olan hesabatlılıq sistemi*. Hal-hazırda Maliyyə Nazirliyinin müstəsna səlahiyyətinə aid edilmiş bu sualların Nazirlikdə mövcud olan həlli imkanları, bu imkanların reallaşdırılma dərəcəsi, istifadə olunan təcrübə, mexanizmlər, alətlər və onların səmərəliliyi barədə məlumatların əldə olunması praktiki olaraq mümkünsüzdür (qeyd edək ki, qonşu ölkələrdə, məsələn Rusiyada, belə məlumatlar nazirliklərin saytlarında açıq istifadədir). Problem ondadır ki, Dövlət büdcəsinin Mərkəzləşdirilmiş xəzinə hesabına formalaşan ehtiyatların idarəçiliyi (qanunvericilikdə edilmiş son düzəlişlərdən sonra) Maliyyə Nazirliyində daxili istifadə üçün nəzərdə tutulur və bu səbəbdən Nazirliyin bu istiqamətdə fəaliyyətində səmərəliliyin qiymətləndirilməsi praktiki olaraq mümkünsüzdür.

Hesablama Palatası ilk dəfə olaraq 2018-ci ilin ortalarında, 1.98 mlrd. manat səviyyəsində olan büdcə ehtiyatlarının Maliyyə Nazirliyi tərəfindən idarə olunması və yerləşdirilməsinin strukturu barədə məlumatları açıqladı. Əgər baxılan rəqəmlər üzrə Maliyyə nazirliyində sərbəst büdcə vəsaitlərinin idarə olunmasının keyfiyyət göstəriciləri təhlil olunarsa, bu halda aydın görməkk ki, təmin olunan gəlirlik, istifadə olunan mexanizmlərin səmərəliliyi olduqca aşağı səviyyədədir. Beləki, vəsaitlərinin idarəetməyə verilməsindən dövlət büdcəsinə 2018-ci il üçün nəzərdə tutulmuş məbləğ - 6,3 mln manat, başqa sözlə, orta illik 0,3% gəlirlik; 2019-cu ilə əldə olunacağı proqnozlaşdırılan 1 mln. manat gəlir isə 2017-ci ilin müvafiq icra göstəricisindən 7,2 dəfə, 2018-ci ilin proqnoz göstəricisindən isə 6,3 dəfə az deməkdir. Ümumiyyətlə isə pandemiyaya qədər həcmi orta hesabla 1.5-2 mlrd. manatdan az olmayan xəzinə ehtiyatının istifadəyə verilməsindən dövlət büdcəsi ən yaxşı

halda 3-4 mln. manat gəlir təmin olunub ki, bu da orta illik 0.2-0.3% gəlirlik deməkdir. Qeyd olunanlar Maliyyə nazirliyi sistemində formalaşan sərbəst vəsaitlərin idarə olunması modelində ciddi qüsurların mövcudluğunu və təkmilləşdirmə imkanlarının/zəruriliyinin göstəricisidir.

Azərbaycanın mərkəzləşdirilmiş xəzinədarlıq sistemində likvidliyin idarə olunması imkanları, mümkün mexanizm və alətlərin səmərəlilik sualları araşdırılarkən bu sahədə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsinin öyrənilməsi məqsədə uyğundur. Əsas hədəf – ölkə Hökumətinin sərəncamında olan sərbəst büdcə vəsaitlərinin iqtisadiyyatda likvidliyin tənzimlənməsi üzrə səmərəli istifadə edilməsidir. Bu baxımdan dünya təcrübəsində istifadə edilən ən müxtəlif mexanizm və alətlər mövcuddur ( o cümlədən, vəsaitlərin çox qısa, cari və ya uzun müddətə fərqli alətlər və əməliyyatlar üzrə banklarda yerləşdirilməsi).

Hal-hazırda post-pandemiya dövrünə hazırlıq baxımından sərbəst büdcə vəsaitlərinin istifadəsində səmərəliliyin artırılması üçün hansı mexanizmlərin olması, hansı alətlərdən istifadə zəruriliyinin müəyyənləşməsini mühüm əhəmiyyətli edir. Konkretləşdirilməsi tələb olunan sırasında, ilk növbədə, aşağıdakılar göstərilməlidir:

- vahid xəzinə hesabı qalığından büdcə ssudalarının verilməsinin qanunverci əsaslarının və normativ qaydalarının müəyyənləşdirilməsi;
- sərbəst büdcə vəsaitlərinin banklarda yerləşdirilməsinin qanunverici əsasları və normativ qaydalarının hazırlanması və s.

Məsələ ondadır ki, Azərbaycan Respublikası "Büdcə sistemi haqqında" Qanununda, Nazirlər kabineti tərəfindən təsdiq olunmuş "Büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın) idarəetməyə verilməsi Qaydaları" bu vəsitlərdən istifadənin ümumi istiqamətləri müəyyənləşdirilsədə, bu sahədə konkret mexanizm və normativ sənədlər müəyyənləşməyib. Büdcə qalıqlarının idarə olunmasının mövcud qaydalarına əsasən bu idarəçilik Maliyyə nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş investisiya strategiyası əsasında həyata keçirilir. Strategiyada il ərzində istifadə oluna biləcək sərbəst vəsaitlərin miqdarı, bu vəsaitləri idarə edəcək İdarəedici şirkət (və yaxud komersiya bankı), idarə etmənin müddəti, likvidlik səviyyəsinə, kredit risklərinə, idarə etməyə verilən vəsaitlərin gəlirlik səviyyəsinə tələblər müəyyənləşməlidir.

Vahid xəzinə hesabında likvidliyin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi və praktiki təcrübədə istifadəsinin inkişaf etməkdə olan ölkələrin (o cümlədən, Rusiyanın) təcrübəsində perspektiv istiqamətlər kimi aşağıdakılar müəyyənləşir:

- Maliyyə Nazirliyi, Mərkəzi xəzinədarlıq və Mərkəzi bankın büdcə vəsaitlərinin bank depozitləri şəklində yerləşdirilməsi üzrə birgə fəaliyyət mexanizminin hazırlanması və qısa müddətli təminatsız kreditlərin verilməsi təcrübəsi;
- iqtisadiyyata birbaşa olaraq büdcə kreditlərinin verilməsi;
- REPO müqavilələri üzrə qiymətli kağızlar bazarında alqı-satqı əməliyyatları (mahiyyət etibarı ilə bu əməliyyatlar son kreditləşmə instansiyası olan Mərkəzi bankın reallaşdırdığı analoji əməliyyatlardan fərqlənir) və s.;

Təbii ki, istifadə edilə biləcək bütün mexanizm və alətlərlər üzrə qanun verici sənədlər (Büdcə məcəlləsi), ölkə Hökumətinin müvafiq qərarı, normativ sənədlər, Maliyyə nazirliyi və Xəzinədarlığın müvafiq təlimatları hazırlanmalıdır.

**Lamiya Rovshan Hashimli**

## INVESTMENT SECURITY OF PRODUCTION BUSINESS IN THE OIL AND GAS INDUSTRY OF AZERBAIJAN

**Xülasə**

The role of foreign investments in the development of the oil and gas industry in Azerbaijan is considered. Based on long-term statistical and reporting data, the state of investment provision of the production business in the oil and gas industry of Azerbaijan from foreign and joint ventures is

analyzed. Investments made by foreign companies in Azerbaijan have brought large incomes, both parties have benefited, and this factor is the basis of successful cooperation.

**Key words:** investments, foreign companies, oil and gas industry, economic growth, investments in fixed assets.

In a market economy, the main goal of business activity is to obtain a high return on investment. This is a conscious abandonment of current consumption in favor of a possibly relatively large income in the future. Investment features are:

- making investments by investors who have their own goals;
- potential ability of investments to generate income;
- a certain period of investment;
- purposeful nature of capital investment in investment objects and instruments;
- use of different investment resources characterized by demand, supply and price;
- the risk of investing capital [6].

In 1994, with the participation of 7 countries, the "Contract of the Century" (worth $ 7.4 billion) was signed for the development of the block of ACG fields (AzeriChirag-Guneshli) and an agreement on the construction of the Baku-Supsa oil pipeline, from the fields of Azerbaijan to the Black Sea coast in Georgia.

The"Century Contract" is an accord on the joint develpoment of the deep-water part of the ACG, since the shallow part was developed by SOCAR independently, and the share of production between 11 large international companies: “British Petroleum”, “Socar”, “Exon mobil”, “Amerada Hess”, “Delta”, “Itochu”, “Statoil”, “Trao”, “Nocal”, “Devon Energy”, “Impex”. This is a good deal for this sector: Azerbaijan, which due to financial difficulties was not able to develop a block of fields alone, attracted a lot of companies from a lot of countries to the project, in addition to SOCAR itself, which got 10% of the shares in the consortium. [7-9]

It was during this period that foreign direct investment played an important role in the modernization of the oil and gas industry in Azerbaijan. In the future, an increase in the inflow of foreign investment contributed to the revival of the country's economy, attracting new equipment and technologies to the country, modern methods of international marketing and advanced management experience, as well as solving the problem of equal participation of the republic in world trade. According to the State Statistics Committee of the Republic for 1995-2019. 270 billion dollars of investments were invested in the country's economy from various sources, of which 50% was directed to the oil and gas industry, the construction of terminals, export pipelines, processing plants and other infrastructure facilities. [1].

The volume of direct investment in 2000-2019 increased by 7.6 times. In 2000, out of the total volume of direct investments, 82.2% were directed to the oil sector, and 17.8% - to the non-oil sector, in 2005 these ratios were 94.3% and 5.7%; in 2010 81.7% and 18.3%, in 2015 88.5% and 11.5%, and in 2019 63.6% and 36.4% respectively. For the specified period, the volume of direct investments directed to the oil sector; increased almost 5.9 times, and in the non-oil sector - 15.6 times.

**The volume of direct foreign investments invested in the economy of Azerbaijan (million dollars)**

| Industries | Years | | | | | | | | Growth rate 2019 to 2000 in % |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | |
| Direct investments, total, including | 664,1 | 4030,4 | 3614,9 | 7483,1 | 7323,6 | 5713,8 | 4109,1 | 5075,7 | 7,6 times |
| to the oil sector | 546,1 | 3799,9 | 2955,3 | 6622,7 | 5617,4 | 4900,8 | 3142,0 | 3229,1 | 5,9 times |
| Share of investments in the oil sector, in % | 82,2 | 94,3 | 81,7 | 88,5 | 76,7 | 85,8 | 76,5 | 63,6 | -18,6 |
| to the non-oil sector | 118 | 230,5 | 659,6 | 860,4 | 1706,2 | 813,0 | 967,1 | 1846,6 | 15.6 times |
| Share of investments invested in the non-oil sector, in % | 17,8 | 5,7 | 18,3 | 11,5 | 23,3 | 14,2 | 23,5 | 36,4 | + 18,6 |

Source: Statistical indicators of Azerbaijan [1]; Social economic growth [5].

During the specified period, in the oil and gas industry of the republic, a total of 83.2 billion manats was directed to fixed assets investments, of which 86.2% were foreign direct investment. If in 2000-2005 the share of investments in the fixed capital of this industry in the total volume of homogeneous investments was 68.8%; in 2006-2010 – 40.2%; 2011-2015 – 31.5%; in 2016 - 54.8%, then in the future it had a downward trend and in 2019 amounted to 31.9%.

The development and operation of the Azeri-Chirag-Guneshli oil fields and the Shah Deniz gas field contributed to the favorable investment security of the oil and gas industry of the republic. An International Operating Company (AIOC) has been established in the republic. Since the exploitation of these fields in 1997, AIOC has produced 474.2 million tons of oil and 153 billion cubic meters of gas. From 2006 to 2018, 100 billion cubic meters were produced from the Shah Deniz field. m of gas and 24.5 million tons of condensate. In 2012, the Umudskoye gas condensate field was put into operation, where by the beginning of 2019, 344.5 million tons of condensate and 2,164.3 million cubic meters were produced. m of gas [3,4].

The oil and gas industry is a federal part of the republic's economy. In confirmation of this, the extension of the agreement on the development of the AzeriChirag-Guneshli block until 2050 was extended. The agreement was ratified in September 2017. Until 2050, according to the meaning of this project, 40 billion dollars of investments will be allocated. directed. Sosar's share in the project is 25%, in addition, the company will receive $3.6 billion in cash as a bonus. During the project, the share of other companies is: BP (30.37% - operator); Chevron (9.56%); Exxon Mobil - America (6.79%); ONGC - India (2.31%); InpexCorp (9.31%); ITOCHU Oil - Japan (3.65%); Statoil - Norway (7.27%), TPAO - Turkey (5.73%).

Socar's assets have grown more than 4 times and turnover has increased more than 26 times over the past 10 years. According to Wood Mackenzie, investments in Azerbaijan's oil and gas industry will amount to $20 billion in 2018-2025. These funds, among other things, will be invested in the development of the ASG field in the Azerbaijani sector of the Caspian Sea. [2-4].

Today Azerbaijan demonstrates how the state and foreign investors should work together, on what principles they should cooperate. Over the reporting years, Azerbaijan's relations with foreign investors have been built on a solid foundation, on the basis of mutual support, mutual trust and mutual interests. Investments of foreign companies in Azerbaijan have brought large incomes, both sides have benefited, and this factor is the basis for successful cooperation. The “contract of the century” for the development of the ASG block and the agreement on the construction of the Baku - Supsa oil pipeline are a model deal for the oil and gas industry of Azerbaijan, which is unable to independently develop oil and gas fields due to financial difficulties, it was possible to attract 11 large companies from 7 countries on favorable terms for the republic.

## REFERENCE

1. Statistical indicators of Azerbaijan. Baku. GSCAR, 2019.
2. Construction in Azerbaijan. Statistical Yearbook. Baku. GSCAR, 2019.
3. Annual reports on the production and economic activities of SOCAR for 2005-2018 // SOCAR.
4. Main indicators of joint and foreign enterprises for 2010-2018 // Statistical Yearbook.
5. Social economic growth. Annual Statistical Bulletin No. 12. Baku, 2019.
6. Investments / ed. G.P. Podshivalenko. 2nd ed. Moscow: Knorus. 2009.
7. Gasımov E.R. Research on the relationship between investment and innovation as factors of economic growth and development of the gas industry in Azerbaijan. // Colloquium-journal - Polish international journal of scientific publications. Poland. 2021. №3(90).
8. Gasımov E.R. Combustible gas in the history of the development of Azerbaijan. // Monthly scientific journal. St. Petersburg: 2020. №11-8(79).
9. Heydar Aliyev opens up Azerbaijan to the world. /Ibragimov N., Shukurov I. //Baku. 1994.

**Lamiyə Rövşən qızı Haşımlı**
Azərbaycan Universitetinin magistri
E-mail: lamiya384@gmail.com

## AZƏRBAYCANIN NEFT-QAZ SƏNAYESINDƏ ISTEHSAL BIZNESININ INVESTISIYA TƏMINATI

**Xülasə**

Azərbaycanda neft-qaz sənayesinin inkişafında xarici investisiyaların rolu nəzərdən keçirilir. Uzunmüddətli statistik və hesabat məlumatları əsasında Azərbaycanın neft-qaz sənayesində hasilat biznesinin xarici və birgə müəssisələrdən investisiya təminatının vəziyyəti təhlil edilir. Xarici şirkətlərin Azərbaycana qoyduğu sərmayələr böyük gəlirlər gətirib, hər iki tərəf faydalanıb və uğurlu əməkdaşlığın əsasını məhz bu amil təşkil edir.

**Açar sözlər:** investisiya, xarici şirkətlər, neft-qaz sənayesi, iqtisadi artım, əsas kapitala investisiya.

**Azər Rasim oğlu Həsənli**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
İqtisadi Elmi Tədqiqat İnstitutu, dissertant
E-poçt: azarhasanli@outlook.com

## POSTNEFT MƏRHƏLƏSİNDƏ MAKROİQTİSADİ SİYASƏT ƏMƏKDAŞLIĞININ ƏHƏMİYYƏTİ VƏ MƏHDUDİYYƏTLƏRİ

**Xülasə**

Maliyyə sabitliyinin təmin edilməsi, nəzarətin inkişaf etdirilməsi iqtisadiyyatın qloballaşması şəraitində baş verən proseslərə çevik reaksiya vermək üçün milli iqtisadiyyat qarşısında duran mühüm vəzifələrə aid edilir. Ölkənin qiymətli kağızlar bazarının, sığorta, investisiya fondu və bank sektorlarının, o cümlədən, ödəmə sistemlərinin şəffavlıq və çevikliyin təmin edilməsi və bu sektorlarda tənzimləmə-nəzarət sistemlərinin təkmilləşdirilməsi həmin vəzifələrin komponentlərini təşkil edir. Belə ki, qiymətli kağızlar bazarında lisenziyalı şəxslər üzrə nəzarət investisiya şirkətinin davamlı kapital tələbləri haqqında qaydalar, onların hesabatlarının hazırlanması və təqdim edilməsi Qaydaları, investisiya fondlarının və onlarının menecerlərinin hesabatları üzrə tələblər, habelə, onların təqdim edilməsi və açıqlanması Qaydaları ilə tənzimlənir [1].

Ədalət naminə qeyd etmək lazımdır ki, qiymətli kağızlar bazarının inkişafı ilə bağlı son illərdə dövlət tərəfindən onun tənzimləmə-hüquqi bazasının mütərəqqi beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilməkdədir. Lakin, qeyd etmək lazımdır ki, mövcud normativ-hüquqi sənədlər m**ö**vcud bütün maliyyə qarşılıqlı münasibətləri əhatə etmir və qiymətli kağızların uçotu prosesində və onlar haqqında informasiyanın maliyyə hesabatında əks etdirilməsi bir sıra qeyri müəyyənliklər müşahidə olunur.

Vurğulamaq lazımdır ki, qiymətli kağızların normativ-hüquqi tənzimlənməsi sistemi normativ-hüquqi aktları ehtiva edir ki, onlardan hər biri müxtəlif hüquqi qüvvəyə və statusa malikdir. Qiymətli kağızların normativ-hüquqi tənzimlənməsi sisteminin birinci səviyyəsinə qanunvericilik aktları- AR Konstitutsiyası, AR Mülki məcəlləsi, AR Vergi Məcəlləsi, "Səhmdar cəmiyyətləri haqqında" AR Qanunu, "Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları", "İnvestisiya qiymətli kağızları ilə alğı-satqı əqdləri-nin bağlanması Qaydaları" daxildir [3; 4] .

Qiymətli kağızların normativ-hüquqi tənzimlənməsi sisteminin ikinci səviyyəsinə normativ sənədlər- "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları", "Aktivlərin və öhdəliklərin inventarizasiya Qaydalar"ı, "Maliyyə qoyuluşlarının uçotu" üzrə Təlimat, eləcə də beynəlxalq uçot standartları -"Maliyyə hesabatının təqdimatı" (MUBS 1), "Maliyyə alətləri" (MHBS 7), "Maliyyə alətləri: Məlumatın açıqlanması" (MHBS 9), "Maliyyə alətləri: təqdimat" (MUBS 32), "Assosiasiya edilmiş təşkilatlara və birgə müəssisələrə investisiya qoyuluşları" (MUBS 28), "Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları" (MUBS 13), "Ədalətli dəyərin ölçülməsi" (MUBS 13) və s. aid edilir. Qeyd edilənlərlə yanaşı, uçot prosesində MHBS üzrə Komitə tərəfindən hazırlanmış şərhlərdən də istifadə edilməlidir. Bu qəbildən olan şərhlər sırasında IFRIS 2 "Kooperativ

müəssisələrdə üzvlərin payları və oxşar alətlər", IFRIS 9 "Törəmə alətlərin təkrar təhlili", IFRIS 16 "Xaricdə baş verən əməliyyata xalis investisiyanın hedcinqləri" qeyd etmək olar [1; 2].

Məlum olduğu kimi, depozitar fəaliyyət "Qiymətli kağızlar bazarı haqqında" və "İnvestisiya fondları haqqında" AR Qanunları ilə tənzimlənir. Azərbaycan Respublikasında qeydiyyata alınma və depozitar fəaliyyət ilə AR Depozit Mərkəzi məşğul olur. Qiymətli kağızlar bazarının inkişaf etdirilməsi istiqamətində AR Prezidentinin 03.02.2016-cı il tarixli Sərəncamına uyğun olaraq Maliyyə Nazirliyi Bazarlara Nəzarət Palatası publik hüquqi şəxs yaradılmışdır. Respub-likanın qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsi, şəffavlığı və çevikliyi təmin etmək, eyni zamanda maliyyə bazarlarının tənzimlənməsi funksiyası ilə pul siyasəti funksiyası arasındakı ziddiyyətləri aradan qaldırmaq və yumşaltmaq vəzifələri ona həvalə edilmişdir. Palata, bütövlükdə qiymətli kağızlar bazarı üzrə dövlət strategiyasının hazırlanması, kredit təşkilatları, qiymətli kağızlar bazarında və sığorta sektorunda lisenziyalaşdırma, tənzimləmə, monitorinq və idarəetmə-nəzarət, qiymətli kağızlar bazarı iştirakçılarının hüquqlarının qorunması funksiyalarını yerinə yetirir. Qiymətli kağızlar bazarının tənzimlənməsinin normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə AR Prezi-dentinin 28 noyabr 2019-cu il Sərəncamına əsasən AR Maliyyə bazarlarına Nəzarət Palatası ləğv edilmiş və aliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətlər AR Mərkəzi Bankına həvalə edilmişdir [3].

Qiymətli kağızlar bazarının tənzimlənməsi aşağıdakı məsələlərin həllinə istiqamətlənmiş-dir:

- qiymətli kağızlar bazarının inkişafı üzrə dövlət proqramımı yerinə yeti-rilməsi;
- müştərilər və peşəkar iştirakçılar üçün həmin bazarın təhlükəsizliyinin təmin edilməsi;
- qiymətli kağızlar bazarı üçün hərtərəfli informasiya sisteminin yaradılması və məlumatla-rın məcburi açıqlanması və bazar iştirakşıları tərəfindən nəzarət.

Qeyd etmək yerinə düşər ki, təcrübədə daha çox etibarlıq ehtiyatı prinsipinə üstünlük verilir. Sözügedən prinsipə əsasən, investor real dəyəri onun bazar dəyərindən yüksək olan səhmləri müəyyən etməlidir. Etibarlıq ehtiyatı prinsipindən iki formada istifadə oluna bilər: aşağı səviyyəli bazarda birinci dərəcəli qiymətli kağızların alışı formasında; məqbul qiymətlə birinci dərəcəli qiymətli kağızların tapılması çətin olduqda taraz-laşdırılmış bazar dövründə dəyərləndirilməmiş səhmlərin ayrıca buraxılışlarının alışı formasında. Bu zaman nəzərə almaq lazımdır ki, müəyyən vaxtdan sonra həmin fərqin (dəyərləndirməmə) qiymətin artımı ilə aradan qaldırılması mümkün olacaqdır. Yuxarıda qeyd olunanları ümumiləşdirərək belə bir fikir formalaşdırmaq olar ki, mənti-qə uyğun investisiya fəaliyyəti analitik və investor üçün əsas informasiya mənbəyi hesab olunan maliyyə hesabatının təhlilinə əsaslanmalı və bu zaman adi səhmlərin ədalətli (daxili) dəyəri müəy-yən edilməlidir.

Qiymətli kağızların uçotunda onların təsnifləşdirilməsi, tanınması, tanınmanın dayandırıl-ması və qiymətləndirilməsi məsələləri mühüm əhəmiyyət kəsb edir. Həmin məsələlər MHBS 9, MHBS 7, MUBS 32 ilə tənzimlənir. Belə ki, MHBS 9 maliyyə hesabatı istifadəçilərinin təsərrüfat subyektinin maliyyə hesabatında maliyyə aktivləri və maliyyə öhdəliklərinin təqdim edilməsi prin-siplərini müəyyən etməklə gələcək pul axınlarının həcmini qiymətləndirilməsinə imkanı verəcək-dir. Standarta əsasən, müəssisə yalnız alət üzrə müqavilənin müddəalarını qəbul etdikdən sonra öz maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivini və ya maliyyə öhdəliyini tanımalıdır. Sözügedən standartın 3.2.3 maddəsi iki halda maliyyə aktivinin tanınmasının dayandırılmasını nəzərdə tutur: maliyyə aktivindən pul vəsaitləri hərəkətlərinə müqavilə üzrə hüquqların vaxtı bitdiyi zaman və ya maliyyə aktivi tanınmanın dayandırılması şərtlərinə cavab verdiyi zaman [3; 5].

Qiymətli kağızların uçotunun tənzimlənməsi ilə bağlı belə bir məsələ də qeyd olunmalıdır ki, MHBS 32 emitent tərəfindən maliyyə alətlərinin maliyyə aktivləri, maliyyə öhdəlikləri və kapital alətləri kimi, müvafiq faiz, dividend, zərər və gəlirlərin təsnifləşdirilməsi, eləcə də maliyyə aktivləri və maliyyə öhdəliklərinin qarşılıqlı əvəzləşdirilməsi prinsip-lərini özündı ehtiva edir. Belə ki, həmin standartın 8-ci maddəsində qeyd edilir ki, "...pul vəsaitləri və ya digər maliyyə aləti, ya da maliyyə alətlərinin dəyişdirilməsi vasitəsi ilə ödənilə bilən qeyri maliyyə obyektinin alınması və ya satılması

üzrə müqavilələrə elə tətbiq olunmalıdır ki, sanki bu müqavilələr maliyyə alət-ləridir”. Belə bir məsələyə də aydınlıq gətirmək lazımdır ki, maliyyə aləti və ya maliyyə öhdəliyini səciyyələndirən komponentə aid faiz, dividendlər, zərərlər və gəlirlər, mənfəət və zərərdə gəlir və ya xərc qismində, eləcə də kapital alətlərinin sahibləri arasında bölüşdürülmələr təsərrüfat subyek-tində birbaşa kapitalda tanınmalıdır [3; 5].

Qeyd etmək lazımdır ki, təsərrüfat subyektlərində məcmu gəlirdə əks etdirilən ədalətli dəyərlə və ya amortizasiya edilmiş dəyərlə müəyyən ediləcək maliyyə aktivi mənfəət və ya zərərdə ədalətli dəyərlə hesablanmış maliyyə aktivi kimi tanındıqda hesabat dövrünün sonuna onlarım kredit riskinə həssaslığı, kredit törəmə alətlərinin kredit riskinə olan maksimum meylliyi azaltdığı məbləği və bu zaman baş vermiş məcmu dəyişikliyin məbləği açıqlanmalıdır. Bu istiqamətdə 7 saylı MHBS-nin məqsədi təsərrüfat subyektinin maliyyə vəziyyəti və onun fəa-liyyətinin maliyyə nəticələri nöqteyi nəzərindən əhəmiyyətini, eləcə də həmin maliyyə alətləri üzrə yaranan risklər və onların idarə olunması haqda istifadəçiləri məlumatlandırmaqdır [3; 5]. Həmin standart maliyyə aktivlərini və maliyyə öhdəliklərinin kateqoriyalarını şərh edə-rək onların balans dəyəri və ya maliyyə vəziyyətinə dair hesabatda və ya maliyyə hesa-batlarına qeydlərdə açıqlanmasını nəzərdə tutur. Qeyd edək ki, faiz dərəcəsi, qiymət, xarici valyuta əməliyyatları üzrə kurs məzənnəsi və ya qiymət indeksi kimi bazar şərtlərində baş vermiş dəyişikliklər bazar riskinin yaranması amilləri kimi qiymətləndirilə bilər.

Qiymətli kağızlarla əməliyyatların təqdim olunması ilə bağlı bir bir məsələni - maliyyə aktivləri və maliyyə öhdəliklərinin əvəzləndirilməsini qeyd etmək lazımdır. MHBS 9-un 3.2.22-ci maddəsinə görə tanınmanın dayandırılması mümkün olmayan maliyyə aktivinin köçürülməsi uçota alındıqda həmin aktiv və əlaqədar öhdəlik qarşılıqlı əvəzləndirilə bilməz [3; 5].

Beləliklə, respublikada qiymətli kağızlar bazarının müasir vəziyyəti qeyri spekulyativ kapital bazarına girişin təmin edilməsi sahəsində fond bazarında dövlət siyasətinin yenidən baxılması zərurətini yaratmışdır. Hazırda qiymətli kağızlar formasında fond bazarı alətlərinə dərin diqqət yetirilir. Bu, aktivlərin gələcək qiymətinin müəyyən edilməsi qaydasının həmişə aktual və diskussiya mövzusu olması ilə əlaqədardır. Qiymətli kağızlarla əməliyyatların mühasibat uçotu və hesabatında düzgün əks etdirilməsi, qiymətli kağızlarla əlaqədar informasiyaların maliyyə hesabatında dürüst əks etdirilməsi ilk növbədə bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsini tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov A.H. Qiymətli kağızlar və onlarla əməliyyatlar. Dərslik./ A.Abbasov. – Bakı: İqtisad Universiteti, 2007. – 221 s.
2. Дмитриева О.В. Бухгалтерский учет и анализ операций с ценными бумагами: Учебное пособие / О.В. Дмитриева. – М.: Инфра-М, 2018. – 576 с.
3. https://www.maliyye.gov.az/
4. https://e-qanun.az/framework/34909
5. https://www.muhasib.az/ifrs.php?n=1045

**Mehdiyeva F.B., Quliyeva L.İ., Abışova G.O., Orucova N.A., Talışxanova R.M., Əfəndiyeva A.K., Məmmədova M.E., Gondolova N.M.**
Milli Aerokosmik Agentliyi

## XARİCİ ÖLKƏLƏRDƏ MALİYYƏ BAZARININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** biznes, iqtisadi, ölkə, maliyyə, layihə.

Biznesin sosial məsuliyyəti konsepsiyasının analizi göstərir ki, öz spesifik xassələrinə malik olan Amerika və Avropa modelləri formalaşmışdır. Amerika və Avropa ölkələri üçün biznes və dövlətin qarşılıqlı təsiri plyuralist xarakterə malikdir və ingilis-amerikan ənənələrinə malikdir.Bu ənənələr aşağıdakı mədəni-tarixi xüsusiyyətlərə malikdir:

Qərarların qəbul edilməsində müstəqillik və fərdilik;

- Rəqabətlilik və konkurensiya sosial-iqtisadi və şəxsi inkişafın başlıca şərti kimi iştirak edir.
- Elan olunmuş sosial-məsuliyyət əxlaqı, korporativ vətəndaşlıq prinsiplərinə baxmayaraq maksimal gəlirin əldə olunması uğurun başlıca göstəricisidir.
- Hakimiyyət bütün səviyyələrdə siyasi nizamlayıcı rolunu oynamalıdır.
- Özünütənzimləmə mexanizminin inkişafına baxmayaraq müxtəlif korporativ iştirakçılar arasında konfliktlərin həlli metodu kimi məhkəmə prosesləri geniş hyayılmışdır.

Plyuralizm konsepsiyasında dövlətə maraqlar qrupu arasında müstəqil arbitr rolu təyin olunur ki, bu zaman nəinki iqtisadi, həm də ictimai maraqları qorumalıdır. ABŞ-da

Beləliklə, təsdiq etmək olar ki, ABŞ plyuralist modelində dövlət və biznesin qarşılıqlı əlaqələri infrastruktur, iqtisadi məsələlərin həllində həlledici rol oynayır, ayrı-ayrı biznes qrupların maraqlarının ifadə olunmasında ayrılmaz alətdir və cəmiyyətdə proqressiv inkişafı təşkil etməyə imkan verir. Təsdiq olunur ki, plyuralist modelə tərəflərin bərabərliyi, maraqların ifadə olunmasının demokratik prinsiplərinə, qanun qarşısında hüquq və bərabərliyin prioritetinə əsaslanan əməkdaşlığın qarşılıqlı faydalı əlamətləri xarakterikdir.

**Cədvəl 1**

| **Modelin baza əlamətləri** | **Xassələr** |
|---|---|
| **Qarşılıqlı əlaqə subyektləri** | Hakimiyyət dairələri(müxtəlif səviyyələrin nümayəndələri);biznes(kiçik, orta, iri, transmilli);cəmiyyət (assosiasiya, maraqlar nümayəndəsi institutu, rəsmi qeydiyyatdan keçmiş lobbi) |
| **Subyektlərin qarşılıqlı əlaqə xassələri** | Müxtəlif əlaqələrin külliyyatına əsaslanan konstruktiv;rekursiv (hər bir subyektin inkişafı digərləri ilə əlaqədardır, mütə\nasibliyin pozulması qarşılıqlı əlaqənin heç bir subyekti üçün sərfəli seyil);<br>Sinerqik (subyektlər kooperasiyasının normativ sahələr çərçivəsində nəticələr əldə olunması üzrə effektin gucləndirilməsi, hansı ki, konstruktiv əməkdaşlıq çərçivəsindən kənar mümkün deyil);<br>Tsiklik (maraqlandıran problem üzrə qərarların qəbul edilməsində idarəetmə tsiklinə müxtəlif subyektlərin daxil edilməsi imkanblarına əsaslanan) |
| **Genişlənməsi** | Partnyorluğun plyuralist modelinin qlobal tanınmasına yönəlmiş amerikan biznes-mədəniyyətinin planetar yayılması, bunun uğuru isə yüksək texnologiyaların inkişafı ilə izah olunur ki, əməkdaşlığın amerikan modeli bütün dünyaya translyasiya olunur və effektiv siyasi və idealoji alətə çevrilir |
| **Normativ-hüquqi Sahə** | ABŞ-ın Federal qanunvericiliyi, ştatların qanunvericiliyi, normativ hüquqi-aktlar yerli özünüidarəetmə səviyyəsində forma, institut, qarşılıqlı əlaqə sferaları məsələlərini ətraflı tənzimləyir.Qarşılıqlı əlaqələrin nəticələrinin KİV və subyekt saytlarında işıqlandırılması məsələlərinə baxılır. Elan olunduqdan sonra isə hər bir vətəndaş qarşılıqlı əlaqə layihəsinə öz razılıq və narazılığını bildirə bilər. |

Avropa ölkələrində biznes maraqları nümayəndələri üçün ən dəyərli Avropa institutu Avrokomissiyadır, hansı ki qanunverici təşəbbüs üçün fövqəladə hüquqlara malikdir. Maraqların nümayəndələri rasionallıq və deidealogiya üzrə vacib funksiya yerinə yetirən Avrokomissiyada ekspert məsləhət komissiyasının işlərində iştirak edirlər.

Demək olar ki, biznes və dövlətin qarşılıqlı əlaqələrinin Avropa modelində hakimiyyət və dövləq qərarlarının qəbulunda biznesin çox güclü təsiri böyük yer tutur. Biznes strukturun miqyas və ölçüsü bir qayda olaraq ümumavropa siyəsətinin işlənilməsinə təsir edir. Istənilən qanunverici təşəbbüs biznes maraqlarının hesabını nəzərə alır və uyğun xarici ekspert rəyini tələb edir. Hesab olunur ki, xarici ekspertizanın sayəsində biznes-təşkilatların qərarların işlənilməsinə birbaşa təsiri aşağı salınır və onların obyektivliyi isə artır.

Beləliklə, demək olar ki, hakimiyyət və biznesin qarşılıqlı təsirinin xarici ticarət siyasəti sferasında yaranmış sistemi Avropa birliyi ölkələrinin rəqabətqabiliyyətinin adminstrativ resurslar (AB milli institutları tərəfindən) və transmilli Avropa biznesi potensialı hesabına artmasına imkan verir.

915 təsadüfi seçilmiş dövlət-biznes əməkdaşlığı (DBƏ) layihələrinin analizi göstərir ki [1], yalnız "Böyük yeddilik" ölkələrində səhiyyə birinci yerdə dayanır (şəkil 2). İnkişaf etməkdə olan ölkələrdə isə səhiyyə və təhsil, inşaat və yolların rekonstruksiyasından sonrakı yerləri tutur.

DBƏ (fərdi maliyyə ) və standart dövlət alışları (dövlət maliyyəsi) arasında başlıca fərq istifadə olunan müqavilənin strukturudur. Əgər dövlət maliyyəsi halında məsuliyyəti dövlət öz üzərinə götürürsə, DBƏ çərçivəsində onu fərdi sektor öz üzərinə götürür. Bunlardan əlavə, vəzifələrin birbaşa və dolayı yolları mövcuddur [2].

## ƏDƏBİYYAT SİYAHISI:

1. Расчеты автора по материалам: С. Рожкова. Анализ мирового опыта использования государственно-частного партнерства в различных отраслях экономики / Рожкова С. // Рынок ценных бумаг. – 2012. – № 1.
2. Hana Polackova Brixi, Nina Budina, and Timothy Irwin, 2005, «Managing Fiscal Risks in PPPs», в выпуске Current Issues in Fiscal Reform in Central Europe and the Baltic States 2015 (Washington: World Bank), английского текста.

**Fərid R. Məmmədhəsənov**
AzDİU-nun fəlsəfə doktoru hazırlığı üzrə doktorantı
E-mail: fmammadhasanov@gmail.com

# AZƏRBAYCAN REGİONLARININ MALİYYƏ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə Azərbaycan Respublikası regionlarının davamlı inkişafında büdcələrarası münasibətlərin tənzimlənməsinin müasir vəziyyəti araşdırılmış, regionların büdcə təminatının tarazlaşdırılması mexanizminin rasionallaşdırılması üçün xüsusi vergi bazasının artırılması, dotasiyalar və subsidiyalar şəklində büdcələrarası transfertlər mexanizminin tətbiqi və vergi sistemində dəyişikliklər edilməsi ilə şərtlənən, regionların maliyyə təminatının mühüm ünsürü kimi büdcələrarası münasibətlərin təşkili üsulları, gəlir mənbələrinin müxtəlif səviyyəli büdcələr üçün təsbit olunması və vergi səlahiyyətlərinin dövlət və bələdiyyə idarəetmə səviyyələri arasında bölüşdürülməsi prinsipləri təklif edilmişdir.

**Açar sözlər:** region, regionların inkişafı, büdcə tənzimlənməsi, dotasiya və subsidiyalar, gəlir mənbələri, maliyyə təminatı, maliyyə axınları, mərkəzi və yerli büdcələr

## Giriş

Regionların sosial-iqtisadi inkişafının geniş təkrar istehsal şərtlərinin təminatına yönəldilən büdcələrarası münasibətlər sisteminin təkmilləşdirilməsi, ilk növbədə dövlətin maliyyə siyasətinin formalaşdırılması və reallaşdırılmasında büdcə mexanizminin nəzəri-metodoloji prinsiplərinin və alqoritmik sxemlərinin konseptual əsaslarının və təməl prinsiplərinin işlənməsini tələb edir. Eyni zamanda, büdcələrarası münasibətlər sisteminin tənzimlənməsi və modernləşdirilməsi zamanı regionların maliyyə stabilliyinin qorunması da ayrıca bir problem kimi ortaya çıxır. Bu baxımdan, büdcə prosesinin regional iqtisadiyyatın imperativlərinə təsirinin gücləndirilməsinə dair regional idarəetmə nəzəriyyələrində kifayət qədər əsaslandırılmış proqram və konsepsiyalar mövcud olsa da, regionların maliyyə təminatının inkişaf etdirilməsi və regionlarda büdcə vəsaitlərinin idarə olunmasının təkmilləşdirilməsi məqsədi ilə hesablama-analitik işlərin və büdcələrarası münasibətlərin müasir reallaşdırılma mexanizmlərinin hazırlanması problemi daha da aktuallaşmaqdadır.

## Regional büdcə siyasətinin həyata keçirilməsinin maliyyə bazası

Azərbaycanın ayrı-ayrı regionları öz ərazilərinə, əhalinin sayı və sıxlığına, təbiət və iqlim şəraitinə, milli və tarixi xüsusiyyətlərinə, həmçinin iqtisadi inkişaf səviyyəsinə görə bir-birindən xeyli fərqlənir ki, bu da ayrı-ayrı regionların büdcə maliyyələşdirilməsinə ehtiyaclarının təmin olunmasında və regionların vergi potensialının formalaşmasında nəzərə alınmalı vacib amillərdən sayılır.

Büdcələrarası münasibətlər - regional siyasətin əsası olmaqla hökumətin gəlirlərin və xərclərin müxtəlif regional səviyyələrində bölüşdürülməsində öz əksini tapır. Büdcələrarası münasibətlərin

əsas problemlərindən biri, mərkəzləşdirilmiş büdcələrə vergilər şəklində daxil olan gəlirlərlə onlar göstərilən maliyyə yardımları arasında optimal nisbətin tapılmaşıdır. Mərkəzi büdcədən birbaşa maliyyə yardımı, mərkəzi (respublika) vergilərdən regional, yerli büdcələrə ayrılmalar büdcə tənzimlənməsinin ən vacib alətidir. [1]

Regionun iqtisadi cəhətdən sabit inkişafının və maliyyə təminatının əldə edilməsi üçün ölkənin ərazi inkişafının təkrar istehsal proseslərinin səmərəli idarə edilməsində büdcələrarası münasibətlərin və regional iqtisadi siyasətin rolunu artırmaq zəruridir. Bu zaman regional iqtisadi siyasətin məqsəd və vəzifələrini regional təkrar istehsal prosesinin əsas elementləri: təbii-resurs, istehsal-texnoloji, innovasiya, əmək, infrastruktur, sosial, ekoloji, həmçinin büdcə, maliyyə-kredit, bazar ilə səbəb-nəticə amillərinin əlaqələndirilməsini təmin etmək vacibdir.

Regional səviyyədə ən aktual və indiyədək həll olunmamış problemlərdən biri yerli büdcələrin yuxarı büdcələrin maliyyə yardımlarından yüksək dərəcədə asılılığının qalması, rasional və ədalətli büdcə tarazdırması üçün vahid metodologiyanın olmamasıdır;

Regionların və ərazilərin inkişafının dövlət tənzimlənməsi modellərini hazırlayarkən və regional siyasət apararkən inkişaf etməkdə olan xarici ölkələrin bu sahədə əldə etdiyi təcrübədən yararlanmaq lazımdır: [3]

- inkişaf etmiş ölkələrdə ərazilərin inkişafına dövlət təsiri metodları arasında büdcə tənzimləyici mexanizmləri – normativ hesablama və xüsusi büdcə rejimləri metodları mühüm yer tutur;
- Azərbaycanın hər hansı ərazisinin inkişafına daha çox təsir göstərə biləcək regional inkişafın dövlət tənzimlənməsinin bütün tədbirlərindən istifadə etmək lazımdır. Məhdud maliyyə resurslarını şəratində, regionda inkişaf etməyən və ya zəif inkişaf edən sahələrə vəsait ayrılması yolverilməzdir;
- Regionların onsuz da məhdud ərazi büdcə vəsaitləri əsasən, regionun sosial məqsədlərinə xidmət edən sahələrinin inkişafına istifadə olunur və bu çox vaxt heç bir səmərəsi olmayan xərclərdir. Zərərlə və ya əhəmiyyətsiz mənfəətlə işləyən müəssisələrə yönəldilən az məbləğdə subsidiyalar isə vəziyyəti dəyişmək iqtidarında deyildir. Regional büdcələrin yerli gəlirləri kifayət etmədiyi və mərkəzi büdcədən yardımların vaxtında və tam olaraq alınmaması şəraitində, belə büdcə maliyyələşməsindən büdcə subsidiyalaşdırılmaına keçid edilməlidir.
- ərazi büdcələrinin xərclərini planlaşdırarkən inkişafın prioritet istiqamətləri müəyyənləşdirilməli və onların birinci növbədə maliyyələşdirilməsini təmin etmək lazımdır. Bundan ötrü hər şeydən əvvəl, hökumətin hər bir səviyyəsi üçün müəyyən edilən funksiya və vəzifələrin həvalə edilməsinin qanunvericiliklə hüquqi təminatı olmalıdır. Müxtəlif səviyyəli büdcələr arasında xərcləmə funksiyalarının paylanması bütövlükdə büdcə münasibətləri sisteminin yenidən qurulmasında böyük rol oynamalıdır, çünki hakimiyyətin hər bir səviyyəsinin funksiya və səlahiyyətyyətləri bölüşdürüldükdən sonra gəlir mənbələri bu səviyyələr arasında paylana bilər. Fikrimizcə, müxtəlif hakimiyyət səviyyələri arasında xərcləmə səlahiyyətlərinin bölüşdürülməsi müəyyən məqsədlər üçün xərclər, bu funksiyaları ən effektiv şəkildə yerinə yetirə biləcək ən aşağı səviyyəli idarəetmə orqanına həvalə edilməsi prinsipinə əsaslanmalıdır.

Fikrimizcə, maliyyə bərabərliyi üçün regionlarda istehsalın mövcud strukturunu və maliyyə balansını nəzərə alan ümumi regional məhsulun hesablanmasını aydınlaşdırmaq lazımdır. Bundan əlavə, regionlara yardım və dotasiyalar ayrılma hesablamalarında regionlarda əhalinin sosial təminatı kimi göstəriciləri nəzərə alan mötəbər metodoloji bazanın yaradılması da vacibdir.

Təcrübə yerli özünüidarəetmə orqanıarının dövlət icra orqanlarından ayrılması prinsipinin məqsədəuyğunluğunu bir daha göstərir. Regionlarda dövlət maliyyələsinin fəaliyyətə olan sistemi büdcələrarası münasibətlərin tənzimlənməsinin daha səmərəli mexanizmlərindən istifadə etməyə imkan vermir. Regonların inkişafı ilə bağlı Dövlət Proqramlarında nəzərdə tutulan tədbirlərə uyğun olara müvafiq qanunvericilikdə dəyişikliklər aparılmalı və regionlara maliyyə yardımının hesablanması üsulları həyata keçirilən islahatların nəticələrinin nəzərə alınması ilə müşayiət olunmalıdır.

Bu gün regionların iqtisadi inkişaf səviyyələri arasında fərqləri azaltmaq və ya onu tarazlaşdırmaq üçün dövlətin əlində real vasitə kimi maliyyə mənbəyi rolunu ancaq büdcə vəsaitləri, onlardan ayrılan subsidiya və dotasiyalar oynamasına baxmayaraq, bu mənbələr həcminə və əhəmiyyətinə görə çox azdır və belə vəsaitlərlə regionların mövcud problemlərini həll etmək qeyri-mümkündür.[3] Belə şəraitdə dövlət, regional siysətdə həyata keçirə biləcəyi 2 real variantdan - 1) vəsaitlərin regionlar arasında bölgüsünün nisbətini dəyişmək üçün vergi yükünün artırılması və ya azaldılması; 2) geridə qalan regionların investisiya cəhətdən cəlbediciliyinin yüksəldilməsi - istifadə edə bilər.

Azərbaycanın ayrı-ayrı regionlarında adambaşına büdcə təminatının əhəmiyyətli dərəcədə fərqliliyi və bu məsələni həllində maliyyə yardımı kimi ancaq dotasiyalardan istifadə edilməsi respublika büdcəsinin yüksək dərəcədə mərkəzləşdirilməsinin səbəblərindən biridir. [11] Respublika səviyyəsində vəsaitlərin mərkəzləşdirilməsinin yüksəlməsi və sonradan əsasən transfertlər şəklində yenidən bölüşdürülməsi, öz növbəsində, müxtəlif büdcə səviyyələri arasında qarşılıqlı maliyyə axınlarının artmasına və regional hakimiyyət və idarəetmə orqanlarının fiskal maraqlarının azalmasına gətirib çıxarır.

Hazırda ölkəmizdə mövcud olan büdcə tənzimlənməsi praktikası regional və yerli hakimiyyət orqanlarının ərazilərdə vergi bazasını artırmağa kifayət qədər stimul vermir və bu, əsas məqsədi davamlı artım və dinamik inkişaf iqtisadiyyatına keçməyi nəzərdə tutan regionun ümumi iqtisadi inkişaf strategiyasına da uyğun deyildir.

Şəffaflıq, ədalətlilik və obyektivliyin təmin edilməsi baxımından regionlara maliyyə yardımı bölüşdürülmə metodikası yenidən nəzərdən keçirilməlidir. Regionların büdcə ehtiyaclarının tənzimləyici qiymətləndirilməsinə keçidi mərhələlərlə aparmaq lazımdır. Maliyyə yardımının hədəf yönümünü gücləndirmək, onun rasional istifadəsi üçün məsuliyyəti artırmaq lazımdır. Dövlət büdcənin investisiya imkanları genişləndikcə, regionlara maliyyə dəstəyi daha çox mövcud ərazilərin sosial-iqtisadi inkişaf səviyyəsində qeyri-bərabərliyin aradan qaldırılmasına yönəldilməlidir.

Bu gün fəaliyyətdə olan transfert modeli ölkə və regionların iqtisadiyyatının səmərəli inkişaf tələblərinə cavab vermir və faktiki olaraq bərabərlədirmə məqsədi ilə vəsaitlər region büdcələrinin bütün gəlir mənbələrinin həqiqi vəziyyəti nəzərə alınmadan, bir bölgədən digərinə ötürülməsi yolu ilə bölüşdürülür. Beləliklə, regionların regional gəlir bazasının genişləndirilməsi üçün stimullar heçə endirilir, çünki gəlirlərin ölkə üzrə orta göstəricidən istənilən artımı onların yenidən bölüşdürülməsi ilə nəticələnir.

Müasir şəraitdə yerli icra orqanlarının fiskal siyasətinin reallaşması prosesi yerli büdcələrin gəlir bazasının zəif olması səbəbindən çətinləşmişdir. [4] Fikrimizcə, regional büdcə-vergi siyasəti vəzifələrinin səmərəli həyata keçirilməsi üçün aşağıdakıların təmin edilməsi zəruridir:

– yerli büdcə gəlirlərinin artırılması məqsədilə sahibkarlığın inkişafı üçün stimulların yaradılmasında yerli icra orqanlarının maraqlandırılması mexanizminin təşviq edilməsi;

– hər bir hakimiyyət və yerli idarəetmə orqanına özünün mövcud maliyyə ehtiyatlarından istifadə ilə əlaqədar müstəqil qərar qəbul etmə hüququnun verilməsi;

– fiskal alətlərin köməkliyi ilə yerli büdcələrin balanslaşdırılmasına şəraitin yaradılması;

– yerli büdcə vəsaitlərindən məqsədli və səmərəli istifadə edilməsinə nəzarət mexanizminin daha da təkmilləşdirilməsi.

Yerli büdcələrin gəlir bazasının möhkəmləndirilməsi məqsədilə mülkiyyət vergilərinin hesablanması və ödənilməsi mexanizminə yenidən baxmaq lazımdır. Təhlil göstərir ki, onların yerli büdcə gəlirlərində xüsusi çəkisi çox azdır. Ona görə də imkan daxilində güzəştləri azaltmaq, dərəcələri artırmaq lazımdır. Bu sahədə kifayət qədər potensial mövcuddur.

Fikrimizcə, xarici firma və şirkətlərin respublikanın müxtəlif bölgələrində fəaliyyətini stimullaşdırmaq üçün onlara əlverişli vergi şərtləri müəyyən etməklə yanaşı, həm də tutulan vergilərin əksər hissəsinin yerli büdcələrə daxil olmasına imkan yaratmaq lazımdır.

Bu gün bələdiyyələrin malik olduğu gəlir mənbələri, xüsusən vegi daxilolmaları ilə onlara ayrılmış funksiyaları yerinə yetirmək baxımından yetərli deyildir. Büdcələrarası münasibətlərin mövcud təcrübəsinin təhlil edərək regionlarda büdcə tənzimlənməsinin aşağıdakı əsas vasitələrindən istifadə edilməsini məqsədəuyğun sayırıq;

a) yuxarı büdcələrə veriləcək vergilərdən və ödənişlərdən ayırmalar üçün normativlərin təyin olunması;

b) yerli büdcələrə maliyyə dəstəyi və digər maliyyə yardımı vasitəsi ilə büdcə təminatının bərqərar olması üçün yerli büdcələrə subsidiyaların verilməsi;

c) gəlirləri daha yüksək olan bələdiyyə büdcələrindən yuxarı büdcəyə əks transferlər;

Regionlarda büdcə tənzimləməsində istifadə edilən əsas alətlərdən biri bələdiyyə təsisatlarının büdcə təminatını bərabərləşdirmək üçün verilən subsidiyalardır. Burada, ərazilərin fiskal imkanları baxımından onların fərqləndirilməsi səviyyəsinin obyektiv qiymətləndirilməsi və regionların və bələdiyyələrin özünü inkişaf etdirməsinə stimul yaratmasına xidmət edə biləcək büdcələrarası transfertlərin bölüşdürülmə metodlarının təkmilləşdirilməsi məsələsi də əhəmiyyətlidir.

Fikrimizcə, hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsinin hesabına formalaşdırılması prinsipinə əməl edilməklə yanaşı yerli xərcləri gəlirlərini üstələyən regionlar üzrə adambaşına düşən gəlirlərin aşagı həddini də nəzərə almaq lazımdır.

Regionlarda investisiya mühiti yaxşılaşdırılmaqla, bölgəyə daha çox kapital cəlb edilməsinə şərait yaradılmalı, regionların xərclərinin əksər hissəsi daxili mənbələr hesabına qarşılanmalıdır. İndiki şəraitdə rayonların əksəriyyətinə büdcədən dotasiya ayrılması məqsədəuyğun sayılmasa da, bütövlükdə dotasiyaların ləğvi məsələsinə də ehtiyatla yanaşılmalı, görülən tədbirlər mərhələli aparılmalıdır. Təbii ki, burada işğal olunmuş rayonlara, sərhəd, anklav (Naxçıvan MR kimi) və problemli regionlara müəyyən istisnalar və güzəştlər edilməlidir. Ən vacibi - regionlara investisiyaların cəlb edilməsi üçün sahibkarlığın inkişaf etdirilməsinə hər cür şərait yaradılmalı, yerli özünüidarəetmə qurumları bu sahədəki fəaliyyətlərini daha da gücləndirilməlidir. [3]

Ayrı–ayrı regionlara subsidiya, güzəştli borclar, vergi güzəştləri formasında maliyyə yardımlarının verilməsində Qərbi və Şərqi Avropa ölkələrinin təcrübəsindən yararlanmaq lazımdır. Şərqi Avropa ölkələrinin əksəriyyətində əvəzsiz subsidiyalara deyil, güzəştli kreditlərə və vergi güzəştlərinə üstünlük verilir. Vergi güzəştləri - problemli regionlarda regional və yerli vergilər ödənilərkən tətbiq edilir. Bu zaman ya vergi dərəcələri aşağı salınır, ya da onun ödənilməsi müəyyən müddətə (adətən 5 ildən 10 ilə qədər) təxirə salınır. Belə vergi güzəştləri əldə edilən gəlirləri yenidən həmin əraziyə qoymağa sövq edir. Güzəştlər də subsidiyalar kimi avtomatik və ya seçmə ilə tətbiq edilə bilər. Məsələn, İtaliyada güzəştlər qanunda müəyyən edilən normalara əməl olunduqda, avtomatik olaraq verilir. Fransada isə belə güzəştləri konkret müəssisələrə müvafiq regional hakimiyyət orqanları təyin edir.

Eyni zamanda regionların, həmçinin onlara aid olan ayrı-ayrı rayonların müxtəliv vatiantlarda sosial-iqtisadi inkişaf ssenarilərini hazırlamaq da vacib məsələlərdəndir. Bundan ötrü hazırda mövcud olan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" əsasında hər bir rayon üçün müfəssəl "Yol xəritəsi" hazırlanmalıdır. Rayonlar üzrə statistik məlumatların indiki dairəsində belə ssenarilərin hazırlanması qeyri- mümkündür.

**Büdcələrarası münasibətlərin regionların maliyyə təminatına təkmilləşdirilməsi**

Bununla yanaşı büdcələrarası münasibətlərin təkmilləşdirilməsi üçün dövlət büdcəsindən region büdcələrinə transfertlərin ənənəvi artırılması siyasətini regionların dolayı fiskal siyasət alətləri vasitəsilə dəstəklənməsi siyasəti ilə əvəz edilməsi üçün həm konseptual, həm də instutsional islahatların gücləndirilməsinə böyük ehtiyac vardır. Eyni zamanda, regionların mərkəzi büdcədən aldıqları dotasiyanın və fiskal asılılıqlarının azaldılması, onların və büdcə qarşısında öhdəliklərinin optimallaşdırılması üçün transfertin effektivliyinə və şəffaflığına diqqətin artırılmasını daha məqsədəuyğun sayırıq.

Büdcələrarası münasibətlərin regionların maliyyə təminatına təsirinin daha da təkmilləşdirilməsi məqsədilə ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqbul hesab edirik:

– müxtəlif hakimiyyət səviyyələri üzrə vergi daxilolmalarının əsaslandırılmış şəkildə bölüşdürülməsini təsbit etmək;

– regionları özlərinin vergi potensialını inkişaf etdirməyə, dövlət büdcəsindən asılılığı azaltmağa maraqlandırmaq;

– regionların sosial-iqtisadi inkişafındakı baş verən dəyişikliklərlə əlaqədar olaraq vergi daxilolmalarının azalması hallarında yerli gəlirlərdən mərkəzləşdirilmiş gəlirlərə ayırmaların tutulmaların proporsional azaldılmasının kompensasiya mexanizminin büdcə qanunvericiliyində nəzərə almaq.

Regionlarda əsas büdcə parametrləri üzrə gəlir vergisi və fərdi gəlir vergisindən ayırmaların təsirinin kəmiyyət qiymətləndirilməsi göstərir ki, diferensial standartların tətbiqi regional büdcə sistemində qarşılıqlı maliyyə axınının optimallaşdırılmasına gətirib çıxarır. Fikrimizcə, adı çəkilən tövsiyələrin reallaşması regionların büdcələrinin maliyyə təminatının möhkəmlənməsinə və bu əsasda real maliyyə qeyri-mərkəzləşməsinin təmin edilməsinə kömək edəcəkdir.

**Nəticə**

Hazırda büdcələrarası münasibətlər sisteminin islahatı aşağıda qeyd edilən problemlər ucbatından ləng həyata keçirilir:

- Mərkəzlə regionların büdcə səlahiyyətlərinin məhdudlaşdırılması üçün baza mexanizmlərin yoxluğu qarşılıqlı büdcə münasibətləri (hakimiyyətin hər bir səviyyəsi üçün qanunvericiliklə təhkim edilən vergilərin nomenklaturu və regionların sərəncamına verilmiş mərkəzi vergilərin payı istisna olmaqla) və hər səviyyənin öz səlahiyyətlərini həyata keçirmək üçün maliyyə resurslarının formalaşdırılması üzrə tənzimləyici çərçivənin və normativ əsasların mövcud olmaması;

- Bütün regionlar üçün iqtisadi cəhətdən əsaslandırılmış və vahid vergi rejiminin olmaması nəticəsində, bir sıra ərazilər dövlət büdcəsinə ödənişlər üzrə əsassız imtiyazlardan və güzəştlərdən istifadə edir və bu, əslində ərazilərin büdcə təminatının daha da fərqləndirilməsinə gətirib çıxarır;
- Regionların iqtisadi inkişafının və əhalinin yaşam keyfiyyəti səviyyəsinin bərabərləşdirilməsi vəzifəsini səmərəli şəkildə həll edən büdcə tənzimləmə merodlarının işlənməməsi ucbatından mərkəzi və regional büdcələr arasında hesablaşmaların cüzi bir hissəsi transfert mexanizmi vasitəsilə tənzimlənir, böyük əksəriyyəti isə hələ də hökumətin subyektiv qərarları ilə müəyyənləşdirilir;
- regional büdcələrə mərkəzləşdirilmiş dəstək formalarının diversifikasiyası, təhsil, səhiyyə, mədəniyyət, əhalinin sosial müdafiəsi üçün məqsədli subvensiyaların tətbiqi, milli (dövlət) əhəmiyyətli büdcə xərclərin payla maliyyələşdirilməsindən istifadə edilməsi, zəif inkişaf etmiş regionların sosial və istehsal infrastrukturlarına investisiyaların payla maliyyələşdirilməsinə yönəldilən regional inkişaf fondunun yaradılması;
- regionlara mərkəzi yardımların həcminin müəyyənləşdirilməsi və belə transfertlərə ehtiyacları olan ərazilərin seçilməsi metodikasına diferensiallaşdırılmış sosial və büdcə normativləri əsasında üçün meyar kimi istifadə olunan daha daha obyektiv statistik məlumatların daxil edilməsi, normativ xərclərin büdcə gəlirlərində payının müvafiq qanunvericilikdə müəyyən edilmiş səviyyədən üstün olması;
- ölkənin bütün ərazisində yerli idarəetmə orqanlarına maliyyə təminatının yaradılması (mərkəzi büdcədən regiona ümumi transfertlərin həcminə ayrılan vəsaitlərin əvəzləşdirilməsindən tutmuş birbaşa maliyyə dəstəyinə qədər);
- yerli hakimiyyət orqanları səviyyəsində xərclərin və yerli büdcələrin minimum təmin edilməsi üzrə normativlərin qiymətləndirilmə sistemini yaradılması;
- regionlara, o cümlədən inkişaf etmiş vergi bazasına malik olmayanlara, öz gəlir mənbələrini inkişaf etdirməyə stimullardan məhrum etməmək üçün dəstək verilməsi;
- regionların vergitutma bazasının inkişafı üçün onların məsuliyyətini nəzərdə tutan stimullaşdırıcı konkret iqtisadi tədbirlərin hazırlanması;
- mərkəzi yardımlara xüsusi ehtiyacı olan regionlara regional büdcə xərclərinin məqsədli maliyyələşdirilməsini dotasiya şəklində yox, subvensiyalar şəklində verilməsinin təmin edilməsi;
- regionların maliyyə dəstəyi təkcə regionun büdcə gəlirləri deyil, bütün maliyyə resursları daxil olmaqla ümumi maliyyə təminatı səviyyəsindən asılı olaraq müəyyən edilən, regionların payının hesablanması prinsiplərinin dəyişdirilməsi.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Модели и методы оптимизации региональных программ развития // Н.Г. Андронникова, С.А. Баркалова, В.Н. Бурков, А.М. Котенко. М.: ИПУ РАН, - 2001, - 22-31 с.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2020 https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi
3. Гришин, В.И. Фактор стабилизации экономического и социального положения в регионах // Финансы. – 2001, - № 8, - 19-24 с.
4. Пансков, В. Муниципальные бюджеты в системе межбюджетных отношений // Российский экономический журнал. – 1998, - №11-12, - с.64-77.
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 16 noyabr 2021Qanun Layihəsi https://meclis.gov.az/news-layihe.php?id=1593&lang=az&par=0
6. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında. https://sai.gov.az/files/Rey_2021_final.pdf http://www.e-qanun.az/framework/34496
7. http://e-qanun.az/framework/43943
8. http://www.e-qanun.az/framework/41115
9. https://www.taxes.gov.az/files/download/DB2021.pdf
10. https://static.president.az/media/
11. https://sai.gov.az/files/Rey_2021_final.pdf

**Müzəffər Elçin oğlu Pirverdiyev**
Bakı Dövlət Universitetinin magistrantı
E-mail: pirverdiyev.muzeffer@gmail.com

# İNFLYASİYANIN MÜƏSSİSƏNİN İQTİSADİ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN MALİYYƏ NƏTİCƏLƏRİNİNQİYMƏTLƏNDİRİLMƏSİ

Ölkədə investisiya fəaliyyətinin canlandırılması həmçinin investisiya fəaliyyətinin səmərəli həyata keçirilməsində dövlətin böyük rolu vardır. Azərbaycan hökuməti yerli istehsalın inkişafı və bu sahəyə investorları cəlb etmək üçün bir sıra tədbirlər görmüşdür. Ölkəmizin bu sahədəki əsas fəaliyyət istiqatəmlərindən biri sabit investisiya qanunvericiliyi bazasının formalaşdırılması olmuşdur. Dövlətimiz bu məsələyə xüsusi diqqət yetirir və bunun nəticəsində ölkədə investisiya münasibətlərinin fəaliyyətini tənzimləməyə imkan verən müasir qanunvericilik bazası və onun işlək və çevik mexanizmi hazırlanmışdır.

Həm maliyyə , eləcədə də pul prizmasından inflyasiya ilkin istehasal prosesilə əlaqədardır , belə ki. o, özlüyündə istər milli gəlirin təzədən bölgüsü mərhələsində maliyyə, istərsə də əhatəli məhfum və təkrar istehsalın cəmi faza , etaplarında proses hesab edilən pulla şərtləşir. Amma ən geniş diapozonda inflyasiya , onun səviyyə göstərici istehsal həm çoxalma , həm də enmə mənasında, qiymət amili,istehsal məsrəfləri,bəsit maliyyə və pul münasibətləri, onların neqativ və pozitiv tərzdə assimulyasiya olunması ilə baglıdır.

Yəni iqtisadi sferadakı yüksəlişdə qeyri-müəyyənlik , enerji idxalı , struktur, istehsal istehlaki kimi problem məsələrinin xassələri dövlət büdcəsi gəlirlərinə, budcə kəsirinə , dovlət və özəl sferanın maliyyə durumuna , o cümlədən dövlət borcunun həcminə və bunlara rəgmən sırf bu kimi səpkidə olanlara birbaşa təsir gücünü göstərmiş olur. Barəsində bəhs etdiyimiz bu vəziyyət pul tədavülü darəsində cərəyan edən inflyasiya dərəcəsində özünü bəyan edir, bir proses , diapozonda baş verən böhranlı durum və əksinə dayanıqlı hal digərinə təsir göstərir.

İnflyasiya durumunda firmanın stabil funksiya göstərməsindən ötrü lazimi kapitalın miqdarı mütəmadı çoxalır. Bu isə sərf olunan xammal qiymətinin və əmək ödənişilə baglı məsrəflərin yüksəlməsi ilə sıx surətdə baglıdır. Ümumiyyətlə, hətta mürəkkəb olmayan təkrar istehsalı prosesi,yəni kompaniyanın iqtisadi sahədə potensialını mövcud qaydada stabil saxlaması əlavə maliyyə vasitələri istəyir. Bu situasiya firmanın maliyyə məsələləri ilə əlaqədar iş fəaliyyətinin gələcəkdə planlaşdırılmasında diqqət mərkəzində saxlanılmalıdır.

İnflyasiya mühitində sahıbkarlar öz kapital yatırımlarının təhlükəsizlik məsələrinə nail olunmasına ciddi irad nümayiş etdirirlər. Bu an faktiki şəkildə 2 cür düzəliş cərəyan edir: inflyasiya surətinə əlavə edilməklə nominal qaydada stavka və inflyasiya surətinə əlavə edilməməklə həqiqi stavka. Maliyyə müqavilələri imzalanarkən nominal qaydada stavkadan faydalanır. İnflyasiya dövründə daxili və kənar mənbələrdən formalaşan kapitalın maliyyə mənbələrinin dəyəri çoxalır. Elə bu meyli maliyyə meneceri əldə ediləcək vəsait ehtiyatlarını planlaşdırma apararkən hökmən diqqət darəsində saxlamalıdır .

Beləliklə, investisiyaları qiymətləndirən zaman inflyasiyanın nəzərə alınması ilə yanaşı aşağıdakı nəticələridə çıxarmaq olar:

1. İnflyasiyanı nəzərə almaq çox vacib və lazımlıdır.
2. Kapital qoyuluşu büdcəsi formalaşan zaman inflyasiyanın təsirini aradan qaldırmaq üçün bir sıra yollara əl atılır. Bunlardan daha səmərəli yol qiymət dəyişmələri baş verən zaman qiymətlərin dəyişmə dərəcəsindən asılı olmaqla pul axını tərkibinin təshihinden ibarətdir.
3. Gələcəkdə baş verəcək inflyasiyanın qabaqcadan müəyyən etmək və qiymətləndirilməsini aparmaq mümkün deyildir, buna görə də səhvlər qaçılmazdır.
4. İnflyasiya həmçinin kapital qoyuluşunun risk dərəcəsini artırır.

Son dövürdə Azərbaycanda antiinflyasiya həmçinin investisiya siyasətlərinin hüquqi tənzimlənməsi müvafiq qanunvericilik bazası həmçinin digər normativ aktlarla dahada müasirləşdirilmiş və möhkəmləndirilmişdir. Bununla yanaşı ölkəmiz IEÖ üçün strateji maraq obyekti olduğuna görə ölkədəki investisiya şəraitini normal hesab etmək olar.

İnkişaf etmiş ölkələrin bazar iqtisadiyyatına nəzər yetirsək görərik ki, investisiya fəaliyyətinin artırılması və inkişafı baxımından ən mühüm məsələlərdən biri inflyasiyanın idarə edilməsidir. İnflyasiyanın idarə edilməsi zamanı tədbirlər kompleks şəkildə həyata keçirilir ki, bu da özlüyündə qiymətlərin artmasına, gəlirlərin sabitləşməsinə və uyğunlaşmasına yönəldilir. İnflyasiyanın idarə olunması onun xarakterindən və mövcud səviyyəsindən, iqtisadiyyatın mövcud vəziyyətindən və s. səbəblərdən asılı olaraq fərqləndirilir. Buna misal olaraq göstərə bilərik ki, IEÖ-də inflyasiyanın səviyyəsini tələb olunan səviyyədə saxlamaq mümkündür. Bu ölkələrdə inflyasiya ilə sərt mübarizə aparılmır, ölkələr öz iqtisadi-maliyyə vəziyyətlərindən asılı olaraq, müxtəlif növ mexanizmlərdən istifadə etməklə inflyasiya proseslərinin idarə olunması siyasətini həyata keçirirlər.

Neft müqavilələrinin imzalanması, dövlətin əmlaklarının özəlləşdirilməsi, sahibkarlığın inkişafı və s. proseslər xarici investorların  ölkə iqtisadiyatına investisiya üçün yatırım maraqlarını yüksəltmişdir.

Fikrimizi daha dəqiq izah etsək , 2020–cü ildə ölkə iqtisadiyatın yönəldilmiş ümumi investısiyaların strukturunda beynəlxalq investisiyaların həcmi 6000,1milyon  manat və yaxud 33,3 faiz cıvarında özün nümayiş etmişdir. Milli iqtisadiyatın inkişafına istiqamətlənmiş daxili investisıyaların miqdarı da artmışdır, 2010-ci ildəki 6595,3 milyon  manatdan 2020 – ci dövrdə 12000,1 milyon manata qədər artım göstərmiş və yaxud 2 dəfə bir qədər az artmışdır.

**Elvin Tağı oğlu Tağızadə**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı
E-mail: elvintaghiyev184@gmail.com, info@dia.edu.az

## MALİYYƏ BAZARLARI HAQQINDA MÜASİR BAXIŞLAR

### Giriş

Maliyyə - bir münasibətlər sistemi kimi pul vəsaitlərinin fondları bölgüsü və yenidən bölgüsü, o cümlədən istifadəsi ilə sıx əlaqəlidir.

Maliyyə bazarları iqtisadiyyatda ticarəti təmin edən mexanizm kimi başa düşülür.  Maliyyə bazarlarında ticarət istiqrazlar və səhmlər, o cümlədən qiymətli materiallar, məhsullar və qarşılıqlı şəkildə əvəz edilə bilən aktivlər kimi əmtəələrlə aparılır.

Məlumdur ki, innovasiyalara likvidliyi yaxşılaşdırmaq üçün son dövrlərdə tez-tez müraciət olunur. Maliyyə bazarlarının həm kəmiyyət, həm də keyfiyyət nöqteyi-nəzərdən inkişafı da innovasiyalara marağın artmasına səbəb olur.

Maliyyə bazarı anlayışına fərqli aspektlərdən nəzər salmaq olar və bir çox hallarda bu məsələ qarışıqlığa səbəb olur. Bu qarışıqlığa səbəb bir anlayış kimi maliyyə bazarını müəyyən etmək heç də asan deyil.

Bəziləri maliyyə bazarı dedikdə məhsulun satışına yardımçı olan fond birjası kimi təşkilati strukturu başa düşür. Lakin maliyyə bazarını müştəri və satıcının qarşılıqlı əlaqəsi üçün bir yol kimi, yəni maliyyə məhsullarının satışı yeri kimi başa düşənlər də az deyil. Sonuncuya misal kimi bilavasitə əlaqəni, birjanı və sairəni göstərmək olar.

**Maliyyə bazarlarının özündə saxladığı bazarlar**

Daxili və xarici bazarlar kimi təzahür edən maliyyə bazarları aşağıdakıları özündə saxlayır:

- *kapital bazar* – istiqraz və səhm bazarını özündə birləşdirir;
- *əmtəə birjaları* - birja alış-verişinin tənzimlənməsi və təşkili ilə topdan alış-satış bazarı formalaşdıran hüquqi şəxs və ya təşkilatdır;
- *pul bazarı;*
- *kredit bazarı;*
- *valyuta bazarı;*
- *sığorta bazarı;*
- *törəmə maliyyə alətləri, yəni derovativlər bazarı.* Buraya fyu-çers və forvard əqdlərinin bazarı da aiddir.

**Kapital – maliyyə bazarlarında alış-satış obyekti kimi**

Beynəlxalq Hesablaşma Bankının hesabatlarına əsaslanaraq deyə bilərik ki, törəmə maliyyə alətlərinin dünya bazarındakı həcmi 1990-cı ildən 2010-cu ilə qədər 280 trilyon dollarıdək artaraq 300 trilyona çatmışdır [4].

Kapital dedikdə elə əmtəə və ya pul vəsaiti başa düşülür ki, biznesin xüsusi hər hansısa bir biznesə investisiyalaşma yolu ilə gəlir gətirmək qabiliyyəti var. Kapital həm də biznesin aktivinin passivini nə qədər üstələdiyi deməkdir. Başqa sözlə, kapital biznesin xüsusi dəyəridir. Biznesin və ya fərdlərin sərvəti isə ilə pul, mülkiyyət və başqa qiymətlilərdir.

Kapital hər şeydən əvvəl Biznesin inkişafı üçün cəlb edilmiş maliyyə olur. Digər tərəfdən kapital gələcəkdəki əmtəələri istehsal etməyə gücü çatan əmtəəyə olunan investisiyanı ifadə edir. Ümumilikdə klassik iqtisadiyyatda istehsalın üç amilinin adı çəkilirdi: onlardan biri topraq, digər iş qüvvəsi, üçüncü kapital idi. Kapital aşağıda sadalanan cəhətlərə malikdir:

Müəyyən əmtəələrin satışından alınmış kapital digər hansısa əmtəələrin istehsalı üçün də istifadə oluna bilir. Bu kapitalı istehsal amilinə çevirir və bunun üçün əvvəlcə kapital yaradılmalıdır. Kapital bununla da təbii resurslar və torpaqdan fərqlənir.

Yuxarıda adı çəkilən fərqlər klassik elmdə cüzi dəyişikliklərlə də olsa, qalır. Lakin bu təsnifat barədə yeni təsəvvürlər də ortaya çıxmamış deyildir. Kapital artıq resursların ehtiyatları kimi başa düşülür. Yəni onu tarixi vəziyyətlərinə görə qiymətləndirmək mümkündür. Müəyyən dövr müddətinə kapitalın hərəkətinə yığılmış resurslann artımına yardım edən investisiya kimi baxılır.

Əvvəllər çox vaxt kapitalın nümayişi fiziki predmetlər formasında özünü göstərirdi. Buna nümunə kimi istehsalatdakı avadanlıq, nəqliyyat vasitəsi, bina və sairəni nümunə göstərmək olar. Bu barədə təsəvvürlərin genişlənməsi 1960-cı ildən başladı. Beləliklə, investisiya bilik və insan kapitalının yaradıcısı kimi təhsilin inkişafına təkan vermişdir. İntellektual kapitalın inkişafı özünü intellektual mülkiyyətin artımında göstərir. İnsanın inkişaf nəzəriyyəsi, insan kapitalını sosial, təqlid edilmiş və yaradıcı ünsürləri təşkil edən vahid tam kimi təsvir edir.

**Kapital və kapital bazarlarının növləri**

Kapitalın aşağıdakı növlərini sadalamaq olar:

*Sosial kapital* – fərdlərin arasında etimadı sıralamaqla göstərən strukturdur.

*Fərdi kapital* – insanın birbaşa özünə məxsus olur və cəmiyyətdəki hər fərd digər fərdlərin fərdi kapitalını qoruyur. Bu kapital növü əmək kimi pul qarşılığında təklif olunur. İqtisadiyyatda fərdi kapitalı iş qüvvəsi də adlandırırlar. İxtiraçılıq, liderlik, ustalıq və sairə bu kapital növünə yaxındır. O cümlədən bu keyfiyyətlər təkrar istehsal oluna bilmir.

*Maliyyə kapitalının* özülünü likvidlik təşkil edir. Bu növ kapitalı həmin likvidliyi sərəncamında olan hüquqi şəxslər öz əlində saxlayır. Misal kimi maliyyə bazarlarındakı cürbəcür formalı aktivləri göstərmək olar.

İqtisadiyyatda kapitalın aşağıdakı təsnifatına da rast gəlinir:

*Təbii kapital* ətraf mühitlə, daha doğrusu, onun vəziyyəti ilə əlaqəlidir. Bu kapital növü həyatın saxlanılması üçün vacibdir və insanlar tərəfindən qorunur.

*İnfrastruktur kapital* – mülki həyat fəaliyyətlərinin qorunması sistemidir. Bunlara misal kimi yolların salınması və sairəni göstərmək olar. İnfrastruktur kapitalı obyektlərin tikilişi və quraşdırılması sonunda yaranır.

Bütövlükdə maliyyə bazarının əsas vəzifələri aşağıdakılardır:

- *kapitalın cəlbi;*
- *riskin köçürülüşü;*
- *beynəlxalq ticarətin valyuta bazarında təmin edilişi* [5, s. 279].

Maliyyə bazarlarının əsas istifadə sahələrindən biri kapitala sahib olan kreditorlar ilə kapital əldə edən borcalanların görüşdürülməsidir.

Krediti qaytarmaq barədə öhdəlik kreditora verilmiş qəbz izə qaydaya salınır. Belə qəbzlər qiymətli kağızlardandır, hansı ki, maliyyə bazarında sərbəst şəkildə satmaq və almaq mümkündür.

Ümumilikdə maliyyə bazarları aşağıdakılar da ifadə edə bilir:

- maliyyə məhsullarının satışına kömək edən idarə və təşkilatları. Yəni, fond birjası istiqrazların, səhmlərin və sairənin satışını təmin etməkdədir;

- bilavasitə səhm alıcıları ilə satıcılarının əlaqələndirilməsi, bu birjada müxtəlif yollarla həyata keçirilə bilər;

Maliyyə bazarları lokal və ya qlobal olması nöqteyi-nəzərindən milli və ya beynnəlxalq bazarlara bölünür. Maliyyə bazarlarının əsas tərkbib hissələrindən biri kapital bazarıdır, o da aşağıdakıları özündə ehtiva edir:

- **səhm bazarı** - adi səhm bıraxmaqla şirkətdəki layihələrin maliyyələşdirilməsinin təmini ilə məşğuldur və on köməyi ilə ticarətə imkan verir;
- **istiqraz bazarı** – istiqraz buraxmağın köməyi ilə şirkətlərin layihələrinin maliyyələşdirilməsinə təkan verir və onun köməyi ilə ticarətə imkan yaradır;
- **əmtəə bazarı** - əmtəələrin köməyi ilə ticarət etməyi mümkün edir;
- **pul bazarı** - qısamüddətli borcların maliyyələşdirilməsinə və investisiyasına təkan verir;
- **derivativlər**, yəni törəmə maliyyə alətlərinin bazarı - maliyyənin risklərinin idarə edilməsi üçün istifadə oluna biləcək alətləri təşkil edir;
- **fyuçers bazarı** - gələcəkdə əmtəənin ticarətinə görə forvard və standartlaşdırılmış bağlanmalarını təşkil edir;
- **sığorta bazarı** - fərqli risklərin bölüşdürülməsini, daha doğrusu, yenidən bölüşdürülməsini təşkil edir;
- **valyuta bazarı** - xarici valyutanın köməyi ilə ticarəti təşkil edir.

**Kapital bazarlarının tənzimlənməsi**

Bir də kapital bazarı adlanan elə qiymətli kağızların bazarı vardır ki, dövlət və şirkətlər onun vasitəsi ilə uzunmüddətli mənbələri, resursları cəlb edə bilir. Kapital bazarı istiqraz və səhm bazarlarıdnan ibarətdir. Belə bazarların qaydalarını maliyyənin tənzimləyiciləri, o cümlədən ABŞ-da birjalar və qiymətli kağızlar üzrə fəalliyyət göstərən komissiya müdafiə edir [5, s. 281].

Kapital bazarı birinci, ikinci bazarları özündə ehtiva edir. İlk dəfə buraxılmış, yəni yeni qiymətli olan kağızların alınıb satılması birinci bazarda aparılır. İkinci bazar isə qiymətli kağızlar üçün investisiyalar əvəzində onları almağa və satmağa (bu, əvvəl sadəcə qiymətli kağızların alınmasına izin verirdi) icazə verir.

Maliyyə bazarlarını anlamaq üçün onların məqsədlərini araşdırmaq lazımdır. Əslində maliyyə bazarı olmadan da borclanmaq olur. Lakin bu halda borc alan şəxslər və ya şirkətlər kreditorların axtarışı ilə müstəqil məşğul olur, beləcə çətinliklərlə qarşılaşa bilir. Beləcə bank şəklindəki vasitəçilər bu prosesdə onlara yardımçı olmaqdadırlar. Banklar ehtiyacı olanlara kredit verdikləri pul vəsaitini əmanət qəbul edirmiş kimi depozitə götürmək vasitə ilə əldə edirlər. Depozitə götürülən bu pul vəsaiti əvvəlcə deponentləşdirilmiş vəsait fondunda toplayırlar, sonra sonuncu cümlədə qeyd olunan borc vermə həyata keçirilir. Banklar depozitlərdən topladıqları pulu borv və ipoteka formasında təqdim edə bilirlər [3].

Sadə bank depoziti üçün mürəkkəb bağlaşmalara çox ehtiyac duyulmur. Ancaq kreditorların və ya agentlərinin köməyi ilə borcalanlarla borcu aldığı tərəflərin arasında vasitəçi rolu oynayan bazarlar daha mürəkkəb bağlaşmalara sahibdirlər. Buna, məsələn, fond birjası, yaxşı nümunə ola bilər. Qeyd olunmalıdır ki, şirkətlər səhmlərini investora satmaqla yaxşı vəsaiti əvvəla sahib olduğu səhmləri alıb-sata və beləcə lazım olan vəsaiti cəlb edə bilər.

Maliyyə bazarlarının uçotu seqmentində ölkəmizin əsas maliyyə aləti dövlətin qısamüddətli istiqrazları (DQİ) və Azərbaycan Mərkəzi Bankının Notlarıdır, hansı ki bunların yerləşdirilməsi və emissiyası son zamanlar təsadüfi xarakterdədir. Xəzinədar, kommersiya və bankın vekselləri, o cümlədən korporativ istiqrazlar və qısamüddətli bəzi istiqrazların digər növləri də alətlər bazarda öz yerini, layiqli yerini tapa bilməmişdirlər.

**Cədvəl 1**

**Borcalanların və kreditorların qarşılıqlı fəaliyyəti**

| Kreditorlar | Maliyyə vasitəçiləri | Maliyyə bazarları | Borcalanlar |
|---|---|---|---|
| Hüquqi və fiziki | Sığorta şirkətləri, banklar, | pul bazarı, banklararası fond | Hökumət, hüquqi və fiziki |

| | | | |
|---|---|---|---|
| şəxslər | birja və pensiya fondlari | birjaları, istiqraz və valyuta bazarı | şəxslər, dövlət korporasiyaları, bələdiyyələr |

Banklarası bazar, yəni pul bazarı, pul vəsaitlərinin qısa müddətlik aktiv olan əməliyyatların və balansların təmizlənməsi, AMB kimi tənzimləyici orqanların tələblərinə riayət olunması üçün verilən depozit, banklararası və kredit şəklində yenidən paylanmasını təşkil edir. AMB yenidəmmaliyyələşdirmə qaydasında banklara, kommersiya banklarına kredit təqdim edir. Eləcə də maliyyə bazarının anlıq şərtlərindən, yəni konyukturundan asılı olaraq, o cümlədən maliyyə sabitliyinin qorunması, pul kütləsinin tənzimi və bankın likvidliyinin təmini məqsədinə uyğun olaraq AMB öz yenidənmaliyyələşdirməsindəki faiz dərəcəsini müəyyən edir [2].

## ƏDƏBİYYAT SİYASI:


1. Azərbaycan Respublikası Konstitusiyası (12.11.1995-ci il). Bakı, 2009.
2. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanunu (10.12.2004-cü il).
3. "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu (16.01.2004-cü il).
4. Ataşov B.Maliyyə bazarları, Ali məktəblər üçün dərs vəsaiti, Bakı, 2016.
5. Суэтин А.А. Международные валютно-финансовые и кредитные отношения. М., 2010.
6. European Commission (2007). European Financial Integration Report 2007, EC, Brussels



**Жаля Аббасовна Алиева**
Менеджмент(в гражданской авиации), jalyaaliyeva.24@gmail.com
Национальная Академия Авиации, г. Баку


## ПРОЦЕССНЫЙ ПОДХОД К ФОРМИРОВАНИЮ МОДЕЛЕЙ ЦЕПИ ПОСТАВОК

При процессном подходе, когда цепь исследуется и проектируется в виде последовательности потоков и действий, существует последующее определение: ЦП - это связанный порядок потоков и процессов, которые имеют место между различными звеньями цепи и инсталлируются фокусной компанией в стратегическом планировании для удовлетворения потребностей потребителей в товарах и услугах.

В концепции управлением цепями поставок широко распространены следующие виды процессного представления ЦП: фундаментальная система S-модель и ее производные: make to order – MTO, make to stock – MTS, SCOR-модели, IBRF-модель, CCOR- модели.

Обобщением прогрессивных достижений концепции SCM в деле методического и информационного обеспечения управления цепями поставок считается *SCOR-модель* (supply-chain operations reference-model – рекомендуемая модель операций в цепях поставок), предложенная международной организацией – *Советом по цепям поставок (The supply-chain council – SCC).* Одной из главных задач Совета по цепям поставок является распространение и развитие идеологии построения SCOR-модели как основного средства управления ЦП для предприятий различных отраслей экономики.

SCOR-модель (supply chain operations reference model) – представляет собой рекомендуемую модель операций в ЦП. Целью ее была разработка более действенного анализа, планирования и проектирования ЦП, а также способствует осуществлять процесс представления ЦП, практически осуществлять декомпозицию: «ЦП – основной бизнес процесс – логистический процесс – логистическая функция/операция».

SCOR- это разработанная модель, которая является одним из эффективных инструментов исследования ЦП. Он способствует выявлению "узких мест" и представляет допустимые различные вариации разработки логистической системы компании.

**Схема 1.**

**Характеристика базисных бизнес-процессов SCOR**




Употребление вышеперечисленных моделей способствует улучшению обменом сведениями между бизнес единицами и предполагает непосредственное взаимодействие в части тех операций, которые напрямую формируют цепи поставок. Для отечественных коммерческих инфраструктурных структур методика SCOR предоставит несомненную поддержку. Проблемами, препятствующими внедрению данных моделей могут быть обособленность предприятий, информационно -финансовая замкнутость от посредников, трудности планирования, возможные прибои с информационным объединением (отсутствие электронного документооборота, совместных структур кодирования) ограниченный уровень знаний сотрудников предприятий.

## СПИСОК ЛИТЕРАТУРА:

1. Lean Supply Chain and Logistics Management-Paul Myerson
2. Logistics & Supply Chain Management- Martin Christopher
3. https://studme.org/58865/logistika/scormodel_primenenie_izmereniya_effektivnosti_tsepey_postavok
4. https://www.ascm.org/ascm-insights/circular-supply-chains-will-shift-scor-supply-chain-processes/

# IV BÖLMƏ
# SƏNAYENİN DİVERSİFİKASİYASI

**Aliyeva D.İ., Aliyev E,M., Calalova S.E., Kanan Mustafa.B.**
**Rahimova U.Sh., Iskandarova H.D., Hasanova T.A.**
National Aerospace Agency

## THE MAIN DIRECTIONS OF AGRICULTURE IN THE WORLD

**Key words:** world, agriculture, economy, modern.

World agriculture is a constantly developing sphere of human activity that has arisen with the advent of man himself, aimed at ensuring the primary (urgent) needs of people, and has given rise to all other spheres, industries and sub-sectors of the world economy that currently exist in the world. It is human activity with the use of land, which has become in modern agriculture, the second factor of production after the human labor force, the main means of production and the most important economic resource, contributed to the emergence and development of the social, and then the international division of labor, technical, scientific and technological, socio-economic progress, and then (since the middle of the twentieth century) the scientific and technological revolution, as well as all new types of human activity closely related to agriculture. Simply put, human activity in agriculture over the course of many millennia, based on the deepening of the social and international division of labor, has led to the formation of the modern world economy. At the same time, agriculture continues to be the main type of human life activity, creating benefits of high economic and social significance and designed to ensure food security at all (nano-, micro-, meso-, macro- and mega-) levels of the economy. In modern conditions, the process of agricultural development is subject to the action of economic laws common to the world economy, but due to its features, in comparison with other areas and industries, there are peculiarities in the use of economic laws and general principles for the development of social production1. There are also special patterns that operate only in agriculture, which complicates its development and requires that this be taken into account in the process of development and practical implementation of agrarian and economic policy at all levels of the world economy. The most important of these features of the development of the agricultural sector of the economy is that the main means of production and the main subject of labor here is a specific substance of nature, a special economic resource - land, which is irreplaceable, non-movable, its quantity is severely limited, and per capita is even reduced [1].

Of the total area of Planet Earth (510 million km2), only about 149 million km2 (14.9 billion hectares, 29.2%) are land, of which (except for Antarctica) under modern conditions, only 13.4 billion hectares (26%) is accessible to people. But the share of lands cultivated by man (arable land, gardens, vineyards, etc.) of its total land volume in the world economy is about 11%. The rest of the lands accessible to man are occupied by forests (about 30%), meadows, pastures, settlements (about 2%), industrial zones, transport lines. About a third of them are still unproductive for agriculture. use. The amount of cultivated area (arable land) in world agriculture at present, according to various sources, ranges from 15,702 to 18,703 million hectares. The leaders among the countries of the world in terms of total arable land are the United States, which has approximately 176 million hectares, India (160 million hectares), China (137.1 million ha), Russia (134 million ha). Among the countries that are leaders in the share of cultivated land in their total land fund, India most often stands out, where about 57% of such land is cultivated annually. lands, Poland (47%), Italy (40%), France (45%), Germany (34%), USA (20%), China (10%), Russia (8%). In Russia, according to her Ministry of Agriculture, from 1990 to the present, the area of arable land has decreased from 132.3 to 116.2 million hectares4. Over time, along with the growth of the world population, there is a reduction in agricultural land per capita. For example, from 1961 to 2016, the world population more than doubled and, accordingly, the area of arable land in the world decreased from 0.45 to 0.21 ha. per capita. But in different countries and regions of the world, these figures vary significantly: in Asia, the area of arable land per capita is 0.13 hectares, in Africa - 0.22, in North and South America and Europe - 0.40, in Oceania

- 1, 21 ha5. The cultivated area per worker is constantly decreasing in the world. At present, on average in the world, this figure is about 1.2 hectares per worker (in Russia - more than 20 hectares per worker). one worker). An important feature of world agriculture is also that the land itself as the main means of production is heterogeneous, but with its rational use it has the ability to increase its fertility. “In those countries,” wrote A. Smith, “where agriculture is the most profitable of all capital investments, and the cultivation and improvement of the land is the most direct way to a great fortune, the capitals of individuals will naturally be applied in the most advantageous way for the whole society. At the same time, it is extremely important to take into account the different possible types of soil fertility. In this regard, there are: 1) the natural fertility of the earth, which is determined only by its natural properties given by nature - physical, biological, chemical and other similar properties; 2) the artificial fertility of the land, depending on its natural properties, but also on the level of development of the productive forces in society, and the degree of their use in agriculture - mechanization, automation, chemicalization, irrigation and other achievements of scientific and technical progress; 3) the economic (social) fertility of the land, which depends mainly on the social, primarily production, relations that have developed at a given moment in the country, region or world, determining the possibilities of using the existing natural and artificial fertility of the land. A good example of an active the impact of production and social relations on the use of land are rent relations, when a private owner who rents out land, more often uses the rental income outside of agriculture, and even outside the country of land use, thereby restraining the development of land fertility, and agricultural and social production as a whole.

Among the features of the development of world agriculture stand out: the interaction of economic, natural and other factors of production, features of the structure, turnover and circulation of production assets. And among development trends - the growing dependence of agriculture on other areas of the economy, the economic and social fertility of the soil, the public economy system, etc.

Among the main problems of modern use of world agriculture stand out such as the overproduction of agricultural products that has developed since 1948, the irrational use of agriculture and bias distribution of its products, which generates and strengthens the inequality of countries and territories in the world economy, underconsumption agricultural products and starvation of a large part of the world's population. The conclusions of the analysis are that the problems of world agriculture, caused by its features and development trends, require, on the one hand, a deeper analysis, and, on the other hand, close attention to this sector and actions to resolve these problems at all levels of the global economy.

## REFERENCE

1.Экономика сельского хозяйства: учебник / И. А. Минаков, Г. Е. Смирнов, Н. П. Касторнов; ред. И . А. Минаков. - М. : КолосС, 2006. -

**Gülnar Şaddıq qızı Bəşirova**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) MBA magistrantı,
Aqrar Tədqiqatlar Mərkəzinin (ARC) baş mütəxəssisi
E-mail: gulnar.bawirova@mail.ru

**Əbdülrəhim Əbdülrəhman oğlu Dadaşov**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,
Aqrar Tədqiqatlar Mərkəzinin (ARC) aparıcı mütəxəssisi
E-mail: ebdulrehimdadasov@gmail.com

# KƏND TƏSƏRRÜFATI SAHƏSİ ÜZRƏ DƏYƏR ZƏNCİRİNİN YARADILMASININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

## Xülasə

Aqrar sənaye sahəsinin intensiv inkişafı və onun diversifikasiyası kontekstindən dəyər zənciri yanaşması müasir dövr üçün aktuallaşmış məsələlərdəndir. Kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələri üçün dəyər zəncirində iştirak ümumi sahə üzrə inkişaf tempini artırmağa kömək

edir. Kənd təsərrüfatının inkişafına dəyər zənciri yanaşması dəyər zəncirinin zəif tərəflərini müəyyən etməyə və əlavə dəyərin formalaşması mərhələlərində təkmilləşdirmə aparılmasına kömək edir. Bu baxımdan dəyər zənciri yanaşmasının dərindən araşdırılması, onun metodiki aspektlərinin öyrənilməsi və günəbaxan sektorunda təzahürünün təsvir edilməsi ilə məhsul üzrə daha detallı dəyər zənciri sxeminin hazırlanmasına yardımçı olacaqdır. Məhz bu baxımdan kənd təsərrüfatı sahəsi üzrə dəyər zəncirinin yaradılması məsələləri məqalənin aktual mövzuya həsr olunduğunu göstərir. Məqalədə kənd təsərrüfatı sahəsində dəyər zəncirinin yaradılması üzrə nəzəri-konseptual əsaslar araşdırılmış və kompleks şərhi verilmişdir.

***Açar sözlər:*** *kənd təsərrüfatı, dəyər zənciri, istehsal, emal, sənaye*

Müasir dövrdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının inkişafında dəyər zənciri yanaşması üstünlük təşkil edir. Təsadüfi deyil ki, hazırda qlobal səviyyədə kənd təsərrüfatı məhsullarının emalı sənayesində istehsalın artım tempi ilkin kənd təsərrüfatı məhsullarının istehsal tempindən yüksəkdir. Buna uyğun olaraq aqro-ərzaq məhsulları üzrə ticarətin artım tempi də istehsalın artım tempini ciddi şəkildə üstələyir və aqro-ərzaq məhsulları üzrə qlobal ticarətdə emal olunmuş məhsulların daha böyük paya malikdir. Dəyər zənciri yanaşması konkret yerli sektorun imkanlarını və məhdudiyyətlərini müəyyən edir, onun bazar inteqrasiyasını təhlil edir. Dəyər zənciri üzrə inkişaf isə əsasən sənaye emalı mərhələsinin genişliyi və diversifikasiyasından çox asılıdır.

Son 30 ildə dünya üzrə ilkin kənd təsərrüfatı məhsulları istehsalının həcmi təqribən 2,1 dəfə artıb [1]. Bu dövr ərzində dünya üzrə qida sənayesi məhsulları istehsalının həcmi isə təqribən 3,1 dəfə artıb [2]. Ərzaq məhsulları üzrə qlobal ticarətin artım tempi, kənd təsərrüfatı və qida sənayesinin inkişaf tempi ilə müqayisədə daha yüksək olub. Belə ki, son 30 il ərzində dünya üzrə ərzaq və kənd təsərrüfatı məhsullarının ixracı 5,1 dəfə artaraq 1647,2 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 62%-i emal olunmuş məhsulların payına düşür [3].

Dəyər zəncir istehsalın müxtəlif mərhələlərini, son istehlakçılara çatdırılması, tələb olunan fəaliyyətlərin tam spektrini təsvir edir. Məhsullar dəyər zəncirinin müxtəlif mərhələləri üzrə ardıcıl olaraq müxtəlif mərhələlərdən keçdikcə bir çox zəncir iştirakçıları arasında əməliyyatlar baş verir, maliyyə münasibətləri və informasiya mübadiləsi aparılır, növbəti mərhələyə keçid etməsilə məhsulun ümumi dəyər həcminə tədricən yeni dəyər əlavə olunur.

Dəyər zənciri yanaşmasının tarixi mənşəyini 1960 və 1970-ci illərdəki elmi işlərdə görmək olar ki, burada məqsəd mineral ixrac edən ölkələr üçün inkişaf variantlarını müəyyən etmək idi. Bu yanaşma həm də 1960-cı illərdə Fransa kənd təsərrüfatında müqaviləli əkinçilik və şaquli inteqrasiyanı öyrənmək üçün istifadə edilən "filiere" yanaşmasından qaynaqlanır. Metodoloji cəhətdən daha az ciddi olan filiere yanaşması daha sonra inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatına, əsasən də fransız alimləri tərəfindən tətbiq edilmişdir.

Qeyd etdiyimiz kimi, dəyər zənciri məhsulun istehsalı ilə başlayır və son məhsulun istehlakı ilə başa çatan bir prosesdir. Kənd təsərrüfatı sahəsində dəyər zəncirinin yeddi mərhələsi var. Bunlar müvafiq olaraq istehsal resurslarının tədarükü, istehsal, istehsalçı subyektlər, ticarətçilər, emalçılar, topdan və pərakəndə satış mərhələləridir. Dəyər zəncirində məhsulun keyfiyyətini artırmaq, məhsulda fərqlilik yaratmaq və ya sistemin səmərəliliyini artırmaqla rəqiblər üzərində üstünlük əldə etmək hədəflənir. Bu gün ölkələrin bir çoxunda kənd təsərrüfatı məhsullarının emalı, saxlanması və qablaşdırılması kimi məhsulların əlavə dəyərinin artırılması üçün investisiyalar dəstəklənir. Bu sahəyə yönəlmiş dəstək tədbirləri həm istehsalçıların gəlirlərini artırır, həm də kənd məşğulluğuna töhfə verir. Tədqiqatlar göstərmişdir ki, kənd təsərrüfatında əlavə dəyərin yaradılmasına istiqamətlənmiş aqrar siyasətin həyata keçirilməsi kənd təsərrüfatının ÜDM-də payını artırır və aqrar sektorda istehsalçıların rifahını yüksəldir. Ona görə də ilk növbədə kənd təsərrüfatında əlavə edilmiş dəyərin baş verdiyi dəyər zəncirinin yardılması böyük əhəmiyyət kəsb edir. Dəyər zənciri ilə bağlı çoxlu araşdırmalar var. Bunların bir çoxu dəyər zəncirinin tərifini, əhəmiyyətini və mərhələlərini təsvir edən bələdçi kitablardır. Miller və Jones öz tədqiqatlarında kənd təsərrüfatı sektoruna diqqət yetirib və dəyər zəncirinin kənd təsərrüfatı sektoruna təsirlərini araşdırıblar. Dəyər zənciri təhlilini metodoloji cəhətdən izah edən bir çox tədqiqat da mövcuddur [4, s.1003].

Dəyər zənciri təhlili konsepsiyası ilk dəfə Maykl Porter tərəfindən “Rəqabətli üstünlük: üstün performansın yaradılması və dayandırılması” adlı kitabında təsvir edilmişdir. Porter “marja” terminindən dəyər yaradan fəaliyyətin yerinə yetirilməsi ilə bağlı ümumi xərclə məsrəf arasındakı fərqə istinad etmək üçün istifadə edir, digər alimlər isə “əlavə dəyər” terminindən istifadə edirlər. Ümumi məsrəf müştərinin firmanın məhsulu və ya xidməti üçün ödəməyə hazır olduğu qiymət kimi başa düşülə bilər. Dəyər zənciri təhlili biznes bölməsinə, əməliyyat seqmentinə və ya şirkətə münasibətdə tətbiq oluna bilər.

Dəyər zənciri çərçivəsi beş əsas fəaliyyətdən və dörd ikinci dərəcəli fəaliyyətdən ibarətdir. Əsas fəaliyyətlərə daxildir: daxili logistika (xammal təminatı, maddi-texniki təchizat və s.), istehsalın idarə edilməsi, xarici logistika, bazar və satış, xidmətlər. İkinci dərəcəli fəaliyyət tədarük və satınalmalar , insan resurslarının idarə edilməsi, texnoloji inkişaf və təşkilatın infrastrukturundan ibarətdir. Əsas fəaliyyətlər məhsul və ya xidmətin yaradılmasına, satışına, saxlanmasına və dəstəklənməsinə xidmət edir. Hüquq, ümumi idarəetmə, inzibati, mühasibat uçotu, maliyyə, ictimaiyyətlə əlaqələr və keyfiyyət təminatı kimi zəruri şirkət fəaliyyətlər dəstəkləyici fəaliyyətlərə daxil edilir. M.Porterin dəyər zənciri modeli aşağıda təsvir edilmişdir:

**Şəkil: M.Porterin “Dəyər zənciri” modeli**




**Mənbə:** [5] və [6, s.4]

Kənd təsərrüfatı sektoru istehsalın daha çox təbii şəraitdən asılı olması və məhsuldarlığın azalması qanunu kimi özünəməxsus xüsusiyyətləri ilə digər sahələrdən əhəmiyyətli dərəcədə fərqlənir. Bununla belə, kənd təsərrüfatı sektoru öz daxilində çoxlu müxtəlif məhsulları ehtiva etdiyi üçün dəyər zəncirinin hər bir mərhələsi sektorlara görə fərqlənə bilər. Kənd təsərrüfatı dəyər zəncirində məhsul axını ilə yanaşı, zəncirin maliyyələşdirilməsi və informasiya dəstəyi müxtəlif dövlət və özəl sektor təşkilatları tərəfindən həyata keçirilir.

Kənd təsərrüfatının dəyər zənciri istehsal resurslarının tədarükü mərhələsi ilə başlayır və istehsalçılar, istehsalçı assosiasiyaları və kooperativləri, ticarətçilər, emalçılar, topdansatışçılar, pərakəndə satıcılar və son mərhələ olan istehlakçılar kimi davam edir. İstehsal resurslarının tədarükü

mərhələsi zəncirin ilk mərhələsidir. Bu mərhələ kənd təsərrüfatı mərhələsinə başlamaq üçün lazım olan kənd təsərrüfatı məhsullarının (gübrə, toxum, pestisidlər və s.) təmin edilməsi mərhələsidir.Kənd təsərrüfatının dəyər zəncirinin digər elementi kənd təsərrüfatı materiallarından istifadə edilməklə məhsula çevrilən istehsal mərhələsidir. Bu mərhələdə istehsalçılar özləri öz müəssisələrindən kənd təsərrüfatı istehsalında toxum, gübrə və s materialları təmin edə bilər. Kənd təsərrüfatının dəyər zəncirinin mühüm elementlərindən biri istehsalçı subyektlərdir. İstehsalçı subyektlərə fərdi sahibkarlar, kənd təsərrüfatı müəssisələr və s. kimi təşkilati formalarda fəaliyyət göstərirlər. İstehsalçı subyektlər birlik, assosiasiya şəklində olan könüllü ittifaqlarda və kooperativlərdə birləşərək daha rəqabət qabiliyyətli səviyyədə fəaliyyət göstərə bilirlər. İstehsalçı birlikləri və kooperativlərdə birləşmiş istehsalçı subyektlərə satış, marketinq və texniki dəstək göstərdiklərinə görə dəyər zənciri təhlilinə daxil edilir. Başqa bir kənd təsərrüfatın zəncirinin elementi istehsalçılarla istehlakçılar arasındakı boşluğu dolduran ticarətçilərdir. Dəyər zəncirində ticarətçilər məhsulu birbaşa istehsalçıdan, eləcə də birliklər və kooperativlər vasitəsilə ala bilərlər. Kənd təsərrüfatı məhsullarının emal mərhələsi məhsulun saxlanması, mühafizəsi və istehlakçılarla çatdırılması üçün məhsula xas olan xüsusi proseslərdən keçərək istehlaka hazır vəziyyətə gətirilməsi prosesidir. Kənd təsərrüfatı dəyər zəncirinin son elementi kənd təsərrüfatı məhsullarının pərakəndə satış mərhələsidir. Pərakəndə satış son məhsulların istehlakçıya az miqdarda və ya tək-tək satış formasıdır. Bu satışı həyata keçirən satıcıya "pərakəndə satıcı" da deyilir [4, s.1004].

Kənd təsərrüfatı dəyər zəncirinin iştirakçılarının fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün digər bir məsələ onların maliyyə resurslarına çıxışının yaxşılaşdırılmasıdır. Onların rəqabət qabiliyyətini artırmaq üçün xarici maliyyə xidmətlərinə ehtiyac duya bilərlər. İqtisadi subyektlərə maliyyə xidmətləri göstərən əsas qurumlar dövlət qurumları, banklar, maliyyə institutları, özəl investorlar və fondlar, kooperativlər və birliklər ola bilər [4, s.1004]. Kənd təsərrüfatı sektoru hökumətlər tərəfindən davamlı olaraq maliyyələşdirilir və müəyyən dövrlərdə subsidiyalaşdırılmış kredit dəstəyi kimi siyasətlər tətbiq edilir.

Kənd təsərrüfatının dəyər zəncirində aqrar informasiya-məsləhət xidmətləri kənd təsərrüfatının modernləşdirilməsi üçün zəruri olan bilik və bacarıqları əldə etmək üçün lazım olan məlumatları təmin edən xidmətlərdir. Bu xidmətlər dövlət və özəl sektor tərəfindən təmin oluna bilər. Kənd təsərrüfatında bir çox məhsullar üzrə istehsal prosesi fərqli olduğundan dəyər zəncirinin elementləri ardıcıl olaraq bir-birini izləməyə də bilər. Bu müddətdə istehsalçı öz məhsulunu, ticarətçilərə sata bildiyi kimi, müqaviləyə əsasən böyük pərakəndə satıcılara və ya topdansatıcılara sata bilər. Burada dəyər zəncirinin formalaşması, istehsalçının təcrübəsindən, iş qabiliyyəti, iş həcmi və məhsulun keyfiyyətindən asılıdır. Məsələn İmami (2013) almanın dəyər zəncirinin xəritəsini vermişdir. O göstərmişdir ki, alma istehsalçı və ixracatçıdan topdansatışa, ordan market, otel, bazar, səyyar satıcılara doğru dəyər zənciri üzrə hərəkət etmişdir.

Kənd təsərrüfatı dəyər zəncirində rəqabət üstünlüyünü təmin edəcək, xərcləri azaldacaq və səmərəliliyi artıracaq bütün təcrübələrə dəyər yaradan fəaliyyətlər deyilir. Bundan əlavə, dəyər formalaşmanın, mülkiyyətin, zamanın, məkanın, sosial və iqtisadi rifahın, həmçinin biliyin əsas iqtisadi faydalarını təmsil edir [4, s.1005]. Kənd təsərrüfatı sektorunu inkişaf etdirmək üçün dəyər zəncirinin müxtəlif mərhələlərində dəyər yaradan fəaliyyətlər məhsulun keyfiyyətinin yüksəldilməsi, sistemin səmərəliliyinin artırılması və hər bir zəncirdə məhsulun differensiallaşdırılması üçün zəruri olan elementlər təqdim edilmişdir. Kənd təsərrüfatı məhsullarında aparılan dəyər zənciri araşdırmalarında müvafiq məhsula xas olan dəyər yaradan elementləri müəyyən etmək və dəyər artımını aşkar etmək lazımdır.

İstehsalçının zəncirdən əldə etdiyi mənfəət marjası nisbətini azaldaraq və ya aradan qaldıraraq artırmaq mühüm dəyər yaradan xüsusiyyətdir. Kənd təsərrüfatının çoxlu müxtəlif məhsullar təklif etməsi və bəzi kənd təsərrüfatı məhsullarının birbaşa istehlak edilə bilməsi səbəbindən yaranan bu vəziyyət, kənd təsərrüfatı sektorunu dəyər zəncirindəki digər sektorlardan əhəmiyyətli dərəcədə ayırır. Bir sektorda alınacaq siyasi tədbirlərlə də əlavə dəyəri artırmaq mümkündür. Məsələn, heyvandarlıq üçün kənd təsərrüfatı sektoruna verilən dəstəklər hesabına istehsalçıların əlavə dəyəri artırıla bilər. Bu çərçivədə kənd təsərrüfatında əlavə dəyərin artırılması üçün müvafiq iqtisadi siyasət tədbirləri inkişaf etməmiş regionlara investisiyaların stimullaşdırılması, gömrük tarifi və qeyri-tarif

mühafizəsinin tətbiqi, ixtisaslaşmış əmtəə birjalarının yaradılması, fermer təşkilatlarının dəstəklənməsi, faizsiz və aşağı faizli kreditlərin verilməsi kimi ifadə etmək olar. Kənd təsərrüfatı sektorunda dəyər artıran elementlərin reallaşdırılması kənd təsərrüfatı istehsalında ixtisaslaşma, texnologiya, təhsil və təcrübə, eləcə də kapital kimi bir çox fərqli amillərdən asılıdır. Bunun üçün kənd təsərrüfatında əlavə dəyəri artıracaq təcrübələrin həyata keçirilməsi üçün lazımi struktur yaradılmalı, dövlət qurumları və istehsalçı təşkilatlar keyfiyyətin yüksəldilməsi üçün lazımi təlim və təbliğat xidmətlərinin göstərilməsi üçün lazımi dəstəyi verməlidirlər.

Dəyər zəncirinin təhlili kənd təsərrüfatı müəssisələrinin əsas problemlərinin həllində əsas vasitə kimi istifadə edilə bilər. Bunun üçün aqrar sektorda dəyər zənciri təhlilinin tətbiqi genişləndirilməli, təhlillərin nəticələri nəzərə alınmaqla sektorun təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. https://data.worldbank.org - World Bank Open Data / The World Bank
2. https://stat.unido.org/database - UNIDO Statistics data portal / United Nations Industrial Development Organization
3. https://www.trademap.org/Index.aspx - Trade statistics for international business development / International Trade Center.
4. Başer U., Bozoğlu M., (2018), “Tarımsal değer zincirinde değer yaratan faaliyetlerin belirlenmesi”, Türk tarım-gıda bilim ve teknoloji dergisi, № 6(8): s. 1002-1007, URL: http://www.agrifoodscience.com/index.php/TURJAF/article/view/1835/892
5. Porter M. E., (1985), “Competitive Advantage”, New York: Free Press., URL: https://www.albany.edu/~gs149266/Porter%20(1985)%20-%20chapter%201.pdf
6. Yazıcı N., Uysal T.U., Kurt G., (2017), “Türkiyede tarımsal gıda sektörünün değer zinciri analizi ile değerlendirilmesi”, İstanbul, Türkiye, “Uniprint Basım Sanayi ve Ticaret A.Ş”, - 48 sah. URL: https://www.iso.org.tr/sites/1/upload/files/iso_tarimsal_gida_sektoru_web-7309.pdf



**Şövkət Tahir Cabbarova**

AzTU, magistrant, Bakı, Azərbaycan

E-mail: shovket1998@mail.ru


# MÜƏSSİSƏNİN İDARƏ OLUNMASINDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ PROBLEMLƏRİNİN TƏDQİQİ


**Xülasə**

Nəticə etibarilə, informasiya texnologiyalarında baş verən dəyişikliyi izləyən və onları tətbiq etməyi bacaran müəssisələrin bu texnologiyanın onlara verdiyi imkanlar sayəsində bir çox potensial artımı olan digər müəssisələr qarşısında rəqabət üstünlüyü əldə etməsi qaçınılmazdır. Hal-hazırda, bu texnologiyadan istifadə edərək, biznes üçün nəyin ən yaxşı olduğuna qərar verməyi asan və daha sürətli etmək mümkündür və əvəzolunmazdır. Müəssisələrin bu texnologiyanın verdiyi imkanlardan yetərincə yararlanmadıqları təqdirdə müəssisələrin qıt resurslarından səmərəli istifadə olunmayacağı açıq şəkildə müşahidə olunur.



Açar sözlər. İnformasiya sistemləri İnformasiya texnologiyaları, Menecerə dəstək sistemləri, idarəetmə informasiya sistemləri, Qərarlara Dəstək Sistemləri, Ofis avtomatlaşdırma sistemləri, İnternet / Intranet / Extranet


İnformasiya texnologiyaları (İT) menecmenti informasiya texnologiyaları ilə əlaqəli resursların təşkilatın prioritetlərinə və ehtiyaclarına uyğun olaraq idarə edilməsi prosesidir. O, həm insanlar, kompüterlər və avadanlıqlar kimi maddi resursları, həm də proqram və məlumatlar kimi qeyri-maddi resursları əhatə edir. İT menecmenti kadr, büdcə, nəzarət və təşkilatla bağlı tipik idarəetmə

funksiyalarını tələb edir və həmçinin proqram təminatının inkişafı, şəbəkə planlaşdırılması və texniki dəstək kimi İT mühitinə xas funksiyaları ehtiva edir.

**İdarəetmə məlumat sistemi** - informasiyanın emal edilməsi və idarəetmə qərarlarının qəbul edilməsi üçün nəzərdə tutulmuş məlumatların, iqtisadi və riyazi metodların və modellərin, texniki, proqram təminatının, digər texnoloji vasitələrin və mütəxəssislərin məcmusudur.

İdarəetmə məlumat sistemi (İS) strateji, taktiki və əməliyyat planlaşdırmasının cari vəzifələrini, habelə şirkətin əməliyyat uçotunun vəzifələrini həll etməlidir.

İdarəetmə informasiya sistemləri imkan verir:

- • şirkətin mühasibat məlumatlarını toplamaq, saxlamaq və operativ şəkildə əldə etmək;
- • idarəetmə heyətinin təsərrüfat obyektinin cari vəziyyəti barədə məlumatlı olması hesabına əmək məhsuldarlığının artımını təmin etmək, qeyri-istehsal itkilərini azaltmaq;
- • məlumatların sürətli toplanması, ötürülməsi və emalı yolu ilə qəbul edilən qərarların əsaslılıq dərəcəsini və vaxtında olmasını artırmaq;
- • vahid informasiya fondundan idarəetmənin bütün səviyyələrinin rəhbərlərinə lazımi məlumatların vaxtında və tam təqdim edilməsi yolu ilə idarəetmənin səmərəliliyinin yüksəlməsinə nail olmaq;
- • müxtəlif idarəetmə səviyyələrində və müxtəlif struktur bölmələrində qəbul edilən qərarları əlaqələndirmək.

**Biznesdə İnformasiya Texnologiyaları Tətbiqləri**

Müəssisələrdə informasiya texnologiyalarını dəstəkləmək üçün alt sistemlər var, vəzifəsi strateji qərarlar qəbul etmək olan top menecerlərdən standart işlərin görülməsi vəzifələrini üzərinə götürmüş adi işçi. Hər bir alt sistem informasiya texnologiyalarını təşkil edir. Müəssisələrdə istifadə olunan sistemlər qeyd edilərsə, bunlar; Menecerə dəstək sistemləri, idarəetmə informasiya sistemləri, Qərarlara Dəstək Sistemləri, Ofis avtomatlaşdırma sistemləri, İnternet / Intranet / Extranet istifadələri, köməkçi sistemlər.

*Menecerə dəstək sistemləri* top menecerlər üçün hazırlanmış planların hazırlanması və modellərin hazırlanmasında bu səviyyə üçün təhlilin təmin edilməsi üçün istifadə olunan sistemlərdir. İdarəetmə dəstəyi sistemi qərara dəstək sistemlərinin çıxışına ehtiyac duyur. Bu çıxışa uyğun olaraq, qrafik interfeyslərdən istifadə etməklə bu menecerlər üçün ofis mühitində bəzi məlumatların saxlanması və süzgəcdən keçirilməsi, məlumatların təqdimatının hesablanması, ümumiləşdirilməsi, qrafik göstərilməsi/modelləşdirilməsi imkanı verir.

*İdarəetmə İnformasiya Sistemləri* , qərar qəbul etmə prosesində istifadə olunacaq məlumatların müəyyən müddət ərzində minimum xərclə ən dəqiq idarə olunmasını təmin edən sistemlərdir. Bir çox sistemlər kimi, məlumatların saxlanması emalı funksiyası, ümumiyyətlə, müəssisənin daxili fəaliyyəti ilə əlaqəli olan strateji, taktiki və əməliyyat səviyyələrinə xidmət edir, burada nəzarət və statistik məlumatların tələb olunduqda əldə edilə biləcəyi, icazələrə uyğun giriş.

*Qərarlara Dəstək Sistemləri qərar qəbul etməli* olan insanlar, idarəçilər üçün vacib bir sistemdir. Bu sistemlərin ən yaxşı xüsusiyyəti onların proqramçılara ehtiyacının olmamasıdır. O, gələcək üçün planlar qurmağa imkan verir və bütün qərarların qəbulu prosesini dəstəkləyir. İstədiyiniz kimi hazırlanmış verilənlər bazasından asılı olaraq qərar variantlarını müqayisə etməyə imkan verir.

*Ofis Avtomatlaşdırma Sistemləri* ofis iş mühitində görülən rutin işləri avtomatlaşdırmaq üçün kompüterləşdirmə yolu ilə formalaşan sistemlərdir. Onlar sifarişlərə, ehtiyatlara, əməliyyat və s. digər proseslərə nəzarət etmək və gündəlik qərarlar qəbul etmək üçün istifadə olunan sistemlərdir.Elektron medianın hazırlanmasına imkan verən fiziki çapların çıxarılması üçün istifadə olunan proqramlar, e-poçt, görüşlər və s. kimi planlaşdırma funksiyalarını təmin edən proqramlardır.

*İntranet Tətbiqləri*, xaricə/xarici girişə mane olan e-poçt, veb server kimi müəssisə daxilində istifadə edilən, internetdən istifadənin məhdudlaşdırıldığı, lakin internet rabitə protokollarına əsaslanan internetə çıxışa imkan verən xidmətlərdən istifadə, yalnız informasiya ehtiyaclarını ödəmək üçün müəyyən edilmiş qrup, qruplararası, insanlararası və təbii ki, qaynaqlararası bir sistemdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. "İdarəetmənin informasiya Texnologiyaları" -Təranə Əliyeva 5.
2. Rafiq Əliyev, Rəşad Əliyev -"Soft Computing" Bakı-2003.
3. T.Ə.Quliyev-"Menecmentin (İdarəetmənin) əsasları", Bakı-2001
4. 7."Yönetim Bilgi Sistemleri" - Doç.Dr.Abdullah Naralan.



**Aslan Elşad oğlu Dursunov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti


## TİKİNTİ TULLANTILARI ƏSASINDA TİKİNTİ MATERİALLARININ ALINMASININ İQTİSADİ SƏMƏRƏLİLİYİ


**Açar sözlər:** tikinti, tullantı, səmərə, beton, kompozisiya


Hazırda ölkəmizdə yerli təkrar emal məhsullarının həcmi günü-gündən artmaqdadır. Bu problem ən çox enerji tələb edən və enerji istehlak edən tikinti sənayesi üçün xarakterikdir. Eyni zamanda, tikinti sənayesində ən böyük enerji istehlakçısı mənbəyi tikinti materiallarının yaradılması texnologiyası ilə əlaqəli proseslərdir. Material və enerji xərclərinə qənaət etmək, sənaye və tikinti tullantılarının geniş çeşidini təmin edən resurslara qənaət edən texnologiyalardan istifadə etməklə əldə edilir. Bu baxımdan yerli xammal və tikinti tullantılarına əsaslanan əhəmiyyətli kompozit materialların hazırlanması və istehsalı vacib, müasir əhəmiyyətli bir vəzifədir. Az istifadə olunan beton qırıntıları, texniki şüşə ovuntusu tullantılarının polad-plastik boru istehsalında tətbiqi onların istifadə sahələrinin genişləndirilməsi, resursların qorunması və ətraf mühitin mühafizəsi problemini daha dolğun şəkildə həll etməyə, həmçinin tikinti materiallarının istehsal xərclərini azaltmağa imkan verir.

Yeni binaların tikintisində, yaxud yenidən qurulmasında beton və dəmir-betondan istifadənin artması çoxlu miqdarda tullantı və keyfiyyətsiz məhsulların yaranmasına səbəb olur. Bununla belə, tullantı betonun təkrar emalı məhduddur. Hal -hazırda bu tip tullantıların- beton qırıntılarının istifadəsi onların yalnız iri doldurucu olaraq istifadəsinə əsaslanır. Konkret olaraq, təkrar istifadə probleminin ən perspektivli həlli, alüminosilikat-qələvi yapışdırıcısı və kontakt-kondensləşmə bərkiməsi texnologiyaları əsasında tikinti kompozitlərinin istehsalıdır.

Beton qırıqları və şlak əhəmiyyətli ikincili xammaldır, bunun əsasında yapışdırıcılar, tikinti məhlulları və beton əldə edilə bilər. Bu tullantılardan istifadə edərək tikinti materiallarının istehsalı üçün hazırda istifadə olunan texnologiyalar yüksək enerji tələbatına malikdir. Bu problemin daha perspektiv həlli, karkas texnologiyasından istifadə edərək şüşə və şlak tərkibli kompozisiyalara əsaslanan polimer xassəli materialların istehsalıdır.

Metal-plastik borular istehsalında əhəmiyyətli bir artım yeni bir tullantı növünün ortaya çıxmasına səbəb olur. Bu baxımdan, texnologiyanı inkişaf etdirmək, kompozisiyaları optimallaşdırmaq və polad-plastik borular istehsalından yaranan tullantılara əsaslanan kompozit materialların xüsusiyyətlərini öyrənmək məqsədi daşıyan tədqiqatlar son dərəcə vacibdir.

Hazırda bir çox ölkələrdə ümumidaxili məhsulun xüsusi enerji tutumu optimal göstəriciləri orta hesabla 2-3 dəfə keçir. Bu çətinlik, ilk növbədə, tikinti materialları istehsalına xarakterikdir. Burada ən çox energetik resurs tələb edən proses tikinti materialları istehsalında maddələrin yaradılma texnologiyasıdır. Maddi və energetik sərfiyyata qənaət tikinti materiallarının hazırlanmasında istehsalat və tikinti tullantılarından istifadə olunması hesabına nail olunur. Bununla əlaqədar olaraq, yerli xammal və istehsalat tullantıları əsasında effektiv kompozisiya materiallarının işlənilməsi və alınması aktual, müasir və əhəmiyyətli məsələdir. Az işlənilmiş şüşə qırıntılarının, beton qırıntılarının, metalplastik boru istehsalı tullantılarının geniş miqyasda istifadəsi ehtiyatların qorunması və ətraf mühitin mühafizəsi məsələlərini tam həcmdə həll etməyə və tikinti materialları hazırlanmasına sərfiyyatı azaltmağa imkan verir.

Şüşə qırıntıları və şlaklar yapışdırıcı, məhlul və beton almaq üçün effektiv ikincili xammal ehtiyatı hesab olunurlar. Hazırda bu tullantılardan istifadə etməklə tikinti materialları istehsalı texnologiyası yüksək enerji qənaətinə nail olmuşdur.

Geniş çeşiddə tullantı vaxtı keçmiş tikintilərin sökülməsi nəticəsində yaranır. Hər il tonlarla beton, dəmir-beton, kərpic, daş və s. bu tipli ağır tikinti tullantıları qarışıq zibil kimi poliqonlara daşınır. Bəzi

ölkələrdə (Yaponiya, Almaniya, Danimarka, Hollandiya, Lüksemburq və s.) poliqonların və ya tullantıların basdırılması üçün praktiki olaraq heç bir ərazi yoxdur. Eyni zamanda xaricdən gətirilən beton qırıntılarından alınmış çınqıldan istifadə edən ölkələr də var. [1]

Bu prosesdə yaranan tullantıların təkrar emalı hazırda aktual məsələlərdəndir. Çünki, sökülmədən alınan tullantıların bir hissəsinin tikinti sənayesinə qaytarılması (təkrar emal) həm iqtisadiyyat, həm də ətraf mühit üçün vacibdir. Təkrar emalın əsas vəzifəsi ikincili xammal əsasında tikintinin maya dəyərini azaltmaqdır, bu həm də, tikinti materialları və tullantıların atılması ilə bağlı ekoloji problemləri həll edir .

Tullantıların təkrar emalı iqtisadiyyat üçün xüsusən, böhran dövründə çox faydalıdır.

Tikinti tullantılarının təkrar emalının üstünlükləri arasında mühüm olan məqamlar:

-  atılacaq tullantıların həcminin azaldılması;
-  təbii xammalın qorunması;
-  materialların uzaqdan daşınmasına ehtiyacın azaldılması;

xammal mənbələri, eləcə də TT-nın poliqonlara daşınmasında basdırılmanın minimuma endirilməsi;

-  İstehsalın azalması nəticəsində təbii mühitə olan yükün azaldılması.

Hazırda dünyada çoxlu miqdarda müxtəlif mənşəli ikinci dərəcəli tullantılar toplanır. Onların həcmi böyüməkdə davam edir ki, bu da ətraf mühit üçün təhlükə yaradır. Tullantıların utilizasiyasının müxtəlif yolları var, lakin onların əksəriyyəti qiymətli təbii sərvətlərin bərpa olunmaz itkilərinə səbəb olur. Aydındır ki, müəyyən növ tullantıların xammal kimi istehsal sferasına qaytarılması onlardan istifadənin ən rasional üsullarından biridir. Ona görə də bütün dünyada tullantıların emal olunaraq son məhsula çevrilməsi probleminə xüsusi diqqət yetirilir.

Beton və dəmir betonun tikintidə və binaların rekonstruksiyasında tətbiqinin həcminin artması külli miqdarda tullantı və kondisiyaya uyğun olmayan məhsulun yaranmasına səbəb olmuşdur. Betonun təkrar istifadəsi məhduddur. Hazırda bu növ tullantının utilizasiyası beton qırıntılarından iri doldurucu kimi istifadəyə gətirib çıxarır. Betondan təkrar istifadə probleminin ən perspektiv həlli onun əsasında tikinti kompozitinin alümosilikat bağlayıcı və kontakt-kondensə bərkimə texnologiyası əsasında alınmasıdır.

Şüşə qırıntıları və şlaklar bağlayıcı, məhlul və beton almaq üçün effektiv ikincili ehtiyat hesab olunurlar. Hazırda bu tullantılardan istifadə edərək tikinti materialları istehsalı texnologiyası yüksək enerji tutumuna malikdir. Bu problemin aktual həlli karkas texnologiyası əsasında şüşə qırıntıları və şlaktutumlu tərkibli polimer materialların alınmasıdır.

## ƏDƏBİYYAT SİYAHISİ

1. Олейник П.П., Олейник С.П. Источники образования строительных отходов и концепция их переработки // Промышленное и гражданское строительство. - №2. - 2005.
2. Коробко В.И., Бычкова В.А. Твердые бытовые отходы. - М.: ЮНИТИ-ДАНА, 2012.

**Sədaqət Əhmədova**
Bakı Dövlət Universiteti
E-mail: sedaqet.ahmedova2016@mail.ru

**Cavadxan Qasımov**
Naxçıvan Dövlət Universiteti,
E-mail: cavadxan.yusifoglu@mail.ru

## SƏNAYENİN DİVERSİFİKASİYASI NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA PRİORİTET OLARAQ

Məqalədə Naxçıvan Muxtar Respublikasının makroiqtisadi inkişafında sənayenin rolundan bəhs olunmuşdur. Göstərilmişdir ki, sənaye muxtar respublikada əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda ilk yerdə qərarlaşıb. Bu isə, milli iqtisadiyyat üçün etibarlılıq gətirməkdədir. Onun diversifikasiya olunmasını təmin etməkdədir. İstehsal olunan sənaye məhsulunun illlər üzrə artımı elmi cəhətdən əsaslandırılmış və təhlillələ təqdim olunmuşdur. Regonal inkişaf üzrə Dövlət

proqramlarının icra müddətində, xüsusilə də, 2004-2018-ci illər ərzində bu sahədə əldə olunan uğurlardan bəhs olunmuşdur. Təhlillər nəticəsində gəlinən qənaət şəkil və diaqramlarla verilmişdir.

**Açar sözlər:** *sənaye məhsulu, ÜDM, iqtisadi fəaliyyət, diversifikasiya, iqtisadi inkişaf və s.*

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının səmərəli icra olunması iqtisadiyyatın sahə strukturuna güclü perspektivlər gətirdi. Nəticədə, ölkədə milli iqtisadiyyatın uzunmüddətli inkişaf mərhələlərinin əsasları müəyyən olundu. Müasir iqtisadi sistem şəraitində aparıcı sahələrə çevrilən kənd təsərrüfatı və sənaye makroiqtisadi proseslərin davamlı inkişafı üçün güclü baza kimi təşkilatlandı. Həyata keçirilən məqsədyönlü tədbirlər iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasına həm stimul verdi, həm də bu istiqamətdəki prosesləri daha da sürətləndirdi. İqtisadiyyatın başlıca probleminin həllinin təşkili və idarə olunmasına, mövcud resurslardan istifadə olunması səviyyəsinə, həmçinin cəmiyyət və onun üzvlərinin tələbatlarının ödənilməsinə görə bir-birindən fərqlənən iqtisadi şərtlərin və amillərin məcmusu olan (2, s. 96) iqtisadi sistem məhz diversifikasiya proseslərinin tənzimlənməsində səmərəli zəminə çevrilmişdir.

Üç mərhələdə uğurla icra olunan Dövlət Proqramları bütün sahələr kimi sənaye siyasətinin də məhsuldarlığını təmin etmiş və nəticədə, milli iqtisadiyyatın perspektivləri üçün zəruri mərhələni başlatmış oldu. Məhz bu kimi amillərin təsiri altında 2014-cü ilin “Sənaye ili” elan olunması Azərbaycan dövlətinin bu sahədəki məqsədilərinin reallaşmasında daha da qətiyyətli olduğunu bir daha sübut edirdi.

Regional iqtisadi siyasətin uğrulu təşəkkülü Naxçıvan Muxtar Respublikasında da iqtisadi proseslərin səmərəliliyinin artırılmasında, makroiqtisadi səviyyədəki nəticələrin perspektivliyinin artırılmasında və bu kimi nəticələrin əldə olunmasında güclü vasitəyə çevrildi. Ərazisinin böyük hissəsinin aqrar bölgə olması, əhalisinin isə 70 faizdən artığının məhz kənd yerlərində yaşaması ilə yanaşı, iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin artırılmasına nail olan muxtar respublika ölkənin sənayeləşmə siyasətinə hərəkətverici təsirini göstərmiş oldu. Qeyd edək ki, hələ keçmiş İttifaq dövründə Azərbaycan Respublikasında istehsal olunan sənaye məhsulunun 2,6 faizi muxtar respublikanın payına düşürdü (1, s. 266).

Ulu öndərin əsaslarını müəyyənləşdirdiyi müasir iqtisadi siyasət bütün sahələrin əlaqəli və stimullaşdırıcı inkişafı üçün sağlam mühitin təsisatlarını bərqərar etmiş, bu isə, sənayenin məhsuldar inkişafına yol açmışdır. 1995-ci ildən qətiyyətlə davam etdirilən bu siyasət muxtar respublikada müvafiq sahə üzrə perspektivlərin artmasına səbəb olmuşdur. Yaradılan güclü baza və həyata keçirilən səmərəli tənzimləmə siyasəti 2004-cü ildən icrasına başlanan regional inkişaf proqramlarının məhsuldar nəticələri üçün əsas oldu. Təbii ki, bu, genişmiqyaslı uğurlar kimi sənaye sahəsinin üç beşillik üzrə inkişaf göstəricilərinə çevrilmiş oldu.

İcrasına ilk beşillik üçün başlanan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları Naxçıvan Muxtar Respublikasında sənayenin davamlı inkişafı üçün səmərəli mühit yaratdı. Nəticədə müvafiq sahə üzrə məhsullar özünün dinamik artımına nail olmuş və əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda ilk yerdə təşəkkül tapdı. Qeyd edək ki, sənaye bütün dövrlərdə iqtisadiyyatın aparıcı sahəsi olub, onun sahə strukturunun davamlı təşəkkülündə strateji əhəmiyyətə malikdir. Mahiyyət etibarı ilə, sənaye – işçilərinin əməyi əsas etibarı ilə təbiətdə mövcud olan və süni sürətdə təkrar olunmayan maddi nemətlərin əldə olunmasına, bu nemətlərin emalına, həmçinin kənd və meşə təsərrüfatı məhsullarının emalına yönəldilmiş maddi istehsal sahəsidir (5, s. 79).

Təhlillərimiz göstərir ki, 2004-2008-ci illərdə muxtar respublikada sənaye məhsulunun həcmi 6,4 dəfədən çox artmışdır. Bu, müvafiq olaraq:

2004-2007-ci illərdə 4,8 dəfədən çox;

2004-2006-cı ildə 2,8 dəfə;

2004-2005-ci illərdə isə 1,6 dəfədən çox təşkil etmişdir.

*Əmtəə və yaxud istehsal xidmətləri (sənaye xarakterli iş) formasında ifadə olunan, müəssisənin fəaliyyətinin birbaşa səmərəli nəticəsi olan (istehsal strukturu çərçivəsində əməyin nəticəsilə əldə olunmuş nemət) sənaye məhsulu (3, s. 78) özünün dinamikliyi ilə xarakterik olmuşdur.*

Ölkəmizdə qeyri-neft sektorunun inkişafının hədəf kimi götürülməsi Naxçıvan Muxtar Respublikasının da makroiqtisadi siyasətinin ən zəruri məqsədlərini təşkil etməklə, birinci dövlət proqramının icrası müddətində özünün səmərəliliyi ilə fərqlənmişdir. Şəklin məlumatlarından da göründüyü kimi, artıq 2007-ci ildə sənaye məhsulunun həcmi 100 milyon manatı ötüb keçmişdir.

Qeyd edək ki, sənaye məhsulunun həcminin dinamik olaraq artması iqtisadiyyatın sosialyönümlülüyünün də güclənməsinə stimul vermiş və bu, özünü hər bir nəfər düşən sənaye məhsulunun həcmində göstərməkdədir.




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 1. 2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 2. 2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**

2004-cü ilə qədər muxtar respublikada iqtisadiyyatın sənaye əhəmiyyətinin artırılması özünü ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndərin həmişəyaşar ideya və təşəbbüslərilə başadılan islahatların qətiyyətlə davam etdirilməsində ifadə etdi.

Məhz bəhs olunan Dövlət Proqramlarının icra olunmasındakı çeviklik 2004-cü ilə qədər olan sosial-iqtisadi inkişafla birbaşa bağlıdır. Təbii ki, birinci beşillikdə əldə olunan uğurlar ikinci beşillik üçün güclü baza oldu və bu daha işlək mexanizmlərin səfərbər edilməsinə imkanlar yaratdı.




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 3. 2004-2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun artım dinamikası (dəfə)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 4. 2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**

Qeyd edək ki, 2004-2008-ci illərdə muxtar respublikada hər bir nəfərə düşən sənaye məhsulunun artımı aşağıdakı şəkildə ifadə olunmuşdur:

Qətiyyətli iqtisadi idarəetmə muxtar respublikanın iqtisadi siyasətində sənaye sektorunun payını da olduq qədər artırmışdır. İqtisadiyyatın sahə strukturunun keyfiyyət çəkisinin yüksək vəziyyətini ifadə edən bu amil regional inkişaf proqramlarının məhsuldar icrasına da münbit zəminlər yaratmışdır.

İkinci Dövlət Proqramının nəticələrini təhlil edərkən aydın olur ki, istehsal olunan sənaye məhsulunun həcmində dinamik inkişaf özünü daha üstün səviyyədə göstərməkdədir.

İlk olaraq, onu qeyd edək ki, 2008-ci ildəki 100 milyon manatlıq sənaye məhsulu istehsalı artıq 2009-cu ildə 200 milyon manatı ötməklə davam etmişdir. Burada diqqəti çəkən ən mühüm inkişaf göstəricisi 2010-cu illə 2011-ci il arasında mümkün olmuşdur. Belə ki, müvafiq göstərici 2010-cu ildə 300 milyon manatı, 2011-ci ildə isə 600 milyon manatı ötmüşdür. Dinamik artım 2012-ci ildə 700 milyon manatdan, 2013-cü ildə isə 800 milyon manatdan artıq olmuşdur.




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 5. 2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 6. 2009-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun artım dinamikası (dəfə)**

2009-2013-cü ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun həcmi 4 dəfədən çox artmışdır. Bu, müvafiq olaraq:

2009-2012-ci illərdə 3,8 dəfə;

2009-2011-ci illərdə 3,2 dəfə;

2009-2010-cu illərdə isə 1,5 dəfə artmışdır.

Burada bir məqamı qeyd edək ki, ikinci Dövlət Proqramının icrası ərzində sənaye məhsulunun həcmindəki dinamik artım bir-birini əvəz edən digər illər üzrə 1-1,5 dəfə arasında dəyişirsə, bu, 2010-2011-ci illərdə 2,1 dəfə təşkil etməkdədir.

Dövlətin iqtisadiyyatın sosiallaşması sahəsindəki siyasətinin də çox mühüm inkişaf göstəricisi olan bu amillər muxtar respublikada dayanıqlı fəaliyyət mühitinin zəruri ifadəsidir. Eyni zamanda bu, iqtisadiyyatın sənaye əhəmiyyətliliyinin və sosiallaşması proseslərinin çevik təşkili fonunda mümkün olmuşdur. Təhlillərimiz də göstərir ki, 2009-2013-cü illər ərzində muxtar respublikada bu sahədə uzaqgələcək üçün yüksək mahiyyəti olacaq addımlar atılmışdır. İkinci Dövlət Proqramının icrası dövründə hər bir nəfərə düşən ÜDM-nin həcminin artım vəziyyəti aşağıdakı kimi olmuşdur.

Bunlarla yanaşı, onu da qeyd edək ki, artıq 2013-cü ildə hər bir nəfərə düşən sənaye məhsulunun həcmi 2000 manatı ötmüşdür. Təbii ki, bu göstəricilər muxtar respublikada səmərəli iqtisadi vəziyyətin güclü dayaqlarını da yaratmaqdadır. Təbii olaraq, iqtisadi vəziyyət özündə əməyin sosial və iqtisadi şəraitini, həyat səviyyəsini, iaşə şəbəkəsini, təhsil və səhiyyənin inkişafını və s. əks etdirən obyektiv şərtlərin toplusunu nəzərdə tutur (4, s. 315).

Birinci və ikinci Dövlət Proqramlarının səmərəli icrası Naxçıvan Muxtar Respublikasında makroiqtisadi siyasətin məqsədyönlülüyünü, düzgün təşkili və idarə olunmasını, əsas prioritetlərə

istiqamətləndiyini göstərməkdədir. Eyni zamanda hər iki dövrdə formalaşan sosial və iqtisadi baza qarşıdakı dövrlərin də məhsuldar təşəbbüslər üçün güclü zəmin kimi təşəkkülünü göstərmiş oldu. Təbii ki, muxtar respublika özünün təbii, iqtisadi və coğrafi potensialı ilə ölkənin qeyr-neft sektorunun inkişafı üzrə ixtisaslaşmaqla, bu sahələr üzrə dinamik artımı təmin etmişdir. Artıq 2014-2018-ci illərdə bu sahədəki qətiyyətli addımlar öz bəhrəsini verdi.




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 7. 2014-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş sənaye məhsulunun həcmi (min manat)**




**Şəkil** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 8. 2014-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən sənaye məhsulunun həcmi (manat)**

Artıq üçüncü Dövlət Proqramının icrası dövründə istehsal olunan sənaye məhsulunun həcmi 1,1 dəfə artmışdır. Artıq bu göstəricinin belə təşəkkülü onun 1 milyard manatı ötəcəyini deməyə əsas verməkdədir. Qeyd edək ki, hazırda muxtar respublikada istehsal olunan sənaye məhsulu ÜDM-nin 37 faizdən artığını təşkil etməkdədir.

Təbii ki, sosial-iqtisadi inkişafın belə dinamikada təşəkkülü muxtar respublikanın kənd, qəsəbə və şəhərlərində müvafiq təsərrüfat şaxələndirməsinin etibarlılığını da qorumaqdadır. Burada bir çox amillərlə yanaşı, məskunlaşmanın səmərəliliyini, istehsalın fasiləsizliyini, mövcud və yeni müəssisələrin fəaliyyətini, məşğulluq siyasətinin etibarlılığını, infrastruktur quruculuğunun ardıcıl xarakterə malik olmasını və s. qeyd etmək olar.

Sosial mahiyyəti yüksək olan proseslərin davamlılığı və bu sahədə dövlətin tənzimləyici tədbirlərinin səmərəliliyi muxtar respublikada qarşıya qoyulan məqsədlərin məhsuldarlıqla reallaşmasına stimul verirdi.

Göründüyü kimi, muxtar respublikanın sosial-iqtisadi həyatında davamlı xarakter alan dinamik artım hər bir nəfərə düşən ÜDM-nin həcmində də özünü göstərmiş və sosiallaşma səviyyəsinin artırılmasına stimul vermişdir. Üçüncü Dövlət Proqramının səmərəli icrası müddətində müvafiq göstərici 1,1 dəfəlik artımla müşayiət olunmuşdur. Hər üç Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının həm sosiallaşma, həm sənayeləşmə, həm də bu sahədəki proseslərin düzgün təşkili və idarə olunmasındakı tədbirlərini olduqca məhsuldar etmişdir. Əlbəttə ki, qarşıdakı dövrlərdə bunun mühüm nəticələrini görəcəyik.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında sənayenin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi bir daha göstərir ki, bu sahədə dinamik artım müəyyən olunan hədəflərə bir başa xidmət edir və ölkənin milli iqtisadiyyat üzrə perspektivlərinə hesablanıb.

## ƏDƏBİYYAT SİYAHISI

1. Allahverdiyev N.N. Azərbaycan SSR iqtisadi və sosial coğrafiyası. Bakı: Maarif, 1991, 272 s.
2. Alıyev İ. H., İbadov S. A. Azərbaycan iqtisadiyyati. Bakı: Ağrıdağ, 1999, 400 s.

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əsas iqtisadi-statistik göstəricilərə dair metodoloji izahatlar. İkinci nəşr.Bakı: Səda, 2004, 138 s.
4. Məmmədli O. Q., İsmayılov F. İ. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. Bakı: MBM, 2006, 432 s.
5. Qasımov C.Y. İqtisadi terminologiya: aqrar sektor, məşğulluq, sosial sfera. Naxçıvan: Əcəmi, 2017, 104 s.

**Elvin İsmayıl oğlu Əjdərli**
Azərbaycan Texniki Universitetinin doktorantı
Email Az.elvinazhdarli@gmail.com

## QEYRİ NEFT SEKTORUNDA, TİKİNTİDƏ DAYANIQLI İNKİŞAF VƏ MƏŞĞULLUĞUN TƏMİN EDİLMƏSİ PROBLEMİ

**Xülasə**

Xalqımızın ümummilli lideri Heydər Əliyev tarixi şəxsiyyət, müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaratmış nüfuzlu rəhbər kimi müasir tariximizdə əbədiyyətə qovuşmuşdur. Onun dəmir siyasi iradəsi nəticəsində həyata keçirilən dərin islahatlar bu gün Yeni, dayanıqlı inkişaf yolu ilə gedən Azərbaycan Respublikasının qlobal miqyasda özünə layiq yer tutmasında müstəsna rol oynamışdır. Araşdırmaya görə, qeyri-neft sektorunda istehsalın real artımı neft sektorundan fərqli olaraq, Azərbaycan iqtisadiyyatında nisbətən zəif inkişaf etmişdir. Bu, əsasən, neft sektoru və bu sektorun məhsullarına xarici tələbatın zəifliyi ilə müqayisədə sektora daha az xarici investisiyalar ilə izah olunur. Qeyri-neft sektorunun özəlliyi ondan ibarətdir ki, bu sektorda istehsalın real artım templəri xarici tələbatın neft sektoru ilə müqayisədə əhəmiyyətli dərəcədə dəyişməsindən asılı deyil, məhz buna görə də qeyri-neft sektorunun inkişafı makroiqtisadi sabitliyə nail olmaq və Azərbaycan iqtisadiyyatının rəqabətliliyini saxlamaq üçün əsas rolunu oynayacaqdır. Dünyada baş verən makroiqtisadi proseslər Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmiş, son dövrdə isə ölkədə əvvəlki illərin vəziyyətindən fərqli makroiqtisadi vəziyyət yaranmışdır. Dünya enerji bazarlarında təklifin artması və təklifin artımında və tələbatın artmasında paralelliyin olmaması əsas gəlir mənbəyi və valyuta daxilolmaları olan neftin qiymətinin hələ də aşağı səviyyədə olmasını şərtləndirir. Bu da öz növbəsində xarici valyutada daxilolmaların azalmasına səbəb olub. Bundan başqa, cari ildə idxalın həcminin əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına baxmayaraq, o, hələ də yüksək səviyyədə qalır, ölkənin tədiyə balansında isə defisit müşahidə olunur. Yaranmış böhran vəziyyətindən çıxmaq üçün hökumət qeyri neft sahəsindən xidmət sektoruna yönələn siyasət yeridir.

**Açar sözlər:** qeyri neft sektoru, məşğulluq, sərmayə, özəlləşdirmə, tikintidə dayanıqlılıq, dövlət proqramı.
**Key words:** non-oil sector, employment, investment, privatization, sustainability in construction, State program.

### Giriş

**Mövzunun aktuallığı:**Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı əsasda qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusən dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar nəticəsində mümkün olmuşdur.Müasir dövrdə ölkələrin dinamik iqtisadi inkişafındakı geniş miqyaslı iqtisadi və həmçinin sosial resurslardan səmərəli istifadə düzgün şəkildə istifadə olunmasının ən başlıca şərti düzgün iqtisadi siyasətdən və bu siyasətin həyata keçirilməsindən ibarətdir.

**İşin məqsədi:**Hazırda Azərbaycanda istehsal olunan qeyri-neft sektorunun məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, Tikinti materialları, hazır toxuculuq məhsulları və s.müxtəlif regionlara ixrac edilir.

**Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr formalaşdırılıb** və həll edilir:

-tikinti sənayesi müəssisələrinin fəaliyyətinin və iqtisadi vəziyyətinin, onların inkişaf templərinin təhlili; dinamik dəyişən tikinti bazarı şəraitində tikinti müəssisələrinin fəaliyyətinin davamlılığına təsir edən xarici və daxili amillərin müəyyən edilməsi;

-istehsal sistemlərinin dayanıqlılığının göstəricisinin müəyyən edilməsi metodlarının təhlili və onların tikinti təşkilatları üçün tətbiqi imkanlarının araşdırılması;

-tikinti müəssisələrinin strateji inkişafı nəzərə alınmaqla davamlı fəaliyyətinin təmin edilməsi üzrə konseptual yanaşmanın əsaslandırılması və işlənib hazırlanması;

-tikinti müəssisələrinin fəaliyyətinin strateji və prioritet istiqamətlərinin işlənməsinin metodoloji əsaslarının müəyyən edilməsi;

-onların fəaliyyətinin əsas aspektləri üzrə balanslaşdırılmış göstəricilər sistemi əsasında tikinti müəssisələrinin davamlılığının qiymətləndirilməsi metodlarının əsaslandırılması; innovasiya potensialının və onların rəqabət üstünlüklərinin mövcudluğunu xarakterizə edən tikinti müəssisələrinin dayanıqlılığının inteqral göstəricisinin formalaşdırılması metodunun işlənməsi; tikinti müəssisələrinin strateji inkişafının perspektiv istiqamətlərinin tədqiqi və uzunmüddətli məqsədlərə nail olmağa və onların fəaliyyətinin davamlılığının artırılmasına yönəlmiş səmərəli tədbirlərin seçilməsinin əsas prinsiplərinin işlənib hazırlanması;

-tikinti müəssisələrinin dayanıqlılığının təmin edilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması üzrə metodiki və praktiki tövsiyələrin işlənib hazırlanması.

**İşin elmi yeniliyi:** Tikinti müəssisəsinin dayanıqlılığına nail olmaq üçün optimal məqsəd və vasitələrin seçilməsini nəzərdə tutan müvafiq strategiyanın hazırlanması yolu ilə nail oluna bilər. Strateji qərarların qəbul edilməsinin özəlliyi ondan ibarətdir ki, onlar müəssisənin rəqabət mühitində optimal mövqeyinin əldə edilməsinə və qorunmasına yönəldilməlidir.

**Qeyri neft sektorunda, tikintidə dayanıqlı inkişaf və məşğulluğun təmin edilməsi problemi**

Qeyri neft sektoruna həm yerli həm də xarici investisiyalartın üdzgün şəkildə investisiya cəlb ediciliyinin artırılması və bunun üçün münbit şərait yaradılması sahənin daha prespektiv inkişafına şərait yaradlr(Allahverdiyev, K.S. Qafarov, Ə.M. Əhmədov,2006).Tikinti kompleksi müəssisələrinin bazar fəaliyyət mərhələsinin əsas çatışmazlıqlarından biri əksər müəssisələrin kifayət qədər tez və minimum zəruri kapital qoyuluşları ilə bazarın tələbatına reaksiya vermək qabiliyyətinin aşağı olması hesab edilməlidir. Tikinti müəssisələrinin əksəriyyəti bazarın rəqabət şəraitində istehlak tələbatını ödəmək iqtidarında olmadılar. İstənilən müəssisə üçün bazara uyğun olmaq uzunmüddətli perspektivdə öz məhsulları ilə rəqabət apara bilmək deməkdir.

Davamlı dəyişən bazar konyukturası sistemində bu, tikinti müəssisəsinin fasiləsiz inkişafının zəruriliyi və bazarın təklif etdiyi iqtisadi şərtlərə onun adekvat reaksiyası ilə bağlıdır. Məhz bu məqsədlə də proqramlarda ölkə iqtisadiyyatında bütün sahələrin neft sektorundan asılılığını qismən də olsa azaltmaq, həmçinin buna paralel olaraq isə ölkənin real iqtisadi potensialından maksimal səmərəli istifadəyə və qeyri-neft sektorunun inkişafını genişləndirməyə imkan verrmişdir(İ.M.Mahmudova, M.M.Mahmudov,2011).

Tikinti müəssisələrinin istehsalat və investisiya fəaliyyətinin dövlət planlaşdırılması, maliyyələşdirilməsi və nəzarəti funksiyalarının aradan qaldırılması onların bazar iqtisadiyyatı şəraitində sağ qalmaq və davamlı inkişaf strategiyası və taktikası ilə müstəqil şəkildə seçilməsinin zəruriliyini şərtləndirdi. Yəni,

1. Maddi nemətlər yaradan sahələr (sənaye, kənd təsərrüfatı, Tikinti)
2. İstehlakçıya maddi nemətlər verən sahələr (nəqliyyat və rabitə)
3. Müraciət sahəsində istehsal prosesi ilə bağlı olan sahələr (ticarət, maddi-texniki təchizat, satış)

Qeyri-istehsal sahəsinin sahələri, əsasən:

1. Xidmət sahələri (Mənzil-kommunal təsərrüfatı, Məişət xidməti, nəqliyyat və rabitə və əhaliyə xidmət göstərilməsi ilə bağlı digər sahələr)
2. Sənaye sosial xidmət (səhiyyə, bədən tərbiyəsi, sosial təminat)

Etiraf etmək lazımdır ki, bazar iqtisadiyyatına sistem balanssızlığı xasdır ki, bu da müəssisələrin fəaliyyətinin sabitliyinə əhəmiyyətli dərəcədə təsir göstərir(İ.M.Mahmudova, M.M.Mahmudov,2011). Buna görə də balanssızlığa təsadüfi hal kimi yox, iqtisadiyyatda qeyri-bərabərliyin, tikinti müəssisəsinin fəaliyyətinin müəyyən mərhələsində potensial mümkün dayanıqlı

vəziyyətdən sapmanın göstəricisi kimi çıxış edən sistem hadisəsi kimi baxmaq lazımdır.Bu məqsədlə də qeyri neft sekrouna aid olan sahələrdə, məsələn tikinti sahəsində məşğulluğu sahəsindəki problemlərin həll edilməsi üçün zəmin yaradılmış olur, bunun üçün də aşağıdakı tədbirlər planı hazırlanmışdır:

- qeyri neft sektorunun inkişafına dəstək üçün yardılmış fondlar və bu fondların iqtisadiyyata uyğun həyata keçirdikləri işlərin sekrora uyğun olaraq inkişaf etdirilməsi;
- qeyri neft sektorunun, xüsusi ilə də tikinti sektorunun iqtisadi və sosial inkişafına istiqamətlənmiş dövlət tədbirlərində maliyyəxərclərinin azaldırması;
- bu sahədə işsiz gənclərə köməküçün qeyri neft sektorununa aid bele dövlət proqramlarının işlənib hazırlanmaqla deyli həmçinin həyata keçirilməsi;
- qeyri neft sektoruna məxsus sərmayələrin düzgün olaraq tikinti sektoruna istiqamətləndirilməsi və buna dövlət nəzarəti;
- qeyri neft sektoruna aid olan iri və orta müəssisələrin, həmçinin fəaliyyət göstərməyən müəssisələrin sərmayə qoyuluşu təminatını təmin etməklə və belə müəssisələrdə dayanıqlı iş yerlərinin müasir standartlara uyğun şəraitini yaratmaq və.s ( T.Ə.Sərdarov,2009).

Digər regionlarda inkişafı və məşğulluğu təmin etmək üçün bir neçə istiqamətdən faydalanmaq olar:

- Tikinti sektoru istehsalı ilə məşğul olan müəssisələr və həmin məhsulların emalı ilə məşğul müəssisələr arasında yüksək səviyyəli əməkdaşlıq münasibətlərinin qurulması daha düzgün seçim imkanı yaradardı ki, bu da dayanıqlı işçi qüvvəsi deməkdir(Азоев Г.Л., Челенков А.П.,2000).
- Tikinti sektorunda yüksək əmək qabiliyyətinə və bu sahədə ali savada malik işçilər üçün yeni iş yerlərinin yaradılması, qeyri neft sektoruna aid müəssisələrin yaradılması məqsədəuyğun hesab olunur.

Qeyri neft sektoru ilə məşğul olan hər bir iqtisadi rayonun resurs imkanları xüsusi ilə nəzərə alınraq bu sahədə dauanıqlı inkişaf və məşğuluğun təmin edilməsi problemini həll etmiş olur.

- qyeri neft sektoruna aid tikinti sahələrində istehsal və texnoloji prosesləri müasir məhsul növlərinin yenilənməsi, günü-gündən dəyişən tələbə uyğun olaraq istehsal edilmiş məhsullara daha çox tələbin olmasına tələb yaradır (İ.M.Mahmudova, M.M.Mahmudov,2011). Hazırda tikinti sahəsində sırf dayanıqlı inkişaf fəaliyyəti tənzimləyən xüsusi dövlət strategiyası mövcud olmasa da, həmçinin, inkişaf konsepsiyası və prinsipləri əks etdirən müəssisə trategiya üzərində çalışılır. Bundan əlavə, bu sahədə şirkətlər daxilində dayanıqlı inkişaf prinsiplərinin daha geniş tətbiqinə imkan yaradan departamentlərdə gənc və savadlı kadrların cəlb olunması xüsusi ilə ilk plandadır( T.Ə.Sərdarov,2009).Təşkilati sistemlərin mahiyyətinin öyrənilməsinə və onların idarə edilməsinə müasir yanaşmalar, elmi fərziyyəni irəli sürməyə və əsaslandırmağa imkan verir ki, istənilən Sistem kimi, tikinti müəssisələri də sistemin daxili quruluşu ilə şərtlənən effektiv idarəetmə təsirlərinin seçilməsi hesabına dayanıqlılığın təmin edilməsinə yönəlmiş özünümüdafiə və inkişafa can atırlar. Ölkə prezidentləri fərman və təsdiq edilmiş inkişaf proqramlarına əsasən iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı üçün kiçik və orta sahibkarlığın dəstəklənməsinə əsas yaradılması, bu fəaliyyətlə məşğul olan şəxslərə güzəştli dövlət kreditlərinin ayrılması, kənd təsərrüfatına subsidiyaların yönəldilməsi, bütün ölkə üzrə nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulması üçün milyardlarla ABŞ dolları məbləğində vəsait xərclənmişdir(İ.M.Mahmudova, M.M.Mahmudov,2011).

Buna görə də iqtisadi vəzifə tikinti-quraşdırma işlərinin həcmini maksimuma çatdırmaq və ya xərcləri minimuma endirmək deyil, tikinti müəssisəsinin davamlı fəaliyyətinin və inkişafının bütün texniki və iqtisadi aspektlərinin optimal birləşməsindən ibarətdir( T.Ə.Sərdarov,2009).

Diaqramdan da göründüyü kimi, qeyri neft sektorunda informasiya və rabitə sahəsində məhsuldarlığın ən yüksək artımı 6,6%, 1,724 milyard manata qədər olub. Ölkənin ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi yetmiş faiz təşkil edib. Qeyri-neft ixracı rekord 24% artıb, ümumi ixrac isə 19% artıb. Ölkədə rəsmi inflyasiya 14% səviyyəsində müşahidə olunub. İl ərzində manat dollara nisbətən sabit qalsa da, avroya qarşı on iki faiz devalvasiya olunub. Nəticədə ilin nəticələrinə görə, adambaşına düşən ÜDM 7 205 manat təşkil edib. Hökumətin proqnozlarına görə, 2018-ci ildə ÜDM-in artımı 1,5% səviyyəsində gözlənilir. 2019- cu ildə – 4%, 2020-ci ildə-3,7%, 2021-ci ildə-2,9%.

Bununla yanaşı, qeyri-neft sektorunda 15,9% 2008-ci ildə; 3,7% 2009-cu ildə; 7,7% 2010-cu ildə; 9,4% 2011-ci ildə; 2012-ci ildə 9,7%; 2013-cü ildə 10%; 7% 2014-cü ildə və 2015-ci ildə 1,1% artım müşahidə olunmuşdur. Lakin 2016-cı ildə ÜDM-də qeyri-neft sektorunun payı 4,4% azalıb. Nəhayət, 2017-ci ildə 2,7% artım müşahidə olunub.

**Diaqram 1.**

**Qeyri-neft sektoruna aid müxtəlif sahələr üzrə daanıqlılıq faizi (2012-2019 cu illər üzrə müqayisə)**




**Mənbə:** müəllif tərəfindən rəsmi məlumatlar əsasında tərtib edilmişdir

Qeyri neft sektorunda məşğulluğunun yüksək səviyyədə təmin edilməsi istər inkişaf yolunu, istərsə də inkişaf yolunda olan bütün ölkələrdə vacib amillərdən asılıdır. Bu amillərə misal olaraq, ölkə iqtisadiyyatındakı dəyişikli struktur, sosial-iqtisadi proqramlar, məhsuldar qüvvələrin yenilənməsi və inkişafını misal göstərə bilərik(İ.M.Mahmudova, M.M.Mahmudov,2011). Nəzərə almaq lazımdır ki, hər bir ölkənin təbii ehtiyatları iqtisadi inkişafın əsasını təşkil etsə də, onun həlledici şərti kimi çıxış etmir.İqtisadi-ideoloji təbliğatın milli maraqlarımıza uyğun qurulması üçün iqtisadçı alimlərin, müstəqil ekspertlərin iqtisadi problemlərinin müzakirəsinə cəlb edilməsi vacibdir. T.Ə.Sərdarov,2009).

**Nəticə**

Sonda əlavə etmək lazımdır ki, qeyri neft sektorunda, xüsusi ilə də tikinti sahələrində dayanıqlı inkişaf bu sahədə hazırlanmış xüsusi dövlət proqramlarına əsaslanaraq nisbətən daha az xərclərə başa gəlir. Deməli, əsasən regionlarda tikinti sahəsində məşğulluğu təmin etmək üçün daha az sərmayə, investisiya və məsrəf tələb olunur. Beləliklə, qeyri neft sektorunda sərmayələrin yönləndirilməsi onlardakı dayanıqlı məşğulluq probleminin həll edilməsinə səbəb olur, bu isə son nəticə kimi dayanıqlı işçi qüvvəsinə olan tələbin daha yüksəlməsinə şərait yaradır.Dayanıqlı inkişaf və məşğulluq təhlil edilməsi bir daha göstərir ki, qeyri neft sektoruna aid tikinti sahəsində kəskin fərqlər olmasıdır. Bundan başqa demoqrafik amillərin də təsir etdiyi iş qüvvələri sahələr arasında o qədər də kəskin fərqlər doğurmur. Beləliklə, tikinti müəssisələrinin davamlı inkişafının ümumi konsepsiyasının onların səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla işlənib hazırlanmasına ehtiyac yaranır. Müasir dövrdə iqtisadi dayanıqlılığın təmin edilməsi müəssisənin iqtisadi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək bazar amillərinin tərəddüdlərinə qarşı durmağa imkan verən süründürməçi idarəetmənin əsas məqamına çevrilir. Müəssisənin davamlı inkişafı məzmun və funksional yönümünə görə onun daxili Özünüinkişaf strategiyasını müəyyən edən tədbirlər kompleksinin əməli surətdə həyata keçirilməsini nəzərdə tutur.

**ƏDƏBİYYAT SİYAHISI:**

1.H.B. Allahverdiyev, K.S. Qafarov, Ə.M. Əhmədov "Milli iqtisadiyyatın Dövlət tənzimlənməsi", Bakı 2006

2. R.Ş.Muradov. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. B 2006

3. T.Ə.Sərdarov. Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında əhalinin və məşğulluğun formalaşması Bakı 2009

4.İ.M.Mahmudova, M.M.Mahmudov. Regionların sosoial-iqtisadi inkisafının tənzimlənməsi. Bakı 2011.

5. Doç.Dr. Osman Nuri Aras, E.Süleymanov. Azərbaycan iqtisadiyyatı. Bakı 2010

6. A.N.Muradov. və b. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. (kolloktiv monoqrafiya) Bakı 2008

7. Существенный вклад в решение проблем, связанных с повышением устойчивости строительных предприятий, внесли следующие учёные: С.И. Абрамов, В.В. Бузырев, Н.Г. Верстина, П.Г. Грабовый, Х.М. Гумба,

8. Азоев Г.Л., Челенков А.П. Конкурентные преимущества фирмы. М.: Новости, 2000.

9. Аоки М., Ким Х.К. Корпоративное управление в переходных экономиках. Корпоративный контроль и роль банков. Обзор книги. -Лентиздат, 1998.

*İngilis dilində:*

10. Prahalad C.K. and Hamel G. The Core Competence of the Corporation. /a. Harvard Business Review, May-June, 1990.

11. Levitt T. Marketing Success through Differentaiation of Everything/a. Harvard Business Review, 1980.

İnternet resursları:

12. https://www.dissercat.com/content/problemy-obespecheniya

**Nigar Mahal qızı Ələsgərova**
İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu
nigar.kazimova@gmail.com
ORCID: 0000-0002-0506-229X

**Nərminə Allahverdi qızı Quliyeva**
İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutu
narmina.cabbarova@gmail.com
ORCİD:0000-0002-3007-4444

## HALAL SƏNAYENİN İNKİŞAF İSTİQAMƏTLƏRİ: MALAYZİYA TİMSALINDA

### Xülasə

Məqalədə əsasən halal sənaye sektorunun inkişaf etmiş istiqamətləri və ölkələrin bu sahə üzrə reytinqində ilk sırada gələn Malayziya təcrübəsi araşdırılmışdı. Qeyd edək ki, son dövrlərdə halal sənaye yüksək sürətlə inkişaf edən bir sahəyə çevrilibdir. Xüsusilə halal qida məhsulları həm müsəlman, həm də qeyri-müsəlman əhali arasında daha təhlükəsiz, gigiyenik olması ilə populyarlıq qazanıbdır. COVİD-19 pandemiyasının təsirlərinə baxmayaraq halal sənaye ümidverici nəticələr göstərməyə davam edir.

Həmçinin məqalədə Dinar Standartın "Qlobal İslam İqtisadiyyatının vəziyyəti"nə dair hesabatından, Halal Development Corporation və Statista.com-un statistik göstəricilərindən istifadə edilərək halal sənaye sektorunun inkişaf vəziyyəti haqqında məlumatlar təqdim edilmişdir.

**Açar sözlər:** halal, Malayziya, sənaye, qida məhsulları, islam

Halal sənaye -məhsul və xidmətlərin istehsalı və bölgüsünün bütün mərhələlərində şəriət prinsiplərinə əməl olunmasıdır. Yəni halal sənaye və islam maliyyəsi bir-biri ilə sıx qarşılıqlı əlaqədədirlər. İslam maliyyə sisteminin prinsiplərindən biri də vəsaitin şəriətin icazə verdiyi sahələrə yönəldilməsidir. Yəni islam maliyyəsi ilə spirtli içki istehsalı, donuzçuluq və s. bu kimi sahələrə investisiya qoymaq qadağan edilir.

Bu gün halal sənaye şəriətə uyğun olaraq qida və içkilər, əczaçılıq və kosmetika kimi məhsullar təklif edir. Həmçinin ailə-dostluq turuzmi, iştirak iqtisadiyyatı, vençur maliyyələşməsi kimi sektorların inkişafına təkan verməklə yanaşı, texnoloji yeniliklərə açıq, innovasiyalar yaratmaqla 4-cü Sənaye İnqilabını dəstəkləyir.[1]

Statista.com məlumatlarına əsasən 2018-2020-ci illərdə halal sənaye bazarının sektorlar üzrə payı aşağıdakı kimi olmuşdur:




*Mənbə: Statista.com*

Diaqramdan da göründüyü kimi islam maliyyəsindən sonra əsas yeri qida sektoru tutur. Statista.com proqnozlarına əsasən 2024-cü ildə halal sənaye sektorunda islam maliyyəsinin payının -52.16%, qida -29.60%, moda -6.04%, media və əyləncə -4.64%, əczaçılıq -2.01%, səyahət 4.12% və kosmetika -1.43% olacağı gözlənilir.

Həmçinin Dinar Standartın "Qlobal İslam İqtisadiyyatının vəziyyəti"nə dair hesabatına əsasən müsəlmanların ərzaq məhsulları üzrə xərcləri 2018-ci illə müqayisədə 3,1% artaraq 2019-cu ildə 1,17 trilyon dollar təşkil etmişdir. Pandemiyanın təsirlərini nəzərə alaraq 2019-cu ildən 2024-cü ilədək orta artım göstəricisinin 3,5% təşkil edəcəyi və müsəlmanların xərclərinin isə 1,38 trilyon dollara çatacağı gözlənilir. Həmçinin müsəlman əhalinin media və əyləncə sektoru üzrə xərclərinin 2019-cu ildə 222mlrd.dollar olduğu halda, 2024-cü ilə bu göstəricinin 270mlrd.dollara, kosmetika sektorunun müvafiq olaraq 66mlrd.dollardan-76mlrd.dollara, əczaçılıq sektorunun 94mlrd.dollardan-105mlrd.dollara, moda sektorunun 277mlrd.dollardan-311mlrd.dollara, səyahət sektorunun isə 194mlrd.dollardan – 208mlrd.dollara qədər artacağı proqnozlaşdırılır.

Dinar Standart tərəfindən "Qlobal İslam İqtisadiyyatının vəziyyəti" 2020-2021-ci illərə dair hesabatına əsasən halal qida sənayesi üzrə ölkə reytinqində Malayziya 1-ci yeri tutur.

| | | | |
|---|---|---|---|
| **1** | Malayziya | 6 | İran |
| **2** | Sinqapur | 7 | Cənubi Africa |
| **3** | BƏƏ | 8 | Pakistan |
| **4** | İndoneziya | 9 | Bruney |
| **5** | Türkiyə | 10 | Rusiya |

*Mənbə: State of the Global İslamic Economy Report 2020/21*

Malayziyada halal sənaye 1974-cü ildə yaranıb inkişaf etməyə başlamışdı. Hökumət halal sənayenin inkişafı və ölkənin qlobal halal sənaye mərkəzinə çevrilməsi üçün halal ekosistemin yaradılmasına vahid yanaşma tətbiq edir. Ölkədə vahid halal standartı tətbiq olunur ki, bunun da nəticəsində bu gün Malayziya standartı dünyada halal qida sənayesinin inkişafında əsas rol oynayır. Hazırda Malayziyada halallıq standartlarının hazırlanması, tədrisi, bu sahədə tədqiqat işlərinin aparılması, innovasiyalar, halal logistika, halal liman və islam maliyyə xidmətlərinin göstərilməsini və s. təmin etmək üçün dövlət və qeyri-dövlət təşkilatları yaradılıb fəaliyyət göstərirlər.

2003-cü ildən Malayziya hökuməti bu sahənin inkişaf etdirilməsi, ölkənin halal sənayesi üçün qlobal etalon və ticarət mərkəzi kimi nüfuzunun yaradılması məqsədilə hər il Malayziya Beynəlxalq Halal sərgisi və Halal Dünya Forumu təşkil edir. Həmçinin, İslam İnkişaf Departamenti (JAKIM) ilə sıx əməkdaşlıq

etmək üçün Halal İnkişaf Korporasiyasının (HDC) yaradılması Malayziyada halal biznesin inkişafını daha da sürətləndirmişdir. İslam İnkişaf Departamenti halallıq sertifikatlarının verilməsinə, Halal İnkişaf Korporasiyası isə Malayziyada halal sənayeyə investisiyaların təşviqi üçün lazımi infrastrukturu təmin etməsinə görə məsuliyyət daşıyırlar.

Malayziyada halal sənayenin əsas aşağıdakı sahələri inkişaf etmişdir:

- ərzaq məhsulları və içkilər
- kosmetika və şəxsi gigiyena vasitələri
- əczaçılıq
- moda
- tibbi turizm
- tibbi cihazlar
- müsəlman qonaqpərvərliyi
- logistika xidmətləri
- islam maliyyəsi
- inqrediyentlər

HDC tərəfindən Malayziya halal sənaye parklarının (HALMAS) yaradılması ölkədə halal sənayenin inkişafına kömək etmək üçün görülən tədbirlərdəndir. Hazırda Malayziyada 21 halal parklarda 295 müəssisə fəaliyyət göstərir ki, bunun da 42-i və ya 14.3%-i transmilli korporasiyalar, 253-ü və ya 85.7%-i isə yerli korporasiyalardır. Malayziya hökuməti Halal Parkların cəlbediciliyini artırmaq məqsədilə heyvandarlıq və ət istehsalı, xüsusi qida məhsulları, əczaçılıq preparatları, kosmetika və şəxsi gigiyena vasitələri və digər halal inqridentlərin istehsalı üçün vergi güzəştləri tətbiq edir.

HDC-nin məlumatlarına əsasən Malayziyada 2020-ci ildə Halal Parklara 200mln.RM həcmində və ya 1.25% artımla birbaşa daxili investisiya yönəldilibdir. Ümumilikdə 2011-ci ildən indiyə qədər Malayziya halal parkları 16.1 milyard RM həcmində investisiya cəlb ediblər ki, bunun da 59% (9.5mlrd. RM) birbaşa xarici investisiyaların, 41% -i (6.6 mlrd.RM) isə birbaşa daxili investisiyaların payına düşür.

Bundan başqa, Malayziya hökuməti halal sənayenin fasiləsiz işini təmin etmək üçün müxtəlif yardımçı xidmətlər də yaratmışdır. Dövlət tərəfindən həyata keçirilən tədbirlərlə yanaşı, Müsəlman İstehlakçılar Qrupu (MSG) kimi müxtəlif QHT-lər, həm də Malayziyanın bir sıra universitetlərində yaradılmış halal mərkəzlər də bu işdə öz dəstəklərini əsirgəmirlər.

Malayziyada halal sənayenin inkişaf etdirilməsi üçün atılan addımlardan biri də agentliklər, tədqiqat institutları və KOM-lar arasında əməkdaşlığın və tədqiqat nəticələrinin kommersiyalaşdırılmasının təşviq edilməsidir. Digər tərəfdən Malayziyanın KOM Korporasiyası KOM-ların halal istehsal proseslərini təkmilləşdirməsi, tədqiqat aparmaq üçün lazımi texnoloji imkanların əldə edilməsi, tanıtım tədbirləri, nümunə sınaqları, maşın və avadanlıqlar, halal sertifikatlaşdırma uyğunluğu ilə əlaqədar xərclər üçün KOM-lara qrantlar verir.

Malayziya həmçinin dünyanın aparıcı halal araşdırma və inkişaf mərkəzi olmağa çalışır. Bu məqsədə nail olmaq üçün Malayziya qlobal halal sənayesində yaranan yeni tədqiqat nəticələri, yeni texnologiyalar, tendensiyalar, problemlər və çağırışlar haqqında fikir mübadiləsi aparmaq üçün intellektualların beynəlxalq platforması olan Dünya Halal Tədqiqatlar (WHR) Sammitini keçirir.[2]

Hazırda dünya halal sənayenin aparıcı mərkəzi olan Malayziya hər il 10 milyard ABŞ dolları və ya 40 milyard RM həcmində halal məhsullar ixrac edir ki, bu da ölkənin ümumi ixrac həcminin 4%-ni təşkil edir. Lakin COVİD-19 pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması və s. səbəblər üzündən halal ixracatın həcmi 2019-cu ildəki 40.2 mlrd.RM-dən 10 mlrd.RM azalaraq 2020-ci ildə 30.5mlrd.RM həcmində qiymətləndirilmişdir. Həmçinin 2020-ci ildə ixracatçıların da həcmində 19% azalma müşahidə olunmuşdu. Belə ki, 2019-cu ildə bu göstərici 1876 olduğu halda 2020-ci ildə 1507 qeydə alınmışdır. Lakin çətinliklərə baxmayaraq növbəti onillikdə halal sənayenin ümumi həcminin 30,6 trilyon ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır. Ölkədə fəaliyyət göstərən 8924 halal sertifikatlı müəssisələrin cəmi 21% və ya 1876 müəssisə ixrac əməliyyatları həyata keçirir.[3]

Halal sənayenin sahə strukturuna nəzər saldıqda isə, ərzaq məhsulları və içkilər 17.40 mlrd. RM-lə halal iqtisadiyyata əsas töhfə verən sahədir. Bunun ardınca halal inqrediyentlər (8,83 mlrd. RM), kosmetika və şəxsi gigiyena vasitələri (2,67 mlrd RM), palma yağı istehsalı (0,89 mlrd RM), sənaye kimyəvi maddələr (0,47 mlrd RM) və halal əczaçılıq preparatları (0,30 mlrd. RM) kimi sahələr gəlir.[3]

**Nəticə.**

Beləliklə, statistik məlumatlardan da görünür ki, pandemiyanın təsirlərinə baxmayaraq halal sənaye sektoru inkişaf etməkdə davam edir. Xüsusilə proqnozlar göstərir ki, növbəti illərdə də artım tempi davam edəcəkdir.

Bu gün dünyada təxmini 1.9 milyard müsəlman yaşayır və proqnozlara əsasən bu göstərici getdikcə artacaqdır. Belə ki, Pew Research Center araşdırmalarına əsasən 2050-ci ildə müsəlman əhalinin sayı xristianlarla bərabərləşəcək, 2070-ci ildə isə ötüb keçəcəkdir. Bu isə o deməkdir ki, halal sənaye məhsullarına, xüsusilə halal qida məhsullarına tələbat daha da artacaqdır. Həmçinin bir çox qeyri-müsəlman əhalisinin də halal, təmiz məhsullara marağı artmaqdadır.

Fikrimizcə ölkə əhalisinin əksər hissəsinin müsəlman olduğunu və müvafiq olaraq halal məhsullara tələbatın olduğunu nəzərə alaraq Azərbaycanda da halal sənayenin daha da inkişaf etdirilməsi üçün Malayziya təcrübəsindən istifadə edilməsi məqsədəuyğun ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://www.iedcdubai.ae/key-pillars/halal-industry/
2. Syed Omar bin Syed Agil, Mohd Zahrain Bin Mohd Nor "Positioning the Halal Food Industry: The Case of Malaysia" NIDA Case Research Journal , Vol. 4 No. 2
3. https://www.hdcglobal.com/
4. Dinar Standart "State of the Global İslamic Economy Report" 2020/21
5. https://www.statista.com/
6. Wan Shahzlinda Shah Shahar, Nadzirah Mohd Fauzi, Mohd Fadhli Ab Rahman, Nur Iman Hashim and Wan Suraya Wan Hassin "Halal Economic: Challenges and Emerging Opportunities in Malaysia" Proceedings of the 7th South East Asia International Islamic Philanthropy Conference, Bangkok, Thailand, 2019

**Esmira Haciyeva**

# SƏNAYESNİN RƏQABƏTLİLİYİ İNDEKSİNDƏ RESPUBLİKAMIZIN MÖVQEYİNİN YAXŞILAŞDIRILMASI

Sənayenin rəqabətqabiliyyətli olması dövlətlərin daim diqqət mərkəzində olan strateji məsələlərdən biridir. Dövlətlərin qarşısında duran əsas vəzifələrdən biri həm daxili, həm də xarici bazarlarda rəqabətin zəif və güclü sahələrini müəyyənləsdirərək özlərinin sənaye siyasətlərinə və qanunvericiliyinə müvafiq tənzimləmələri əlavə etməkdir. Sənaye rəqabətqabiliyyətli olması davamlı iqtisadi inkişaf üçün olduqca əhəmiyyətlidir. O sahəvi ixtisaslaşmanı, ixrac potensialını formalaşdırmaqla yanaşı ümumi dövlətin gəlirlərinin artmasına, rifah və uzunmüddətli davamlı inkişafa töhfə verir.

Qeyd edim ki, BMT-nin Sənaye İnkişaf Təşkilatı 2 ildən bir olmaqla "Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti" haqqında hesabat hazırlayır. "Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti" adlı hesabatda ölkələrin emal sənayesinin güclü və zəif tərəfləri haqqında məlumat verilməklə onun rəqabətqabiliyyətlilik səviyyəsi qiymətləndirilir. Müvafiq hesabatda emal sənayesinin durumu sənayesnin rəqabətqabiliyyətliliyi indeksi vasitəsi ilə qiymətləndirilir.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi (SRİ) sənayenin istehsal və ixrac imkanlarını, onun istehsal və ixrac strukturunu, dünyaya təsir gücünü, havaya buraxdığı zərərli qazların həcmini özündə cəmləşdirən göstəricilər sistemi əsasında hesablanır. SRİ-də ölkə sənayesinin rəqabətqabiliyyətliliyi: istehsalın rəqabətqabiliyyətliliyi, texnoloji rəqabətqabiliyyətlilik və ixracın rəqabətqabiliyyətliliyi kimi üç ümumiləşdirilmiş (çoxölçülü) parametrlə ölçülür. Qeyd edildiyi kimi SRİ ölkənin emal sənayesi göstəricilərini əks etdirir və sənaye imkanlarının qiymətləndirilməsi üçün əsas ola bilər. Belə ki daha yüksək SRİ daha böyük sənaye imkanları ilə bağlıdır.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi özünə hər biri iki göstərici (sub-indeks) daxil olmaqla üç parametrlə ölçülür. Bunlar aşağıdakılardır:

- ***istehsal gücü və ixrac imkanları:*** Bu parametrə iki göstərici daxildir: emal sənayesində adambaşına düşən əlavə dəyər (***$MVA_{pc}$***), ixrac edilən emal sənayesi məhsulunun adambaşına həcmi (***$MX_{pc}$***),
- ***texnoloji dərinləşmə və təkmilləşmə:*** Bu parametrə sənayeləşmənin intensivliyi (**INDint**) və ixracın keyfiyyəti (**MXQual**) göstəriciləri daxildir.
- ***beynəlxalq təsirlər:*** Bu parametrə isə dünya emal sənayesində yaradılmış əlavə dəyərdə ölkənin payı (***ImWMA***) və dünya sənaye məhsulları ticarətində ölkənin payı (***ImWMT***) göstəricləri daxildir.

Bu üç parametr üzrə daha yüksək qiymət (0-1 arasında) alan ölkənin sənayesinin rəqabətqabiliyyətliliyi bir o qədər yüksək hesab olunur.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi bu ölçülər əsasında aşağıdakı düstürla hesablanır:

$$\textbf{CİP index} = \sqrt[6]{MVA_{pc}\ x\ MX_{pc}\ x\ \text{INDint x MXQual x}\ ImWMA\ x\ ImWM} \qquad (1)$$

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə sıralanmada respublikamız 2018-ci ildə 120 yerdə qərarlaşıb. Respublikamız 2018-ci ildə 2017-ci illə müqayisədə 1 sıra, 2012-ci illə müqayisədə 12 sıra geriləmişdir. Əlavə edim ki, sənayenin rəqabətqabiliyyətliliyi indeksində keçmiş SSRİ məkanından Tacikstan və Qırğızıstan respublikamızdan sonrakı, yerdə qalan dövlətlər isə respublikamızdan əvvəlki sıralarda qərarlaşıb. SRİ –də mövqeyimizin yaxşılaşdırılması üçün iqtisadiyyatda, o cümlədən emal sənayesində mövcud problemlər həll edilməlidir.

Hazırda Qlobal rəqabət indeksi, Qlobal innovasiya İndeksi, Biznes Mühiti Hesabatı və s. beynəlxalq reytinqlərdə investorların müdafiə səviyyəsinin çox aşağı olması, müsadirə riskinin olması, məhkəmə prosesinin keyfiyyətinin çox aşağı səviyyədə olması, qərəzli məhkəmə qərarlarının verilməsi, qeyri-müntəzəm ödənişlərin yüksək olması, yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının biznesin işinə müdaxiləsi, məhkəmə qərarlarının icra edilməməsi və s. bu kimi sıra problemlər mövcudluğu ölkənin reytinqinə mənfi təsir göstərən amil kimi qiymətləndirilir.

Qeyd etdiyimiz bu problemlər sənayenin rəqabətqabiliyyətliliyinə birbaşa təsir edir. Sənayenin rəqabətqabiliyyətliliyini yüksəltmək və sənayenin rəqabətqabiliyyətliliyi üzrə beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması üçün ilk növbədə rəqabətqabiliyyətliliyin müəyyən ediciləri sahələrində irəliləyişə nail olmaq lazımdır. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə reytinqdə respublikamızın mövqeyinin yaxşılaşdırılması üçün həm mövcud emal sənayesi müəssisələri yenidən bərpa edilməli, bazarların müasir durumu və gələcək inkişaf istiqamətləri nəzərə alınmaqla klasterlar yaradılmalı, həm də mövcud müəssisələrin potensial imkanlarından tam istifadə edilməlidir.

Texnoloji dərinləşmə və təkmilləşmə subindeksində artıma nail olmaq üçün kimya və müdafiə sənayesi məhsulları istehsalı və ixracı sahəsində müsbət nəticəyə nail olmaq lazımdır. Bu sahədə imkanlar mövcuddur, imkanlardan istifadə üçün əlverişli şərait yaradılmalıdır.

Əlavə edim ki, "Sənayenin Rəqabətqabiliyyətliliyi indeksi" üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması hazırkı şəraitdə mümkün imkanlardan ardıcıl şəkildə istifadəni tələb edir. İlk öncə əlverişli biznes şəraiti təmin edilməlidir.

Yuxarıda qeyd edilən problemlərin həlli və sənayenin rəqabətqabiliyyətliliyinin müəyyən ediciləri baxımından onun yüksəldilməsinin təmin edilməsi üçün mənim fikrimcə aşağıda qeyd edilən təkliflərin həyata keçirilməsi daha məqsədəuyğun olar:

1. İnvestisiyaların hüquqlarının müdafiəsi yüksək səviyyədə təmin edilməlidir, onların hüquqları daha ciddi qorunmalıdır. Hər şeydən öncə qanunların aliliyi təmin edilməli və məhkəmə qərarları icra edilməlidir.
2. Yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının biznesin işinə müdaxiləsinə bütünlüklə son qoyulmalıdır. Yəni yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının bu sahədəki səlahiyyətləri tam ləğv edilməlidir.
3. Regionlarda istehsal yönümlü biznes obyektlərinin vergi yükü azaldılmalıdır. Daha yaxşı olar ki regionlarda yerləşən istehsalçı sənaye müəssisələri 15-20 il müddətinə mənfəət vergisindən azad edilsin. Bu qazanılan mənfəətin təkrar investisiya kimi yönəldilməsinə imkan yaradar və regionlarda emal sənayesi müəssisələrinin yaranmasına səbəb olar.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. UNIDO 2019. "Competitive Industrial Performance Index". (CIP) https://stat.unido.org/cip/# 20.11.2020
2. İndustrial Development Report 2020
3. Transparacy international təşkilatının saytı. www.transparency.org. 23.03.2020

**Mövlud Ərəstun oğlu Hüseynov**
texnika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: movlud.huseynov@unec.edu.az
**Reyhan Ramiz qızı İbrahimli**
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
E-mail: reyhan-ibrahimli@mail.ru
**Leyla Ruslan qızı Eyyubova**
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
E-mail: leylaeyubova@gmail.com
**Natiq Elçin oğlu Məmmədov**
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
E-mail: natiq.mammadov.00@gmail.com
**Həcər Abbas qızı Cəfərova**
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
E-mail: ceferovahecer54@gmail.com
**Aysel İlham qızı Baxşəliyeva**
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
E-mail: aysel.bakhshaliyeva@gmail.com

## YERLİ ÜZÜM SORTLARINDAN HAZIRLANAN ŞƏRABLARIN FİZİKİ-KİMYƏVİ VƏ ORQANOLEPTİK XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

Araşdırmada müəlliflər tərəfindən ölkəmizin müxtəlif torpaq-iqlmi şəraitlərində becərilən yerli və introduksiya olunmuş texniki üzüm sortlarından şərab istehsalı və istehsal olunan şərabların fiziki-kimyəvi və sensor analizinin nəticələri öz əksini tapmışdır. Məhsullardan orta nümunələr götürülmüş, tərkibində olan şəkərliyi, turşuluğu və digər əhəmiyyətli göstəricilərin miqdarı müasir və klassik üsullarla təyin edilmiş, lazımi kondisiya toplandıqdan sonra yığılaraq hər bir sort üzrə müxtəlif variantlarda şərab materialları hazırlanmış və analizlər həyata keçirilmişdir. Belə ki, məqalədə Abşeron, Şamaxı, Cəlilabad və Kürdəmir torpaq-iqlim şəraitlərində becərilən yerli və introduksiya olunmuş Xindoqnı, Rkasiteli, Mədrəsə, Moldova, Həməşəra, Şirvanşahı üzüm sortlarından şərab istehsalı, şirənin, şərabın fiziki-kimyəvi analizləri, o cümlədən dequstasiya nəticələri ətraflı şəkildə verilmişdir. Şəkərlərin kütlə payı Bayanşirə üzüm sortunda 22,0 q/100 $sm^3$, Merlo sortunda 23,5 q/100 $sm^3$, Rkasiteli üzüm sortunun şirəsində 23,0 q/100 $sm^3$, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 22,7 q/100 $sm^3$, Xindoqnıda 23,0 q/100 $sm^3$, Şirvanşahıda 23,2 q/100 $sm^3$, Moldovada 21,7 q/100 $sm^3$, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 21,3 q/100 $sm^3$, Həməşərada isə 22,2 q/100 $sm^3$ olmuşdur. Turşuluq göstəriciləri isə Bayanşirə üzüm sortunda 7,2 q/$dm^3$, Merlo sortunda 5,6 q/$dm^3$, Rkasiteli üzüm sortunun şirəsində 5,3 q/$dm^3$, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 5,3 q/$dm^3$, Xindoqnıda 5,2 q/$dm^3$, Şirvanşahıda 6,1 q/$dm^3$, Moldovada 6,4 q/$dm^3$, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 6,2 q/$dm^3$, Həməşərada isə 6,3 q/$dm^3$ olmuşdur.

**Açar sözlər:** Yerli üzüm sortları, introduksiya olunmuş üzüm sortları, şirə, milli şərab, keyfiyyət, fiziki-kimyəvi və sensor analiz.

**Giriş**

Ölkəmizdə üzümçülüyün və şərabçılıq sənayesinin qarşısında duran əsas problem bölgələr üzrə üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin nəzərə alınmaması, nəticədə yerli torpaq-iqlim şəraitinə uyğun olmayan üzüm sortlarından əldə edilən emal məhsulları olduqca aşağı keyfiyyətdə olmasıdır. Odur ki, yerli və xarici üzüm sortlarının bölgələr üzrə düzgün seçilib yerləşdirilməsi, onların ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin araşdırılmasını və bu xüsusiyyətlərin bir-biri ilə olan əlaqələrinin elmi əsaslandırılması kimi mühüm əhəmiyyətli məsələlərin həllini zəruri etmişdir.

Seçilmiş üzüm sortlarının mexaniki tərkib göstəriciləri, fiziki-kimyəvi, biokimyəvi xassələri, texnoloji parametrlərinin qiymətləndirilməsi şərabçılıq sənayesində qəbul edilmiş standart metodlar üzrə yerinə yetirilmişdir.

Abşeron torpaq-iqlim şəraitində yetişdirilən Xindoqnı və Rkasiteli, Şamaxıda Mədrəsə və Moldova, Cəlilabadda Həməşəra, Kürdəmirdə yetişdirilən Şirvanşahı üzüm sortlarının məhsullarından orta nümunələr götürülərək, tərkibində şəkərliyi, turşuluğu və digər əhəmiyyətli göstəricilərin texnoloji ehtiyatı müasir cihazlar vasitəsilə təyin edilmiş, lazımi yetişkənliyə çatdıqdan sonra yığılaraq onların hər birindən nəzərdə tutulan tədqiqatlar planına uyğun olaraq müxtəlif variantlar üzrə şərab materialları hazırlanmışdır [5,8].

**Material və metodlar:** Tədqiqat üçün Xindoqnı, Rkasiteli, Mədrəsə, Moldova, Həməşəra, Şirvanşahı üzüm sortları, onlardan alınmış şirə, şərab materialları, şərablar, fiziki-kimyəvi və orqanoleptik keyfiyyət göstəriciləri [2,4,5,8] götürülmüşdür. Tədqiqatın aparılma metodologiyası qarşıya qoyulan vəzifələrə kompleks yanaşmaya əsaslanmış, ağ və qırmızı şərabların hazırlanması və keyfiyyət xüsusiyyətlərinin öyrənilməsini əhatə edir [1,6,7,9].

**Nəticələr və müzakirə.** Hazırlanan şərab nümunələrinin orqanoleptik xüsusiyyətləri [3,4,5] Dequstasiya Komissiyası tərəfindən qiymətləndirilmişdir. Şərabların qiymətləndirilməsi OIV tərəfindən təklif edilmiş 100 ball sistemi üzrə aparılmışdır.

Müxtəlif bölgələrdə yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarının məhsullarından orta nümunələr götürülərək, tərkibində şəkərliyi, turşuluğu və digər əhəmiyyətli göstəricilərin texnoloji ehtiyatı müasir cihazlar vasitəsilə təyin edilmişdir (cədvəl 2).

**Cədvəl 1.**

**Üzüm sortları üzrə şirələrin kimyəvi tərkibi**

| s/s | Üzüm | Şəkərlərin kütlə payı, q/100 $sm^3$ | Titrlənən turşuluq q/$dm^3$ | Fəal turşuluq pH | Laboratoriya şəraitində şirə çıxımı, %-lə | SHQM/turş. |
|---|---|---|---|---|---|---|
| 1 | Bayanşirə* | 22,0 | 7,2 | 3,4 | 74,2 | 28,4 |
| 2 | Mədrəsə** + Merlo** | 23,3 | 5,9 | 3,3 | 74,3 | 41,0 |
| 3 | Merlo** | 23,5 | 5,6 | 3,2 | 74,0 | 46,6 |
| 4 | Rkasiteli* | 23,0 | 5,3 | 3,2 | 73,8 | 47,5 |
| 5 | Mədrəsə* | 22,7 | 5,3 | 3,3 | 74,0 | 43,9 |
| 6 | Xindoqnı* | 23,0 | 5,2 | 3,1 | 73,2 | 45,8 |
| 7 | Şirvanşahı | 23,2 | 6,1 | 3,2 | 73,6 | 41,8 |
| 8 | Moldova* | 21,1 | 6,4 | 3,1 | 74,8 | 34,4 |
| 9 | Mədrəsə** | 21,7 | 6,2 | 3,3 | 74,6 | 35,8 |
| 10 | Həməşəra | 22,2 | 6,3 | 3,4 | 74,6 | 36,9 |

Qeyd: *Abşeron şəraitində yetişdirilmiş; **Şamaxı şəraitində yetişdirilmiş.

Şərab nümunələrinin fiziki-kimyəvi xüsusiyyətlərinin öyrənilməsi üçün klassik və müasir üsullarla analizlər həyata keçirilərək tədqiqatlar aparılmışdır (cədvəl 2).

Tədqiqat işləri zamanı müasir analiz üsullarından istifadə edilərək əvvəlcə sortlar üzrə üzümün şirəsində şəkərlilik və turşuluğun miqdarı müəyyən edilmişdir. Belə ki, şəkərlərin kütlə payı Bayanşirə üzüm sortunda 22,0 q/100 $sm^3$, Merlo sortunda 23,5 q/100 $sm^3$, Rkasiteli üzüm sortunun şirəsində 23,0 q/100 $sm^3$, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 22,7 q/100 $sm^3$, Xindoqnıda

23,0 q/100 sm$^3$, Şirvanşahıda 23,2 q/100 sm$^3$, Moldovada 21,7 q/100 sm$^3$, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 21,3 q/100 sm$^3$, Həməşərada isə 22,2 q/100 sm$^3$ olmuşdur.

Turşuluq göstəriciləri isə Bayanşirə üzüm sortunda 7,2 q/dm$^3$, Merlo sortunda 5,6 q/dm$^3$, Rkasiteli üzüm sortunun şirəsində 5,3 q/dm$^3$, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 5,3 q/dm$^3$, Xindoqnıda 5,2 q/dm$^3$, Şirvanşahıda 6,1 q/dm$^3$, Moldovada 6,4 q/dm$^3$, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 6,2 q/dm$^3$, Həməşərada isə 6,3 q/dm$^3$ olmuşdur.

**Cədvəl 2.**

**Öyrənilən üzüm sortlarından hazırlanan şərabların keyfiyyət göstəriciləri**

| № | Tərkib göstəriciləri | Bayanşirə* | Mədrəsə**+ Merlo** (1/1) | Merlo** | Rkasiteli | Mədrəsə* | Xindoqnı | Şirvanşahı | Şirvanşahı*** | Moldova | Mədrəsə** | Həməşərə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Spirt % | 13.0 | 13.5 | 14.0 | 13.6 | 13.5 | 13.6 | 13.8 | 16.7 | 12.7 | 13.0 | 13.3 |
| 2 | Şəkər q/l | 0.14 | 0.27 | 0.31 | 0.22 | 0.24 | 0.23 | 0.25 | 15.0 | 0.3 | 0.25 | 0.28 |
| 3 | Ümumi turşuluq q/l | 7.13 | 4.88 | 4.87 | 4.90 | 4.88 | 4.65 | 5.0 | 5.2 | 5.5 | 5.2 | 5.2 |
| 4 | Uçucu turşuluq q/l | 0.3 | 0.76 | 0.23 | 0.35 | 0.57 | 0.47 | 0.4 | 0.42 | 0.24 | 0.21 | 0.11 |
| 5 | $SO_2$ mq/l | - | - | 3.2 | 3.0 | 3.3 | 3.1 | 3.2 | 3.4 | 3.2 | 3.2 | 3.1 |
| 6 | Alma turşusu q/l | 0.31 | 0.06 | 0.8 | 1.0 | 0.7 | 0.6 | 0.05 | 0.4 | 0.32 | 0.23 | 0.07 |
| 7 | Süd turşusu q/l | 0.01 | 1.31 | 0.54 | 0.01 | 1.23 | 1.21 | 0.6 | 0.5 | 0.6 | 0.9 | 1.0 |
| 8 | Çaxır turşusu q/l | 3.97 | 1.86 | 0.4 | 3.3 | 1.88 | 1.78 | 1.8 | 1.2 | 1.7 | 1.35 | 2.0 |
| 9 | Limon turşusu q/l | 0.02 | 0 | 0.02 | 0.01 | 0.01 | 0.02 | 0.01 | 0.02 | 0.02 | 0.02 | 0.02 |
| 10 | pH | 3.08 | 3.18 | 3.19 | 3.4 | 3.3 | 3.4 | 3.2 | 3.4 | 3.2 | 3.4 | 3.4 |
| 11 | Piroüzüm turşusu q/l | 0.01 | 0 | 0 | 0.01 | 0 | 0 | 0 | 0.01 | 0 | 0 | 0 |
| 12 | Ca mq/l | 55 | 61 | 76 | 54 | 75 | 74 | 75 | 72 | 74 | 76 | 76 |
| 13 | Dequstasiya qiyməti, bal | 92 | 93 | 92 | 87 | 92 | 92 | 92 | 94 | 85 | 95 | 95 |

**Qeyd:** *Abşeron şəraitində yetişdirilmiş üzümdən hazırlanmış; **Şamaxı şəraitində yetişdirilmiş üzümdən hazırlanmış; ***Şirvanşahı sortundan hazırlanmış tünd şərab.

pH göstəricisi sortlar üzrə 3,1-3,4 olaraq norma daxilində tərəddüd etmişdir.

Şirə çıxımı sortlar üzrə 73,2-74,8% olmaqla qənaətbəxş səviyyədə formalaşmış və ən yüksək nəticəni Moldova sortu, ən aşağı nəticəni isə Xindoqnı sortu göstərmişdir.

SHQM/turşuluq nisbətlərinin qənaətbəxş səviyyədə olduğu müəyyən edilmişdir.

Aparılan analizlərin nəticələrinə görə etil spirtinin miqdarı Rkasiteli üzüm sortundan hazırlanan şərabda 13,0%/h; Abşeron şəraitində yetişdirilmiş Mədrəsədən alınan şərabda 13,50; Xindoqnıda 13,6; Şirvanşahıda 13,8; tünd Şirvanşahı şərabında 16,7; Moldovada 12,7; Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 13,0; Həməşərada isə 13,3 %/h olaraq müəyyən edilmişdir. Ümumi turşuluq Bayanşirə üzüm sortundan alınan şərabda aparılan analizlərin nəticələrinə görə ən yuxarı 7,13 q/dm$^3$, Xindoqnı şərabında isə ən aşağı 4,65 q/dm$^3$ olmuşdur. Uçucu turşuların miqdarı Rkasiteli üzüm sortundan hazırlanan şərabda 0,35; Moldovada 0,24 q/dm$^3$ olaraq müəyyən edilmişdir.

Kükürd 4-oksidin miqdarı müxtəlif şərablarda aparılan analizlərin nəticələrinə görə 3,0 ilə 3,4 mq/l arasında tərəddüd etdiyi müəyyən edilmişdir.

Şəkər qalığının miqdarı, ümumi ekstrakt, pH-ın miqdarı və dequstasiya nəticələri standartlara və ədəbiyyat məlumatlarına uyğun olaraq təyin edilmiş və müqayisə edilmişdir.

Səlimov (2019) və başqalarının [9] əldə etdiyi nəticələrə görə də torpaq iqlim şəraiti Mədrəsə üzüm sortundan alınan məhsulun keyfiyyətində mühüm rol oynayır. Bizim aldığımız nəticə də bununla uyğunluq təşkil edir. Şamaxı şəraitində yetişdirilən Mədrəsə üzümündən hazırlanan şərabın orqanoleptik göstəricilərinin Abşeron şəraitində yetişdirilənə nisbətən yüksək olduğu müəyyən edilmişdir. Bu da Mədrəsə üzümündən hazırlanan şərabın fenol birləşmələrinin, dad və ətir verən maddələrin və digər əhəmiyyətli komponentlərin optimal səviyyədə formalaşmasında texnoloji proseslərlə yanaşı, torpaq-iqlim şəraitinin də mühüm rol oynadığından xəbər verir.

Kürdəmir, Şamaxı, Cəlilabad və Abşeron şəraitində yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarında şəkərin kütlə payı 21,1-23,5 q/100 sm$^3$, titrlənən turşuluq 5,2-7,2 q/dm3, pH 3,1-3,4, laboratoriya şəraitində şirə çıxımı 73,2-74,8 %, yetişmə indeksinin isə 28,4-47,5 intervallarında tərəddüd etdiyi müəyyən edilmişdir ki, bu da həmin üzüm sortlarının yüksək keyfiyyətli süfrə şərablarının hazırlanması üçün

qiymətli xammal mənbəyi olduğunu göstərir. Kürdəmir bölgəsində yetişdirilən Şirvanşahı texniki üzüm sortundan hazırlanmış desert şərabda 16,7% etil spirti, 15 q/l şəkər olduğu müəyyən edilmişdir ki, bu da onun dad tam keyfiyyətlərinin yüksək olmasını təmin etmiş və dequstasiya nəticəsində 94 balla qiymətləndirilmişdir. Şirvanşahı texniki üzüm sortundan hazırlanmış qırmızı süfrə şərabında isə 13,8% etil spirti, 0,25 q/l şəkər qalığı təyin edilmişdir. Həməşəra üzüm sortundan hazırlanmış şərabda 13,3% etil spirti, 0,28 q/l şəkər qalığı, 5,2 q/l ümumi turşuluq, pH-ın miqdarı isə 3,4 olaraq müəyyən edilmiş, dequstasiya qiyməti isə 95 ball olmuşdur. Ümumiyyətlə hazırlanmış süfrə şərablarının keyfiyyətinin müasir metodlarla analizi və təhlili nəticəsində müxtəlif şərablarda etil spirti 12,7-14,0%, şəkər qalığı 0,14-0,31 q/l, ümumi turşuluq 4,65-7,13 q/l və pH-ın miqdarının 3,08-3,40 arasında olduğu təyin edilmiş, dequstasiya qiymətləri isə 87-95 ball arasında olmuşdur. Müxtəlif torpaq-iqlim şəraitlərində yetişdirilən üzüm sortlarının xarakterik ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsi, fərqli terroirə sahib olan, coğrafi göstəricilərinə görə tanınan rəqabətqabiliyyətli milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi baxımından çox əhəmiyyətlidir. Beləliklə, müəyyən edilmişdir ki, tədqiqata cəlb olunan üzüm sortlarından hazırlanan şərabların tərkibindəki komponentlər lazımı səviyyədə formalaşmışdır. Tövsiyə olunan üzüm sortlarından yüksək keyfiyyətli şərabların hazırlanma texnologiyası əsasında normativ-texniki sənədlər işlənib hazırlanmış və müvafiq təşkilatlara təqdim olunmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan ampeloqrafiyası, I cild / V.M. Quliyev, T.M. Pənahov, M.R. Qurbanov [və b.] - Bakı: «Müəllim» nəşriyyatı, - 2017. - 736 s.
2. Fətəliyev, H.K. Şərabın texnologiyası / H.K. Fətəliyev. - Bakı: Elm, - 2011. - 596 s.
3. Mikayılov, V.Ş. Qida məhsullarının dequstasiyası / V.Ş.Mikayılov; - Bakı: “Kooperasiya” nəşriyyatı, 2012. - 384 s.
4. Mikayılov, V.Ş. Qida məhsullarının ümumi texnologiyası / V.Mikayılov, E.Fərzəliyev; - Bakı: Kooperasiya, - 2018. - 832 s.
5. Pənahov, T.M, Üzümün saxlanması, qurudulması və emalı texnologiyası / T.M.Pənahov, M.Ə.Hüseynov - Bakı: “Adiloğlu” nəşriyyatı, - 2019. - 348 s.
6. Şərifov, F.H. Üzümçülük / F.H. Şərifov; - Bakı: Şərq-Qərb, 2013. - 584 s.
7. Şükürov, A.S. Müxtəlif ekoloji şəraitdəki üzüm sortlarının aqrobioloji və təsərrüfat-texnoloji xüsusiyyətlərinin öyrənilməsi. // Aqrar elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işinin avtoreferatı, Bakı: 2016, 26 s.
8. Tahirov, Ş.A., Azərbaycanın torpaq-iqlim şəraitində yetişən üzüm sortlarından süfrə şərablarının istehsal texnologiyasının əsasları, I hissə / Ş.A.Tahirov, M.Ə.Hüseynov - Bakı: “Müəllim” nəşriyyatı, - 2020. - 136 s.
9. Üzümçülükdə innovativ differensial texnologiyalar və risklər / V.S. Səlimov, M.Ə. Hüseynov, A.S. Şükürov [və b.] - Bakı: «Müəllim» nəşriyyatı, - 2019. - 357 s.



**Nihad Ramiz oğlu Hüseynov**
Sumqayıt Dövlət Universiteti İqtisadiyyat və
İdarəetmə Fakültəsinin “Dünya iqtisadiyyatı
və marketinq” kafedrasının assistenti
E-mail: nihadhuseyn@mail.ru


# POSPANDEMİYA DÖVRÜNDƏ AZƏRBAYCANDA TURİZM SƏNAYESİNİN DİVERSİFİKASİYALAŞDIRILMASI PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Postpandemiya dövründə turizm məşğulluğun artımını, mal və xidmətlərin istehsalını, inkişaf edən infrastrukturu və bütövlükdə Azərbaycanın regionlarının inkişafını stimullaşdıran mühüm amil kimi çıxış edərək milli iqtisadiyyatın mühüm tərkib hissəsinə çevrilməlidir [1, s. 289]**.** Turizm Azərbaycanın təbii, tarixi və mədəni potensialının qorunub saxlanmasına və inkişafına, beynəlxalq

və regionlararası əlaqələrin uyğunlaşdırılmasına böyük təsir göstərir. Ona görə də ölkəmizdə turizm müəssisələrinin fəaliyyəti getdikcə genişlənməkdədir. Bu məqsədlə həmin müəssisələrin göstərdikləri turizm xidmətlərinin diversifikasiyalaşdırıəlması və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi postpandemiya dövründə qarşıya qoyulan əsas tələblərdəndir.

Postpandemiya dövründə turizmin müəssisələrinin səmərəli inkişafı məsələlərinin həlli daxili turizmin inkişafına, Azərbaycan Respublikasına xarici turistlərin axınının və iqtisadiyyata valyuta daxilolmalarının əhəmiyyətli dərəcədə artmasına, eləcə də əhəmiyyətli faktorlar nəzərə alınmaqla müxtəlif səviyyələrdə vergi daxilolmalarının artmasına səbəb olacaqdır.

İqtisadi inkişafın indiki mərhələsində ölkənin dünya iqtisadi sistemində iştirakı və ixtisaslaşması həm ənənəvi sahələrdə, həm də yüksək texnologiyalar, informasiya və biliklər iqtisadiyyatı sahələrində müqayisəli üstünlüklər yaratmaqla təmin edilməlidir. Ölkəmizdə turizmin inkişafı ilə bağlı reallaşdırılan dövlət proqramlarında turizmin inkişafını təmin edə biləcək maddi-texniki bazanın yaradılmasına və bu sahədə müasir tələblərə cavab verən sistemin formalaşdırılmasına xüsusi diqqət yetirilir. Bütün bunları nəzərə alaraq, turizm sektorunun imkanlarının genişləndirilməsi, turizm obyektlərinin yenidən qurulması və dünya standartlarına uyğunlaşdırılması, bu sahənin milli və beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılmasına gətirib çıxarar [2, s. 266].

Turizm hadisə və proseslərə daha tez reaksiya verməklə iqtisadiyyatın ən həssas sahəsi kimi xarakterizə olunur. Turizm yarandığı gündən müxtəlif xəstəliklərin, epidemiyaların və digər mənfi hadisələrin ən güclü zərbələrini yaşayıb. 1997 və 2008-ci illərin qlobal maliyyə böhranı, 2003-cü ilin SARS epidemiyası və digərləri bu sektora mənfi təsirlərini göstərmişdir. Lakin bu hadisələrin heç biri 2019-cu ildə Çində yaranan və 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən elan edilən COVID-19 pandemiyası qədər dağıdıcı olmayıb. Dünya görünməmiş dağıdıcı ağır nəticələrə gətirib çıxaran, qlobal turizmin kəskin azalmasına səbəb olan COVID-19 pandemiyası ilə qarşılaşdı. Həmin ildə pandemiya turizmə və ondan asılı olan milyonlarla insana iqtisadi fəlakət gətirdi [ 3, s. 97]. Bütün dünyada COVİD-19 pandemiyasının ən çox zərər vurduğu sahələrdən biri məhz turizmdir. 2019-cu ildə turizmin qlobal ÜDM-də həcmi 8,9 trilyon dollar olub. Bu da qlobal ÜDM-in 10,3%-i deməkdir. Həmin ildə qlobal xidmətlər ixracının 29%-i turizm sektorunun payına düşüb. Bundan başqa, 2019-cu ildə dünyada turizmə 948 milyard dollar investisiya qoyulub ki, bu da ümumi investisiyaların 4,3%-ni təşkil edib. Bu sektorda dünyada 330 milyondan çox iş yeri yaradılıb ki, bu da ümumi məşğulluğun 10%-i deməkdir [4]. Lakin COVİD-19 pandemiyası bütün bu göstəricilərə mənfi təsir göstərərək onların kəskin azalmasına gətirib çıxarmışdır. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, pandemiya başladığı dövrdən etibarən ilk on ay ərzində beynəlxalq turizmin 72% azalıb ki, bu da həmin sektora 935 milyard dollar zərər verib [5, s. 57].

Postpandemiya dövründə tez bir zaman ərzində turizm müəssisələrinin gəlirliyini və bununla da rəqabətqabiliyyətliliyini bərpa etmək vacibdir. Buna nail olunması məqsədilə turizm xidmətlərinin əlçatanlığı və bu bu xidmətlərin keyfiyyətinin yüksəldilməsinə ciddi fikir verilməlidir. Pandemiyadan sonrakı dövrdə turizm üçün başqa şərtlər də olacaq. İnsanların müxtəlif psixoloji vəziyyətləri olacaq, səyahətə həvəsi azalacaq. Bu amillər nöqteyi-nəzərindən postpandemiya dövründə turizmin inkişaf tendensiyalarını və mexanizmlərini təkmilləşdirmək istiqamətindəki problemlərin daha səmərəli şəkildə həlli yollarının müəyyənləşdirilməsi vacibdir [6, s. 109].

Məlumdur ki, Azərbaycanda turizm müəssisələrinin fəaliyyəti dövlət proqramları və layihələri ilə dəstəklənir. Azərbaycanın postpandemiya dövründə məqsədlərindən biri ölkəni turizm ölkəsi etməkdir, çünki Azərbaycan turizm ehtiyatları ilə zəngindir. Buna görə də hökumət sahibkarların turizm sənayesinin bir hissəsi olmasını asanlaşdırmaq üçün proqramlar hazırlayır və reallaşdırır. Lakin bu sahədə hələ də bir çox problemlər qalmaqdadır və əsas problemlərdən biri turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və diversifikasiyalaşdırılmasıdır.

Azərbaycanın coğrafi əhəmiyyətini qəbul edərək, İpək Yolunda olması şərq-qərb, şimal-cənub iqtisadi əlaqələrinə böyük təsir göstərir. Bu, digər ölkələrlə turizm əlaqələri üçün də vacibdir. Azərbaycanın bütün bu üstünlükləri turizmin inkişafı üçün ən vacib amillərdir [7, s. 204]. Azərbaycanda turizm müəssisələrinin rəqabətqabiliyyətlilik problemlərinin həlli dövlətin düzgün qərarları ilə həll oluna bilər. Bu məsələlərlə bağlı fərman və sərəncamlar bütün problemləri tez həll edəcək və bu sektorun inkişafı sürətini artıracaq.

Beləliklə, Azərbaycanda postpandemiya dövründə turizm müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi və diversifikasiyalaşdırılması üçün aşağıdakıları etmək lazımdır:

1. Turizm xidmət sektorunda investisiya çox vacibdir. Azərbaycanın turizm potensialının tanınması, investisiyaya ehtiyacı olan turizm yerlərinin siyahıya alınması, turizm fəaliyyəti üçün yaxşı şəraitin yaradılması bu xidmət sektorunun rəqabətqabiliyyətliliyinin təmin edilməsində mühüm məsələlərdəndir.
2. Bu gün ölkə iqtisadiyyatının əsas gəliri birbaşa neft sektorundan əldə edilir. Təkcə neft deyil, qeyri-neft sektoruna da investisiyaların artması turizmin bazar payını artıracaq. Turizm müəssisələri investisiyalardan və daxili resurslardan səmərəli istifadə etməklə ölkəyə əlavə gəlir gətirə bilər. Amma, ilk növbədə, həm xarici, həm də yerli investorlarda turizmin gələcəyi ilə bağlı inam yaradılmalıdır.
3. Turizm müəssisələrinin rəqabətqabiliyyətli inkişafı üçün hüquqi bazasının təkmilləşdirilməsi vacibdir. Beynəlxalq əməkdaşlığın artırılması, turizm ölkələri ilə viza, vergi, gömrük rejimlərinin yüngülləşdirilməsi turizm sektorunun rəqabətqabiliyyətliliyinə kömək edə bilər.
4. Dünya təşkilatları ilə beynəlxalq əlaqələrin davam etdirilməsi sektorun problemlərinin həllinə və bu biznes sahəsində tərəfdaşlığın artırılmasına kömək edə bilər. Beynəlxalq təşkilatlarla əməkdaşlıq fəaliyyətinin artırılması və onların təcrübəsindən istifadə turizm müəssisələrinin səmərəliliyini və bununla da rəqabətqabiliyyətliliyini artıracaq.
5. Azərbaycanın regionlarının ölkənin inkişafında böyük rolu var. Bölgələrdə turizm potensialından düzgün istifadə onların iqtisadi artımda payını artıracaq.
6. Turizm müəssisələrinin problemlərindən biri də ixtisaslı kadr çatışmazlığıdır. Bu, ölkənin regionlarında da turizmə mənfi təsir göstərir. Xidmət sektorunun mütəxəssislərinin təlim və kursları bu problemləri həll edə və turizm sektorunun keyfiyyətini yüksəldə bilər.
7. Turizm sahəsində özünütənzimləmə effektiv rəqabət mühitinin yaradılması üçün ən mühüm vasitələrdən biri kimi görünür. Turizm bazarının özünütənzimləmə mexanizmi adekvat rəqabət mühiti yaradacaq və turizm sahəsində fəaliyyətin norma və standartlarına riayət olunmasına nəzarətin səmərəliliyini artıracaq, turizm sənayesi müəssisələrinin turizm xidmətlərinin istehlakçıları qarşısında məsuliyyətini artıracaq, səmərəsiz və vicdansız turizm məhsulları istehsalçılarının bazardan çıxmasına töhfə verəcəkdir və s.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Гусейн, А.А., Садыгова, У.Ф. Влияние коронавируса на туристический сектор Азербайджана и возможности развития альтернативного туризма в постпандемический период // Вестн. Том. гос. ун-та. Экономика. 2021. №54. – с. 287-297.
2. Köçərli, Y.Ə., Köçərli, L.R.Azərbaycanda turizmin dayanıqlı inkişafının sosial-iqtisadi rolu və qiymətləndirilməsi. “Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər” mövzusunda IV Beynəlxalq elmi-praktiki konfrans, Bakı, 3-4 may 2019, s.266-268.
3. Məmmədov, S.Y. COVİD-19 pandemiyası dövründə turizm sahəsinin inkişaf problemləri və ilkin iqtisadi nəticələri. Dayanıqlı inkişaf, cild 1, № 2, 2021, s.97-102.
4. Отраслевая справка МОТ: COVID-19 и сектор туризма. С. 1-11. https://www.ilo.org/wcmsp5/groups/public/---ed_dialogue/---sector/documents/briefingnote/wcms_749186.pdf.
5. Hacıyeva, L.A. COVID-19: Turizm sektorunda yaranmış problemlər və onların həlli yolları. Audit, 2020, 4 (30), s. 56-68.
6. Hüseynli, N.R. Pandemiya və postpandemiya dövründə regional turizmin inkişafinin aktual problemləri. Geostrategiya jurnalı, 2020 № 05/06 (59/60), s.107-111.
7. Mirzoeva, A., Mirzoeva, F. The main directions and perspectives of the development of tourism in Azerbaijan. International Journal of Humanities and Natural Sciences, 2016, vol.1, part 7, pp.201-209.

**Kamran Hidayət oğlu İsayev** i.e. n. dosent,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
E-mail: kamranisayev75@mail.ru,

**Sakit Müzəffər oğlu Səmədov,**i.ü.f.d.,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin baş müəllimi,
E-mail: sakit@destec.az

# RƏQƏMSAL İQTISADİYYATDA MÜƏSSİSƏLƏRİN UÇOT-İDARƏETMƏ FƏALİYYƏTİ

**Xülasə**

Hal-hazırda sahibkarlıq anlayışında və strukturunda dəyişikliklər, habelə, iqtisadiyyatın qloballaşması və rəqəmsal texnologiyaların aktiv tətbiqi nəticəsində yaranan iqtisadi fəaliyyət subyekti kimi müəssisə haqqında ənənəvi fikirlərə yenidən baxılır.

Qeyd etmək lazımdır ki, bir çox xarici və yerli alimlər rəqəmsal iqtisadiyyatın mühasibat sistemində müəssisənin əmlakının və öhdəliklərinin qiymətləndirilməsinin iqtisadi əsaslandırılması məsələlərinin həlli yollarını tədqiq edirlər.

Rəqəmsal iqtisadiyyatda müəssisələrin fəaliyyətinə dair məlumatların keyfiyyətinə yeni tələblər formalaşır və bu da işin etibarlı qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Bundan əlavə, İnternetdəki işlərin tənzimlənməsi ilə bağlı korporativ qanunlarda boşluqlar qalmaqdadır. Bu baxımdan, müasir müəssisələrin qiymətləndirilməsinə ənənəvi, tarixi, köklü yanaşmaların nə dərəcədə uyğun olduğunu müəyyən etmək aktual məsələdir.

***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, müəssisə, mühasibat uçotu, əmlak kompleksi, aktivlər*

XX-ci əsrin 90-cı illərinin əvvəllərindən bu günə qədər mülkiyyət komplekslərinə tez-tez süni şəkildə iflas vəziyyətinə gətirilən müəssisələrin – iflasların alqı-satqı təcrübəsi tətbiq edilmişdir. Hadisələrin inkişafının belə bir ssenarisinin nəticələrini yumşaltmaq üçün, ilk növbədə, "mülkiyyət kompleksi" anlayışının terminoloji "sərhədlərini" müəyyən etməklə, müəssisələrin real dəyərini qiymətləndirmək, sistemləşdirmək lazımdır.

Nəzərə alınmalıdır ki, müəssisənin əmlak kompleksi olaraq dəyərinin qiymətləndirilməsi qabaqcıl rəqəmsal texnologiyalara əsaslanan iqtisadiyyat da daxil olmaqla bütün sahələrdə surətli dəyişikliklər fonunda həyata keçirilir.

Rəqəmsal iqtisadiyyatın yaradılması ölkələrin rəqabət qabiliyyətini, vətəndaşların həyat keyfiyyətini artırmaq, iqtisadi artımı və milli suverenliyi təmin etmək məqsədlərini daşıyır [1]. İqtisadi qurumlar müasir iqtisadiyyatın iqtisadi artımının "mühərrikləri"dir. İqtisadi təşkilat, əmək, maddi və maliyyə mənbələrinin mütəşəkkil bir dəsti olaraq təyin edilə bilər.

Hüquqi ədəbiyyatda "müəssisə" anlayışının iqtisadi mənşəyə malik olduğu və ilk növbədə iqtisadi kateqoriya olduğu dəfələrlə vurğulanmışdır. Qeyd edək ki, həm iqtisadi, həm də hüquqi baxımdan müəssisə mülkiyyət kompleksi kimi qəbul edilir. Rəqəmsal iqtisadiyyatda dəyişkən iş şəraiti baxımından bir müəssisənin əmlak kompleksi olaraq şərhinə ənənəvi yanaşmalar vardır .

Bu təsnifatda inkişaf edən rəqəmsal iqtisadiyyatın məhsulu (təsnifatın sonundakı qrup) olan yenilikçi müəssisələr qrupu olan əmlak kompleksləri sistemləşdirilmişdir. Müasir şəraitdə rəqəmsal texnologiyaların innovasiya proseslərini sürətləndirmək üçün əhəmiyyətli potensiala malik olduğunu nəzərə alaraq şirkətin rəqəmsal potensialının inkişafına qoyulan investisiya göstəriciləri rəqabət qabiliyyətinin vacib amilidir [2].

Konseptual aparatın nəzəri əsaslandırılmasına qayıdaraq qeyd edirik ki, bir müəssisəni "fəaliyyət planına uyğun olaraq müəyyən bir iqtisadi və ticarət məqsədinə çatmaq üçün birləşdirilmiş şəxsi və əmlak aktivləri toplusu" olaraq aşağıdakı xüsusiyyətləri fərqləndirilir [3]:

1) əmlak aktivlərinin mövcudluğu, yəni ticarət müəssisəsi, bu müəssisə ilə əlaqəli əmtəələr, pul vəsaitləri və hüquqları olan müəssisənin maddi tərkibi;

2) sahibkar və heyətin tərkibi;

3) müəyyən bir plana əsasən əmlak aktivlərinin və ticarət göstəricilərinin sadələşdirməsi fəaliyyəti;

4) müəssisənin planının məlum məqsədə yönəldilməsi.

Müəssisənin "müəssisənin təşkili", "yığılmış təcrübə", "müştəri", "işgüzar nüfuz" kimi komponentləri formalaşır və birlikdə "müəssisənin qeyri-maddi mənfəətini" təşkil edir [4]. Müasir mülki qanunvericilikdə, firmanın adı müəssisənin özü tərəfindən deyil, hüquqi şəxs tərəfindən fərdiləşdirilir. Beləliklə, hüquqi şəxsin təsis sənədlərində göstərilən , təşkilati və hüquqi formasını ehtiva edən korporativ adı var. Fikrimizcə, mövcud beynəlxalq qanunvericilikdə belə bir fərq, müəssisənin hüquqların subyekti və obyekti olaraq daha aydın xüsusiləşdirilməsi üçün təmin edilmişdir. Beləliklə, digər əmlak komplekslərindən fərqli olaraq, müəssisə daim hərəkətdə olan və ümumiyyətlə xarakterik xüsusiyyətləri olan bir əmlak kompleksidir.

İqtisadi ədəbiyyatda hər hansı müəssisə, iqtisadi fəaliyyətin insan və maddi amillərinin birləşdirildiyi və əlaqələndirildiyi vahid bir iqtisadi birlik olaraq şərh edilir. Məsələn, müəssisə maddi-material və insan elementlərinin – istehsal amillərinin texnoloji birliyidir; müəssisə istehsal və texniki birliyi, təşkilati, inzibati və iqtisadi müstəqilliyi olan bir istehsal vahididir; kommersiya müəssisəsi iqtisadi mahiyyəti "sistemli iqtisadi fəaliyyətlə mənfəət əldə etməyə yönəlmiş şəxsi və əmlak fondlarının özəl birliyidir.

Terminoloji tərifinə görə müəssisə – müxtəlif istehsal amillərini – təbii ehtiyatları, əməyi və kapitalı – özündə birləşdirən əmlak kompleksidir, yəni, müəssisə cəmiyyətin ehtiyaclarını ödəmək və mənfəət əldə etmək məqsədi ilə məhsul istehsal etmək, iş görmək və ya xidmət göstərmək üçün mövcud qanunvericiliyə uyğun olaraq yaradılan (qurulan) müstəqil təsərrüfat subyektidir.

Mühasibatlıq sistemi baxımından, müəssisə əmlak kompleksi olaraq bir tərəfdən açıq aktivlərin (əsas vəsaitlərin, inventarın) və hüquqların, digər tərəfdən öhdəliklərin (sahiblərə və kreditorlara) məbləğlərinin cəmidir. Bununla birlikdə, yuxarıdakıları nəzərə alaraq bu yanaşma bir qədər qərəzlidir və müasir bir müəssisənin quruluşunun qiymətləndirmək üçün gizli, qeyri-maddi virtual aktivləri də əhatə etdiyini nəzərə almır.

İstehsal prosesində texnoloji xərclərin texnoloji transformasiya prosesində istehlakçı xüsusiyyətlərinə çevrilməsinə dinamik yanaşma, istehsalın təşkili, idarəetmə uçotu və innovasiyalar da daxil olmaqla müəssisəni vahid bir kompleks kimi araşdırmağa imkan verir. Belə araşdırmaların nəticəsində istehsal müəssisələrində istehsalın təşkilinin təkmilləşdirilməsinə sistemli yanaşmanı şərtləndirən amilləri müəyyənləşdirmək olur. Beləliklə , istehsalın təşkilini idarəetmə vasitələrinin vahid bir dəsti (kompleksi) olaraq nəzərdən keçirməyi təklif edirik :

1. Hər biri məhsulun tələb olunan istehlak xüsusiyyətlərini təmin etməli olan istehsal səviyyələrinin və texnoloji sistemlərin formalaşması. İstənilən texnoloji məhdudiyyət, son məhsulların rəqabət üstünlüyü üçün lazım olan və kifayət qədər bazar dəyərinə malik olmalıdır.

2. İdarəetmə-uçot sisteminin əsas vəzifəsi, adi və sıçrayışlı istehsal və texnoloji yeniliklərin davamlı inkişafı yolu ilə texnoloji proseslərin çevrilməsinin dinamik parametrləri arasında tələb olunan qanunu dəstəkləməkdir.

İstehlak xüsusiyyətlərini təmin edən dinamik texnoloji xərcləri və texnoloji proseslərin entalpiyası vasitəsi ilə istehsal kapitalını pul kapitalına çevirmək üçün tarazlı əməliyyat dövrü prinsipinin faydalı bir model kimi qəbul edilməsi idarəetmə-uçot (idarəetmə-mühasibat) sisteminin yaradılmasının bazası ola bilər. Model faydalı olması üçün dinamik texnoloji xərcləri və lazımi tələbləri təmin edən texnoloji proseslərin əməliyyat dövrü prinsipi entalpiyası ilə istehsal kapitalı pul kapitalına çevrilərək tarazlığa nail olunur.

İstehlakçı xüsusiyyətləri prinsipini həyata keçirən riyazi modelin məzmun-quruluşu aşağıdakılardan ibarətdir : bərabər məsafəli hiperbola; pul axını vektorları şəklində çevrilmənin tarazlıq əməliyyat dövrünün balans tənliyi; məhsuldarlıq və entropiya baxımından tarazlıq əməliyyat dövrlərini izah edən tənliklər sistemi ;

3. İnnovasiya fəaliyyəti müəssisənin istehsal etdiyi məhsulun dəyərinin bazar qiymətinə uyğun olmasını təmin etmək məqsədini daşıyır.

Xarici və yerli təcrübəni ümumiləşdirərək, müasir müəssisənin dəyərini qiymətləndirərkən aşağıdakı şərhləri tətbiq etməyi təklif edilir:

- əməliyyatla maraqlanan tərəflərin tamamilə bütün məlumatları olduqda bazar dəyəri müəyyən edilir;
- investisiya dəyəri müəyyən bir investor üçün müəssisənin dəyəri deməkdir;
- iqtisadi dəyər, davam edən işin dəyəri olaraq qəbul edilir;
- cari dəyər müəyyən bir nisbətdə diskont edilmiş pul axınının təyin edilməsini nəzərdə tutur;
- əsas dəyər, müəyyən bir investorun xüsusiyyətlərindən asılı olmayaraq, bu növ aktivlərə xasdır;
- ləğvetmə dəyəri, ləğvetmə üçün lazım olan xərclər nəzərə alınmaqla müəyyən edilən müəssisənin dəyərini qəbul edir.

Müəssisənin iqtisadi dəyəri planlaşdırılan dövrdə sərbəst pul axınının bugünkü dəyərindən və qalan dövrdə sərbəst pul axınının bugünkü dəyərindən ibarətdir. Daha əvvəl, aktuar balans tərtib etmək və bir əmlak kompleksi olaraq bir müəssisənin iqtisadi dəyərini təyin etmək üçün endirimli dəyər qiymətləndirməsindən istifadə etməyin məqsədəuyğunluğu haqqında yazılmışdır [5]. Bu nöqteyi-nəzərdən , qeyd edirik ki, əmlak kompleksinin ümumi dəyəri məhsullarının, işlərinin və (və ya) xidmətlərinin istehlakçılar : bu malların istehlakçıları, eləcə də, cəmiyyət və bütövlükdə dövlət üçün faydalı olmasıdır. Öz növbəsində, müəssisənin faydalılığı istehlakçılara verilən maddi, qeyri-maddi və sosial faydalar üçündür. Müəssisənin cəmiyyət və dövlət üçün faydası ilk növbədə onun sosial potensialının göstəriciləri ilə xarakterizə olunur, yəni məşğulluq göstəriciləri və əmək haqqının səviyyəsi, investisiyaların həcmi, vergi ödənişlərinin miqdarı, ekoloji fəaliyyətin dəyəri və s. Bir müəssisənin ümumi dəyərinin ayrılmaz bir göstəricisi, bu müəssisənin "normal əməyin təşkili və məhsul istehsalı şəraitində əldə edə biləcəyi gəlirdir : ümumi dəyəri və vergidən əvvəl və sonra mənfəət daxil olmaqla ümumi gəlirin struktur komponentləri ".

Bir tərəfdən aktivlər və hüquqlar, öhdəliklərin məbləği isə digər tərəfdən mülkiyyətin müəllif təsnifatı olan bir idarəetmə obyekti olaraq müəssisə əmlak kompleksi kateqoriyasının nəzəri əsaslandırılması əsasında. yaradılma məqsədindən asılı olaraq komplekslər təqdim olunur və istifadə olunur (istehsal və istehlakçı mülkiyyət kompleksləri), ərazi xüsusiyyətləri (xüsusi iqtisadi zonaların və digər komplekslərin əmlak kompleksləri), dövriyyə meyarları (sərbəst dövriyyədə olan əmlak kompleksləri, geri götürülmüş əmlak kompleksləri) dövriyyədən və ya məhdud dövriyyədə), bölünmə (bölünən və bölünməz əmlak kompleksləri), mülkiyyət komplekslərinə hüquq subyekti (xüsusi mülkiyyət kompleksləri, ümumi mülkiyyətdəki əmlak kompleksləri və dövlət (bələdiyyə) mülkiyyət kompleksləri), iştirak dərəcəsindən asılı olaraq rəqəmsal iqtisadiyyat ("əl ilə" və mexaniki vasitələrdən istifadə etməklə) yalnız dolayı yolla rəqəmsal iqtisadiyyatla məşğul olan, iqtisadi fəaliyyəti qismən özünü öyrənmə sistemlərindən istifadə etmədən rəqəmsal texnologiyalara əsaslanan təcrid olunmuş əmək, habelə, iqtisadi fəaliyyəti süni intellektin istifadəsi də daxil olmaqla rəqəmsal texnologiyalara əsaslanan

Hazırki dövrdə , müəssisə idarəçiliyi üçün bir əmlak kompleksi olaraq mühasibat uçotunun bir çox aspektləri və mühasibat (maliyyə) hesabat göstəricilərinin formalaşdırılması həm nəzəri, həm də praktiki baxımdan kifayət qədər inkişaf etməmiş olaraq qalır. Belə ki, mülkiyyət kompleksi olaraq müəssisənin alqı-satqısının uçotunun metodoloji aspektləri, habelə müəssisənin fəaliyyətinin bir hissəsinin dayandırılması kontekstində maliyyə hesabatlarının tərtib edilməsinin xüsusiyyətləri kifayət qədər öyrənilməmişdir. Mühasibat metodlarının mükəmməl olmaması, fəaliyyət göstərən bir müəssisənin maliyyə vəziyyətini qiymətləndirərkən, habelə bir müəssisənin bütövlükdə bir əmlak kompleksi olaraq satılması və ya alınmasına dair idarəetmə qərarları verərkən hesabat məlumatlarının keyfiyyətini azaldır. Bunlar, mülkiyyət kompleksi olaraq müəssisə ilə əlaqədar səmərəli idarəetmə qərarları qəbul etmək məqsədi ilə məlumatın keyfiyyətinin artırılması sahəsində daha çox araşdırma aparmağa imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI

1. https://www.gazeta.ru/business/2014/02/20/5917653.shtml.
2. Ronald H. Coase The Sveriges Riksbank Prize in Economic Sciences in Memory of Alfred Nobel. Nobelprize.org. http://www.nobelprize.org/nobel_prizes/economic-sciences/laureates/1991/coase-lecture.html.
3. Anderson Ch. The Long Tail: Why the Future of Business is Selling Less of More, 2006

4. Ревуцкий Л. Д. Производственная мощность, продуктивность и экономическая активность предприятия. Оценка, управленческий учет и контроль. - М.: Перспектива, 2002.
5. Горфинкель В. Я. Экономика предприятия: Учебник для вузов/ В. Я. Горфинкель, Е. М. Купряков, В. П. Прасолова и др.- М.: Банки и биржи, ЮНИТИ, 1996. – 367 с.
6. Асанов Р. К. Формирование концепции «цифровой экономики» в современной науке // Социально-экономические науки и гуманитарные исследования. – 2016. – № 15. – с. 143-148.
7. Кунцман А. А. Трансформация внутренней и внешней среды бизнеса в условиях цифровой экономики // Управление экономическими системами : электронный научный журнал. – 2016. – № 11(93). – с. 1.
8. Паньшин Б. Н. Цифровая экономика: особенности и тенденции развития // Наука иинновации. – 2016. – № 157. – с. 17-20.
9. Mesenbourg, T. L. (2001). Measuring the Digital Economy. U. S. Bureau of the Census
10. Tapscott, Don (1997). The digital economy: promise and peril in the age of networked intelligence. New York: McGraw-Hill
11. http:// www.forbes.ru/news/80865-facebook-kupil-instagram-za-1-mlrd.

**Emil Eyler oğlu Qasımzadə**
AMEA İqtisadiyyat İnstitutunun dissertantı
E-mail: e.gasimzade@yahoo.com

## AZƏRBAYCANDAKI KÖHNƏ YATAQLARDA HASİLATA XARİCİ NEFT ŞİRKƏTLƏRİNİN CƏLBİNİN ƏHƏMİYYƏTİ VƏ YOLLARI

Azərbaycanda neftin hasilatı bir əsrdən artıqdır ki, intensiv surətdə aparılır. XX əsrin əvvəllərində neft yerüstü quyulardan fontanla hasil edilə bilirdi, bu gün isə neftin hasil edilməsi üçün dənizdə minlərlə metr dərinlikdə quyuların qazılmasına ehtiyac duyulur. Keçən əsrdə qazılmış çoxsaylı quyulardan isə bu gün ənənəvi metodlarla hasilat aparıla bilmir. Bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin istismar etdiyi yataqlarda təxminən on dörd mindən artıq fəaliyyətini dayandırmış quyu mövcuddur. Bu quyulardan təqribən yarısı geoloji amillərdən, digər yarısı isə texniki amillərdən fəaliyyət göstərmir. Qeyd olunan geoloji amillərdən fəaliyyətini dayandırmış quyularda neft ehtiyatları mövcuddur və onları müasir üsulların tətbiqi ilə hasil etmək perspektivdə qarşıda duran hədəflərdəndir. Müxtəlif hesablamalara görə, quyularda neft ehtiyatının 30 faizindən 60 faizə qədəri ənənəvi üsullarla hasil edilə bilmir.

Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, qoyulmuş mövzu aktualdır və öyrənilməlidir. İlk öncə, xarici neft şirkətlərinincəlbinin potensial faydalarını tədqiq etmək məqsədəmüvafiqdir.

Xarici neft şirkətlərinin ənənəvi metodlarla hasilat aparıla bilməyən və könnəlmiş yataqlarda hasilata cəlbi ilk öncə yeni maliyyə resurslarının cəlbi baxımından əhəmiyyət daşıyır. Məlumdur ki, neft sənayesində çoxsaylı xərc elementləri arasında mövcud şirkətlərin, eləcə də SOCAR-ın hasilatı dayanmış və ya azalmış quyulara əhəmiyyətli investisiya qoymaq imkanları məhduddur. Buna görə də, xarici kapital bu sahədə həm sənayenin inkişafı, həm də ölkəyə valyuta axınlarının daxil olması üçün böyük rol oynaya bilər. Bununla əlaqədar olaraq, zaman seriyalı və panel analizi apararaq A. Elboiashi təsdiqləyir ki, xarici birbaşa investisiyalar olduqları ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir. Belə ki, həm qısamüddətli, həm də uzunmüddətli dövrdə xarici investisiyalar ümumi daxili məhsula töhfə verir. Lakin bu təsirin miqyası ölkədəki insan kapitalının inkişafı vəziyyətindən, infrastrukturdan, texnoloji fərqlərdən, maliyyə və ticarət bazarlarından asılı olur [1].

İkinci önəmli amil xarici neft şirkətlərinin özləri ilə yeni intellektual kapital və texnologiya gətirdikləridir. Əslində bu amil eyni zamanda niyə xarici və innovativ neft şirkətləri ölkədə hasilata cəlb edilməlidir sualının əsas cavabıdır. Dördüncü sənaye inqilabına aid texnologiyaların ölkəmizə gətirilməsi, eləcə də, süni intellektli idarəetmə, böyük dataların analizi, elektron monitorinq,

nanotexnologiyalar kimi müasir texnologiyalardan istifadə edilməsi sayəsində artıq ənənəvi metodlarla hasil edilə bilməyən neft ehtiyatları çıxarıla və onların realizasiyasından, eləcə də bu şirkətlərin ödədikləri vergilərdən ölkəmiz milyonlarla manat əlavə vəsait əldə edə bilər. Məsələn, B. Peng və başqalarının neft sənayesində nanotexnologiyaların tətbiqinə dair apardığı tədqiqatda nanotexnologiyalarla neft hasilatının artırılması üsullarının tətbiqi, qazma avadanlıqlarının nanomateriallarla zənginləşdirilməsi, nanokatalizatorlar, qazm prosesində nanomayelər, neft, su və qazın separasiyası üçün nanomembranlar kimi çoxsaylı tətbiq sahələri öyrənilmişdir[2]. Belə qabaqcıl texnologiyaları cəlb edən xarici neft şirkətləri hasilatın maksimallaşdırılmasına nail ola bilərlər.

Xarici neft şirkətləri eyni zamanda mütərəqqi idarəetmə metodlarının tətbiqini stimullaşdıra bilərlər. Belə ki, layihələrin idarə edilməsinin təkmilləşdirilməsi, operativ idarəetmə metodları, "agile" idarəetmə, şəbəkə idarəetməsi, adaptiv komandaların tətbiqi nəticəsində xərclərin minimallaşdırılması, mövcud resursların maksimum səmərəli istifadəsi mümkün olar. Beləliklə, qabaqcıl texnologiyalarla bərabər mütərəqqi idarəetmə metodları həm şirkətlərin daxilində səmərəliliyin artırılmasına, həm də təchizat zəncirində əməkdaşlıq edilən şirkətlərə spilover (yayılma) effekti ilə neft sənayesində layihələrin daha səmərəli idarə edilməsinə effektiv təsir göstərər.

Xarici şirkətlərin hasilata cəlbi eyni zamanda yeni iş yerlərinin yaradılması deməkdir. Hasilatın artıq aparılmadığı köhnə yataqlarda yenidən hasilata başlanması ilə çoxsaylı ixtisaslı və ixtisassız kadrların və fəhlələlərin sənayedə işlərə ilk dəfə və yenidən cəlbi ölkədə məşğulluğun artırılmasına öz töhfəsini verər.Hazırda neftçi ixtisası üzrə bilikli kadrların, sərbəstləşmiş işçilərin bu kimi layihələrə cəlbi onların və ev təsərrüfatlarının maddi rifah vəziyyətinin yaxşılaşmasına imkan yaradar. Bu barədə 1970-2011-ci illər üzrə Pakistan üzrə məlumatları tədqiq etmiş M. Habib və S. Sarvar xarici investisiyaların uzunmüddətli dövrdə işsizliyin azalmasına müsbət təsir göstərdiyini göstərmiş [3], S. Radosevic və b. Mərkəzi Avropada xarici investisiyaların məşğulluğa müsbət təsirlərini araşdırmış və bunun ümumi işsizliyin azaldılmasında bufer rolunu oynadığını qeyd etmişdir [4].

Xarici neft şirkətlərinin ölkəmizin neft sənayesində iştirakının mümkün formalarını da təhlil etmək önəm daşıyır.

Azərbaycanın neft-qaz sənayesində əksər xarici şirkətlər hasilatın pay bölgüsü sazişlərinə (HPBS) əsasən fəaliyyət göstərir. Buraya "Abşeron", "Bahar", "Qum Dəniz", "Şəfəq Asiman", "Şahdəniz", "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsi kimi yataqların işlənməsi daxildir [5]. Risk xidməti sazişi isə xüsusən hasilatın riskli hesab edildiyi yataqlar üzrə bağlanır. Bu iki hüquqi sənəd arasındakı fərq ondan ibarətdir ki, HPBS zamanı həm istismar edilən yataqlar, eləcə də onların yerləşdiyi torpaq sahələri, həm də onlardan hasil edilən faydalı qazıntılar istismarçı (payçı) şirkətə keçir. Bu zaman payçı şirkət onları istədiyi formada istismar edir və hasil edilən neft və qaz HPBS-nin şərtlərinə əsasən bölünür. Risk xidmət sazişlərində isə yataqlar payçı şirkətlərin balansına keçmir, onlar sadəcə hasilat və onun artırılması ilə məsul olurlar. Köhnə yataqlarda hasilatın artırılması isə yuxarıda qeyd edilən mütərəqqi texnologiyaların tətbiq sayəsində mümkündür. Bu sazişlər zamanı tətbiq edilən üsullar nəticəsində neftin hasilatı artırılarsa, xərclər çıxıldıqdan sonra qalan vəsait payçı və yatağın sahibi arasında bölünür, əks təqdirdə, qoyulan xərclər ödənməzsə, əldə edilən gəlir bölünmür.

Hesab edirik ki, qeyd olunanları nəzərə alaraq, köhnəlmiş yataqların risk xidmət sazişləri üzrə istismara verilməsi məqsədəuyğundur və daha çox potensial şirkətin ölkəmizin neft sənayesində fəaliyyətdə maraqlı olmasına səbəb olar. Çünki, bu onların riskinin minimallaşdırılması üçün əlverişli müqavilədir.

Qeyd etmək yerinə düşər ki, bu il Azərbaycanda köhnə yataqların (Tağıyev adına NQÇİ-nin balansında olan yataqlar) GL International LTD şirkətinə risk xidmət sazişinə (RXS) əsasən istismara verilməsi haqqında Qanun Azərbaycan Respublikası prezideni tərəfindən təsdiq olunmuşdur [6]. Bu kimi təşəbbüslərin genişləndirilməsini və belə yataqların işlənməsinin xüsusən innovativ xarici şirkətlərə RXS əsasında verilməsini məqsədəuyğun hesab edirik.

Göründüyü kimi, xarici neft şirkətlərinin ölkəmizdə hasilatın azaldığı köhnə yataqlara cəlbi yeni texnologiyaların transferi və istifadəsi, maliyyə resurslarının gətirilməsi, innovativ idarəetmə metodlarının tətbiqi, yeni iş yerlərinin yaradılması kimi önəmli faydalar yarada bilər. Buna görə də, daha müvafiq hesab edilən risk xidmət sazişlərinin bağlanması yolu ilə yeni şirkətlərin neft hasilatına cəlbi məqsədəuyğundur və ölkə maraqları ilə uyğunluq təşkil edir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Elboiashi, H. A. The effect of FDI and other foreign capital inflows on growth and investment in developing economies (Doctoral dissertation, University of Glasgow), - 2011, p. 3-8
2. Peng, B. Applications of nanotechnology in oil and gas industry: Progress and perspective. / B.Peng, J. Tang, J. Luo [et al.] // The Canadian journal of chemical engineering, -2018, - 96(1): p. 91-100.
3. Habib, M. Impact of foreign direct investment on employment level in Pakistan: A time series analysis. / M. Habib, S. Sarwar// JL Pol'y & Globalization, -2013, -10, p. 46
4. Radosevic, S. Foreign direct investment and its effect on employment in Central Europe. / S. Radosevic, U. Varblane, T. Mickiewicz // Transnational Corporations, - 2003, - 12(1), p. 58
5. https://socar.az/socar/az/company/production-sharing-agreements-offshore/absheron
6. https://president.az/az/articles/view/55799



**Aysel Akif Quliyeva**

Doktorant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

E-mail: aysel_ibayeva@mail.ru


# QEYRİ-NEFT SƏNAYESİ VƏ ONUN İNNOVASİYA ƏSASLI İNKİŞAFA KEÇİDİNİN ƏHƏMİYYƏTİ


Qlobal rəqabət mühitində qeyri-neft sənayesi ənənəvi sahələrin fonunda, müasir tələblərə cavab verəcək yenilikçi istehsala istiqamətlənmə ilə də xarakterizə olunur. Müasir dövrdə sahib olduğumuz resurslardan ən ideal şəkildə yararlanaraq qeyri-neft sənayesinin tələbatlarının ödənilməsi məsələsi daim ön planda tutulur. Sözü gedən məsələlərin həyata keçirilməsi üçün isə elmi-texniki inkişaf nəzərdə saxlanılmaqla istehsal prosesi yüksəldilməli və hərtərəfli formalaşdırılmış müasir qeyri-neft sənayesinin təşəkkülü mərhələsinə başlanmalıdır. Ölkəmizdə iqtisadiyyatın, o cümlədən sənaye sahələrinin rəqabətqabiliyyətli inkişafı başlıca olaraq iqtisadi artımın yeni keyfiyyətini təmin edən bilik iqtisadiyyatına keçid ilə əlaqədardır. Bunun əsas göstəriciləri isə inkişaf etmiş texnologiyalı sahələrin əsaslı yüksəlişi, araşdırma və tədqiqat proseslərinə investisiya yatırımlarının intensivliyi, müəssisələrin innovasiya əsaslı dinamikası və iqtisadiyyatın innovasiya gücü hesabına mənfəətə çatmasıdır. Məqalədə qeyri-neft sənayesi və onun inkişafında innovativ dəyişikliyin təsirləri və ölkəmiz üçün innovasiya əsaslı inkişafın istiqamətləri geniş tədqiq edilmişdir.



***Açar sözlər:*** *qeyri-neft sənayesi, innovasiya, inkişaf, texnologiya, mənfəət.*


Qlobal maliyyə böhranı və son üç il ərzində dünya ststistik göstəricilərində xam neftin qiymətinin azalması, bütövlükdə isə iqtisadi inkişafın sürətinə qlobal təzyiqlər dövlətlərin qeyri-neft sektoruna diqqətini artırdı. Bu dövrlər ərzində qeyri-neft sənayesində həyata keçirilən keyfiyyət dəyişiklikləri iqtisadi siyasətin mühüm tərkib hissəsinə çevrildi. İqtisadi artımın əsas göstəricisi kimi texnoloji bazanın yeni standartlara cavab vercək formaya gətirilməsi məsələsi aktuallığını saxlayaraq, mövcud ancaq yeni olmayan istehsal fondlarının və texnologiyaların həcminin dəyişən zaman tempi ilə azaldılması, həmçinin kapital axını vasitəsilə yenilərinin həcminin artması prosesinə başlandı.

Qeyri-neft sektoru özlüyündə 6 başlıca sahəyə ayrılır ki, onlardan ilk 2-si olan qeyri-neft sənayesi və kənd təsərrüfatı ticari sahələrə daxildir və xarici ticarətdə mühüm mövqe tutmaqdadır. Qeyri-neft sənayesi dedikdə böyük bir iqtisadi sənayelər sistemi toplusu başa düşülür. Neftqazçıxarma və neft emalı sektorları isə bu siyahıya daxil deyildir və istisnalıq təşkil edirlər. Sistemə daxil olan

sferalar isə, özlüyündə, istehsal vasitələri və alətləri istehsal edən və onların davamlılığını təmin edən xidmət təyinatlı fəaliyyət sahəsi, eyni zamanda əhaliyə müxtəlif sayda sosial xidmətlər göstərən sahələrə bölünürlər. Sosial xidmətlər göstərən sahələrə isə ticarət, iaşə, səhiyyə, təhsil, ödənişli xidmətlər, rabitə və s. kimi yarımsahələr daxildir.

Qeyri-neft sənayesinə daxil olan bir çox sahələr aşağıdakı cədvəldə aydın təsvir edilmişdir:

**Cədvəl.**

**Qeyri-neft sənayesinə daxil olan sahələr**

| Qeyri-neft sənayesi | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| yeyinti və yüngül sənaye | kimya və neft-kimya | metallurgiya | elektrik avadanlığı və nəqliyyat vasitələri istehsalı | rabitə və telekommunikasiya | elektro energetika | ticarət və iaşə | turizm | aqrar sahə | sosial xidmətlər |

**Mənbə:** müəllif tərəfindən hazırlanmışdır.

Neftqazçıxarma və neft emalı sektorları isə bu siyahıya daxil deyildir və istisnalıq təşkil edirlər. Onlar da, öz daxilində, istehsal vasitələri və alətləri istehsal edən sahələrə, onların fasiləsizliyini təmin edən xidmət təyinatlı fəaliyyət sferası, eləcə də əhaliyə müxtəlif növdə sosial xidmətlər -ticarət, iaşə, səhiyyə, təhsil, pullu xidmətlər, rabitə və s. göstərən sahələrə bölünürlər.

Qeyri-neft sənayesinin subyektlərinə isə iqtisadi fəaliyyət sahələrinə aid olunan müəssisələr, fərdi sahibkarlar, innovasiya, o cümlədən sosial infrastruktur birləşmələri daxildir. Sözü gedən sənayenin inkişafını dəstəkləyən əsas qüvvələrdən biri isə şübhəsiz innovasiya və onun tətbiq edilməsidir.

İlk dəfə innovasiya termini və iqtisadi proseslərə innovasiyanın elmi aspektdən yanaşması avstriyalı iqtisadçı Yozef Şumpeterin 1911-ci ildə yazdığı "İqtisadi inkişaf nəzəriyyəsi" kitabı vasitəsilə giriş verilmiş, sonrakı dövrlərdə isə bir çox iqtisadçı alimlər tərəfindən daha da geniş araşdırılmışdır. İnnovasiya terminini ixtira yaxud kəşf anlayışlarından fərqləndirmək lazımdır. Sözü gedən əsərdə göstərilmiş "Kreativ destruksiya" başqa adla desək "Şumpeter fırtınası" məhvumu iqtisadi quruluşu davamlı olaraq daxildən dəyişdirən, proseslər fonunda sistemdə mövcud olan köhnə elementi məhv edərkən yenisini formalaşdıran transformasiya prosesini nəzərdə tutur.

Daha aydın izahatlardan görünür ki, innovasiya elmi-texniki, intellektual potensialdan maksimum istifadə etməklə, səmərəliliyi və digər iqtisadi fəallığa sahibliyi əhatə edən bir qrup tədbirlər sistemidir. İnnovasiya keçmişdə yalnız texnologiya cəhətdən anlaşılırdısa, son dövrlərdə o, istehsal menecmentinin təşkilati metodlarını da özlüyündə ehtiva edir.

İnnovatiya əsaslı fəaliyyətlər istehlakçılara, bizneslərə, sənayeyə və bütövlükdə iqtisadiyyata fayda verən iqtisadi tərəqqinin əsas qüvvəsidir. İqtisadi mənada innovasiya əmtəə və xidmətləri təkmilləşdirən və ya onların istehsalını daha səmərəli edən ideya və texnologiyaların işlənib hazırlanmasını və tətbiqini özündə birləşdirən sistemdir deyə bilərik.

İnnovativ yeniliyin klassik nümunəsi kimi 18-ci əsrdə buxar mühərriki texnologiyasının inkişafı qeyd edilir. Beləki, kütləvi istehsala imkan verən buxar mühərrikləri fabriklərdə istifadə oluna bilərdi, lakin onların dəmir yollarında istifadəsi fikri nəqliyyatda inqilab etdi. Dəyişən dövrlər ərzində şirkətlər innovasiya əsaslı tədbirlərin nəticəsi olaraq öz mal və xidmətlərinin istehsal və satma üsullarını dəyişdirərək yeni bazarlara çıxmış və yeni biznes modelləri ilə fəaliyyət göstərmişlər.

İnnovasiyanın əsas üstünlüklərindən biri iqtisadi artıma töhfəsidir. Sadə dillə desək, innovasiya daha yüksək məhsuldarlığa səbəb ola bilər. Məhsuldarlıq artdıqca istehsal olunan məhsul və xidmət sayında artım müşahidə olunur – başqa sözlə, iqtisadiyyat böyüyür.

İnnovasiya və məhsuldarlığın artması istehlakçılar və biznes üçün böyük faydalar gətirir. Məhsuldarlıq artdıqca işçilərin əmək haqqı da artır. Onların ciblərində daha çox vəsait var və bu daha çox məhsul və xidmət almaq ilə nəticələnir. Eyni zamanda, müəssisələr daha çox gəlir əldə edir və bu onlara investisiya qoymağa və daha çox işçi işə götürməyə imkan verir.

İnnovasiya adətən kiçik miqyasda başlayır, məsələn, yeni texnologiya ilk dəfə işlənib hazırlandığı şirkətdə tətbiq edilir. Bununla belə, innovasiyanın əsaslı faydalarının həyata keçirilməsi üçün onun iqtisadiyyata yayılması və müxtəlif sektorlardakı və müxtəlif ölçülü şirkətlərə eyni dərəcədə fayda verməsi lazımdır. Ekspertlər bu prosesi innovasiyanın yayılması adlandırırlar.

Avropa böyük innovasiyaların vətəni olaraq tanınsa və innovativ region olaraq qalmağa davam etsə də, innovativ potensialını bütövlükdə nümayiş etdirməmişdir. Beləki, Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyəti Göstəricisində dünyanın ilk on ölkəsi arasında yalnız üç avropa ölkəsi var [1]. Bunun əsaslı səbəblərindən biri Avropa regionu ölkələri ilə digər əsas inkişaf etmiş dövlətlərin iqtisadiyyatları arasında tədqiqat və inkişafa xərclərdə fərqlər vardır.

Bundan əlavə, avropa zonasında innovasiyaların yayılması yavaş tepmlə davam etməkdədir. Son araşdırmalar göstərmişdir ki, ən məhsuldar və ən az məhsuldar firmalar arasında innovativ yeniliklərdən istifadədə əhəmiyyətli fərqlər var. Daha dəqiq desək, yaxşı fəaliyyət göstərən sərhəd firmaları yüksək innovativ olsalar da, geridə qalan firmalar innovasiyadan az istifadə etməklə daha az fayda görürlər.

İnnovasiyaları təşviq etmək üçün struktur tədbirlərə tədqiqat və təkmilləşdirmək üçün xərclərin artırılması, habelə sahibkarlara biznesə daha asan başlamaq və uğursuz bizneslərin bazardan daha tez çıxmasına şərait yaratmaq daxildir. Bundan əlavə, şirkətlər öz işçilərinə sərmayə qoyaraq və öz marketinq fəaliyyətlərini apararaq innovasiya prosesinin tıtbiqini asanlaşdıra bilərlər.

Keçid dövrünü yaşamış əksər dövlətlər kimi ölkəmiz də fundamental və sarsılmaz iqtisadiyyat yaratmaq adına özünün təbii resurslarından faydalanmış, mövcüd təbii mənbələrdən qazandığı iqtisadi mənfəət hesabına iqtisadiyyatına lazimi gəlirlər qazandıraraq onun inkişafına nail olmuş, bununla neft sektorundan asılılığı kifayət qədər azaldaraq iqtisadi fayda əldə etmişdir. Hal-hazırki hədəflərdə qeyri-neft sənayesinin iqtisadiyyatda mövcud payının artırılması məsələsi ön planda tutulur ki, əksər inkişaf etmiş ölkələrin inkişaf strategiyasında əsaslı metodlarla proses icra olunmaqdadır. Azərbaycanda qeyri-neft sektorunun əsas məhsuldar və rentabelli hissəsini kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və emal sənayesi kimi sahələr təşkil edir. Statistik məlumatlara görə, son 8 ildə respublikamızda 1 milyondan çox iş yerləri açılıb və onların əsas hissəsi məhz qeyri-neft sektoruna məxsusdur. Eyni zamanda, rəsmi statistik göstəricilər və makroiqtisadi rəqəmlərə istinadən müəyyən olunmuşdur ki, son 8 ildə ölkənin qeyri-neft sektorundakı gəliri 2.2 dəfədən artıq olmuşdur [2].

Son dövrün tələbləri xammalyönümlü iqtisadiyyatdan innovasiyayönümlü iqtisadiyyata keçidin qeyri-neft sənayesinin əsas hədəflərdən biri kimi qəbul etməkdədir. Statistik göstəricilərə əsasən, Azərbaycanda qeyri-neft sənayesi üzrə əldə olunan əlavə dəyərin yüksəliş tempi isə 2020-ci ilin müvafiq periodu ilə müqayisədə 6,8% bəndi artaraq 17,8% təşkil etmiş və qeyri neft-qaz ÜMD-də xüsusi çəkisi 9,6% təşkil etmişdir. Bütün bu göstəricilər qeyri-neft sənayesinin ölkə iqtisadiyyatı üçün vacibliyini göstərir və bu sahənin inkişafı istiqamətində əsaslı addımlar atılmasına zəmin yaradır [3].

Qeyri-neft sənayesi innovasiya əsaslı inkişafa keçidin gücü hesabına daha böyük iqtisadi fayda qazana bilər. Müasir dövrün tələbləri artıq sənayedə də daim yenilənən innovasiyanın istifadəsini labut edir.

Qeyri-neft sektorunun, habelə, qeyri-neft sənayesinin inkişafına dəstək istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 6 noyabr 2018-ci il tarixli 325 nömrəli Fərmanına əsasən, İnnovasiyalar Agentliyi yaradılmışdır. Agentlik Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində yaradılmış qurumdur və öz növbəsində yerli sahibkarlara müasir texnologiya və texnoloji avadanlığa sahib olmaqda yardım edərək, onların transferinin təşkili, innovasiyaya əsaslanan elmi tədqiqatların dəstəkləyənməsi, innovativ layihələr, o habelə startapların stimullaşdırılması, onların qrant, güzəştli kreditlər hesabına maliyyələşdirilməsi və s. kimi bir çox vacib işləri həyata keçirir. Əsas məqsədi İnformasiya Kommunikasiya Texnologiyaları sektorunun fasiləsiz inkişafı və rəqabətədavamlılığının təmin

edilməsi, son dövrün tələblərinə cavab verəcək elmi və texnoloji üstünlüyə malik innovasiya və yüksək texnologiya sahələrinin şaxələndirilməsi, elmi araşdırılmaların təşkili, məhsuldar texnologiyaların işlənilməsi üzrə yeni komplekslərin təşkili olan qurum, beynəlxalq standartlara cavab verən texnikalardan təşkil olunmuş əlverişli mühit əsasında iqtisadiyyatda yüksək texnoloji yüksəliş göstərmək kimi misiyalar həyata keçirir.

İnnovasiyalar Agentliyi "Made in Azerbaijan" brendi altında müasir və yüksək texnoloji məhsul və xidmətlər təklif edərək, yerli brendlərin ölkədən kənar arenalarda tanınmasına imkan yaradaraq, robot və bulud texnologiyaları, irihəcmli məlumatların emalı, süni intellektə əsaslanan həlləri dəstəkləməkdir [4].

Qeyri-neft səbayesi subyektlərinin innovativ texnologiyalara əsaslanaraq əsaslı təşkili və modernləşdirilməsi, daxili resurs və xammalla çalışan, rəqabətədavamlı sənaye istehsalına keçid və onun yüksəldilməsi sənaye qarşısında dayanmış vacib hədəflərdəndir. Sənayenin əsaslı inkişaf və fasiləsizliyini qoruyub saxlamaq üçün respublikada davamlı tədbirlər planı həyata keçirilməlidir. Bunun üçün ilkin diqqət qeyri-neft sənayesinin yüksək texnoloji və elm istiqamətli istehsalının inkişafına verilməli, müəssisələr texniki-texnoloji meyyarlara istinadən yenidən qurulmalı, idarəetmədə yenilikçi mtodlar ön planda tutulmalı, müqayisəli metodlarla üstünlüyə sahib və rəqabətədavamlı sənaye istehsallarının artırılması məsələləri nəzərdə tutulmalıdır. Bütün bunlarla yanaşı, investisiya və innovasiya mərhələlərinin stimullaşdırılması, enerji və xammalın istifadəsində israfa yol verməyən, ekoloji təmiz qurğu və texnikaların istifadəsinin artırılması, investisiya kanallarının əvvəlcədən təyini və məhsuldarlıq, sənayenin yüksəliş tempinin və əmək tutumluğunun artırılması üstünlüyünün müəyyənləşdirilməsi, eyni zamanda, innovasiya əsaslı tərəqqi ilə bağlı müvafiq hüquqi prosedurların yenidən işlənməsi və bu sektorda həvəsləndirici metod və üsulların təyin olunması məsələləri həllini tapmalıdır [5, s. 45].

Qeyri-neft sənayesində metallurgiya, avadanlıqların istehsalı, maşınqayırma, iaşə və s. kimi ənənəvi sahələrinin müsirləşdirilməsi və ixrac proseslərinin intensivləşdirilməsi, həmçinin, rəqabətədavamlı aktual istehsal sənaye sahərinin qurulması da dəstəklənməlidir. Ölkəmizdə innovasiya əsaslı istehsal mühiti və rəqabətqabiliyyətli qeyri-neft sənayesi daxilində bir çox sahələrə xitab etməkdədir.

Əsas məqsəd kimi iqtisadi faydanın, yüksək istehsal qabiliyyətliliyin və rəqabətqabiliyyətinin inkişafına istiqamətlənmiş innovasiya əsaslı qeyri-neft sənayesi ilə digərləri arasında əlverişli təsərrüfat münasibətlərinin yaradılmasının sürətləndirilməsini, yeni bazarların kəşfi, ixraca yönümlü məhsulların istehsalı, sözü gedən sahədə ənənəvi istiqamətlərin müasirləşdirilməsi və istehsal proseslərində beynəlxalq standartlara əməl olunması, regional inkişaf və s. kimi məsələləri özündə birləşdirir.

Bundan əlavə qeyri-neft sənayesində innovasiya əsaslı inkişafa keçidlə əlaqədar bir sıra istiqamətlərə diqqət artırılmalıdır. Bunlara innovasiya fəaliyyətini həyata keçirməyə imkan yaradacaq müvafiq qanunvericilik bazasının qurulması, innovasiya əsaslı keçidə dövlət dəstəyi, bu istiqamətdə çalışan müəssisələr üzrə stimullaşdırıcı maliyyə-kredit və tənzimləyici mexanizmlərin işlənməsi və tətbiqi və s. aid edilə bilər.

Ölkənin qeyri-neft sənayesində innovasiya fəaliyyəti regional inkişafın da sürətlənməsinə öz təsirini göstərməkdədir. Regional innovasiya fəaliyyəti əsasən müxtəlif təşkilatı-hüquqi formalı, innovasiya yönümlü müasir sənaye müəssisələrinin yaradılmasını və inkişafını, həmçinin, ölkədə Azad İqtisadi Zonaların fəaliyyətə başlamasının sürətlədirilməsini, innovasiya əsaslı inkişaf üzrə regional infrasturukturun və mühitin təkmilləşdirilməsini, bölgələrdə sənaye texniki parklarının təşkili, innovativ əsaslı və ixracyönümlü məhsul istehsalına keçidin həyata keçirilməsi və s. istiqamətləri əhatə edir.

## ƏDƏBİYYAT SİYAHISI

1. European Central Bank - Eurosystem- How does innovation lead to growth- 2017.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komittəsinin rəsmi saytı: https://www.stat.gov.az
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rısmi saytı. https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/Qeyri-neft_2021.pdf

4. İnnovasiya Agentliyinin rəsmi saytı: https://innovationagency.az/
5. İbad Abbasov, Təbriz Əliyev- “Qeyri-neft sənayesinin iqtisadiyyatı”-Dərslik, Bakı-2018

**Vəfa Xanlar qızı Rüstəmova**
AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi
Elektron ünvan: vefa.rustamova2022@mail.ru

**Rövşən İsmayıl oğlu Novruzov**
Anadolu Unversiteti, telebe
Elektron ünvan: rnovruzov.98@mail.ru

## KİMYA SƏNAYESİNDƏ ELMİ-TEXNİKİ KADRLARININ GÜCLƏNDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİNİN ƏSAS FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Azərbaycan Respublikasının iqtisadi inkişafını təmin etmək üçün kimya sənayesinin potensialından səmərəli istifadə obyektiv zərurətə çevrilmişdir. İnsan resurslarının əhəmiyyətini nəzərə alaraq kimya sənayesində elmi-texniki kadrlardan səmərəli istifadə aktual məsələdir.

Məqalədə, kimya sənayesində elmi-texniki kadrların tutduğu mövqey, bu sahədə problemlər nəzərdən keçirilir. Eyni zamanda məqalədə, dövlət tərəfindən aparılan islahatların nəticələrinin əhəmiyyəti vurğulanır.

Məqalədə kimya sənayesinin inkişafında elmi-texniki kadrların əhəmiyyəti, onların hazırlanması və səmərəliliyin artırılmasının vacibliyi vurğulanır. Məqalənin sonunda, mövcud potensialdan səmərəli istifadə etmək üçün kompleks tədbirlərin görülməsi tövsiyə olunur.

**Açar sözlər:** kimya sənayesi, elmi-texniki kadr potensialı, bazar iqtisadiyyatı, insan resurslarının idarə edilməsi.

### Giriş

Müasir dövrdə hər bir dövlətin davamlı iqtisadi inkişafını, insan kapitalı müəyyən edir. Elmi, texniki və texnoloji cəhətdən inkişaf etməyən dövlət yüksək inkişafa nail ola bilməz. Azərbaycan iqtisadiyyatının şaxələnməsi, dinamik inkişafı və zəngin təbii sərvətlərdən səmərəli istifadə edilməsi üçün elmi-texniki kadrların hazırlanması sistemi təkmilləşdirilməlidir.

Digər sənaye sahələri ilə yanaşı, kimya sənayesi də iqtisadiyyatın əsas sahələrindən biridir. Kimya sənayesinin inkişafı, elmi-texniki kadr potensialının formalaşdırılması ehtiyatları və təhsil sistemi əməyin elmi təşkilindən, elmi tədqiqat mütəxəssislərinin səmərəli istifadəsindən, elmi tədqiqatların genişləndirilməsindən, yeni texnologiyaların tətbiqindən asılıdır.

XX əsrin ortalarından başlayaraq, elm əsaslı sənaye sahələri sürətlə inkişaf etməyə və elm istehsalatda əsas rol oynamağa başladı. 40-50-ci illərdə elmi təşkilatların, tədqiqatçıların və elmi kadrların tədqiqat səviyyəsi xeyli yüksəldi və bu illərdə elm sahəsində bir çox yeni ixtisaslar yarandı.

Hazırkı dövrdə, elmə əsaslanan sənaye məhsullarının istehsalı dünya bazarında üstünlük təşkil edir. Nəzərə almaq lazımdır ki, Almaniya, Amerika Birləşmiş Ştatları, Yaponiya, Cənubi Koreya, Fransa, Böyük Britaniya və digər inkişaf etmiş ölkələr elm tutumlu məhsulların rəqabət qabiliyyətinə görə dünya bazarında mühüm yer tuturlar. Elm tutumlu məhsulların istehsalı, dünyada transmilli kooperativlərin yaranmasına səbəb oldu. Statistikaya görə, bu sahədə 6 ABŞ şirkəti üstünlük təşkil edir. Bundan əlavə, Yaponiyadan 5, Almaniyadan 3, İngiltərədən 3 (onlardan 2-si Almaniya ilə birgə yaradılmış), Fransa və İsveçrədən böyük şirkətlər şəklində fəaliyyət göstərir.

Transmilli şirkətlərin sürətli böyüməsi, inkişaf etmiş ölkələrdə kimya sənayesinin yeni istehsal sahələrinin və növlərinin yaradılmasına, kimya elminin və sənayenin sürətli inkişafına təkan verdi. Bu proses, dünyada elmi-texniki tərəqqinin inkişafına və kimya elm tutumlu məhsulların istehsalının sürətləndirilməsinə təsir göstərdi.

ABŞ-ın kimya sənayesi istehsal həcminə və məhsul çeşidinə görə dünyada birinci yerdədir və bu sahə bir çox mərkəzlərlə təmsil olunur. Bu baxımdan ABŞ və Yaponiyada kimya və metallurgiya, fizika və məişət, sənaye elektronikası istehsalında avtomatlaşdırmanın üstünlük təşkil etməsi sahələrində daha çox elmi tədqiqatlar aparılır.

ABŞ-ın kimya sənayesi Meksikanın şimal və körfəz sahillərində inkişaf etmişdir. Texas və Luiziana ştatlarının neft və qaz hövzələrində 200-dən çox şirkət fəaliyyət göstərir. ABŞ-ın “neft-kimya paytaxtı” olan Hyuston burada yerləşir. Kimya sənayesi güclü insan resursları ilə ABŞ iqtisadiyyatı üçün mühüm işlər görür.

Kvant mexanikasının kimyaya təsiri böyük narahatlıq doğurur.Chester Dewey və Linus Carl Pauling amerikalı kvant kimyaçılarıdır və kimya sahəsindəki nailiyyətləri ilə dünyada tanınırlar. Bu tədqiqatçılar kvant mexanikasının kimya, biokimya və molekulyar biologiyaya təsirlərini öyrənirlər.

Dünya İqtisadi Forumunun məlumatına görə, “Qlobal Rəqabətlilik 2017-2018” hesabatında Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilində 144 ölkə arasında 35-ci yerdədir. Son illərin hesabatına əsasən, ölkəmiz “Qlobal Rəqabət” hesabatlarında 2005-ci ildə 117 iqtisadiyyat arasında 69-cu yerdən 2017-ci ildə 137 iqtisadiyyatadək 34-cü yerdədir.

Azərbaycanda kimya sənayesinin inkişaf dinamikasının təhlili göstərir ki, elmi-texniki axtarışlar, nailiyyətlər bu sahədə uğurların qazanılmasına səbəb olmuşdur. Kimya elmi - texniki kadr potensialının nailiyyətləri, yeni məhsul istehsalı ilə yanaşı, elmi tədqiqatların nəticələrinin sənayedə tətbiqi, gəlirin artmasına səbəb olmuşdur.

2018 -2019 tədris ilində Azərbaycan Respublikasında 52 təhsil müəssisləri fəaliyyət göstərir ki, onlarda təhsil alan tələbələrin sayı 176723 nəfərdir. 52 təhsil müəssisəsindən 40 - ı dövlət təhsil müəssisəsinə aiddir ki, burada təhsil alanların sayı 161326 nəfər təşkil edir. 12 özəl ali təhsil müəssislərində 15397 nəfər tələbə təhsil alır.

**Cədvəl № 1.**

**Azərbaycan Respublikası kimya sənayesinin ümumi iqtisadi göstəricilərində kadr potensialı [1]**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sənayedə işləyənlərin sayında sahə işçilərinin sayı, % | 4.8 | 4.4 | 4.2 | 3.8 | 3.3 | 3.3 | 3.2 | 5.2 | 3.4 |
| İşçinin orta aylıq əmək haqqı, manat | 351.8 | 357.0 | 453.3 | 460.4 | 489.1 | 640.4 | 718.8 | 789.2 | 843.7 |
| İşçilərin orta illik sayı, (min nəfər) | 8.7 | 7.7 | 7.6 | 7.5 | 6.5 | 6.2 | 6.0 | 10.2 | 7.1 |
| İşçilərin orta illik sayı əvvəlki ilə nisbətdə | 94.6 | 88.5 | 98.7 | 98.7 | 86.7 | 95.4 | 96.8 | 171.8 | 69.9 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı, şəxslər | 90 | 98 | 106 | 90 | 98 | 105 | 111 | 115 | 131 |

Cədvəldən də göründüyü kimi, 2016-cı ildə müstəqillik əldə etdikdən sonra 17,2 min nəfər başqa ərazilərə köçüb. Nəticədə 2016-cı ilə qədər istehsal həcmi və müvafiq olaraq işçilərin sayı azalıb. Kimya sənayesində muzdla çalışan işçilərin sayı 2016-cı ildə 6,0 min nəfər, 2017-ci ildə isə 10,2 min nəfər olub. 2017-ci ildə işçilərin sayı 4,2 min nəfər artıb. Bunun əsas səbəbi istehsalın artması idi. 2018-ci ildə işçilərin sayı 7,1 nəfərə qədər azalıb. Bu ziddiyyətin bir çox səbəbləri var ki, onlardan biri də elmi-texniki kadr potensialından səmərəsiz istifadə edilməsidir.

Kimya sahəsində elmi-texniki kadr potensialının inkişaf etdirilməsi, bu sahədə köklü islahatların aparılması müasir dövrün aktual məsələlərindən hesab olunur. Bu baxımdan 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında elm və təhsil sahəsində ciddi islahatlar aparılıb. AMEA-da ali təhsilin həyata keçirilməsi ilə bağlı Milli Məclis “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edib. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 21 yanvar 2015-ci il tarixli qərarı ilə ölkəmizdə ixtisaslı mütəxəssislərə və elmi kadrlara artan tələbatın ödənilməsi

məqsədilə Tətbiqi ixtisaslar üzrə elmi biliyə malik kadrların hazırlanması və hazırlanması şöbəsi elm və təhsilin səmərəli inteqrasiyasını təmin etmək məqsədi ilə yaradılmışdır.

Kimya sahəsində elmi-texniki kadr potensialının dinamik inkişafı üçün AMEA-nın əsas prioritetlərindən biri olan, yüksək ixtisaslı elmi kadrların hazırlanması yalnız 2015-ci ildə doktorantura, dissertasiya və ilk dəfə olaraq magistratura pilləsi ilə həyata keçirilib. 2015-ci ildə AMEA-nın fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul olan 77 nəfərdən 11-i, elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul olunmuş 31 nəfərdən 8-i KEB-ə qəbul olub. 2016-2017-ci illər ərzində AMEA-da KEB-nin əyani şöbəsinə 9 ixtisas üzrə 19 nəfər qəbul olunub.

**Cədvəl № 2.**

**2018 – 2019 cu illərdə AMEA Kimya Elmlər Bölmələrində elmi kadrların hazırlanması [4, 54]**

| Elmi müəssisələrin adları | Doktoranturada təhsil alanlar | | | | Xaricdə Doktoranturada təhsil alanlar | Xaricdə elmi Təcrübə keçənlər | Bitirib Doktorantura | Dissertasiya müdafiəyə olunub | | Müdafiəyə Hazırlanıb | | Dissertantlar | | Təhsil alanlar | Magistraturaya yeni qəbul |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Fəlsəfə doktoru | | Elmlər doktoru | | | | | Fəlsəfə doktoru | Elmlər Doktoru | Fəlsəfə doktoru | Elmlər Doktoru | Fəlsəfə doktoru | Elmlər Doktoru | Magistralda | |
| | əyani | qiyabi | əyani | qiyabi | | | | | | | | | | | |
| Neft – Kimya Prosesləri İnstitutu | 16 | 5 | 6 | 11 | - | - | 5 | 14 | 3 | 5 | 2 | 20 | 12 | 6 | 5 |
| Kataliz və Qeyri - Üzvi Kimya Institutu | 14 | 3 | - | 9 | - | 1 | 12 | 8 | 1 | - | - | 22 | 9 | 13 | 6 |
| Aşqarlar kimyası Institutu | 2 | 1 | 1 | 5 | - | - | - | 1 | 2 | 2 | - | 8 | 3 | 2 | 2 |
| Polimer materialları Institutu | 3 | 1 | - | - | - | - | 1 | 1 | - | 3 | 1 | 6 | 6 | 2 | 2 |
| Bölmələr üzrə cəmi | 35 | 10 | 7 | 25 | - | 1 | 18 | 24 | 6 | 10 | 3 | 56 | 30 | 23 | 15 |

Cədvəldən də göründüyü kimi 2018-ci ildə xaricdə doktorant olmasa da, xaricdə elmi təcrübəsi olanlar da azlıq təşkil edir. Nəzərə alsaq ki, 2018-2019-cu illərdə məzunlar da azlıq təşkil edir. Belə ki, Kimya Elmləri Bölməsinə 3 magistratura şöbəsinə bölünərək ümumilikdə 15 ərizə qəbul edilib. Bundan sonra belə qənaətə gəlmək olar ki, il ərzində təlim keçmiş kadrların sayı tələb olunan səviyyədən aşağıdır.

“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” layihəsi həyata keçirilir. Azərbaycan gənclərinin xaricdə zəruri ixtisaslar üzrə təhsil almaları və təhsilin inkişafında mühüm amilə çevrilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamı imzalanmışdır. Bu sərəncam Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili üzrə vahid sistemin yaradılmasını nəzərdə tutur.

500-dən çox gənc 4 il ərzində bu proqramla xaricdə təhsil alıb və təhsilini başa vuraraq Azərbaycana qayıdıb. Təbii ki, Milli Təhsil Nazirliyinin xətti ilə xaricdə təhsil almaq istəyən gənclər dövlətdən təqaüd almaq üçün prioritet ixtisas seçməlidirlər.

2017-2018-ci tədris ili üçün Milli Təhsil Nazirliyi 12 müxtəlif ixtisas sahəsini prioritet istiqamətlər kimi təqdim edib və yalnız bu ixtisaslar üzrə təhsil alan gənclər nazirliyin təqaüdünü almaq imkanı əldə ediblər. Demək olar ki, bu 12 ixtisasın çoxu müəyyən fənlərdir. Burada humanitar sahə yoxdur. Buna səbəb Azərbaycanda humanitar sahədə təhsil alan tələbələrin çox olması və ya bu sahəyə ehtiyac olmamasıdır.

Əsas prioritet ixtisaslar bunlardır: informasiya texnologiyaları, mühəndislik (Bu sahə həmişə hökumətin diqqət mərkəzində olub və ona görə də əsas ixtisas kimi götürülüb. Azərbaycanda bu sahəyə böyük ehtiyac var), neft sənayesi (Azərbaycan neft ölkəsi olduğu üçün bu sahə həmişə ön plandadır. Bu sahə təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində çox önəmlidir), kənd təsərrüfatı, riyaziyyat dünyanın bütün təhsil sistemlərində ən çox ehtiyac duyulan sahələrdən biridir), turizm (Azərbaycan neft ölkəsi olduğundan turizm sahəsində böyük imkanlara malikdir, Azərbaycanda bu sahədə kadr çatışmazlığı var), mühasibat uçotu, fizika, biologiya, kimya, rkologiya.

Kimya sahəsində elmi-texniki kadr potensialının inkişaf etdirilməsi, bu sahədə köklü islahatların aparılması müasir dövrün aktual məsələlərindən hesab olunur. Bu baxımdan 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında elm və təhsil sahəsində ciddi islahatlar aparılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının magistratura pilləsində təhsilin həyata keçirilməsi ilə bağlı Milli Məclis "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edib. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 21 yanvar 2015-ci il tarixli qərarı ilə AMEA-da elm və təhsilin səmərəli inteqrasiyasını təmin etmək məqsədilə tətbiqi ixtisaslar üzrə elmi biliyə malik kadrların hazırlanması məqsədilə Təhsil Şöbəsi yaradılmışdır.

Kimya sahəsində elmi-texniki kadr potensialının dinamik inkişafı üçün Azərbaycan Milli Elmlər Akademiyasının bu sahədə əsas prioritetlərindən biri olan yüksəkixtisaslı elmi kadrların hazırlanması yalnız 2015-ci ildə doktorantura ilə həyata keçirilmişdir. 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya 77 nəfərdən 11-i, təbiət elmləri doktoru hazırlığı üzrə doktoranturaya qəbul olan 31 nəfərdən 8-i, Kimya Elmləri Bölməsinə qəbul edilmişdir. 2016-2017-ci illər ərzində Milli Elmlər Akademiyasının Kimya Elmləri Bölməsinin əyani şöbəsinə 9 ixtisas üzrə 19 nəfər qəbul olunub.

2016-cı ildə büdcədən təhsilə ayrılan xərclər 2010-cu illə müqayisədə 38% artıb. 2017-ci ildə dövlət büdcəsindən 2016-cı illə müqayisədə 8,5 faiz çox olmaqla 146 milyon manat, 1859,5 milyon manat vəsait yönəldilib. Dövlət büdcəsinin xərclərinin strukturunda təhsilə ayrılan vəsaitin xüsusi çəkisi 11,2 faiz təşkil edir. Bu halda təhsilin maliyyələşdirilməsinin səviyyəsi ÜDM-in 7 faizini, səhiyyənin 6 faizini, elmin isə 3 faizini təşkil etməlidir. "Azərbaycan Respublikasının təhsil islahatları Proqramı"na və "Azərbaycan Respublikasında 2013-2021-ci illərdə təhsilin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq aparılan islahatlar Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020-ci il İnkişaf Konsepsiyası"nda öz əksini tapıb. : Gələcəyə baxış" 29 dekabr 2012-ci il. Bu, həm də ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı"na keçidi tələb edir. [5]

**Nəticə**

İnkişaf etmiş ölkələrin təcrübələri göstərir ki, elmi biliyə malik olmayan bir xalqın qlobal miqyasda tanınması, dünya bazarında elmi məhsul istehsal etməsi, beynəlxalq aləmdə yer alması mümkün deyil. Elmin inkişafı dövlət tərəfindən dəstəklənməlidir. İnkişaf etmiş ölkələr öz elmi nailiyyətləri ilə uğurlar qazanıblar və hazırda bu sahədə ciddi irəliləyişlər əldə edirlər.

Əmək bazarının ehtiyacları təhsildə mühüm rol oynayır. Yaxın gələcəkdə kimya sənayesində elmi-texniki kadr potensialından istifadənin yaxşılaşdırılması, yüksək ixtisaslı kadrların hazırlanmasından asılıdır. Ona görə də bəzi texniki ixtisaslarda olduğu kimi bu sahədə də elmi kadrların hazırlanmaması narahatlıq doğurur. Məsələn, müasir kimyəvi informasiya texnologiyaları və sahə iqtisadiyyatı belə ixtisaslardır. Bu sahədə çox az mütəxəssis hazırlanır. Tələbatdan asılı olaraq bu ixtisaslar üzrə Amerika, Avropa və Yaponiyanın universitetlərində və tədqiqat mərkəzlərində elmi kadr hazırlığı həyata keçirilə bilər.

Kimya sənayesində ETKP-nin inkişafı əməyin elmi təşkilindən və ixtisaslı işçilərdən səmərəli istifadə edilməsindən, tədqiqatların genişləndirilməsindən və yeni texnologiyanın tətbiqindən asılıdır. Bütün bunlar əqli mülkiyyətin inkişafını və qorunmasını, təhsil modelinin təkmilləşdirilməsini, xalq təsərrüfatında elmtutumlu istehsal sahələrinin, informasiya texnologiyalarının inkişafını tələb edir.

Azərbaycan Respublikasında kimya sənayesində elmi-texniki kadr potensialının inkişaf etdirilməsi üçün elmi-tədqiqat sahələri beynəlxalq standartlara cavab verməlidir. Yəni bu sahəni inkişaf etdirməyin əsas yolu elm mərkəzləri ilə əlaqə saxlamaq və bu sahələrin tərkib hissəsinə çevrilməkdir. Bu baxımdan kimya sənayesinin elmi tədqiqat sahələrinin mövcud potensialından səmərəli istifadə etmək məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://www.stat.gov.az/source/industry/
2. https://www.economy.gov.az/article/international-reports/21565
3. https://www.stat.gov.az/news/index.php?id=3995
4. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Hesabatı, 2018-ci il AMEA Elm Bölmələrinin Elm Sahələri və İstiqamətləri üzrə Fəaliyyəti, II cild, Bakı 2019, səh. 254 (53 səhifə)

5. http://www.president.az
6. https://www.stat.gov.az/source/industry/
7. https://edu.gov.az/az/page/9/17109
8. http://modern.az/az/news/2762#gsc.tab=0

**Şahin Telman oğlu Sadıqov**
AMEA Iqtisadiyyat Institutu, "Sənaye Siyasəti və İnvestisiya Problemləri" şöbəsi a.e.i
E-mail: shahin1971@yahoo.com

## AZƏRBAYCANIN "SƏNAYENİN RƏQABƏTQABİLİYYƏTLİLİYİ İNDEKSİ" –NDƏ MÖVQEYİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə sənayenin rəqabətqabiliyyətliliyi indeksinin mahiyyəti, onun müəyyən edilməsi metodikası ilə tanış olunmuş, respublikamızın beynəlxalq sıralanmadakı mövqeyinə münasibət bildirilmişdir. Məqalədə sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə respublikamızın mövqeyinin yaxşılaşdırılması məqsədi ilə təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** sənayenin rəqabətqabiliyyətliliyi indeksi, istehsal gücü və ixrac imkanları, ixracın keyfiyyəti, texnoloji dərinləşmə və təkmilləşmə.

**Giriş**

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində dünya liderləri tərəfindən Dayanıqlı inkişafın 17 məqsədi qəbul edilib və "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) 01 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minib. Dayanıqlı İnkişafın 9-cu məqsədində möhkəm infrastruktur yaratmaq, inklusiv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək nəzərdə tutulub ki, bu da BMT-nin Sənaye İnkişafı Təşkilatının məqsədləri içərisində əsas yeri tutur. Dayanıqlı İnkişafın 9-cu məqsədinin icrasının, eləcədə dünya ölkələrinin emal sənayesinin inkişaf səviyyəsinin qiymətləndirilməsi məqsədi ilə BMT-nin Sənaye İnkişaf Təşkilatı hər il "Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti" haqqında hesabat hazırlayır. Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti haqqında hesabatda ölkələrin emal sənayelərinin güclü və zəif tərəfləri haqqında məlumat verilməklə onların rəqabətqabiliyyətlilik səviyyəsi sənayenin rəqabətqabiliyyətliliyi indeksi (SRİ) vasitəsi ilə qiymətləndirilir. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi (SRİ) sənayenin istehsal və ixrac imkanlarını, onun istehsal və ixrac strukturunu, dünyaya təsir gücünü, havaya buraxdığı zərərli qazların həcmini özündə cəmləşdirən göstəricilər sistemidir.

Məqalənin yazılmasında əsas məqsəd sənayenin rəqabətqabiliyyətliliyi indeksının mahiyyəti və onun müəyyən edilməsi metodologiyası ilə tanış olmaq və bu indeks üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması iqtiqamətlərini göstərməkdir.

**Sənayenin rəqabətqabiliyyətliliyi indeksı və onun müəyyən edilməsi metodologiyası.** Sənayenin rəqabətqabiliyyətlilik indeksi sənayenin emal sektorunun ölkənin inkişafına hansı səviyyədə töhfə verməsinin göstəricisidir. Bu indeks ölkə sənayesinin istehsalda və istehsal edilmiş məhsulların daxili və xarici bazarlarda satışında hansı səviyyədə müvəffəqiyyətli olduğunu və nəticədə struktur dəyişikliyinə və inkişafına hansı səviyyədə töhfə verdiyini göstərir. Bu indeks özünə hər biri iki göstərici (subindeks) daxil olmaqla üç sahəni əhatə edir. Bu sahələr aşağıdakılardır:

- istehsal gücü və ixrac imkanları. Bu sahəyə iki göstərici daxildir: emal sənayesində adambaşına düşən əlavə dəyər (***MVApc))***, adambaşına ixrac edilən emal sənayesi məhsulunun həcmi (***MXpc)***,
- texnoloji dərinləşmə və təkmilləşmə. Bu sahəyə isə sənayeləşmənin intensivliyi (INDint) və ixracın keyfiyyəti (**MXQual**) göstəriciləri daxildir.

- beynəlxalq təsirlər. Bu sahəyə isə ölkənin dünya emal sənayesində hasil edilmiş əlavə dəyərə təsiri (*ImWMA*) və ölkənin dünya sənayesi məhsulları ticarətinə təsiri (*ImWMT*) göstəriciləri daxildir.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi bu ölçülər əsasında olmaqla aşağıdakı düstürla hesablanır:

$$\text{CİP index} = \sqrt[6]{MVApc\ x\ MXpc\ \ x\ \text{INDint x MXQual x}\ ImWMA\ x\ ImWM} \qquad (1)$$

Birinci ölçü - istehsal gücü və ixrac imkanlarıdır. Bu sahə ölkənin emal sənayesində istehsal edilmiş malların daxili və xarici istehlakçılar arasında neçə bölüşdürülməsini müqayisə etməyə imkan verir. Bu göstərici eyni zamanda ölkənin sənayeləşmə səviyyəsini xarakterizə edir. Bu sahənin birinci göstəricisi olan emal sənayesində adambaşına düşən əlavə dəyər ölçüsündən aslı olmayaraq ölkələri müqayisə etmək imkanı yaradır. Emal sənayesində adambaşına düşən əlavə dəyər ($MVA_{pc}$) xalis istehsal dəyərinin ($MVA$) ölkənin əhalisinin sayına ($POP$) bölünməsi yolu ilə hesablanır, yəni

$$MVA_{pc}=MVA/POP \qquad (2).$$

Bu istehsal və ixrac imkanları ölçüsünün birinci tərəfini xarakterizə edir. İqtisadiyyatda hasil edilmiş əlavə dəyər ümumi hasilatdan aralıq məhsulları çıxdıqdan sonra əldə edilən məbləğdir. Emal sənayesində adambaşına düşən əlavə dəyər isə 2010-ci ilin sabit ABŞ dolları ilə hasil edilmiş əlavə dəyərin ölkənin əhalisinin sayına bölməsi yolu ilə hesablanır.

**Emal sənayesində istehsal edilmiş məhsulun ixracı bu ölçünün ikinci tərəfini xarakterizə edir.** Adambaşına ixrac edilən emal sənaye məhsulları ($MX_{pc}$) isə ixrac edilən emal sənaye məhsullarının dəyərinin ($MX$) əhalinin sayına ($POP$) bölünməsi yolu ilə hesablanır, yəni

$$MX_{pc}=MX/POP \qquad (3)$$

**Texnoloji baxımdan dərinləşmə və təkmilləşmə** ölkənin emal sənayesinin istehsal etdiyi məhsul növlərinin rəqabət qabiliyyətliliyni ölçmək üçün əhəmiyyətlidir. Bu sənayenin rəqabətqabiliyyətliliyi indeksinin müəyyən edilməsinin ikinci tərəfidir. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi texnoloji dərinləşmə və təkmilləşmə üzrə ayrılıqda hesablanır. Texnoloji dərinləşmə və təkmilləşmə sənayeləşmənin intensivliyi və ixracın keyfiyyəti göstəricilərinin əsasında hesablanır. Texnoloji dərinləşmə sənayeləşmənin intensivliyi dərəcəsi və istehsal prosesinin tamlılığının qiymətləndirilməsi göstəricisidir**.** Bu orta və qabaqcıl texnoloji istehsal sahələrinə düşən əlavə dəyərin emal sənayesindəki əlavə dəyərdə payı, emal sənayesinə düşən əlavə dəyərin ümumi əlavə dəyərdə, ÜDM payı göstəricilərindən ibarətdir. Daha dəqiq desək **sənayeləşmənin intensivliyi (**$IND_{int}$**)** emal sənayesində hasil edilmiş əlavə dəyərin (MVA) ÜDM (GDP) payı, yəni $MVA_{sh}$ = MVA/GDP və orta və yüksək texnoloji istehsal sahələrinə düşən əlavə dəyərin (MHVA) ümimi emal sənayesindəki əlavə dəyərində ($MVA_{total}$) payı kimi, yəni $MHVA_{sh}$ = MHVA/$MVA_{total}$ iki göstəricinin aritmetik ortalaması ilə hesablanan birləşmiş göstəricidir, yəni

$$IND_{int} = (MVA_{sh} + MHVA_{sh})/2 \qquad (4)$$

**İkinci isə ixracın keyfiyyəti (**$MX_{Qual}$**) subindeksidir**. Bu göstərici ölkənin emal sənayesi sektorunun dünya iqtisadiyyatına inteqrasiya prosesinin keyfiyyəti ilə ölçülür. Orta və qabaqcıl texnologiyalı istehsal sahələrdə hasil edilmiş əlavə dəyərin emal sənayesində hasil edilmiş əlavə dəyərdə payı nə qədər yüksək olarsa bu iqtisadiyyatda məhsuldarlığın, innovasiya fəallığının və texnoloji tərəqqinin bir o qədər yüksək olmasından xəbər verir. İxracın keyfiyyəti subindeksi **(**$MX_{Qual}$**)** aşağıda qeyd edilən iki göstəricinin əsasında hesablanır, yəni aşağıda qeyd edilən iki ğöstərici hesablanır və toplanır, daha sonra ikiyə bölünür:

1. Emal sənaye məhsulları ixracının ümumu ixracda payı, yəni ($MX_{sh}$= MX/$X_{total}$),

2. Orta və yüksək texnoloji sənaye məhsulları ixracının ümumi emal sənayesi məhsulları ixracında payı, yəni ($MHX_{sh}$=MHX/MX).

Nəticədə ixracın keyfiyyəti isə aşağıda göstərilən düsturla hesablanır:

$$MX_{Qual}=(MX_{sh}+MHX_{sh})/2 \quad (5)$$

Ölkələrin ümumi sənaye istehsalının və istehsal edilmiş məhsulların ixracı strukturlarını fərqləndirmək mühüm əhəmiyyət kəsb edir. İxracın strukturunda texnika, elektronika məhsullarının həcminin çox olması istehsalın strukturunun mükəmməl, rəqabətqabiliyyətli olmasından xəbər verir. Qeyd edim ki, orta və qabaqcıl texnoloji məhsullar dedikdə kimya sənayesi, maşın və avadanlıqlar, dəftərxana və elektron hesablama maşınları, elekrik maşınları, radio, televiziya və rabitə üçün aparatura, tibb ləvazimatları və optik alətlər, mexaniki və sair saatlar, avtomobil və sair nəqliyyat avadanlıqları başa düşülür.

**Beynəlxalq təsirlər.** Sənayenin rəqabətqabiliyyətliliyi indeksi yekun olaraq emal sənayesi məhsulları baxımından ölkənin dünya bazarındakı mövqeyini xarakterizə edir. Bu göstərici iki, yəni birinci dünya emal sənayesi üzrə əlavə dəyərdə ölkənin payı və ikinci dünya emal sənayesi məhsulları ticarətində ölkənin payı göstəricilərinin əsasında hesablanır. Daha dəqiq desək ölkənin dünya əlavə dəyər hasilatına (ImWMVA) təsiri ölkədə hasil edilən əlavə dəyərin dünyada hasil edilən əlavə dəyərə bölünməsi yolu ilə hesablanır, yəni

$$ImWMVA = MVA/MVA_{world} \quad (6)$$

Ölkənin dünya ticarətinə təsiri isə (ImWMT) ölkə tərəfindən ixrac edilən emal sənayesi məhsulu dəyərini dünya emal sənayesi məhsulu ticarəti məbləğinə bölmək yolu ilə hesablanır, yəni

$$ImWMT = MX/MX_{world} \quad (7)$$

Dünyaya təsir nə qədər yüksək olarsa, ölkənin aqlomerasiya, əhatə dairəsi və miqyas səmərəliliyindən faydalanmaq imkanı bir o qədər yüksək olar. Bu faydalara infrastrukturda sərmayə mübadiləsi və ticarət razılaşmalarında daha çox pay əldə etmək gücü də daxildir.

Əlavə edim ki, "Sənayenin Rəqabətqabiliyyətliliyinin durumu (icrası)" haqqında 2018-ci ilin hesabatına əsasən sənaye istehsalının ətraf mühitə təsiri göstəricisi (yəni havaya buraxılan CO2-də) bu indeksin hesablanmasında nəzərə alınır. CO2 tullantılarının SRİ-nin hesablanılmasında nəzərə alınmasında iki göstəricidən istifadə edilir. Birinci göstərici emal sənayesinin radiasiya intensivliyini ($EI_i$) əhatə edir və ölkədə adambaşına düşən əlavə dəyərdə $CO_2$ tullantılarının həcmi ($E_i$) kimi hesablanır, yəni

$$EI_i=E_i/MVA_i \quad (8)$$

Burada $E_i$ - konkret ildə istehsaldan $CO_2$ tullantılarını əks etdirir.

CO2 –nin SRİ-nin hesablanılmasında nəzərə alınmasının ikinci göstəricisi adambaına düşən $CO_2$ tullantılarıdır, yəni

$$CF_i = E_i/Pop_i$$

Burada - $Pop_i$ ölkə əhalisinin sayıdır.

SRİ -nin həcmi bu iki göstəriciyə müvafiq olaraq tənzimlənir. İkinci göstərici, müəyyən bir ölkənin emal sektorunun qlobal təbii kapital ehtiyatlarına mənfi təsirini göstərir. Adambaşına düşən karbon tullantılarının həcminin çox olması həmin ölkənin emal sənayesinin intensiv şəkildə ətraf mühiti çirkləndirməsindən xəbər verir. Bu baxımdan həmin ölkə ətraf mühitin çirklənməsinin qarşının alınmasına daha çox vəsait qoyuluşu məsuliyyətini götürür. Hər iki tullantı göstəricisi məsafədən istinad metoduna əsasən normallaşdırılır və aşağıdakı düstürla hesablanır:

$$I_{IEi} = 1 - (EI_{min}/EI_i)$$

Aşağı tullantı intensivliyinə sahib olan ölkə digər ölkələr üçün nümunə rolunu oynayır.

Uyğun olaraq adambaşına düşən karbon tullantısı üçün düstür aşağıdakı kimidir, yəni

$$I_{CFi} = 1 - (CF_{min}/CF_i)$$

Beləliklə, hər iki tullantı göstəricisi SRİ –nin hesablanmasında mənfi kimi nəzərə alınır.

Qeyd edim ki, sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə sıralanmada respublikamız 2018-ci ildə 120 yerdə qərarlaşıb. Respublikamız 2018-ci ildə 2017-ci illə müqayisədə 1 sıra, 2012-ci illə müqayisədə 12 sıra geriləmişdir. Əlavə edim ki, sənayenin rəqabətqabiliyyətliliyi indeksində keçmiş SSRİ məkanından Tacikstan və Qırğızıstan respublikamızdan sonrakı, yerdə qalan dövlətlər isə respublikamızdan əvvəlki sıralarda qərarlaşıb. 2018-ci ildə Gürcüstan 96, Ermənistan isə 103-cü yerdə qərarlaşıb. 2012-ci illə müqayisədə Gürcüstanın mövqeyində 4 pillə irəliləyiş, Ermənistanın mövqeyində isə 11 pillə irəliləyiş olmuşdur (1). Bu baxından SRİ üzrə beynəlxalq sıralanmada respublikamızın durumu qənaətbəxş hesab edilə bilməz. 2019-cu ilin məlumatına əsasən sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyərində emal sənayesinin xüsusi çəkisi 25.1% olmuşdur. 2019-cu ildə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyərində emal sənayesinin xüsusi şəkisi 25.1% təşkil etməsinə baxmayaraq sənayenin sahələrində yaradılmış əlavə dəyərdə emal sənayesinin xüsusi çəkisi 12.1% təşkil etmişdir (2). Bu o deməkdir ki, sənayedə yaradılmış əlavə dəyərdə mədənçıxarma sənayesi aparıcı mövqe tutur və emal sənayesinin payı isə azdır. Qeyd edim ki, 2020-ci ildə idxalın 15.29% yeyinti məhsulları təşkil etmişdir (3). Yeyinti məhsulları idxalını azaltmaq müvafiq malların yerli istehsalını artırmaq və ya idxalı əvəzələmək üçün bu sahəyə dövlət tərəfindən güzəştlərin edilməsinə, istehsal edilən məhsul növlərinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına ehtiyac var. 2020-ci ildə neft-qaz sektoruna daxil olmayan malların ixracda xüsusi çəkisi 13.47% təşkil etmişdir ki, burada xammal formasında olan mallar üstünlük təşkil edib (3). Əlavə edim ki, ucuz qiymətə xammal formasında ixrac edilən mallar sonradan məhsul formasında baha qiymətə respublikamıza idxal edilir ki bu da məhsula düşən əlavə dəyərin böyük hissəsinin xarici dövlətdə yaranması deməkdir.

**Nəticə**

**Sənayenin rəqabətqabiliyyətliliyi indeksində Azərbaycanın mövqeyinin yaxşılaşdırılması** sənayenin rəqabətqabiliyyətliliyinin müəyyən edicileri baxımından onun yüksəldilməsinin təmin edilməsi üçün mənim fikrimcə aşağıda qeyd edilən təkliflərin həyata keçirilməsi daha məqsədəuyğun olar:

4. İnvestisiyaların hüquqlarının müdafiəsi yüksək səviyyədə təmin edilməlidir. Hər şeydən öncə qanunların aliliyi təmin edilməli və məhkəmə qərarları icra edilməlidir.
5. Yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının biznesə müdaxiləsinə bütünlüklə son qoyulmalı, daha dəqiq desəkl müvafiq qurumların bu sahədəki səlahiyyətləri tam ləğv edilməlidir.
6. Regionlarda istehsal yönümlü biznes obyektlərinin vergi yükü azaldılmalıdır. Daha yaxşı olar ki regionlarda yerləşən istehsal müəssisələri mənfəət vergisindən tam azad edilsin. Bu qazanılan mənfəətin təkrar investisiya kimi yönəldilməsinə imkan yaradar və regionlarda emal sənayesi müəssisələrinin yaranmasına və gələcək inkişafına səbəb olar.
7. Xaricdən idxal edilən istehsal təyinatlı bütün növ texnika, o cümlədən istehsal təyinatlı xammal vergi və gömrük rüsumlarından tam azad edilməlidir. Bu istehsal edilən məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olar və əlavə dəyərin artmasına gətirib çıxarar.
8. Məhkəmənin səmərəliliyinin və onun qərarlarının icrasının təmin edilməsi istiqamətində ciddi və təxirəsalınmaz addımlar atılmalıdır.
9. Dövlətin biznesə münasibəti dəyişməlidir. Dövlət biznesin himayədarı olmalıdır, onlara büdcə gəlirlərinin təmin edilməsi mənbəyi kimi baxmamalıdır. Onlara istehsalın təşkilində, xarici

bazarlara çıxmaqda, marketinq fəaliyyətində, kadr hazırlığında, innovasiyaların tətbiqində dəstək göstərilməlidir.

10. Vergi, gömrük və digər biznes yönümlü qanunlarda sabitlik olmalıdır. Belə ki qəbul edilən biznes yönümlü qanunlar minimal olaraq 10 il ərzində dəyişdirilməməlidir. Belə ki vergi, gömrük və digər biznes yönümlü qanunlarda edilən dəyişikliklərin tezliyi biznesin işində qeyri-müəyyənlik yaradır. Vergilərin sayı azaldılmalı və müvafiq qanunvericilik isə sadələşdirilməlidir.
11. İstehsal təyinatlı müəssisələrə illik 2-3%-li kredirlər verilməlidir.
12. Emal sənayesi müəssisələrinə innovasiya yönümlü layihələrin maliyyələşdirilməsinə dövlət tərəfindən dəstək göstərilməlidir.
13. Daxili və xarici bazarlardakı tələbatların hazırkı dürumu və gələcək inkişafı nəzərə alınmaqla sənaye klasterlərinin yaradılmasına diqqət yetirilməlidir.
14. Kölgə istisadiyyatının aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülməlidir.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə reytinqdə respublikamızın mövqeyinin yaxşılaşdırılması üçün isə həm mövcud emal sənayesi müəssisələri yenidən bərpa edilməli, bazarların müasir durumu və gələcək inkişaf istiqamətləri nəzərə alınmaqla klasterlar yaradılmalı, həm də mövcud müəssisələrin potensial imkanlarından tam istifadə edilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. UNIDO 2019. “Competitive Industrial Performance Index”. (CIP) https://stat.unido.org/cip/# 20.11.2020
2. Dövlət Statistika Komitəsinin elektron məlumat bazası. https://www.stat.gov.az
3. Dövlət Gömrük Komitəsinin elektron məlumat bazası . https://customs.gov.az

**Ülkər Şahvələd qızı Salıfova**
İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutu, böyük elmi işçi
E-mail: salifovaulker@gmail.com

# İQTİSADİ FƏALLIĞIN ARTIRILMASINDA KİÇİK VƏ ORTA SAHİBKARLARIN ROLU

## Xülasə

Məqalədə iqtisadiyyatın inkişafında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rolunun vacibliyi vurğulanmışdır. Eyni zamanda, 2019-2020-ci illər üzrə Azərbaycanda Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəricilərinə və ölkə iqtisadiyyatında payına nəzər salınmışdır. Dövlət tərəfindən MKOS subyektlərinə göstərilən dəstək tədbirləri və bu tədbirlərin sahibkarlıq subyektlərinin inkişafında effektivliyinə baxılmışdır.

**Açar sözlər:** mikro, kiçik və orta sahibkarlıq, ÜDM, COVİD-19

Mikro, kiçik və orta sahibkarlıq (MKOS) müxtəlif dövlətlərin iqtisadiyyatının inkişafına səbəb olan, istehsalın canlanmasına və əhalinin iqtisadi fəallığının yüksəldilməsinə güclü stimul verən mühüm amildir. MKOS-lar iqtisadiyyatın ən çevik sektorlarından biri olub, ÜDM-in xeyli hissəsinin yaradılması onun payına düşür və iqtisadi fəal əhalinin xeyli hissəsi burada çalışır. Həmçinin, iş yerlərinin yaradılmasından başqa rəqabətqabiliyyətli, dinamik və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında da mühüm rola malikdir. Bazar münasibətlərinin formalaşması və inkişafı müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyətini tələb edir. Bu baxımdan MKOS-lar ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyən edir, ona görə də sivil ölkələr də olduğu kimi, Azərbaycanda da bu sektorun inkişafına xüsusi diqqət yetirilir. MKOS sektorunda milli resursların əsas kütləsi yaradılır və dövr edir ki, bu da öz növbəsində iri sahibkarlığın inkişafı üçün əsas ünsürdür və bu müəssisələrin böyük olmayan texnoloji istehsal və idarəetmə çevikliyi bazarın dəyişən konyukturasına dəqiq və vaxtında uyğunlaşmağa imkan verir. MKOS-lar daha dinamik inkişaf edən sektor olmaqla makroiqtisadi mühitə əhəmiyyətli təsir göstərməyə qadirdir. Belə ki, məşğulluğun

genişləndirilməsinə kömək edir, inhisarçılığın yaranmasına mane olan bazar mexanizminin həqiqi fəaliyyətinə imkan yaradır, bir sözlə rəqabət mühitinin formalaşdırılmasının mühüm amili kimi çıxış edir [1].

**Cədvəl 1.**

**Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında payı, %-lə**

| Göstəricilər | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | *o cümlədən* | | | | *o cümlədən* | | |
| | *Cəmi* | *Mikro* | *Kiçik* | *Orta* | *Cəmi* | *Mikro* | *Kiçik* | *Orta* |
| Ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə | *14.9* | *6.6* | *1.9* | *6.4* | *16.7* | *6.8* | *2.5* | *7.4* |
| *qeyri neft-qaz sektoru üzrə* | *24.6* | *11.0* | *3.2* | *10.4* | *23.7* | *9.9* | *3.5* | *10.3* |
| Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında | *43.7* | *5.3* | *11.2* | *27.2* | *42.1* | *4.9* | *11.1* | *26.1* |
| *qeyri neft-qaz sektoru üzrə* | *53.6* | *6.7* | *16.7* | *30.2* | *43.8* | *6.1* | *12.9* | *24.8* |
| Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda | *21.0* | *3.2* | *3.0* | *14.8* | *23.2* | *8.4* | *3.3* | *11.5* |
| *qeyri neft-qaz sektoru üzrə* | *27.0* | *4.1* | *3.9* | *19.0* | *11.5* | *3.4* | *7.7* | *0.4* |
| Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında | 99.6 | 96.4 | 2.2 | 1.0 | 99.7 | 96.9 | 1.9 | 0.9 |

Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolununun möhkəmləndirilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, onlara dəstək mexanizmlərinin təkmilləşdirilməsi, regionlarda sahibkarlığınn inkişafına əlverişli şəraitin yaradılması, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsi, ölkə iqtisadiyyatının diversifikasiyası və davamlı inkişafının təmin edilməsi istiqamətində aparılan işlər dövlət siyasatinin öndə duran strateji hədəflərindəndir. Bu sahədə həyata keçirilən islahatlar, o cümlədən ixracın və investisiyaların səmərəli təşviq mexanizmlərinin işə salınması, vergitutma bazasının genişləndirilməsi yolu ilə vergi yükünün azaldılması, daxili istehsalın dəstəklənməsinə hədəflənən çoxsaylı tədbirlərin görülməsi, güzəştli kreditlərin əldə edilməsi və digər maliyyə dəstəyi mexanizmlərindən istifadə ilə bağlı prosedurların sadələşdirilməsi sahibkarların marağında olan məsələlərdir.

90-cı illərin əvvəllərindən başlayaraq dövlət tərəfindən MKOS subyektlərinin inkişafına dəstək verəcək bir sıra tədbirlər və xüsusi proqramlar həyata keçirilmişdir. Bunun nəticəsində iqtisadiyyatın strukturunda köklü dəyişikliklər baş verir, yeni təsərrüfatçılıq sisteminə uyğun iqtisadi strukturlar, təsisatlar və iqtisadi münasibətlər formalaşır. Artıq Azərbaycan Respublikasında sahibkarlar təbəqəsinin geniş dairəsi formalaşmış, MKOS-lar milli təsərrüfatın müstəqil sektoruna çevrilmişdir. 2019-2020-ci illər üzrə ölkə iqtisadiyyatında MKOS subyektlərinin faizlə payına və əsas makroiqtsadi gostəricilərinin dinamikasına nəzər salaq.

Cədvəl 1-dən göründüyü kimi 2019-cu il üzrə ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə MKOS-ların cəmi payı 14.9% təşkil etmişdirsə, 2020-ci il üzrə bu göstərici artaraq 16.7% təşkil etmişdir. Lakin, qeyri-neft sektoru üzrə bu göstərici üzrə 9.7% azalma qeydə alınmışdır. 2019-cu ilə nəzərən 2020-ci ildə sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda 10.5% və fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında MKOS subyektlərinin cəmi payında 0.1% artım qeydə alınmışdır. Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında MKOS subyektlərinin cəmi payında isə 3.7% azalma qeydə alınmışdır.

Cədvəl 2-dən göründüyü kimi 2020-ci ilin yekunlarına əsasən MKOS subyektləri tərəfindən yaradılmış əlavə dəyər əvvəlki ilə nisbətən nominal ifadədə 1,2 faiz azalaraq 10,9 milyard manat olmuşdur ki, bu da ölkə iqtisadiyyatı üzrə yaradılmış əlavə dəyərin 16,7 faizini təşkil edir. Qeyri neft-qaz sektoru üzrə isə bu göstərici 10,7 milyard manat olmuş və ölkənin qeyri neft-qaz sektorunda yaradılmış əlavə dəyərin 23,7 faizini təşkil etmişdir. Bundan başqa əsas kapitala investisiyalar göstəricisi üzrə 21.9% azalma qeydə alınmışdır. İşçilərin sayında 5%, orta aylıq nominal əmək haqqı üzrə 15.3% və məhsul buraxılışı üzrə 16.6% artım qeydə alınmışdır.

Dövlət tərəfindən bütün dəstək proqramları çərçivəsində tətbiq edilən mexanizmlər MKOS-ların ÜDM-də və məşğulluqda payının, əhalinin gündəlik istehlak malları ilə təminatında və ümumiyyətlə ölkə iqtisadiyyatında rolunun getdikcə artmasını təmin edir. 2020-ci ilin sonu vəziyyətinə ölkədə rəsmi qeydiyyata alınmış MKOS subyektlərinin sayı 2019-cu ildəkinə nisbətən 12,7 faiz artaraq 1130048 vahidə, il ərzində yeni yaranmış MKOS subyektlərinin sayı isə 61,1 faiz artaraq 167475 vahidə çatmışdır. Yeni yaradılmış MKOS subyektlərindəki artım bilavasitə fərdi sahibkarların sayının artması ilə (79,8 faiz) bağlı olmuşdur.

**Cədvəl 2.**

**Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri**

| Göstəricilər | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Yaradılmış əlavə dəyər*, milyon manat | 11071.7 | 4900.8 | 1423.2 | 4747.7 | 10941.0 | 4455.2 | 1617.9 | 4867.9 |
| İşçilərin sayı, min nəfər | 332.2 | 40.2 | 85.1 | 206.9 | 348.7 | 40.9 | 92.1 | 215.7 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 531.0 | 332.5 | 437.0 | 624.6 | 612.3 | 359.4 | 533.8 | 714.4 |
| Əsas kapitala investisiyalar, milyon manat | 3422.2 | 515.5 | 494.2 | 2412.5 | 2674.1 | 970.2 | 380.4 | 1323.5 |
| Məhsul buraxlışı, milyon manat | 271304.0 | 262622.0 | 5956.0 | 2726.0 | 316370.0 | 307717.0 | 5943.0 | 2710.0 |

*Mənbə: ARDSK*

Bütün bunlarla yanaşı 2020-ci ilin əvvəllərindən başlayaraq dünyada cərəyan edən Koronavirus (COVID-19) pandemiyasının ölkənin sahibkarlıq subyektlərinə təsirlərinin minimallaşdırılması üçün geniş vergi güzəştləri paketi təqdim olunmuşdur. Buraya pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinin 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətillərinin verilməsi, əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyindən tutulan verginin 50 faiz endirilməsi, ictimai iaşə və ölkədaxili ssərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi kimi əhəmiyyətli tədbirlər daxildir. Bundan başqa, mikro sahibkarlıq subyektlərinin 2021- ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin verilməsi, həmçinin vergilərin, cari vergi ödəmələrinin hesablanması və ödənilməsi üzrə vergi tətilləri verilmişdir [2].

***Nəticə.*** MKOS-lar bütün dünyada olduğu kimi Azərbaycan iqtisadiyyatında da dinamik və vacib ünsürlərindən olub, ölkəmizin sosial iqtisadi inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Statistik məlumatlardan da göründüyü kimi MKOS subyektlərinin əksər göstəricilərində artım qeydə alınmışdır, bəzi göstəricilər üzrə isə cüzi miqdarda azalma müşahidə olunmuşdur.

Nəticə etibarilə qeyd edə bilərik ki, MKOS-ların inkişafı ilə rəqabətli bazar münasibətləri formalaşır ki, bu da bazarda tələb-təklif tarazlığının yaranmasına, qiymətlərin sabitləşməsinə, istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə, iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə, iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradır. Məhz bu səbəblərdən hazırkı qlobal kontekstdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr MKOS vasitəsilə iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasına nail olmağa çalışır.

Dövlət müdaxiləsi uğursuzluqdan çəkinən və ya maliyyə çətinlikləri yaşayan MKOS subyektlərinə fəal yardım göstərilməsi üçün vacibdir. Bu məqsədlə sahibkarlara çətinliklərin öhdəsindən gəlməyə kömək edən mexanizmlərin təkmilləşdirilməsinə, inkişafa doğru ciddi addımların atılmasına ehtiyac duyulur. Bundan başqa bu sahədə problemlərin həlli istiqamətində *dövlət, istehlakçı və sahibkar* qruplarının maraqlarını birləşdirmək lazımdır.

**ƏDƏBİYYAT SİYAHISI**
1. Azərbaycan RespublikasıDövlət Statistika Komitəsi, www.stat.gov.az .
2. The Importance of SMEs On World Economies, INTERNATIONAL CONFERENCE ON EURASIAN ECONOMIES 2019, Ph.D. Candidate Murat Bayraktar (Çukurova University, Turkey) Prof. Dr. Neşe Algan (Çukurova University, Turkey) https://www.avekon.org/papers/2265.pdf
3. THE ROLE OF SMEs ON THE ECONOMIC DEVELOPMENT https://www.researchgate.net/publication/318011317_The_Role_of_SMEs_on_the_Economic_Development_Kosova's_Case

**Ayaz Rəhim oğlu Tağıyev**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Doktorantı
E-mail:mba_az@mail.ru

## AQROBIZNES SFERASINDA BAZAR INFRASTRUKTURUNUN INKIŞAF AMİLLƏRİ

**Xülasə**

Yeni təsərrüfat münasibətlərinə keçidlə əmək bazarının inkişafının makroiqtisadi şərtləri və bunun nəticəsi olaraq əmək bazarı institutlarının fəaliyyət xarakteri və təşkilati strukturu dəyişmişdir. Bu onunla bağlıdır ki, iqtisadi islahat digər problemlərlə yanaşı, əhalinin məşğulluğunda struktur dəyişikliklərinə səbəb olmuşdur. İşçi qüvvəsinin istifadə göstəriciləri dəyişdi. İşçi qüvvəsinin və institutların bazarının problemlərinin öyrənilməsinə zəruri ehtiyac yaranmışdır ki, onların vasitəsilə kadrların bütün təkrar istehsalı sistemi formalaşdırılır və tənzimlənir. Hazırda aqrar əmək bazarının infrastrukturu bir çox institut və mexanizmlərlə təmsil olunur. İnstitutlar aqrar-sənaye kompleksinin infrastrukturunda xüsusi yer tutur, çünki onların funksiyalarına işçi qüvvəsinin təkrar istehsalının təmin edilməsi daxildir. Yaradılması dövlət tərəfindən irəli sürülən təsisatların bir hissəsi müxtəlif qurumlara aid olan inzibati qurumlar tərəfindən təmsil olunur. Lakin onların fəaliyyəti tez-tez təkrarlanır və aqrar əmək bazarının inkişaf şərtləri ilə razılaşmır. Aqrar əmək bazarı infrastrukturunun mexanizmlərinin ziddiyyətləri onun inkişafı üçün əlverişli şəraitin yaradılmasına imkan vermir. Bununla əlaqədar aqrar əmək bazarının bazar infrastrukturunun inkişafı aktual vəzifələrə çevrilir, çünki bu, ərzaq bazarının bütün subyektlərinin maraqlarına cavab verir. Bazar infrastrukturunun yaradılması ilə dövlət kənd əhalisinin məşğulluğunun tənzimlənməsi üçün səmərəli, adekvat bazar iqtisadiyyatına, metod və alətlərdən istifadə etmək imkanı əldə edir ki, bu da aqrar-sənaye kompleksində sabitliyə və fiziki şəxslərin gəlir vergisi və daimi və müvəqqəti işə düzəlmiş kənd vətəndaşlarının vahid sosial vergisi hesabına vəsaitlərin büdcəyə daxil olmasından iqtisadi effekt əldə etməyə, deməli, strateji milli maraqların reallaşdırılması üçün zəmin yaratmağa imkan yaradır. Kənd təsərrüfatı məhsulları istehsalçıları biliklərini yeni təsərrüfatçılıq şəraitində fəaliyyətlərinə uyğun gələn mütəxəssisləri işə götürmək imkanı əldə edəcəklər ki, bu da kənd təsərrüfatı təşkilatlarının işinin sabitləşməsinə gətirib çıxaracaqdır. Əhali yaşayış səviyyəsinin qənaətbəxş olduğu kənd yerlərində işləmək imkanı əldə edəcək ki, bunun da nəticəsində yoxsulluq və kənd əhalisinin işsizlik səviyyəsi aşağı düşəcəkdir.

**Açar sözlər:** sosial infrastruktur, kənd təsərrüfatı, aqrobiznes, kadrlar, sosial məsuliyyət.

### Giriş

**Mövzunun aktuallığı:** Tədqiqat mövzusunun aktuallığı onunla müəyyən edilir ki, aqrar-sənaye kompleksi mövzusu bu dövrdə kifayət qədər aktualdır, çünki kənd təsərrüfatı istənilən cəmiyyətin həyatında qeyri-adi yer tutur, çünki burada bilavasitə insan həyatının ilk şərti sayılan qida məhsullarının böyük kütləsi istehsal olunur, başqa sözlə, ölkənin maliyyə sahəsinin müasir mərhələsində aqrar-sənaye kompleksinin yaradılmasının əsas məqsədləri davamlı və effektiv istehsalın təmin olunması və inkişaf etmiş bazarların formalaşmasıdır. Ölkə əhalisinin etibarlı ərzaq

təminatı, kənd təsərrüfatı müəssisələrinin gəlir səviyyəsinin artırılması, təbii ehtiyatların, xüsusilə də torpaqların qorunub saxlanılmasının və bərpasının təmin edilməsi.

**İşin məqsədi:** Bu məqsədlərə nail olunmasında iqtisadiyyatın bu sektorunun dövlət tərəfindən tənzimlənməsi çox böyük rol oynayır. Müasir kənd təsərrüfatı istehsalını milli iqtisadiyyatdan kənarda ayrıca, təcrid olunmuş, inkişaf edən və fəaliyyət göstərən istehsal kimi təsəvvür etmək mümkün deyil. İşin məqsədi maliyyə riskləridir.Yerinə yetirilən işin məqsədi iqtisadiyyatının kənd təsərrüfatı sənayesinin rəqabət qabiliyyətinin və bazar infrastrukturunun müasir vəziyyətinin təhlili və öyrənilməsi idi. Nəticədə, aqrar sektorda iqtisadiyyatın innovasiyaların tətbiqi və bazar infrastrukturunun formalaşdırılması prosesinin ləng getməsi bu sahədə müəyyən problemlərin olmasından irəli gəlir. Bunlara mənfi demoqrafik vəziyyət, işsizliyin yüksək səviyyəsi, kənd yoxsulluğu, kənddə həyat keyfiyyətinin səviyyəsinin davam edən azalması, məişət və mənzil şəraitinin aşağı olması və s. daxildir. Qeyd olunan problemlərin təhlili və ümumiləşdirilməsi əsasında onların meydana gəlməsinin səbəbləri müəyyən edilmişdir.

**Qarşıya qoyulmuş məqsədə nail olma məntiqi iki mərhələli məsələlərin həlli zərurətini nəzərdə tutur:**

- yerli iqtisadiyyatın aqrar sahəsində bərpa artımının ümumi meyllərinin xarakteristikası və aqrar sahənin böhrandansonrakı inkişafının böhrandansonrakı vəziyyətinin müəyyənləşdirilməs

-ölkə iqtisadiyyatında institusional mühitin transformasiyası dəyişiklikləri ilə aqrar sahənin böhrandansonrakı artımının müəyyənləşdirilməsinin əsaslandırılması əsasında aqrar sahənin böhrandan sonrakı inkişafının makroiqtisadi və institusional şərtlərinin müəyyən edilməsi;

-aqrobiznes bazar infrastrukturu sisteminin formalaşdırılmasına əsas yanaşmaların nəzərdən keçirilməsi və aqrar sahədə sahibkarlığın böhrandansonrakı inkişafı faktorlarının potensialının aşkara çıxarılması yolu ilə aqrobiznesin inkişafını tənzimləyən şərtlərin əsaslandırılması;

**Aqrobiznes sferasında bazar infrastrukturunun inkişaf amilləri**

Bazar iqtisadiyyatının mühüm struktur elementi aqrar biznesin mahiyyəti aqrar bazarın diversifikasiya edilmiş infrastrukturunun formalaşmasına yardım etməyi nəzərdə tutur ki, bu da aqrobiznesin müxtəlif sahələri üzrə müəssisələrin inteqrasiya proseslərinin dərinləşməsinə və aqrar-sənaye kapitalının artmasına səbəb olur. Aqrar biznes ölkə iqtisadiyyatının nisbətən yeni tərkib hissəsi kimi nəzərdən keçirilir ki, bu da aqrar məhsul istehsalının təşkilinin mütərəqqi, rəqabətli və yüksək səmərəli formasını nəzərdə tutur(T.İ. İmanov,2008). Yerli hakimiyyət orqanları heç də həmişə bütün sosial problemləri təcrübədə müstəqil şəkildə aradan qaldıra bilmirlər. Buna görə də sahibkarlar başa düşməlidirlər ki, aqrar infrastrukturun inkişafına dövlət dəstəyi ilə düzgün yanaşmanı formalaşdıraraq, onlar sosial məsuliyyətin səviyyəsini təmin etməlidirlər.Müasir mərhələdə aqrar sahənin inkişafı bərpa artım meyillərinin mövcudluğu ilə səciyyələnir ki, bunun da meydana çıxması bazar islahatlarının nəticəsi, həmçinin siyasi, konyukturalı amillər sistemi ilə səciyyələnir. Bu sahədə bazar münasibətlərinin inkişafını təmin etmək üçün kifayət qədər institusional-hüquqi əsas yaradılıb (T.İ. İmanov,2008). İqtisadiyyatın mezo və mikroquruluşlarında institusional dəyişikliklərin başa çatdırılmaması sənayedə iqtisadi artımın formalaşan zəmininin sistem bütövlüyünün olmamasını, bazar münasibətlərinin inkişafını şərtləndirir ki, bu da aqrar - sənaye kompleksinin genişlənmə prosesinə keçməsinin qarşısını alan amil kimi çıxış edir(Əbülfəz Qasımov,2003).

İqtisadiyyatının bərpa artımı mərhələsində aqrobiznes sisteminin təşəkkülü dövlətin istər onun institusional əsaslarının yaradılması sahəsində, istərsə də onun struktur-funksional elementlərinin hər birində məqsədyönlü fəaliyyətinin gücləndirilməsini nəzərdə tutur. Çünki məhz aqrobiznes ərazi sistemlərində dağıdıcı faktorların müsbət təsiri, istehsalın "artım nöqtələri", regionun sosial sferasında proseslərin sabitləşməsi şərtləri özünü göstərir(M.A.Əhmədov,2003).

Fikrimcə, dövlətaqrar siyasəti iki əsas istiqamətin həyata keçirilir:

- aqrar sahənin əsas vəzifəsi və onunla əlaqəli sahələrdə iqtisadi artım amillərinin və nöqtələrinin müəyyənləşdirilməsidir;

- yeni istehsal güclərinin yaradılmasına, kənd təsərrüfatı ilə məşğul olanların ixtisasının artırılmasına və kənd təsərrüfatı məhsulları və ərzaq məhsullarının istehsalının şəxsi rifahının və davamlı inkişafının yüksəldilməsində aqrar istehsalçıların motivasiyasının artırılmasına yönəlmiş kənd təsərrüfatı sahələrinin iqtisadi inkişafının təmin edilməsi (M.A.Əhmədov,2003).

Bununla yanaşı, kənd təsərrüfatının davamlı inkişafına yönəlmiş aqrar siyasətin son məqsədinin müəyyənləşdirilməsi də son dərəcə vacibdir. Yəni,

- artım meyillərinin qorunması, aqrosferin böhransız inkişafının təmin edilməsi, kənd təsərrüfatının çoxfunksiyalılıyinin təzahürüdür;

- ümumilikdə kənd təsərrüfatı missiyasının səmərəli həyata keçirilməsi (ölkənin ərzaq təhlükəsizliyi səviyyəsində aqrar-ərzaq sisteminin fəaliyyəti;

- kənd yerlərinin optimal məşğulluq səviyyəsinin və inkişafının təmin edilməsi, kənd landşaftlarının təbiətdən səmərəli istifadəsi və ekoloji tarazlığının qorunması və hər bir istehsalçı, o cümlədən bazar münasibətlərinin inkişafı şəraitində idarəetmə sisteminin yenidən təşkili, bazar mühitinin və işçilərin əmək fəallığının stimullarının formalaşdırılması milli iqtisadiyyatın islahatının intensivliyinin və səmərəliliyinin müəyyənedici amilləridir. Sahibkarlıq iqtisadi münasibətlərin təşkili forması kimi müəssisələrin /sahibkarların rəhbərliyinin təsərrüfat fəaliyyətinin səmərəliliyinə görə müstəqilliyi və məsuliyyəti, rəqabət mübarizəsinin strategiya və taktikasının, investisiya qoyuluşunun və qoyulan kapitalın qaytarılma templərinin işlənib hazırlanmasını nəzərdə tutur. Sahibkarlıq axtarış prosesi və maksimum mümkün mənfəət əldə etmək üçün istehsal resurslarından daha səmərəli istifadə nail olmaq(T.İ. İmanov,2008).

Bu, ilk növbədə onunla izah olunur ki, dünyada çoxlu sayda orta və iri kənd təsərrüfatı istehsalçılarına rast gəlinir(M.A.Əhmədov,2003). Rəqabətin intensivliyi yalnız təsərrüfatların ölçüsündən deyil, həm də bazarda kənd təsərrüfatı məhsulları istehsalçılarının sayından və məkan konsentrasiyasından asılıdır. Kənd təsərrüfatı sənayesinin əhəmiyyətli maliyyə resurslarına malik olan iqtisadiyyatın digər sahələrindən potensial rəqiblərə əlçatanlığının dərəcəsi də konsentrasiyanın səviyyəsinə təsir göstərir(Əbülfəz Qasımov,2003).Yaranmış bu vəziyyət bir tərəfdən yerli istehsal həcminin əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən isə ölkəmizdə ənənəvi istehsal olunan ərzaq məhsullarının idxalının kəskin artması, kənd təsərrüfatı və emal müəssisələrinin istehsal potensialının dağıdılması ilə səciyyələnir(M.A.Əhmədov,2003).Məsələn, Kənd təsərrüfatı müəssisələrinin texnika ilə təchiz edilməsi həm kəmiyyət, həm də keyfiyyət baxımından kəskin şəkildə azalmışdır. 2008-cü ildə 1990-cı illə müqayisədə 1000 hektar əkin sahəsi üzrə traktorların sayı 22,5% azalıb, bir traktorun yükü 57 ha və ya 32,5% artıb. 1000 ha əkin üçün taxılyığan kombaynların sayı 2008-cü ildə 1990-cı illə müqayisədə azalmışdır.31,8%, kartof-itələyən və kətan yetişdirən kartof isə müvafiq olaraq 5 dəfə və 6 dəfə artmışdır. (cədvəl 1).

Cədvəlin məlumatına görə, (cədvəl 1) istehsal həcminin dəyişməsi qanunauyğun nəticədir. Taxıl istehsalı (emaldan sonra kütlədə) 1994-cı ildən etibarən 638,6 min ton (31%) artmışdır. Kartof istehsalı 326,5 min ton (49,5%) kartof istehsalında əhalinin təsərrüfat payının 95,2% – ə qədər artırılması hesabına; tərəvəz istehsalı 150,3 min ton (92,3%) artıb. Ət 2008 – cü ildə yalnız 159,2 min ton və ya 67,6% 1990 – cı illərin səviyyəsinə qədər istehsal edilmişdir; 2004-cü ildə süd 661,6 min ton az, 1990-cı ildə isə 57,2% - i 1990-cı ildə istehsal edilmiş, yumurta-219,2 mln. ədəd təşkil etmişdir (73,1%), yun (fiziki çəkisi) – 7,9%. Cənub bölgəsinin aqrar sektorunda islahatlar zamanı əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər baş verdi: kənddə mülkiyyətin forması dəyişdi, iqtisadiyyatı şəraitində səmərəli inkişaf edə biləcək çoxqütblü təsərrüfat sisteminin formalaşması başladı (İllik statistika məlumatları, 1992-2015). Təsərrüfatçılığın təşkilati-hüquqi formalarının yaradılması ilə bağlı proseslərin dinamikasının təhlili ehtimal etməyə imkan verir ki, perspektivdə bir çox müəssisələr kiçik sahibkarlıq subyektləri kateqoriyasına daxil olacaqlar. Kənd təsərrüfatında kiçik sahibkarlıq subyektlərinin ən kütləvi kateqoriyası kəndli (fermer) təsərrüfatları və istehsalın xüsusi formasına malik digər müəssisələr yaradıldı. Bu sahədə aparılan islahatlar dövründə demək olar ki, bütün kənd təsərrüfatı bazar iqtisadiyyatına uyğun təşkilati-hüquqi formalara çevrilmişdir. Məsələn, şəxsi köməkçi təsərrüfatlarında orta hesabla bir ailəyə 1990 - cı ildə,18 ha torpaq, 1994 – ci ildə 23,5; 2000 – ci ildə 46,3; 2001 – ci ildə 59,2; 2003- ci ildə 85,7; 2008 – ci ildə 81,4; 2012 – ci ildə 86,1 düşürdü. Kollektivdə isə fərdi bağları və bostanları bir ailə üçün - 1990 – cı ildə 0,06 hektar torpaq, 1994 – ci ildə 0,082; 2008-ci ildə-0,086; 2012-ci ildə - 0,085; 2015-ci ildə – 0,088 hektar və.s (İllik statistika məlumatları /, 1992-2015). İqtisadiyyatının aqrar sektorunun rəqabət qabiliyyətinin aşağı olması ilə bağlı işlərin vəziyyəti aşağıdakılardan ibarətdir: kənd təsərrüfatı istehsalının inkişafı konsepsiyasının, ötən əsrin sonlarında ölkəmizdə keçirilən aqrar islahatların həyata keçirilməsində hüquqi bazanın,

geniş və keyfiyyətli istehsal və kənd təsərrüfatı məhsullarının təkrar istehsalı üçün iqtisadi şərait yaradacaq maliyyə mexanizminin olmaması[(M.A.Əhmədov,2003).

**Cədvəl 1**

**İstehsal potensialı və həcmi Cənub bölgəsində aqro-biznes sahəsində istehsal həcmi (təsərrüfatların bütün kateqoriyalarında)**

| Aqrar sahələr | 1992 | 1995 | 2008 | 2015 | 2015 ., % | |
|---|---|---|---|---|---|---|
| | | | | | 1990 | 1995 |
| Kənd təsərrüfatı sahələri, (min ha) | 5712,2<br>4756,2 | 6781,2<br>4290,89 | 6170,2<br>4032,7 | 6205,7<br>4043,0 | 92,5<br>92,8 | 94,3<br>94,2 |
| Əkin sahələri, (min ha) | 3745,0 | 3463,2 | 2923,3 | 2925,4 | 78,1 | 84,5 |
| Mal-qaranın sayı,<br>mal-qara<br>qoyun və keçi | 1686,6<br>672,2<br>975,2 | 1326,6<br>534,1<br>556,4 | 647,6<br>586,0<br>150,3 | 594,3<br>518,1<br>152,9 | 35,3<br>75,1<br>15,7 | 45,1<br>97,0<br>27,5 |
| Traktorlar 1 min hektar əkin sahəsinə düşür | 7,2 | 6,6 | 5,4 | 5,1 | 72,7 | 34,3 |
| Bir traktor üzərində əkin (ha) | 139 | 152 | 194 | 194 | 139,6 | 127,6 |
| Kombaynlar müvafiq<br>(1000 ha əkininə) | 5,6<br>11,9<br>23,5 | 4,7<br>32,7<br>53,9 | 3,5<br>54,2<br>76,2 | 3,6<br>48,8<br>125,8 | 64,3<br>411,1<br>538,0 | 76,6<br>144,8<br>233,0 |
| Müvafiq bitkilərin əkinlərini bir kombaynın, ha-nın payına düşür:<br>taxılyığan kartof-qarışıq kartof<br>kətan | 178<br>84<br>43 | 213<br>30<br>19 | 263<br>18<br>13 | 274<br>21<br>8 | 153,9<br>25,0<br>18,6 | 128,6<br>70<br>42,1 |
| İstehsal:<br>taxıl (kütləvi sonra yenidən işlənməsi), min ton<br>kartof, min ton<br>tərəvəz, min ton<br>mal-qara və quş min ton süd, min ton<br>yumurta, milyon ədəd<br>yun (fiziki kütlədə), | 2243,5<br>653,9<br>168,7<br>227,2<br>1518,8<br>774,8<br>4163 | 2550,8<br>509,7<br>167,7<br>149,4<br>1071,6<br>527,1<br>1692 | 2233,2<br>1010,1<br>317,6<br>157,2<br>907,2<br>626<br>413 | 2871,8<br>988,3<br>329,2<br>158,4<br>858,2<br>566,5<br>342 | 128<br>151,6<br>195,1<br>66,7<br>56,4<br>73,2<br>8,9 | 112,2<br>186,4<br>176,5<br>126,1<br>60,3<br>117,8<br>20,3 |

Mənbə: İllik Statistika məlumatları /, 1992-2015ci illər üzrə .

Beləliklə, aşağıdakı şərtlər iqtisadiyyatın kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin vacib şərtidir:

1. Aqrar istehsalatda iqtisadi artım və makroiqtisadi sabitlik təmin edilməsi;
2. Kənd sahibkarlığının inkişafı və kənd sakinlərinin qeyri-kənd məşğulluğu təmin edilməsi;
3. Şəhərlə bərabər sosial həyat şəraiti yaradılması;
4. Kənd ərazilərində təsərrüfat fəaliyyəti göstərən subyektlərin kredit, maddi-texniki, maliyyə və informasiya resurslarına vaxtında çıxışını təmin etmək üçün tədbirlər görülməsi;
5. Kənd sakinlərinin iqtisadi və sosial maraqlarının yüksək səviyyədə qorunmasını təmin edən bir orqan kimi formalaşması.

**Nəticə**

Bu məqalədə bazarın institusional strukturu və müasir bazar təsərrüfatının aqrar infrastrukturunun elmi konsepsiyaları araşdırılır. Regionun aqrar sahəsində islahatların gedişinin təhlili ilə bağlı özəl məsələlər nəzərdən keçirilir və aqrar infrastruktur inkişaf göstəricilərinin dəyişməsinin əsas tendensiyaları təqdim olunub. Aparılan tədqiqat göstərdi ki, kənd təsərrüfatının sosial və istehsalat infrastrukturu ilə təminatın səviyyəsi qeyri-sabit olaraq qalır. Bu vəziyyət təkrar istehsalın dinamikasının ləngidilməsinə gətirib çıxara bilər. Kənd təsərrüfatı xammalından ərzaqla təminata mənfi təsir göstərə bilər. Məqsəd aqrar bazar infrastrukturunun, onun institusional strukturunun formalaşması və fəaliyyəti ilə bağlı aqroekonomik elmin metodoloji əsaslarının öyrənilməsi; mövcud infrastrukturun inkişafının təhlili üçün qiymətləndirmə alətinin praktiki tətbiqi üzrə metodik müddəaların işlənib hazırlanması, regionun aqrar iqtisadiyyatının institusional strukturunun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasıdır...Beləliklə, kənd təsərrüfatı təşkilatlarının rəhbərləri bu gün anlamalıdırlar ki, gənc kadrları cəlb etmək və kənd sakinləri üçün vacib olan prioritet problemləri həll etmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əbülfəz Qasımov, "Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi" Bakı 2005
2. M.A.Əhmədov, "Qloballaşma və Milli iqtisadiyyatın formalaşması" Bakı 2003
3. T.İ. İmanov, İstehsal vasitələri bazarının dövlət tənzimlənməsi məsələləri //Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi əsərləri, Bakı.: 2007, s. 50-56
4. T.İ. İmanov "İstehsal vasitələri bazarı: problemlər və perspektivlər" Bakı 2008
5. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" – 6 dekabr 2016-cı il
6. M.H.Meybullayev "Mikroiqtisadiyyata giriş" Bakı 2010

Rus dilində:

7. Фальцман В., Синицын В. Стратегия промышленного роста. / Экономист, 1998, № 8.
8. Хермансдорфер У. Приватизация с точки зрения критического западного опыта,.2014.
9.Зущина Г.М. Трудовые ресурсы и трудовой потенциал общества / Г.М. Зущина,Л.А. Костин. – М. – 1996. – 144 с

İnternet resursları:

10. www.economy.gov.az
11. www.agro.gov.az
12. /www.fadr msn.rn/archives/mailmg-list/priv-agr/art-rus/msg 00002 html

**Elmaz İlyasovna Uzun**
AMEA-nın İqtisadiyyat İnstitutu elmi işçi,
E-mail: almazuzun96@yahoo.com

# SƏNAYESNİN RƏQABƏTLİLİYİ İNDEKSİNDƏ RESPUBLİKAMIZIN MÖVQEYİNİN YAXŞILAŞDIRILMASI

**Xülasə**

Sənayenin təqabətqabiliyyətli olması dövlətin diqqətində olan real həyati əhəmiyyətli məsələdir. Sənayenin rəqabətqabiliyyətliliyi inkişaf etmiş yerli istehsal, əhalinin mşğulluğunun təmini, idxalın əvəzlənməsi, ixrac imkanları, büdcə gəlirlərinin artması, idxaldan aslılığın aradan qaldırılması deməkdir. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi isə beynəlxalq aləmdə müsbət təsürat deməkdir. Məqalədə sənayenin rəqabətqabiliyyətliliyi barədə məlumat verilmiş, sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə beynəlxalq reytinqlərdə respublikamızın mövqey ilə tanış olunmuş, mövcud vəziyyət qiymətləndirilmiş və yaxşılaşdırılması istiqamətində təkliflər irəli sürülmüşdür.

**Açar sözlər. Sənayenin rəqabətqabiliyyətliliyi, sənayenin rəqabətqabiliyyətliliyi indeksi, qlobal rəqabət indeksi**

Sənayenin rəqabətqabiliyyətli olması dövlətlərin daim diqqət mərkəzində olan strateji məsələlərdən biridir. Dövlətlərin qarşısında duran əsas vəzifələrdən biri həm daxili, həm də xarici bazarlarda rəqabətin zəif və güclü sahələrini müəyyənləşdirərək özlərinin sənaye siyasətlərinə və qanunvericiliyinə müvafiq tənzimləmələri əlavə etməkdir. Sənaye rəqabətqabiliyyətli olması davamlı iqtisadi inkişaf üçün olduqca əhəmiyyətlidir. O sahəvi ixtisaslaşmanı, ixrac potensialını formalaşdırmaqla yanaşı ümumi dövlətin gəlirlərinin artmasına, rifah və uzunmüddətli davamlı inkişafa töhfə verir.

Qeyd edim ki, BMT-nin Sənaye İnkişaf Təşkilatı 2 ildən bir olmaqla "Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti" haqqında hesabat hazırlayır. "Sənayenin Rəqabətqabiliyyətliliyinin vəziyyəti" adlı hesabatda ölkələrin emal sənayesinin güclü və zəif tərəfləri haqqında məlumat verilməklə onun rəqabətqabiliyyətlilik səviyyəsi qiymətləndirilir. Müvafiq hesabatda emal sənayesinin durumu sənayesnin rəqabətqabiliyyətliliyi indeksi vasitəsi ilə qiymətləndirilir.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi (SRİ) sənayenin istehsal və ixrac imkanlarını, onun istehsal və ixrac strukturunu, dünyaya təsir gücünü, havaya buraxdığı zərərli qazların həcmini özündə cəmləşdirilən göstəricilər sistemi əsasında hesablanır. SRİ-də ölkə sənayesinin rəqabətqabiliyyətliliyi: istehsalın rəqabətqabiliyyətliliyi, texnoloji rəqabətqabiliyyətlilik və ixracın rəqabətqabiliyyətliliyi kimi üç ümumiləşdirilmiş (çoxölçülü) parametrlə ölçülür. Qeyd edildiyi kimi SRİ ölkənin emal sənayesi göstəricilərini əks etdirir və sənaye imkanlarının qiymətləndirilməsi üçün əsas ola bilər. Belə ki daha yüksək SRİ daha böyük sənaye imkanları ilə bağlıdır.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi özünə hər biri iki göstərici (sub-indeks) daxil olmaqla üç parametrlə ölçülür. Bunlar aşağıdakılardır:

- ***istehsal gücü və ixrac imkanları:*** Bu parametrə iki göstərici daxildir: emal sənayesində adambaşına düşən əlavə dəyər (***$MVA_{pc}$)***, ixrac edilən emal sənayesi məhsulunun adambaşına həcmi (***$MX_{pc}$)***,
- ***texnoloji dərinləşmə və təkmilləşmə:*** Bu parametrə sənayeləşmənin intensivliyi (**INDint**) və ixracın keyfiyyəti (**MXQual**) göstəriciləri daxildir.
- ***beynəlxalq təsirlər:*** Bu parametrə isə dünya emal sənayesində yaradılmış əlavə dəyərdə ölkənin payı (***ImWMA***) və dünya sənaye məhsulları ticarətində ölkənin payı (***ImWMT***) göstəriciləri daxildir.

Bu üç parametr üzrə daha yüksək qiymət (0-1 arasında) alan ölkənin sənayesinin rəqabətqabiliyyətliliyi bir o qədər yüksək hesab olunur.

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi bu ölçülər əsasında aşağıdakı düstürla hesablanır:

$$\text{CİP index} = \sqrt[6]{MVA_{pc}\ x\ MX_{pc}\ x\ \text{INDint x MXQual x}\ ImWMA\ x\ ImWM} \quad (1)$$

Sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə sıralanmada respublikamız 2018-ci ildə 120 yerdə qərarlaşıb. Respublikamız 2018-ci ildə 2017-ci illə müqayisədə 1 sıra, 2012-ci illə müqayisədə 12 sıra geriləmişdir. Əlavə edim ki, sənayenin rəqabətqabiliyyətliliyi indeksində keçmiş SSRİ məkanından Tacikstan və Qırğızıstan respublikamızdan sonrakı, yerdə qalan dövlətlər isə respublikamızdan əvvəlki sıralarda qərarlaşıb. SRİ –də mövqeyimizin yaxşılaşdırılması üçün iqtisadiyyatda, o cümlədən emal sənayesində mövcud problemlər həll edilməlidir.

Hazırda Qlobal rəqabət indeksi, Qlobal innovasiya İndeksi, Biznes Mühiti Hesabatı və s. beynəlxalq reytinqlərdə investorların müdafiə səviyyəsinin çox aşağı olması, müsadirə riskinin olması, məhkəmə prosesinin keyfiyyətinin çox aşağı səviyyədə olması, qərəzli məhkəmə qərarlarının verilməsi, qeyri-müntəzəm ödənişlərin yüksək olması, yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının biznesin işinə müdaxiləsi, məhkəmə qərarlarının icra edilməməsi və s. bu kimi sıra problemlər mövcudluğu ölkənin reytinqinə mənfi təsir göstərən amil kimi qiymətləndirilir.

Qeyd etdiyimiz bu problemlər sənayenin rəqabətqabiliyyətliliyinə birbaşa təsir edir. Sənayenin rəqabətqabiliyyətliliyini yüksəltmək və sənayenin rəqabətqabiliyyətliliyi üzrə beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması üçün ilk növbədə rəqabətqabiliyyətliliyin müəyyən ediciləri sahələrində irəliləyişə nail olmaq lazımdır. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi üzrə reytinqdə respublikamızın mövqeyinin yaxşılaşdırılması üçün həm mövcud emal sənayesi müəssisələri yenidən bərpa edilməli, bazarların müasir durumu və gələcək inkişaf istiqamətləri nəzərə alınmaqla klasterlar yaradılmalı, həm də mövcud müəssisələrin potensial imkanlarından tam istifadə edilməlidir.

Texnoloji dərinləşmə və təkmilləşmə subindeksində artıma nail olmaq üçün kimya və müdafiə sənayesi məhsulları istehsalı və ixracı sahəsində müsbət nəticəyə nail olmaq lazımdır. Bu sahədə imkanlar mövcuddur, imkanlardan istifadə üçün əlverişli şərait yaradılmalıdır.

Əlavə edim ki, "Sənayenin Rəqabətqabiliyyətliliyi indeksi" üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması hazırkı şəraitdə mümkün imkanlardan ardıcıl şəkildə istifadəni tələb edir. İlk öncə əlverişli biznes şəraiti təmin edilməlidir.

Yuxarıda qeyd edilən problemlərin həlli və sənayenin rəqabətqabiliyyətliliyinin müəyyən ediciləri baxımından onun yüksəldilməsinin təmin edilməsi üçün mənim fikrimcə aşağıda qeyd edilən təkliflərin həyata keçirilməsi daha məqsədəuyğun olar:

1. İnvestisiyaların hüquqlarının müdafiəsi yüksək səviyyədə təmin edilməlidir, onların hüquqları daha ciddi qorunmalıdır. Hər şeydən öncə qanunların aliliyi təmin edilməli və məhkəmə qərarları icra edilməlidir.
2. Yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının biznesin işinə müdaxiləsinə bütünlüklə son qoyulmalıdır. Yəni yerli icra hakimiyyəti və hüquq mühafizə orqanlarının bu sahədəki səlahiyyətləri tam ləğv edilməlidir.
3. Regionlarda istehsal yönümlü biznes obyektlərinin vergi yükü azaldılmalıdır. Daha yaxşı olar ki regionlarda yerləşən istehsalçı sənaye müəssisələri 15-20 il müddətinə mənfəət vergisindən azad edilsin. Bu qazanılan mənfəətin təkrar investisiya kimi yönəldilməsinə imkan yaradar və regionlarda emal sənayesi müəssisələrinin yaranmasına səbəb olar.

## ƏDƏBİYYAT SİYAHISI:

1. UNIDO 2019. "Competitive Industrial Performance Index". (CIP) https://stat.unido.org/cip/# 20.11.2020
2. İndustrial Development Report 2020
3. Transparacy international təşkilatının saytı. www.transparency.org. 23.03.2020
4. Sadıqov Ş.T. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi və Azərbaycanın bu indeks üzrə beynəlxalq mövqeyinin yaxşılaşdırılması. AMEA-nın İqtisadiyyat İnstitutunun "İqtisadi artım və ictimai rifah" elmi jurnalı, №1, 2020, s.50-64.

**Vüqar Nüsrət oğlu Vəliyev**
Azərbaycan Dövlət Aqrar Universiteti doktorantı
E-mail: v.veliyev@rambler.ru

## SƏNAYE MƏHSULU SATIŞININ PROQNOZLAŞDIRILMASI ÜSULLARI

Proqnozlaşdırma müəssisənin gələcək inkişafı üçün müxtəlif uyğun sahələrin (istehsal və investisiya fəaliyyəti,iqtisadi risk və s.) mümkün alternativlərinin öyrənilməsini müəyyən etməyə yönəlmiş fəaliyyətdir.

Müəssisələrin fəaliyyətində ən mühüm proqnoz satış proqnozlarıdır. Hansı ki, istehsal fəaliyyətini təmin etmək üçün bu proqnozlar xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, bir çox müəssisələr üçün həm də iqtisadi risk proqnozları, investisiyalar və texnoloji yeniliklərlə bağlı proqnozların da əhəmiyyəti böyükdür. Proqnozların uzunmüddətli tədbirlər tələb etmə 068s8urr-ou təsərrüfat subyektlərinun əhəmiyyətli kapitalı tam və etibarlı əldə etmək imkanlarına malik olmasını şərtləndirir.

Təcrübədə satışın proqnozlaşdırılmasının müxtəlif üsulları vardır ki, onlardan ən çox yayılanları aşağıdakılardır:

1) Müəssisə üzrə müxtəlif xidmət və şöbələrin rəhbərləri qrupunun birgə proqnozlar sorğusu. Bu halda, faktiki satış proqnozu müşahibə edilən liderlər qrupunun fikirləri və qeydləri əsasında müəyyən edilir. Bu proqnozlaşdırma üsulu yeni yaradılan subyektlər üçün ən uyğunudur. Bu üsul kifayət qədər təcrübəsi olmayan müəssisələr üçün başqalarının təcrübəsindən istifadə etmək baxımından ən əlverişli üsul hesab edilə bilər. Bu üsul bazarın vəziyyəti ilə bağlı ətraflı hesablamalar və müəyyən növ məhsulların satış tendensiyaları haqqında tam statistik məlumat olmadıqda da tətbiq oluna bilər;

2) Müəssisənin ayrı-ayrı satış agentlərinin qiymətləndirmələrinin ümumiləşdirilməsi və bu nəticələrə uyğun olaraq satış şöbələrinin rəhbərlərinin proqnozları. Bu vəziyyətdə bazar təhlili reaksiyanı bilavasitə hiss edənlərin rəyi ilə tamamlanır. Burada istehlakçılar kiçik dalğalanmaları ən kəskin şəkildə hiss edir. Bu üsul regional aspektdən nəzərə alınaraq fərdi işçilər və ya satış menecerləri vasitəsilə bölgələrdən ayrı-ayrı məhsulların satışının həyata keçirilməsi xüsusiyyətləri haqqında əlavə məlumatların əldə edilməsinə imkan verir.

Bu üsulla hesablamaların dəqiqliyi müqayisədə daha yüksəkdir, amma bu cür işlərin təşkili böyük məsrəflərlə bağlıdır. Xərclər əsasən əlavə əmək xərcləri, mütəxəssislər və analitiklər, məlumatların

işlənməsi kimi işlərə xərclərlə xarakterizə olunur. Baxmayaraq ki, firmalar (xüsusilə aparıcı sənaye şirkətləri) öz markasını qiymətləndirərək dünya səviyyəli istehsal imicini qazanmaq və ya bazarda birinci olmağa can ataraq heç vaxt bu xərclərə qənaət etmir, eyni zamanda bu istiqamətdə tez-tez xüsusi prosedurların işlənməsini tələb edir. Bu xərclərin effektiv idarə edilməməsi və düzgün planlaşdırılmaması əks halda, firmaların maliyyə vəziyyətinə mənfi təsir göstərə bilər;

3) Keçmiş dövriyyəyə əsaslanan proqnozlaşdırma. Bu halda, proqnozlaşdırma üçün əsas kimi ötən ilin satışları haqqında məlumatlar əsas götürülür və gələcək satış ehtimalı müəyyənləşdirilir. Nəticə etibarilə gələn ilin dövriyyəsi cari ilin dövriyyəsini müəyyən qədər üstələyəcək və ya ondan yuxarı olacaq hədəfi satış komandası qarşısında müəyyənləşdirilir. Bu proqnozlaşdırma metodu sənaye və bazarlar üçün uyğundur. Sabit iqtisadi mühit, bir qədər dəyişən mal və xidmətlərin çeşidi, cüzi dalğalanmalar effekti yarada bilər. Eyni zamanda ləng elmi-texniki tərəqqi əmtəə dövriyyəsini də ləngidə bilər;

4) Trendlərin, dövrlərin və dəyişikliklərə səbəb olan amillərin təhlili satış həcmini artıra bilər. Meyllər və statistik əhəmiyyətli əsas amillər satış proqnozu ehtimalının müəyyənləşdirilməsinə əsaslanır. Adətən aşağıdakı əsas amillər nəzərə alınır: uzunmüddətli biznesin böyümə tendensiyaları, işgüzar fəaliyyətdə dövri dalğalanmalar, satışlarda mövsümi dəyişikliklər, mümkün qeyri-müntəzəm təsirlər, texniki yerdəyişmələr, bazarda yeni rəqiblərin meydana çıxması. Bu üsul ən çox uzunmüddətli proqnozlar üçün üstünlük verilir. Bu üsuldan istifadə edərək, 3-5 ildən az müddətə satışları proqnozlaşdırmaq çətindir. Bu üsul ən çox kapital tutumlu sənayelərdə tətbiq edilir;

5) Korrelyasiya təhlili - statistik əhəmiyyətliliyin müəyyən edilməsi şirkətin məhsullarının satışına təsir edən amillərdəndir. Əvvəlki metodu məntiqi olaraq tamamlayır, lakin daha mürəkkəb elmi əsaslarla statistik bazar təhlili aləti hesab edilir. Bu metodun tərkibində xüsusi sorğuların keçirilməsi mövcud təsirləri müəyyən edir və müəssisənin satış səviyyəsi ilə iqtisadiyyatın müxtəlif aspektləri arasındakı təsiri (satışa) məntiqi sübuta yetirilməli olan fəaliyyətləri və ya əsaslandırılmış nüansları üzə çıxarır. Beləliklə, bu nüanslar müəyyən edilir, təsir dərəcəsinə görə sıralanır və gələcəkdə satış həcminin asılı ola biləcəyi ən mühüm amillər müəyyənləşdirilir. Bu proqnozlaşdırma üsulu mütləq ciddilik tələb edir. Xüsusi, mürəkkəb və buna görə də olduqca bahalı üsul olduğundan, həmişə sərfəli bazar araşdırması hesab edilmir. Bununla belə, bu üsuldan istifadə edərək ən sabit iqtisadi sektorlar üzrə ən dəqiq nəticələr əldə etmək olar;

6) Firmanın satışlarının "bazar payı" əsasında proqnozlaşdırılması. Satış firmanın bazar payının müəyyən faizi olaraq proqnozlaşdırılır. Bu sənayenin, sonra isə müəssisənin cəmində bütün sənayedə satış payının hesablanması üsuludur. Bu üsuldan istifadə edərkən, ilk növbədə, bütün sənaye üçün proqnozun düzgünlüyünə əmin olunmalı, ikincisi, burada qeyri-qiymət rəqabəti nəzərə alınmalıdır (yeni məhsullar və xidmətlər səviyyəsində);

7) Son istifadə və onun təhlili. Müəssisənin əsas müştərilərinin gözlənilən sifariş həcmi bu vəziyyətdəki proqnoza əsaslanır (cəmi satış həcmi adətən bu rəqəmi əvvəlcədən müəyyən edilmiş həddə müəyyən faiz civarında üstələyir). Bu metodun tətbiqi xüsusi tədqiqatlar tələb edir. Bu metoda ən çox üstünlük xammal-energetika kompleksi, o cümlədən müəssisələrdə son hissələrin və birləşmələrin istehsalı sektorlarında verilir;

8) Satış proqnozları verilən malların çeşidinin təhlili. Bu zaman ayrı-ayrı məhsul növləri bir araya gətirilərək planlaşdırılmış dövriyyə təşkil edilir. Bu üsul diversifikasiya (şaxələndirmə) üçün ən uyğundur. Lakin, ümumi proqnozun düzgünlüyü tamamilə təfərrüatlardan asılıdır. Firmalar hər bir məhsul növü üzrə bazar araşdırması aparmaq məcburiyyətində qalır ki, bu da öz növbəsində yüksək xərclər tələb edir;

9) Sınaq marketinqi. Bəlkə də bu, ən ləng yanaşmadır. Yeni bir məhsul və ya hər hansı bir satış proqnozu hazırlamaqla məhsulun təşviqi sistemində dəyişikliklər həyata keçirilir. Əvvəlcə çox kiçik bir bazarda (məsələn, yerli bazarda) gələcəkdə milli miqyasda ediləcək hər şeyi simulyasiya etmək cəhdi və ya gələcək proqramın komponenti kimi daha böyük bölgədə yeni məhsulun bazarda təşviqi (qiymətlər və reklam növləri, paylama kanalları və qablaşdırma növü) kimi məhdud istehlakçılar qrupu üzərində sınaqlar keçirilir. Alınan məlumatlar işlənildikdən sonra satış proqnozu ilə bağlı məhsullar üzrə müvafiq qeydlər bütün ölkə üzrə satış əməliyyatlarına şamil edilir;

10) Ehtimalın standart paylanması üsulları. Yəni, qiymətləndirmə metodu və şəbəkə modelləri və metodlarından istifadə etməklə planlara yenidən baxılması üzərindən planlaşdırma və idarəetmə.

Qabaqcıl iqtisadiyyatların təcrübəsi göstərir ki, sənaye məhsullarının istehsal həcmlərinin artması – inkişaf, əməkdaşlıq və inteqrasiya, o cümlədən kompleks istehsalın həyata keçirilməsinin əsas yolu müasir metod və texnologiyalara əsaslanan satışın təşkilidir.

Onu da nəzərə almaq vacibdir ki, müəssisələrin rentabelliyinin əldə edilməsinin əsas istiqamətlərindən biri də satılan məhsullar üzrə təşkil edilmiş marketinq xidmətləridir. Bu mərhələdə eyni zamanda əmtəə bazarlarında ayrı-ayrı məhsul növlərinin satış perspektivlərini daha da dəqiq qiymətləndirmək üçün gəlirlilik əsasında məhsulların sıralanması imkanı yaranır ki, bu da gələcək müvafiq proqnozlarla bağlı əsas hesab edilə bilər. Bu yanaşma nəticə etibarilə şirkəti müştərilərin tələblərinə uyğun bir sıra yeni çeşiddə məhsullar hazırlamağa, rəqabət qabiliyyətini artırmağa yönəlik fəaliyyət göstərməyə təşviq edir.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü illər);
2. Abbasov Anar Fazil oğlu. Ərzaq təhlükəsizliyi, Bakı 2007;
3. Abbasov İsmət Dursun oğlu. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri, Bakı 2011;
4. Abbasov Vahid Hacıbəy oğlu. Aqrar iqtisadiyyat, Bakı 2017.

**Mahir Həmzə oğlu Zeynalov**
İqtisad üzrə fəlsəfə doktoru, dosent
AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi
E-mail: zeynalli75@mail.ru

# AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYE SEKTORUNDA BİZNES MÜHİTİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI

## Xülasə

Məqalədə son illər Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən iqtisadi islahatlardan, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi tədbirlərindən bəhs edilir. Ölkənin qeyri-neft sənaye sektorunda sahibkarlar üçün əlverişli biznes mühiti, yeni sahibkarlıq subyektlərinin yaradılması və özəl sektorun inkişafı meyilləri təhlil olunur.

**Açar sözlər.** Sənaye, sahibkarlıq, biznes mühiti, iqtisadi islahatlar, özəl sektor.

Azərbaycanda sənaye sektorunda sahibkarlığın inkişafı üçün əlverişli biznes mühiti formalaşıb. Bunun nəticəsidir ki, son illərdə bu sektorda özəl sektorun xüsusi çəkisi artıb, yeni sahibkarlıq müəssisələri yaradılıb. Nəticədə sənaye istehsalında, xüsusən də qeyr-neft sənayesində artım meyilləri müşahidə olunur.

Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlığın rolunun artırılması, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi; biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi; dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması; özəl investisiyaların dominant rolunun təmin edilməsi; kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi; şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın minimuma endirilməsi islahatların prioritet istiqamətlərindəndir [1, səh.4].

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar, qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əsaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir. Həyata keçirilən islahatların nəticəsi olaraq ölkəmiz biznes fəaliyyətinin daha da asanlaşdırılmasını

təmin edib. Ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Dövlət müxtəlif iqtisadi rıçaqlar və təşviq mexanizmləri ilə ölkə sənayesində, xüsusən də qeyri-neft sektorunda sahibkarlığın inkişafını dəstəkləyir və onu stimullaşdırır, sahibkarlar üçün daha əlverişli biznes mühiti yaratmaq məqsədilə islahatlar həyata keçirilir. Çünki ölkə sənayesinin inkişafı bu sektorda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsindən asılıdr. Bu məqsədlə Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində islahatlar davam etdirilir, pandemiyanın özəl sektora mənfi təsirlərini azaltmaq, qeyri-neft sənaye sahələrində sahibkarlığın inkişafını stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sahibkarlığın dəstəklənməsi və inkişaf etdirilməsi mühüm istiqamətlərdən biri kimi qeyd olunub. Sənəddə nəzərdə tutulur ki, iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir. İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır [2].

Azərbaycan Respublikasının uzunmüddətli dövr üçün inkişaf strategiyasının üzvü tərkib hissəsini biznes mühitinin daha da yaxşılaşdırılması və sahibkarlığın inkişafı təşkil edir. Azərbaycanda həyata keçirilən məqsədyönlü və sistemli islahatlar nəticəsində son 15 ildə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, ölkədə güclü özəl sektor formalaşmış, biznes və investisiya mühiti daha da yaxşılaşmış, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir [3, səh.5].

Müstəqillik illərində ölkə sənayesində özəl sahibkarlıq süktorunun xüsusi çəkisi əhəmiyyətli həcmdə böyüyüb və üstünlüyə sahib olub. Belə ki, əgər 1997-ci ildə sənayenin 75%-i dövlət sektorunun, 25%-i özəl bölməsnin payına düşürdüsə, sonrakı illərdə bu nisbət özəl sektoruna xeyrinə dəyişərək 2000-ci ildə dövlət 51,6%, özəl 48,4%, 2005-ci ildə dövlət 29,4%, özəl 70,6%, 2010-cu ildə dövlət 19,9%, özəl 80,1%, 2015-ci ildə dövlət 23,6%, özəl 76,4%, 2020-ci ildə dövlət 21,7%, özəl 78,3% təşkil etmişdir (Cədvəl 1). [4].

**Cədvəl 1**

**Azərbaycan sənayesində dövlət və özəl sektorun pay nisbəti, faizlə**

| İllər | 1997 | 2000 | 2005 | 2010 | 2015 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Sənaye üzrə cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Dövlət sektoru | 74,9 | 51,6 | 29,4 | 19,9 | 23,6 | 17,9 | 21,7 |
| Özəl sektor | 25,1 | 48,4 | 70,6 | 80,1 | 76,4 | 82,1 | 78,3 |

Mənbə: AR Dövlət Statistika Komitəsi [4].

Azərbaycan Respublikasının dövlət siyasəti iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsini, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutur. Uğurla həyata keçirilən bu siyasətin nəticəsi olaraq son illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır. Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanı ilə müəyyən edilmişdir. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır [5].

Ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin əsas hissəsi özəl sahibkarlıq müsəssisələrinin payına düşür. 2020-ci ildə 3389 sənaye müəssisəsinin 556-sı (16,4%-i) dövlətə, 2833-ü özəl sektora (83,6%-i) məxsus olmuş, habelə onlardan 2435-i və ya 71,85%-i xüsusi mülkiyyətə, 115-i birgə, 283-ü xarici mülkiyyətə aiddir (Cədvəl 2).

**Cədvəl 2**

**Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (mülkiyyət növlərinə görə), vahid**

| İllər | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Bütün mülkiyyət növləri üzrə | 2650 | 2583 | 2561 | 2582 | 2837 | 3169 | 3389 |
| Dövlət mülkiyyəti | 549 | 577 | 573 | 530 | 537 | 562 | 556 |
| Qeyri-dövlət mülkiyyəti | 2101 | 2006 | 1988 | 2052 | 2300 | 2607 | 2833 |
| **Xüsusi mülkiyyət** | **1883** | **1752** | **1734** | **1779** | **1975** | **2234** | **2435** |
| Birgə(qarışıq) mülkiyyət | 90 | 75 | 73 | 78 | 92 | 97 | 115 |
| Xarici mülkiyyət | 128 | 179 | 181 | 195 | 233 | 276 | 283 |

Mənbə: AR Dövlət Statistika Komitəsi [4].

Son 10 ildə Azərbaycanda sənaye müsəssisələrinin sayında artım dinamikası müşahidə olunur ki, bunun da əsas səbəbi yeni özəl sahibkarlıq subyektlərinin yaradılmasıdır. 2010-cu ildə ölkədə 2650 sənaye müsəssisə olduğu halda, son illərdə artaraq 2020-ci ildə 3389-a yüksəlmişdir. Habelə sənayedə özəl müəssisələrin sayı 2017-2020-ci illərdə çoxalaraq 2833 təşkil etmişdir. Göründüyü ki, ölkə sənayesində yaradılmış əlverişli biznes mühiti bu sektorda sahibkarlıq müəssisəslərinin sayının hər il artmasına və xüsusi çəkisinin böyüməsinə şərait yaratmışdır.

Ölkədə yaradılmış əlverişli biznes mühiti və sahibkarlığın inkişafının nəticəsi olaraq qeyri-neft sektorunda sənaye məhsullarının istehsalında artım baş verir. Belə ki, 2021-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 54,5 milyard manatlıq və ya 2020-ci illə müqayisədə 5,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 18,9 faiz artmışdır. Sənaye məhsulunun 64,5 faizi mədənçıxarma sektorunda, 29,9 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 0,1 faiz, əmtəəlik qaz hasilatı 23,0 faiz artmışdır [6].

2021-ci ildə emal sektorunda tikinti materiallarının istehsalı 80,6 faiz, əczaçılıq məhsullarının istehsalı 58,3 faiz, tütün məmulatlarının istehsalı 54,0 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 46,7 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 29,8 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 26,8 faiz, kağız və karton istehsalı 26,5 faiz, kimya sənayesi məhsullarının istehsalı 25,5 faiz, mebel istehsalı 24,8 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 21,3 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 17,4 faiz, hazır metal məmulatlarının istehsalı 17,4 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 16,9 faiz, neft məhsullarının istehsalı 13,4 faiz, qida məhsullarının istehsalı 10,2 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 8,3 faiz, içki istehsalı 2,3 faiz artmışdır. Bununla belə, maşın və avadanlıqların istehsalı 9,1 faiz, elektrik avadanlıqlarının istehsalı 11,2 faiz, geyim istehsalı 21,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 38,3 faiz, poliqrafiya məhsullarının istehsalı 45,2 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 92,6 faiz azalmışdır.

2022-ci ilin əvvəlindən də fərdi sahibkarlar tərəfindən qeyri neft-qaz sektorunda istehsal olunan sənaye məhsullarının həcmində artım meyilləri müşahidə olunmuşdur. Belə ki, 2022-ci ilin yanvar-mart aylarında ölkənin sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 20,6 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri neft-qaz sektorunda isə 18,1 faiz artmışdır. Sənaye məhsulunun 73,7 faizi mədənçıxarma sektorunda, 21,6 faizi emal sektorunda, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur [7].

Azərbaycan hökumətində əmindirlər ki, neftdən asılılığın minimuma endirilməsini yalnız qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənaye sahələrinin səmərəli inkişafı təmin edə bilər. Ancaq

bəzi hökumət rəsmiləri hesab edirlər ki, hökumətin qeyri-neft sənaye siyasəti, sadəcə olaraq, sahibkarlığa kğmək tədbirlərinin davam etdirilməsindən ibarət olmalıdır. Hökumətin vəzifəsi belə müəssisələrin normal fəaliyyətinə etibarlı təminat mexanizmləri yaratmaqdan ibarət ola bilər. Bizim fikrimizcə, hökumət indiyə qədər olduğu kimi, gələcək illərdə də qeyri-neft sənaye sektorunun ölkənin iqtisadi inkişafında aparıcı rola malik olmasını təmin edən vəzifələrin dövlət-özəl partnyorluğu əsasında həyata keçirməlidir [8, səh.325].

**Nəticə**

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi tədbirləri ölkədə qeyri-neft sənayesinin inkişafına təkan vermiş, yeni sənaye müəssisələri, sahibkarlıq subyektləri yaradılmışdır. Sənaye müsəssisələrinin sayında artım dinamikası müşahidə olunur ki, bunun da əsas səbəbi yeni özəl sahibkarlıq subyektlərinin yaradılmasıdır. Müstəqillik illərində ölkə sənayesində özəl sahibkarlıq süktorunun xüsusi çəkisi əhəmiyyətli həcmdə böyüyərək 78,3% təşkil etmişdir. Nəticədə ölkənin qeyri-neft sənayesində özəl sektorun rolu və əhəmiyyəti artmış, aparıcı qüvvəyə çevrilmişdir. Habelə qeyri-neft sənaye məhsullarının istehsalında artım meyilləri müşahidə olunur. Bütün bunlar isə ölkə sənayesinin gələcək inkişafının da məhz özəl sahibkarlıq fəaliyyəti ilə birbaşa bağlı olacağını göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. "Azərbaycanda biznes mühiti – 2020: reallıqlar və perspektivlər". AMEA İqtisadiyyat İnstitutu, kollektiv monoqrafiya. Bakı, "Elm və Bilik" P.Z... – 2021, 120 s.
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/articles/50474. "Azərbaycan" qəzeti, 03.02.2021.
3. T.N.Əliyev "KLASTERLƏR: beynəlxalq təcrübə və innovativ inkişaf". Monoqrafiya. Bakı, "Elm və Bilik", 2019, 536 səh.
4. "Azərbaycanın sənayesi". Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet saytı. https://www.stat.gov.az/. 05.05.2022.
5. Sənaye məhəllələri. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. https://www.economy.gov.az/article/senaye-mehellesi/22757 . 05.05.2022
6. 2021-ci ildə sənaye istehsalı haqqında. AR Dövlət Statistika Komitəsinin internet saytı. https://www.stat.gov.az/news/index.php?id=5097. 05.05.2022.
7. 2022-ci ilin yanvar-mart aylarında sənaye istehsalı haqqında. AR Dövlət Statistika Komitəsinin internet saytı. https://www.stat.gov.az/news/index.php?id=5179. 05.05.2022.
8. T.Hüseynov. "Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika". Bakı, "Elm", 2015, 466 səh.



**Лала Адиль гызы Гамидова**

кандидат экономических наук, доцент

Азербайджанский Государственный Экономический Университет

E-mail: lala_hamidova@unec.edu.az


# ДИВЕРСИФИКАЦИЯ КАК ОСНОВА ДИНАМИЧЕСКОГО РАЗВИТИЯ ПРОМЫШЛЕННОСТИ

## Резюме


Основная цель исследования заключается в анализе отраслей перерабатывающей промышленности и разработке рекомендаций по возможностям экономической диверсификации промышленности страны. Для достижения данной цели были поставлены и решены следующие задачи: обоснована необходимость диверсификации экономики; анализирована структура промышленности; рассмотрены институциональные аспекты диверсификации. В результате исследования было выявлено, что для проведения эффективной

диверсификации необходимо развитие перерабатывающих отраслей, расширение доступности малых и средних предприятий к финансовым средствам, стимулирование иностранных инвестиций в ненефтяной сектор.

**Ключевые слова:** диверсификация, промышленность, ненефтяной сектор, Азербайджан

## Введение

Одной из актуальных проблем на современном этапе развития Азербайджана является необходимость в диверсификации его промышленности. В настоящее время акцент на диверсификацию промышленности выступает одним из основных ориентиров стратегического развития страны. Известно, что существующая структура промышленности характеризуется низким уровнем диверсификации. Это обусловлено прежде всего тем, что за период перехода к рыночным отношениям наибольшее развитие получили экспортоориентированные сырьевые отрасли. Одним из основных результатов диверсификации промышленного сектора экономики должна стать его более сбалансированная структура.

Сегодня мы с большой уверенностью отмечаем, что разработанная Общенациональным лидером Гейдаром Алиевым нефтяная стратегия приносит большой успех нашей стране. Как логическое продолжение нефтяной политики, успешно реализуется политика диверсификации экономики. Следует отметить, что проведение политики диверсификации достаточно сложный процесс, требующий значительного времени и финансовых средств, и в настоящее время без государства не представляется возможным осуществление этого процесса. Именно поэтому государству принадлежит основная роль в осуществлении политики диверсификации.

Актуальность данной темы исследования связана со значительными переменами в экономике Азербайджана, которые требуют применения совершенно новых способов управления, а также и новой информации. Одним из важных вопросов на нынешнем этапе становится усиление конкурентоспособности промышленных предприятий. Диверсификация промышленности как инструмент ликвидации непропорционального развития ее отраслей, обусловливает направленность на развитие преимущественно ненефтяного сектора.

Диверсификация промышленности, предполагающая снижение сырьевой зависимости, отход от нефтяного сектора, развитие отраслей с высокой долей добавленной стоимости, создание высокотехнологичных производств на основе модернизации, является ключевым приоритетом развития экономики Азербайджана.

Под экономической диверсификацией понимают в первую очередь, реструктурирование, направленное на совершенствование и развитие различных ее отраслей. Диверсификация необходима, прежде всего, для стран с богатыми природными (особенно топливно-энергетическими) ресурсами, в том случае, если в ВВП страны преобладают сырьевые ресурсы, при этом недоразвитыми остаются аграрный сектор, производство товаров народного потребления, туризм и сфера услуг. Поэтому диверсификация целесообразна именно в тех странах, которые зависят от экспорта полезных ископаемых и продажи природных ресурсов.

## Обзор литературы

Изучение проблем диверсификации производства осуществляется в мире с начала XX века, хотя у нас в стране большая заинтересованность к вопросам диверсификации проявилась только после провозглашения независимости республики. Осознавая результативность диверсификации при рыночных отношениях, необходимо подчеркнуть, что для административного режима такая стратегия не являлась актуальной, так как не было основного мотива – то есть конкуренции. Поэтому изучение вопросов диверсификации производства не приняло определенного развития в тот период.

Проблемами диверсификации экономики и экспорта занимались и занимаются следующие азербайджанские экономисты: И.Ахмедов [1], К.Асланлы, З.Агаев, А.Мехтиев [2], В.Байрамов, Л.Оруджева [3], Ф.Гасанов [4] и др.

Хотя исследования и работы зарубежных ученых по диверсификации имеют относительно короткую историю, их очень много. В общем, литература и теоретические подходы дают положительную оценку моделям экономической диверсификации богатых ресурсами стран. Литература в основном поддерживает гипотезу о том, что путем диверсификации своей экономики, страны, зависящие от природных ресурсов, могут достичь желаемого экономического роста. В то же время диверсификация может защитить национальную экономику от внешних потрясений, снизить волатильность и обеспечить стабильность доходов от экспорта в краткосрочной перспективе [5].

Необходимость экономической диверсификации в контексте «проклятия ресурсов» подчеркивается в исследовании Barbier, E.B. [6]. Предположение, что торговля играет важную роль в диверсификации экономики, можно найти и в других исследованиях Cavalcanti, T., Da Mata, D., Toscani, F. [7]. Исследования показывают, что особенно диверсификация экспорта приводит к устойчивому росту в долгосрочной перспективе [8].

В целом исследования, проводимые как зарубежными, так и местными учеными, международные отчеты описывают диверсификацию как важный и необходимый шаг для богатых ресурсами стран. Также указывается, что одних экономических факторов недостаточно для успешной диверсификации экономики, особую роль играют также и институциональные факторы [9].

**Методология**

Теоретико-методологические основы исследования, а также концептуальные правила изложены в классических и современных исследованиях как зарубежных, так и отечественных экономистов. В исследовании были использованы отчеты международных организаций, а также действующие законодательные нормативно-правовые акты Азербайджанской Республики, Стратегические дорожные карты по развитию национальной экономики Азербайджанской Республики. В качестве методологии принят комплексный, системный поход к решению проблем, методы анализа и синтеза, а также методы сравнительного анализа, которые позволили проанализировать факторы, влияющие на уровень диверсификации промышленности.

**Анализ и результаты исследования**

В период высоких мировых цен на нефть Азербайджан приступил к диверсификации экономики, развитию ненефтяного сектора за счет доходов от экспорта нефти и газа. Хотя главенствующая роль в быстром развитии экономики Азербайджана все еще играет нефтяной сектор, в последние годы доля ненефтяного сектора в ВВП постепенно стала увеличиваться (рис. 1). По официальным данным, за годы реформ рост ненефтяного сектора составил более чем в 2 раза.

Согласно данным Министерства Экономики Азербайджанской Республики, в 2021 году ВВП страны составил 92 857,7 млн манатов, из которых на долю нефтегазового сектора пришлось 38%. Остальная, преобладающая доля (62% от ВВП) была за развитием ненефтяного сектора. Это свидетельствует об эффективности проводимых в стране реформ по успешной диверсификации экономики. Такой рост произошел из-за развития торговли, транспорта, строительства, сферы услуг и других отраслей экономики. Что же касается отраслей промышленности, к сожалению, в ее развитии преобладают добывающие отрасли, и прежде всего, добыча нефти и газа (рис. 2).

Ölkəmizdə aqroturizm sisteminin inkişafı üçün də böyük potensial vardır. Qeyri-neft sektorunun inkişaf etməsi planında turizm hökümət tərəfindən vacib prioritet sahələrdən biri kimi seçilmişdir. Xüsusilə Azərbaycanın regiolarında aqroturizm xidmətinin və bu istiqamətdə məşğul olan sahibkarların inkişafı məqsədilə şərait yaradılıb və əgər lazımı diqqət də ayrılarsa ölkə bu istiqamətdə böyük gəlir götürər. Azərbaycanda turizmin potensial göstəricisi həm əhali sayı, həm turizmin maddi-texniki bazası, həm də turizm sahəsinə yönələ biləcək maliyyə vəsaitlərinin miqdarı ilə müəyyləşdirilə bilər.

Azərbaycan böyük aqroturizm potensialına sahib ölkələr sırasındadır. Zəngin təbii sərvətlər , heyrətamiz təbiət , tarixi və memarlıq abidələri , mədəni irs , folklor nümunələri və qeyri-adi gözəlliyə malik flora və fauna bu potensiala misal ola bilər.[1] Avropa və Asiya qitələrinin qovşağında yerləşmiş bu odlar yurdu həmdə təbii-coğrafi mövqeyi ilə beynəlxalq əlaqələrdə əlaqələndirici həlqə rolunu oynamaqdadır. İki iqlim qurşağı (subtropik və mülayim) və 11 iqlim tipindən 9-nun (yarımsəhra və quru çöldən dağ tundra iqliminədək) mövcud olduğu ölkəmizdə landşaftlar da olduqca rəngarəng və müxtəlifdir. Ölkəmiz flora nümunələrinə görə də zəngin olmaqla, 4100 bitki növünə ev sahibliyi edir. Respublikamızın bitki örtüyünün zənginliyi onun tarixi formalaşması ilə sıx surətdə bağlıdır. Ümumilikdə Azərbaycan torpaqlarının on faizi palıd ,vələs, fıstıq, ağcaqayın və göyrüş ağaclarından ibarət dağ meşələri ilə örtülmüşdür. Üçüncü dövr buzlaşmasına məruz qalmayan Hirkan meşələri, relikt və endemik bitkiləri ilə bütün dünyada unikaldır və tayı-bərabəri olmayan turizm potensialına sahibdir. Bundan başqa aqrar turizm həm də tarixi-mədəni abidələrlə bağlı olduğundan ölkəmizdə kifayət qədər perspektivə malikdir.

Aərbaycanda aqrar turizmin inkişafının özəyində aşağıdakı əsas faktorlar dayanır:

- turistik baxımdan həddindən artıq istifadəyə məruz qalmamış və kəşfedilməmiş bir ölkə olması;
- zəngin təbiət məzərələri və iqlim ehtiyatlarının mövcudluğu;

- Azərbaycan xalqının qonaqpərvərliyi.

Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən kəndlərində turistlər üçün müxtəlif xidmətlər olsa da, bu xidmətlər lazımi səviyyələrdə deyil. Belə ki, kənd yerlərində yaşayan əhalinin qonaq qəbul etmə vərdişlərinin inkişaf etdirilməsi əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına , aqroturizm sektorunda xidmət səviyyəsinin gücləndirilməsinə , alternativ turizm növlərinin və bölgələrin iqtisadi inkişafına müsbət təsir edəcəkdir. Aqrar turizmi yerli əhaliyə fərdi sahibkarlıq ruhunu aşılamaqla kənd əhalisinin məşğulluğunun təmin olunmasına , xüsusilə də qadınların mədəni səviyyəsinin artmasına və sosial inkişafına şərait yaradır. [5]

Bölgələrində çoxlu sayda aqroturizm təsisatları olan Azərbaycan kimi ölkələrdə aqrar turizmin inkişafı xüsusilə əhəmiyyətlidir. Turistlər həmçinin fermalarda , kənd təsərrüfatı əhəmiyyətli müəssisələrdə təsərrüfat fəaliyyətində iştirak edə bilərlər.[6]

Azərbaycanın aqroturizm potensialını bölgələr üzrə aşağıdakı kimi göstərə bilərik:

Quba-Xaçmaz bölgəsi- Azərbaycan Respublikasının şimal-şərqində yerləşən bu region aqroturizmin inkişafı baxımından xüsusilə seçilir. Bu regionda son illərdə bir çox yerləşmə müəssisələri tikilib istifadəyə verilmişdir. Ərazinin turizm əhəmiyyətli olmasına səbəb füsunkar iynəyarpaqlı meeşələri , dəniz sahili mövqeyi , nəqliyyat şəbəkəsi , ekoloji cəhətdən təmiz olması ,bağçılıq və heyvandarlıq kimi sahələrin yaxşı inkişaf etməsidir. Quba ərazisindən keçən dağlar, Qusar rayonunun yüksəkdağlıq əraziləri , Laza şəlaləsi , Təngin dərəsi turizm üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Xızı rayonu bu regionda yerləşməklə Bakıya çox yaxın məsafədədir. Bu rayon ərazisində " Altıağac" qoruğu yerləşmişdir və qoruğun ərazisinin doxsan faizi meşələrlə örtülmüşür. Qoruq Qafqaz dağlarının cənub-şərq yamaclarının nadir flora və faunasını mühafizə etmək və burada baş verən aşınma proseslərinin qarşısını almaq məqsədi ilə salınmışdır. Regionda Quba rayonu ərazisində 2350 metr yüksəklikdə yerləşmiş Xınalıq kəndi də unikallığı ilə seçilir.Bu kəndin əhalisi xüsusi dildə danışır ki, bu dil dünyada mövcud olan dillərin əksər hissəsindən tamamilə fərqlənir. Bu kənd lokal mədəniyyətlər və etnoslarla maraqlanan turistlər üçün cəlbedici ola bilər.

Gəncə-Qazax bölgəsi- Azərbaycanın şimal-qərbində yerləşmişdir. Bu bölgə üzüm bağları ilə məşhurdur. Gəncə şəhərində yığılan üzümdən şərab istehsal edən fabrik də vardır. Həmçinin burada Azərbaycan Dövlər Aqrar Universiteti fəaliyyət göstərir. Qazax , Tovuz , Şəmkir rayonları isə dağlarla əhatə olunmuş ecazkar təbiətə malikdir. Nəticədə bu regionda təzə və ekoloji təmiz kənd təsərrüfatı məhsullarından istifadə etməklə və həmçinin valehedici mənzərələr sayəsində turistlər üçün konfortlu bir istirahət təşkil etmək mümkündür. Bölgə ərazisində olan milli park və qoruqlar da nadir flora və faunası ilə göz oxşamaqda və turistlərin diqqətini çəkməkdədir.

Şəki-Zaqatala bölgələri etnosunun rəngarəngliyi ilə seçilir. Bu region qoz-fındıq plantasiyaları, üzümçülük-şərabçılıq ilə aqroturizmdə xüsusi çəkiyə sahib ola bilər. Ərazinin təbiəti və iqlimi xüsusi ilə gözəldir. Şəki şəhəri qədim tarixi ilə turistləri özünə cəlb etməkdədir. Qədim sənət sahələri , xüsusilə xalçaçılıq və ipəkçilik turistlərin marağına səbəb olur. Hal- hazırda Şəkidə xalça və ipək parça istehsalı davam etdirilir. Şəki-Zaqatala turizm bölgəsində 7 ovçuluq təsərrüfatı vardır, Ulu-düz, Qax, Zaqatala, Oğuz, Qəbələ, İsmayıllı, Şəki. Bölgədə dörd dövlət qoruğu vardır. Qəbələ rayonu həm qozfındıq, həm də şabalıd bağları ilə tanınır. Dəniz səviyyəsindən min metr hündürlükdə, dağ yamaclarında möhtəşəm şabalıd meşəsinə rast gəlmək olar. Rayonun ərazisi tarix, mədəniyyət , həmçinin memarlıq abidələri ilə zəngindir. Bum kəndində yerləşən məscidi (XIX əsr), Əmili kəndində yerləşən Alban məbədini(IV əsr) misal göstərə bilərik.

Lənkəran-Astara bölgəsi- Respublikamızın cənub-şərq hissəsində yerləşən bu möcüzəvi diyar özünün qədim tarixi, zəngin mədəni irsi , adət və ənənələri , multikultural dəyərləri,zəhmətkeş , qonaqpərvər və eyni zamanda tolerant insanları ilə aqroturizm üçün mükəmməl bir seçimdir. Özünün subtropik iqlimi , gur axan çay və bulaqları , müalicəvi təbiəti , əsrarəngiz meşələri ilə bu region dağla dənizi özündə birləşdirən möcüzəvi bir görünüşə sahibdir. Kəndlərində olan qədim adət və ənənələr , qədim sənətkarlıq sahələri , kənd təsərrüfatı ənənələri xüsusilə turistlərin marağına səbəb olur.Astara və Lənkəranda sitrus meyvəçiliyi və çay plantasiyaları aqrar turizm üçün xüsusi ilə əliverişlidir. Lerik və Yardımlı meşələri flora və faunası ilə unikaldır. Astara rayonu Sım kəndi hikinglər üzrə ixtisaslaşmışdır.

Bölgələrdəki iqlim şərtləri və torpaq fondunun məhsuldarlığı ilə əlaqədar olaraq ən əliverişli fəaliyyət növü hər bir bölgə üçün ayrıca dəyərləndirilməlidir. Gədəbəy (rayonun yazlıq əkinləri və heyvandarlığı , təbii bal istehsalı) , Şəmkir (istixanalarının istehsal fəaliyyətləri, üzüm və xurma bağları, şərap zavodu), Cənub mirvarisi (subtropik bitkiləri, çay plantasiyaları), Səlyan-Neftçala (bölgənin balıqçılıq obyektləri və balıq vətəgələri) , Zaqatala-Balakən (bölgədə fındıq bağları , fındıq və xurma tədarükü mərkəzləri), Quba-Xaçmaz (alma, gilas, şaftalı bağları), Naxçıvan (çəyirdəkli meyvəçilik), Sabirabad (qarpız və yemiş dirrikləri) , Göyçay (nar bağları ) ,Abşeron (zəfəran istehsalı , quru əncir istehsalı , zeytun bağları ) və s. hər bir bölgənin istehsal etdiyi kənd təsərrüfatı məhsulunu bu bölgəyə xas olan marka halına gətirib şəhərdə yaşayan və ya ölkəmizdə səfərdə olan turistlərə təqdim etmək lazımdır.

Azərbaycanda aqroturizmin inkişafı üçün yüksək potensial olduğu kimi , bu sektor qarşısında kifayət qədər problemlər də vardır. Bu turizm sektorlarındakı əsas problem, turistlərin bu sahədə görmək istədikləri bütün təchizat növləri ilə təmin edilməməsidir. İkinci önəmli məsələ isə marketinq işinin düzgün şəkildə təşkil olunmamasıdır. Azərbaycanda, bu sahədə ciddi addımlar atılmamışdır. Bu məqsədlə , sahibkar ve investorları yetişdirmək, və bütün bölgələri fərqli istiqamətlərdə ixtisaslaşdırmaq gərəkdir. Beynəlxalq arenada düzgün marketinq ve reklam strateqiyaları ilə çıxış etmək lazımdır.

Mövcud problemləri aşağıdakı kimi təsnif edə bilərik:

- Azərbaycanda aqrar turizm anlayışı kənd əhalisi tərəfindən tam başa düşülmür və bu vərdişlər tam formalaşmayıb;
- kənd ərazilərində lazımi infrastruktur yox dərəcəsindədir;
- aqroturizm məqsədi ilə səyahət etmək istəyən turistlərin gecələməsi üçün fermer təsərrüfatları olduqca azdır;
- aqroturizm sahəsində ölkənin tanıdılması , təbliğat-təşviqat işləri olduqca zəifdir;
- turistlərlə yerli əhali arasında dil baryeri mövcuddur;
- aqroturizm məqsədli turların təşkil olunmaması;
- turizm şirkətlərinin bu sahədə passiv fəaliyyət göstərməsi;
- Bu sahədə fəaliyyət göstərən firmaların olmaması;
- "Ali Təhsildə Bakalavr Proqramlarının Siyahısı" adlı Nazirlər Şurasının qərarında "Aqroturizm" adlı ixtisas sahəsinin olmaması;
- turistik məqsədlərlə təklif olunan kirayə evlərin qiymətlərinin yüksək olması;
- marketinq fəaliyyətlərinin düzgün təşkil olunmaması;
- turizm ənənələrinin zəif olması.

**Nəticə**

Azərbaycanın agroturizmdəki potensiyalını ortaya qoymaq üçün apardığımız araştırmanın nəticəsi olaraq deyə bilərik ki, Azərbaycan bu sahədə büyük potensiala sahibdir. Azərbaycanın agroturizmi üçün önəmli xüsusiyyətlərdən biri də əlçatan olmasıdır. Son dövrlərdə asan viza sisteminin tətbiqi və dünyanın 9-cu ən gözəl və konfortlu hava limanı terminalının (Heydər Əliyev hava limanı) burada olması, hava yolu ilə Avropa İttifaqı şəhərlərinə, Rusiya və MDB ölkələrinə, bundan başqa Türkiyə, körfəz ,orta və uzaq Şərq ölkələrinə birbaşa uçuşların olması, buna sübutdur. İkinci ən önəmli xarakterik xüsusiyyət rəngarəng iqlim və məhsuldar torpaqları ilə kənd təsərrüfatı sahəsində inkişaf etmiş bir ölkə olmasıdır. Təbii coğrafi gözəllikləri , qonaqpərvər xalqı və regionlar üzrə fərqli iqlim şəraiti turistlərin bu əsrarəngiz ölkəyə gəlməsinə səbəb olacaq üçüncü xüsusiyyətdir. Ən önəmli dördüncü xüsusiyyət isə Azərbaycanın təhlükəsiz bir ölkə olmasıdır

**ƏDƏBİYYAT SİYAHISI:**

1.Aqroturizm Fəaliyyətlərinin Təşkili üzrə Bələdçi Kitabı. Nəşr 2020.106 s

2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi

3.Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev Ekoloji turizm (Dərs vəsaiti), Bakı, "Adiloğlu" nəşriyyatı, 2011 ,2 7 6 səh.

4.Qurbanov P.Ə., Hüseynova Ş.H. Turizmin İqtisadiyyatı. Bakı ,2004,204 səh.
5. www.eco.gov.az
6.www.azernews.com
7. https://tourism.gov.az

**Şəlalə Yabil qızı Əzizova**
AMEA İqtisadiyyat İnstitutunun doktorantı
**E-mail**: aydinova.shalale97@gmail.com

## ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN TURİZM POTENSİALI

**Xülasə**

Azərbaycanın regionlarında turizmin inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Məqalədə işğaldan azad edildikdən sonra intensiv bərpa işləri aparılan Şərqi Zəngəzur iqtisadi rayonunda turizm potensialı təhlil edilmişdir. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarında turizm potensialı, turizmin inkişafı imkanları araşdırılmışdır. Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişaf istiqamətləri üzrə nəzəri və praktiki məsələlər tədqiq edilmişdir.

**Açar sözlər:** Turizm sektoru, iqtisadi rayonlar, Şərqi Zəngəzur iqtisadi rayonu, mədəni-tarixi abidələr, turizmin inkişafı, turizm potensialı.

### Giriş

Turizm fəaliyyəti digər ölkələrdə olduğu kimi, Azərbaycanda da iqtisadi inkişafın əsas təkanverici sahələrindən biri hesab olunur. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən turizm biznesi ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərən iqtisadi fəaliyyət sahəsidir. Turizmin bütün bölgələrdə inkişaf etdirilməsi ilə ölkəyə gələn turist axınının artması ilə yanaşı, iqtisadi yüksəliş və sosial səmərəyə nail olunur, bundan əlavə həmin ölkə haqqında dünyada yüksək imic formalaşır. Məhz bu baxımdan işğaldan azad edildikdən sonra bərpa işləri aparılan Şərqi Zəngəzur iqtisadi rayonu da əlverişli coğrafi mövqeyi, gözəl təbiəti və tarixi abidələrinə görə yüksək turizm potensialına malikdir. Bu iqtisadi rayon həm sənaye, həm aqrar, həm də turizm sahəsində geniş imkanlara sahibdir.

Şərqi Zəngəzur iqtisadi rayonu 1993-2020-ci illər ərzində Ermənistanın işğalı altında idi. İkinci Qarabağ müharibəsi nəticəsində 9 Noyabr bəyanatı ilə işğaldan tamamilə azad edilmişdir. İqtisadi rayonun ərazisinin böyük bir qismi 2021-ci ilə qədər Kəlbəcər-Laçın iqtisadi rayonuna aid idi. 2021-ci il iyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanına əsasən yaradılmışdır. [1]

Şərqi Zəngəzur iqtisadi rayonuna Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları daxildir. İqtisadi rayonun ərazisi 7,47 min kv kmdir. Əhalisi isə 343,5 min nəfərdir. Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadiyyatın əsas sahələri kənd təsərrüfatı, sənaye və turizm hesab olunur. Burada olan təbii ehtiyatlara isə qızıl, civə, mərmər, üzlük tikinti daşları, kopal və perliti nümunə göstərə bilərik. Şərqi Zəngəzur iqtisadi rayonuna aid edilən 5 inzibati vahidin potensialına nəzər salsaq, bu rayonun iqtisadi potensialının nə dərəcə yüksək olduğuna şahid ola bilərik. Lakin uzun müddət işğal altında qalması bu rayonlarımızın potensialından istifadəyə imkan vermirdi. Nəticədə Şərqi Zəngəzur iqtisadi rayonunun ÜDM-dəki payı 0.1%-ə qədər azalmışdır [2, səh 153].

Turizm ehtiyatlarının məhz 33%-i Şərqi Zəngəzur iqtisadi rayonunun payına düşür. Mineral su mənbələrinin iri yataqları sayılan Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər), Minkənd soyuq su tipli mineral bulağı (Laçın) və s. müalicəvi əhəmiyyət daşıyır. Bu bulaqların potensial ehtiyatları, yerləşdiyi ərazinin təbiətinin rəngarəngliyi kurort-müalicə kompleksinin yaradılması baxımından əlverişli təbii amil hesab olunur. Şərqi Zəngəzur iqtisadi rayonunun landşaftında alp və subalp çəmənlikləri, meşələr üstünlük təşkil edir. Nadir ağaclardan ibarət olan

meşələrin sahəsi 92 min hektar təşkil edir. Bu da respublika meşələrinin 9%-ini təşkil edir. Bunun 72%-i Kəlbəcər və Laçında yerləşən turizm-rekreasiya əhəmiyyətli dağ meşələridir. [3]

Şərqi Zəngəzur bölgəsi tarixi-mədəni abidələrlə də zəngindir. Məhz rayon coğrafi mövqeyi baxımından əlverişli yerdə yerləşir. Zəngin rekreasiya ehtiyatlarına malikdir və turistlərin marağına səbəb ola biləcək bir çox mədəni-tarixi abidələrlə zəngindir. Burada İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri kimi istifadə oluna bilər. Şərqi Zəngəzur bölgəsinə aid edilən iqtisadi regionlara ayrı-ayrılıqda nəzər salaq.

**Kəlbəcər rayonu**. Kiçik Qafqazın mərkəzi hissəsində yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 3050 kv km-dir. Rayon 2 aprel 1993-ci ildən erməni işğalı altında olmuş, 10 noyabr 2020-ci ildə imzalanmış atəşkəs bəyanatına əsasən 25 noyabrda rayon boşaldılaraq, Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilmişdir.

İşğaldan öncə rayonda 95 ümumtəhsil məktəbi, texniki peşə məktəbi, 44 klub, incəsənət məktəbi, muzey, mərkəzi xəstəxana, poliklinika, uşaq xəstəxanası, 75 feldşer-mama məntəqəsi, 23 kənd ambulatoru fəaliyyət göstərmişdir. Rayon ərazisində bir sıra tarixi memarlıq abidələri və XIII-XVIII əsrlərə aid alban məbədləri qeydə alınmışdır. [4]

**Kəlbəcərin turizm potensialı.** Kəlbəcər rayonu təbii ehtiyatlarına və Cənubi Qafqazda turizm potensialına görə seçilir. Kəlbəcər Cənubi Qafqazda demək olar ki, fasiləsiz turizm xidmətləri təklif etmək imkanına malikdir. Burada yay-qış turizmi, tarixi turizm, mədəni turizm, dini turizm və sağlamlıq turizmi məhsullarını təklif etmək mümkündür. Bu da Kəlbəcər və Laçın rayonlarının bərpa və yenidənqurmadan sonra Azərbaycan iqtisadiyyatına daha yaxından töhfə vermək imkanlarına malik olacağına baiz bir sübutdur.

Mineral bulaqlarla zəngin olan Kəlbəcər rayonunda "İstisu" kurortunun olması, burada olan müalicəvi mineral suların mövcudluğu ilə əlaqədardır. Əvvəllər bu kurort sadəcə yerli əhəmiyyətli idi, lakin sonralar onun radioaktiv mənbələrinin müalicəvi əhəmiyyəti ortaya çıxdıqdan sonra rayonun yüksək dağlıq ərazisində 1928-ci ildə 1000 yerlik "İstisu" sanatoriyasının müalicə korpusu inşa olunmuşdur. Bu sanatoriya mövsümü xarakter daşıyırdı, belə ki, yay fəslində burada yer tapmaq qeyri-mümkün idi, lakin qışda isə yollardan keçmək mümkün deyildi. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir. "İstisu" sanatoriyası hələ Sovet dövründə turistlərin ən çox seçdikləri məkanlardan biri olub. Burada yay turizmi ilə yanaşı, qış turizminin də inkişaf etdirilməsi potensialı böyükdür.

İstisu kurortunun ərazisi dağlıq ərazidir. İqlimi soyuqdur, qışda orta temperaturu -3-6 dərəcəyə bərabərdir. Kurortda sanatoriya müalicəsilə yanaşı, uzunmüddətli və qısamüddətli istirahət etmək, qış idman növləri ilə turizmlə, alpinizimlə məşğul olmaq üçün şərait mövcuddur. [5, səh 181]

Kəlbəcərin turizm sektorunun inkişafı üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral suları mühüm əhəmiyyət daşıyır. Kəlbəcər inzibati rayonunda Yuxarı İstisu və Aşağı İstisu sanatoriyaları geniş turizm potensialına və müalicəvi təsirə malikdir. İstisu mineral suları ilə insanın həm daxili, həm də xarici xəstəliklərini müalicə etmək mümkündür. Vaxtilə rayonun İstisu qəsəbəsində İstisu sanatoriyaları fəaliyyət göstərirdi. Orada hər il 50 mindən artıq insan müalicə olunur və istirahət edirdi. Bu sanatoriyaların yenidən bərpa edilməsi və fəaliyyət göstərməsi bura rayona yenidən yerli və xarici turistlərin marağını və axınını artıracaqdır. Çünki Kəlbəcər rayonu tarixən faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə də məşhur olub. Ermənistanın işğalından sonra bölgənin təbii ehtiyatları qanunsuz şəkildə istismar edilib. Hazırda "İstisu" Azərbaycanın turizm məkanı kimi öz əvvəlki şöhrətini yenidən bərpa etmək imkanı qazanmışıdr.

Kəlbəcər rayonu bir çox turistlərdə maraq oyadacaq tarixi abidələrlə də zəngindir. Burada alban dövrünə aid olan bir çox tarixi abidələr var. Kəlbəcərin Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı güman olunur. Erməni işğalçıları tarıxı abidələrimizə zərər verməklə öz

vəhşiliklərini dünyaya göstərmiş oldular. Onlar bununla sübut etdilər ki, bu tarixi abidələr, bu torpaqlar hec zaman onlara məxsus olmayıb. Kəlbəcər rayonundakı qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - "əkiz"lərdir. [6]

**Laçın rayonu**. Azərbaycan Respublikasının cənub-qəbində Kiçik Qafqazda, dağlıq ərazidə yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1835 kv. km-dir. Rayon 18 may 1992-ci ildən erməni işğalı altında olmuş, 28 il sonra 1 dekabr 2020-ci il tarixində azad edilmişdir.

İşğaldan öncə rayonda 101 ümumtəhsil məktəbi, 2 məktəbəqədər və 5 məktəbdənkənar tərbiyə müəssisəsi, texniki peşə məktəbi, 85 klub, 119 kitabxana, 5 musiqi məktəbi, 142 səhiyyə müəssisəsi fəaliyyət göstərmişdir. Rayon ərazisində memarlıq abidələrindən - V əsrə aid alban məbədi, XIV, XIX əsrlərə aid türbələr, XVII əsrə aid qala, 1718-ci ilə aid məscid, 1716-cı ilə aid saray və XVIII əsrə aid körpü qeydə alınmışdır. Rayon tarixi keçmişi zəngin olan ərazidir. Laçın abidələri hələ eramizdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonunda yerləşən Azıx və Cəbrayıldakı Tağlar mağaraları ilə müqayisə olunacaq qədər nadir abidələrdəndir. [4]

**Laçının turizm potensialı.** Laçın rayonu təbiət turizmi baxımından böyük potensiala malikdir. Belə ki, təbiət turizmi üzrə piyada yürüşləri, yamac paraşütü, dağ velosipedi, dağ çaylarında qayıqçılıq, balıq ovu turizm məhsulu olaraq turistlərə təklif edilə bilər. Həmçinin Laçın rayonunun təbiət yasaqlığında qırmızı palıd meşələri, mineral sular, arxeoloji abidələrin olması qış turizminin inkişafı üçün potensiala malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın və Kəlbəcərdə bir sıra yenidənqurma və bərpa işləri ilə bağlı layihələrin təməlini qoymuşdur. Belə layihələrdən biri də Laçın rayonunun Qorçu kəndində inşa olunacaq hava limanıdır. Bu hava limanının istifadəyə verilməsi bu yerlərdə turizm potensialının artmasına səbəb olacaqdır. Bu hava limanının Qorçu kəndində tikilməsi də təsadüfi deyil. Qorçu kəndinin üstünlüyü ondadır ki, Laçın şəhərinə məsafə 30 km-dən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə 60 km-dən bir qədər artıq, Şuşa şəhərinə isə 70 km-ə yaxındır. Yəni yaxın zamanlarda Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq.

Həm Kəlbəcərlə Laçın arasında, həm də Kəlbəcərdə yeni nəqliyyat infrastrukturunun formalaşdırılması, Laçında beynəlxalq hava limanın inşası hər iki rayonun növbəti dövrdə stareji əhəmiyyətinin daha da artıracağını göstərir. Laçında inşa olunacaq hava limanı bütövlükdə Şərqi Zəngəzur iqtisadi rayonunun potenisalının təbliğ edilməsi və təhlükəsizliyin formalaşması baxımından vacib sayılır. Hər iki rayonun turizm potensialının böyük olması Laçın beynəlxalq hava limanın rentabelli işləməsinə səbəb olacaq. Bu da öz növbəsində beynəlxalq uçuşların həyata keçirilməsi, turistlərin gəlməsi, həmin ərazidə istehsal olunacaq qeyri-neft məhsulllarının daha böyük coğrafiyaya, daha böyük bazarlara çıxarılması anlamına gəlir [7].

**Qubadlı rayonu.** Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 802 kv. km-dir. Rayon 31 avqust 1993-ci ildən erməni işğalı altında olmuş, 25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

İşğaldan öncə rayonda 62 ümumtəhsil məktəbi, kitabxana, klub, 4 xəstəxana fəaliyyət göstərmişdir. Rayon ərazisində bir sıra tarixi memarlıq abidələri- IV əsrə aid mağara-ibadətgah, V əsrə aid qalalar, XIV-XVII əsrlərə aid türbələr, XIX əsrə aid məscid, 1867-ci ilə aid körpü qeydə alınmışdır. [4]

**Qubadlının turizm potensialı**. Qubadlı rayonu da zəngin turizm potensialına malikdir. Rayonun zəngin təbiəti, təbii sərvətləri var. Buraya səyahət edənlər Qubadlının təbiətindən ürəkdolusu danışırlar. Yaxın zamanlarda Qubadlı rayonu da turistlər üçün cazibədar olacaqdır. 28 il ərzində işğal altında olan Qubadlı rayonunda erməni işğalçıları bir çox turistik məkanlarımızı viran edib. Bu yerlər tezliklə bərpa olunacaq, kəndləri yenidən qurulacaq.

Qubadlıda turizmin inkişafı üçün yetərli qədər tarixi-mədəni obyektlər mövcuddur. XIX əsrə aid edilən Hacı Bədəl körpüsü, 1867-ci ilə aid olan Laləzar körpüsü, Məmər kəndində XVII əsrə aid məscid, Gürcülü türbəsi, Paşa bulağı, Şirin bulaq, Məşədi Allahverdi bulağı kimi müalicəvi bulaqlar mövcuddur. Sadaladıqlarımızın böyük qismi dağıdılmış olsa da, tezliklə bərpa edilərək,

istifadəyə veriləcəkdir. Qubadlının füsunkar təbiəti yaxın zamanlarda burada yaşıl turizmin, çadır turizminin, kənd turizminin inkişafına təkan verəcəkdir [8].

**Zəngilan rayonu.** Kiçik Qafqazın cənub-şərq hissəsində, Arazın sol sahilində yerləşir. Qərbdə və şimal-qərbdə Ermənistan Respublikası ilə, cənubdan İranla həmsərhəddir. Sahəsi 707 kv. km-dir. Rayon 29 oktyabr 1993-ci ildən erməni işğalı altında olmuş, 20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

İşğaldan öncə rayonda 66 ümumtəhsil məktəbi, 4 musiqi məktəbi, tarixi diyarşünaslıq, daş abidələr və Xalqlar dostluğu muzeyləri, mərkəzi kitabxana, mərkəzi xəstəxana, 46 feldşer-mama məntəqəsi, Mincivan dəmiryol xəstəxanası fəaliyyət göstərmişdir. Rayon ərazisində bir sıra tarixi memarlıq abidələri- XIV əsrə aid dairəvi bürc, 1304-1305-ci illərə aid türbə, XII-XIV əsrlərə aid sərdabələr qeydə alınmışdır. [4]

**Zəngilanın turizm potensialı.** Zəngilan rayonunun da digər rayonlar kimi turizm potensialı genişdir. Rayonun füsunkar təbiəti, gözəl meşələri, dağları, bulaqları ilə yanaşı burada tikiləcək beynəlxalq hava limanı, çəkiləcək dəmir yolu və avtomobil yolu yaxın illərdə Zəngilanın turizm potensialını və buraya turist axınını artıracaq. Əlbəttə ki, Zəngilanın da turizm potensialı digər rayonlarla uyğunlaşdırılacaq, bununla da Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşaya məsafə qısa və turizm baxımından əlverişli olacaq. Füsunkar təbiətə malik Zəngilanda kənd turizminin inkişaf etdirilməsi öz yurduna qayıdacaq məcburi köçkünlərin gəlirinin atmasına da səbəb olacaq.

**Cəbrayıl rayonu.** Cənub və cənub-şərqdə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1050 kv. km-dir. Rayon 23 avqust 1993-ci ildən erməni işğalı altında olmuş, 4 oktyabr 2020-ci ildə işğaldan azad edilmişdir.

İşğaldan öncə rayonda 72 ümumtəhsil məktəbi, 40 klub, 78 kitabxana, 8 xəstəxana, 52 feldşer-mama məntəqəsi, fəaliyyət göstərmişdir. Rayon ərazisində bir sıra tarixi memarlıq abidələri- qədim yaşayış məskənləri, kurqanlar, məscid, hamam, dairəvi və səkkizguşəli türbələr, Xudafərin körpüsü qeydə alınmışdır. [4]

Cəbrayıl rayonunda Araz çayı üzərində salınmış məşhur Xudafərin körpüsü Cəbrayılın rəmzidir. XII əsrdə tikilmiş bu körpü çox dəyərli memarlıq abidəsi olmaqla yanaşı, tarixi keçmişin şahididir. Rayonun Xudayarlı kəndində qüllələr, Şıxlar kəndindəki məqbərə də tarixi abidələr sırasına daxildir [5, səh 187].

**Cəbrayılın turizm potensialı.** Cəbrayıl rayonu daha çox mədəni və tarixi turizm potensialına malikdir. Lakin erməni vandalizmi nəticəsində dağıdılmış abidələr və müəssisələr tezliklə bərpa edilərək istifadəyə veriləcək. Lakin Cəbrayılda dağıdılmış bəzi mədəniyyət müəssisələri və müharibə qalıqları açıq muzey şəklində qorunub saxlanılacaqdır. Çünki turizmin iqtisadi əhəmiyyəti olduğu kimi, siyasi tərəfi də vardır.

Şərqi Zəngəzur iqtisadi rayonunun dünya əhəmiyyətli memarlıq abidələrinə Kəlbəcərdə Gəncəbasar monastrı (XIII əsr), Tərtər çayının sahilində yerləşən Xudavəng monastrı (XIII-XV1I əsrlər) aid edilir. Bölgədə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinə Kəlbəcər rayonunun Çıldıran, Qarnakar, Qocaqot kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış məskənləri, Qubadlının Əliquluuşağı kəndində Göy qala (V əsr), mağara məbədi, Balahəsənli kəndində sığınacaqlar (IV əsr); Laçının Cicimli kəndində türbələr (XIV və XVIII əsrlər), dəmir dövrünə aid kurqanlar, Qoçaz kəndində mağara məbədi (V əsr) Zəngilanın Əmirxanlı kəndində Qız qalası (XII əsr), Məmmədbəyli kəndində səkkizguşəli türbə (XIV əsr) aid edilir. [3]

**Nəticə**

Beləliklə, yaxın illər ərzində biz Azərbaycanın işğaldan azad edilən rayonlarının dirçəlməsinin, yüksək texnologiyalar əsasında yenidən qurulmasının, turizm potensialının artmasının və turizmin inkişafının şahidi olacağıq. Bütün bunlar isə yaxın gələcəkdə Şərqi Zəngəzur iqtisadi rayonunun yalnız ölkə daxilində deyil, dünyada məşhur turizm bölgələrindən birinə çevriləcəyinə şübhə yaratmır. Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri Azərbaycanın real iqtisadi gücünü və bu bölgənin qısa zamanda bərpa potensialını göstərir. Hazırda yeni turizm marşrutlarının yaradılması və turizm sektorunun daha da inkişaf etməsi, əhalinin bu sektordan gəlirlərinin artması üçün mühüm tədbirlər görülür. Bu baxımdan səmərəli dövlət və özəl sektor tərəfdaşlığı, özəl sektorun dövlət tərəfindən dəsdəklənməsi, infrastrukturun bərpası, təşviq

müxanizmləri və regionun turizm potensialı Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin yerli iqtisadiyyatın aparıcı sahələrindən biri kimi inkişaf etməsinə əlverişli şərait yaradacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. https://president.az/az/articles/view/52389
2. Muradov Ə., Bağırzadə E. "Azərbaycan İqtisadiyyatı (İnfoqrafika)", Bakı 2021, "Şərq-Qərb" Nəşriyyatı, 208 səh.
3. https://az.wikipedia.org/wiki/Kəlbəcər-Laçın_iqtisadi_rayonu
4. “Qarabağ Həqiqətləri”, Bakı 2011. 367 səh.
5. Abadov M. "Azərbaycan Turizmi və onun inkişaf problemləri". Bakı 2014, "Şərq-Qərb" Nəşriyyat evi, 248 səh.
6. http://ikisahil.com/post/179963-kelbecer-zengin-tebii-resurslar-ve-turizm-potensiali
7. https://azvision.az/news/269299/-lacin-ve-kelbecerin-fasilesiz-turizm-potensiali-var--deputat--.html
8. https://xalqqazeti.com

**Pərviz Fuad oğlu Əliyev**
Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı
E-mail: parviz.aliyev@atm.gov.az

# AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏMƏSİNİN ROLU VƏ İSTİQAMƏTLƏRİ

### Xülasə

Konfrans materialı Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının təmin edilməsində dövlət tərəfindən həyata keçirilən tənzimləmə fəaliyyətinin təhlilini əhatə edir.

Mətndə ilkin olaraq ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından kənd təsərrüfatı sahəsinin əhəmiyyəti qeyd olunmuş, bu məqsədlə ayrı-ayrı kənd təsərrüfatı məhsulları üzrə özünütəminetmə göstəriciləri nəzərdən keçirilmişdir. Daha sonra ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından regionların rolu vurğulanmış və bu istiqamətdə dövlət rəfədindən həyata keçirilən fəaliyyətlər, o cümlədən “2019-2023-cü illə üzrə regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı” nəzərdən keçirilmişdir.

Növbəti olaraq, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından dövlətin əsas fəaliyyət istiqamətlərindən biri kimi kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı üzrə regional ixtisaslaşma məsələləri nəzərdən keçirilmiş və yeni aqrar subsidiya sisteminin bu istiqamətdəki rolu təhlil edilmişdir.

Mətnin sonunda, kiçik ölçülü fermer təsərrüfatlarının rəqabət qabiliyyətliliyinin artırılması və miqyas effektindən istifadə edilməsi baxımından fermerlər arasında kooperasiya əlaqələrinin genişləndirilməsi və vahid əkin sisteminin tətbiqi ilə bağlı məsələlələr nəzərdən keçirilmişdir.

Azərbaycan, bir tərəfdən nef-qaz hasilatı və emalı sənayesinə əsaslanan sənayeləşmiş bir ölkə olmaqla yanaşı, həm də zəngin aqrar istehsal təcrübələrinə və ənənələrinə malik kənd təsərrüfatı ölkəsidir. Buna ölkə üzrə aqrar sahədə çalışan insanların xüsusi çəkisinə nəzər salmaqla da əmin olmaq olar. Belə ki, 2020-ci ilin məlumatlarına əsasən Azərbaycanda təqribən 1,8 milyon insan kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərir ki, bu da məşğul əhalinin 36,3 faizini təşkil edir [1]. Qeyd edək ki, bu, digər iqtisadi fəaliyyət növləri ilə müqayisədə ən yüksək göstəricidir.

Digər tərəfdən isə kənd təsərrüfatı sahəsi insanların ərzaq məhsulları ilə təmin edilməsi, ən ümumi mənada isə ərzaq təhlükəsizliyinə nail olunması nöqteyi-nəzərindən ən önəmli sektor kimi

çıxış edir. Bu baxımdan, demək olar ki, bütün dünya ölkələri tərəfindən kənd təsərrüfatı sektorunun inkişafına xüsusi diqqət ayrılır və bu sahə iqtisadiyyatın digər sahələri ilə müqayisədə adətən daha çox subsidiyalaşdırılır. Qeyd edək ki, iqtisadi ədəbiyyatda ökə səviyyəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əsas göstərici kimi kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi nəzərdən keçirilir. Azərbaycanda bir çox kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə göstəricisi kifayət qədər yüksəkdir. Məsələn, 2020-ci il üçün bütün növ tərəvəzlər üzrə bu göstərici 110,4%, meyvə və giləmeyvə üzrə 116,3%, kartof üzrə 90,6%, bütün növ ət və ət məhsulları üzrə 84,5%, süd və süd məhsulları üzrə 83,5%, yumurta üzrə isə 100% təşkil etmişdir. Digər tərəfdən, nəzərdən keçirilən dövrdə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyətə malik olan buğda üzrə özünütəminetmə səviyyəsi 57,1% təşkil etmişdir [2]. Qeyd edək ki, ölkənin kənd təsərrüfatına yararlı torpaq və su ehtiyatlarının məhdud olması ölkə üzrə hektardan daha yüksək gəlir təmin edən, həmçinin əlavə dəyər yaratma potensialı yüksək olan kənd təsərrüfatı bitkilərinin becərilməsini tələb edir. Bu baxımdan, buğda üzrə özünütəminetmə səviyyəsinin nisbətən aşağı olması anlaşılandır.

Ümumiyyətlə, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından aqrar sahənin inkişafı mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda aqrar sahə əsasən regionlarla təmsil olunur. Ölkənin kənd təsərrüfatı məhsulunun əsas hissəsi regionların payına düşür. Bu baxımdan, ölkə üzrə sosial-iqtisadi inkişafın təmin edilməsi regionların iqtisadi potensialının artırılması ilə birbaşa bağlıdır. Aqrar sahədə məşğul əhalinin də mütləq əksəriyyəti məhz regionlarla təmsil olunur. Bu, regionların sosial inkişafının da təmin edilməsi məsələsini aktuallaşdırır. Qeyd edək ki, Azərbaycanda bu istiqamətdə bir sıra tədbirlər həyata keçirir. Məsələn, 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə "Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı" [3] təsdiq edilmişdir. Bu Proqramın qəbul edilməsinin əsas məqsədləri ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin həyata keçirilməsidir.

Hazırda Dövlət Proqramı çərçivəsində ölkədə regionların inkişafı ilə əlaqədar tənzimlənmə sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional və iqtisadi mexanizmlərin daha da təkmilləşdirilməsi, investisiya və innovasiya fəallığının artırılması, mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə tam cəlb olunması, buna uyğun olaraq, iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyinin artırılması, sahibkarlığın inkişafı, məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması, maliyyə resurslarına və bazara çıxış imkanlarının asanlaşdırılması, istehsal, sosial və bazar infrastrukturunun müasirləşdirilməsi, sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, təbii ehtiyatlardan daha da səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin möhkəmləndirilməsi və digər istiqamətlərdə kompleks işlər görülməkdədir.

Regional sosial-iqtisadi inkişafın təmin edilməsi üzrə dövlətin əsas fəaliyyət istiqamətlərindən biri də kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı baxımından regional ixtisaslaşmanın təmin edilməsidir. Bu məqsədlə ayrı-ayrı regionların təbii-coğrafi mühiti, iqlimi, torpaq örtüyü, relyefi və digər göstəricilərin ilkin müqayisəli təhlili aparılmış və hər bir regionun konkret kənd təsərrüfatı məhsullarının istehsalı baxımından ixtisaslaşma dərəcələri müəyyən edilmişdir. Qeyd edək ki, ölkə üzrə regional ixtisaslaşmanın aparılması bu istiqamətdə həyata keçirilən dövlət dəstəyi siyasətinin effektivliyinin artırılmasına və nəticə olaraq, ölkənin kənd təsərrüfatı sektorunun inkişafına imkan verir. Hazırkı dövrdə ölkə üzrə həyata keçirilən aqrar subsidiya sisteminin əsas məqsədlərindən biri də məhz regional ixtisaslaşmanın təmin edilməsidir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydaları" çərçivəsində ayrı-ayrı kənd təsərrüfatı bitkiləri üzrə müəyyən

edilmiş fərqli əmsallar bu bitkilərin istehsalının konkret rayonlarda artırılması, onların istehsalı baxımından nisbətən qeyri-əlverişli xüsusiyyətlərə malik regionlarda isə azaldılması məqsədini daşıyır. Misal üçün, intensiv fındıq bağlarının salınması üçün Ağdaş, Ağstafa, Balakən, İsmayıllı, Zaqatala, Xaçmaz, Xocavənd, Qax, Qəbələ, Quba, Oğuz, Qusar, Qazax, Tərtər, Tovuz, Şabran, Şamaxı, Şəki və Yardımlı rayonları üçün 22, digər rayon və şəhərlər üzrə isə 0-a bərabər qəbul edilmişdir və ya çay plantasiyasının salındığı ildən ilk 7 il üçün əkin əmsalı Astara, Lənkəran, Masallı və Zaqatala rayonları üçün 3,7 olduğu halda, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilmişdir [4].

Regionların sosial-iqtisadi inkişafı çərçivəsində nəzərdən keçirilən əsas məsələlərdən biri də kənd yerlərinin inkişafıdır. Bu istiqamət təkcə Azərbaycan üçün yox, bütün dünya ölkələri üçün kifayət qədər aktualdır. Qeyd olunmalıdır ki, dünya üzrə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fermerlərin yaşı artmaqdadır [5]. Kənd təsərrüfatına maraq göstərən gənclərin sayı isə azalır. Bir çox Avropa ölkələrində artıq kənd təsərrüfatı sahəsində işçi çatışmazlığı yaşanmaqdadır. Bir sıra ölkələr bu problemi miqrantlar hesabına yumşaltsa da, bu, yalnız, məhsulların sahədən toplanması və daşınması kimi “post-harvest” işlərinin həyata keçirilməsinə imkan verir. Problemin əsaslı həlli isə gənc nəslin kənd təsərrüfatı fəaliyyətinə marağının artırılması, kənd yerlərində yaşayan əhalinin rifahının yüksəldilməsi və insanların kənd yerlərində yaşamağa marağının artması üçün müxtəlif stimullaşdırma tədbirlərinin həyata keçirilməsidir.

Ölkəmizdə də bu istiməqdə bir sıra fəaliyyətlər həyata keçirilir. Hazırda kənd yerlərinin inkişafı ilə bağlı məsələlər, həm dövlət siyasəti çərçivəsində, həm də beynəlxalq təşkilatların müxtəlif layihələri çərçivəsində nəzərdən keçirilir. Ancaq ölkəmizdə kənd yerlərinin inkişafı baxımından diqqət yetirilməli olan başqa bir məqam yerli fermerlərin əksərən kiçik ölçülü fermerlər olmasıdır. Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) əsasən Azərbaycanda fermerlərin 70%-ə qədərinin torpaq sahəsi 2 hektara qədərdir. Bu isə bir çox Avropa ölkələri ilə müqayisədə kifayət qədər aşağı göstəricidir. Fermer təsərrüfatlarının ölçüsünün kiçikliyi onların bazar gücünün zəif olması ilə birbaşa əlaqəlidir. İqtisadi nəzəriyyədən də bildiyimiz kimi, kiçik ölçülü müəssisələr miqyas effektindən istifadə edə bilmirlər. Bu isə belə müəssisələrin istehsal etdikləri məhsulların maya dəyərinin orta bazar qiyməti ilə müqayisədə daha yüksək olmasına, nəticə etibarı ilə isə, bu müəssisələrin rəqabət qabiliyyətliliyinin aşağı olmasına gətirib çıxarır. Digər tərəfdən isə kənd təsərrüfatı sektoru miqyas effektinin ən aşkar şəkildə təzahür etdiyi sahələrdən biridir. Bu baxımdan, ölkədə kiçik fermerlərin çoxluq təşkil etməsi aqrar sahənin inkişafı və regionların sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından bir problem kimi çıxış edir. Bir sıra iqtisadçılar kiçik təsərrüfatların daha çevik olmaları və kiçik bazar seqmentlərini daha yaxşı əhatə edə bilmələri baxımından iri təsərrüfatlardan üstün olmalarını bildirirlər. Ancaq, həm daha rəqabətli ixrac bazarlarına çıxışın əldə edilməsi, həm də mütərəqqi aqrotexniki normaların tətbiqi sayəsində məhsuldarlığın artırılması baxımından orta və böyük təsərrüfatların üstünlüyü danılmazdır.

Ölkədə həm iri təsərrüfatların formalaşması, həm də kənd yerlərinin inkişafının təmin edilməsi baxımından ən mütərəqqi hesab edilə bilən həll yolu kooperasiya əlaqələrinin gücləndirilməsidir. Fikrimcə, buraya əsasən istehlak kooperativlərinin yaradılması aid edilməlidir. Qeyd edək ki, fermerlərin sahib olduqları torpaq, kənd təsərrüfatı texnikası və heyvanlar kimi maddi aktivlərin ortaq mülkiyyətə çevrilməsini ehtiva edən istehsal kooperativləri ilə müqayisədə, istehlak kooperativləri daha çox məhsulun saxlanması, satışı, bölüşdürülməsi, marketinqi və ixracı kimi ticarət yönümlü fəaliyyətlərin birgə həyata keçirilməsini təmin edirlər. Belə kooperativlərin yaradılması, həm hüquqi, həm də sosial baxımından daha çox üstünlük verilən variant kimi çıxış edə bilər. Hazırda ölkədə aqrar sahədə kooperativlərin formalaşması hərtərəfli stimullaşdırılır. Yeni aqrar subsidiya sistemində kooperativ üzvü olan fermerlərin 10% daha çox subsidiya əldə etmək imkanına malikdirlər. Qeyd edək ki, ölkədə koopertivlərin yaradılması könüllülük prinsipi əsasında həyata keçirilir.

İri təsərrüfatların yaranmasının stimullaşdırılmasının digər bir yolu da torpaqların konsolidasiyasıdır. Bu, müxtəlif ərazilərdə torpaq sahələrinə malik fermerlərin bu əraziləri öz aralarında mübadilə edərək torpaq sahələrinin müəyyən ərazidə konsentrasiyasına nail olunmasını

ifadə edir. Kənd təsərrüfatı istehsalçılarının elektron qeydiyyatı sistemi kimi çıxış edən EKTİS sistemində torpaqların konsolidasiyası ilə bağlı kifayət qədər imkanın olduğu müəyyən edilmişdir. Torpaqların iriləşdirilməsi baxımından vahid əkin sisteminin də özünəməxsus üstünlükləri vardır.

Beləliklə, qeyd edilənləri nəzərə almaqla, Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından dövlət tənzimləməsinin iki əsas istiqamətini müəyyən edə bilərik. Birinci istiqamət hazırda həyata keçirilən subsidiya sisteminin effektivliyinin artırılması məqsədilə daha dərin regional ixtisaslaşnın həyata keçirilməsi, ikinci istiqamət isə fermerlər arasında kooperasiya əlaqələrinin formalaşmasının stimuallaşdırılması və mövcud əlaqələrin genişləndirilməsidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayı, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020 https://www.stat.gov.az/source/labour/
2. Azərbaycanın ərzaq balansları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020, https://www.stat.gov.az/source/food_balances/
3. Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı, https://e-qanun.az/framework/41320
4. 2022-ci il üzrə əkin və məhsul subsidiyası ödəniləcək kənd təsərrüfatı bitkilərinin əmsalları, http://akia.gov.az/az/single/160
5. Farmers in the EU – statistics, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Archive:Farmers_in_the_EU_-_statistics

**Elman Əmənov**
Turizm və otelçilik üzrə magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: elmanemenov98@gmail.com

## REGİONLARDA TURİZMİN İNKİŞAFININ ÖLKƏ İQTİSADİYYATINDA YERİ

**Xülasə**

Regional iqtisadiyyatın inkişafında yalnız turizm fəaliyyətinin özündə deyil,həm də onunla əlaqəli bütün sənaye və əmək növlərinə aid olan turizm sektoru olmasıdır.Turizm sektorunun inkişafı əlaqəli sahələrin yaranmasını,bölgələr əhalisinin həyat səviyyəsinin artmasına,iş yerlərinin açılmasına kömək edir,bölgənin iqtisadiyyatında və büdcəsində gəlirləri artırır. Turizm sosial-iqtisadi fenomen kimi iqtisadi münasibətlərin bazar aspektlərini və cəmiyyətin inkişafının sosial yönümlü məqsədlərini birləşdirir. Hal-hazırda turizm dünya iqtisadiyyatının ən dinamik inkişaf edən və yüksək gəlirli sahələrindən biridir, müvafiq ərazilərin sosial-mədəni inkişafında ən vacib amillərdən biridir. Turizm, bir tərəfdən sərbəst artım əsasında inkişaf edir; asudə vaxt, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması, bütövlükdə xidmət sektorunun böyüməsi, digər tərəfdən isə regional iqtisadi kompleksin inkişafı üçün güclü katalizatordur.

Turist zonası bölgələr xüsusi istirahət xüsusiyyətlərinin olması ilə müəyyənləşdirilən və işarələrin məcmusu və şiddət dərəcəsi ilə bir-birindən fərqlənən ərazilər ayrılan bir bölgədir.

ÜTT dünyanın 6 əsas turizm bölgəsini müəyyənləşdirir: Avropa, Amerika, Cənub-Şərqi Asiya və Okeaniya, Afrika, Yaxın və Orta Şərq, Cənubi Asiya.

Ərazinin turist bölgələşdirilməsi olduqca vacib bir işdir, çünki həll etmək müəyyən əraziləri insanların rahatlamaları və mədəniyyətlərini inkişaf etdirmələri üçün təbiətə ən az təsir göstərməsi ilə bərabər istifadə etməyə imkan verir. Turist bölgələşməsinin elmi prinsiplərinin inkişafı və onların daha da inkişaf etdirilməsi inkişaf etməmiş yerlərdə turizmin inkişafı üçün yeni istirahət mənbələrini və digər şərtləri müəyyənləşdirməyə imkan verir; müxtəlif sifarişli yeni turizm sahələrini müəyyənləşdirmək və yaratmaq; onların turizm ixtisaslarını düzgün müəyyənləşdirmək,

oxşar şərtlərlə turizmin inkişafı təcrübəsini bir bölgədən digərinə ötürmək; müxtəlif turizm bölgələrinə fərqli şəkildə aiddir. "Hər bir ölkədə turizim səyahətlərinin motivi onun iqtisadi quruluşu, əhalisinin yoxsulluq və varlılıq səviyyəsi, həmçinin turist xidməti haqqında ictimai fikir əsas rol oynayır."

Turistlərin regionlar üzrə bölünməsi çətin məsələdir. Onun mürəkkəbliyi iki aspektdən ibarətdir:

a) Bütün dünyanın ərazisi, yəni bir-birinə bənzəməyən çox fərqli ərazilər hesab olunur;

b) Regionlaşma demək olar ki, turizm olmayan və ya zəif inkişaf etmiş yerləri əhatə etməlidir, lakin bunun üçün müəyyən şərtlər mövcuddur.

Müxtəlif ölkələrdə regional turizm xüsusiyyətlərinə aşağıdakılar daxildir:

1. Turizm baxımından coğrafi məkanın əsas xüsusiyyətləri (turizm bazarları və qonaqlıq bölgələrə münasibət, siyasi qeyri-sabit ərazilərə və "planetin isti nöqtələrinə" münasibət, qonşu ölkələr, habelə ərazidə olan dövlətlərlə münasibətlər) turistlərin əksəriyyəti tərəfindən istifadə olunan rabitə ötürür və s.);

2. Bölgənin təbiəti, iqlim şəraitinin rahatlıq səviyyəsi, istirahət mənbələrinin zənginliyi və müxtəlifliyi, onlardan istifadənin mümkünlüyü və rahatlığı;

3. Ərazinin təbii və mədəni-tarixi görməli yerlərlə doyması, onların əsas zonalara və turizm mərkəzlərinə münasibətdə birləşməsi və mövqeyi;

4. Turistlərin əksəriyyəti və perspektivli müştərilər üçün təbii və mədəni-tarixi attraksionların cəlbedicilik dərəcəsi;

5. Sahənin mövcud rabitə görünüşü cərəyanları ilə əlçatanlıq səviyyəsi;

6. Bu əraziyə gəlmək və evə qayıtmaq üçün vaxtında lazımi xərclərin səviyyəsi;

7. Turistlərin səyahət üçün maliyyə qaynaqlarının xərclənməsinin ümumi səviyyəsi;

8. Turizm infrastrukturunun inkişaf səviyyəsi

9. Turistlərə xidmət göstərən işçilərin xidmət səviyyəsi və ixtisasları;

10. Ərazinin turistləri qəbul etmək imkanları;

Bütün bu amillərin turizm sahələrinin formalaşmasında əhəmiyyəti eyni deyil. Bu amillərin hərəkəti müxtəlif birləşmələrdə özünü göstərir. Qeyd etmək lazımdır ki, daxili turizm baxımından bir çox ölkələrin bölgələşməsi ümumiyyətlə beynəlxalq turizm baxımından üst-üstə düşmür, çünki vətəndaşları üçün maraqlı və əlçatan bir sahə xarici turistlər üçün az maraq kəsb edə bilər və ya çətin ola bilər. Və ya əksinə, turistlər üçün cəlbedici yerlər gündəlik həyatları səbəbindən yerli əhali arasında həmişə maraq oyandırmır. Buna görə də konsepsiyanı hər zaman müəyyənləşdirmək lazımdır: hansı turizmi - daxili və ya beynəlxalq barədə danışırıq.

Ümumdünya Turizm Təşkilatı turizm bölgəsini bir istehsalçı tərəfindən bir turist və ya bir qrup turistə satılan istirahətin təşkili üçün zəruri olan xüsusi qurğular və xidmətlərin geniş bir ərazisi olaraq təyin edir. Təcrübədən, gəzinti motivindən və yaşayış yerindən məsafədən asılı olaraq məzuniyyətçi aşağıdakı parametrləri müəyyənləşdirir: mənzil, yer, mənzərə və ekskursiyalar.

Turizmin iqtisadi böyüməni təmin edən amillərdən biri olduğu qənaəti, ixracat və iqtisadi artım arasındakı əlaqəyə dair empirik araşdırmaların nəticələrinə əsaslanır. Tədqiqatlar nəticəsində əldə edilən nəticələr qiymətləndirildikdə, turizm fəaliyyətləri ilə iqtisadi böyümə arasında güclü və müsbət bir əlaqənin olduğu görülür.

Regional turizmin inkişafı proqramının əsas blokları təklif olunur:

- regional turizmin bölgə iqtisadiyyatının digər sahələrinin inkişafına iqtisadi və sosial təsirini gücləndirmək məqsədi ilə dövlət və özəl sektorun müvafiq funksiyalarının müəyyən edilməsi;
- bölgənin inkişafının ekoloji, sosial-mədəni və infrastruktur vəziyyətinin real şərtlərinə əsaslanaraq turizmin inkişafının ərazi sərhədlərinin müəyyənləşdirilməsi;
- müvafiq inkişaf formasının və cəlb edilməli beynəlxalq və daxili turizm seqmentlərinin seçimi;
- turizm infrastrukturundan çox məqsədli istifadə yollarının müəyyən edilməsi;

Turizmin milli iqtisadiyyata töhfəsi tədiyyə balansındakı kəsirlərin bağlanması funksiyası ilə özünü göstərir. Beynəlxalq turizm fəaliyyətinin valyuta tələbinə və valyuta təklifinə artan təsiri sayəsində ölkələrin tədiyyə balansı kəsirinin qarşılanmasına çalışılır. İllər üzrə təhlil edildikdə,

turizm gəlirlərinin xarici ticarət kəsirini əhəmiyyətli dərəcədə maliyyələşdirdiyi diqqət çəkir. Başqa bir diqqətəlayiq məqam, xüsusən böhran dövründə turizm sektorunun milli iqtisadiyyat üçün nə qədər vacib olmasıdır.

Turizmin regional inkişafa təsirlərini aşağıdakı kimi sadalamaq olar:

- Turizm sayəsində ixrac edə bilmək, geoiqtisadi aktivlər, sosial-mədəni sərvətlər, dəyərlər və hadisələr və müəyyən xidmətlər bölgə üçün valyuta mənbəyinə çevrilir.

- Bölgəyə gələn yerli və xarici turistlər tərəfindən edilən turizm istehlakı və artan turizm tələbatını ödəmək üçün edilən turizm sərmayələri həm turizm sektorunda, həm də sektoru müəyyən edən digər sektorlarda istehsal amillərinin gəlirlərini artırır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Məmmədov E.Q. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Bakı “Gənclik” Nəşriyyatı-2013.-172 səh.
2. Soltanova H. Azərbaycan Respublikasında turizm və onun inkişafı . Monoqrafiya.AzTU-nun mətbəəsi.2015,475 səh.
3. Soltanova H. Turizmin əsasları.Dərs vəsaiti, “Mütərcim”, 2007, 316 səh.

**Fuad Maqsud oğlu Həsənzadə**
Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və
Təşkili İnstitutunun doktorantı

## AQRAR SEKTORUN İQTİSADİ İNKİŞAFDA ROLU

Bilik iqtisadiyyatının genişlənməsinə baxmayaraq, aqrar sektor bəzi ölkənin iqtisadiyyatında mühüm əhəmiyyəti olan sektordur. Lakin inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının ÜDM-də payı inkişaf etməkdə olan ölkələrlə müqayisədə xeyli azdır. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sektorunun strateji prioritet sahə olmaması heç də bu sahəyə dövlətin marağının az olması demək deyil. Əksinə, kənd təsərrüfatında istehsalın həcmi digər amillərlə yanaşı həm də əkin sahələri ilə bağlı olduğundan və bu sahələrin məhdudluğu dövlətin aqrar sahəyə xüsusi qayğı ilə yanaşmasını tələb edir. Digər tərəfdən, qlobal ərzaq təhlükəsizliyi aqrar sahənin inkişafından asılıdır.

Dünya Bankının və FOA-nun məlumatlarına əsasən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunan torpaq sahələri getdikcə azalmaqdadır. Aqrar sektorda yaradılan əlavə dəyərin dünya üzrə yaradılan ümumi dəyərdə payı da davamlı olaraq azalır. Aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payı da azalmaqda davam edir. Kənd regionlarında yaşayan əhalinin sayı davamlı olaraq artsa da ümumi əhalinin sayında payı azalır. Lakin elmi-texniki yeniliklərin aqrar sektora tətbiqi nəticəsində həm əkinçilik, həm də heyvandarlıq məhsullarının istehsal həcmi sürətlə artır.




**Qrafik 1. Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq üzrə istehsal həcmi**

Kənd təsərrüfatı məhsullarının ümumi həcmində orta gəlirli ölkələrin payına daha çox istehsal düşür. Aşağı gəlirli ölkələrin kənd təsərrüfatı, meşə təsərrüfatı, həmçinin balıqçılıq üzrə istehsal etdiyi məhsulların həcmi digər qruplarla müqayisədə çox azdır (qrafik 1.).

Lakin aqrar, sənaye və xidmət sahələri arasındakı struktur dəyişiklikləri davamlı olaraq baş verir. Dünya üzrə kənd təsərrüfatı məhsullarının fiziki həcmi davamlı olaraq artsa da ümumi yaradılan dəyərdə onun payı azalmaqdadır. Elmi texniki yeniliklərin iqtisadiyyata tətbiqi nəticəsində xidmət sektorunda yaradılan dəyərin payı ilbəil artır. Hətta aqrar sektorun iqtisadiyyatda mühüm çəkiyə malik olduğu ölkələrdə bu çəki azalmaqdadır. Bütün səviyyələrdə olan ölkələrdə, aqrar sektorun payı ÜDM həcmində sürətlə azalır. Hətta aşağı gəlirli ölkələrdə, əhalinin əsas hissəsinin aqrar sektorda məşğul olmasına baxmayaraq, azalma tempi sürətlidir. Son 20 ildə bu rəqəm 34%-dən 26%-ə qədər (8 faiz bəndi) azalıb. Orta gəlirli və yüksək gəlirli ölkələrdə bu rəqəm uyğun olaraq, 5.5 faiz bəndi (14,2%-dən 8,8%-ə qədər) və 0,7 faiz bəndi (2%-dən 1,3%-ə qədər) qədər azalıb. Bu onu göstərir ki, inkişaf etmiş ölkələrdə texnoloji yeniliklər tətbiq etməklə aqrar sahənin imkanlarından maksimum istifadə edilir. Aqrar sektorun modernləşməsi sahəsində sürətli inkişaf digər ölkələrdə də, o cümlədən aşağı və orta gəlirli ölkələrdə də baş verir.

Aqrar sektorda istehsal həcminin ölkənin inkişaf səviyyəsindən asılılığı deməyə əsas verir ki, bu sahədə dövlət tənzimlənməsinin mühüm əhəmiyyəti var. Birincisi, hər bir ölkə üçün özünün perspektiv inkişafında aqrar sektoru nə dərəcədə strateji prioritet hesab etməsi mühüm siyasətdir. Dövlət tənzimləməsinin mahiyyəti bu siyasətdən çox asılıdır. Qrafik 1. və qrafik 2-dən görmək olar ki, inkişaf etmiş ölkələr üçün kənd təsərrüfatı strateji prioritet sahə deyil. Ən azı ona görə ki, inkişaf etmiş ölkələrin əksəriyyətində kənd təsərrüfatının inkişafı üçün zəruri olan istehsal amilləri, xüsusilə əmək kifayət qədər deyil. Bu ölkələrdə sənaye və xidmət sahələrinin sürətli inkişafı insan resurslarının aqrar sektordan bu sektorlara axınını yaradır. Digər tərəfdən, ölkələrarası azad ticarətin mövcudluğu inkişaf etmiş ölkələrdə bilik tutumlu müqayisəli üstünlük sahələrinin yaradılmasına, həmçinin sənaye və xidmət sahələrində aqrar sahədə yaradıla bilən dəyərdən daha çox dəyərin yaradılmasına imkan verir.




**Qrafik 2 Dünya üzrə aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı**

Qloballaşma və dünya təsərrüfat sisteminin formalaşması qlobal miqyasda digər çox mühüm hadisənin baş verməsinə səbəb olur. Orta və aşağı gəlirli ölkələrdən yüksək ixtisaslı kadrların yüksək gəlirli ölkələrə axını "təbii əmək bölgüsünü" formalaşdırır. Bunun nəticəsində aşağı gəlirli ölkələrdə aqrar sektorda çalışanların ümumi məşğulluqda payı daha yüksək olur. Əlbəttə, bunu yalnız miqrasiya ilə izah etmək olmaz. Aşağı və orta gəlirli ölkələrdə sənaye və xidmət sahələrinin zəif inkişaf etməsi, insan kapitalının səviyyəsi, dövlət idarəetməsi və sair amillər məşğulluğa ciddi

təsir edir. Lakin aqrar sektorda məşğul əhalinin ümumi məşğullarda payının ölkələrin inkişaf səviyyəsindən asılılığında ciddi qanunauyğunluğun olması deməyə əsas verir ki, bu iki göstərici arasında əks əlaqə var. Qrafik 3-dən də görünür ki, əksər aşağı gəlirli ölkələrdə aqrar sektorda məşğulluğun ümumi məşğulluqda payı 70% ətrafındadır. Bu göstərici inkişaf etmiş ölkələr üçün 3%, orta gəlirli ölkələr üçün isə 27% ətrafındadır. Gəlirlər arasındakı fərqlərin iqtisadi fəaliyyət sahələrindən ciddi asılılığı ölkədaxili deyqi-bərabərliyi şərtləndirdiyi kimi ölkələrarası qeyri-bərabərliyə də səbəb olub. Qrafik 1.3-dən görünür ki, bu fərqlilik son 30 ildə ciddi şəkildə dəyişməyib. Lakin dünya üzrə aqrar sektorda çalışanların ümumi məşğulların sayında payı azalmaqda davam edir. Bütünlükdə bu sektordan sənaye və xidmət sektoruna keçid davam edir.




**Qrafik 3. Dünya üzrə aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payı**

Ölkələr üzrə aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payının, həmçinin aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payının ölkələrin inkişaf səviyyəsindən asılılığı (uyğun olaraq, qrafik 1.1.4 və qrafik 1.1.5) deməyə əsas verir ki, ölkə iqtisadiyyatı inkişaf etdikcə, iqtisadi strukturda ciddi dəyişikliklər baş verir. Yəni iqtisadi strukturların dəyişməsi ilə bağlı əsas tendensiya ondan ibarətdir ki, ölkənin getdikcə varlanması onun iqtisadiyyatında strateji prioritet aqrar mahiyyətdən biliktutumlu sahələrə yönəlir. Beləliklə, belə bir müddəanı irəli sürə bilərik ki, ölkənin inkişaf etməsi onun aqrar sektorunda yaradılan dəyərin ÜDM-da daha az paya malik olması üçün zəruri şərtdir. Oxşar müddəanı aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payı ilə bağlı qeyd edə bilərik. Yəni ölkənin adambaşına ÜDM həcminin çox olması aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payını azaldır. Lakin qeyd etdiyimiz bu müddəaların əksi doğru deyil. Yəni iddia etmək olmaz ki, aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı və ya aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payı azdırsa ölkə inkişaf etmiş ölkədir. Bunu qrafik 4 və qrafik 5-dən də görmək olar. Adambaşına ÜDM həcmi 10 min ABŞ dollarından çox olan bütün ölkələrdə aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı 10%-dən azdır (yalnız bir ölkə- Qrinland istisna təşkil edir). Həmçinin qeyd edə bilərik ki, adambaşına ÜDM həcmi 10 min ABŞ dollarından çox olan bütün ölkələrdə aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayındakı payı 10%-dən azdır.

İqtisadi inkişaf səviyyəsinə görə bir-birindən fərqlənən dünya ölkələrində aqrar sektorda yaradılan dəyərin həcmi ilə yoxsulluq səviyyəsi arasında əlaqənin analizi belə əlaqənin universal olmadığını sübut edir (qrafik 6). Kənd təsərrüfatının inkişaf səviyyəsinin yoxsulluq səviyyəsinə ciddi təsir etməməsi bu sektorun iqtisadi inkişafda lokomotiv rolunun azalması ilə bağlıdır. Ola bilsin ki, aqrar sektorun ÜDM-da payının yüksək olduğu ölkələrdə onun yoxsulluq səviyyəsinə təsiri əhəmiyyətlidir. Lakin nəzərə alsaq ki, belə ölkələrdə məşğul əhalinin əsas hissəsi aqrar sektorda çalışır və aqrar ölkələrin əksəriyyətində əmək məhsuldarlığı inkişaf etmiş ölkələrlə

müqayisədə daha aşağı səviyyədədir, onda fərz etmək olar ki, aqrar sektorun ölkə üzrə yoxsulluğu aradan qaldırmaq imkanı çox zəifdir. Lakin belə potensialın olmamasını iddia etmək düzgün deyil. Belə ki, aqrar sektora müasir innovativ texnologiyaların tətbiqi nəticəsində əmək məhsuldarlığını xeyli artırmaq imkanı var. Bu isə aqrar ölkələrdə insan kapitalının inkişafından çox asılıdır.




**Qrafik 4 Aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı (Y) ilə a.b.ÜDM həcmi (X) arasındakı əlaqə (2016)**




**Qrafik 5 Aqrar sektorda məşğul əhalinin ümumi məşğulların sayında payı (Y) ilə a.b.ÜDM həcmi (X) arasında əlaqə (2016)**

Aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı ilə insan inkişafı arasında əlaqənin müqayisəli analizi deməyə əsas verir ki, ölkədə insan inkişafı indeksi yüksəldikcə, əhalinin sağlamlıq və təhsil səviyyəsi yaxşılaşdıqca aqrar sektorun payı ölkə iqtisadiyyatında azalmağa başlayır. Yüksək ixtisaslı əmək qabiliyyətli insanlar daha çox bilik tutumlu iqtisadi fəaliyyətlə məşğul olmağa cəhd edirlər. Aqrar sektorun bilik tutumlu sektora çevrilməsi, yeni texnika və texnologiyaların bu sektorda tətbiqi əmək məhsuldarlığını artırmaqla yanaşı, ümumi məhsul istehsalına da pozitiv təsir edə bilər (qrafik 7).




**Qrafik 6 Aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı ilə (X) yoxsulluq səviyyəsi (Y) arasında əlaqə (2016)**




**Qrafik 7 Aqrar sektorda yaradılan dəyərin ümumi dəyərdə payı (Y) ilə insan inkişafı arasında əlaqə (X)**

**Xəlilov Elnur Möhübbət oğlu**
Magistr, Azərbaycan Texnologiya Universiteti
E-mail: elnur.xelilov97@mail.ru

# KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ UÇOT SİYASƏTİ

**Xülasə**

Uçot siyasətinin seçimi kənd təsərrüfatının xüsusiyyətlərindən, müəssisənin təlimat və daxili nizamnamə normalarından və təsərrüfat fəaliyyətinin xüsusiyyətlərindən, müəssisənin uzunmüddətli və qısamüddətli strateji planlarından asılıdır. Mühasibat uçotu siyasətinə həmçinin vergi qanunları, subsidiyaların mövcudluğu, öhdəliklərin vaxtı və xarakteri, icarə münasibətləri, işçilərin ixtisasları və qiymətləndirmə formaları təsir göstərir. Kənd təsərrüfatı müəssisələrində uçot siyasəti həyata keçirilərkən beynəlxalq uçotun prinsiplərini, tələblərini, mühasibat uçotunun metodoloji və texniki əsaslarını rəhbər tutmaq lazımdır.

**Açar sözlər:** kənd təsərrüfatı, uçot, vergi uçotu, öhdəlik, nəzarət

**Ключевые слова:** сельское хозяйство, бухгалтерский учет, налоговый учет, ответственность, контроль

**Key words:** agriculture, accounting, tax accounting, liability, control

Tədqiqatlar göstərir ki, uçot siyasətinin təşkilinin əsas şərti qanuna, standartlara və onların tələblərinə uyğunluqdur. Belə ki, bu gün Azərbaycan Respublikasında mühasibat uçotuna aid hüquqi normativ sənədlər bütün mülkiyyət formalı müəssisələrə qanunvericiliyə zidd olmayan uçot siyasətini, alternativ mühasibat uçotu formalarını tətbiq etməyə imkan verir.

Uçot siyasəti formalaşdırılarkən müəssisənin aktiv və öhdəliklərinin onun mülkiyyətçilərinin və digər müəssisələrin aktiv və öhdəliklərindən ayrı mövcud olduğu güman edilir; müəssisə fəaliyyətini davam etdirəcək, onun fəaliyyətini məhdudlaşdırmaq arzusu və ehtiyacı yoxdur. Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında uçot siyasətinin hazırlanmasına ilkin və əsas yanaşma səhmdarın (sahibkarın) maddi maraqları və bu maraqlara nail olmaq üçün iqtisadiyyatın ən optimal yollarının aydın seçilməsidir. [2; s. 105]

Kənd təsərrüfatı müəssisələrinin uçot siyasətinin inkişafına bir sıra amillər təsir etdiyi üçün bu amilləri adətən 2 hissəyə bölmək olar:

1) mülkiyyət formasından asılı olmayaraq tərtib edilən uçot siyasəti sənədinə daxil edilməli olan məlumatlar;

2) kənd təsərrüfatı ilə birbaşa əlaqəli məlumatlar və onun əsas variantları.

Vergi sistemində aparılan islahatların əhatə etdiyi məsələlər sırasında iqtisadiyyatda və təsərrüfat subyektlərində maliyyə hesabatının düzgün təşkili və mühasibat uçotunun təşkili xüsusi yer tutur. Mühasibat uçotunun düzgün təşkil edilməməsi vergi ödəyiciləri tərəfindən ikiqat hesablamalara və dövriyyənin gizlədilməsinə səbəb olur. Son zamanlar aqrar sahədə mühasibat uçotunun vəziyyətinin yaxşılaşdırılması istiqamətində müəyyən irəliləyişlər əldə edilmişdir.

Kənd təsərrüfatı sahəsində uçot siyasətinin formalaşmasının bəzi xüsusiyyətlərini nəzərə alaraq, bir çox alimlər aşağıdakı məsələlərin vacibliyini göstərmişlər:

1) başlıca istehsal vasitəsi, əmək cismi torpaqdır;

2) başqa istehsal vasitələri kənd təsərrüfatı bitkiləri və heyvanlarıdır;

3) təbii amillərin və mövsümü istehsalın təsirliyi;

4) hazır məhsullar gələcək dövrlərdə daxil olur.

Kənd təsərrüfatı fəaliyyətlərinə nəzarət, məsələn, mal-qaranın qanuni mülkiyyəti və möhürlənməsi və ya alınması, doğulması və ya süddən kəsilməsi zamanı mal-qaranın hər hansı digər təyinatı ilə sübut edilə bilər. Gələcək faydalar adətən mühüm fiziki xüsusiyyətlərə əsasən hesablanır.[3 ; s. 5]

Əvvəllər iri kənd təsərrüfatı məhsulları istehsalçıları üçün vergi uçotu aparılırdı, lakin kiçik istehsalçılar nəinki uçota alınmırdı, hətta onların bəziləri vergi orqanlarında uçotda deyildilər.

Yəni aqrar sahəyə vergi nəzarətinin səviyyəsi çox aşağı idi. Bu o deməkdir ki, həmin istehsalçılar üzrə iqtisadi göstəricilər heç yerdə qeydə alınmayıb. [1; s. 6]

Son vaxtlar aqrar sahədə qeydiyyatdan keçməyən istehsalçıların vergiyə cəlb edilməsi ilə bağlı müəyyən tədbirlər həyata keçirilir. 2019-cu ilin ortalarından indiyədək 10 mindən çox kənd təsərrüfatı istehsalçısı və kənd təsərrüfatı torpaqlarının mülkiyyətçisi qeydiyyata alınıb. Bu kiçik göstərici deyil və proses davam edir. Əlavə olaraq qeyd etmək olar ki, vergi uçotunda olan vətəndaşların çoxu aqrar sahədə heç bir yerdə qeydiyyatda olmayıb. Bir sözlə, bu şəxslər vergi uçotuna başqa məqsədlər üçün daxil ediliblər.

Kənd təsərrüfatında uçot siyasətinin formalaşmasına təsir göstərən digər spesifik amillər də vardır ki, bunlar da aşağıda sadalanır:

Sənayedə mövcud vəziyyətin obyektiv səbəblərindən biri kənd təsərrüfatında vergi güzəştlərinin tətbiqidir. Əvvəllər vergi orqanları vergiyığanlar kimi yalnız vergilərin yığılma səviyyəsi ilə maraqlanırdılar. Onlar bu sektorda iri ödəyicilərlə maraqlanırdılar və kiçik istehsalçılara vaxt itirmək istəmirdilər. Bu da ondan irəli gəlir ki, bu sahədən daxil olan potensial vergi daxilolmaları mühasibat uçotu və qeydiyyat prosedurunun təşkili və aparılması üçün kifayət etmirdi. Əslində, riyazi baxımdan bu, məntiqli görünə bilər. Ancaq gördüyümüz mənzərə onu göstərir ki, hər şeyə vergi yığımı prizmasından baxmaq lazım deyil. Vergi nəzarəti ilə bağlı problemlər bütövlükdə sektora mənfi təsir göstərir. Üstəlik, bu sahəyə diqqətsizlik bir sıra sahələrdə vergidən yayınma hallarının artmasına səbəb olub. Məsələn, sahiblərinin icarəyə verdiyi çoxlu torpaq sahələri var. Əksər hallarda icarədarın bu münasibətlərdən irəli gələn vergi öhdəlikləri aqrar sahədə işlədiyi və uçot aparmadığı üçün yerinə yetirilməmişdir. Başqa sözlə, kənd təsərrüfatı torpaqlarının icarəsi bazarının müəyyən hissəsi vergi nəzarətindən kənarda qaldı. [4; s 16]

**Cədvəl 1.**

**Kənd təsərrüfatında uçot siyasətinin formalaşmasına təsir edən amillər**

<table>
<tr><td rowspan="11">Amillər</td><td rowspan="3">Texnoloji</td><td>Mövsümi istehsal</td><td rowspan="3">Ehtiyatların qiymətləndirilməsinə təsir edir, bitməmiş istehsalın xarakterini xüsusiləşdirir, maya dəyərinin hesablanmasında yeni yanaşma tələb edir və s.</td></tr>
<tr><td>İstehsalın dövrlərinin məhsullara görə müddət müxtəlifliyi</td></tr>
<tr><td>İstehlak xarakterli məhsullara tələbat müxtəlifliyi</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td rowspan="4">Təşkilati</td><td>Bir neçə fərqli məhsulun əmələ gəlməsi</td><td rowspan="4">Daxili nəzarət sisteminə təsirlik, uçot işində strukturların yaranması, hesablar planı, hesabatlıq işinin təşkili və s.</td></tr>
<tr><td>Mühasibat üçotunun digər uçotdan fərliliyini yaradır</td></tr>
<tr><td>Kənd təsərrüfatı müəssisəsinin təşkilati-hüquqi formasına əsaslanmalı</td></tr>
<tr><td>İstehsalın həcmi</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td rowspan="2">Nizamlayıcı</td><td>Dövlət nəzarəti (vergi istisna olmaqla, bütün nəzarət formaları)</td><td rowspan="2">Tələb əsasında əvvəlcədən təyin edilmiş hesabatlar və bu sistemə müvafiq sənədləşmə</td></tr>
<tr><td>Vergi nəzarəti</td></tr>
</table>

**Mənbə:** Məmmədov R.K., s. 22

Kənd təsərrüfatı spesifik sənaye sahəsidir və fərq ondan ibarətdir ki, o, birbaşa və dolayısı ilə bir çox amillərdən asılıdır. Beləliklə, kənd təsərrüfatı müəssisələrində uçot siyasətini tərtib edərkən aşağıdakı məsələlər nəzərə alınmalıdır:

1. Torpaq istehsal prosesində əsas amil və uzunmüddətli aktiv kimi uzunmüddətli aktiv hesab edilsə də, amortizasiya olunmur. Əksinə, norma daxilində istifadə edildikdə keyfiyyətdə azalma yox, yaxşılaşma müşahidə olunur. Mühüm amil mühasibat uçotu siyasətində, torpaqların qiymətləndirilməsində bu amilin düzgün uçotunun qurulması, bəzən istehsalın xarakterindən asılı olaraq şərti öhdəliklərin yaradılması və nəticədə gələcək dövrlərdə pul itkilərinin uçotunun aparılmasıdır;

2. İstehsalın və onun nəticələrinin canlı orqanizmlər üçün aktuallığı uçot siyasətində bu məsələlərlə bağlı standartların tələblərinin qorunmasını zəruri edir. Məsələn, dövrlər üzrə istehsalın uçotu prosedurları və gəlir əldə etmək üçün əlaqədar xərclər, düzgün planlaşdırma və faktiki uçot və s.;

3. İstehsal müddəti, satışdan əvvəlki və satışdan sonrakı itkilər. Tədqiqatçılar bəzən bu mənada normalar təklif etsələr də, kənd təsərrüfatının müəyyən sahələri var ki, məntiqi itki normalarının tətbiqini zəruri edir. Məsələn, taxıl məhsullarının daşınması və daşınması zamanı heyvanların tələf olma riski arasında fərq var və bu itkilər sahibkar tərəfindən tez qazanc əldə etdikdə müəyyən edilir;

4. Mövsümi işlərin mövcudluğu. Kənd təsərrüfatı məhsullarının istehsalı bir çox hallarda "tarla-iqlim-yaşayış" amillərindən asılı olduğundan, digər sahələrdən fərqli olaraq, il ərzində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini tələb edən, faktiki informasiyaya uyğunlaşdırılmasını tələb edən məsrəflərin uçotu problemi yaranır;

5. Bir bioloji aktivdən bir neçə bioloji məhsulun alınması və onların maya dəyərinin hesablanması üçün ən yaxşı üsulların seçilməsi. Bu zaman uçot siyasəti informasiyanın şəffaflığını təmin etmək üçün ən müasir və məntiqli metodların seçilməsi üçün bütün vasitələri səfərbər etməlidir.

Kənd təsərrüfatında düzgün uçot sisteminin yaradılması da dövlətin diqqət mərkəzindədir. Dövlət Vergi Xidmətinin məlumatına görə, kənd təsərrüfatında uçot və hesabatlılığın səviyyəsi qənaətbəxş deyil. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının ayrı-ayrı dövlət orqanlarına və bələdiyyələrə təqdim etdikləri hesabatlarda rəqəmlər arasında ciddi uyğunsuzluqlar olub, kənd təsərrüfatı məhsulları istehsalçılarının qeydiyyatdan keçməməsi və hesabat təqdim etməməsi üçüncü şəxslərin vergidən yayınmasına səbəb olub. [5; s. 204]

Hazırda uçot siyasəti təşkil edilərkən kənd təsərrüfatının bəzi xüsusiyyətləri nəzərə alınmır. Uçot siyasətində bu xüsusiyyətlərin nəzərə alınmaması son nəticədə təsərrüfat rəhbərlərinin düzgün qərar qəbul etməsində problemlər yaradır və maliyyə nəticələrini ciddi şəkildə azaldır. Apardığımız araşdırmalar göstərir ki, bəzi mövcud normativ aktların uçotu müasir standartlara uyğunlaşdırılmalı, kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı ticarət endirimləri və satış zəmanətləri müasir standartlara uyğun olmalıdır. Məsələn, itki əmsalları fərdi çatdırılma və ya saxlama standartlarına əsaslanan uçot siyasəti təlimatlarında hesablanmalı və keçmiş təcrübəyə əsaslanmalıdır. Kənd təsərrüfatında gələcək itkilər üçün lazımi ehtiyatların yaradılması, şərti öhdəliklərin tətbiqinə elə yanaşmaq lazımdır ki, bu sahədə heç bir manipulyasiya elementi olmasın. Alternativ olaraq, kənd təsərrüfatında bioloji aktivlərin müəyyənləşdirilməsinə və uçotun planlı maya dəyəri əsasında aparılmasına yanaşma olmalıdır ki, "mənfəətin hamarlanması" məsələsi ortaya çıxmasın. Buna görə də, standartların icazə verdiyi kimi, bioloji aktivlər ilkin tanınma tarixində və hər bir balans hesabatı tarixində satış xərcləri çıxılmaqla ədalətli dəyərlə qiymətləndiriləcəkdir. Qəbul prosesini asanlaşdırmaq üçün müəssisə kənd təsərrüfatı məhsullarını yığım zamanı təxmin edilən maya dəyəri çıxılmaqla ədalətli dəyəri ilə ölçməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Kənd təsərrüfatına Milli Mühasibat Uçotunun tətbiqi: çatışmazlıqlar və onların həlli istiqamətləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri, Bakı, 2013-2, s.5-10.

2. Kənd təsərrüfatı müəssisələrində uçot siyasəti: problemlər və onların həlli istiqamətləri. "Kooperasiya" elmi nəzəri jurnalı, № 4(27), Bakı-2012. s.104-109.

3. "Kənd təsərrüfatı üzrə" kommersiya təşkilatları üçün 28 №-li milli mühasibat uçotu standartı, Bakı, 46 səh.

4. Məmmədov R.K., "Kənd təsərrüfatı müəssisələrində uçot siyasəti və onun təkmilləşdirilməsi", Bakı, 2018, 27 səh.

5. Zeynallı E.C., "Aqrar sahədə mühasibat uçotunun təkmilləşdirilməsinin səmərəliliyin yüksəldilməsində rolu", Bakı, Kənd təsərrüfatının iqtisadiyyatı, № 4 (34) Agricultural Economics, 2020, s. 202-205

**Gülsüm Habil qızı Qasımova**
Turizm və otelçilik üzrə magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: gulqasimzadee@gmail.com

## İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARDA TURİZMİN İNKİŞAFINA NƏQLİYYAT AMİLİNİN TƏSİRİ

**Xülasə**

Turizmi nəqliyyatsız təsəvvür etmək mümkün deyildir. Məhz bu səbəbdən turizm peşəkarları öz gündəlik fəaliyyətlərində daşıyıcılarla təmasda olur. Bu məqsədlə hər bir peşəkar turizm mütəxəssisi daşıyıcılarla münasibətlərini hüquqi müstəvidə qurmağı bacarmalıdır. Öz spesifik məzmununa görə beynəlxalq nəqliyyat hüququ yüklərin və sərnişinlərin müxtəlif nəqliyyat növləri vasitəsilə beynəlxalq daşınması zamanı əmələ gələn münasibətləri, nəqliyyat təşkilatları və fərdi daşıyıcılar, həmçinin daşıma prosesi bir neçə daşıyıcı tərəfindən həyata keçirildikdə onların özləri arasında yaranan müxtəlif münasibətləri tənzimləyən hüququ normalarının məcmusuna malikdir. Beynəlxalq daşımalar dedikdə, yüklərin və sərnişinlərin iki və daha artıq dövlət arasında həmin dövlətlər tərəfindən bağlanmış beynəlxalq sazişlərlə müəyyən edilən şərtlər əsasında daşınması (nəql edilməsi) başa düşülür. Sərnişinlərin və yüklərin beynəlxalq daşmması əsasən hava, dəniz və avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Bu nəqliyyat növləri arasında daşımanın sürətlə aparılması baxımından avianəqliyyat xüsusi rol oynayır.

**Açar sözlər:** Qarabağ, turizm, rayon, təbiət, tarix, nəqliyyat, hava limanı, beynəlxalq, dəmiryolu , Azərbaycan

**Key words:** Tourism, region, nature, history, transport, Airport, International, Railway, Azerbaijan

**Ключевые слова:** Карабах, туризм, район, природа, история, транспорт, аэропорт, международный, железнодорожный, Азербайджан

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev İkinci Qarabağ müharibəsi bitdikdən sonra müharibədən əvvəl qanunsuz zəbt olunmuş torpaqlarımız olan Ağdama, Füzuliyə, Qubadlıya, Zəngilana, Cəbrayıla, Hadruta, o cümlədən Şuşaya səfərləri zamanı dönə-dönə ermənilər tərəfindən bu rayonların yerlə-yeksan olunduğunu qeyd etmiş və sadalanan yerlərin təzədən həqiqi cənnətə çevriləcəyini demişdir. Bu səbəbdən cəmiyyətdə bir inam mövcuddur ki, Qarabağ önümüzdəki illərdə ən möhtəşəm turistik məkanlardan biri olacaqdır.

Qarşıdakı illər ərzində Füzuli-Cəbrayıl-Zəngilan, Bərdə-Ağdam, Füzuli-Xocavənd-Şuşa-Laçın, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, istiqamətləri üzrə təzə turizm marşrutlarının tərtibi və reallaşdırılması planlaşdırılır. Şuşanın Azərbaycan Respublikasının Mədəniyyət paytaxtı elan olunması xarici turistlərin də diqqət mərkəzindən yayınmayacaqdır. Şəhərdə beynəlxalq sərgilər, festivalların, müxtəlif tədbirlərin təşkili, turizm məhsulunun təqdimatı, həmçinin başqa mədəni-kütləvi görüş yığıncaqların keçirilməsi böyük marağa səbəb olur.

Turizm cəhətdən görüləcək tədbirlər kimi Qubadlı, Zəngilan və Laçın, Kəlbəcər rayonlarında qış, sağlamlıq, ekoturizm və dağ turizminin inkişafına diqqət ayırılacaq, Füzuli, Ağdam, Cəbrayıl rayonlarında isə bəzi dağıdılmış mədəni müəssisələr və erməni vandalizminin qalıqları açıq havada muzey formasına sərgilənəcəkdir. Bunun səbəbi turizm biznesinin iqtisadi tərəfilə paralel, siyasi-təbliğati tərəfinin də mövcud olmasıdır.

Regionda aparılan restavrasiya işləri zamanı istirahət mərkəzləri, turizm obyektlərinin də inşasına da özəl həssaslıqla yanaşılacaqdır. Mütəxəssislərin fikrinə görə, hazırki dövrdə keçmişdəki ilə müqayisədə də üstün, qabaqcıl standartları ödəyən infrastrukturu regionda yaratmaq mümkündür. Bir neçə il ərzində Qarabağda turizmin sahəsinin inkişaf etdirilməsindən ötrü regional səviyyədə ekonomik inteqrativ xarakterli layihələr reallaşacaqdır. Bununa gözəl nümünə kimi göstərə biləcəyimiz fakt Füzuli ilə Şuşanı birləşdirən yolun istismara verilməsidir. Qarabağ ərazisindən ötməklə Naxçıvan MR-i və Türkiyə Respublikasını bir-birinə bağlayan dəmir yol xəttinin tikintisi təkcə regiona yox, ümumilikdə Cənubi Qafqaz adlı geosiyasi məkana turist axımını sürətləndirəcəkdir. Başqa cəhətdən təzə layihələr çərçivəsində ziyarətçi və turistlərin vaxt sarıdan itkisi ən az səviyyəyə salınacaq, sənədləşmələrlə əlaqədar proseslər sadə forma alacaqdır.

Ölkəmizin cənubunda gələcəkdə Xudafərin körpüsündən istifadə ilə İran İslam Respublikası ərzisindən, Naxçıvan vasitəsilə də Türkiyə Respublikasından gələcək ziyarətçilərin Qarabağ bölgəsinə səfərləri gözlənilir. Yaxın bir neçə il ərazində işğal altından xilas olunmuş torpaqlara qeyd olunan 2 istiqamət üzrə turistlərin kütləvi axımı olacağı güman edilir. Yuxarıda sadalananlar da daxil olmaqla Azərbaycan Respublikasında turizm üzrə prioritet bazarlar mövcuddur və Azərbaycan Respublikasının Prezidentinin göstəriş, əmr və sərəncamları əsasında, müvafiq şəkildə aidiyyəti qurumlar qeyd olunan istiqamət üzrə layihələri hazırlayır və lazımi tədbirləri reallaşdırır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığı əsasında, düşmən tapdağından xilas olunan torpaqların turizmüzrə inkişafını müəyyən edən strategiya hazırlanmışdır. Qeyd olunan sənədə əsasən, turizm məhsulunun hazır olunması qeyd olunan torpaqlarda turizmin infrastrukturunun yaradılması ilə eyni vaxtda həyata keçiriləcəkdir. Yuxarıdakılarla yanaşı, turistlərin təhlükəsiz səyahətinin təmin edilməsi regionda turizmin inkişaf etdirilməsi üçün başlıca vəzifələrdən biridir. Sakinlərin geriyə dönüşü, yaşayış və baza infrastrukturun bərpa edilməsi ilə yanaşı, regionda turizm məhsulu da yaradılacaqdır.

İşğaldan azad edilən ərazilər Azərbaycanın cənub-qərbində yerləşir. Bunlara Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan, Şuşa, Cəbrayıl, Ağdam, Tərtər, Xocavənd, Xocalı, Füzuli və Xankəndi rayonları daxildir. Bu ərazilər erməni separatçılarının işğalı altında idi. Lakin ölkə başçımızın uğurlu siyasəti nəticəsində bu torpaqlar işğaldan azad edilmişdir. İndiyə kimi bu ərazilərimizin torpaqlarını, coğrafiyasını, turizmini və s. öyrənmək mümkün olmamışdır. Eyni zamanda bu ərazilərdə turistləri yerləşdirmə obyektləri, xidmətlə təminat səviyyəsi, eskursiya və əyləncə xidməti haqqında məlumat vermək təbii ki, mümkün deyildir. Lakin artıq torpaqlarımızda gedən abadlaşmalarla yanaşı, bu torpaqların öyrənilməsinə də başlanılmışdır. Bu torpaqların öyrənilməsi daima alimlərin diqqətini cəlb etmişdir. Hal-hazırda Prezidentimiz İlham Heydər oğlu Əliyevin göstərişi ilə işğal altında olan torpaqlarımızda müxtəlif işlər həyata keçirilir. İlkin olaraq, yol infrastrukturu bərpa edilir. Yeni beton örtüklü yolların çəkilməsi, var olan yollarda həyata keçirilən təmir işləri çox vacib hesab edilir. Yaxın gələcəkdə artıq bu ərazilər qiymətli turizm zonalarına çevriləcək və bu zaman turistlərin rahat gediş-gəlişi üçün yol vacib amilə çevriləcəkdir.

## ƏDƏBİYYAT SIYAHISI

1. https://lent.az/xeber/sosial/zengilanda-beynelxalq-hava-limani-400522
2. https://tass.ru/mezhdunarodnaya-panorama/10787423
3. http://interfax.az/view/840218/ru
4. https://axtar.len.az/?q=F%C3%BCzuli_Beyn%C9%99lxalq_Hava_Liman%C4%B
5. https://www.realtv.az/news/az/99968/sulhun-ve-inkishafin-teminati-olan-dehliz-video

**Cəfər Kiçibəy oğlu Qədirov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrantı
E-mail: cefer6698@gmail.com

# TURİZM AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ ƏSAS AMİLİ KİMİ

Müasir şəraitdə ərazi problemlərinin həllində və inkişaf etdirilməsində turizmin təşkili, inkişafı və kompleks iqtisadi idarə edilməsi böyük əhəmiyyət kəsb edir. Qloballaşma və inteqrasiya proseslərinin intensivləşməsi şəraitində davamlı inkişafın mühüm amili və fəaliyyət sahəsi olan turizm bir sıra mürəkkəb problemli situasiyaların və idarəetmə mexanizmlərinin məcmusu ilə birlikdə formalaşır və dəyişdirilir. Azərbaycanda turizmin inkişafına xüsusi diqqət ayrılır. Çünki bir regionun turizm potensialı bir çox cəhətdən həmin bölgənin inkişafına təkan verir, iqtisadiyyatın gəlirlərini artırır, minlərlə yeni iş yeri yaradır, ölkənin infrastrukturunu inkişaf etdirir və əcnəbilərlə vətəndaşlar arasında mədəni mübadilə hissi yaradır. Təqdim edilən işdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafında turizmin rolu tədqiq edilir.

**Açar sözlər**: turizm, sosial-iqtisadi inkişaf, regional turizm

Azərbaycan zəngin təbii sərvətləri, qədim mədəniyyəti, tarixi və həyat tərzi ilə seçilən, müxtəlif mədəniyyətlərin və sivilizasiyaların, o cümlədən adət-ənənələrinin unikal və ahəngdar birləşməsini özündə ehtiva edən füsünkar bir ölkədir. Azərbaycan qədim şəhərlər, saraylar, qalalar, məqbərələr, məscidlər kimi gözoxşayan görməli yerləri ilə turizm sənayesinin inkişafı baxımından böyük potensiala sahibdir. Bakı və Abşeron yarımadası, Naxçıvan, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara bölgələri, Şirvan və Gəncəbasarın tarixi əraziləri Azərbaycanda səyahət edənlər üçün ən cəlbedici məkanlardan hesab edilir. Bu yerlərin ecazkar təbiəti, çoxsaylı qədim xarabalıqları, təəccübləndirən etnoqrafik rəngarəngliyi, habelə yerli sənətkarların heyranedici məharəti ölkə ərazisinə gələn turistlərdə Azərbaycan haqqında unudulmaz təəssürat yaradır. Bu məqsədlə ölkə ərazisində turizm fəaliyyətinin inkişafına dair çoxsaylı dövlət proqramları hazırlanmış, böyük irəliləyişlər qeydə alınmışdır. Turizm sektoru ilə bağlı fəaliyyətlərin ən mühüm iqtisadi xüsusiyyəti ondan ibarətdir ki, bu fəaliyyətlər inkişaf etməkdə olan ölkələrin üç prioritet məqsədinə töhfə verir: gəlirin yaradılması, məşğulluq və valyuta gəlirləri. Bu baxımdan turizm sektoru iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi mühüm rol oynayır. Turizm sənayesinin iqtisadi inkişafın müxtəlif mərhələlərində göstərə biləcəyi təsir hər bir ölkənin spesifik xüsusiyyətlərindən asılıdır. Gəlir, təhsil, məşğulluq, cəmiyyət təhlükəsizliyi və sosial dəstək kimi sosial və iqtisadi amillər ölkənin yaşam səviyyəsinə əhəmiyyətli dərəcədə təsir edə bilər. Bu amillər doğru seçim etmək, tibbi xidmət, mənzil almaq, çətin situasiyaları idarə etmək və s. qabiliyyətimizə də təsir edir. Yüksək səviyyəli məktəblər, sabit iş yerləri kimi sosial və iqtisadi imkanlarımız uzun və sağlam həyata nail olmaq üçün tələb edilən əsas şərtlərdəndir. Məsələn, yaradılan məşğulluq potensialı vətəndaşı mənzil, təhsil, uşaq baxımı, qida, tibbi xidmət və s. haqqında seçimləri formalaşdıran gəlir ilə təmin edir. Bunun əksinə olaraq, ölkə ərazisində yayıla biləcək işsizlik bu seçimləri əl çatmaz edərək yatırım etmək qabiliyyətimizi məhdudlaşdırır.

Turizm istehlakının mürəkkəbliyini nəzərə alaraq, onun iqtisadi təsiri digər istehsal sektorlarında da geniş şəkildə hiss olunur və hər bir halda sürətləndirilmiş inkişaf məqsədlərinə nail olmaq üçün öz töhfəsini verir. Turizm ölkəsinin sosial-iqtisadi inkişafı daha çox turizm sənayesindən asılıdır. Bu sənaye xarici valyuta yaradır, xarici ticarət balansını yüksəldir, məşğulluq imkanları yaradır. Mobillik isə sərvət gətirir, iqtisadiyyatda gəliri çoxaldır və digər sektorların inkişafına kömək edir. Bundan əlavə, turizm sənayesi destinasiyada, təhsildə, tərəqqidə və sülhdə sosial-mədəni inkişafı formalaşdırmaqla mühüm rol oynayır.

Buna əlavə olaraq, bu sektor aviaşirkətlər, mehmanxanalar, avtomobil icarəsi şirkətləri kimi alt sektorlar vasitəsilə ÜDM-ə ciddi şəkildə təsir edir. Birbaşa və dolayı təsirləri ilə yanaşı, turizm xidmət, tikinti və istehsal sektorları kimi digər sektorlarda (induksiya edilmiş təsir) əlavə ÜDM-in artmasına səbəb olur. Digər tərəfdən, turizm sektoru inkişaf etməkdə olan ölkələr üçün mühüm

xarici valyuta gəlir mənbəyidir. Turizm regionların məşğulluğuna və sosial-iqtisadi inkişafına mühüm təsir göstərir. Əlbəttə, bu məşğulluq təkcə şəhər yerləri ilə məhdudlaşmır, həm də bu sektorun inkişafı ekoturizm, günəş və çimərlik turizmi, dini turizm kimi bir çox alt sektorlar vasitəsilə regionlarda və kənd yerlərində məşğulluq imkanları yaradır. Həmçinin, turizmin inkişafı bütövlükdə regionlarda güclü infrastrukturun qurulmasına təkan verməklə yanaşı şəhər və kənd infrastrukturunun inkişafını dəstəkləyir. Daha sonra, səfər edilən turistik regionların marketinq vasitəsinə çevrilməsinə səbəb olur, çünki uğurlu turizm strategiyaları regionların beynəlxalq müstəvidə imicini yaxşılaşdırmağa kömək edir. Ən əhəmiyyətlisi isə odur ki, ekoloji davamlılığı, mədəni irsi və yerli dəyərləri qorumaq və təşviq etmək səylərini gücləndirir və turistlərlə yerli vətəndaşlar arasında mədəni mübadilə yaradır. Regionlarda təşkil edilən sərgilər, konfranslar və tədbirlər adətən xariciləri cəlb edir. Təşkilat orqanları isə qeydiyyat rüsumları, hədiyyə satışları, sərgi yerləri və media müəllif hüquqlarının satışından gəlir əldə edirlər. Maddi cəhətdən verdiyi üstünlüklə yanaşı xarici turistlər ev sahibi ölkəyə müxtəliflik və mədəni zənginlik gətirirlər.Turizm əcnəbilər üçün yeni bir mədəniyyət öyrənmək üçün əla fürsət olmaqla yanaşı, yerli vətəndaşlar üçün də bir çox imkanlar yaradır. Bu, gənc sahibkarlara təkcə yerli əhali üçün davamlı olmayan yeni məhsul və xidmətlər yaratmağa imkan verir. Üstəlik, sakinlərin sosial cəhətdən inkişaf etməsinə şərait yaradır.

Ümumiyyətlə, cəlbedici turizm təkliflərinin öz tələbini yaratdığı hesab edilir. Demək olar ki, hər bir təyinat nöqtəsi özünəməxsus təbiəti, mədəni irsi və ya xidmət infrastrukturu ilə bağlı müqayisəli üstünlüyə malikdir. Məqsədli səylər bu aktivləri bir çox digər sektorlara nisbətən daha sürətlə turizmdə rəqabət üstünlüyünə çevirə bilər. Bura ölkə daxilində və xaricində turizm imkanlarının aktiv şəkildə təbliği, qlobal miqyasda tur operatorları ilə əməkdaşlıq və ölkə üçün imic kampaniyaları daxildir.

Bu baxımdan bu gün Azərbaycanın füsünkar və cəlbedici məkanlarından olan Quba, Xaçmaz, Qəbələ, Şəki, Lənkəran və s. sürətlə inkişaf edərək ölkə iqtisadiyyatına gəlir gətir. Bu baxımdan, digər illərlə müqayisədə regionlarımız günü-gündən daha da inkişaf edərək çiçəklənir. Bu nöqteyi nəzərdən Qəbələni misal gətirmək olar. Qəbələdə müasir standartlara cavab verən turizm infrastrukturlarının yaradılması ölkə ərazisinə turistlərin cəlb edilməsində böyük rol oynayır. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi Azərbaycan Respublikası və İƏT təsisatları ilə razılaşdırmaqla Qəbələni *2020-ci il İƏT Turizm Şəhəri* elan edib. Bu addım "Qəbələ" nin iqtisadi cəhətdən inkişaf edərək genişlənməsində xüsusi hərəkətverici qüvvə hesab edilir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) qlobal miqyasda 57 dövləti və 1,8 milyarddan çox əhalini təmsil edən güclü bir səsdir. Bu təyinat Qəbələ haqqında qlobal məlumatlılığı artırmaq, həmçinin turizmi və yerli iqtisadiyyatı inkişaf etdirmək üçün unikal imkan verəcək.

Rəngarəng təbiəti ilə seçilən Xaçmaz rayonu da digər rayonlar kimi geniş turizm imkanlarına malik olub lisenziyalı 32 turizm obyektini, 62 tarixi abidəni, 57 mehmanxana və kiçik mehmanxana tipli müəsissəni özündə cəmləşdirir.

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid | 110 | 97 | 106 | 99 | 102 | 103 |
| onlarda: | | | | | | |
| nömrələrin sayı, vahid | 3794 | 3846 | 3919 | 4107 | 4323 | 4363 |
| birdəfəlik tutum, yer | 9691 | 9572 | 10162 | 10462 | 10931 | 10991 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 58610 | 82998 | 149435 | 153406 | 193454 | 84067 |
| Gecələmələrin sayı, adam-gecə | 195719 | 219552 | 311502 | 384480 | 537088 | 124814 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat | 7792,9 | 29353,9 | 19935,7 | 32345,7 | 37197,2 | 14846,5 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin xərcləri, min manat | 9087,2 | 30915,4 | 20281,5 | 40733,3 | 43635,3 | 30786,1 |

Mənbə: https://www.stat.gov.az/source/regions/ (3)

**Cədvəl 1. Quba-Xaçmaz iqtisadi rayonunda sosial-iqtisadi inkişafın göstəriciləri**

Quba-Xaçmaz iqtisadi rayonunun turizm təsərrüfatında aparılan köklü dəyişikliklərin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, rekreasiya ehtiyyatlarını iqtisadi və sosial cəhətdən qiymətləndirərək, bu sərvətlərin potensial imkanlarını ümumiləşdirməklə onlardan gələcəkdə necə istifadə edilməsi istiqamətlərini müəyyən etmək mümkündür (1).

**Nəticə və təkliflər**

Zəngin təbii və tarixi-mədəni sərvətlərə malik olan Azərbaycan turizm sənayesinim inkişafı üçün geniş imkanlara malikdir. Müstəqillik illərində turizm sektorunda aparılan islahatlar, dövlət turizm proqramları və Strateji Yol Xəritəsinin hazırlanıb həyata keçirilməsi, nəqliyyat, mehmanxana və digər infrastrukturun inkişafı, ətraf mühitin mühafizəsi ölkədə turizmin davamlı inkişafına zəmin yaratmışdır. Turizmin inkişafı istiqamətində yeni turizm istiqamətləri yaradılıb və ölkəyə xarici turist axını artıb. Azərbaycanda davamlı turizm potensialının qiymətləndirilməsi nəticəsində Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax, Yuxarı Qarabağ, Dağlıq-Şirvan bölgələrinin turizm baxımından daha perspektivli olduğu və bu sektorun dəstəyi ilə sosial-iqtisadi yüksəliş əldə etdiyini qeyd edə bilərik. .

## ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayeva Zoya, Vəliyev Allahverdi. Quba-Xaçmaz iqtisadi rayonunda turizmin inkişaf perspektivləri. 2019.
2. Azərbaycan Respublikasının coğrafiyası: II cild. Bakı: Avropa, 2015, 372 s.
3. Azərbaycan Dövlət Statistika Komitəsinin statistiki məlumatları. https://www.stat.gov.az/source/regions/
4. Strategic Road Map on the Development of Specialized Tourism Industry in the Republic of Azerbaijan, (2016), Baku. (https://president.az/articles/22134).

**İlhamə Əhməd qızı Qəribova**
ADPU-nun Ümumi Coğrafiya kafedrasının baş müəllimi

## AZƏRBAYCAN REGİONLARININ İNKİŞAF PERSPEKTİVLƏRİNİN TƏHLİLİ VƏ PROQNOZLARI

Cəmiyyətin inkişafı üçün yeni şərait ona gətirib çıxarır ki, bir çox üsullar və texnikalar biznes planlamasında, rəsmiləşdirilmiş strateji planlaşdırmada dövlət təşkilatlarının iş təcrübəsində kifayət qədər geniş istifadə olunsun.

Şəhərlərin sosial və iqtisadi inkişafının strateji planlaşdırılması yerli resurslara əsaslanır. Belə planlaşdırmaya daxildir:

• yerli icma daxilində qrup maraqlarının əlaqələndirilməsi;
• real resursların inventarlaşdırılması;
• real resursların məqsəd-vəzifələrinin təyin olunması;
• proqramların və fəaliyyət planlarının formalaşdırılması.

**Regionun iqtisadi inkişafının əsas məsələləri.** Regionun iqtisadi inkişafının əsas məsələləri bunlardır:

• yeni yüksək maaşlı iş yerlərinin yaradılması;
• regiona yeni sənaye sahələrinin cəlb edilməsi;
• kiçik sənaye sahələrinin inkişafı;
• istehsal strukturunun yenilənməsi;
• regional məhsulun təşviqi və satışı üçün metodların hazırlanması [1, 2].

Ötən əsrin sonlarından başlayaraq ölkəmiz böyük inkişaf yolu keçərək dünyada yaşam səviyyəsini artırmaq üçün ciddi işlər görən inkişaf etmiş bir ölkə kimi tanınmağa başlandı. Azərbaycanın beynəlxalq nüfuzu əvvəlki illərlə müqayisədə artmış, sosial-iqtisadi artım, infrastrukturun yenilənməsi işləri həyata keçirilmişdir. Bu inkişafın göstəricisi olaraq yüksək

maliyyə imkanları, davamlı makroiqtisadi sabitlik, təhlükəsizliyin təmin olunmasını və s. göstərə bilərik.

Düşmən üzərindəki zəfərimiz nəticəsində işğaldan azad edilmiş ərazilərimizin ölkənin ümumi iqtisadiyyatına ciddi təsir edəcək, yeni beynəlxalq və regional yolların və dəhlizlərin tikintisi Azərbaycanın inkişafına nəzərəçarpacaq dərəcədə təsiri olacaqdır. Bu isə Cənubi Qafqaz regionunun lider ölkəsi olduğumuzu bir daha sübut edəcəkdir. Güclü iqtisadiyyat və ticarət əlaqələrinin geniş imkanlara malik olması ölkəmizin gələcəkdə daha da inkişaf etməsinə səbəb olacaq.

Ölkə əhalisinin yaşam səviyyəsinin daha da yaxşılaşdırılması üçün yüksək və dayanıqlı iqtisadi artımın sürətlənməsi, işğaldan azad olunmuş torpaqlarımızda əhalinin öz doğma torpaqlarına qayıtmasını təmin etmək yeni inkişaf pöerspektivlərinin əsasını təşkil edir. Ölkədə özəl sektorların inkişaf etdirilməsi iqtisadi artımın daha yüksək sahələrdə istiqamətlənməsini inkişaf etdirəcəkdir. Bu söylənilənlərin həyata keçirilmsi dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən məqsədyönlü siyasətin formalaşdırılması tələb edir.

Azərbaycanın sosial-iqtisadi inkişafının daha da artırılması üçün beş əsas istiqamət qəbul olunmuşdur:

1. iqtisadiyyatda artan rəqabət yönümlü iqtisadiyyat;
2. sosial baxımdan ədalətli cəmiyyət;
3. insan kapitalıın rəqabətyönümlü forması və müasir innovativ məkan;
4. düşmən tapdağınnan azad olunmuş torpaqlarımıza əhalinin yeləşdirilməsini təmin etmək;
5. ətraf mühitin qorunması və yaşıllaçdırılması işləri [3].

**Azərbaycan rayonlarının sosial-iqtisadi inkişaf proqnozları**. Rayonun sosial-iqtisadi inkişafının proqnozu hələ də gündəmə gətirilməyən mürəkkəb elmi problem olub indiyənə kimi makroiqtisadi riyazi modellər əsasında qərarların qəbulunun optimallaşdırılması hələ də işlənməmişdir.

Regional orqanların praktik işində ən çox istifadə etdikləri planlaşdırma regionun inkişafı üçün büdcə parametrlərinin nəzərdə tutulmasıdır. Bunlara aşağıdakıları misal göstərə bilərik:

• regional administrasiya rəhbərlərinin seçkiqabağı proqramından hədəflər;
• milli iqtisadiyyatın sahələrinin inkişafında üstünlük təşkil edən nisbətlər;
• iqtisadiyyatın ən geridə qalmış sahələrini "uğursuzluqdan" çıxarmaq zərurəti;
• əhalinin həyat keyfiyyətinin sosial standartları;
• Ölkənin inkişaf etmiş regionlarının əldə edilmiş göstəriciləri ("donorlar");
• əvvəlki il üçün rayon büdcəsinin icra səviyyələri;
• büdcənin gəlir hissəsinin hesablanmış dəyərləri;
• qanunverici orqanların qərarları və tələbləri;
• nazirliklərdən, ilk növbədə sosial sahədən təkliflər;
• məqsədli kompleks proqramların icrasının nəticələri;
• regionun siyasi və sosial həyatının vəziyyəti.

Regionların inkişaf strategiyasını üç qrupa bölmək olar:

1. Sosial-iqtisadi vəziyyətdən irəli gələn xarici amillər

2. Regionun tarixi mərhələləri (yeni yaranan regionlar, neft və qaz üzrə ixtisaslaşan rayonlar, sürətlə inkişaf edən regionlar, inkişaf mərhələsində olan bölgələr və s)

3. Ölkə regionlarının rəqabətli mövqeyi (lider regionlar, ölkədəikinci dərəcəli rol oynayan regionlar,

sürətlə inkişaf edir, lakin hələ də üçüncü rollarda olanlar, zəif və perspektivsiz regionlar.

Təsnifat regionları aparıcı sənaye sahələri üzrə aydın şəkildə yerləşdirməyə, gələcəkdə inkişaf variantları hazırlamağa imkan verir [4. 5].

Strateji idarəetmədə aşağıda verilmiş üç inkişaf variantını nəzərə almaq daha məqsədəuyğundur:

**Pessimist-** sosial-iqtisadi vəziyyətin pisləşməsi zamanı əhalinin həyat keyfiyyəti;

**Realist**- sosial-iqtisadi sabitliyə əsaslanan əhalinin vəziyyəti və həyat keyfiyyəti;

**Nikbin**- sosial-iqtisadi sahədə əhalinin həyat səviyyəsinin olduqca yüksək olması.

## ƏDƏBİYYAT SİYAHİSİ

1. Алисов А. Н., Гапоненко А. Л., Демченко О. В., Казарин В. Н. Стратегия развития города: современные подходы и технологии. М.: МДС, 1999.
2. Л., Панкрухин А. П. Стратегическое управление: Учебник. М:ОМЕГА-Л, 2003.
3. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı Гапоненко А.
4. Стратегический план города: программа социально-экономического развития г. Кирова на период до 2010 года. Н. Новгород: НИМБ, 2000/
5. Экономические стратегии активных городов. СПб.: Наука, 2002.
6. https://kpfu.ru/docs/F1553168800/4_Bog_lek3.pdf

**Səxavət Tofiq qızı Məmmədova**
Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə Fakültəsinin
"Biznesin təşkili  və menecment" kafedrasının baş müəllimi
E-mail: vuqar.memmedov.7272@mail.ru

# REGİONLARDA MÜASİR BİZNES MÜHİTİNİN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

Hər bir ölkənin milli gəlirində, iqtisadi artımında  paytaxtla yanaşı regionların da özünəməxsus yeri vardır. Müasir cəmiyyət quruculuğunda regionların inkişaf dinamikasının sürətləndirilməsi ən əsas hədəflərdən birinə çevrilmişdir. Regionların sosial-iqtisadi inkişafına biznes mühitinin formalaşdırmalaşdırılması da çox böyük təkan verə bilər. Müasr biznes mühiti investisiya cəlbediciliyini artırır və regionda innovativ texnologiyaların tətbiqinə geniş imkan yaradır.

Məqalədə regionlarda biznes mühitinin formalaşdırılması istiqamətləri üzrə təhlillər öz əksini tapmışdır.

**Açar sözlər**: region, innovasiya, biznes mühiti, yeni texnologiyalar, sosial-iqtisadi inkişaf.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq ölkənin sosial-iqtisadi həyatında regionların rolu olduqca zəifləmişdir. Azərbaycann regionlarının sosial-iqtisadi inkişaf perspektivləri və bu istiqamətdə yarana biləcək problemlərin köklü surətdə araşdırılması önəmli məsələlərdən biri kimi nəzərdə saxlanılmalıdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğunda "Paytaxt və regionların tarazlı inkişafı" əsas hədəflərdən biri kimi seçilmişdir [1].

Müstəqiliyimizin ilk illərindən və "I Qarabağ müharibəsi"dən sonra demək olar ki,  ölkənin iqtisadi potensialının çox böyük payı Abşeron regionunda cəmləşmiş və bu statistika yüksək artım tempi ilə davam etmişdir. Regionlar yalnız kənd təsərrüfatı baxımından aktuallıq kəsb etdiyinə görə istehsal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətinin zəiflənməsi region əhalisinin ölkənin mərkəzinə axınına səbəb olmuşdur. Bu disporsiya regionda əlverişli biznes mühitinin olmaması baxımından da dəyərləndirilə bilər. Disporsiyanın aradan qaldırılması üçün müasir tipli biznes strategiyaları hazırlanmalı və biznes mühitinə təsir edən amillər qarşılıqlı şəkildə təhlil edilməlidir.

Müasir mövqedən yanaşsaq, biznes mühitinə təsir edən amilləri iki qrupa bölə bilərik. Bunlardan birincisi qanunvericilik bazasının mövcudluğu və onun inkişaf meylləri, digəri isə texnoloji tərəqqi və innovasiyardır.

Qanunvericilik bazasına gəldikdə regionların iqtisadi potensialını gücləndirmək məqsədilə regionların sosial-iqtisadi inkişafı üzrə ölkəmizdə 2004-2008, 2009-2013, 2014-2018, nəhayət 2019-2023 illər üzrə dövlət proqramları qəbul edilmişdir. Proqramların icra olunduğu dövr ərzində dövlət başçısı 1800-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində

iştirak etmiş, eyni zamanda müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 650-dək Sərəncam imzalamışdır [2, s.9].

2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır [3].

Bu dövlət proqramlarında tənzimlənmə sistemi, qanunvericilik bazası, iqtisadi mexanizmlərin təkmilləşdirilməsi məsələlərinə daha geniş yer verilmişdir. Eyni zamanda ölkə iqtisadiyyatında regionların fəallığının gücləndirilməsi məqsədi ilə mütərəqqi texnika və texnologiyaların tətbiqi istiqamətində investisiya cəlbediciliyinin, innovasiya fəallığının yüksəldilməsi prioritet məqsəd kimi qarşıya qoyulmuşdur. Bütün bu proseslər regionlarda iqtisadi potensialın gücləndirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə zəmin yaradan, bazara çıxış imkanlarını asanlaşdıran, istehsalla bərabər, sosial infrastrukturunun da təkmilləşdirilməsi ilə sosial müdafiənin gücləndirilməsini nəzərdə tutan kompleks, sistemli və koordinasiya olunmuş tədbirlərin həyata keçiriməsini nəzərdə tutur.

Regionlarda sosial-iqtisadi vəziyyətin bərpası və inkişafı istiqamətində daha hansı addımlar atılmalıdır? Bu tədbirlərin həyata keçirilməsində əlverişli biznes mühitinin də olması vacib şərtlərdən biri hesab edilməlidir. Regionların sosial-iqtisadi inkişafının səmərəli idarə edilməsində müəyyən metodlar və prinsiplər əsasında srateji yanaşmalar edilməli, proqramların icrasında yaranan boşluqlar aradan qaldırılmalıdır. Lazım gələrsə biznes üzrə konsaltinq firmalara müraciət edilməlidir. Fikrimizcə, bu problemlərin həlli bir mütəxəssis və komanda işidir.

Qloballlaşma, yeni texnika və texnologiyalardan istifadə imkanlarının genişlənməsi insanlarda müasir innovativ təfəkkürün formalaşmasına səbəb olur, ona görə də gənc nəsil tamamilə yeniləşən bir cəmiyyətdə yaşamağı qərarlaşdırır. Bütün bunları nəzərə alaraq regionlarda da tamamilə yeni ideyaların, innovativ layihələrin tətbiqinə əsaslı şərait yaradılmalı və bu sahədə düşünülmüş addımlar atılmalıdır. Yeni texnologiyaların tətbiq edilməsi çətinliyi, ixtisaslı kadrlara yüksək ödənişli iş yerlərinin çatışmazlığı, elm tutumlu istehsal sahələrinin azlığı, elmlə istehsalatın inteqrasiyasının zəif olması regionların inkişaf istiqamətlərinə əngəl yaradır. Regionlarda əlverişli biznes mühitinin formalaşdırılması bu problemlərin aradan qaldırılmasına əsaslı təkan verə bilər. Əlverişli biznes mühitinin yaradılması isə müasir dövrlə ayaqlaşa bilən innovativ ideyaların tətbiqindən asılıdır.

Müasr iqtisadi inkişaf istiqamətləri qabaqcıl texnologiyalar konteksində elm, təhsil və innovasiyaların vəhdətindən yaranan son məhsulda öz əksini tapır. Odur ki, məhz innovativ texnologiyalar, məhsullar, layihələr günün əsas tələbidir və elmi innovasiyalar, müasir innovasiya modelləri davamlı iqtisadi inkişafın lokamativ amillərinə çevrilmişdir. Müasir texnologiyaların, innovativ modellərin tətbiq edilməsi zamanı təşkilati- iqtisadi, elmi- texniki, ekoloji, sosial amillərin vəhdəti də nəzərə alınmalıdır. Bu baxımdan innovasiyanın idarə edilməsi prosesi prinsipcə yeni ideologiyanın icrasını tələb edir. Məhz ona görə də innovasiya prosesinin idarə edilməsində sistem yanaşmaya üstünlük verilməlidir. İnnovasiya prosesinin idarə edilməsi mexanizminə investisiya-innovasiya cütlüyü kontekstində yanaşılmalıdır, çünki innovasiyaların tətbiqi yüksək sərmayə hesabına başa gəlir. Yeni texnologiyaların tətbiqi təhcizat, logistika strukturları, kommunikasiya, infrastruktur, kadr potensialı və s. özündə birləşdirən sistemli yanaşmanı tələb edir.

Sosial-iqtisadi inkişafa təsir edən müasir biznes mühiti formalaşdırılması üçün aşağıdakı istiqamətlərə önəm verilməlidir:

- innovasiya proseslərinin regionlar üzrə tənzimlənməsi;
- regionlarda innovasiya infrastrukturunun formalaşdırılması;
- regionların elmi bazasının möhkəmləndirilməsi;
- regionlarda müasir standartlara cavab verən elmi tədqiqat və innovasiya mərkəzlərinin yaradılması;
- innovasiya mərkəzlərinin digər sahələrlə koordinasiyası;
- regionlara insan kapitalının axınını stimullaşdıran tədbirlər sisteminin hazırlanması.

İnnovasiya layihələrinin tətbiqi və regionun investisiyalar üçün cəlbedici olması biznes mühitidən qaynaqlanır. Əlverişli biznes mühiti iqtisadi yüksəlişə səbəb ola biləcək sahələrə innovativ layihələrin tətbiqinə səbəb olur ki, nəticədə də yeni iş yerlərinin yaradılması ilə əhalinin iqtisadi fəallığının artması iqtisai inkişafa səbəb olur. İqtisadi inkişafla sosial inkişaf zəncirvari bağlılıq təşkil etdiyinə görə insanların iqtisadi fəallığının artması həyat səviyyəsinin yaxşılaşdırılmasına gətirib çıxarır ki, bu da sosial inkişafa zəmin yaradır. Əlverişli biznes mühitinin formalaşdırılması iqtisadi və sosial inkişafla yanaşı infrastrukturun və kommunikasiyanın inkişafına da böyük təkan verə bilir. Buna dövlətimizin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi yenidənqurma və quruculuq işlərini misal olaraq göstərmək olar. Müasir innovasiyalara, texnologiyalara əsaslanan bərpa Qarabağ regionunun tezliklə dünya standartlarına cavab verə bilən texnoloji innovasiya mərkəzinə çevrilməsinə imkan yaradacaqdır. Burada həyata keçirilən layihələr digər regionların da inkişafına müəyyən töfhələrini verəcək və öz effektiv təsirini göstərəcəkdir. 30 ilə yaxın bir müddətdə qırılmış iqtisadi və sosial zəncirlər bərpa ediləcək, əlaqələr genişlənəcək, nəticədə regionlara insan kapitalı axını güclənəcəkdir. Bu da öz növbəsində regionların sosial-iqtisadi inkişafına böyük təkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

**1.** https://president.az/az/articles/view/50474.

**2.** Azərbaycan Respublikasi 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı / Azərbaycan Respublikasi İqtisadiyyat Nazirliyi, Bakı, - 2019. 352 s.

**3.** https://republic.preslib.az/az_c6.html.

**Mammadova A.F., Bayramova M.A., Yusupova K.G., Rahimova U.Sh., Hasanova S.B., Shirinova F.Z.**
National Aerospace Agency

## CURRENT STATE AND PROSPECTS FOR THE DEVELOPMENT OF AGRICULTURE

**Key words-** population, developing, investment, commercial.

Agriculture currently employs half of the world's population, but its role varies greatly around the world. In some developing countries, such as Nepal, about 90 percent of the population works on the land. By comparison, in developed countries such as the UK and the US, only 2-3 percent of the working population is employed on farms. However, the US is a leading food exporter due to its highly efficient technology using the latest arachnid technology. In developing countries, most people are engaged in subsistence agriculture. They produce only enough food for their family's needs and have almost nothing to sell. In developed countries, most farms are commercial. There are tribes in the developing world, such as the Pygmies in Central Africa and the Bushmen in the Kalahari Desert, who still hunt, gather and live a lifestyle not unlike that which prevailed on our planet before the advent of agriculture. Basic concepts of agricultural production and its economic significance Agriculture is the economic sector of the country, which produces agricultural products, meets the needs of most foodstuffs and raw materials for the textile, footwear, perfumery and food industries. Agriculture includes crop production, animal husbandry, hunting, forestry and fishing. Agriculture provides the population with food and raw materials for a number of industries. The industry is one of the most important in almost every country in the world. About 1.1 billion people are economically active in agriculture worldwide. Such sciences as agronomy, animal husbandry, land reclamation, plant growing, forestry and other sciences are directly or indirectly related to the problems of agriculture. There are about 50 different types of agriculture, which are divided into 2 groups: Commercial and consumer agriculture. Commercial

agriculture includes intensive crop and livestock production, horticulture and horticulture, as well as extensive grazing and grazing [1].

Consumer agriculture includes more backward arable and weedy farming, grazing, nomadic livestock rearing, and gathering, hunting, and fishing. Developed countries are dominated by highly commercialized, highly specialized agriculture. It has reached the highest possible level of mechanization and chemicalization. The average yield in these countries is 35-40 centners per hectare. The agro-industrial complex in these countries has taken the form of agribusiness, which gives the industry an industrial character. In developing countries, the traditional consumption economy dominates, with average yields of 15-20 quintals of grain per hectare or less. The consumer sector is represented by micro and small farms growing consumer crops; but there is also highly profitable agriculture, represented by large and well-organized plantations (banana plantations in Central America, coffee plantations in Brazil). The essence of agriculture is an industry that produces food for the population and raw materials for industry. Formation of agriculture is one of the basic needs of society. It ensures food security at the national economic level. Today it employs more than 1 billion people worldwide. Food security is considered as one of the elements of national security. It is about giving every citizen of the country economic and physical access to food that can ensure his health and livelihood. Food security is one of the priorities of the economic and agricultural policy of the state. Such scientific areas as agronomy, land reclamation, plant growing, animal husbandry and forestry contribute to the development and strengthening of agriculture. Currently, the largest consumers of agricultural products are the countries of Western Europe and the USA. Agriculture, its efficiency and productivity affect the balance of the national economy. It needs government subsidies because it cannot compete with other sectors of the market economy. Thus, the well-being of the sector largely depends on the competence of public administration. Agriculture is supported by the following measures: Preservation of fixed prices, regulation of market prices to ensure the profitability of production. Subsidies, compensation. Providing soft loans. tax incentives. Allocation of financial resources for scientific research in order to organize and improve agriculture. Increasing the investment attractiveness of the industry. Irrigation and melioration. Regulatory and legal support. Many developed countries consider state support for agriculture as one of the priorities of economic policy. Prospects for the development of agriculture Modern world agriculture is influenced by scientific and technological progress. It uses the following instructions: Scientific selection. Creation of hybrid varieties. Increasing the use of fertilizers. Irrigation. Increasing mechanization. Raising the qualifications of specialists in the dissemination of knowledge and experience.

The development of agriculture in many countries is hampered by the presence or huge private estates. In fact, it is a form of land ownership. There are still forms of semi-feudal and feudal land tenure systems that hinder agricultural development in suitable countries. The agricultural sector in many developing countries appears to be unable to meet domestic demand, let alone exports. While the proportion of undernourished people has declined, the number of hungry people remains enormous. A number of developed Asian countries suffer from a calorie deficit in the diet, which negatively affects the health and productivity of their populations. The future of agriculture largely depends on the coherence of the economies of different countries. Effective collaboration required: Land expansion. Today there are untapped reserves that could be used to increase the area of agricultural land. Expanding economic opportunities through increased productivity in the sector. The use of advanced technologies, the latest achievements of science and technology can change the yield and thus create efficiency reserves for the future.

## REFERENCE

1. Экономика сельского хозяйства: учебник / Н. Я. Коваленко, В. С. Сорокин, С. А. Орехов. - М. : КолосС, 2008.

**Məmmədova N,A., Əlizadə S.H.**
Milli Aerokosmik Agentliyi

# İQTİSADİYYATIN KƏND TƏSƏRRÜFATI SEKTORUNDA MƏHSULDARLIĞIN PROQNOZLAŞDIRMASI

**Açar sözlər: iqtisadiyyat, təsərrüfat, məhsul, proqnoz.**

Kənd təsərrüfatında məhsuldarlıq - kənd təsərrüfatı məhsullari bazarında idxal-ixrac əməliyyatlarını planlaşdırarkən nəzərə alınan bütün aqrosənaye kompleksinin səmərəliliyinin ən vacib göstəricilərindən biridir. Ölkə səviyyəsində və onun inzibati hissələrində məhsuldarlıq haqqında məlumat toplamağın standart üsulları çox vaxt subyektivdir və lazımi operativliyi vaxtında təmin etmir. Yerin kosmosdan məsafədən zondlama texnologiyalarının inkişafı ilə geniş ərazilərdə əkinlərin vəziyyətinin tez və minimal maliyyə xərcləri ilə monitorinqini aparmaq mümkün olmuşdur.

Hazırki dövrdə dünya üzrə aqrometeorologiyada peyk məlumatlarından istifadədə böyük nailiyyətlər qazanılmışdır. KTB-nin peyk monitorinqinin fiziki əsası, vegetasiya dövrü boyunca bitkilərin bir çox struktur və biokimyəvi dəyişikliklərinin peyk daşıyıcısında fotoqəbuledici tərəfindən qeydə alınan günəş radiasiyasının əksetdirmə spektrində özünü göstərməsidir. Bitki örtüklərinin ölçülən əksetdirilmə xüsusiyyətləri ya ölçüsüz vegetasiya indeksləri (NDVI, EVI və başqaları) və ya şüalanmanın ötürücü modellərinin parametrləri (yarpaq indeksi (LAI), spektrin fotosintetik cəhətdən aktiv sahədəki udulmuş günəş şüalarının hissəsi (FAPAR), xlorofilin yarpaqdakı konsentrasiyası və s.) şəklində təsvir olunur . Vegetasiya mövsümündə baş verən dəyişikliklərin peyk monitorinqi yerüstü meteomüşahidələrin məlumatları ilə birlikdə aqrometeoroloji proqnoz metodlarının işlənilməsi üçün geniş imkanlar yaradır. KTB yetişkənliyi ilə bağlı proqnoza əsasən, texnoloji amillər səbəbindən tendensiyanın ekstrapolyasiyası və ondan kənaraçıxma proqnozu daxildir. Məhsuldarlığın zaman seriyasının ekstrapolyasiyası yaxşı işlənilmiş və kifayət qədər etibarlı metodlarla yerinə yetirilir (ən az kvadratlar, harmonik çəkilər, eksponensial hamarlama və s.). Əsas çətinlik trenddən məhsuldarlığın sapmasının proqnozudur, hansı ki, meteoroloji amillərin böyük sayıyla təyin edilir.Onların məhsulun formalaşmasına təsiri aqrometeoroloji proqnoz metodlarının əsas vəzifəsidir. KTB-nin məhsuldarlığının proqnozlaşdırılmasının ən sadə üsulları bitki göstəricilərinin və məhsulun formalaşması üçün meteoroloji şəraitin cari ildə müşahidə olunan qiymətlərə ən yaxın olduğu analoji ili tapmağa əsaslanır. Bu üsul olduqca kobuddur və bir sıra uzun peyk müşahidəsi tələb edir.

Məhsuldarlığın digər bir proqnozlar metodu, müxtəlif reqressiya və neyroşəbəkə modellərinə əsaslanan metodlardan ibarətdir ki, bunlarda prediktor (proqnoz verən) kimi aqrometeoroloji xüsusiyyətlər (temperatur və yağıntının miqdarı, hidrotermik əmsal və s.) və müəyyən bir müddət üçün vegetasiya indeksləri yarayır. Bu cür modellər istifadə üçün ən asandır, lakin onların tətbiqi model parametrlərinin müəyyənləşdirildiyi olduqca dar bir torpaq və iqlim şəraiti ilə məhdudlaşır.

Ən etibarlı məhsul proqnozları "torpaq-bitki-atmosfer" sistemində əsas fiziki və bioloji prosesləri fotosintez, tənəffüs, orqanların böyüməsi və məhv olması, torpağa karbon axını, torpağın tənəffüsü, evapotranspirasiya və s.) nəzərə alaraq, bitkinin bioməhsuldarlığının modelləşdirilməsi əsasında aparılır. Bioməhsuldarlıq modellərinin qurulması (inisializasiyası) modelləşdirmə nəticələrinin hər bir sahənin hüdudlarında sahə məlumatları ilə müqayisə edilməsi və bir sıra empirik konstantların seçilməsini əhatə edir. Belə modellər məhsulun formalaşmasının meteoroloji şərtlərinin hesabatı üçün ən böyük universallığa və əhatəliyə malikdir, lakin bu hər bir sahə üçün nəzarəti çətin olan çox sayda meteoroloji və aqrokimyəvi xüsusiyyətin verilməsini tələb edir. Bundan əlavə, bitkilərin istehsal prosesinin hesablanmasında istifadə olunan bir çox aqrometeoroloji parametrlər (hava radiasiyası, torpaq nəmliyi və s.) meteostansiyalar şəbəkəsində ölçülən standart parametrlər sırasına daxil deyildir. Bitkilərin məhsuldarlıq prosesi modellərini şüalanma ötürmə modelləri və Yerin məsafədən zondlama (YMZ) məlumatları ilə birləşdirməklə, bitki örtüyünün hesablanmış əksetdirilmə xüsusiyyətlərini məsafədən ölçmələrin nəticələri ilə

müqayisə edərək, model parametrlərini korrektə etmək və dəqiqləşdirmək mümkün olur (şəkil1) [1].




a)




b)

Şəkil1. Quba- Xaçmaz regionunun bitki örtüyünün məsafədən zondlama vasitəsilə təsnifatı.

## ƏDƏBİYYAT SİYAHISI

1. http://gsaz.az/articles/view/111/QubaXachmaz-iqtisadicografi-rayonu

**Türkan Gülmalı qızı Məmmədova**
Dissertant, ADPU,
E-mail: turkangulmaliqizi@gmail.com

## GƏNCƏ-QAZAX DÜZÜ VƏ ƏTRAF ALÇAQDAĞLIĞIN LANDŞAFTLARINDAN İSTİFADƏNİN MÜASİR VƏZİYYƏTİ

Gəncə-Qazax düzünün müasir landşaftları uzun tarixi inkişaf prosesi keçmişdir. Ərazidə landşaftların formalaşmasında və inkişafında relyef formalarının, süxurların litoloji və mexaniki tərkibinin, iqlim şəraitinin və s. mühüm rolu olmuşdur. Gəncə-Qazax düzü alluvial, allüvial-prolluvial maili düzənlik olub, zəif parçalanmış dalğalı-təpəli, meylli hamar və qabarıq səthli gətirmə konuslarında, IV dövr çöküntüləri üzərində yerləşmişdir. Bu maili düzənlik üçün boz-qonur, boz-çəmən və açıq şabalıdı torpaqlar və onların üzərində əmələ gəlmiş yovşanlı, efemerli, daşdayanlı yarımsəhra kompleksləri səciyyəvidir.

Kiçik Qafqazın şimal-şərq yamacında çöl landşaftlarının yayıldığı hissələrdən biri Gəncə-Qazax maili düzənliyidir. Maili düzənlikdə quru-çöl və yarımsəhra kompleksləri 300-500 m-ə qədər, ondan yuxarıda isə 800-1000 m-ə qədər mütləq yüksəkliyə malik olan sahələri dağ-kserofit kollu çöllər əhatə edir. Dağ-kserofit çöl landşaftı ərazinin ən intensiv mənimsənilmiş sahələridir. Bu landşaft kompleksləri qışı quraq keçən mülayim isti və quru çöl iqlimi ilə səciyyələnir. Yer səthində havanın orta illik temperaturu $14^0$C-dən çox, orta yanvar temperaturu 0-(+$4^0$)C, orta iyul temperaturu isə 25-$27^0$C, mütləq maksimum temperatur 35-$42^0$C, mütləq minimum temperatur isə -22-$30^0$ C arasında tərəddüd edir [1].

Gəncə-Qazax düzü və ətraf ərazi alçaqdağlığın çöl landşaftlarının yarımtiplərindən asılı olaraq onlardan istifadənin xarakteri və antropogen transformasiya xüsusiyyətləri də dəyişir. Düzənliyin quru çöllərində intensiv suvarma əkinçiliyi, dağ-kserofit çöllərdə isə dəmyə əkinçiliyi və heyvandarlıq əsas təsərrüfat sahələridir.

Tədqiq olunan ərazidəki müasir çöl landşaftları əsasən burada keçmiş zamanlarda mövcud olmuş meşələrin qırılması nəticəsində onların yerində yaranmış təkrar törəmələrdir. Bu dağ-çöl landşaftlarında geniş yayılmış qəhvəyi və qaratorpağabənzər torpaqların strukturunda illüvial qatın olması [5], kimyəvi tərkibcə meşə torpaqlarına yaxınlıq sübut edir.

Gəncə-Qazax düzündə aqroirriqasiya kompleksləri on hektarlarla ərazini əhatə edirdi. XX əsrin 80-90-cı illərindən İncəsu Ağstafaçay arasındakı taxıl, üzüm əkinləri 40-50 ha, Şəmkirçayla Zəyəmçay arasındakı hamar, zəif dalğalı düzənliklərdə taxıl, pambıq əkinləri 50-80 ha ərazini əhatə edirdi [3]. Lakin müstəqillik illərində torpaqlar yerli əhaliyə paylandıqdan sonra iri arealda olan aqrokomplekslər nisbətən kiçik sahələrə bölündü. Əkin sahələrinin strukturunda kəskin müxtəlifliklər yarandı. Vaxtilə eyni bitkilər yetişdirilən 50-60 ha sahədə onlarla müxtəlif  bitkilər əkildi.

Hamar düzənliklərdən fərqli olaraq dağ yamaclarında əkin sahələri nisbətən kiçik əraziləri əhatə edir. Ərazinin mütləq hündürlüyündən, yamacların meylliyindən, ekspozisiyasından asılı olaraq əkin sahələri 0,2-1,0 ha-dan 3-5 ha-a qədər sahəni əhatə edir.

Gəncə-Qazax düzü və ətraf alçaqdağlıq ərazinin quru-çöl və dağ-çöl landşaftları bəzi kiçik yarğan, çay dərələri, dik yamaclı tirə və təpəlikləri çıxmaqla başdan-başa antropogen örtüyə malikdir. Hazırda maili düzənliyin quru-çöl landşaftları əkinçilikdə daha çox istifadə olunur. Quru çöllər 230 $km^2$-lik geniş bir ərazini əhatə edir. Aqrolandşaftların təsərrüfat strukturunda əsas yeri taxıl əkinləri, kartof əkinləri, üzümçülük, bağçılıq, tərəvəzçilik və s. təşkil edir. Suvarma ilə əlaqədar olaraq ərazidə humidlik artmışdır.

Ayrı-ayrı tarixi dövrlərdə antropogen landşaftların formalaşma xüsusiyyətlərinin təhlili göstərir ki, ərazidə insan cəmiyyətinin təkamülünə müvafiq olaraq müxtəlif təbii və antropogen landşaft kompleksləri təşəkkül tapmışdır. Ərazinin maili relyefe malik olması, bol günəş istiliyi alması, suvarma imkanlarının olması hələ qədimdən buranın mənimsənilməsinə səbəb olmuşdur. Bunu antropogen landşaftların strukturunda saxlanmış qədim kurqan-təpələr, yaşayış yerləri, suvarma arxları və s. izlər sübut edir.

Buradakı düzənliklərin aqroirriqasiya landşaftlarının əmələ gəlməsi və inkişafı daha qədim tarixə malikdir. Tarixi və arxeoloji materialların təhlili göstərir ki, Gəncə-Qazax maili düzənliyində suvarma əkinçiliyi və onunla bağlı olan ilkin aqroirriqasiya landşaftları b.e.ə. I minillikdə meydana gəlmişdir [3].

Gəncə-Qazax düzündə suvarılan antropogen komplekslərin yaranması üçün əlverişli təbii şərait olmuşdur. Kiçik Qafqaz dağlarının  yüksək dağlıq zonalarından başlayan Tovuzçay, Şəmkirçay, Qoşqarçay, Şəmkirçay və s. çayları dağətəyi və düzənlik hissələrdə çoxsaylı xırda qollara ayrılır və demək olar ki, bütün ərazini su ilə təmin edir. Bu çaylardan çəkilən qədim su kanalları alçaq tirələr və uzunsov çökəklər şəklində müasir relyefdə qalmaqdadır. Bunu ərazinin quru-çöl və qismən də Kürboyu yarımsəhra landşaftlarında quru dərələr, alçaq tirələr, basdırılmış torpaq qatları və s. şəklində görmək mümkündür.

Gəncə-Qazax düzündə suvarılan aqrolandşaftların formalaşmasının digər yolu kəhriz sularından istifadədir.  Bir sıra tədqiqatçılar Gəncə-Qazax dağətəyi maili düzənliyində əkinlərin suvarılmasında qədimdən kəhrizlərdən istifadə edildiyini göstərmişdir. Y.Ə.Qəribovun tədqiqatlarına görə [4] dağətəyi düzənliklərin əksər sahələrində suvarmada qədimdən şəffaf kəhriz sularından istifadə edildiyi üçün burada formalaşan aqroirriqasiya landşaftlarında qalın aqroirriqasiya qatı əmələ gəlmişdir. Kəhriz sularının minerallaşma dərəcəsi yüksək olduğu üçün illər boyu kəhriz sularından suvarmada istifadə edilməsi aqrolandşaftların şorlaşmasına təsir göstərmişdir. Qeyd edək ki, sonrakı illərdə meliorativ tədbirlər nəticəsində aqrolandşaftların məhsuldarlığını artırmaqla yanaşı, torpaqların şorlaşmasının qarşısını almaq üçün müəyyən tədbirlər görülmüşdür.

Kəskin mənimsənilmiş Gəncə-Qazax düzündə və ərtaf hamar dağ yamaclarında, həmçinin geniş çay dərələrində əsaslı dəyişilmiş landşaftların payı çoxdur.  Gəncə-Qazax düzü Azərbaycan Respublikası ərazisində seliteb landşaftların ən sıx formalaşdığı ərazidir. Burada seliteb landşaftlar mürəkkəb struktura malik dirlər. Gəncə-Qazax maili düzüzənliyində dairəvi, Ağstafaçay, Həsənsu, Tovuzçay,

Zəyəmçay, Şəmkirçay və s. çayların gətirmə konuslarında yelpikvari, Zəyəmçay, Badaçay, Qoşqarçay və Şəmkirçayın geniş çay dərələrində xətti, zəncirvari, platolarda hamarlanmış səthlərdə kvadratvari, rumbvari, Kürboyu geniş hamar düzənliklərdə isə əsasən səpələnən struktura malik seliteb komplekslər yayılmışdır [3].

Kənd seliteb sahələrin orta sıxlığı 1 $km^2$-də 0,04-ə bərabərdir. Quru çöllərdə kənd əhalisinin orta sıxlığı isə 1 $km^2$-də 101 nəfərə, şəhər əhalisinin sıxlığı isə 124 nəfərə çatır [2]. Seliteb sahələrin sıxlığının və demoqrafik yüklənmənin artması landşaftda ekoloji gərginliyi artırmışdır. Ərazidə yol-kommunikasiya sisteminin sıxlığı şimaldan cənuba doğru azalır. Yol-kommunikasiya landşaftı maili düzənliyin çöl landşaftının mərkəzindən eni 10-20 m-ə çatan lent şəklində uzanır. Antropogen elementlərdən təşkil olunmuş bu landşaftlar (dəmir və şosse yolları, müxtəlif kommunikasiya xətləri, kuveytlər, yolboyu meşə zolaqlari və s.) çöl landşaftının estetikliyini, ekoloji müxtəlifliyini kəskin sürətdə azaldır.

Gəncəçay dərəsinin sol sahil hissəsi bir-birini tamamlayan çoxlu seliteb komplekslərdən ibarətdir. Topalhəsənli, Zurnabad, Üçbulaq və s. kəndləri buna misal ola bilər. Burada təbii kserofit-kollu çöl landşaftları kəskin dəyişikliyə məruz qalmış, bəzi sahələrdə isə təbii landşaft pozulmuşdur.

Tədqiq olunan ərazinin dağ-çöl landşaftları ən çox dəmyə tarla əkin sahələri kimi istifadə edilir. Ərazidəki bəzi bağ-plantasiya, süni meşəsalma sahələri təbii-antropogen landşaftların biomüxtəlifliyini və ekoloji rəngarəngliyini artırır.

Kürəkçayla Gəncəçay arasındakı alçaq dağlığın çölləri tamamilə əkin sahələri altında istifadə olunur. Buradakı quru çöllər zonası, kserofit kollu çəmənlər güclü antropogenləşməyə məruz qalmışdır. Hamar düzənliklərdən dəmyə əkin sahələri kimi istifadə edilir. Mal-qaranın intensiv otarılması bitki örtüyündə ciddi pozuntular yaratmışdır. Lakin şabalıdı torpaqlar üzərində müxtəlifotlu, xırda kollu komplekslər struktur xüsusiyyətlərini və ekoloji müvazinətini qoruya bilmişdir. Ərazi quru çay dərələri ilə kəskin parçalanmışdır. Çay dərələri istisna olmaqla qalan sahələr dəmyə əkin sahələridir.

Kürəkçayın şərq və şimal-şərq hissəsindəki hamar sahələrin dağ-çöl landşaftlarından otlaq və qismən biçənək kimi istifadə edilir. Qazanbulaq, Qurudərə sahilləri, Sarı yoxuş dağı isə qış otlaqlarıdır. Kürəkçayla Gorançay arasındakı az meylli düzənliklər isə quru çay dərələri və iri yarğanlarla kəskin parçalanmışdır. Yarğanların yamacları dik, çılpaq və bitkisizdir. Antropogen təsirlərin intensivliyinə baxmayaraq təbii landşaftlar struktur xüsusiyyətlərini qismən saxlamışdır. Kürəkçay hövzəsindəki 580 m hündürlüyə malik Ağ təpə sahəsi seyrək otlu, daşlı, kəskin pozulmuş qeyri-müntəzəm istifadə olunan otlaq-örüş komplekslərindən ibarətdir. Dağın yamacları müxtəlif dərəcədə pozulmuş, cılpaqlaşmış, bəzi hissələr müxtəlif tullantılarla çirklənmişdir.

Beləliklə, dağətəyi və maili düzənliklərin yarımsəhra və quru çöl landşaftları daha yüksək antropogen transformasiyaya məruz qalmış, əsasən suvarma əkinçiliyi, bağçılıq, qış otlaqları, seliteb və yol-kommunikasiya sisteminin üstün inkişafi, həmçinin müxtəlif növ antropogen transformasiyalar ilə seçilir. Buradan keçən beynəlxalq əhəmiyyətli Bakı-Tbilisi-Qars avtomobil və dəmir yolu, İpək yolu, Bakı-Tbilisi-Ceyhan boru xətti boyunca texnogen örtüklü süni landşaftları yaratmışdır. Dağ-çöl landşaftları dəmyə əkinçiliyi, otlaq-örüş heyvandarlığı nisbətən zəif seliteb, yol-kommunikasiya sistemləri, rekreasiya fəaliyyəti ilə fərqlənir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. İbrahimov T.O., Əhmədova G.B., Əsgərova H.H., Murtuzova A.D. “Kiçik Qafqazın təbii landşaftlarının mühafizəsi”, “Elm və Təhsil”, Bakı, 2021
2. Verdiyeva T.Y. “Kiçik Qafqazın şimal-şərq yamacı hissəsi landşaftlarının təbii rekreasiya potensialı və onun qiymətləndirilməsi”, Bakı, 2009
3. Qəribov Y.Ə. “Azərbaycan Respublikasının müasir landşaftlarının transformasiyası və onların optimallaşdırılması yolları” Bakı, 2013
4. Qəribov Y.Ə., İsmayılova N.S. “Azərbaycanın düzən ərazilərində aqroirriqasiya landşaftlarının inkişaf tarixi” Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri VIII cild Bakı, 2003. S 101-106
5. Салаев М.Э. “Почвы Малого Кавказа” Баку: Элм , 1966

**Jalə Məsumova**

# REGİONLARDA SAHİBKAR SUBYEKTLƏRİNİN BİZNES FƏALİYYƏTİNİN YAXŞILAŞDIRILMASININ RƏQƏMSALLAŞMANIN TƏSİRİ

**Açar söz:**sahibkar,biznes,rəqəmsallaşma,subyekt,region

Son illər Azərbaycan Respublikasında həyata keçirilən siyasət ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, makroiqtisadi sabitliyə nail olunmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Yuxarıda qeyd olunan nailiyyətlər yeni mərhələdə ölkənin sosial-iqtisadi həyatında, xüsusən də regionların inkişafı və əhalinin məşğulluğunun təmin edilməsi sahəsində həlli vacib olan vəzifələri ön plana çıxarır. Ölkənin sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərinin əksəriyyətinin Bakıda yerləşməsi, eləcə də regionlarda bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin zəifləməsi və ya tamamilə bağlanması əhalinin paytaxta axınını sürətləndirib. Bu amillər də öz növbəsində regional iqtisadi inkişafa mənfi təsir göstərmiş, regional inkişaf arasındakı fərqi genişləndirmiş və bir çox regionlarda sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin pisləşməsinə səbəb olmuşdur [1].

Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası, o cümlədən regionların sosial-iqtisadi inkişafı, ölkənin qeyri-neft sektorunun dayanıqlı inkişafı ilə bağlı əlavə tədbirlərə dair tapşırıqların icrası biznes xidmətlərinin və sosial infrastrukturun keyfiyyəti, investisiyaların artmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına təkan verdi, nəticədə məşğulluğun artması və yoxsulluğun azalması. Dövlət proqramının həyata keçirildiyi 10 ildə ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə artmışdır. . orta aylıq əmək haqqı 5,5 dəfə artıb. Bu dövr ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni iş yeri və 55,6 min müəssisə, o cümlədən 900 mini daimi olmaqla, müəssisə yaradılıb, işsizlik 5 faiz, yoxsulluq 5,3 faiz azalıb. Dövlət proqramları çərçivəsində həyata keçirilən genişmiqyaslı işlər növbəti illərdə regionların inkişafı üçün möhkəm zəmin yaratmışdır[2].

Son 20 ildə kiçik və orta sahibkarlıq ölkə iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilmiş , əhalinin təxminən 65%-ni işlə təmin etmiş, innovativ texnologiyalar inkişaf etdirərək tətbiq etmişdir . Bu gün Azərbaycanın patentlərinin 65%-i kiçik və orta sahibkarlığa məxsusdur. 2017-ci ildə sahibkarların Azərbaycanın ÜDM-ə töhfəsi 70% təşkil edib, onlar vergi daxilolmalarının 50%-ə qədərini təmin ediblər. Bununla belə, Azərbaycanın sahibkarlıq sektoru bu gün öz töhfəsini verən kiçik və mikro müəssisələr sayəsində daha da təsirli ola bilər.Almaniyada 52%, Meksikada 54% və İtaliyada 67% ilə müqayisədə ÜDM-in yalnız 15-20%-i müasir texnologiya ilə əldə edilə biləcək əhəmiyyətli artım potensialını göstərir.

Sahibkarlığa sürətli inkişafına töhfə verən amillərdən biri də son illərdə fəal şəkildə həyata keçirilən rəqəmsal transformasiyadır. Bütövlükdə Azərbyacan əksər inkişaf etmiş ölkələrlə müqayisədə daha az rəqəmsallaşsa da, ayrı-ayrı bölgələrdə və ərazilərdə Azərbaycan rəqəmsallaşma səviyyəsinə görə bütün dünyanı qabaqlamağı bacarıb . Azərbaycanda elektron ticarətin ümumi pərakəndə satışdakı payı ABŞ-da 14,3% və Rusiyada 5,3% ilə müqayisədə 9,9% təşkil edir.[4]

Əvvəllər paylama şəbəkəsinin qurulması və alıcıların tapılması illər tələb edirdi, lakin indi e-ticarət kimi böyük platformalar KOM-lara ehtiyac duyduqları infrastruktura birbaşa çıxış imkanı verir. Çində texnoloji nəhənglər tərəfindən yaradılan ekosistem kiçik təchizatçılar üçün böyük bir istehlakçı hovuzuna anında çıxış təmin edərək, reklam və tanıtım xərclərini azaldır. Böyük məlumatların təhlili istehlakçı seçimlərini müəyyən etməyə və lazımi xidmətlərin göstərilməsinə diqqət yetirməyə kömək edir.[3]

Sahibkarlığın keçmişdə üzləşdiyi digər problem maliyyəyə çıxışın məhdud olmasıdır; Bu, xüsusilə kiçik və mikro müəssisələr üçün çətin idi. Risklərin qiymətləndirilməsi təhlili maliyyə institutlarının əməkdaşları tərəfindən aparılıb və bu, subyektiv nəticələrə gətirib çıxarıb və böyük girov olmadığı halda kredit müraciətinin rədd edilməsinə səbəb olub. Rəqəmsallaşma bu problemi

tədricən həll edir, kreditorlara kredit riskini qiymətləndirmək və əməliyyat xərclərini azaltmaq üçün yeni alətlər təqdim edir ki, bu da sahibkarların kredit almaq şansını artırır.

Rəqəmsallaşmanın təsirləri regionlarda sahibkarlığın inkişfınada böyük təsir göstərir.Keçmiş problemlərdən biridə rəqəmsallaşmanın zəif olması və region ərazilərə sahibkarlar tərəfindən invistisay az yatırılması.Bu təsirlərdə işsizliyə və bəzi böyük problemlərə gətirib çıxarırdı.[5]

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan kiçik sahibkarlıq ,Səda nəşriyyatı, Bakı, 2015
1. 2.Azərbaycan Respublikasının sosial – iqtisadi göstəriciləri,ADSK, "Səda" nəşriyyatı, 2015
2. 3.Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət
3. Proqramı ( 2002 - 2005 – ci illər) , Azərbaycan qəzeti, 18 avqust, 2002 –ci il
4. 4.Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət
5. Proqramı ( 2004 - 2008 – ci illər) , Azərbaycan qəzeti, 18 avqust, 2004



**Emil Mehrəli oğlu Mirzəyev**
AMEA- İqtisadiyyat institutu, elmi işçi
E-min: emil.mirzeyev.84@inbox.ru


## KƏND TƏSƏRRÜFATI QARABAĞ İQTİSADİYYATININ APARICI SAHƏSİ KİMİ

İşğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun formalaşması və bərpa-quruculuq işlərinin təşkili ölkəmizin 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm zəfərdən sonra xüsusi aktuallığı ilə seçilən məsələlərdəndir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivliyin sürətlənməsi və bərpa-quruculuq işlərinin təşkili Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər"- i əhatə edən Sərəncamı başda olmaqla, müxtəlif normativ-hüquqi sənədlərdə də öz əksini tapmışdır. Belə ki, həmin sərəncamın prioritet istiqamətlərindən biri kimi məhz "İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış"-ın və müasir innovasiyalar məkanının təmin edilməsi strateji hədəf kimi müəyyənləşdirilmişdir. Qloballaşan iqtisadi mühit və artan tələbatlar işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının müəyyənləşdirilməsi və onların ölkənin ümumi təsərrüfat dövriyyəsinə cəlb edilməsini tələb edir. Bu isə, həmin ərazilərdə istehsal və xidmət sahələrinin inkişaf etdirilməsini və müasir standartlara uyğun təşkilini gündəmə gətirir. Qarabağ və Şərqi Zəngəzurun kifayət qədər təbii ehtiyatlara malik olması, bu ərazilərdə istehsal- təsərrüfat fəaliyyətinin təşkili üçün kifayət qədər potensialın mövcudluğu və məhdud resurslar şəraitində artan tələbatın ödənilməsi zərurəti həmin ərazilərdə hələ ki, maddi istehsal sahələrinin, xüsusən də kənd təsərrüfatının inkişaf etdirilməsini labüd edir. Aparılan müşahidələr onu göstərir ki, işğaldan azad edilmiş ərazilərdə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı və bütövlükdə aqrar sektorun inkişafı üçün zəngin resurslar mövcuddur. Tarixə nəzər salsaq, görərik ki, hətta Sovetlər dövründə ölkənin əsas kənd təsərrüfatı istehsalı məhz bu ərazilərin payına düşürdü. Belə ki, taxıl istehsalının 14,3, üzüm istehsalının 31,5, süd istehsalının 17,1 və yun istehsalının təxminən 19,3 faizi bu ərazilərin payına düşürdü. İstehsal edilən kənd təsərrüfatı məhsulları mövcud tələbatı ödəməklə yanaşı, ixrac da edilirdi. Statistik məlumatlara görə, işğaldan azad edilmiş ərazilərdə 188 min hektar əkinə yararlı torpaq sahəsi mövcuddur ki, bunun da təxminən 100 min hektarı əkin dövriyyəsinə cəlb ediləcəkdir. Həmçinin, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün iqtisadi potensialı təhlil etdikdə, Kəlbəcər, Laçın, Qubadlı rayonlarının heyvandarlıq, Qubadlı, Zəngilan, Laçının tütünçülük, Cəbrayıl, Ağdərə, Zəngilanın üzümçülük, Ağdam və Füzulinin isə pambıqçılığın inkişafı üçün kifayət qədər əlverişli olduğunu görürük. Həmçinin, bu rayonların dağətəyi ərazilərində əsas ixrac məhsulları olan xurma və nar bağlarının salınması üçün münbit şərait var. Eləcə də , mövcud ərazilərdə olan otlaq sahələri iri və xırda buynuzlu mal- qara təsərrüfatlarının inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Məlumat üçün qeyd edək ki, Kəlbəcər və Laçına təxminən 10000 iri və xırda buynuzlu mal- qara göndərilmişdir. Mövcud

ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi və ixracyönümlü olması onun müasir standartlar və innovativ meyillər əsasında təşkilindən də əhəmiyyətli dərəcədə asılıdır. Ölkədə tarixən mövcud olan baramaçılıq, arıçılıq ənənələrinin, həmçinin atçılığın da inkişafı diqqət mərkəzindədir. Heyvandarlıq sahəsində diri heyvan və heyvan mənşəli məhsulların ixrac yönümlülüyünün təşkili və artırılması məqsədilə Qarabağ və Şərqi Zəngəzurun bir hissəsində xüsusi zonaların yaradılması nəzərdə tutulur ki, burada da ixtisaslaşmış laboratoriyaların formalaşdırılması diqqət mərkəzində duran əsas məsələlərdəndir. Məlumat üçün qeyd edək ki, hal-hazırda Füzuli rayonunda heyvandarlıq sahəsində xüsusi giriş-karantin nöqtələri yaradılır ki, bu da bölgəyə gətirilən bütün heyvanların identifikasiyasını təmin edir. Eyni zamanda, bölgəyə gətirilən heyvanlar baytarlıq normalarına xüsusi əməl edilməklə yerləşdirilir. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, mövcud ərazilərdə kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər yenilikçi ideyalara əsaslanmaqla, prosesin ənənəvi təşkilindən köklü surətdə fərqlənir. Bu da işğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatının inkişafında innovasiyaların tətbiqini zəruri edir. Təbii ki, burada əsas məqsəd kənd təsərrüfatında istehsal və idarəetmə proseslərinin sadələşdirilməsi və mövcud sahədə əmək məhsuldarlığının yüksəldilməsidir. İnnovasiya fəaliyyəti maliyyə, maddi, informasiya, intellektual və insani resursların cəmləşdirilməsini və səfərbər edilməsini tələb edir. [1;252] Belə ki, vaxt vahidi ərzində istehsal olunan məhsullarının kəmiyyət və məhsul vahidinin istehsalına sərf olunan vaxt amili mövcud proseslərin innovativliyində diqqət mərkəzində duran əsas məsələlərdəndir. Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun formalaşdırılması həmin ərazilərdə repatriasiyanın( məskunlaşmanın) təmin edilməsi ilə yanaşı, məşğulluğun da formalaşmasına xüsusi təkan verəcəkdir. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının innovativ əsaslarla inkişaf etdirilməsi, həmin ərazilərdə mövcud sahənin inkişafını təmin etməklə yanaşı, kəndin sosial- iqtisadi həyat səviyyəsinin də yüksəldilməsində mühüm rol oynayacaqdır. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə, xüsusən də Zəngilan rayonunun Ağalı kəndində formalaşdırılan "Ağıllı kənd " layihəsinin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır ki, onun əsas komponentlərindən olan " Ağıllı kənd təsərrüfatı" aqrar sektorda proseslərin tam avtomatlaşdırılmış və ya insan əməyindən minimum səviyyədə istifadə ilə iqtisadi effektivliyin təmin edilməsinin əsas hərəkətverici qüvvəsi olacaqdır. Belə ki. burada iqlim dəyişikliklərinə nəzarətdən tutmuş, suvarmaya qədər bütün proseslərin xüsusi dronlar və GPS texnologiyası ilə həyata keçirilməsi və mövcud sahədə vahid informasiya sisteminin yaradılması işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin rəqəmsallaşdırıması perspektivini də xeyli artıracaqdır. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının innovativ əsaslarla inkişaf etdirilməsi üçün aşağıdakıların icrası məqsədəuyğundur:

- Mövcud ərazilərdə kənd təsərrüfatının inkişafında innovasiyaların təşviqi;
- Aqrar –innovasiya sahibkarlığının inkişafı məqəsədilə investisiyaların təşviqi;
- Mövcud sahədə layihələrin təhlili və effektivliyinin qiymətləndirilməsi;
- Real perspektivli layihələrin seçilməsi və dəstəklənməsi;

İstehsal sahibkarlığı sahəsində innovasiya fəaliyyətinin mərhələləri kimi aşağıdakıları qeyd etmək olar:

- Məhsul növünün modeli layihələndirilməli;
- Müvafiq məhsul növünün nümunəsi hazırlanmalı;
- Sınaq və testləşdirmə təşkil edilməli;
- Sınaqdan uğurla keçmiş məhsul növünün kütləvi istehsalı təşkil edilməli;
- Effektiv innovasiya fəaliyyəti istiqamətində marketinq tədbirlərinin gücləndirilməsi;

Sonda onu da qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının innovativ əsaslarla inkişafı ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsilə yanaşı, aqrar sahənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, onun dünya bazarına inteqrasiyasını və "MADE İN AZERBAİJAN" brendinin inkişafını da təmin edəcəkdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Tağıyev A.H , Aslanzadə İ.A " İnnovasiya menecmenti" Dərs vəsaiti . Bakı – 2017
2. Хотяшева О.М , Слесарев М.А « Инновационный менеджмент». Учебник . 2019.

**Günel Ağalar qızı Mirzəzadə**
Turizm və otelçilik ixtisası (Turizm və sosial-mədəni servis xidməti) üzrə magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: gunmrz@gmail.com

## REGİONAL TURİZMİN İNKİŞAFINDA İNVESTİSİYA QOYULUŞUNUN YERİ VƏ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Müasir dövrdə dünya iqtisadiyyatının sürətli inkişaf edən sahələrindən biri olan və yüksək mənfəətlilik baxımından böyük iqtisadi inkişaf vəd edən sahə turizm sektorudur. Bir çox sahələrdə milli iqtisadiyyatın nəzərə alınması və müasir tələbatların ödənilmə səviyyəsi vacib faktorlardan hesab olunur. Bu səbəbdən insan amili və fəaliyyəti ilə bağlı olan, həmçinin insanlara xidmət göstərən turizm sektoru müasir dövrün tələbatına uyğun xidmət hazırlayır.

**Açar sözlər:** investisiya, turizm sənayesi, turist məhsulu, satış, istehsal, maliyyə

**Keywords:** investment, tourism industry, tourist product, sales, production, finance

**Ключевые слова**: инвестиции, индустрия туризма, турпродукт, продажи, производство, финансы.

Dünya əhalisi ömür boyu işləyərək əmək sərf edir və nəticədə itirdikləri enerjilərini istirahət edərək bərpa edirlər. İstirahət insana qida, su və hava kimi vacibdir. İstirahət insanin həyatında ayrılmaz hissədir ki, insan istirahət etmədən fəaliyyət göstərə bilməz. Buradan da görünür ki, turizm insan həyatının ayrılmaz bir hissəsidir. Hal-hazırki dövrdə ekoloji və psixoloji problemlər insanları daha da yormuş və insanların istirahətə olan ehtiyacı artmışdır.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq sektoru tələbatın ödənilməsinin və iqtisadi tərəqqinin əsas istehsal və sosial əsası kimi regional və sosial xüsusiyyətlərə sahib olmaqla formalaşır və inkişaf edir. Turizm sektorunda sahibkarlığın əsas məqsədi turizmin əlverişli olması xüsusiyyətləri üzərində formalaşır. Bu səbəbdən sahibkarliq fəaliyyəti öz kompleks xidmət fəaliyyətinə uyğun quruluşun yaranması üçün onun inkişafını motivasiya edən şərait yarandıqda baş verir. Turizm sahibkarlığının əsas şərtlərindən biri təbii ehtiyatların və həmçinin əmək fəaliyyəti üçün resursların olması, gəlir əldə etmək və s.-dir. Sahibkarlığın ərazi və sahə formalarını yaratmaq üçün turizmin coğrafi-iqtisadi amilləri və sosial aspektləri daha səmərəli istiqamət hesab edilir. Azərbaycanda əmək ehtiyatlarının 50%-i regionlarda yerləşir. Dağlıq ərazilər turizm üçün daha çox yararlıdır. Regionlarda təbii-coğrafi mühitin turizm üçün daha da əlverişli olması, burada turizm sektorunun daha da perspektivli inkişafına, həmçinin sahibkarlıq sahəsinin başlıca sahəyə çevrilməsinə, regionların dünya səviyyəsində tanıdılmasında, regionların sosial-iqtisadi inkişafına və işsizlik səviyyəsinin minimuma endirilməsində mühüm rol oynayır. Regionların turizm potensialından istifadə etmək üçün bu ərazilərə investorları və maliyyə mənbələri cəlb etmək vacibdir. Maliyyə mənbələri dedikdə, buraya dövlət büdcəsi, büdcədən kənar vəsaitlər, sahibkarlığa milli kömək fondu, yerli idarələrin vəsaiti, müəsisələrin vəsaiti, təşkilatların vəsaiti, xarici investisiyalar, bank sistemlərinin kreditləri, qrantlar (lahiyələr üçün verilən əvəzsiz maliyyə vəsaiti), beynəlxalq təşkilatların kreditləri, xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr daxildir.

Müasir dünyada turizm sektorunun hər bir ölkə üçün iqtisadi inkişaf baxımından əhəmiyyəti əvvəlki bölmələrdə qeyd edilmişdir. Bunu nəzərə alaraq, Azərbaycanda bu sektorun potensialını maksimum dərəcədə artırmaqla iqtisadiyyatın şaxələndirilməsi istiqamətində xeyli iş görmək mümkündür.

Müstəqillikdən əvvəlki illərdə, SSRİ illərində fabrik və fabrik işçiləri üçün kiçik, sonra isə daha kütləvi şəkildə ekskursiyaların təşkili yolu ilə turizmin inkişafında müəyyən irəliləyişlər olmuşdur. Bununla belə, danılmaz fakt ondan ibarətdir ki, həmin dövrdə qərb ştatlarında iqtisadiyyatın digər sahələrində olduğu kimi, inzibati idarəetmə ilə birbaşa bağlı olan turizm sektorunun inkişafında özəl sektor üstünlük təşkil etməmişdir. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə beynəlxalq, xüsusən də daxili (ittifaq) turizm inkişaf edirdi. Ölkəyə xarici səfərlər əsasən rəsmi xarakter daşıyırdı ki, bunun da əsas səbəbi hələ də mövcud idarəetmə sistemi və qapalı iqtisadiyyat idi. Buna baxmayaraq, 1971-ci ildə Parisdə keçirilən “Azərbaycanda turizm həftəsi” tədbiri ölkəmizdə turizmin dirçəlişinə görə yüksək qiymətləndirilmişdir. Bu həftə keçirilən tədbirdə Azərbaycan turizmi ilə bağlı müxtəlif məlumatlandırıcı təqdimatlar keçirilib. Bunun nəticəsidir ki, Şərq blokuna daxil olan sosialist respublikaları ilə əlaqələr turizmə əsaslanır və əvvəlki illərlə müqayisədə ölkəyə gələn xarici turistlərin sayında nisbətən artım müşahidə olunur.

1990-cı illərin əvvəllərində ölkəmiz müstəqillik əldə etdikdən sonra əvvəlki sistemin dağılması ilə turizm fəaliyyəti yenidən qurulmağa başladı. 1997-ci ilin sonuna kimi Azərbaycanda iri mehmanxanalar və digər rekreasiya infrastrukturları dövlət mülkiyyətində idi və həmin dövrdən sonra dövlət əmlakının özəlləşdirilməsinə Mərkəzi Əmlak Komitəsi tərəfindən başlanıldı və bu, Respublika Prezidentinin sərəncamı ilə qeyd edildi. 2000-ci illərin əvvəllərindən turizm sektorunda diqqətin daha konkret və məqsədyönlü fəaliyyətə yönəldilməsi sektorda əhəmiyyətli irəliləyişlərlə nəticələnmiş və bununla da onun davamlı inkişafı üçün əlverişli şərait yaradılmışdır. Buna misal olaraq Azərbaycanın 2001-ci ildə Ümumdünya Turizm Təşkilatına üzv olması faktını göstərmək olar. Ölkəmizin bu quruma üzv olması Azərbaycan turizminin beynəlxalq aləmdə səmərəli reklamı oldu və doğrudan da, bundan sonra ölkəyə turist axınında ciddi irəliləyişlər əldə olunub. Cənubi Qafqaz regionunda və Xəzər dənizinin qərb sahilində yerləşən Azərbaycan, ilk növbədə, müasir turizm infrastrukturudur və paytaxtı Bakı şəhəri, eləcə də mədəni və turizm imkanlarına malik regionları ilə çox cəlbedici təbii mühitə malik böyük tarixi irsə malikdir.

**Cədvəl 1.**

**Azərbaycanda mehmanxana və mehmanxana tipli biznesin əsas göstəriciləri (2007-2017)**

| İl | Otellərin sayı | Birdəfəlik tutum | Otaqların sayı |
|---|---|---|---|
| 2007 | 320 | 25483 | 11829 |
| 2008 | 370 | 28286 | 12789 |
| 2009 | 452 | 30571 | 13964 |
| 2010 | 499 | 30793 | 14158 |
| 2011 | 508 | 31979 | 14815 |
| 2012 | 514 | 32834 | 15898 |
| 2013 | 530 | 33951 | 16559 |
| 2014 | 535 | 35652 | 17363 |
| 2015 | 536 | 37278 | 17953 |
| 2016 | 548 | 40042 | 20330 |
| 2017 | 563 | 42052 | 21553 |
| İllik orta artım (%) | 5.65% | 5.01% | 6.00% |

Cədvəl 1-ə əsasən qeyd etmək olar ki, turizm sektoru son illərdə müəyyən dərəcədə özünü təkmilləşdirmişdir. Bu sahədə mövcud potensial və görülən işlər nəticəsində müvafiq infrastrukturun sayı artıb. Belə ki, 2007-2017-ci illər dövründə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin orta sayı ildə 5,65% artıb. Lakin bu temp 2007-2010-cu illərlə müqayisədə bir qədər yüksək olub, sonra 2015-ci ilə qədər zəifləyib və nəhayət, 2015-ci ildə bu sahədə lisenziyalaşdırma prosesi ləğv edilərək, cədvəldən göründüyü kimi, əvvəlki illərlə müqayisədə artım tempi yüksəlib.

Ümumiyyətlə, respublikanın turizm sənayesində turizm məhsul və xidmətlərinə artan tələbat bu artan tələbata cavab olaraq yerli və beynəlxalq mehmanxanalar şəbəkəsinə, eləcə də kiçik kurortlar şəbəkəsinə daxil olmaqla mehmanxananın infrastrukturu getdikcə yaxşılaşır. Bu da iri mehmanxanaların tikilib istifadəyə verilməsinin nəticəsidir. Rəsmi turizm dövlət portalı məlumatına görə, ümumilikdə, 2001-ci ildə ölkədə 86 mehmanxana və mehmanxana biznesinə xidmət göstərilib ki, bu da hazırda 563, 150-yə yaxını isə paytaxtdadır.

Cədvəl 1-yə əsasən, son illər ümumilikdə ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə məşğul olanların sayı ümumən artmaqda, orta illik göstərici 7,3% təşkil edir. 2015-ci ildə lisenziyalaşdırma ləğv edildikdən sonra müəssisələrin sayı artdıqca, təbii ki, işçilərin sayı da sürətlə artmağa başlayıb. Xüsusən 2015-ci ildən sonra Şəki-Zaqatala iqtisadi rayonunda muzdla işləyənlərin sayı 3 dəfəyə yaxın, Quba-Xaçmaz iqtisadi rayonunda isə təxminən iki dəfə çoxdur. Ümumiyyətlə, muzdla işləyənlərin sayında ən yüksək illik artım Gəncə-Qazax (13,86%), Dağlıq Şirvan (13,54%), Quba-Xaçmaz (13,38%) və Şəki-Zaqatala (12,52%) iqtisadi rayonlarında baş verib. Yeri gəlmişkən, təəccüblü deyil ki, Bakıda yerləşən belə müəssisələrdə çalışanlar böyük paya malikdirlər. Lənkəran iqtisadi rayonunun turizm potensialı kifayət qədər təbii və tarixi olsa da, burada orta illik artım digər iqtisadi rayonlar arasında ən aşağı göstəricidir (0,54%).

Turizm 6000-dən çox mədəniyyət və tarixi abidə və obyektləri ilə Azərbaycanın ən məşhur və bəlkə də ən böyük turizm növlərindən biridir. Bu abidələrin demək olar ki, hamısı dövlət səviyyəsində qorunub saxlanılır və onlara xüsusi diqqət yetirilir. Belə zəngin mədəni irsin qorunub saxlanması ölkə turizminin dünya miqyasında tanıdılması üçün vacib olmaqla yanaşı, həm Respublika, həm də ümumilikdə yerli əhali üçün yüksək gəlir gətirir. Son illər Azərbaycanda idman, musiqi, incəsənət və s. və bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Belə tədbirlərin təşkilində əsas məqsəd respublikaya daha çox xarici turistin səfəri üçün Azərbaycan mədəniyyətinin populyarlığını təbliğ etmək və ümumilikdə ölkənin müasir beynəlxalq mühitini təbliğ etməkdir. Bu cür tədbirlərin nümunələri: "Bakı Beynəlxalq Caz Festivalı", "Beynəlxalq Muğam Festivalı", "İlk Avropa Oyunları", "Eurovision" mahnı müsabiqəsi", "Formula 1 Azərbaycan Grand Prix ", habelə futbol, boks, güləş və digər idman növləri üzrə böyüklər və digər kiçik yaş qrupları üzrə bir neçə dəfə Avropa və Dünya Çempionatları. Təbliğat aparmaqla yanaşı, belə tədbirlər mütəmadi olaraq keçirilir, O cümlədən “Bakı Kristal Sarayı”, “Milli Gimnastika Arenası”, “Bakı Olimpiya Stadionu” və s. eləcə də bir çox binaların tikintisi ölkədə mövcud infrastrukturun yaxşılaşdırılmasında mühüm rol oynayır. Bunun əsas nümunəsi 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsi keçirilməzdən əvvəl Bakı Dənizkənarı Parkda Bayraq Meydanının tikintisinin başa çatdırılması və Heydər Əliyev Beynəlxalq Aeroportunun modernləşdirilməsinin həyata keçirilməsidir.

Dünya İqtisadi Forumunun 2017-ci ildə hazırladığı “Dünya Səyahət və Turizm Rəqabətliliyi Hesabatı”na əsasən, siyahıda 71-ci yerdə olan Azərbaycan Respublikası ötən illə müqayisədə 13 dəfə irəliləyərək ümumi turizm sektorunda ən inkişaf etmiş ölkələrdən biridir.. Bunun əsas səbəbi bu sektora investisiyaların artmasıdır. Hesabatda qeyd olunur ki, viza rejiminin sadələşdirilməsi ölkəni beynəlxalq arenada turistlər üçün daha əlçatan olmasına gətirib çıxarıb. (giriş indekslərinə əsasən reytinqdə 77 balla) Eyni zamanda, Azərbaycanın 9 milli parkı, 13 dövlət təbiət qoruğu, 19 dövlət təbiət yasaqlığı, xüsusi mühafizə olunan təbiət ərazilərinin əraziləri olduğundan Azərbaycan özünün qorunan ərazilərini genişləndirməyə və təbii-mədəni sərvətləri baxımından imicini yüksəltməyə çalışmışdır. Ölkə üzrə 594939,1 hektar və ümumi ərazinin 7%-ni təşkil etməklə ölkə siyahıda 83-cü yerdədir. Mədəni sərvətlərin mühafizəsi baxımından mühüm kateqoriya olan şifahi və qeyri-maddi irs siyahısında Azərbaycan 14-cü yerdə qərarlaşıb ki, bu da kifayət qədər ciddi göstəricidir. Üstəlik, valyuta məzənnələrinin dəyişməsi və digər amillər səbəbindən Azərbaycan daha ucuz səyahət yerinə çevrilib (siyahıda 31-ci yerdədir). Həmçinin Azərbaycanda təhlükəsiz mühit (siyahıda 35-ci yer), yaxşı sağlamlıq (37-ci bənd), bəzi amillər ölkəni xarici turistlər üçün daha cəlbedici edir və Azərbaycanda bu sektorun gələcək inkişafına böyük ümid verir. Ümumiyyətlə, qeyd etmək olar ki, Azərbaycan iqtisadiyyatında turizm sektorunun rolunun artması müşahidə olunur. Belə ki, 2017-ci ildə Azərbaycan Respublikasında:

• Ümumi Daxili Məhsulun təxminən 15%-ni turizm sənayesi yaradır və 5,6 milyard dollar təşkil edir.

• Turizm sektoru Respublikada əmək bazarının rolu artır. Ümumilikdə 2017-ci ildə 611 min nəfər bu sahə ilə bağlıdır. Bu rəqəm əvvəlki illə müqayisədə 11% artaraq ölkə üzrə ümumi iş yerlərinin təxminən 13,2%-ni təşkil edir.

• Yerli turistlər Azərbaycanda turizm xidmətlərinə 1,1 milyard dollar, xarici turistlər üçün isə 3,2 milyard dollar xərcləyib.

• Turizm sektorunda özəl sektora qoyulan investisiyaların həcmi 300 milyon dollar təşkil etmişdir.

Azərbaycanda turizm sektorunda qəbul edilmiş konkret proqramların əlaqələndirilməsi və həyata keçirilməsi məqsədilə 2018-ci ildə "Dövlət Turizm Agentliyi" yaradıldığı üçün bu sektorda dövlət siyasəti bu qurum tərəfindən həyata keçirilir. Bu istiqamətdə dövlət tənzimlənməsinin əsas prinsiplərini və turizm fəaliyyətinin əsasını müəyyən edən əsas hüquqi sənəd Azərbaycan Respublikasının turizm haqqında qanunudur. Bu qanuna görə, dövlət mövcud turizm fəaliyyətlərində üstün mövqelər qoymaq və onların həyata keçirilməsinə müsbət təsir göstərməklə turizm fəaliyyətini təşviq edir və onun inkişafı üçün əlverişli şərait yaradır.

Azərbaycan hökumətinin turizm sahəsində fəaliyyətinin tənzimlənməsi zamanı əsas məqsədləri aşağıdakılardır:

• Səyahət zamanı bütün turistlərin öz hüquqlarından istifadə etmələrini təmin etmək;

• Ətraf mühiti qorumaq;

• Ümumi turizm sənayesi üçün vacib olan istənilən növ infrastrukturun inkişafına kömək etmək, bu sektorda yeni iş yerləri yaratmaqla ölkədə işsizliyin qarşısının alınmasına töhfə vermək, dövlətin və onun sakinlərinin ümumi rifahının yüksəldilməsi;

• Digər ölkələrlə mövcud əlaqələrin yaxşılaşdırılması, turistik obyektlərin qorunması üçün tədbirlər görülməsi, təbii, tarixi və mədəni irsdən mümkün olan ən səmərəli və davamlı inkişafı təmin edən formada istifadə edilməsi

Yenə də qanuna əsasən, turizm sektorunda dövlət tənzimləmə üsulları aşağıdakılardır:

- normativ hüquqi aktların qəbulu ilə bu sahədə münasibətlərin təkmilləşdirilməsinin təmin edilməsi.

Aydındır ki, hüquqi baza iqtisadiyyatın istənilən sektorunda fərdlər arasında kommersiya və digər növ münasibətlərdə həlledici rol oynayır.

- Turizm məhsullarının və xidmətlərinin, o cümlədən infrastrukturun keyfiyyətinə nəzarət etmək üçün standartlaşdırma və sertifikatlaşdırma işlərini həyata keçirmək.
- Dövlət proqramları hazırlamaqla turizm sektorunda inkişafı sürətləndirmək.
- Turizm sektorunda investisiya cəlbediciliyini artırmaqla yerli və xarici investisiyaların müvafiq infrastruktura cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması.
- bu sahədə ixtisaslı kadrların hazırlanmasına köməklik və qanunvericiliyə uyğun olan digər üsullar.

## ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı.
2. Azərbaycan Respublikası Prezidentinin Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında 2015-ci il 21 dekabr tarixli Fərmanı.
3. Azərbaycan Respublikasının Turizm haqqında Qanunu.
4.http://eco.gov.az/- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı
5.https://www.stat.gov.az/- Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı

**Nəcəfova A.N., Novruzova K.G., Əlibəyli A.A., Rüstəmzadə L.X., Şirinova F.Z., Sultanova S.İ., Rzayeva S.G., Əliyeva K.R., Xəlilzadə N.Q.**
Milli Aerokosmik Agentliyi

# XƏZƏR DƏNİZİNİN ABŞERON REGİONUNDA NEFT SƏNAYESİNİN İNKİŞAFI VƏ EKOLOJİ VƏZİYYƏT

**Açar sözlər:** *region, neft, sənaye, inkişaf, ekologiya*

İnsan cəmiyyətinin formalaşdığı vaxtdan bu günə qədər bəşər övladı təmasda olduğu təbiətə bu və ya digər formada öz təsirini göstərməkdə davam edir. Zaman keçdikcə insanların təbiətə təsirlərinin forması və miqyası dəyişilmiş, intensivliyi daha da artmışdır. Müasir dövrdə bəşəriyyətin təbii mühitə göstərdiyi təsirlərin ölçü miqyası dəyişilmiş, intensivliyi daha da artmışdır. Müasir dövrdə bəşəriyyətin təbii mühitə göstərdiyi təsirlərin ölçü və miqyası o qədər genişlənmişdir ki, bu da bütünlüklə planetimizi əhatə edən çətin həll olunan qlobal ekoloji problemə çevrilmişdir. İnsanla onu əhatə edən təbii mühit arasındakı ziddiyyətlərin kəskinləşməsi, təbii dağıdıcı hadisələrin artması tendensiyası ilə xarakterizə edilir. İqtisadi inkişaf nəticəsində biosferin çirklənməsi, onun insan amilinə təsiri böhran həddinə çatmışdır və bu bütünlüklə bəşəriyyət üçün qaçılmaz fəlakətli nəticələrin törənməsi təhlükəsi yaradır.

Abşeron yarımadasının müasir vəziyyətinin bu mövzuda işıqlandırılması burada baş verən, bir-biri ilə bağlı və bir-birini şərtləndirən təbii proseslərin əhatələndirilməsi regionda müşahidə etdiyimiz təbiətin istifadəsinə ağıllı münasibətin anlaşılmasına xidmət edərdi. Yəni torpaqların rekultivasiyasının vacibliyi, tullantısız texnologiyaların tətbiqi, suyun qapalı dövriyyəsi sistemi və s. həlli vacib məsələlərdir, çünki, regionda yaşayan əhalinin sağlamlığının vəziyyəti bilavasitə bunlarla əlaqədardır.

Abşeron yarımadasının ekoloji şəraitinin gərginliyi və təbii sərvətlərinin istifadəsinin labüdlüyünü nəzərə almaqla ərazinin ayrı-ayrı rayonların inventarlaşdırılması təsnifatını mədəni landşaftlar səviyyəsinə çatdırmaq, mümkün olan potensial özünübərpa imkanlarını üzə çıxarmağı məqsədli edir. Bu isə Abşeron yarımadasında məskunlaşmış əhalinin yaşayış və istehsalat şəraitinin (mənzil, kənd təsərrüfatı istehsalı, təbiətin elementləri ilə balanslaşdırılmış sənaye istehsalı) optimallaşdırılmasını tələb edir.

Bu gün rayonun iqtisadi spektrində neft-qaz sənayesi aparıcı yer tutur, burada üç əməliyyat şirkəti (“Absheron Operating”, “Bahar Energy”, “Suraxanı Oil”), bu sahəyə bağlı müəssisələr fəaliyyət göstərir. Neft-qaz sənayesi ilə yanaşı, rayonun iqtisadiyyatında digər sahələrin də payı var. Hövsan qəsəbəsində quşçuluq və zeytunçuluq, Zığ qəsəbəsində fərdi maldarlıq təsərrüfatları inkişaf edib. 2017-ci ilin 9 mayında Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 229,9 milyon manat, tikinti-quraşdırma işləri 24,0 milyon manat, nəqliyyat xidmətləri 11,7 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 25,9 milyon manat, kənd təsərrüfatı 4,9 milyon manat, pərakəndə ticarət dövriyyəsi 235,8 milyon manat, orta aylıq əmək haqqı 590 manat təşkil etmiş, əhaliyə 118,2 milyon manat məbləğində pullu xidmətlər göstərilmiş, 3684 yeni iş yeri açılmışdır.

Rayon infrastrukturunun yenidən qurulması davam etdirilmiş, 18,3 km. yeni qaz kəməri çəkilmiş və ya əsaslı təmir olunmuş, müxtəlif diametrli borularla 9888,0 p.m. su və 832,0 p.m. kanalizasiya xətləri çəkilmiş, 4720,0 p.m. qəzalı su xətti dəyişdirilmiş, yüksəkgərginlikli elektrik yarımstansiyası tikilmiş, biri təmir olunmuş, Hövsan qəsəbəsində yüksəkgərginlikli elektrik yarımstansiyasının tikintisi davam etdirilmiş, 1743,0 p.m. istilik xətləri dəyişdirilmişdir.

Müxtəlif mənbələr hesabına rayonda küçələrə və məhəlləd axili ərazilərə 250,0 min kv.m. asfalt örtüyü salınmış, Qaraçuxur qəsəbəsində Etibar Bəkirli küçəsinin 2,0 km hissəsi yenidən qurulmuş, uzunluğu 12,0 km. olan Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 3,0 kilometrlik hissəsi uzunluğu 6,8 km olan Zığ-Hövsan avtomobil yolu yenidən qurulur.

Yenidən qurulan yolların ətrafının estetik görünüşünün yaxşılaşdırılması məqsədi ilə yolların ətrafında irimiqyaslı təmir-tikinti, abadlıq işləri aparılır. Yolların kənarında yöndəmsiz vəziyyətdə

olan, mövcud tikinti normalarının tələblərinə cavab verməyən, ətraf ərazinin ümumi görünüşünə xələl gətirən yerüstü kommunikasiya xətləri yerin altına salınır, yeraltı kommunikasiya xətləri təmir edilir və ya dəyişdirilir, qalan hissələri nizama salınaraq rənglənir. Hal-hazırda yenidən qurulan Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 3,0 kilometrlik hissəsində "Azərsu" ASC tərəfindən qəzalı vəziyyətdə olan 2 ədəd 400,0 mm. diametrli qəzalı su xətti dəyşdirilir, layihənin davamı olaraq Yeni Suraxanı qəsəbəsi Səttar Bəhlulzadə, Atamoğlan Rzayev küçələrində yeni su xətti çəkilir. Həmin hissədə artıq 5800,0 p.m su xətti çəkilmiş və işlər davam etdirilir.

Rayonda tikinti-quraşdırma işləri davam etdirilmiş, Yeni Günəşli "D" yaşayış sahəsində "Xəzər inşaat XXI əsr" MTK, "AB" yaşayış sahəsində "Atlanta" MTK, "V" yaşayış sahəsində "İB.İN.M-İNŞAAT" MTK, Zığ qəsəbəsində "Şahinlər" MMC, Qaraçuxur qəsəbəsi Y.Eyvazov küçəsində "Elit-R" MTK tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşası, Hövsan qəsəbəsində "Xəyal Adası" yaşayış kompleksinin salınması işləri davam etdirilmişdir.

Ərazi üzrə iqtisadiyyatın tarazlı inkişafı, əhaliyə bərabər sosial iqtisadi həyat və fəaliyyət şəraitinin yaradılması üçün vacib sayılan məsələlərdir [1]. Yerüstü infrastruktur elementlərinin potensial inkişafı bir tərəfdən daxili istehsaldan daha səmərəli istifadə olunması ilə milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsündə davamlı mövqe tutmasına, digər tərəfdən daxili ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb olunmasına şərait yaradır. Nəticədə Suraxanı rayonunun iqtisadi potensialının aşkara çıxarılıb tam reallaşdırılması üçün əlverişli şərait yaranar, xarici investisiyaların cəlb edilməsində mühüm nailiyyətlər qazanılar.

Torpağın mühafizəsi və ondan səmərəli istifadə edilməsi əsas məsələlərdən biridir. İnsan cəmiyyətinin formalaşdığı vaxtdan bu günə kimi insanlar təbiətə bu və digər formada öz təsirini göstərməkdə davam edir. Bu təsirlərin forması və miqyası zaman keçdikcə dəyişilmiş və sürəti çoxalmışdır. Beləliklə, Yer kürəsində müasir antropogen landşaftların sahəsinin illər keçdikcə çoxalması və dəyişilməsi müşahidə edilir. Ekoloji tarazlığı, onun mürəkkəb və bir-birilə sıx bağlı mexanizmlərini bilmədən, yəni ekoloji biliyə dərindən yiyələnmədən, təbiətdən, onun ehtiyatlarından səmərəli istifadə etmək, təbii mühiti həyat üçün yararlı halda saxlamağa proqnozlaşdırmaq mümkün deyildir. Bu baxımdan ekoloji tədqiqatlara tələbat və maraq günü-gündən artır. Müasir dövrdə ekologiya elmi bütün sənət adamlarının, alim və mütəxəssislərin, müəssisə və dövlət rəhbərlərinin diqqət mərkəzindədir.




Şəkil 1.  Neftlə çirklənmiş ərazisinin kosmik təsviri

Ötən dövr ərzində ekoloji məsələlərin həllinə diqqət artırılmış, Zığ və Bülbülə göllərinin ekoloji vəziyyətlərinin yaxşılaşdırılması işləri davam etdirilmiş, rayonda operator şirkətlər tərəfindən ümumi sahəsi 1,5 hektar olan 45 gölməçə müxtəlif növ tullantılardan təmizlənmiş, lay suları və neftlə çirklənmiş 9,8 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunmuş, 33 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənmiş, həmin ərazilərdə qazon və ağaclar əkilmişdir. Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilmiş iməciliklərdə

rayonda 5282 ədəd ağac əkilmişdir. Həmçinin Suraxanı rayonunda mürəkkəb formalaşma və inkişaf xüsusiyyətlərinə malik sənaye kompleksinin mövcudluğunu xüsusi qeyd etmək lazımdır ki, bu da çox sahəli və çoxtərkibli infrastrukturunun yaranmasına səbəb olmuş, çox sıx nəqliyyat şəbəkəsi formalaşmışdır. Bununla əlaqədar olaraq sənaye obyektlərinin inkişafı, avtomobil yolları şəbəkəsi, boru kəmərləri, enerji ötürücü xətləri (EÖX) və s. ətraf mühitə mənfi təsir göstərir.

Neftlə və neft məhsulları ilə çirklənmiş sahələrin manitorinqini aparmaq məqsədilə Yer səthinin aero və kosmik fotoşəkillərindən də istifadə etmək mümkündür (şəkil1). Bu halda distansion üsulların köməyilə obyektlərin spektral əks etdirilmə qabiliyyətinin müxtəliflikləri fiksasiya edilir.

**ƏDƏBİYYAT SİYAHISI:**

**1.** Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli sərəncamı. “Xalq” qəz., Bakı, 2006, 29 sentyabr.

**Rahimova G.P., Ismayilova Z.R., Izzatova R.N., Aslanova F.E.,Yaqubzada N.Y**
National Aerospace Agensy

## ECONOMIC DAMAGE TO THE FISH INDUSTRY FROM OIL POLLUTION IN THE CASPIAN SEA

The action of pollutants in the body of fish is at least and manifests itself in the diversity of response reactions, but their coincidence is a common stereotype and corresponds to the stages of development of common adaptive reactions, including stress phases. This is noted by many researchers in the conduct of toxicological experiments as in the case of acute, as well as chronic intoxication [1]. Toxic substances, being an extreme irritant, as a rule, significantly increase the intensity of processes in the body of animals, causing them oxidative stress. In fish, the increase in the intensity of peroxidation of lipids (POL) in the tissues causes different types of pollutants. It can be heavy metals, oil, poisonous organic series, pesticides. Thus, in the experiments on the carp showed a substantial increase in the level of the floor in the liver, gills and muscles under effects of salt honey and zinc. The increase in the intensity of the POL reaction is fixed in the brain, liver, and muscle tissue when exposed to salt mercury on the soma, and in the liver - in young sturgeon fish in experiments with organic compounds. Porridge and nickel also caused the activation of the floor in the carp.

Herbicides also caused increased activity of the FOL reaction in carp, carp and liner. The study of the effects of pesticide groups of synthetic on different species of fisheries of the Sea of Azov revealed in them the intensification of free radical processes in the blood. Two-week contact with stocks of cellulose-paper production led to an increase in the level of lipid peroxides in liver, found in the frozen . The same effect was caused by the effect of oil on three-quarters of Russian sturgeon at concentrations of 10-20 MPC . It is also noted that the activation of POL processes in carp at elevated concentrations of ammonia in water environment. Thus, the increase in intensity Peroxide processes in the body of fish and, above all, in the liver, are caused by the action of various toxic substances. The presence in the waters of the Caspian Sea of a large variety of toxicants makes it difficult to identify the substances that cause oxidative stress in sturgeon fish, but the application of regression analysis methods gives such a possibility - a possibility.

The diversity of natural resources of the Caspian Sea makes it extremely attractive to people in various fields. First of all, the unique ecosystem has contributed to the extraordinary diversity of flora and fauna living in sea waters and on the coast. Dozens of species of commercial fish live in different parts of the Caspian Sea, among which the most valuable are: sturgeon; beluga; stellate sturgeon. In the northern part pike perch, bream, catfish, pike and asp are found in abundance. Gobies, mullet, Caspian herring live in the west. In the waters there are many representatives of mollusks and echinoderms, jellyfish, crayfish.

Of the mammals, the endemic seal species lives in the Caspian Sea. But the Caspian has become the most attractive for a person, thanks to the deposits of minerals, the most valuable of which is oil. Its sources are located both on the coast and at the bottom of the sea. Developments have been underway since the 1920s. XIX century. In addition, the Caspian region has several natural gas fields. Mineral salts, lime, valuable rocks are also mined on the coast.

## REFERENCE

**1.** Baryshnikova N.A. Mirovoye selskoye khozyaystvo v usloviyakh tsifrovoy transformatsii: potentsial dostizheniya globalnoy prodovolstvennoy bezopasnosti. Vestnik Saratovskogo gosudarstvennogo sotsialno-ekonomicheskogo universiteta. 2019

**Famil Vəli oğlu Rüstəmov**
AMEA İqtisadiyyat institutu
Aparıcı elmi işçi, i.ü.f.d.
Email: Familrustamov456@gmail.com

# KƏND TƏSƏRRÜFATINDA SU RESURSLARININ IDARƏ EDILMƏSININ IQTISADI PROBLEMLƏRI

**Xülasə**

Təqdim edilən materialda insan sağlamlığı və normal fəaliyyəti üçün suyun nə qədər vacib, əvəzolunmaz təbii nemət olduğu, istehlakın əsas hissəsinin kənd təsərrüfatının payına düşdüyü qeyd edilir, son illər təbiətdə baş verən qlobal iqlim dəyişikliyinin kənd təsərrüfatının su ilə təchizatına mənfi təsir göstərdiyi əks olunur, yer kürəsində şirin su ehtiyyatlarının qeyri-bərabər paylanmasından bəhs olunur, dünyada və eləcədə respublikamızda su resurslarından istifadə ilə bağlı mövcud vəziyyət, su resurslarının idarəedilməsi ilə bağlı yaranan problemlər təhlil edilir, sonda isə ölkəmizdə aqrar sahədə su ehtiyatlarının istifadənin təkmilləşdirilməsi istiqamətində bir sıra təkliflər irəli sürülür.

**Açar sözlər:** su, su resursları, kənd təsərrüfatı, suvarma sistemləri, itki, torpaq kanallar.

## Giriş

Təbiətin bizə bəxş etdiyi ən qiymətli və nadir nemətlərindən sayılan su insanların qida rasionunda ən vacib, əvəzolunmaz elementdir. Əbəs yerə deyilməyib ki, su həyat mənbəyidir, su qurtaran yerdə həyat da qurtarar! Hazırki dövrdə istifadə etdiyimiz suyun keyfiyyəti və kəmiyyəti cəmiyyətimizi narahat edən ən aktual problemlərdən biridir. Normal, sağlam yaşamağın əsas, vacib şərtlərindən biri, bəlkə də birincisi istifadə edilən suyun keyfiyyəti ilə bağlıdır. Ümumdünya səhiyyə təşkilatlarının məlumatlarına görə yer kürəsindəki bütün xəstəliklərin 80 faizi suyun keyfiyyətsiz olmasından qaynaqlanır.

Hazırda dünya üzrə yerüstü və ya yeraltı su mənbələrindən götürülən suyun 70-90%-i kənd təsərrüfatında istifadə olunur. Qlobal miqyasda ərzaq istehsalı üçün hər il təqribən 7,000 milyard m3 su tələb olunur [1].

Son illər təbiətdə baş verən qlobal iqlim dəyişikliyi kənd təsərrüfatının su ilə təchizatına mənfi təsir göstərməkdədir. Dünyanın bir çox bölgələrində yağıntıların miqdarı və müntəzəmliyi dəyişdiyindən quraqlıq halları və daşqınlar artmaqdadır. Dünyada su qıtlığı problemi getdikcə kəskinləşir və bunun fonunda su ehtiyatları uğrunda rəqabət də artır. Getdikcə daha tez-tez mütəxəssislər su təsərrüfatının daha səmərəli idarə edilməsinin və kənd təsərrüfatının müasirləşdirilməsinin zəruriliyini vurğulayırlar.

**Dünyada və Azərbaycanda su resurslarından istifadə ilə bağlı mövcud vəziyyət**

Son illərdə dünyada suya tələbat davamlı şəkildə artmaqdadır, hazırda bu artım ildə təxminən 1% təşkil edir. Dünya əhalisinin sayının artımı, iqtisadi inkişaf templəri, istehlakın strukturunun dəyişməsi, ölkələrin çoxunda müasir suvarma sistemlərinin olmaması və digər məsələlər bu

prosesi şərtləndirən amillər hesab olunur . Növbəti illərdə suya olan ehtiyacın davamlı şəkildə artacağı şübhəsizdir. Sənayedə və məişətdə su ehtiyacları kənd təsərrüfatından daha sürətli şəkildə artsa da, suyun ən böyük istehlakçısı kənd təsərrüfatı olaraq qalacaq. Hazırda dünyada şirin su istehlakının 70 faizdən çoxu kənd təsərrüfatının payına düşür, lakin təəssüflə qeyd etməliyik ki, bir çox ölkələrdə sudan istifadənin səmərəliliyi 50 faizdən aşağıdır. Su ehtiyatlarına tələbatın artım templərinin inkişaf etməkdə olan iqtisadiyyatları olan ölkələrdə daha yüksək olması gözlənilir. Qeyd edilməsi vacib olan məsələlərdən biri də odur ki, son zamanlar dünyada baş verən iqlim dəyişikliyinin sürətlənməsi ilə əlaqədar olaraq təbiətdə su dövrü də intensivləşir, başqa sözlə desək, rütubətli iqlimə malik olan bölgələrdə rütubətliliyin səviyyəsi daha da artır, quru iqlimi olan bölgələrdə isə əksinə, quraqlıq bir qədər də sürətlənir. Hazırda dünya əhalisinin təqribən yarıdan çoxu, yəni 3,6 milyard nəfəri ildə ən azı bir ay su qıtlığının baş verə biləcəyi ərazilərdə yaşayır. Onların təxminən 40 faizi Şərqi və Cənub-Şərqi Asiyada, bir qədər böyük hissəsi isə Cənubi Asiyada yaşayır. Növbəti otuz ildə bu nisbətin bir qədər də artacağı və 2050-ci ilə qədər bu rəqəmin 4,8-5,7 milyard nəfərə çata biləcəyi ehtimal edilir.

Yer kürəsində şirin su ehtiyyatları qeyri-bərabər paylanmışdır. FAO-nun rəsmi rəqəmlərinə görə 2017-ci ildə Şimali Afrika və Qərbi Asiyanın bəzi ölkələrində adambaşına düşən orta illik şirin su ehtiyyatı 1000 m3 olduğu halda, Okeaniya ölkələrində bu rəqəm təxminən 43000 m3 olmuşdur. Zəif inkişaf etmiş ölkələrdə kənd əhalisinin 74 faizinin normal, təhlükəsiz içməli suya çıxışı məhduddur. Son bir neçə ildə dünyanın 91 ölkəsində kənd yerlərini içməli su ilə təmin etmək üçün milli proqramlar hazırlansa da, yalnız 9 ölkədə bu layihələrin həyata keçirilməsi üçün kifayət qədər vəsait ayırılıb [2].

FAO-nun proqnozlarına görə, 2050-ci ilə qədər dünya əhalisinin sayının və tələbatlarının artması səbəbindən qlobal miqyasda kənd təsərrüfatı üçün suya olan tələbat təxminən 50 faiz artacaq. Qlobal şirin su ehtiyatı düzgün idarə olunmama, qeyri-səmərəli istifadə və iqlim dəyişikliyi səbəbindən durmadan azalır. Dünyanın bir çox yerlərində su qıtlığı və suyun keyfiyyəti problemləri kəskinləşdikcə gələcəkdə ərzaq təhlükəsizliyi və ekoloji dayanıqlılığa ciddi təhdidlər yaradır [3].

Ətraf mühitin çirklənməsi halları sürətli şəkildə artmaqdadır, xüsusilə də su hövzələrinin. Belə ki, keçən əsrin sonlarından başlayaraq Amerika, Afrika və Asiya qitələrinin demək olar ki, bütün çaylarında suyun çirklənmə səviyyəsi xeyli artmışdır. Gələcək illərdə suyun keyfiyyətinin daha da pisləşəcəyi gözlənilir ki, bu da insan sağlamlığı, davamlı inkişaf üçün risklərin artmasına, ciddi təhdidlərin yaranmasına gətirib çıxaracaq. Su hövzələrinin çirkləndirici maddələrə çirklənməsində ən böyük artımın əsasən orta və aşağı gəlirli ölkələrdə baş verəcəyi gözlənilir ki, bunun da əsas səbəbi yüksək demoqrafik və iqtisadi artım, eləcə də tullantı sularının idarə edilməsi sistemlərinin ümumiyyətlə qeyri-mövcudluğu və ya müasir tələblər səviyyəsində olmamasıdır. Son illərdə dünyada daşqın və quraqlıq riskləri də davamlı şəkildə artmaqdadır. Daşqınların təsirinə məruz qala biləcək insanların sayının 2050-ci ilə qədər təxminən 1,6 milyarda qədər artacağı gözlənilir, hazırda bu rəqəm 1,2 milyard nəfər təşkil edir. Hazırda torpağın deqradasiyası, səhralaşma və quraqlıqdan əziyyət çəkən dünya əhalisinin sayı isə 1,8 milyard nəfərdir. Əslində su resurslarının idarə edilməsi ilə bağlı artan problemlərin əsas səbəbi ekosistemlərin deqradasiyasıdır. Dünyada mövcud meşə örtüyü ümumi torpaqlarının təxminən 30%-i qədər olsa da, bu meşə sahələrinin ən azı üçdə ikisi deqradasiya uğramış vəziyyətdədir. Dünyanın əksər torpaq ehtiyatlarının, xüsusən də kənd təsərrüfatı torpaqlarının vəziyyəti orta və qeyri qənaətbəxş kimi qiymətləndirilir və bu vəziyyətin daha da pisləşəcəyini proqnozlaşdıranlar daha çoxdur. 1900-cü ildən bəri dünyada təbii bataqlıqların 60 faizinin insan fəaliyyəti nəticəsində itirildiyi təxmin edilir. Ekosistemlərin məhv edilməsinin, dağıdılmasının, bu şəkildə dəyişikliyə uğradılması tarix boyu bir neçə qədim sivilizasiyanın yox olmasına səbəb olduğu sanki unudulmuşdur.

Toxunduğumuz problemlə bağlı vacib məqamlardan biri də odur ki, su resurslarımızın 70 faizdən çoxu ölkəmizdən xaricdə formalaşır. Bu faktor özü də su ilə bağlı problemlərə ciddi yanaşmanı tələb edir, su ehtiyatlarının qorunmasını daha da aktuallaşdırır. Onu da unutmamalıyıq ki, respublikamızda istifadə olunan kənd təsərrüfatı torpaqlarının 1.5 milyon hektarı və ya 90 faizi suvarılır. Başqa sözlə desək, ölkəmizdə yetişdirilən kənd təsərrüfatı məhsulunun 90 faizini

suvarılan torpaqlardan əldə edirik. Bu gün kənd təsərrüfatının əkinçilik sahəsində ən böyük problem mövcud suyun sahələrə çatdırılması, daha doğrusu çatdırılma zamanı baş verən itkilərdir. Ölkə üzrə 52 min kilometri əhatə edən su kanallarının 70-75 faizi torpaq kanallardan ibarətdir [4]. Mövcud olan beton kanalların da bir qismi sıradan çıxmış, istismara yararsız hala düşmüşdür. Suyun torpaq kanallar vasitəsilə əkin sahələrinə çatdırılması zamanı təbii olaraq suyun ən yaxşı halda 30-40 faizi itkiyə gedir. Torpaq kanallar lildən və yabanı bitkilərdən təmizlənmədiyi halda bu itkilər bəzən 50-60 faizə çatır. Suyun torpaq kanallar vasitəsi ilə ötürülməsi zamanı kənd təsərrüfatına bir neçə istiqamətdə ziyan dəyir. Bir tərəfdən sızma nəticəsində su kanal ətrafındakı torpaqlara yayılır və tez bir zamanda belə torpaqların şoranlaşmasına, sıradan çıxmasına, təsərrüfat dövriyyəsindən kənarda qalmasına səbəb olur. Digər tərəfdən isə, sahələrə lazım olan səviyyədə su catdırmaq olmur. Belə olan halda elektrik nasoslarından daha geniş istifadə zərurəti yaranır, bu isə əlavə enerji sərfiyyatı deməkdir. Eyni zamanda 2-4 faiz də buxarlanma nəticəsində su itkisi ilə üzləşirik. Ölkə olaraq, biz su ehtiyatları məhdud olan ölkə olsaq da kənd təsərrüfatının hazırki inkişaf səviyyəsində yetərincə su reurslarımız var.

23 iyul 2020-ci il tarixində su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə ölkə başçısı Cənab Prezident İlham Əliyev haqlı olaraq qeyd etmişdir ki, su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Bu müşavirədə ölkə başçısının toxunduğu digər aktual məsələ bu sahədə dəhşətli dərəcədə itkilərın olması ilə bağlıdır [5].

Son illər ölkəmizdə su resurlarının idarə edilməsi, həmçinin kənd təsərrüfatında suvarma ilə bağlı vəziyyətin yaxşılaşdırılması istiqamətində bir sıra layihələr icra edilmişdir. Bu mənada Taxtakörpü su anbarının tikintisini xüsusi ilə qeyd etmək lazımdır. İlk növbədə ona görə ki, bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetrdir. Bu su anbarının xüsusi əhəmiyyəti həm də onunla izah olunur ki, burada Samur çayının suları yığılır, təbii yollarla təmizlənir və beləliklə yeni bir rezervuardan Ceyranbatan anbarına su gəlir. Əvvəllər isə Samur çayından birbaşa kanal vasitəsilə su Ceyranbatan su anbarına gəlirdi. Layinənin aqrar əhəmiyyəti ondadır ki, bu layihənin icrası nəticəsində Şabran, Siyəzən, Xızı rayonlarında 30 min hektar suvarılmayan torpaqlara su verildi və nəticədə indi o torpaqlarda geniş kənd təsərrüfatı işləri görülür. Şəmkirçay su anbarının əhəmiyyətini də qeyd etməliyik. Bu gün Şəmkirçay su anbarı ölkənin su resurslarının yığılmasında və bölüşdürülməsində vacib rol oynayır. Bu anbarın su tutumu isə 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır, orada əkin sahələri genişləndirilir. Beləliklə, Taxtakörpü şimal zonasının, Bakının, Şəmkirçay qərb bölgəsinin su ilə təminatında mühüm rol oynayır. Bununla paralel olaraq, son illərdə cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir [5].

Amma etiraf etməliyik ki, bu sahədə ciddi problemlər qalmaqdadır və görülməsi vacib olan işlər görülmüş işlərdən qat-qat çoxdur.

**Nəticə**

Ölkəmizsdə su resurslarının idarə edilməsində səmərəliliyə nail olunması üçün ilk növbədə bu sahədə idarəetmə sisteminə diqqət artırılmalı, idarəetmə sistemi təkmilləşdirilməlidir. Əvvəldə də qeyd edildiyi kimi ölkədə mövcud olan fantastik su itkilərinin qarşısı alınmalıdır. Bunun üçünsə təxirə salmadan, sürətli şəkildə torpaq kanallar, eləcədə ömrünü başa vurmuş, istismara yararsız beton kanallar müassir suötürücü sistemlərlə əvəz edilməlidir.

Bu sahədə təcili şəkildə reallaşmasını tələb edən ən vacib məqamlardan biri kənd təsərrüfatında müassir suvarma sistemlərinin tətbiqidir. Bu məsələni aktuallaşdıran əsas amil odur ki, hazırda bütün dünyada, eləcə də ölkəmizdə şirin su istehlakının əsas hissəsi kənd təsərrüfatının payına düşür. Ənənəvi, yəni selləmə üsulu ilə suvarma zamanı həm böyük həcmlərdə su itkisinə yol verilir, həm də sahələr qeyri-bərabər suvarılır. Bu zaman bir qədər mailli ərazilərə su toplanaraq qurunt sularının səviyyəsinin qalxmasına, torpağın tez bir zamanda şoranlaşmasına səbəb olur. Hər bir fermer bilir ki, sabit, yüksək məhsul əldə etmək üçün məhsul yetişdirilməsinin bütün proseslərində müassir suvarma sistemlərindən istifadə edilməlidir. Bu sahədə müassir texnologiyaların tətbiqi nəticəsində suvarmada maksimum bərabərliyə nail olunur ki, bu da bir

tərəfdən yüksək məhsul əldə etməyə imkan verir, digər tərəfdən isə ekoloji tarazılığın pozulmasının qarşısını alır. Ən əsası da böyük həcmlərdə su itkisinin qarşısı alınmış olur.

Aqrar sahədə rəqamsallaşmadan istifadəni genişləndirməklə və müassir texnoloji üsulların tətbiqi sayəsində torpaqda buxarlanma itkiləri də daxil olmaqla sudan istifadə haqqında bütün məlumatları toplayaraq, suvarma planını optimallaşdırmaq və sudan istifadənin səmərəliliyini artırmaq olduqca vacibdir.

Ölkədə ərzaq təhlükəsizliyini və kənd təsərrüfatında sudan səmərəli istifadəni təmin etmək və ekoloji tarazılığı qorumaq üçün kənd təsərrüfatında istehsal olunan məhsulların istifadə olunan suyun həcminə nisbətinin artırılmasına və bununla da sudan istifadənin səmərəliliyinin artırılmasına ciddi ehtiyac var.

Su ehtiyatlarının idarə edilməsini təkmilləşdirmək üçün landşaft səviyyəsində su axınlarını müəyyən etməyə imkan verən məlumatların, eləcə də müassir texnologiyaların, xüsusilə “rütubət sensorlarının” sayəsində məhsul köklərinin bilavasitə yaxınlığında torpağın rütubətiliyi haqqda məlumatların əldə edilməsinə əsaslanan sudan istifadənin yaxşılaşdırılması ilə bağlı yeni strategiyaların işlənib hazırlanması çox faydalı olardı.

Sudan istifadənin təkmilləşdirilməsi digər resursların, o cümlədən torpaq, bitki və qida maddələrinin idarə edilməsinə kompleks yanaşmanı tələb edir. Torpağın münbitliyi də yaxşılaşdırılmalıdır ki, məhsulun böyüməsi fiziki səbəblərə görə məhdudlaşdırılmasın və hər damcı su tam və səmərəli istifadə olunsun. Su ehtiyatlarının mühafizəsinin elmi üsullarına diqqət artırılmalı, suvarma prosesinin optimallaşdırılmasına və damcılı suvarma kimi daha səmərəli suvarma sistemlərindən istifadənin genişlənməsinə, bütün kənd təsərrüfatını əhatə etməsinə nail olunmalıdır.

Su resursların idarə edilməsində optimal həllərdən biri də tullantı sularının, xüsusilə də axıntı sularının təmizlənərək bir sıra sahələrdə, o cümlədən kənd təsərrüfatında təkrar istifadəsi ilə bağlıdır. Bu gün dünyanın bir sıra ölkələri, əsasən də inkişaf etmiş ölkələr getdikcə daha çox çirkab suların təkrar istifadəsini artırmaqla artan su qıtlığı ilə mübarizə yollarını axtarırlar. Əksər mütəxəssislər əmindirlər ki, müasir texnologiyalar sayəsində tullantı suları asanlıqla təmizlənə, təkrar dövriyyəyə cəlb edilə bilər. Düşünürəm ki, ölkəmizdə də bu istiqamətdə xeyli işlər görülməlidir.

Kənd təsərrüfatında suyun məhsuldarlığının artırılması zəruridir. Bu isə itkilərin azaldılması, sistemlərin təkmilləşdirilməsi, suvarma texnologiyalarının dəyişdirilməsi, istismar və texniki xidmətin təkmilləşdirilməsi yolu ilə mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Вода для сельского хозяйства: в каком положении мы находимся, и каковы перспективы? /[Elektron resurs] / Портал знаний о водных ресурсах и экологии Центральной Азии, 2022- http://www.cawaterinfo.net/5wwf/agriculture_food_water/part3.htm

2. Как преодолеть проблемы, связанные с водой, в сельском хозяйстве / [Elektron resurs] / Продовольственная и Сельскохозяйственная Организация Объединенных Наций (FAO) 26 ноября 2020-https://www.fao.org/news/story/ru/item/1333351/icode/

3. Управление водными ресурсами в сельском хозяйстве / [Elektron resurs]/ Международное агентство по атомной энергии, 2022- https://www.iaea.org/ru/temy/upravlenie-vodnymi-resursami-v-selskom-hozyaystve

4. Nazirlik rəsmisindən həyəcan təbili: “Suyun 30-40 faizi itkiyə gedir” / [Elektron resurs] / Oxu.Az xəbər saytı, 18 mart 2020-ci il- https://oxu.az/society/584147

5. Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirə / [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 23 iyul 2020- https://president.az/az/articles/view/39990

6. BMT-nin qlobal su hesabatı 2018 "su idarəetməsi üçün təbii həlllər" / [Elektron resurs] / UNESCO-nun internet saytı, 2018-https://unesdoc.unesco.org/ark:/48223/pf0000261594_rus

7. Сточные воды можно использовать в сельском хозяйстве / [Elektron resurs] / Новости ООН, 19 января 2017-https://news.un.org/ru/story/2017/01/1298571

**Yunus Musa oğlu Sadıqov** i.f.d., dosent
AMEA İqtisadiyyat institutununuaparıcı elmi işçi
**E-mail:** y.sadikhov@mail.ru

# AQROEMAL SAHƏSİNİN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA ROLU VƏ NƏZƏRİ ƏSASLARI

**Xülasə**

Tədqiqatın əsas məqsədi aqroemal sahəsinin inkişaf etdirilməsi imkanlarının aşkar edilməsi, və onun kənd təsərrüfatının inkişafında əvəzsiz rolu, həmçinin ölkənin ərzaq təhlükəsizliyində strateji rolunun müəyyən edilməsidir. Tədqiqat işi müqayisəli təhlil, statistik təhlil, müşahidə və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Məqalədə Azərbaycanda aqroemal sektorunda mövcud vəziyyət təhlil edilərək qiymətləndirilmiş, inkişaf perspektivinə dair məlumat və tövsiyyələr təqdim olunmuşdur. Ölkənin qeyri-neft sektorunda rəqabət qabiliyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması istiqamətində, eyni zamanda əhalinin tələbatının yerli məhsullar hesabına təmin edilməsi ilə əlaqədar aqroemal müəssisələrinin inkişafı prioritet sahə kimi göstərilmiş və bu inkişafda klasterlərin daha səmərəli ola biləcəyi əsaslandırılmış və bəzi konkret təkliflər verilmişdir.

**Açar sözlər:** aqroemal sahəsi, bazar islahatları, ərzaq məhsulları, istehsal xərcləri, klasterlər, mübadilə

## Giriş

Hər bir ölkənin iqtisadiyyatının, o cümlədən aqrar-sənaye kompleksinin formalaşmasında, sabit və davamlı inkişafında kənd təsərrüfatı çox önəmli rol oynayır. Eyni zamanda aqrar sektorun inkişafının məntiqi davamı olaraq aqroemal sahəsinin inkişafına güclü təkan verir. Hər iki sahə bir-biri ilə çox sıx bağlı olduğu üçün kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı aqroemal sahəsinin inkişafını zəruri edir və məhsullar emaldan keçirilərək istehlakçılara çatdırılır. Aqroemal sahəsi kənd təsərrüfatı istehsalının inkişafında aparıcı rol oynayır., obrazlı desək kənd təsərrüfatının lokomotividir. Bu sahə inkişaf edərsə, kənd təsərrüfatının geniş təkrar istehsalı üçün zəruri xarici şəraitə çevrilər. Məhz aqroemal sahəsinin inkişafı kənd təsərrüfatı sahəsinin inkişafı üçün əsas və önəmli şərait yaradır.

## Əsas müddəalar

Aqroemal sahəsini təsnifləşdirərkən onları 2 qrupa - ərzaq və qeyri ərzaq məhsullarına ayırmaq lazımdır. Təəssüf ki, Dövlət Statistika komitəsinin bu cür təsnifləşdirilmə aparılmır və "Azərbaycanda sənaye" başlığı altında ümumi göstəricilərlə birlikdə verilir. Ona görə də aqroemal sahəsi haqqında ümumi iqtisadi göstəricilərin müəyyənləşdirilməsində çətinliklər yaranır. Aqroemal sahəsi xammal və texnologiyadan istifadə baxımından müxtəlif mürəkkəb struktura malikdir. Hesab edirik ki, bu struktur iki qrupa, ərzaq və qeyri-ərzaq qruplarına bölünməli və hər qrupa daxil olan konkret fəaliyyət növləri göstərilməlidir. Bunu aşağıda tərtib etdiyimiz cədvəl şəklində vermək olar.

Bu cədvəldə aqroemal müəssisələrinin istehsal etdiyi məhsullar mümkün qədər ümumiləşdirilmişdir. Əslində isə bu sahə əhalinin gündəlik tələbatını minlərlə müxtəlif çeşidli məhsullarla təmin edir. (məsələn, təkcə pendir və ya pivənin yüzlərlə çeşidi var). Eyni zamanda, məhsulların çeşidləri mütəmadi olaraq yenilənir, və yeni istehlak keyfiyyətlərini qazanır.

Qeyri-ərzaq məhsulları istehsalında aqroemal müəssisələri əsasən yüngül sənaye üçün yarımfabrikat hazırlamaqla fəaliyyətləri məhdudlaşır. Məsələn, trikotaj və geyim sənayesində yunun, pambığın ilkin emalı ( təmizlənmə, növlərə ayrılma, mahlıc istehsalı, iplik hazırlanma, boyanma və s.) prosesləri həyata keçirilir. Bu yarımfabrikatlardan müxtəlif istehlak mallarının hazırlanması isə ( paltar, xalça, ayaqqabı və s. ) artıq yüngül sənaye strukturunun fəaliyyəti hesab edilir. Bu strukturların sərhədlərini müəyyən etmək bəzən çox çətinlik yaradır və buna görə də DSK-nin hesabatlarında bütün bu kateqoriyalar "emal" başlığı altında birləşdirilir. Fikrimizcə bu daha düzgündür.[1]

Aqroemal müəssisələri çox böyük həcmdə istehlak məhsulları istehsal edirlər və daim həmin məhsulların kiçik həcmdə qablaşdırılmasına, etiketləşdirilməsinə və s.-yə ehtiyaçı olur. Beləliklə bu sahə həm də şüşə, kağız, metal, polimer, poliqrafiya məhsullarının əsas istehlakçısına çevrilir. Eyni zamanda qablaşdırma üçün müxtəlif qablaşdırıcı maşınlara və avtomatik texnologiyalara, qablaşdırılma zamanı yüksək keyfiyyətli poliqrafiya məhsullarına da ehtiyac yaranır və sənayeni bu sahəsinin də əsas alıcısı olur. Göründüyü kimi aqroemal sahəsinin inkişafı həm də bir çox sahələrin inkişafına gətirib çıxarır.

Aqrar-sənaye kompleksi (ASK) istehsal, emal, bölgü, mübadilə və kənd təsərrüfatı məhsullarının istehlakı ilə əlaqədar bir-biri ilə iqtisadi münasibətlərdə olan xalq təsərrüfatı sahələrinin məcmusudur. Buraya kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və satışının həyata keçirilməsi, ASK üçün istehsal vasitələri istehsal edən sahələr daxildir. [2 s.32]

**Cədvəl**

**Aqroemal sahəsinin əsas məhsullarının**

| Aqroemal sahəsinin əsas məhsulları | |
|---|---|
| Ərzaq məhsulları | Qeyri-ərzaq məhsulları |
| Qida məhsulları istehsalı o cümlədən: | Tütün məmulatları istehsalı |
| Kolbasa məmulatları | Toxuculuq sənayesi üçün ilkin emal |
| Süd məmulatları | Geyim istehsalı üçün ilkin emal |
| Dondurma | Dəri və dəri məmulatları, ayaqqabı istehsalı üçün ilkin emal |
| Pendir və kəsmik | Ağac emalı və ağacdan məmulatların istehsalı üçün ilkin emal |
| Kərə yağı | |
| Balıq məhsulları (konservlə birlikdə | |
| Meyvə və tərəvəz konservləri | |
| Makaron məmulatları | |
| Bitki yağları | |
| Marqarin yağları | |
| Şəkər və qənnadə məmulatları | |
| Çörək və un məmulatları | |
| Çay | |
| Qida duzu | |
| Yem | |
| Alkoqollu və alkoqolsuz içki məhsulları | |

Mənbə: müəllif tərəfindən tərtib edilib

Beləliklə, kənd təsərrüfatı məhsulları istehsalı inkişaf etdikcə, məhsul istehlakçıya çatmamışdan öncə emal mərhələsindən daha çox keçir, eyni zamanda emal sənayesi inkişaf etdikcə, kənd təsərrüfatının emala getməyən məhsullarının ümumi həcmi tədricən azalır. Ölkədə qeyri-neft sektorunu, o cümlədən qida sektorunu inkişaf etdirərək idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaltmaq, yerli istehsal ilə əhalinin tələbatını ödənilməsinə nail olmaq olar.[3]

Texnoloji cəhətdən inkişaf etmiş bütün ölkələrdə müasir aqroemal məhsulları istehsalı texnologiyası, o cümlədən də istehsalın iqtisadi təşkilinin müasir formalarının üstünlük təşkil etməsini və prinsiplərini nəzərə alsaq, təxminən eyni səviyyədədir, yəni nisbi bərabərlikdədirlər. Bu məhsulların istehsalında iki komponent daha əhəmiyyətlidir, məhsulu yaradan əməyin dəyəri və hazır məhsulun istehlakçıya çatdırılması xərcləri.

Strateji baxımdan uzun müddətdir ki, Azərbaycanın aqroemal məhsullarının istehsal xərclərinin inkişaf etmiş ölkələrə nisbətən nisbi üstünlüyü çox aşağı əmək xərclərinin olmasıdır və bu hal indi də qalır. Nisbətən ucuz işçi qüvvəsi ölkələrarası müqayisədə Azərbaycan iqtisadiyyatının əsas üstünlüklərindən biridir. Bu nisbi üstünlükdür və bazar islahatları özündən asılı olmayaraq bu nisbi üstünlüyü qoruyur. Ancaq bu üstünlük istehsalın müxtəlif kateqoriya və sahələri üzrə bir-birindən

fərqlənirlər. Digər istehsal xərcləri böyük olmasaydı, coğrafi şərait və əmək xərclərinin aşağı olması hesabına yerli məhsulların qiymətləri Azərbaycanın xeyrinə daha həlledici amil olardı.

Dövlətin iqtisadi siyasətinin ən mühüm istiqaməti aqrar-sənaye kompleksində böhranın aradan qaldırılmasından, aqroemal müəssisələrinin bazar şəraitində normal fəaliyyətinin təmin edilməsinə yardımçı olmaqdan, aqroemal sahəsinin yeni texnologiyalardan istifadə etməsini dəstələməklə rəqabət qabiliyyətinin artırılmasından ibarətdir. Ona görə də dövlət tərəfindən sosial-iqtisadi qərarların qəbul edilməsi və həyata keçirilməsi, antiinflyasiya və konstruktiv xarakterli fəal siyasətin aparılması zəruridir.

Aqroemal sahəsinin inkişafını təmin etmək üçün dövlət siyasətinin əsas məqsədləri aşağıdakı kimi olmalıdır:

- Aqroemal sahəsində istehsal olunan məhsulların artım tempini təmin etmək;
- aqrar-sənaye kompleksinin bütün sahələrində istehsalın sabitləşdirilməsi;
- Aqroemal sahələrinin müəssisələrinin zərərlə işləməsinin aradan qaldırılması və onların maliyyə vəziyyətinin möhkəmləndirilməsi.

Bütün bunlarla yanaşı aqroemal sahəsi müəssisələrinə dövlət dəstəyi və ya yardımı da öz əhəmiyyətini saxlayır. Yuxarıda göstərmişdik ki, Sovet dövründə bu cür büdcə yardımları vaxtilə bütün aqrar-sənaye kompleksinə dağıdıcı təsir göstərmişdir. Bununla belə, nəzərə almaq lazımdır ki, bazar islahatları kənd təsərrüfatı istehsalının yalnız büdcə dəstəyi əsasında qurulmasının səmərəsizliyini və qeyri-mümkünlüyünü üzə çıxararaq, bu cür dəstəyə ehtiyacı qətiyyən aradan qaldırmır, onu yalnız iqtisadi cəhətdən yenidən təşkil edir və bazar prinsiplərinə keçirir.

Müasir dövrdə bütünlüklə iqtisadiyyatı kredit institutu olmadan təsəvvür etmək mümkün deyil. Xüsusilə də bazar iqyisadiyyatına yeni qədəm qoymuş emal sənayesinin də islahatlar zamanı kredit inyeksiyalarına ehtiyacı var. Ancaq aydın məsələdir ki, yerli bankların kredit resursları məhduddur və aqroemal sahəsinin ehtiyaclarını əhatə edə bilmir.

Aqrar emal müəssisələrinin, xüsusilə də heyvandarlıq müəssisələrinin, fermerlərin müasir ət və süd zavodları ilə klaster qurumlarının altında birləşməyi ət və süd istehsalı və emalının inkişafında böyük rol oynaya bilərdi. Bu təcrübədən inkişaf etmiş dünya ölkələrində uğurla istifadə edilir. Heyvandarlıq və emal müəssisələrinin bir çətir altında olması hər şeydən öncə istehsalın artmasına, keyfiyyətin yüksəldilməsinə, əlavə dəyər zəncirlərinin yaranmasına ümumi maraq oyadardı. [4]

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatının kreditləşdirilməsi əsasən, ilk növbədə aqroemal sahəsi müəssisələrinin kreditləşdirilməsindən keçir. Bu heç də təsadüfi deyil. İstehsal-emal-istehlak zəncirində emal sahəsi mərkəzçi mövqe tutur. Ona görə də iqtisadi davranışa həlledici təsir göstərə bilər. Emal müəssisələri bir tərəfdən xammal tədarükçüləri, digər tərəfdən isə istehlakçı müəssisələri ilə qarşılıqlı əlaqədə olur.

Ümumilikdə götürsək, aqrar-sənaye kompleksinin əsas vəzifəsi istehsal olunmuş xammal və məhsullardan səmərəli istifadə edərək əhalinin ehtiyaclarını ödəməkdir. Bunun üçün istehsal, emal və satış məsələlərində əlaqələr düzgün və proporsinal qurulmalı, elmi və texnoloji inkişafı sürətləndirməli, bir sözlə dövlət tənzimlənməsi elə qurulmalıdır ki, aqrar sektorunun inkişafına bu amillərin yaxşı təsir göstərməsinə səbəb olsun.

Bütün bunları ümumiləşdirərək belə bir fikrə gəlmək olar ki, aqroemal sahəsi aqrar-sənaye kompleksinin maddi-texniki bazasının formalaşmasında aparıcı bir qüvvəyə malikdir. Çünki, kənd təsərrüfatında həm bitkiçilik və həm də heyvandarlıq sahələrində istehsal olunan məhsullar müvafiq olaraq emaldan keçir və həm istehsalçılara, həm də emal prosesi ilə məşğul olanlara gəlir əldə etmək imkanlarını yaradır. Aqroemal sahəsi kənd təsərrüfatı məhsulları istehsalçılarını təkcə təchizatçı kimi iştirak etmir, həm də iqtisadi münasibətlərin formalaşmasında aparıcı qüvvə kimi, o cümlədən maddi zəmin yaratmaq baxımından özünəməxsus yer tutur.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Dövlət Statiskika Komitəsinin hesabatları 2021 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
2.E.Quliyev "Aqrar iqtisadiyyat" Bakı "Kooperasiya" nəşriyyatı 2015 320s.

3.Y.Sadıqov "Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri" Bakı "Avropa" nəşriyyatı 2018.
4.T.Əliyev "Klasterlər: Beynəlxalq təcrübə və innovativ inkişaf " Bakı "Elm və Bilik" nəşriyyatı 2019 s.535

**Sadiqov Y.M. , Ph.D, assistant professor**
Institute of Ekonomics. ANAS lead researcher
E-mail: y.sadikhov@mail.ru

**Summary**

The main purpose of the study is to identify opportunities for the development of the agro-processing industry, as well as to determine its indispensable role in the development of agriculture, as well as the strategic role of the country in food security. The study is based on research methods such as comparative analysis, statistical analysis, observations and logical generalization. The article analyzed and assessed the current situation in the agro-processing sector of Azerbaijan, presents information and recommendations on development prospects. In order to increase competitiveness and efficiency in the non-oil sector of the country, as well as in connection with ensuring the demand of the population through local products, the development of agricultural processing enterprises is indicated as a priority area, it is justified that clusters can be more effective in this development and some specific proposals are given.

**Key words:** agro-processing sector, market reforms, food products, production costs, clusters, exchange.

**Sadıqova T.R., Rustamova A.O., Aliyeva Sh.Z., Mammadova Z.J.**
National Aerospace Agency

## ECONOMIC DEVELOPMENT OF AGRICULTURE

Key words: economy, development, modernization, industry, complex.

The economic development of the state is based not only on innovation and the introduction of high technologies in industry. Agriculture also requires modernization and the use of the latest means of technology and crop cultivation. The main problem of the agricultural sector is low income and dependence on government subsidies. In developed countries, most of the agricultural complex is given to private farms, which has shown positive results in the development of this sector of the national economy. In Russia, agriculture is partly supported by government subsidies. Support from the budget allowed the industry to reach positive indicators and even show a slight annual growth. It is important to note that now agriculture is part of the agro-industrial complex, however, it retains a leading role in it. The complex also includes food, processing industries, infrastructure and more [1].

Quite often there is a situation when the market price for products does not cover the costs of agriculture. In order to support the producer, the state stimulates the export sale of agricultural products. Leading export positions are grain, fish, pork, seafood, poultry, and vegetable oil. Currently, much attention is paid to financing the modernization of fixed assets. The economic development of the industry is impossible without the application of the latest achievements of science and technology of an applied nature. Investments relate to the greenhouse cultivation of various crops, seed breeding, the development of the herd for the birth of new offspring, etc. Economic development of agriculture The economic development of the state is based not only on innovation and the introduction of high technologies in industry. Agriculture also requires modernization and the use of the latest means of technology and crop cultivation. The main problem of the agricultural sector is low income and dependence on government subsidies. In

developed countries, most of the agricultural complex is given to private farms, which has shown positive results in the development of this sector of the national economy. In our country, agriculture is partly supported by government subsidies. Support from the budget allowed the industry to reach positive indicators and even show a slight annual growth. It is important to note that now agriculture is part of the agro-industrial complex, however, it retains a leading role in it. The complex also includes food, processing industries, infrastructure and more. Quite often there is a situation when the market price for products does not cover the costs of agriculture. In order to support the producer, the state stimulates the export sale of agricultural products. Russia's leading export positions are grain, fish, pork, seafood, poultry, and vegetable oil. Currently, much attention is paid to financing the modernization of fixed assets. The economic development of the industry is impossible without the application of the latest achievements of science and technology of an applied nature. Investments relate to the greenhouse cultivation of various crops, seed breeding, the development of the herd for the birth of new offspring, etc.

Agriculture is one of the oldest human economic activities. It is the most important industry, as it provides the basic needs of society in food. The agrarian complex depends not only on the economic state of the state - until now, despite the use of advanced technologies, climate, soil and water resources are important for it. Market relations also influence the development of the agricultural sector. It depends on: Cost; The level of market prices; Government subsidies; lending rates; Production regulation. The structure of agriculture is represented by animal husbandry and crop production. Animal husbandry can be meat, dairy and meat and dairy. Crop production also has a number of narrower areas, namely, vegetable growing, growing grain, fodder and industrial crops. The availability of quality food products is one of the signs of a high standard of living. Agriculture requires the state to develop such scientific areas as land reclamation, agriculture, agricultural chemistry, electrification and mechanization, crop production, animal husbandry, storage and processing of agricultural products. Applied economic sciences should also take into account the peculiarities of conducting agrarian business. Agriculture is significant not only as a place for the formation of food for humans. It also provides the necessary resources to other sectors of the economy. In addition, it brings tangible income to the state budget, which has a positive effect on investment activity and the economic stability of the state.

Thus, agriculture is one of the foundations of the country's economic development. It requires additional state support and regulation. The agrarian complex provides the needs of society in food, as well as other industries in the necessary resources.

## REFERENCE

**1.** Экономика сельского хозяйства: учебное пособие / Н. И. Кузнецов [и др.] ; ред. Ю. А. Меркулов. - Саратов : ФГОУ ВПО "Саратовский ГАУ", 2011.

**Sevil Tofiq qızı Şirinova**
Risk prioritetləşdirilməsi mərhələsində riskin əhəmiyyətlilik dərəcəsi müəyyən edilməklə risklər prioritetləşdirilir. Risklər əhəmiyyətlilik dərəcəsinə görə aşağı, orta, yüksək və çox yüksək risklərə bölünür. Prioritetləşdirmə hansı risklərin dözülən (qəbulolunan) olub- olmamasına dair qərarın qəbul olunmasından ibarətdir və riskin nə dərəcədə baş verə biləcəyini anlamağa kömək edir. Risklərə cavab verilməsinə və ya onların izlənilməsinə dair qərarlar bir çox fərqli amillərdən (daxili imkanlar, riskin səviyyəsi, nüfuza təsir, nəzarət tədbirlərinin nəticələrinin səmərəliliyi) təsirlənə bilər. Risk aşağı dərəcəli olduqda risklər qəbul olunur və ya qəbul olunub izlənilir, orta və ya daha yüksək olduqda isə riskləri idarə etmək barədə qərar qəbul olunur.

Bu kontekstdə Makedoniya Respublikasının Gömrük Xidməti 2006-2010 və 2011-2014-cü illər üçün risklərin idarə edilməsi strategiyalarını qəbul etmişdir. Bu strategiyalar Avropa Birliyi Risklərin İdarə olunmasının Çərçivə Standardlarına əsaslanır. MRGX tərəfindən qəbul olunan gömrük əməliyyatlarında seçmə üsulu ilə nəzarətin həyata keçirilməsi ilə bağlı sənədlərdə 2 əsas risk sahəsi müəyyən edilmişdir. Bunlara gömrük fırıldaqçılığı və sosial təhlükəsizliyə olan təhdidlər aiddir. Gömrük fırıldaqçılığına gömrük tarifləri və digər gömrük ödənişlərindən yayınmaq üçün həyata keçirilən fəaliyyətlər aid edilir: gömrük dəyərinin aşağı bəyan olunması; malların mal nomenklaturası üzrə düzgün təsnifatlandırılmaması; mənşə ölkəsinin düzgün bəyan olunmaması; daxildə və xaricdə emal prosedurlarının tələblərinin pozulması; malların gömrük nəzarətindən kənar çıxarılması; malların gömrük rəsmiləşdirilməsi üçün bəyan edilmədən gətirilməsi və s. Bu sadalananlar dünya üzrə gömrük sistemində idarəetmə strategiyaları arasında ən vacib və ən çox tanınan risklərdir. Sosial təhlükəsizliyə qarşı təhdidlər dedikdə, insanların həyat və sağlamlığı, ətraf mühit, istehlakçıların maraqlarına zərər vura bilən fəaliyyətlər başa düşülür: silah qaçaqmalçılığı; narkotik maddələr və

onların prekursorlarının qaçaqmalçılığı; çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi; nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin qaçaq yolla ölkə sərhədindən keçirilməsi; nüvə və radiokativ materialların qaçaqmalçılığı; ikili təyinatlı malların qanunsuz ticarəti; mədəni irsin qaçaqmalçılığı; saxta/ pirat məhsulların ticarəti; ekoloji cinayətlər və insan alveri.

**Nəticə**

Riskin mövcudluğu gömrük əməkdaşlarına konkret malların və sərnişinlərin fiziki yoxlama və ya sənədli yoxlama üçün seçilməsinə səbəbiyyət verir. Gömrük yoxlamasının nəticəsi olaraq, detallı "feedback" mühüm əhəmiyyət kəsb edir. Həm müsbət, həm mənfi nəticələr hesabatda nəzərə alınmalıdır. Bunların hər ikisi gələcək risk meyarlarının müəyyən edilməsi, xarici ticarət iştirakçılarının yeni "gizlətmə/aldatma" trendlərinin öyrənilməsi üçün eyni dərəcədə əhəmiyyət daşıyır və kəşfiyyat prosesinə töhfə verir. Məsələn, aşağı keyfiyyətli meyvə məhsullarının göndərilməsi ilə bağlı uğursuz bir əməliyyat hər iki subyekt (həm gömrük orqanı, həm də XİF iştirakçısı) üçün əhəmiyyət daşıyır, çünki bu, sınaq göndərilmə ola bilər. Beləliklə, istənilən gömrük əməkdaşının öz xidmət anında ortaya çıxan risklərlə bağlı bütün növ məlumatı hesabata əlavə edə bilmə imkanı gömrük xidmətləri üçün çox vacib rol oynayır. Məhz bu səbəbdən, ayrı- ayrı ölkələrin gömrük xidmətləri bu növ məlumatları əldə edə bilmək üçün "istifadəçi dostu (bütün gömrük əməkdaşları üçün əlçatan)" elektron idarəetmə sistemlərindən istifadə edir və mütəmadi təkmilləşdirirlər. Bundan əlavə olaraq qeyd etmək lazımdır ki, gömrük işçilərinə öz fəaliyyət sahələrində qarşılaşa biləcəkləri müxtəlif növ riskləri tanımaqla bağlı təlimlər keçirilməlidir. Hər bir gömrük əməkdaşına cinayət və qaçaqmalçılıqla bağlı mövcud olan bütün informasiya mənbələrinə çatmaq imkanı yaradılmalıdır. Bu istiqamətdə hesabatlar, xəbərdarlıqlar, müxtəlif təşkilatların bülletenləri (ÜGT, Regional Kəşfiyyat Əlaqə Büroları (RILOs.), Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayət Bürosu (UNODC), İnterpol və ayrı- ayrı dövlətlərin yerli hüquq- mühafizə orqanları və s.) kimi açıq mənəbli məlumatlar dərc edilə bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

1) Redaksiya olunmuş Kyoto Konvensiyası, Maddə 6
2) WTO- Risk Management Compendium, Volume 1
3) Third Progress Report on the Implementation of the EU Strategy and Action Plan for Customs Risk Management, 18.01.2021
4) WCO Safe Framework of Standards
5) Elektron gömrük sistemində gömrük risklərinin idarə edilməsi məsələsi- Üzeyir Qurbanlı, 04.12.2014
6) Avropa İttifaqı Vahid Gömrük Məcəlləsi

**Sultan Rövşən oğlu Bayramov**
ATMU-nun maqistrantı
E-poçt: bayramov.sultan9@gmail.com

## AZƏRBAYCANDA TURİZM SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Abstract**

At present, Azerbaijani tourism is on the rise. Today, the most important task in Azerbaijan is to turn the tourism sector into one of the most important sectors of the country's economy. The socio-economic achievements of Azerbaijan in recent years have created new opportunities and conditions for its proper completion.

In order to promote the natural monuments of our country, as well as the ancient cultural and historical heritage of our people, effective measures will be taken to further develop tourism in the Republic of Azerbaijan, to create favorable conditions for tourism.

**Keywords:** Azerbaijan, tourism, tourism sector, current situation, economic development

Bu gün ölkəmizdə turizm nəhəng sənayeyə çevrilib. Bu sahədə prosesin daha dərindən dərk edilməsi və idarə olunması yeni elmi istiqamətin yaradılmasını tələb edir. Deyirlər ki, turizm və ya turizm elmi deyilən bir elm yaranıb. Turizm bu elmin predmeti, turizm sənayesinin obyekti və turizm məhsulunun subyektidir.

Turizm ümumi ifadə olduğu üçün onun strukturunun öyrənilməsinə xüsusi diqqət yetirilir. Bunun üçün turizmin təsnifatı tərtib edilir, onun növü və forması müəyyən edilir. Hazırda 300-dən çox turizm növü mövcuddur və onların inkişafı davam edir. Turizmin yeni növlərinə selfi, sənaye və digər dəbli növlər daxildir. Əvvəllər xəyal olanlar indi reallığa çevrilir.

Azərbaycan müharibələr və hərbi kampaniyalar kimi təbii fəlakətlərdən də əziyyət çəkib. Ona görə də tarix boyu yaradılmış böyük irsin yalnız bir hissəsi bu günə qədər gəlib çatmışdır [1].

Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin yerləşdirilməsi siyahısında Azərbaycanın tarix və mədəniyyət abidələri haqqında ətraflı məlumatlar, əsas kateqoriyalar (beynəlxalq, milli, yerli) öz əksini tapmışdır. Burada 6300-dən çox abidənin adı verilmişdir. Tarix və mədəniyyət abidələri ölkənin tarixi inkişafını sənədləşdirərək şahid kimi xidmət edir.

Kəmiyyət göstəriciləri kimi, keyfiyyət göstəriciləri də tarix və mədəniyyət abidələrinin yeni potensialından xəbər verir. Ölkəmizdəki beynəlxalq və ölkə əhəmiyyətli 430-dan çox tarix və mədəniyyət abidəsinin ümumi tarixinin tərtibi və təhlili onun dinamikasını və tarixi dövr üçün aktuallığını əyani şəkildə göstərir.

Azərbaycanın hərbi-siyasi tarixi də mühüm tarixi irs yaradıb. Tarixi irsdə Azərbaycan xalqının tarixi inkişaf yolunda yaratdığı adət-ənənələr, tarixi-etnik nailiyyətlər xüsusi yer tutur. Azərbaycanın etnik xəritəsi, dini zənginliyi də onun tarixi nailiyyətləridir. Bunun əsasında multikultural siyasət formalaşdırılıb və uğurla həyata keçirilir [2, s. 14].

**Qrafik 1**

**Azərbaycana gələn turistlərin sayı, min nəfər**




Mənbə: www.stat.gov.az

Azərbaycanı turizm baxımından vahid coğrafi məkan kimi qəbul etmək təbiidir, lakin bu, turizmin bütün potensialını reallaşdırmaq üçün kifayət etmir. Bu, coğrafi, iqtisadi və s. sahələrlə də eynidir. Ona görə də ölkə ərazisi müxtəlif meyarlara görə rayonlaşdırılır. Onların arasında dövlət proqramının perspektivində regionların sosial-iqtisadi inkişafı xüsusi yer tutur. Burada tətbiq edilən rayonlaşdırmanın müvafiq təcrübəsini və ölkənin tarixi inkişafını nəzərə alaraq aşağıdakı tarixi-turizm rayonlarını ayırmaq olar: Bakı-Abşeron, Gəncə-Qazax, Quba-Xacmaz, Şirvan, Qarabağ, Naxçıvan, Şəki-Zaqatla. Eyni zamanda, Xəzər dənizi Azərbaycanın tarixi turizm məkanı sayıla bilər [3, s. 77].

Son iyirmi ildə Azərbaycan Respublikasında iqtisadi inkişafa nail olmaq üçün həyata keçirilən kompleks tədbirlər nəticəsində milli iqtisadiyyatın rəqabət qabiliyyəti yüksəlmiş, ümumi daxili

məhsul 3 dəfədən çox artmışdır. Hazırda yaxın onillikdə iqtisadi artımın iki dəfə artıq təmin edilməsi gələcək üçün əsas strateji vəzifələrdən biri hesab olunur. Xüsusilə pandemiyadan sonrakı dövrdə illik iqtisadi artım templərinin artırılması üçün yeni mexanizmlərin formalaşdırılması və işlənib hazırlanması əsas vəzifədir.

Koronavirus pandemiyasından əvvəlki beş ilin təhlili də göstərir ki, turizm sektoru Azərbaycan iqtisadiyyatında öz mövqeyini gücləndirir və perspektivli sahələrdən biridir. Rəsmi məlumatlara görə, 2016-cı ildən Azərbaycana gələn turistlərin sayı dinamik şəkildə artmaqdadır. Belə ki, 2015-ci ildə Azərbaycana gələn turistlərin sayı 2014-cü illə müqayisədə 11 faiz azalsa da, 2016-cı ildə müsbət artım əldə edilib. 2015-ci illə müqayisədə 2016-cı ildə ölkəyə gələn turistlərin sayı 6,4 faiz artıb. 2019-cu ildə ölkəyə gələn turistlərin sayı 2015-ci illə müqayisədə 49 faiz artıb.

2010-2021-ci illər ərzində turizmlə bağlı hər bir göstərici artmışdır. 2015-ci ildə Avropa Oyunları və 2016-cı ildə Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22% artıb. 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Müsəlman ölkələrindən gələn turistlərin sayı sürətlə, bəzi ölkələrdən isə 3-4 dəfə artıb. Formula 1 yarışı birbaşa ölkənin xidmət sektoruna təxminən 300 milyon funt sterlinq göndərmişdir.

Rayonun inkişafı ilə bağlı dövlət proqramı və strateji yol xəritəsi qəbul edilib. Azərbaycan Respublikasında 2025-ci ildən sonrakı dövr üçün ixtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Azərbaycanı dünyanın ən populyar 20 turizm məkanından birinə çevirmək və mövcud turizm resurslarından səmərəli istifadə etmək məqsədi daşıyır. Sağlamlıq, qış, mədəniyyət, biznes, ekoturizm və kənd turizminə əsaslanaraq, regional turizmi daha da inkişaf etdirmək və uzunmüddətli perspektivdə ölkəyə daha çox turist cəlb etməklə Azərbaycanın turizm sektorunu şaxələndirmək məqsədi daşıyır [4, s. 45].

Qeyd edək ki, 2020-ci ildə turizm sektorunda ciddi artım proqnozlaşdırılmışdır. Təəssüflər olsun ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejim, habelə sərhəddən keçidə müvəqqəti məhdudiyyətlər tətbiq edilir. Səfərlər əsasən qeyri-turizm istiqamətləri ilə olub [3, s. 67].

Göstəricilər görə bəzi ərazilərdən gələn turistləri faizə görə bu cür sıralaya bilərik: Qazaxıstan 1,1 faiz, Pakistan, BƏƏ və Türkmənistan 1,0 faiz, Küveyt və Böyük Britaniya 0,9 faiz, Belarus 0,8 faiz, Özbəkistan 0,7 faiz, İsrail 0,5 faiz, Almaniya və İtaliya 0,4 faiz, digər ölkələrin vətəndaşları 4,5 faiz, vətəndaşlığı olmayan şəxslər 0,1 faizdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı -https://www.stat.gov.az/.
2. Hasanov A., Tourism in Azerbaijan. Academia, 2020, 233 p.
3. Guliyev U.A., Tourism development in Azerbaijan. 2021, 234 p.
4. Mürvətov Ə. Azərbaycanda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır, Azərbaycan. 2009, 7 may, 3 səh.

**Cəfərli Müşviq qızı Nurbəniz**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin *Magistrant*ı
Turizm və otelçilik ixtisası (Sosial-mədəni sahələrdə xidmətin təşkili)
E-mail: nurbenizc1@gmail.com

## TURİZM SƏNAYESİNDƏ KADR HAZIRLIĞININ XİDMƏT KEFİYYƏTİNƏ TƏSİRİ

### Xülasə

Bir çox inkişaf etmiş dövlətlər xidmət yönümlü istehsal sənayesinə xüsusi diqqət yetirir və onun inkişafı üçün ciddi tədbirlər planı həyata keçirirlər. Bu qeyri-istehsal sektorlarından biri də turizm sektorudur. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda bu sahənin inkişafı üçün müxtəlif tədbirlər həyata keçirilir. Ölkəmizin inkişafına mənfi təsir göstərən məsələlərdən biri də ixtisaslı kadr çatışmazlığıdır. Turizm sektorunda mütəxəssislərin hazırlanması milli turizmin inkişafı proqramının

tərkib hissəsidir. Turizm və qonaqpərvərlik sənayesini inkişaf etdirmək istəyən ölkələr iqtisadi səmərəliliyin artırılması istiqamətində addımlar atmalı və insan resurslarının idarə edilməsinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirməlidirlər. İnsan resurslarının idarə edilməsi turizm müəssisələrinin insan resurslarına, istehsal proqramına uyğun olaraq formalaşır və təşkil edilir. Kadrların sayı, ümumi struktur və onlardan istifadə etmə meylləri kadr siyasətinin əsas istiqamətini müəyyən edir. Müəssisə işçi heyəti, işçilərin sayı, onların hansı ixtisasa uyğun olması, turizm sənayesi daxilində hansı istiqamətdə istifadə ediləcəyi barədə müəssisə planı tərtib edir. Əməyin universal dəyəri bu sənaye üçün aparıcı əhəmiyyət kəsb edir. İxtisaslı kadrların formalaşmasında əsas məsuliyyət təhsil müəssisələrinin və təhsil sisteminin üzərinə düşür. Lakin ixtisaslaşmanı səciyyələndirən proses turizm obyektlərində təhsildən istifadədir. Kadrların formalaşması onlar üçün yaradılmış əlverişli şəraitlə sıx bağlıdır. Turizm obyektlərində ödənilən əməkhaqqı, əlavə həvəsləndirmələr kadrların peşəkarlıq səviyyəsinə və məhsuldarlığına öz təsirini göstərir.

**Açar sözlər:** Turizm, kadr, personal, xidmət, prioritet, vəziyyət, Azərbaycan, inkişaf.

Müsair dövrün fenomeni olan qeyri istehsal sektorunuın sürətli inkişafı ölkənin iqtisadi və sosial inkişafında aparıcı yerə sahibdir. Nəzərə almaq lazımdır ki, istehsal sektoru resursları tükənmə potensialına malikdir və daimi deyil. Bu səbəbdən dolayı bir çox inkişaf etmiş ölkələr xidmət yönümlü istehsal sənayesinə xüsusi diqqət yetirir və onun inkişafı üçün ciddi tədbirlər planı həyata keçirirlər.

Bu tip qeyri istehsal sektorlarından biri də Turizm sektorudur. Bu sektorun inkişafı üçün bir çox ölkələrdə həmçinin Azərbaycanda da müxtəlif tədbirlər yerinə yetirilir. Ölkəmizdə inkişafa mənfi təsir göstərən məsələlərdən biri də ixitsaslı kadr çatışmazlığı məsələsidir. Turizm sektorunda mütəxəssislərin hazırlanması milli turizmin inkişafı proqramının tərkib hissəsinə daxildir. Turizm və qonaqpərvərlik sənayesini inkişaf etdirmək istəyən ölkələr iqtisadi səmərənin artırılması üçün bu istiqamətdə addımlar atmalı, personalın idarə edilməsi məsələlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirməlidir. Peşəkar kadrların hazırlanması üçün adiyyatı üzrə dövlət qurumları inkişafı təmin etmək məqsədi ilə təhsil qurumlarına müəyyən göstərişlər verməli və bu göstərişlərin reallaşmasını həyata keçirmək üçün nəzarət prosesinə diqqət yetirməlidir. Onların fəaliyyətinin attestasiyası, lisenziyalaşdırılması və sertifikatlaşdırılması dövlət idarəetmə sistemi tərəfindən tənzimlənməlidir. Dövlət qurumlarının vəzifəsi təkcə yeni institutların, təhsil ocaqlarının istifadəyə verilməsi deyil eyni zamanda sosial və iqtisadi siyasətin də bu istiqamət üzrə düzgün planlaşdırılmasını həyata keçirməkdir.

Kadr çatışmazlığı nəinki turizm sənayesində həmçinin bir çox sahələrdə özünü göstərir. Buna görədə kadr hazırlığı problemi dövrümüzün ən aktual məsələlərindən biri hesab olunur. İnsan resursunun idarə olunması turizm müəssələrinin kadr potensialına, istehsal proqramına uyğun formalaşdırılır və təşkil olunur. Hər bir işçinin iş qabiliyyəti, iş yükü nəzərə alınmaqla onların aylıq və günlük xidmət prosesi müəyyənləşdirilir. Kadrların sayı, ümumi strukturu və onlardan istifadə etmə meyilləri kadr siyasətinin müəyyən olunmasını şərtləndirir. Müəssisə tərəfindən kadr və personalın sayı, hansı ixtisaslaşma üzrə uyğun olduğu, turizm sənayesi daxilində hansı istiqamət üzrə istifadə ediləcəyi haqqında müəssisə planı tərtib olunur. Əməyin universal dəyəri bu sənaye sahəsi üçün aparıcı əhəmiyyətə malikdir. İxtisaslı kadrların formlaşmasında əsas öhdəlik məhz təhsil ocaqları və təhsil sisteminin payına düşür. Amma ixtisaslaşmanı daha səciyyəvi edən proses əldə olunan təhsilin turist obyektlərində istifadəsidir.

Kadrların formlaşması onlar üçün yaradılan şəraitin əlverişliliyi ilə də sıx əlaqəlidir. Kadrların peşəkarlıq səviyyəsinə, məhsuldarlığına turist obyektlərində verilən əmək haqqı, əlavə həvəsləndirici tədbirlər, tədris hazırlığı prosesi öz təsirini göstərir.

Xidmət yönümlük prinsipi ilə çalışan sənaye sahələrində operativlik bacarığı əhəmiyyətli dərəcədə mühim rol oynayır. Belə ki, fors major hallar yarandıqda turistin tələbi dinlənməli və ən sürətli şəkildə problemin həlli yolları araştırılmalı həmçinin tədbiq olunmalıdır. Hər hansı bir problem halı baş verərsə bu problemin həlli ən sivil qaydada həyata keçirilməlidir. Bu kimi səbəblərdən dolayı turizm sənayesi kadrları universal bilik və bacarıqlara sahib olmalıdır.

Turizm sektoruda peşəkar kadrlar müəyyən istiqamətlər üzrə ixtisaslaşdırılır (sosial-mədəni xidmət, menecment, turizm iqtisadiyyatı, regional turim, muzey işi və abidələrin mühafizəsi, mədəniyyətşünaslıq və.s). Bu sektorda işçilər məhsul satışının əhəmiyyətli bir hissəsini təşkil edir. Turizm biznesi sahəsində aparılan iqtisadi tədqiqatların təhlili göstərmişdir ki, turizm təşkilatının idarə edilməsi, təkmilləşdirilməsindən söhbət gedəndə ekoloji məsələlər, turizm bazarındakı mövqey, rəqiblərə nisbətdəki satış həcmi, müştərilərlə olan münasibət və.s digər idarəetmə prosesləri hər biri peşəkar kadrların səriştəliliyi nəticəsində formalaşır.

Turizm sənayesi kadrları son məhsulun ən mühüm komponenti, təşkilatın rəqabət üstünlüklərinin əsas resurslarından biridir və buna görə də turizm təşkilatlarında xidmətin keyfiyyəti işçilərin bilik və bacarıqlarından asılıdır. Xidmət sektorunda müştəri məmnuniyyəti, personalın nəzakəti və onun həssaslığı ilə əldə edilir. Beləliklə, insanların səmərəli idarə edilməsi turizm təşkilatının ən vacib funksiyalarından birinə çevrilir.

Beynəlxalq sənayeləşmə dövründə turizmin inkişaf etdirilməsi və səmərəsinin yüksəldilməsi gənc turizm tədqiqatçılarının əsas istamətidir. Turizm sənayesində inkişafı təmin etmək üçün insan amili problemlərinin təhlili, xidmət səviyyəsinin yüksəldilməsi, turizm məhsulunun beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin davamlılığını artırmaq, həmçinin peşəkar kadrların formalaşması və ixtisaslı kadrların bu sahəyə təşviqini təmin etmək qarşıda duran ciddi məsələlərdəndir. Uğurlu biznes həyata keçirən ixtisaslı turizm kadrı turizm məhsulunun layihələndirilməsi və istehsalına çəkilən minimum xərclərlə onun keyfiyyətinin düzgün idarə edilməsini həyata keçirməyi bacarmalıdır.

Xidmət sektorunda müştəri məmnuniyyəti personalın nəzakəti və onun həssaslığı ilə əldə edilir. Beləliklə, insanların səmərəli idarə edilməsi turizm təşkilatının ən vacib funksiyalarından birinə çevrilir.

Turizm məhsulunu ilk növbədə sənaye mallarından fərqləndirən mühüm xüsusiyyəti insanların istehsal prosesində geniş iştirakıdır. Beləliklə, insan amili onun inkişafına və keyfiyyətinə güclü təsir göstərir.

Turizm təşkilatlarında xidmətin keyfiyyəti işçilərin bacarıqlarından asılıdır:

- Hər bir müştərinin sifarişdən gözləntilərini müyyən etmək və müştərinin tələbinə uyğun məhsul təqdim etmək;
- Hər bir müştərinin təqdim olunan xidmətlə bağlı düşüncəsini dəyərləndirmək;
- Zəruri hallar yarandığı təqdirdə bu halların həlli yolunu ən operativ və sürətli şəkildə tənzimləmək, yaranan problemlərin həllinə yaradıcı və innovativ yanaşma bacarığına sahib olmaq.

Turizm sənayesində ixtisaslı kadr kimi fəaliyyət göstərmək üçün texnoloji hazırlığa, iqtisadi biznes sahəsində biliklərə sahib olmaqla yanaşı, həm də müvafiq psixoloji hazırlığa, şəxsiyyətlərarası ünsiyyət məsələlərinə dair biliyə malik olmaq lazımdır. Turizm sənayesində ixtisaslı kadrlar ünsiyyət bacarıqlarına sahib olmalı, qarşıya qoyulan hədəf strategiyasına doğru irəliləmək başlıca məqsədi olmalıdır. Bununla yanaşı kadrlar müəyyən tələblərə də cavab verməlidir. Bu tələblər: diqqət, məsuliyyət, stressə davamlılıq, dəqiqlik, şirkətə sadiqlik kimi şəxsi və işgüzar keyfiyyətləri özündə əhatə edir. Bu tələblər onunla izah olunur ki, turizm sənayesində personalın buraxdığı səhv müştərinin sonrakı seçiminə və onun xidmət keyfiyyətindən məmnunluğuna təsir edə bilər.

Turizm sənayesindəki müəsissələrin bütün personalı (turizm agentliyində menecer; mehmanxanada – qeydiyyat şöbəsinin işçisi, ofisiant; bələdçi; avtobus sürücüsü və s.) səy göstərməlidir ki, müştəri səfərdən sonra məmnunluq hissi ilə oradan ayrılsın. Onların münasibəti, xarici görünüşü və qonağın istənilən tələbini yerinə yetirməyə hazır olmaları xidmət haqqında ümumi təəssürat yaradır. Məsələn, müştərilərlə təmasda olan hər bir otel işçisi otelin səlahiyyətli nümayəndəsi kimi qəbul edilir və onun peşəkarlığı və insani keyfiyyətləri son nəticədə otelin imicini formalaşdırır. Bu sənayedə heç bir vəzifə ayrı seçkiliyi olmamalıdır, buna görə də rəhbərlik kadr məsələlərinə laqeyd yanaşarsa, otel binasının tam yenidən qurulması belə bazarda uğura zəmanət verə bilməz.

Təşkilatın işçi heyəti istehlakçıya elə xidmət etməlidir ki, sonra bu müştəri təşkiltatın daimi müştərisinə çevrilsin. Təşkilatın gəliri birbaşa bundan asılıdır, daimi müştərilər nə qədər çox olsa, qazanc da bir o qədər yüksəkdir. Personalın qısa müddət ərzində müştəri ilə xoş ünsiyyəti bütövlükdə

turizm təşkilatı haqqında xoş təəssürat yaratmaq imkanına sahibdir. Menecerlər işçilərin öz şirkətləri və təqdim etdikləri xidmət haqqında bacarıqlı və həvəsli olduğundan əmin olmalıdırlar.

Qonaqpərvərlik sənayesinin bir istiqaməti olan mehmanxanalarda ulduzların sayı kefiyyətin zəmanəti deyil, yalnız yüksək xidmət bunun zəmanəti ola bilər. Otel xidmətinin standartlaşdırılması özlüyündə qonaqların məmnunluğunu təmin etmək iqtidarında deyil. Keyfiyyəti insanlar yəni ixtisaslı kadrlar təmin edir. Kadrların qonağın tələbini başa düşmək bacarığı və gözlənilən tələbi ödəmək kefiyyəti qonaqlarda məmnunluğu təmin edə bilər.

Turizm sənayesindəki əksər təşkilatlar kadrları köməkçi komponent kimi qəbul edərək, kadrların idarə edilməsinə lazımi diqqət yetirmirlər. Bu, yanlış yanaşmadır, çünki turizm sənayesindəki kadrlar şirkətin bir hissəsidir eyni zamanda turizm məhsulunun özünün də bir hissəsi hesab olunur və buna əsasən təşkilatlardan gəlir əldə edirlər.

Ona görə də dünyanın ən qabaqcıl turizm təşkilatları artıq dərk edirlər ki, bazarda rəqabətədavamlı olmaq üçün peşəkar təlim keçmiş işçilərin olması və kadrların idarə olunması məsələləri ilə ciddi məşğul olmaq lazımdır.

Bu gün kadr siyasətinin əsas vəzifəsi "keyfiyyətli" işçilərin axtarışı və cəlb edilməsi, onların potensialının tam üzə çıxarılması üçün şəraitin yaradılmasıdır.

Bu kadr siyasətinin əsas funksiyaları aşağıdakılardır:

- şirkətin kadr siyasətinin formalaşdırılması və bu kadr siyasətini və onun ayrı-ayrı komponentlərini əks etdirən sənədlər sisteminin yaradılması;
- vəzifələrin layihələndirilməsi, kadrların strukturunun və işçilərə olan tələblərin müəyyən edilməsi;
- kadrların seçimi;
- kadrların qiymətləndirilməsi və sertifikatlaşdırılması, işçilərin işdən çıxarılması və yerdəyişməsi;
- işçilərin təlimi və peşəkarlığının artırılması;
- əməyin ödənilməsi və stimullaşdırılması sisteminin təkmilləşdirilməsi;
- şirkətin korporativ mədəniyyətinin formalaşdırılması, işçilərin psixoloji iqliminin və qeyri-maddi motivasiyasının idarə edilməsi;
- kadrlarla işdə mövcud əmək qanunvericiliyinin tələblərinin təmin edilməsi;
- HR menecmenti.

Bu amillər gələcək ehtiyacların müəyyən edilməsinə, işçinin potensialının inkişafına, eləcə də hər bir işçinin öz vəzifələrini dərk etməsinə, məqsədə çatmağa həvəsləndirən əlverişli iş mühitinin yaradılmasına şərait yaradır.

Turizm sənayesində kadrların idarə edilməsinin məqsədi işçiləri keyfiyyətli və məmnunedici xidmət göstərməyə həvəsləndirməkdir. Bu motivasiya və istehlakçıların turizm təşkilatına sədaqətini artıran korporativ mədəniyyətin formalaşması olmadan mümkün deyil.

Müəssisələrdə sırf inzibati qaydada qurulan və problemlərinin həlli ilə məhdudlaşan kadr işi effektiv kadr idarəçiliyinə mane olur. Müəssisələrdə strateji idarəetmənin formalaşması üçün ilkin şərt mənəvi sahibkarlığın, müsbət psixoloji mühitin mövcudluğudur.

Müəssisələrdə kadrların çoxluğu məsrəflər kimi deyil, şirkətin ən vacib resursu kimi qiymətləndirilməlidir və düzgün idarə olunmalıdır.

Turizm sənayesi müəssisə və təşkilatları vahid idarəetmə sisteminə uyğun olmalıdır, burada məqsəd bazarda uzunmüddətli rəqabət qabiliyyətinə malik olmaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Soltanova H. Azərbaycan Respublikasında turizm və onun inkişafı . (Bakı-2015)

2.Bahadur Bilalov-Turizm fəaliyyətinin tənzimlənməsi (Bakı-2006)

3.İlqar Huseynov,Nigar Əfəndiyeva-Turizmin əsasları(Bakı-2007)

4.Türk internet resursları

**Humay Vahid qızı Cəfərova**
Turizm və otelçilik üzrə magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: h.ismayilova@mail.ru

# MÜASİR DÖVRDƏ EKOLOJİ TURİZMİN İNKİŞAF DİNAMİKASI

## Xülasə

Ekoloji turizm - son dövrlərdə dünya turizm sənayesinin ən yüksək sürətlə inkişaf edən sahələrindəndir. Ekoloji turizm həm istirahət hım təbiətdən zövq almaq məqsədi ilə həm də yəni bioloji müxtəlifliyin qorunmasını təbliğ edir. Təbiətin "qeyri-aşındırıcı" rejimindən istifadə edilməsinin işlənib hazırlanmasını tələb edən ekoturizm rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə etməklə yanaşı, turizm fəaliyyətinin dayanıqlı olmağını təmin etməlidir.

**Açar sözlər:** Ekoloji turizm, turizm bazarı, təsir amilləri, ekoloji bölgə, qanunvericilik, Azərbaycan

Relyef, su, landşaft, heyvanat və bitki aləmini özündə birləşdirən, birbaşa təbii resurslardan istifadəyə yönəldilmiş turizmin bütün növləri təbiət turizminə aid olunur. Qeyd etmək lazımdır ki, insan cəmiyyəti yarandığı və insan özünü dərk etdiyi gündən bəri insan təbiətdən sərhədsiz istifadə edir. "Təbiət turizmi" səyahətçilərin təbiətə gəzintisini təşkil etsə də, onların heç birinin təbii mühitə mədəni, iqtisadi və ekoloji təsirini nəzərə almır. Təbii resurslar hər zaman dayanıqlı və tükənməz deyildir. Buna görə də onlardan istifadə zamanı hər bir şeyi nəzərə almaq lazımdır.

Təbiət turizminin bir forması olaraq ətraf mühitə qayğı ilə əlaqəli turizm növü ekoloji turizm və ya ekoturizm adlandırılır. Ekoturizm elə səyahət növüdür ki, yerli təbiət ilə maraqlanmalı, məqsədyönlü şəkildə təbii əraziləri, ətraf mühiti, və bütün bunları lap da dərindən öyrənməyi tələb edir. Bu səfərlər zamanı ekoloji sistemin bütövlüyünü qorumaq ilkin qaydadır. Eyni zamanda ekosistemi mühafizə edərkən yerli əhalinin də yaşayışını nəzərə almaq və yerli əhalinin təbiətdən daha çox zövq almasına şərait yaratmaq turizmin bu növünün digər bir məqsədidir.

Ekoloji turizmin özünəməxsus mühüm prinsipləri bunlardır:

1. Təbiətə səyahət etmək və səfər zamanı yerli təbiət ilə adət-ənənələrlə tanış olmaq;
2. Ekologiyaya qarşı hər hansı mənfi halın qarşısını almaq;
3. səyahət zamanı ekoloji məlumatlandırma və maarifləndirmə;
4. Yerli əhalinin turistik fəaliyyət zamanı gəlir əldə etməsi.

Bu gün Azərbaycana Birəşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı (BMÜTT) tərəfindən ekoloji turizmin inkişafı baxımından qabaqcıl və ən perspektivli bölgələrindən biri olaraq dəyərləndirilir. 2011-ci il "Turizm ili" elan olunmuşdur. Bu da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən turizmə verilən dəyərin bariz nümunəsidir.

Ekoturizmin fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, o, təbiətə mənfi təsirin qarşısını ala və turoperatorları və turistləri təbiətin mühafizəsinə və sosial-iqtisadi inkişafa kömək etməyə sövq edə bilər.

Əsrin dörddə biri ərzində mütəxəssislər heç də vahid fikrə gələ bilməmişlər. Ekoloji turizm nədir? eyni hadisəni ekoturizm, təbii, gah yaşıl, gah yumşaq və s.adlandıraraq və hətta bəzən onu macəra turizminin təzahürlərindən birinə aid edirlər. Amma görünən odur ki, onu" ekoloji " turoperatorların, hətta turistlərin öz məqsədləri üçün təbiətdən istifadə etməklə bu və ya digər şəkildə tur məhsullarının reallaşdırıldığı yerlərin ekoloji vəziyyətinə təsir edirlər.

Ekoloji turizmin təkamülündə mühüm addım 2002-ci ilin Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Beynəlxalq ekoturizm ili" elan edilməsi olub. 19-22 may 2002-ci il tarixlərində BMT-nin Ətraf Mühit Proqramı (UNEP) və Kvebekdə Ümumdünya Turizm Təşkilatının (Kanada) himayəsi altında dünyanın 132 ölkəsinin iştirak etdiyi Ekoturizm üzrə Ümumdünya Sammiti keçirilib. Burada müxtəlif ölkələrdə ekoturizmin inkişafı üçün tövsiyələr olan ekoturizm üzrə Kvebek Bəyannaməsi qəbul edilmişdir. Sammitdə ekoturizmin davamlı turizm prinsipləri əsasında qurulduğu, onun iqtisadi, sosial və təbii mühitə təsiri nəzərə alındığı qeyd edilib. Dünya ekoturizm ictimaiyyəti əhəmiyyətli dərəcədə artıb və artmaqda davam edir ki, bu da dünya səyahət sənayesi bazarında ekoturizmin mövqelərinin

möhkəmləndirilməsində ciddi addımlardan danışmağa əsas verir. XX əsrin 80 –ci illərində turizmin yeni forması-ekoloji turizm formalaşmağa başladı.

Ekoturizm — turizm sənayesində əsas resursunu-təbii təbii mühiti və ya onun ayrı-ayrı komponentlərini (təbiət abidələrini, müəyyən heyvan və bitki növlərini və s.) qoruyub saxlamağa əsas maraq göstərən yeganə istiqamətdir. Yerli əhali ekoturizm prosesinə cəlb olunanda, o, həmçinin götürmə yox, təsərrüfatçılıq əsasında bu resurslardan istifadə etməkdə maraqlı olur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bilalov B.Ə. «Turizmin menecmenti». Bakı: - 2005.
2. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı; Mütərcim, - 2006.
3. Bilalov B.Ə. Turizmin tarixi. Bakı: Mütərcim, - 2008.
4. Атамов В.В. Степная растительность Азербайджана. Баку, «Элм», 2002
5. Дроздов А.В. Экотуризм: определения, принципы, признаки, формы // Актуальные проблемы туризма 99. Перспективы развития туризма в южном Подмосковье. Сб.докл. и тез. сообщений научно-практ. Конференции, 27 апреля 1999 г. -М, 1999

**Əli Namiq oğlu Ələkbərov**
Azərbaycan Turizm və Menecment
Universitetinin II kurs magistrantı
E-mail: alakbarov.ali.2001@atmu.edu.az

# OTEL BİZNESİ MÜƏSSİSƏSİ ÜÇÜN İNKİŞAF STRATEGİYASI

**Xülasə**

Məqalədə otel biznesi müəssisələrinin inkişaf strategiyaları araşdırılır. İqtisadi böhran şəraitində otel biznesinin inkişafı problemləri müəyyən edilmişdir. Otel sənayesində biznesin inkişafı strategiyalarının növləri və onların inkişaf etdirilməsi üsulları nəzərdən keçirilir. *SWOT* təhlili metodundan istifadə əsasında otel biznesinin inkişaf strategiyasının işlənib hazırlanması nümunəsi verilmişdir.

**Açar sözlər:** otel biznesi, strategiya, rəqabət üstünlükləri, gəlirlilik, *SWOT* təhlili.

Hazırda turizm dünya iqtisadiyyatının ən intensiv inkişaf edən sahələrindən biridir. Müasir turizm sənayesi dünya iqtisadi sisteminin ən sabit və daim inkişaf edən sahələrindən biri hesab olunur. Turizm sənayesi dünya ÜDM-nin təxminən 6%-ni təşkil edir, dünya kapital qoyuluşlarının ümumi həcminin təxminən 6%-i turizmin inkişafına yatırılır. Ümumdünya Turizm Təşkilatının (*UNWTO*) məlumatına görə, turizm dünya milli məhsulunun 10%-dən çoxunu və ticarətin təxminən 30%-ni təmin edir [5, s.15].

Gələn turist axınının artması yolunda problemlərdən biri də sərfəli qiymətə mehmanxana və buna bənzər yerləşdirmə obyektlərinin olmamasıdır. İqtisadiyyatda və standartlaşdırılmış xidmətlər dəstini təklif edən orta qiymət seqmentlərində yerləşdirmə obyektlərinin çatışmazlığı var. Bu tip otaq fondunun tutumunun artırılması daxili və gəlmə turizmin inkişafı üçün əsas şərtə çevrilir. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan otel xidmətləri təminatçıları müştərilərin tapılması, rəqabət qabiliyyəti və qeyri-sabit bazar mühitinin mənfi təsirinin digər amilləri ilə üzləşirlər [1, s.89]. Bu şəraitdə müəssisədə strateji idarəetmə böyük əhəmiyyət kəsb edir, çünki onun prosesində təşkilatın gələcək vəziyyəti təhlil edilir, bazar vəziyyətinin inkişafı üçün müxtəlif variantlarda konkret həll yolları axtarılır. Başqa sözlə desək, strateji idarəetmə və planlaşdırmadan istifadə etməklə otel gələcəkdə onun başına gələ biləcək vəziyyətlərə hazırlaşır. İ.N.Qerçikovanın tərifinə görə, "otelin strategiyası onun qarşıya qoyduğu konkret məqsədlərə nail olunmasını təmin edən uzunmüddətli tədbirlər sistemidir" [4, s.87]. Strategiyanın işlənib hazırlanması və həyata keçirilməsinin mahiyyəti çoxsaylı alternativlər arasından arzu olunan inkişaf vektorunu seçmək və seçilmiş yol üzrə birbaşa istehsal və iqtisadi fəaliyyətdən ibarətdir. Strateji planlaşdırma otelə bazarda daha rəqabətli və dayanıqlı olmağa imkan verir. Strategiyanın əsaslandırılması və seçimi bir-biri ilə əlaqəli nəzərdən keçirməyi və diqqətlə təhlil etməyi tələb edir: məqsədlər, xarici

mühitin verdiyi imkanlar, habelə otelin potensialı və onun güclü tərəfləri. İnkişaf strategiyası həmişə müəyyən meyarlara əsasən seçilir ki, bu meyarlar otelin rəhbərləri tərəfindən sıralanmalıdır. Müəssisələr tərəfindən istifadə edilən müxtəlif strategiyalar əslində yalnız az sayda əsas strategiyanın modifikasiyasıdır. Bu strategiyaların hər biri yalnız ətraf mühitin müəyyən vəziyyəti və əlverişli şəraitin mövcudluğu şəraitində müsbət təsir göstərir. Əsas rəqabət strategiyası digər şirkətlər üzərində üstünlük növünü və özünü göstərdiyi sahəni xarakterizə edən bir anlayışdır. Ümumilikdə biznesdə dörd əsas strategiya mövcuddur:

1. Məhdud inkişaf strategiyası: məqsəd dəyişən şərtlərlə birlikdə tənzimlənə bilən "yuxarıda əldə edilənlərdən" müəyyən edilir. Bu vəziyyətdə risk minimaldır. Bu, şirkət tərəfindən mövcud bazar payının qorunub saxlanmasını və bazarda mövqeyini saxlamasını nəzərdə tutur. Belə strategiya o zaman seçilir ki, otelin bazar mövqeyi qənaətbəxşdir və ya aktiv hücum strategiyasını həyata keçirmək üçün onun kifayət qədər vəsaiti yoxdur. Ola bilsin ki, otel güclü rəqiblərin arzuolunmaz qisas alması və ya hökumətin cəzalandırıcı addımı səbəbindən hücum etməkdən çəkinir.

2. Artım strategiyası: inkişaf dinamik dəyişən texnologiyaya əsaslanır. Sürətli artım templərini təmin etmək istəyən otellər tərəfindən seçilir. Müəssisə müəyyən bazar payı qazanmağı və çox vaxt yeni bazarda və ya yeni sənayedə lider mövqe tutmağı hədəfləyir. O, bir qayda olaraq, əsas ixtiraların və hətta müəyyən bir yeniliyin kəşflərinin həyata keçirilməsinə əsaslanır, böyük maliyyə xərcləri ilə əlaqələndirilir və yüksək risk dərəcəsinə malikdir. Ancaq bəxtiniz gətirsə, çox yüksək nəticələr əldə edə bilərsiniz.

3. Azaltma strategiyası - əldə edilmiş səviyyədən aşağı məqsədlərin qoyulması və ya bəzi fəaliyyətlərin aradan qaldırılması, habelə xərclərin azaldılması (şəraitlərin dəyişməsi nəticəsində biznesin bazar payının azalması) ilə xarakterizə olunan strateji alternativdir. Bu strategiya müəssisələrin ixtisarını, onların ləğvini və ya istiqamətinin dəyişdirilməsini nəzərdə tutur.

4. Birləşdirilmiş strategiya. Təcrübədə təşkilatlar eyni vaxtda bir deyil, bir neçə strategiyanı həyata keçirə bilər. Birləşdirilmiş strategiya bütün əvvəlki strategiyaların birləşməsindən ibarətdir. Eyni anda bir neçə müəssisədə fəaliyyət göstərən böyük şirkətlər üçün uyğundur [3, s.61-64].

Müəyyən bir strategiya seçərkən yadda saxlamaq lazımdır ki, həm ənənəvi, həm də yeni otel biznesi sahələrində yeni strategiya şirkətin potensialına uyğun olmalıdır. Sonra strategiyanın hazırlanması üçün ən uyğun üsulları nəzərdən keçirək. Müəssisənin inkişafı strategiyasının hazırlanmasının birinci mərhələsində PEST və SWOT təhlili metodlarından istifadə etmək məqsədəuyğundur. PEST-analizi uzaq xarici mühitin (və ya makromühitin) otelin fəaliyyətinə təsir edən amilləri müəyyən etmək üçün nəzərdə tutulmuşdur. Bir sistem olaraq makro mühitə siyasət, iqtisadiyyat, cəmiyyət, texnologiya, institutlar və təbii-coğrafi alt sistemlər kimi alt sistemlər daxildir. Xarici mühitin bu dörd komponentinin hamısı bir-biri ilə əlaqəlidir, buna görə də onların təşkilata təsirinin təhlili, amillərdən birinin dəyişməsinin həm otel üçün yeni imkanlar yarada biləcəyi, həm də yeni təhlükələr daşıya biləcəyi nəzərə alınmaqla düzəldilməlidir [2, s.59].

Otelin mikromühitinin öyrənilməsi çox vaxt *SWOT* analizindən istifadə etməklə həyata keçirilir. Onun məqsədi otelin daxili amillər hesab edilən bütün güclü və zəif tərəflərini müəyyən etmək, həmçinin bazar imkanları və təhdidləri olan xarici amilləri öyrənməkdir. *SWOT* təhlilinə əsaslanaraq, otel özünün güclü tərəflərindən maksimum istifadə etməli, zəif tərəfləri aradan qaldırmağa, əlverişli imkanlardan yararlanmağa və potensial təhlükələrdən müdafiə etməyə çalışmalıdır. *SWOT* təhlili matrisinin strukturu aşağıdakı cədvəldə təqdim olunur [2, s.72].

**Cədvəl 1.**

**SWOT təhlili matrisi**

| | **İmkanlar** | **Təhlükələr** |
|---|---|---|
| Müəssisənin güclü tərəfləri | Gİ | GT |
| Müəssisənin zəif tərəfləri | ZQ | ZT |

Cədvəl 1-də əks olunan matrisin dörd hissəsinin hər birində müvafiq amillərin ifadəsi əhəmiyyətinə görə sıralanmalıdır, yəni ilk növbədə analitiklərin ən güclü və ya zəif hesab etdiyi tərəf, eləcə də ən böyük göstəriciyə malik olanlar. ilk növbədə imkanlar və ya təhlükələr göstərilir. Bölmələrin kəsişməsində dörd sahə əmələ gəlir:

- Gİ (güc və imkanlar);

- GT (güc və təhlükələr);
- ZT (zəiflik və təhlükələr);
- ZQ (zəiflik və qabiliyyət) [2, s.74].

Müəyyən bir sahədə seçilmiş cütlərin hər biri üçün müvafiq müəssisə strategiyası hazırlanır. Nəticədə, *SWOT* təhlili xarici mühit və biznes mühiti, müəssisənin fərqli xüsusiyyətləri və bu fəaliyyətin nəticələri haqqında təsəvvür yaradır, müəssisəni və onun məhsullarını rəqiblər və onların məhsulları ilə müqayisə etməyə, onların dərəcəsini müəyyən etməyə imkan verir.

Otel sənayesinin yerli müəssisələrinin idarəetməsinin mövcud vəziyyəti, əsasən tələbatın mövsümi dalğalanmaları və müəyyən bir məhsulun - mehmanxana xidmətlərinin ehtiyatlarının yaradılmasının mümkünsüzlüyü, xidmətlərin qiymətlərinin artması və keyfiyyətin qeyri-kafi səviyyəsi ilə müəyyən edilən qeyri-sabit inkişaf meylləri ilə xarakterizə olunur. Vəziyyət həm də xarici mühitin qeyri-sabitliyi, müəssisələrin daxilində baş verən proseslərin uyğunsuzluğu, təsərrüfat fəaliyyətinin idarə edilməsi üçün bazar tələblərinin qeyri-adekvat olması ilə mürəkkəbləşir. Mehmanxana müəssisələrinin səmərəli fəaliyyətini təmin etmək üçün qabaqcıl dünya təcrübəsini və yerli aparıcı müəssisələrin uğurlu təcrübəsini nəzərə almaqla onların inkişaf strategiyalarını əsaslandırmaq lazımdır. Otel biznesinin idarə edilməsi strategiyası mürəkkəb idarəetmə qərarları sistemidir, onun çərçivəsində müəssisələrin inkişafının perspektiv istiqamətləri, müasir mühit şəraitində onların fəaliyyətinin forma və üsulları və qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün resursların ayrılması qaydası müəyyən edilir. Otelin strategiyası onun rəqabət qabiliyyəti və potensialı kimi anlayışlarla birlikdə seçilir. Otelin rəqabət qabiliyyəti onun rəqiblərə qarşı durmaq, satış bazarları uğrunda fəal mübarizə aparmaq qabiliyyətidir. Bu anlayış nisbidir. Müqayisə yolu ilə müəyyən edilir. Otelin potensialı, strategiya seçimi və yüksək menecmentin imkanları birlikdə firmanın rəqabət qabiliyyətinin amilləridir. Otellərin rəqabət üstünlüyünü təmin etməyin əsas istiqamətləri bunlardır: rəqiblərin hərəkətlərinin qarşısını almaq üçün resursların konsentrasiyası, rəqabət mübarizəsində təşəbbüsün saxlanması, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün resurs potensialının təmin edilməsi, bazarda fəaliyyətin planlaşdırılması üçün çevik sistemin inkişafı.

**Nəticə**

Uğur yönümlü otel xidmət istehlakçılarının tələbatını ödəməyi hədəfləməlidir. Onun menecerlərinin diqqət mərkəzində məqsədlərinə çatmaq üçün öz rəqabət strategiyasının hazırlanması və həyata keçirilməsi olmalıdır. Strategiya bazarın rəqabət qüvvələrinin xarakterini və potensialını nəzərə almalıdır, bunun üçün onun dinamikasına, bazar mühitində istehlakçıların və rəqiblərin yayılmasına nəzarət etmək lazımdır. Otelin potensialı məhsul istehsal etmək və xidmət göstərmək imkanlarının məcmusudur. O, daxili dəyişənlərdən və idarəetmə qabiliyyətindən ibarətdir. Otel, malik olduğu resursları (istehsal amilləri) ilə müəyyən edilən imkanlara malikdir. Bazar iqtisadiyyatı şəraitində otelin potensialı daxili amillərdən, məhsula tələbatdan, rəqiblərin fəaliyyətindən, ölkədə və dünyada iqtisadi vəziyyətdən asılıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Ağakərimov M. Otel. Bakı: Bakı Dövlət Universiteti, 2008. 345 s.
2. Волков Ю.В. Введение в гостиничный и туристический бизнес. М.: Феникс, 2003. 235 с.
3. Гостиничный бизнес и индустрия размещения туристов: учебное пособие к использованию в образовательных учреждениях, реализующих образовательные программы высшего образования по специальности “Социально-культурный сервис и туризм” /И.С.Барчуков, Л.В.Баумгартен, Ю.Б.Башин, А.В.Зайцев. Москва: КноРус, 2019. 164 с.
4. Герчикова И. Н. Менеджмент: учеб. пособие для студентов вузов. 2-е изд., перераб. и доп. М. : ЮНИТИ-ДАНА, 2015. 799 с.
5. Каурова О. В., Малолетко А. Н., Подсевалова Е. Н. Финансово-экономический анализ предприятия туристской индустрии: учеб. пособие. М.: КНОРУС, 2017. 216 с.

**Əlləz Hacıəhməd oğlu Əliyev**
Azərbaycan Texniki Universiteti
E-mail: allaz.aliyev1966@gmail.com

**Elvin Bayram oğlu Feyzullayev**
Mingəçevir Dövlət Universiteti
E-mail: elvinf@mail.ru

**Fuad Azər oğlu Həsənov**
Azərbaycan Texniki Universiteti
E-mail: fuadhesenov98@mail.ru[4]

**Sərxan Səfxan oğlu Musayev**
Azərbaycan Texniki Universiteti
E-mail: erxanmusayev1122@gmail.com

**Ataş Arif oğlu Bayramlı**
Azərbaycan Texniki Universiteti
E-mail: atesbyrml@mail.ru

# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HƏRƏKƏTLİLİYİNİN TƏHLİLİ

**Xülasə**

Bu tədqiqat müxtəlif növ əlilliyi olan insanlar üçün səyahət davranışı ilə bağlı araşdırmanın nəticələrini təqdim edir. Əlilliyi olan şəxslər, xüsusi yol hərəkəti tələbləri olan iştirakçılar qrupudur. Təəsüflər olsun ki, çox vaxt bu məsələ şəhər nəqliyyatının adekvat planlaşdırılmasına daxil edilmir. Məlumatları əldə etmək üçün nümayəndə sorğuların nəticələrindən istifadə edilmişdir. Məqalə tədqiqatın əsas nəticələri təqdim olunur və bu qrup istifadəçilərin tələblərinin spesifikliyini göstərilir. Yerli tədqiqatlarla və xaricdə aparılan analoji tədqiqatların nəticələri müqayisə edilir. Məsələnin dəstək üsulları göstərilir və bununlar bağlı təşmilləşdirlmə üsulları gözdən keçirilir.

**Açar sözlər:** *Əlilliyi olan insanlar, nəqliyyat, vasitə, avtomobil, avtobus.*

## Giriş

Cəmiyyətin sivilizasiya səviyyəsini şərtləndirən amillərdən biri də onun əlillərə münasibətidir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hazırda dünyada bir milyarddan çox əlilliyi olan insan var ki, bu da dünya əhalisinin təxminən 15%-ni təşkil edir. Bu saydan təxminən 110-190 milyon yetkin insan öz hüquqlarından istifadə etməkdə ciddi çətinliklər yaşayır.

Müasir cəmiyyətin vəzifəsi əlilliyi olan şəxslərin (ƏOŞ) cəmiyyətin digər üzvləri ilə eyni hüquq və vəzifələrə malik olmasını təmin etməkdir. Dünyanın bütün ölkələrində əlilliyi olan şəxslərin öz hüquq və azadlıqlarını tam şəkildə həyata keçirməsinə mane olan, onların ictimai həyatda iştirakını çətinləşdirən maneələr hələ də mövcuddur. Əlillərin cəmiyyətdəki hazırkı vəziyyəti, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası yolunda fiziki, iqtisadi və sosial maneələrin mövcudluğu, əlillərin institusional şəkildə ayrılması, onların passivliyi və funksional asılılığı, cəmiyyətin əlillərə həssas, qüsurlu münasibəti bunu bir daha təsdiqləyir.

## Əsas hissə

Nəqliyyat istifadəçilərinin araşdırması ilə bağlı əvvəlki tədqiqatlar zamanı müxtəlif növ əlilliyi olan insanlar, təəssüf ki, çox vaxt diqqətdən kənarda qalmışdır [2, 3]. Onların sosial-iqtisadi xüsusiyyətləri və Azərbaycanın əksər şəhərlərində və regionlarında yol hərəkəti sistemi ilə bağlı tələblərinin spesifikliyi müvafiq ixtisas üzrə ekspertlərə tam məlum deyildir. Bu istifadəçi qrupunun səyahət tələblərinin əhatə dairəsi və spesifikliyi haqqında adekvat məlumatın olmaması səbəbindən nəqliyyatın inkişafı planlarının əksəriyyəti yalnız simvolik olaraq, etibarlı təsirlər olmadan, əlillər üçün yol şəraitinin yaxşılaşdırılması üçün tədbirlərin verilməsi təklifi ilə məşğul olur. Həqiqətən də müəyyən tələb xüsusiyyətlərinin olması faktı Avropanın və dünyanın inkişaf etmiş şəhərlərində aparılan tədqiqatların nəticələri ilə göstərilir [6].

Beləliklə, mövcud məlumatlar göstərir ki, əlilliyi olan şəxslər əlilliyi olmayan şəxslərlə müqayisədə daha az səfər edir və bu səfərlər adi səyahət paylanması ilə müqayisədə müxtəlif məqsədlər üçün edilir. Digər tərəfdən, əlillər qrupunun özü yol hərəkəti tələblərinin xüsusiyyətləri baxımından, xüsusən də əlillik növü və yaşı nəzərə alınmaqla, kifayət qədər heterogendir.

Azərbaycan hökuməti tərəfindən BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında konvensiyası (ƏOŞHK) və onun Fakültətiv protokolu 2009-cu ilin yanvar tarixində ratifikasiya edilmişdir.

Azərbaycanda əlilliyi olan şəxslərin insan hüquqlarının müdafiə edilməsi üçün dayanıqlı bazası Azərbaycan Respublikasının əsas qanunvericilik aktları ilə təmin edilir. Lakin, nəzərdə tutulan qanunvericiliyin ƏOŞHK-yə tam uyğunluğunun təmin edilməsi üçün ciddi hüquqi islahatların həyata keçirilməsinə ehtiyac vardır. Əlilliyi olan şəxslərə qarşı keçmiş dövrlərdə tətbiq olunan, öz aktuallığını itirmiş, təcridi nəzərdə tutan tibbi yanaşmanın deyil, inkluziv yanaşmanın təşviq edilməsi üçün səmərəli beynəlxalq təcrübələri və ƏOŞHK ilə dəstəklənən əlilliyin sosial modelini əhatə etmək amalı ilə bir çox müddəalara düzəlişlərin edilməsinə ehtiyac vardır. Qanunvericiliyin bir sıra əsas hissələrinin ingilis dilli variantının olmaması üzündən Azərbaycan qanunvericiliyinin əhatəli və sistematik maddəbəmaddə təhlili mümkün olmamışdır. Bu səbəbdən də, qanunvericilik aspektinin təhlili qalan qanunvericilik, xüsusilə "Əhalinin sağlamlığının qorunması haqqında Qanun" kimi əsas qanunlar üzrə həyata keçirilməlidir

Azərbaycan Respublikasında ƏOŞ-lar əvvəlki yol hərəkəti tədqiqatlarında kifayət qədər əhatə olunmamışdır. Onların xarakterik ehtiyacları, tələbləri və yol hərəkətində iştirak tərzi və davranış modelini müəyyən etmək üçün zəruridir. Araşdırmalar göstərir ki, tez-tez praktikada uyğun olmayan usulların tətbiqi yalnız bu istifadəçi qrupunun yol hərəkətindən daha da kənarlaşması ilə nəticələnmişdir. Nəqliyyat sisteminin bütün vətəndaşlar üçün əlçatanlığını təmin etmək qarşıda duran əsas vəzifələrdəndir.

Azərbaycanda əlilliyi olan şəxslər onların cəmiyyətdə digərləri ilə bərabər əsasda dolğun və effektiv iştirakına mane olan yanaşmadan qaynaqlanan maneələr ilə üzləşirlər. Ümumi ictimaiyyətin ƏOŞ və onların cəmiyyətdə digərləri ilə bərabər əsasda dolğun və effektiv iştirak etmək hüquqları haqqında məlumatlılığının artırılması xüsusilə Bakı şəhərində prioritet məsələ olaraq müəyyən edilməlidir. ƏOŞ-ların cəmiyyətdə digərləri ilə eyni səviyyədə dolğun və effektiv iştirak etməsinə mane olan və xüsusilə ətraf mühitdən qaynaqlanan maneələr ilk növbədə fiziki əlilliyi olan şəxslərə təsir edir. Liftlər, avtobuslar kimi nəqliyyat infrastrukturun qeyri-adekvat müyəssərliyi, əlil arabalarının məhdud sayda olması və ictimai yerlərdə müyəssərlik ilə bağlı ümumi çətinliklərin aradan qaldırılması prioritet məsələ kimi müəyyən edilməlidir. Digər prioritetlərə məlumatların qeyri adekvat miqyasda paylanılması daxil edilməli və ƏOŞ-lar üçün sosial müdafiə tədbirlərinin və imtiyazların, o cümlədən ixtisaslaşdırılmış avadanlıqların təmin edilməsinə xüsusi diqqət yetirilməlidir. ƏOŞ-lar cəmiyyətdə dolğun və effektiv qaydada iştiraka yönəlmiş səylərində maliyyə aspekti ilə bağlı müxtəlif maneələr ilə üzləşirlər. ƏoŞ, xüsusilə əlilliyi olan gənclər üçün iş imkanlarının müyəssərliyi prioritet məsələ olaraq müəyyən edilməlidir [1].

Dünya praktikasına nəzər salsaq görərik ki, Böyük Britaniyada [3] aparılan araşdırmaya görə, əlillərin hərəkətliliyi, gündə orta hesabla 1,9 səfər/gün təşkil edir, halbuki, əlilliyi olmayan şəxslərdə bu rəqəm ortalama 2,7 səfər/gün təşkil edir. Həmçinin, əlilliyi olan şəxslər həm məsafə baxımından, həm də müddətcə daha qısa səfərlər edirlər. Yaş kateqoriyaları nəzərdən keçirilərsə, görərik ki, yaş artdıqca, ƏOŞ-ların orta hərəkətliliyində azalma müşahidə olunur. Səyahətlərin məqsədlərinə görə isə onlar daha az işgüzar səfərlər həyata keçirirlər. Nəqliyyat növünün seçiminə gəldikdə, Birləşmiş Krallıqda yaş kateqoriyalarının da əhəmiyyətli təsiri var. Məsələn, 70 yaşdan yuxarı ƏOŞ-larda (14%) bütün digər yaş kateqoriyaları şəxslərlə (21%) müqayisədə piyada gəzənlərin sayı çox aşağıdır. Bu araşdırmaya görə, əlilliyi olmayan şəxslərin faizi demək olar ki, eynidir (20%). Hər gün işə maşınla gedən ƏOŞ-ların demək olar ki, 40%-i mövcud nəqliyyat növünü dəyişməyəcəklərini bildirdilər [3]. Respondentlərin təxminən 48%-i eyni bələdiyyə daxilində səfərlər edib, əlilliyi olmayan insanlar üçün isə bu faiz təxminən 60% təşkil edir. ABŞ-da [5] aparılan bir çox tədqiqat layihələri ilə müəyyən edilən ƏOŞ-ların səyahət xüsusiyyətləri Avropa ölkələri ilə oxşardır. Oxşarlıq, gündəlik hərəkətlilik və digər səyahət xüsusiyyətlərinə aiddir, məsələn, səfərlərin məqsədləri və müvəqqəti paylanması.

Günümüzdə sadəcə peşəkar idman xidmətlərinin 150 milyard dollara çatdığı, idman avadanlıqları, lisenziyalı məhsullar, sağlamlıq və fitnes mərkəzləri kimi sahələrə birgə isə idman sənayesinin ümumi dəyəri təxminən 700 milyard dollardır. Hətta sponsorluq, yayım hüquqları, reklam qanuni və qeyri qanunu mərcləri nəzərə alsaq bu məbləğ gözlənilməz dərəcədə böyük ola bilər. Hətta idman sənayesinin çatdığı bu rəqəmlər 150 ölkənin milli gəlirlərindən daha çox gəlirə sahibdir. Hətta hesabatlara əsasən (2) 2018/2019 mövsümündə əvvəlki ilə çatan 20 klubun gəlirlərinin cəmi əvvəlki ilə nisbətən 11% artaraq 9,3 milyard avroya çatıb. Barselona 840 milyon avro, ilk üçlükdə Real Madrid 757 milyon avro, Mançester Yunayted 711 milyon avro olub. Qlobal idman bazarı CAGR (illik birləşdirilmişdir) tədqiqat firması Kearney 2019 məlumatlarına görəartım tempi) 5,9%, dəyəri 480-620 milyard dollar arasındadır. Bura infrastruktur tikintisi investisiyaları, idman avadanlıqları, lisenziyalı məhsullar və canlı yayım gəlirləri də daxildir. Braziliya, Rusiya, Hindistan və Çin kimi sürətlə inkişaf edən iqtisadiyyatlarda, Avropa və Şimalda Amerikada daha yetkin bazarlarda idman sənayesinin ümumi daxili məhsulundan daha sürətli artdığı göstərilmişdir. Biznes İdman Şirkətinin İdman Qlobal Bazar İmkanları və Strategiyalar 2022 Hesabatına görə, qlobal idman bazarının dəyəri 2022-ci ilə qədər illik olacaq. Onun təxminən 6% artaraq 614 milyard dollara çatacağı gözlənilirdi. 2020-ci ilin mart ayında Amsterdamda UEFA-nın 44-cü Adi Konqresində 2018-19 mövsümü üçün əvvəlki ilə nisbətən 38% artım göstərdi. Birlikdə cəmi 3,86 milyard avro gəlir açıqlandı [3]. Ancaq bu təsvir edilmişdir ki, rəqəmlər epidemiyanın dünya idmanına təsiri nəzərə alınmadan hazırlanan məlumatlara əsaslanır. və bu məlumatları nəzərə alsaq, ölkələrin idman sistemlərinin böyük dağıntıya məruz qalacağı gözlənilirdi. eyd etmək lazımdır ki, gəlirlər nə qədər çox olarsa, itkilər də bir o qədər çox olardı.

Ümumimilikdə, idman məhsullarının satılması 1960-cı illərdən etibarən geniş miqyasda vüsət almış və böyümüşdür. Məhz bunlardan sonra idman turizmi iqtisadiyyatın önəmli və elit sahəsi olaraq formalaşmağa başlamışdır. [4]

Olimpiya oyunlarını təşkil etmək üzərə namizədliyini elan edən ölkələrin namizədlik müddətindən başlayaraq tanıtım, yenidənqurma və infrastruktur işlərinə önəm verməsi vacibdir.

Müasir Olimpiya oyunları 1896-cı il yaydan etibarən başlamışdır. Beynəlxalq idman yarışları adətən iqtisadi cəhətdən ən inkişaf etmiş şəhərlərdə keçirilir. Az öncə qeyd etdiyimiz kimi, adətən beynəlxalq dərəcəli önəmli yarışlar məhz inkişaf etmiş ölkələrəd təşkil olunur. Buna səbəb kimi ev sahibliyi edəcək ölkələrin həm də ölkəyə gələn turistərin qarşılanması, gecələməsi və onların təhlüksizliyinə nəzarət edə bilməsi üçün olan öhdəlikləridir. Belə ki, ev sahibliyi edən ölkələr maksiumum dərəcədə öncədən iştirak edən idmançıların və işçi heyətin təhkükəsizliyini qoruya bilməli, onları siyasi, irqi və s ayrıseçkiliyə görə problem yaşamalarına mane olmalıdırlar. Bundan əlavə oyunların keçirilməsi üçün biz bilir ki, stadionlar, yollar, infrastrukturlar maksiumum yüksək səviyyədə olmalıdır ki, bu da xeyli sayda investisiya tələb etmiş olur. Məhz bu səbəbdən yüksək və xüsusi əhəmiyyətli beynəlxalq idman yarışları məhz inkişaf

etmiş ölkələrdə keçirilir. Lakin, oyunlar keçirən ölkələr bəzən oyunun keçiriləcəyi destinasiyaları mərkəzdən kənar ərazilərdə təyin edərək, mərkəzdən kənara da turistlərin diqqətini cəlb etmək, destinasiyanın tanıtımında beynəlxalq səviyyədə nail olmaq və bura gələn turistlərlə yanaşı, eyni zamanda milyardlarla canlı yayımı izləyən izləyicilərin də dolayı yolla izləməsinə vəsilə olmaq və ölkəyə gələn turistlərin mərkəzə də gələcəyini düşünərək, onların hər iki destinasiyada pul xərcləmələrinə səbəb olurlar. Bu təcrübəni yaşamış qonşu ölkəmiz Türkiyə 1994-cü ildə Antalyada keçirilən Dünya Kuboku çempionatı və 1996 cı ildə təşkil edilən Olimpiya oyunlarından sonra xeyli sayda turist cəlb etmiş və eyni zamanda dünyanın bu əraziyə həm də turistik bir destinasiya kimi qəbul etməsinə, tanımasına müvəffəq olmuş oldu ki, sonrakı illərdə məhz bu səbəbdən Antalyaya gələn turist sayında və statistikasında mühüm müsbət dəyişiklik yaşanmış oldu və bölgə turizm destinasiyası kimi özünü beynəlxalq müstəvidə təsdiq etmiş oldu.

İdman və siyasət isə daim, əzəldən beynəlxalq ittifaqların və birliklərin qurulduğu dövrdən bu yana həmişə bi birindən uzaq tutulmağa çalışılsa da, bir çox ölklələrdə idman turizmi məhz daxili siyasətdə xüsusi çəki tutur. Hətta bəzi ölkələrdə siyasi prorseslə birbaşa oalraq idman tədbirlərinin köməyi ilə həyata keçirilir. İdaman turizmi həm də sülh keşikçisi hesab oluna bilər. Müharibə şəraitində olan ölkələrdə belə idman yarışlarının keçirilməsi üçün xüsusi şəraitin yaradılması idmanın dünyada sülhü qoruyan sahələrdən birinin də olmasının bariz nümunəsidir. Buna ən bariz nümunə olaraq, Bakıda keçirilən Bakı 2015 Birinci Avropa Oyunları zamanı 91 kq üzrə boks idman yarışı üzrə gümüş medal mükafatçısı Ukrayna təmsilçisi, erməni əsilli Gevorg Manukiana medalın ölkə başçısı İlham Əliyevin medalı şəxsən təqdim etməsini göstərmək olardı. Belə ki, bu sonradan çox böyük rezonansa səbəb olmuş və eyni zamanda Azərbaycanın necə tolerant ölkə olması haqda fikirləri beynəlxalq arenada göstərmiş və əslində bu cür addımın sərgilənməsi eyni zamanda ölkənin sürdürdüyü siyasətin də bir növ bariz nümunəsi olmuşdur. Bu isə bir daha göstərir ki, idman turizmi təkcə idman sahəsinə deyil, bununla yanaşı iqtisadiyyata , ölkə mədəniyyətinə, ölkə siyasətinə, ölkə turizminə, beynəlxalq arenada tanıtımına vəsilə olmuş olmuşdur.

Qısacası, idman turizminin müsbət təsirlərini aşağıda göstərmək mümkündür:

**İqtisadi təsirləri**

- ❖ Ölkəyə xeyli sayda valyuta daxil olmasına səbəb olur;
- ❖ Ölkədə məşğulluq səviyyəsini artırmış olur;
- ❖ Regiona yatırılan investisiyalarda artım müşahidə olunur;
- ❖ Yeni iş yerlərinin açılmasına səbəb olur və s.

**Siyasi təsirləri**

- ❖ yerli orqanların fəaliyyətini artırırması;
- ❖ idman təşkilatları ölkəyə cəlb olunur;
- ❖ ölkə siyasəti haqqında kənardakı mənfi düşüncələrin dəyişilməsinə səbəb olur;
- ❖ ölkənin beynəlxalq müstəvidə tanınması;
- ❖ viza rejiminin sadələşdirilməsi, bəzən hətta qaldırılması

**Sosial-mədəni təsirləri**

- ❖ idman turizmi yerli əhalinin öz mədəniyyətini təbliğ etmək üçün bir araya gəlməsi iləonların milli və ictimai ruhunun güclənməsinə səbəb olar;
- ❖ müxtəlif ölkələrdə yaşayan inanlar və onların mədəniyyətləri ilə tanış olmaq istəyən turistlər üçün vasitə rolunu oynaya bilər;
- ❖ mədəni ənənələrin bərpasını və qorunmasını təşviq edə bilər;

**Ekoloji təsirləri**

- ❖ boş ərazilərin dəyərləndirilməsi;
- ❖ insanları ətarf mühitə qarşı diqqətli olmağa və onu qorumağa sövq etdirmək;
- ❖ ekoloji təsirləri azaltmaq istiqamətində xüsusi islahatların aparılması və məlumatlandırılması;
- ❖ ərazilərin landşaftının yaxşılaşdırlılması və s.

Burdan da görünür ki, ümummilli lideri Heydər Əliyevin həyata keçirdiyi yekdil siyasət nəticəsində Azərbaycan öz müstəqilliyinin bərpasından dərhal sonra, qısa müddət ərzində Azərbaycanın ölkə iqtisadiyyatının sosial inkişafı və dünya iqtisadiyyatına inteqrasiya mərhələsində çox önəmli nailliyyətlər olmuş və intibah yaşanmışdır. Və təsadüfü deyil ki, qeyri neft sektorunun önəmli ahələrindən biri də məhz turzimdir. Nə qədər aparıcı sektorumuzu məhz neft sektoru tutsa da, son illərdə neftin qiymətinin dəyişə

bilər olması və bəzən sürətlə aşağı düşə bilər olması onu göstərdi ki, qeyrineft sektorunun inkişaf etdirilmıəsi ehtiyac duyulan və çox vacib məslələrdən biridir. Və təsadüfi deyil ki, məhz ölkə başçımız İlham Əliyevin siyasəti nəticəsində qeyri-neft sənayesində artım olmuşdur (6)

Azərbaycan öz iqtisadiyyatında neft gəlirlərinin qeyri-neft sektoruna yönləndirilməsi istiqamətində çox böyük uğurlara nail olub. Belə ki, 2021-ci ildə Azərbaycanın qeyri-neft artımı 20 faiz təşkil edib ki, bu da müstəqillik tarixinin ən yüksək göstəricisidir.Qeyri-neft iqtisadiyyatında artım tempi 7,2 faiz təşkil edib. Qeyri-neft sənayesi təxminən 20 faiz artıb. 2021-ci ildə dünya ticarətinin 10,8 faiz həcmində artımı proqnozlaşdırıldığı halda, Azərbaycanın qeyri-neft ixracı 47,2 faiz artıb. Qeyri-neft ixracının bu cür artımı rekord göstəricidir.

Bu gün ümummili liderimiz, dahi Heydər Əliyevin siyasətini layiqincə davam etdirien qalib sərkərdəmiz İlham Əliyevin də bu sahəyə xüsusi diqqət ayırması nəticəsində idman turizmi ölkəmizdə artıq özünü təsdiqləmiş bir sahəyə çevrilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ç.G.Gülalıyev, İ.İ.Mədətov, B.Ə.Bilalov, G.Ç.Bayramova, İdman turizmi Bakı 2018, səh 10
2. Deloitte Football Money League 2020
3. Devecioğlu, 2020
4. İnce, Mustafa. “Spor ile siyasetin ilişkisi üzerine bir analiz: Sporu siyasete alet etmek”. Karabük Üniversitesi Sosyal Bilimler Enstitüsü dergisi, 2016, 6-cı say, 456-464.
5. Qurbanov P.Ə, HüseynovaŞ.H. Turizm iqtisadiyyatı, səh 24-25
6. https://www.azerbaijans.com/content_1671_az.html

**Kənan Mirağa oğlu Həbibli**
Turizm və otelçilik üzrə magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: hebibli.kenan@gmail.com

## MEHMANXANA BİZNESİNDƏ TƏŞKİLATİ DAVRANIŞIN QANUNAUYĞUNLUQLARI

**Xülasə**

Müasir bir təşkilatda baş verən proseslərdə təşkilati davranışın rolunu və yerini öyrənərək, ilk növbədə təşkilati davranışın mahiyyətinin nə olduğunu aydın şəkildə başa düşmək lazımdır. Təşkilati davranış, təşkilat üzvlərinin zaman içərisində yaratdıqları ənənələr, anlayışlar və normalar toplusu olaraq tərif edilməkdədir. Başqa bir ifadə ilə təşkilati mədəniyyət, təşkilatın həyat dövrü içərisində formalaşmış, işçilərin davranışlarını istiqamətləndirən normalar, dəyərlər, inanclar və vərdişlər sistemidir. Bu sistem təşkilat üçün bir şəxsilik formalaşdırır və təşkılatların effektiv və səmərərli işləyərək hədəflərinə və məqsədlərinə çatmalarına köməklik edir.

Bir başqa tərifə görə, təşkilati davranış mədəniyyəti, təşkilati davranış formları, simvollar və simvolik hərəkətlər vasitəsi ilə dəqiqlik qazanan, təşkilat üzvlərinin vərdiş, davranış və qərarlarını formaya salan ortaq dəyər, inanc və normalar toplusudur. 1970-ci illərdən insan resursları anlayışının ortaya çıxması, insan təbiəti ilə əlaqədar fərqli fərziyyələrin irəli sürülməsinə gətirib çıxarmışdır. 1981-ci ildə Villiam Ouchi, yazdığı Z nəzəriyyəsi kitabı ilə təşkilati davranış mədəniyyətinin təməlini qoymağa başlamışdır. Ümumiyyətlə mehmanxana xidməti qonaq və otel işçiləri arasında mütəşəkkil qarşılıqlı əlaqədir və bütün müddət ərzində qonağa davamlı təsir göstərir. Bu məhsul yalnız qonağın qaldığı müddətdə mövcuddur və bu müddət ərzində qonaqla otel arasında daimi dialoq olur, onu proqramlaşdırmaq və ya müəyyən standart və ya xidmət alqoritmi yaratmaq mümkün deyil. Beləliklə, turizm və qonaqpərvərlik sənayesi geniş xidmət bazarının ən mühüm hissələrindən biridir və dünyanın davamlı sosial-iqtisadi inkişafı üçün şəraitin formalaşmasına birbaşa və dolayısı ilə təsir göstərə bilən sürətlə inkişaf edən və yüksək gəlirli sənayedir.

**Açar sözlər:** Mehmanxana, təşkilat, şöbə, idarəetmə, personal, davranış, turizm, menecer

Fikrimcə, bütün təşkilati prosesləri funksional proseslərə və inkişaf proseslərinə bölmək olar. Belə bir dixotomiya bizi təşkilati davranışın mahiyyətinə və onun təşkilatın həyatında və bazar fəaliyyətindəki

roluna yeni bir nəzər salmağa məcbur edir: bu, təşkilata nəinki öz funksiyalarını səriştəli və aydın şəkildə yerinə yetirməyə imkan verir, həm də sabitliyi təmin etməyə imkan verir.

Turizm sənayesini ələ aldıqda təşkilati davranışın norma və prinsiplərinin daha qabarıq şəkildə tətbiq olunduğunu görürük. Bu proses turizm müəssisələrində- işçi heyyəti arasında korporativ mədəniyyətin formalaşmasında, həm də istehlakçıya qarşı etiket normalarının istifadəsində öz əksini tapmaqdadır.

Turizm fəaliyyətində düzgün olmayan davranış və ya pis davranış nəticəsində nəinki pul itirilir, hətta istedadlı işçilərin karyerası da məhv olur. Kobud kompliment, sınmış düymə, yanıb-sönən işıq, səhvi olan vizit kartı, əzilmiş sənəd və ya yersiz "təşəkkür edirəm" dərhal işçinin peşəkarlığının üstündən xətt çəkə bilər, müştərini ayağa qalxıb getməyə vadar edə bilər və ya hətta şikayət etməyə məcbur edə bilər. Bir turizm müəssisəsinin işçisi üçün etiketdən xəbərsiz olmaq, həm həmkarları tərəfindən hörmətin itirilməsinə, həm də əmək haqqının itirilməsinə, hətta kimin və necə olmasından asılı olaraq işdən qovulmağa başa gələ bilər.

Bundan əlavə sözü gedən müəssisələrdə, təşkilat işçilərinin davranışı aşağıdakı amillərdən təsirlənir:

- rəsmi vəzifələrlə müəyyən edilən şəxsi və rəsmi ola bilən ünsiyyət dairəsi;
- rol, yəni fərdi psixoloji xüsusiyyətlərinə və sosial iyerarxiyadakı yerinə uyğun olaraq bir insandan gözlənilən hərəkətlər toplusu. Rol davranışı, öz növbəsində, fərdin xarakterindən, onun rolunu şərhindən və insanın imkan və istəklərinə uyğunluğundan təsirlənir;
- subyektin şəxsiyyətinin və onun statusunu, habelə sosial münasibətlər sistemində gözlənilən və real yeri müəyyən edən rolunun başqaları tərəfindən qiymətləndirilməsi.

Bir insanın təşkilatda davranışını tənzimləmək imkanı var: bir tərəfdən o, təşkilatda mövcud olan davranış formalarını və normalarını qəbul etməkdə və ya qəbul etməməkdə sərbəstdir, digər tərəfdən, o, təşkilatda mövcud olan davranış formalarını və normalarını qəbul edə və ya qəbul etməyə bilər.

Davranışın bu əsas komponentlərinin necə birləşdirildiyindən asılı olaraq, təşkilatda insan davranışının dörd növünü ayırd etmək olar:

Birinci davranış növü - fədakar və intizamlı bir işçi - bir insanın təşkilatın dəyərlərini və davranış normalarını tam şəkildə qəbul etməsi, davranış qaydalarına zidd olmayan şəkildə davranmağa çalışması ilə xarakterizə olunur.

İkinci davranış növü - "opportunist" - bir insanın təşkilatın dəyərlərini qəbul etməməsi, lakin təşkilatda qəbul edilmiş davranış normalarına uyğun davranmağa çalışması ilə xarakterizə olunur. O, hər şeyi qaydalara uyğun edir, lakin o, etibarlı işçi sayıla bilməz, çünki o, istənilən vaxt təşkilatı tərk edə və ya onun maraqlarına zidd, lakin özünə uyğun hərəkətlər edə bilər.

Üçüncü davranış növü - "orijinal" - bir insanın təşkilatın dəyərlərini qəbul etməsi, lakin orada mövcud olan davranış normalarını qəbul etməməsi ilə xarakterizə olunur. Bir şirkət xüsusilə dəyərli bir işçiyə münasibətdə müəyyən edilmiş davranış normalarından imtina edə və ona davranış formalarını seçmək azadlığı verə bilsə, o, öz yerini tapa, iş mühitinə uğurla uyğunlaşa və təşkilat üçün faydalı ola bilər.

Dördüncü davranış növü - "üsyançı" - insanın nə davranış normalarını, nə də təşkilatın dəyərlərini qəbul etməməsi, hər zaman ətraf mühitlə ziddiyyət təşkil etməsi və münaqişə vəziyyətləri yaratması ilə xarakterizə olunur. Əksər hallarda "üsyançılar" təşkilatın həyatını əhəmiyyətli dərəcədə çətinləşdirən və hətta ona böyük ziyan vuran bir çox problemlər yaradırlar.

Turizm sənayesindəki kadrlar təşkilatın rəqabət üstünlüklərinin əsas resurslarından biridir və buna görə də turizm təşkilatlarında xidmətin keyfiyyəti onların işçilərinin bacarıq və şüurundan asılıdır. Xidmət sektorunda müştəri məmnuniyyəti həm də personalın nəzakəti və onların həssaslığı ilə əldə edilir. Bu da insanların səmərəli idarə edilməsi turizm təşkilatının ən vacib funksiyalarından birinə - Personalın idarə edilməsi funksiyasına çevrilir.

İdarəetmə nəzəriyyəsində insanların ictimai istehsalda iştirakını əks etdirən çoxlu sayda terminlərdən istifadə olunur: əmək resursları, insan resursları, insan amili, təşkilati davranış, əməyin təşkili, kadrların idarə edilməsi, kadr siyasəti, korporativ mədəniyyət və s.

Əslində, "korporativ mədəniyyət" anlayışı çox mürəkkəb və çoxşaxəlidir. O, bir-birini tamamlayan və şirkətin uğurlu fəaliyyətinin əsasını təşkil edən bir çox qarşılıqlı əlaqəli elementləri ehtiva edir.

Korporativ mədəniyyət təşkilat üzvləri tərəfindən paylaşılan ideyalar, münasibətlər, fundamental dəyərlərdən ibarətdir. Dəyərlər həm davranış tərzini, həm də həmkarları və müştəriləri ilə ünsiyyət tərzini, motivasiya səviyyəsini və işçilərin fəaliyyətini müəyyən edir. Buna görə də, korporativ mədəniyyət üçün yalnız müəyyən xarici əlamətlər toplusunu, məsələn, uniforma, markalı zərflər və sair götürmək mümkün deyil.

Mədəniyyət təşkilatdakı insanlara davranış standartlarını təmin etməklə mənalı hərəkət etməyə kömək edir. Riskin qiymətləndirildiyi şirkətlərdə insan uğursuzluq halında cəzalandırılmayacağını və uğursuzluqdan gələcəyə ibrət dərslərinin olacağını bilərək bunu qəbul edir. Bu şəkildə əsaslandırılan hərəkətlər mövcud davranışı gücləndirir, xüsusən də vəziyyətə uyğunlaşdıqda. Bu proses mədəniyyətin özünü dəyişdirmək üçün vəsait mənbəyidir. İnsanlar davranışı əsaslandırmaq üçün mədəniyyətdən istifadə etdikləri üçün davranış dəyişikliyi ilə mədəniyyəti dəyişmək mümkündür. Lakin bu prosesin uğur qazanması üçün təşkilatın orta səviyyədə güclü mədəniyyəti olmalıdır. Axı, yalnız belə bir mədəniyyət ən az vaxtla yeni davranış tərzinin yaradılmasını təmin edə bilər.

Təşkilatın formalaşmasının ilk mərhələsində otelin sahibinin və ya top menecmentinin həyat fəlsəfəsindən və əvvəlki praktik təcrübəsindən asılı olaraq korporativ mədəniyyətin əsası qoyulursa, korporativ mədəniyyət müxtəlif amillərin təsiri altında dəyişir. Böyümə və yavaşlama mərhələlərində korporativ mədəniyyət təşkilatda mövcud olan və heyət üçün müvafiq təcrübə formalaşdıran adət və prosedurlarla dəstəklənir. Bir çox HR prosedurları korporativ mədəniyyəti gücləndirir. Bunlara aşağıdakılar daxildir: işə qəbul prosesi, performansın qiymətləndirilməsi meyarları, mükafat sistemi, təlim və karyeranın idarə edilməsi, karyera yüksəlişi. Bütün bu prosedurlar bu təşkilatçılıq mədəniyyətinə uyğun gələnlərin saxlanmasına, uyğun gəlməyənlərin isə işdən çıxarılmasına qədər cəzalandırılmasına yönəlib.

Təcrübədə korporativ mədəniyyətin formalaşması fəaliyyətinin yuxarıda göstərilən iki mərhələsi təfərrüatlı şəkildə təsvir oluna bilər və daha çox sayda mərhələlər formalaşdırıla bilər, məsələn, aşağıdakılar vurğulanır:

- təşkilatın missiyasının, əsas dəyərlərinin müəyyən edilməsi;
- təşkilat üzvləri üçün davranış standartlarının, korporativ kodeksin formalaşdırılması;
- təşkilatın ənənələrinin formalaşması;
- brendinqin inkişafı.

Beləliklə, müəssisənin təşkilati davranış korporativ mədəniyyətinin formalaşmasına və saxlanmasına təsir edən aşağıdakı əsas amilləri ayırd edə bilərik: sahiblərin və ya biznes liderlərinin şəxsiyyəti, onların həyat dəyərləri, otelin fəaliyyətinin təşkili forması (şəbəkə və ya müstəqil), xidmət texnologiyalarının xüsusiyyətləri (xidmət standartları), norma və tələblər mühiti (rəqiblərin davranışı, bazar şəraiti), təşkilatın inkişaf mərhələsi və s. Bu amillər, öz növbəsində, təşkilatın missiya və məqsədlərini, onun ənənələri, normaları və davranış qaydaları olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://medeniyyet.az/page/news/7588/Turizm-davranis-kodeksine-nece-riayet-olunur-.html?lang=ru
2. https://turizmplus.az/posts/turizmde-bes-muhum-davranis-qaydasi-yeni-sayt
3. https://tourism.gov.az/uploads/documents/dovl%C9%99t_turizm_agentliyi_-etik_qaydalar
4. https://arrow-tv.ru/az/success/upravlenie-personalom-v-turizme-lekcii-metody-upravleniya/
5. https://olimprem.ru/az/osnovnye-funkcii-menedzhmenta-v-gostinichnoi-sfere-teoriya-i-praktika-vidy.html

**Asif Abuzər oğlu Həsənov**
İqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: asif_hasanov@rambler.ru

## İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASINDA İNNOVASİYA SİYASƏTİNİN ROLU

Məlum həqiqətdir ki, innovasiya siyasətinin səmərəli reallaşdırılması və bu istiqamətdə tədbirlərin əlaqələndirilməsi istənilən ölkə iqtisadiyyatı üçün investisiya cəlbediciliyi baxımından xüsusilə əhəmiyyət kəsb edir.

Eyni zamanda, innovasiyaların ölkəyə gətirilməsi yeni iqtisadi perspektivləri, müasir biznes ekosistemini, yeni rəqabətqabiliyyətli məhsul və xidmətlərin yaradılmasını ehtiva etməklə ölkədə dövlət və özəl sektorun əməkdaşlığını təşviq edir.

Bu baxımdan da yuxarıda qeyd edilən istiqamətlər üzrə ölkəmizdə mövcud vəziyyətin qiymətləndirilməsi və müsbət beynəlxalq təcrübənin tətbiqi sahəsində mümükün imkanları müəyyən etmək tədqiqatın əsasını təşkil etmişdir.

Bununla əlaqədar olaraq, aparılan araşdırmalar ölkəmizdə innovasiyanın inkişafını ləngidən aşağıdakı amillərin bilavasitə və ya dolayı təsirinin mövcudluğunu söyləməyə əsas verir:

1) Müvafiq qanunvericilikdə boşluqlar;
2) Vergitutma, gömrük sistemində fəaliyyəti məhdudlaşdıran bəzi tətbiqlər;
3) Maliyyə əlçatanlığının olmaması;
4) Ölkədə təhsil elmdən ayrıldığından "triplehelix" modelinin hələ də tam formalaşmaması;
5) Elmin kommersiyalaşmaması;
6) Yüksək ixtisaslı kadrların çatışmazlığı.

Bir sözlə, ölkəmizdə innovativ iqtisadiyyatın formalaşdırılması və dayanıqlı inkişafı üçün qanunvericiliyin təkmilləşdirilməsinin, infrastrukturun inkişaf etdirilməsi, şəffaf inzibati tənzimləmə və effektiv dövlət dəstəyi mexanizmlərinin yaradılması istiqamətlərində sistemli tədbirlərin həyata keçirilməsi zərurəti mövcuddur. Mövcud real vəziyyətin təhlili və bu istiqamətdə müsbət beynəlxalq təcrübəni əsas götürərək mümkün effektiv, səmərəli və məqsədyönlü tədbirlərin reallaşdırılması tədqiqatın nəticəsi kimi nəzərə alınmışdır:

Azərbaycanda sahibkarların elmi tədqiqatlara və innovativ startaplara investisiyaları artırmaq məqsədilə onların elmi-tədqiqatlara çəkilən xərclərini dövlət daha yuxarı əmsallarla hesablamaqla gəlir vergisində endirimlər tətbiq edə bilər. Məsələn, Çin (150%), İngiltərə (150%) və BƏƏ (150-300%) təcrübəsində göründüyü kimi, bu cür stimullaşdırıcı tədbirlər birbaşa real biznesin innovasiyalar və elmi-tədqiqat sahələrinə marağını artırmağa yönəlmişdir.

Elmi tədqiqat sahəsinə çəkilən xərclərin dövlətin razılığı ilə əmsallar əsasında artırılması kiçik, orta və hətta böyük özəl şirkətlərin innovasiya sahəsinə istiqamətləndirilən investisiyaları prioritet olaraq tutacaq, planlaşdırma prosesində ciddi olaraq nəzərə almaqlarını stimullaşdıracaqdır.

Özəl şirkətlər mənfəət yönümlü olduğundan (profitdriven) bu süni xərc artımı şirkətlərin vergi öhdəliklərini azaldacaqdır. Belə bir mexanizmlə, dövlət özəl sektoru elmi-tədqiqat və innovasiyalara sərmayə qoymağa vadar edərək ölkə iqtisadiyyatının və birbaşa şirkətlərin innovasiya səviyyəsini qaldıracaqdır.

Təcrübədə bacarıqlı işçiləri tədqiqat layihələrində iştiraka təşviq etmək üçün dövlətlər bu cür fəaliyyətlərdə iştirak edən şəxslərin şəxsi gəlirlərini, sosial təminatlarını və korporativ gəlir vergisi dərəcələrini azaltmaqla tədqiqat rollarının cəlbediciliyini artırmaq üçün səy göstərirlər. Məsələn, Belçikada işəgötürən qurum elmi-tədqiqat sahəsində işləyən və ixtisas dərəcəsi olan işçilərindən tutduğu verginin 80%-ni geri qaytarır. Beləliklə də, işçilərə vergi yükünün qaldırılması yüksək ixtisaslı texniki işçiləri şirkətlərdə işləməyə təşviq edəcək, informasiya texnologiyaları sektorunda daha dərindən iştiraka təkan verəcəkdir. Bu, innovasiya ilə məşğul olan şirkətlərə dünya səviyyəli istedadları cəlb etməyə və saxlamağa imkan verəcəkdir. Hal-hazırda patentlərin çoxu əqli mülkiyyət hüquqlarının yaxşı qorunduğu ölkələrdə patentləşdirilir (ABŞ, BK) və nəticədə həmin ölkələrin innovasiya indeksləri də başqalarına nisbətən yüksək olur.

Son zamanlar bir çox ölkələr müraciət prosesini asanlaşdıran, işləmə müddətini və viza müddətini artıran müəyyən güzəştlərə gedərək yüksək təhsilli və keyfiyyətli xarici mütəxəssisləri öz iqtisadiyyatlarına qazandırma tendensiyaları müşahidə olunur. Başqa sözlə, fərqli standartlar altında nəzarət edilən iş vizalarını və ya icazələrini təklif edir.

Özəl sektorun IT, mühəndislik və səhiyyə kimi prioritet sahələrə yüksək bilikli və təcrübəyə malik keyfiyyətli xarici mütəxəsisləri cəlb edə bilməsi üçün xərclərinin azaldılması və prosedurlarının asanlaşdırılmasıdır. Bunun ən uğurlu nümunəsi Avropa ölkələrindən Almaniya, Fransa və İngiltərədə mövcuddur.

Hal-hazırda ölkəmizdəki mövcud viza proseslərinin müxtəsərliyi yüksək keyfiyyətli texniki biliyə və təcrübəyə malik olan xarici vətəndaşları ölkədə iş tapmaqda demotivasiya edir və dəyərli xariçi kadrların iş imkanlarını məhdudlaşdırır. Yüksək dərəcəli xarici kadrların viza almaq prosesi rasional və rahat olmalıdır. Məsələn, qonşu ölkələrdən Gürcüstan nümunəsindən görülə bilər ki, xarici kadrların cəlb

edilməsiylə daxili bazarda formalaşan kadr rəqabəti biznes mühitini inişaf etdirir, biznes sektorunun innovativliyini artırır və daxili bazarda yüksək ixtisaslı kadrların formalaşmasını stimullaşdırır.

Digər tərəfdən qeyd etmək olar ki, "Brain-drain"in qarşısını almaq əvəzinə, ölkə iqtisadiyyatını cəlbedici, xarici kadr və investisiyalara əl çatan hala gətirməklə yerli kadrların itkisinin də qarşısını almaq mümkündür.

Dünya təcrübəsində startapların və innovativ layihərin müşahidə olunan əsas üç uğur faktorlarından biri ağıllı maliyyələşmədir (smartmoney). Qlobal miqyasda rəqabətin çox kəskin olduğu startap mühitində layihələr artıq ancaq maliyyələşmə ilə uğur qazana bilmir. Maliyyələşlamənin yanında digər uğur faktorları: potensial ilkin bazarın müəyyən edilməsi və düzgün iş bölgüsü təyin edilmiş layihə komandasının formalaşdırılmasıdır. Lakin son iki faktorun olduğu təqdirdə belə, respublikada beynəlxalq rəqabətə uyğun maliyyələşmə mənbəələri yox deyəcək səviyyədədir.

Hal-hazırda qlobal ekosistemdə startapların uğur ehtimalı 10 faiz civarındadır. Bu nəticə yüksək görünməsə də, faktiki olaraq bütün startapların reallaşdırılmasına çəkilən xərclər ancaq 1-2 faizin uğuru hesabına artıqlaması ilə geri qayıdır. Lakin, bu prosesin maliyyə təminatının beynəlxalq standartlarda və ilkin mərhələdə xarici Vençur Fondlar ilə birgə həyata keçirilməsi məqsədəuyğun olardı.

Dövlətin yaradacağı Fondlar Fondu (Fund of Funds) ilə iqtisadiyyata xarici investisiyaları dövlət-özəl tərəfdaşlığı çərçivəsində cəlb etmək imkanı yaradaraq, ölkədə Vençur Fondlarının və onların menecerlerinin inkişafına da təkan verilə bilər (İsrail təcrübəsi).

Beləliklə, sürətlə inkişaf edən startap ekosisteminin rəqabət mühitinə adaptasiya prosesi olaraq sabahın tendensiyalarına uyğun innovativ layihələrin həyata keçirilməsinə və inkişaf etdirilməsinə dəstək verə biləcək təcrübəli fondları və menecerləri respublikada fəaliyyətə cəlb edə bilmək vacib amildir.

Ofset proqramları, ənənəvi olaraq böyük müdafiə və ya infrastruktur layihələri nəticəsində müqavilə dəyərinin bir hissəsini "əvəzləşdirmək" tələb olunduğu investisiya proqramlarıdır. Tələblər satın alan hökumətlər tərəfindən milli siyasətə uyğun olaraq qoyulur. Böyük dövlət müqavilələri üzrə yenidən investisiya tələbləri texnologiya və təcrübə ötürülməsi yolu ilə daxili İnformasiya Kommunikasiya Texnalogiyaları (İKT) imkanlarını və bazarları inkişaf etdirir. Ofsetlər hökumətin müdafiə və texnologiya infrastrukturuna xərcləməsindən istifadə edərək inkişafın son dərəcə güclü olduğunu sübut etdi. Gözlənilən xərclər, İKT sektoruna kömək üçün əvəzolunmaz bir vasitədir. 1985-ci ildə Boeing, Sülh Qalxanı qurğusuna əsaslanan hava hücumundan müdafiə sisteminin Səudiyyə Ərəbistanına satılması ilə bağlı ofset öhdəliklərini yerinə yetirmək üçün Boeing Sənaye Texnologiyaları Qrupu yaratdı. Bu qurum vasitəsilə Boeing bölgədəki təhsil və təlim proqramlarında iştirak etmiş və Səudiyyə Ərəbistanının Baş İnvestisiya Təşkilatı və Krallığın bir çox digər iqtisadi inkişaf qurumları ilə tərəfdaşlıq etmişdir. Zaman keçdikcə Boeing bölgədəki iş əlaqələrini dərinləşdirmiş, F-15 qırıcıları və AH-64 Apache helikopterləri, müvafiq yenilənmələr və təminat paketləri ilə birlikdə Səudiyyə Müdafiə Nazirliyinə satmışdır.

Hökumət hüquqi bazanı inkişaf etdirməyə və əqli mülkiyyətin tətbiqini gücləndirməyə davam etməli və vətəndaşları arasında əqli mülkiyyətə (ƏM) hörmət mədəniyyətini aşılamalıdır. Azərbaycanın güclü ƏM rejimini tətbiq etmək niyyətində olması bir sıra şirkətlərə çox pozitiv siqnallar göndərəcək. Güclü əqli mülkiyyət sistemləri investorların inamını kəskin dərəcədə artırır və bilik tələb edən sahələrin böyüməsini təşviq edir (ABŞ təcrübəsi).

Güclü IP sistemləri investorlara inamı kəskin dərəcədə artırır və bilik tələb edən sahələrin böyüməsini təşviq edir. Ölkə əqli mülkiyyətə hörmətini və əqli mülkiyyət sahiblərinin hüquqlarını qorumaq və müdafiə etmək öhdəliyini vurğulamağa davam etməlidir.

Prioritet sahələrin sürətli inkişafını təmin etmək məqsədilə bu sektorlarda fəaliyyət göstərən şirkətlərə investisiya qoymaq lazımdır. İqtisadiyyatın hədəf sektorlarına qoyulan sərmayəni sığortalamaq üçün bəzi dövlətlər, inkişaf etmək baxımından xarici layihələrə sərmayə qoyur. Sərmayənin şərtlərindən biri adətən istehsal mərhələsinin bir və ya bütün hissələrini əhatə edən fabrikin sərmayə edən ölkədə açılmasıdır.

Sinqapur vaxtı ilə səhiyyə sektorunda fəaliyyət göstərən Lonza şirkətinə investissiya edib. Əvəzində isə Lonza fabriklərindən birini Singapurda tikməli idi. Hal-hazırda Singapur dunyanın səhiyyə sahəsində olan ən qabaqcıl ölkələrindən biridir.

Müsbət beynəlxalq təcrübə nəzərə alınmaqla, Azərbaycanda elmi-tədqiqat, informasiyanın emalı və yüksək texnoloji istehsal əməliyyatları aparmaq istəyi olan hədəf sektorlarda innovativ xarici şirkətlərin maliyyələşdirilməsi üçün böyük bir investisiya platforması yaratmalıdır.

Yuxarıda qeyd edilən istiqamətləri nəzərə alaraq ölkədə investisiya cəlbediciliyinin daha da yaxşılaşdırılması üçün aşağıdakı təklifləri:

1) Rəqabət, elm, innovasiya, vençur kapitalı və digər önəmli faktorların inkişafı üçün müvafiq qanunvericiliyin olmasını;

2) Güzəştli vergitutma, kreditləşmə sisteminin tətbiq edilməsini;

3) Elm-sənaye-dövlət həlqəsinin səmərəli və effektiv fəaliyyəti təşkil edilərək elm və təhsil mərkəzlərinin özü-özünü maliyyələşdirmə probleminin həllini və büdcədən asılılığın azaldılmasını;

4) Yeni təhsilin formalaşdırılması istiqamətində innovasiya və elm təmayüllü kolleclərin (litseylər) və yeni nəsilə aid universitetlərin yaradılmasını;

5) Universitetlərin akademik bazasının qorunmasını, fundamental tədqiqatların və innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasını;

6) İnnovativ təhsil sisteminin inkişafı baxımından yüksək ixtisaslı kadrların hazırlanmasını məqsədəuyğun hesab edirik.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü illər);

2. Akif Musayev "İnnovasiya siyasəti: Avropa birliyi təcrübəsi və Azərbaycan şəraitinə adaptasiya imkanları". Vergi Jurnalı. No.5. 2010;

3. Asif Həsənov "İnnovasiya iqtisadiyyatının inkişafında texnoparkların rolu", akademik Z.Ə.Səmədzadənin anadan olmasının 75 illik yubileyi ilə əlaqədar Beynəlxalq konfrans, Bakı 2016; 4. Asif Həsənov İnvestisiyaların strukturunun yaxşılaşdırılmasına vergi sisteminin təsiri, "Azərbaycan iqtisadiyyatı qlobal dünya iqtisadiyyatında dəyişikliklər dövründə" mövzusunda respublika elmi konfransının materialları, Bakı, Elm, 2019;

5. Асиф Гасанов Инвестирование в зелёную инфраструктуру–путь стратегического развития экономики Азербайджанской Республики. International Scientific Journal Theoretical & Applied Science. Year: 2019, Issue: 04 Volume: 72, Published: 2019;

6. Tayfun Yıldız "Türkiyede teknokentler ve inovasyon". TSE. "Standard" Ekonomik ve Teknik Dergi. No.647. Ekim 2016.

**Ələkbər Ağasəf oğlu Həsənov**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Neft-kimya texnologiyası və sənaye ekologiyası" kafedrasının professoru

**Əfsanə Eldəniz qızı Mehdıxanova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası magistrantı

## ELEKTRON XIDMƏTLƏRIN ÜMUMI TƏSNIFATI VƏ FUNKSIONAL AKSEPTLƏRI

**Açar sözlər:** elektron ödəmə sistemlər, ödəniş sistemləri, kredit sistemləri, elektron ticarət modelləri, elektron təhlükəsizlik.

Yerli və mərkəzi səviyyələrdə dövlətin idarə olunması sistemlərinin və yerli xidmətləri sferasının islahatlaşdırılmasının əsas istiqamətlərindən biri elektron növdə formalaşdırılması və inkişafıdır. Sadalanan proseslər hər bir sistemdəki kimi bir sıra problemlərlə və ya maneələrlə üzləşir. Bu problemlər bu prosesin həyat tsiklinin müddətində daxili və xarici amillər nəticəsində formalaşır.

***I.*** *Eletron xidmətlərdə elektron ödəmə sistemlərinin təsnifatı.*

İnternet yalnız məlumat ötürmə sistemi deyil, həm də elektron ödəmə sistemlərinin funksiyalarını yerinə yetirmə sisteminə çevrilir. İnternetdə bir ödəmə sistemi, şəbəkə vasitəsi ilə mal və xidmət alqı-satqısı zamanı iqtisadi, ticarət qurumları və istifadəçilər arasında hesablaşmaların həyata keçirilməsidir. Sifarişin işlənməsi və ya elektron vitrin sektorunu tamamilə adi xüsusiyyətlərə sahib olan bir real mağazaya dəyişdirməyi mümkün edən bu sistemdir: alıcı evdən çıxmadan (kompüter istifadə edərək) bir ödəmə etmək imkanı qazanır. İnternetdə ödəniş bir neçə şərt yerinə yetirildiyi təqdirdə həyata keçirilə bilər sxem 1.

Yuxarıda göstərilən şərtlərin hamısı İnternetdəki ödəmə sistemlərində yerinə yetirilməlidir . Ödəniş sistemlərinin təsnifatı . Ödəniş sistemləri iki əsas sahəyə bölünə bilər :

1. kredit sistemləri; 2. debet sistemləri.




**Sxem 1. Internetdə ödəniş**

Hər hansı bir hesab idarəetmə sisteminin müştəriləri yalnız banka şəxsi səfəri ilə əvəz etdiyi ortaya çıxır, pul köçürmələri ilə əlaqədar qalan əməliyyatlar bank kanalları vasitəsi ilə həyata keçirilir. Əlbətdə ki, müştəriyə şəxsi səfəri zamanı bankın ödəmə sənədlərini yalnız iş vaxtı qəbul edəcəyi və İnternetdən istifadə edərkən gecə-gündüz qəbul edilə biləcəyi nəzərə alınmalıdır.

Kredit sistemlərinə internet üzərindən bank xidmətləri göstərən sistemlər və kredit kartlarından istifadə edən sistemlər daxildir. Mövcud ödəmə sistemlərinin lider dövləti əvvəlcə kredit kartlarına əsaslanan sistemlər tərəfindən alınır. İnternette ödənişlər üçün kredit kartlarından istifadənin nəticəsi, bu cəmiyyətdəki ödəməyə bənzər bir şəkildə bu ödəniş növünün tanışlığı ilə əlaqələndirilir və İnternetdəki əməliyyatların çoxu, bu günlərdə istifadə olunur birbaşa ödəmə metodunun növü. İnternetdəki debet ödəmə sxemləri iki müstəqil tərəfi əhatə edir: emitentlər və istifadəçilər . Emitent ödəniş sisteminə nəzarət edən qurumdur. Ödəmə vasitəsi olan bəzi elektron vahidləri (məsələn, bank hesablarındakı pullar) verir. Sistem istifadəçiləri iki əsas funksiyaya malikdirlər. Verilən elektron vahidlərdən istifadə edərək İnternet üzərindən ödənişlər edirlər və qəbul edirlər.




**Sxem 2. Bankın ödəmə sənədləri**

Qarşımıza çıxan problemləri biz fərqli əlamətlərə görə təsnifatlaşdıra bilərik. Bu təsnifatlar aşağıdakı kimidir.

1. İdarəetmə maneələri
2. Dövlət idarəçilik alt sistemləri arasında olan qarşılıqlı əlaqələrin zəif olması. Dövlət xidmətlərinin həyata keçirilməsi prosesində İKT-nin tətbiqinin fiziki səviyyələrinin ayrı-ayrı olması.
3. Sosial maneə. Əhali və biznes tərəfindən xarici mühitin yeni texnologiyaların tətbiqinə olan təsir.
4. Təşkili maneə - sənədlərin və metodikaların hazırlanmasında yaranan problemlər.

***II.*** *E lektron xidmətlərdə elektron ticarət modellərinin təsnifatı .*

Elektron ticarət modellərinin təsnifatı aşağıdakı meyarlara əsasən aparılır.

**1.** İşin təşkili forması ilə:

- biznes yaratmaq üçün əsas kimi elektron ticarət;
- elektron ticarət, artıq mövcud olan ənənəvi işin inkişafı üçün əlavə bir vasitədir .

**2.** Məhsulun xüsusiyyətindən, mövzusundan və iş prosesindən asılı olaraq:

- tam e-ticarət
- qismən elektron ticarət

**3.** Ticarət münasibətləri iştirakçılarının tərkibindən asılı olaraq
- B2B - biznesdən biznesə
- işgüzar istehlakçı.
- C2C - istehlakçı - istehlakçı.
- B2G və ya B2A - iş-hökumət.
- C2G və ya C2A - istehlakçı hökuməti.

**4.** İcra olunan funksiyalara görə:
- onlayn mağaza
- virtual auksion
- elektron mübadilə

**5.** Ticarət və texnoloji proseslərin avtomatlaşdırma dərəcəsinə görə:
- İnternet vitrin
- Avtomat
- İnternet ticarət sistemi

**6.** Sayt yaratmaq metodu ilə:
- icarə ən ucuz və asan seçimdir
- hazır həll
- ixtisaslaşmış bir şirkətdən inkişaf sifariş etmək, qeyri-standart tələbləri olan böyük layihələr üçün ən çox istifadə olunan variantlardan biridir;
- təkbaşına bir həll yolu inkişaf etdirmək ən çətin və bahalı metoddur. Yalnız şirkətin proqram məhsullarının hazırlanması üçün bütün lazımi mənbələrə sahib olduğu təqdirdə istifadə olunur (proqramçılar heyəti, sınaqçılar, patent hüquqşünasları, güclü texniki dəstək və s.). Öz həll yollarının inkişafı çox vaxt böyük şirkətlər və ya holdinqlər tərəfindən istifadə olunur.

**7.** Saytın yerləşdiyi yerə görə:
- müəssisə serverində sayt yerləşdirilməsi;
- hosting - bütün lazımi xidmətləri göstərən xüsusi bir şirkətin serverində bir sayt yerləşdirmək.

Təklif olunan təsnifat elektron ticarətin fəaliyyətinin təşkilati, iqtisadi, hüquqi və texniki cəhətlərini əks etdirir və beləliklə müəssisələrin bu sahədəki fəaliyyətinin müxtəlif aspektlərini əhatə edir.

***III.*** *Elektron təhlükəsizlik və siqnal cihazlarının təsnifatı .*

Müasir şəraitdə , təsnifat işarələri sistemi inkişaf etdikcə, yeni, mütərəqqi xidmət növləri təyin edilərək xidmət fəaliyyətləri paylanır. Xidmət sahələrinin modernləşdirilməsi prioritet bir milli vəzifəyə çevrilir və əhali üçün layiqli həyat səviyyəsinin təmin edilməsində və sosial təkrar istehsalın səmərəliliyinin artırılmasında bir amil kimi qəbul edilir . Xidmət sektoru çox müxtəlifliyi , spesifikliyi və fərqli fəaliyyət miqyası ilə seçilir. Müasir iqtisadi elm müxtəlif qruplaşdırmalara uyğun olaraq xidmətlərin paylanmasını aşağıdakı kimi nəzərdən keçirir :

- fəaliyyət sahəsinə görə - maddi və qeyri-maddi xidmətlər;
- təminat xarakterinə görə - ödənişli (bazar) və pulsuz (bazar olmayan);
- təyinatı üzrə - sənaye və istehlakçı;
- istehlakın təbiətinə görə - cəmiyyət üçün xidmətlər, fərdi istehlak üçün xidmətlər, qarışıq istehlak xidmətləri;
- sənaye mənşəyinə görə - idarəetmə, elm, təhsil, mədəniyyət, mənzil-kommunal xidmətlər, istehlakçı xidmətləri, səhiyyə və s.;
- istehsalçılarının mülkiyyət formaları ilə - dövlət, özəl və s.;
- maliyyələşdirmə mənbələri üzrə - büdcə maliyyələşdirilməsi, özünü maliyyələşdirmə , qarışıq maliyyələşdirmə;
- xidmət növlərinə görə - məlumat, nəqliyyat, idman, ticarət;
- ərazi istehlakı üçün - ümumrusiya təşkilatlarının xidmətləri, alt federal təşkilatların xidmətləri , bələdiyyə təşkilatlarının xidmətləri;
- bank krediti istifadəsinin intensivliyinə görə - ən çox kredit verilən xidmətlər , bank krediti istifadə etməyən zəif kreditləşdirilmiş xidmətlər;

- hüquqi statusuna görə - qanuni və qanunsuz;
- xidmətlər göstərildiyi yerdə - daxili və xarici;
- iqtisadiyyatın sektorlarına görə - maliyyə, qeyri-maliyyə .

Post-sənaye iqtisadiyyatında xidmət sektoru bir çox fəaliyyət növünü əhatə edir. Yalnız xidmət deyil, həm də istehsal müəssisələri olan əksər müəssisə və təşkilatlar əsas fəaliyyətləri zamanı bu və ya digər dərəcədə xidmətlər göstərirlər (istehsal olunan məhsulun saxlanılması, nəqliyyat, məlumat xidmətləri və s.). Xidmət sektoru elmi ədəbiyyatda tədricən genişlənmiş və mürəkkəb bir quruluşa sahib iqtisadiyyatın geniş miqyaslı bir sahəsinə çevrilən bir sənaye kompleksi kimi qəbul edilir .Müasir baxımdan, xidmət sektoru müxtəlif təsnifatlardan istifadə edərək qruplara birləşdirilmiş xeyli sayda sahəni, alt sektoru və fəaliyyət növünü əhatə edir. Məsələn, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) on iki sektora bölünən 150-dən çox xidmət növü təqdim edir: biznes, rabitə, tikinti və əlaqədar mühəndislik, paylama, təhsil, ətraf mühit, maliyyə, səhiyyə və sosial təminat, turizm və səyahət, istirahət, mədəniyyət və idman tədbirləri, nəqliyyat və digər siyahılara daxil edilməyənlər.

**Nəticə**

Data Science bacarıqlı mütəxəssislər üçün ən perspektivli və tələb olunan karyera yollarından biri olaraq inkişaf etməyə davam edir . Data mütəxssisləri dərk edirlər ki, ənənəvi böyük həcmli dataların analiz edilməsi, tənzimlənməsi yollarını və bu sahədə olan proqramlarla işləmə bacarıqlarını inkişaf etdirməlidilər . Təşkilatlarına faydalı ola biləcək yeniliklər tapmaq üçün hər bir Data mütəxəssisi Data Science-in istifadə sahələrini və inkişaf prosesini tam mənimsəməli və dərindən anlamalıdır ki, proses müddətində ən uyğun versiyanı tətbiq edərək gəlirləri maksimallaşdıra bilsin. Data Science aparılan araşdırmalara görə müasir dövrün və yaxın 15-20 il ərzində bütün dünyada ən tələbatlı sahələrindən biri kimi qiymətləndirilir. Bu elm sahəsi hal-hazırda ən gəlirli sahə olmaqla yanaşı yaxın illərdə daha da inkişaf edəcəyi və bütün dövlət qurumlarına, şirkətlərə bu sahənin peşəkarlarına böyük tələbatın yaranacağı proqnozlaşdırılır. Bu səbəbdən bacarıqlı Data mütəxəssislərinin hazırlanması dövlətlərin əsas məqsədlərindən biri olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Лавлок К. Маркетинг услуг: персонал, технология, стратегия. М.: Изд. дом «Вильямс», 2005.
2. Белл Д. Грядущее постиндустриальное общество: опыт социального прогнозирования. М.: Academia, 2004.
3. Балаева Л., Предводителова М. Сфера услуг в мировой экономике: тенденции развития // Мировая экономика и международные отношения. 2007. № 3. С. 25.
4. Демидова Л. С. Глобализация рынков услуг: динамика и основные тенденции //Проблемы теории и практики управления, 2005, № 5.
5. Портер М. Международная конкуренция. Конкурентные преимущества стран: Пер. с англ. / Под ред. и с предисловием В.Д. Щетинина. М.: Международные отношения, 1993.
6. Кочергин Д.А. Электронные деньги: учебник. - М.: Маркет ДС; ЦИПСиР, 2011. - 424 с.

**Sevil Rafiq qızı HÜMBƏTOVA**
AMEA- nın İdarəetmə Sistemləri İnstitutunun doktorantı
E-mail: s.humbatova@inbox.ru

## YAŞIL İQTİSADİYYAT İNDEKSİ

GGEİ indeksi kompozit indeks olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hazırladığı indikatorlar sisteminə əsaslanır [1]. Bu indeksin işlənməsi zamanı iqlim dəyişmələri, bərpa oluna bilən enerji mənbələri, yaşıl iqtisadiyyatın təbliğatı sahəsində görkəmli tədqiqatçılar cəlb edilib. Tədqiqat Qrupu GGEİ hazırlanması üçün dörd əsas aspekti bir-birindən fərqləndirərək prioritet kimi qəbul ediblər. Bunlar 1) siyasi liderlik; 2) siyasət; 3) investisiya; 4) turizmdir. Tədqiqat qrupu

müxtəlif tədqiqat metodlarından istifadə edərək bu aspektlər üzrə sorğular əsasında ölçmələri yerinə yetiriblər. GGEİ üzrə 2011 və 2012-ci illərdə hazırlanan hesabatlarda da tədqiqat metodu kimi əsasən sorğulardan istifadə edilib.

2014-cü il üzrə hazırlanan hesabatda metodologiya bir qədər dəyişdirilib. Bu zaman turizm sektoru ilə yanaşı tikinti, nəqliyyat və enerji sektoru da tədqiqata cəlb edilib. Həmçinin GGEİ kompozit indeksinə ekoloji göstəricilər də daxil edilib. Bununla yanaşı tədqiqatın mahiyyətində ölkə həyata keçirilən iqtisadi siyasətin iqlim dəyişmələrinə nə dərəcədə təsiri kəmiyyətcə qiymətləndirilir. GGEİ kompozit indeksinin hesablanması zamanı istifadə edilən göstəricilərin bütün ölkələrdə eyni metodologiya ilə hesablanmaması və ya bu göstəricilər üzrə məlumatların eyni dövrü əhatə etməməsi müqayisəli təhlillər üçün bəzi problemlər yaradır. Bunu nəzərə alaraq, GGEİ əvvəlcə tədqiqata cəlb edilən bütün ölkələr üçün vacib olan parametrlərdən istifadə edərək "vacib parametrlərdən daha az vacib olan parametrlərə" keçid edib.

GGEİ kompozit indeksinin hesablanması zamanı sorğulardan geniş istifadə və bəzi göstəricilər üzrə məlumatların toplanmasındakı metodoloji fərqlilik ölkələrarası müqayisəli analizin aparılmasına müəyyən çətinlik yaradır. Bunu nəzərə alaraq, mahiyyətcə yaşıl iqtisadiyyata aidiyyəti olan göstəriciləri, nə qədər mümkünsə, daha geniş spektrdə əhatə edə bilən yeni "yaşıl iqtisadi indeksin" hazırlanmasına ehtiyac var. Bu indeks GGEİ-dən fərqli olaraq, yalnız faktiki statistik göstəriciləri əhatə etməlidir. Digər tərəfdən, müqayisə edilən ölkələr üzrə bu göstəricilərin hesablanmasında metodoloji fərqlilik olmamalıdır.

Yaşıl iqtisadiyyata modelinə mahiyyətdə aidiyyətı olan əsas göstəricilər ARDSK-də beş göstəricilər qrupunda təsnifləşdirilib [2]. Bu qrupların da hər biri bir neçə alt-göstəricini əhatə edir. Bu qruplar aşağıdakılardır:

1) Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti ($GP_t$). Bu qrup 10 alt-göstəricdən ibarətdir: a) Əhalinin hər nəfərinə düşən ÜDM; b) 1 məşğulun 1 saatda istehsal etdiyi məhsulun həcmi; c) Əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi fəallıq səviyyəsi (faiz); d) İşsizlik səviyyəsi (faiz); e) Minimum əmək haqqının orta aylıq nominal əmək haqqındakı xüsusi çəkisi (faiz); f) Yoxsulluq səviyyəsi (faiz); g) Təhsil səviyyəsi (faiz); h) Əhalinin qocalma əmsalı (faiz);i) Əhalinin sıxlığı (nəfər/km2); j) Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün) (yaş).

2) İqtisadiyyatın ekoloji və resurs effektivliyi qrupu ($ERE_t$) 15 alt-göstəricini əhatə edir: a)Stasionar mənbələrdən atmosfer havasına atılan karbon qazı (CO2) (min ton); b) Suvarma ehtiyacları üçün su istehlakının həcmi (milyon kub m); c) Su itkilərinin həcmi (milyon kub m); d) Suvarma ehtiyacları üçün istifadə zamanı su itkisinin həcmi (milyon kub m); e) Bir nəfərə düşən istehsalat tullantılarının həcmi (kq); f) Bir nəfərə düşən bərk məişət tullantılarının həcmi (kq); g) Enerjinin ümumi son istehlakı (min net); h) Enerjinin ümumi son istehlakı (teracoul); i)Enerji tutumu (kq neft ekvivalenti/ min manat); j) Elektrik enerjisi istehsalı (mln Kvts); k)Bərpa olunan enerji mənbələri üzrə istehsal (mln Kvts); l)Əkin sahəsinin 1 hektarına düşən mineral gübrələrin miqdarı (kg/ha); m)Əkin sahəsinin 1 hektarına düşən üzvü gübrələrin miqdarı (kg/ha); n)Bərpa olunan mənbələrdən enerji təchizatının ümumi enerji təchizatında payı (faiz); o) 1 kq İstehsal olunan enerji məhsulunun ÜDM-də dəyəri (1 manat/kq neft ekvivalenti).

3)təbii ehtiyatlar qrupu ($NR_t$) 10 alt-göstəricini əhatə edir: a) Təbii mənbələrdən götürülən şirin su (milyon kub m); b) Su istehlakı (milyon kub m); c) Neft hasilatı (min ton); d)Qaz hasilatı (min ton); e), Torpaq fondunun təyinatına görə strukturu: Ölkənin ümumi torpaq sahəsi - cəmi (min hektar); f) Kənd təsərrüfatına yararlı torpaq sahəsi (min hektar); g) Qeyri-kənd təsərrüfatı torpaqları (min hektar); h)Balıq ovu (ton); i)Su resurslarından istifadə indeksi (faiz); j)Meşə ilə örtülü sahə (faiz).

4) Həyatın ekoloji keyfiyyətinin ölçülməsi qrupu ($EFL_t$) 5 alt-göstəricini əhatə edir: a) Atmosferə atılmış çirkləndirici maddələrin əhalinin hər nəfərinə düşən həcmi (kq); b) Tənəffüs orqanlarının xəstəlikləri (nəfər); c) Kəskin bağırsaq infek-siyaları ilə xəstələnənlər : 0-17 yaşadək uşaqlar (nəfər); d) Kəskin bağırsaq infek-siyaları ilə xəstələnənlər: 18 yaşdan yuxarı olanlar (nəfər); e) Təmizlənmədən atılan çirkab sular (milyon kub m) [3].

5) Siyasətin iqtisadi imkanları və alətləri qrupu ($EOP_t$) isə 8 alt-göstəricini əhatə edir: a) Turizm məqsədilə Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı (nəfər); b) Çaylarda

ammonium ionlarının (NH4) orta illik konsentrasiyası: Kür (mq (NH4+)/l); c) Çaylarda ammonium ionlarının (NH4) orta illik konsentrasiyası: Araz (mq (NH4+)/l); d) Ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş investisiyaların ümumi investisiyalarda payı (faiz); e) Turizm fəaliyyətinin ÜDM-də payı (faiz); f) Atmosfer havasının çirkləndirilməsinə görə ödənişlər (min manat); g) Su resurslarının çirkləndirilməsinə görə ödənişlər (min manat); h) Tullantıların yerləşdirilməsinə görə ödənişlər (min manat).

İqlim dəyişmələri ilə bağlı aparılan tədqiqatlar bütün ssenarilər üzrə bu problemin davam edəcəyini və iqtisadiyyatın, sosial həyatın demək olar ki, bütün sahələrinə ciddi təsir edəcəyini deməyə əsas verir. Son onilliklərdə alternativ enerji mənbələrdən istifadə tempinin qlobal əhali artımı və həyat keyfiyyətinin artımı tempindən geri qalması ətraf mühitə atılan karbon emissiyasının həcminin hələ yaxın zamanlarda azalmayacağını deməyə əsas verir. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanan 5-ci bəndində ətraf mühitə atılan tullantıların azaldılması və iqlim dəyişmələrinin iqtisadiyyata mənfi təsirlərinin yumşaldılması məqsədilə bərpa olunan enerji mənbələrindən geniş istifadə öz əksini tapıb [4,5]. Lakin yuxarıda qeyd etdiyimiz kimi qısa müddətdə İstilik elektrik stansiyalarında bərpa olunabilən enerji mənbələrinə tam keçid mümkün deyil. Elə bunu nəzərə alaraq, "Milli Prioritet" sənədi 2030-cu ilədək ölkənin enerji balansında alternativ enerjinin payının 30%-ə çatdırılmasını hədəf kimi götürüb.

## ƏDƏBİYYAT SİYAHISI


1. Handbook on Constructing Composite Indicators METHODOLOGY AND USER GUIDE / - OECD, - 2008. – 162p.
2. Ətraf mühitin mühafizəsi [Elektron resurs] // ARDSK-nin rəsmi veb-səhifəsi, - URL: https://www.stat.gov.az/source/environment/
3. Literacy rate, adult total (% of people ages 15 and above) [Electronic resource] / The World Bank: Data, WBG, - URL: https://data.worldbank.org/indicator/SE.ADT.LITR.ZS
4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi // 6 dekabr 2016-ci ildə qəbul edilmişdir. Bakı: Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - URL: https://president.az/articles/21953
5. Əliyev, İlham Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasimdə iştirak edib [Elektron resurs] // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - URL: https://president.az/articles/25789



**Zümrüd Məhərrəm qızı Hüseynova**

Azərbaycan Kooperasiya Universiteti, Baş müəllim

E-mail: celal_yusif.84@mail.ru


# AZƏRBAYCANDA TURİZMİN YENİ NÖVLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ


**Xülasə**

Məqalədə Azərbaycanda turizmin hazırkı vəziyyətinin təhlil edilərək qiymətləndititilmiş, turizmin gələcək inkişafı üçün zəruri ilkin şərtlərin, turizm sənayesinin inkişafı üçün böyük potensial turistlərin mövcudluğu müəyyən edilmişdir. Müəllif tərəfindən həmçinin ənənəvi turizm növlərinin mövcudluğu ilə yanaşı, Azərbaycanda turizmin yeni növlərinin formalaşdırılması və inkişaf perspektivləri ilə bağlı təkliflər irəli sürülmüş və əsaslandırılmışdır.



**Açar sözlər:** turizm, etnik-mədəni turizm, kulinariya turizmi, təhsil və elmi turizm, ekoloji turizm.


Turizm bütün dünyada iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biridir. Turizm sənayesinin həm bütövlükdə dünya iqtisadiyyatına, həm də ayrı-ayrı ölkələrin və regionların

iqtisadiyyatına təsirinin durmadan artması dünya iqtisadiyyatının formalaşması və inkişafını müşayiət edən daimi və uzunmüddətli meyillərdən biridir. Turizm hazırda iqtisadiyyatın mühüm müstəqil sektoruna çevrilib, onun inkişafı büdcəni doldurmaqla yanaşı, infrastrukturun və əlaqəli sənaye sahələrinin inkişafına, əhalinin rekreasiya xidmətlərinə tələbatının ödənilməsinə, iş yerlərinin yaradılmasına imkan verəcək ki, bu da ölkələr üçün xüsusilə vacibdir. yüksək doğum göstəriciləri və yüksək təbii əhali artımı ilə xarici investisiyaların axınına şərait yaradır [1].

Sosializm dövründə ölkəimizdə turizm sənayesi ikinci dərəcəli idi və dövlət tərəfindən maliyyələşdirilirdi. Turizm iqtisadiyyatın tam gəlirli sahəsi hesab edilmirdi. Bazar münasibətlərinə keçiddən sonra bu sənaye xüsusilə orta və kiçik kapital üçün daha cəlbedici olmuşdur.

Azərbaycanda turizmin hazırkı vəziyyətinin təhlili göstərir ki, son illər bütövlükdə bu sahə inamla və dinamik şəkildə inkişaf edir. Daxili turizmdə hər il artım var. Ölkə daxilində turizm xidmətlərinə tələbatın sürətlə artması əsasən kurort rayonlarında mehmanxana tikintisinin artmasına, eləcə də Bakıda beynəlxalq mehmanxana şəbəkələrinin mehmanxanalarının sayının artmasına səbəb olub. Maraqlıdır ki, mehmanxana tikintisi üzrə investisiya təkliflərinin həcmində artım həm xarici, həm də yerli investorlar tərəfindən müşahidə edilir. Hazırda Azərbaycanda 300-dən çox turizm müəssisəsi fəaliyyət göstərirsə, 2002-ci ildə onların sayı cəmi 39 idi. 2012-ci ildə turizm gəlirləri multiplikator effekti nəzərə alınmaqla ölkənin ÜDM-in 2,05%, turizmdə iş yerlərinin sayı ümumi məşğulluğun 0,3%-ni, Azərbaycanın turizm sənayesində əsas kapitala investisiyalar ümumi investisiyaların 1,6%-ni təşkil etmişdir [2].

Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ÜDM-ində payı 2019-cu ildə 4,5% olsa da, dünyada, eləcə də ölkəmizdə COVİD pandemiyasının yaratdığı fəsadların nəticəsi olaraq, bu göstərici 1,9%-ə enmişdir. Turizm üçün xarakterik sahələrə yönəkdilmiş investisiyaların həcminə gəldikdə isə, bu göstəricinin son yeddi ildəki ən yüksək həddi 2015-ci ildə (1063,9 mln. manat), ən aşağı həddi isə 2020-ci ildə(79,3 mln. manat) olub[3].

2019-cu ildə Azərbaycana xarici turist axını 11% artaraq 2,5 milyon nəfərə çatıb. Azərbaycana gələn bütün turistlərin təxminən üçdə biri Rusiya Federasiyasındandır - bu, 35,8 faizdir[3].

Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanda 2016-2025-ci illər üçün turizmin inkişafına dair Strategiya hazırlayıb. Bu, ölkədə turizm sənayesinin hazırkı vəziyyəti və inkişafı ilə bağlı tövsiyələr, onun inkişaf potensialı, turizm sektorunun inkişafında dövlətin rolu və dövlətlər arasında əməkdaşlığın mümkün formaları müxtəlif ölkələr haqqında məlumatları əks etdirən siyasət sənədidir.

Azərbaycanda turizmin gələcək inkişafı üçün lazımi ilkin şərtlər var. Ölkədə turizmin inkişafı üçün müsbət amillərdən bunlardır: əlverişli coğrafi mövqe, mülayim iqlim, inkişaf etmiş infrastruktura malik rekreasiya, təbii, unikal tarixi-mədəni, memarlıq obyektlərinin olması, kadrların mövcudluğu, dövlət tərəfindən lazımi dəstək. , investisiya dəstəyi, qədim adət-ənənələr, adət-ənənələr, zəngin və rəngarəng mətbəxi, ölkənin siması, dünya əhəmiyyətli böyük idman və mədəniyyət tədbirləri uğurla həyata keçirilib.

Türk xalqlarının etnoturizmi Avrasiyada məskunlaşan türkdilli xalqlarla slavyan xalqları, ilk növbədə ruslar, belaruslar, ukraynalılar, bəzi Baltik və Skandinaviya xalqları arasında tarixi əlaqələrə işıq salacaq. Türk xalqlarının həmişə yaşadıqları Volqa, Ural, Sibir və Uzaq Şərqin geniş əraziləri - Kazan tatarları, başqırdlar, çuvaşlar, yakutlar, altaylar, tuvanlar, xakaslar, şorlar, dolqanlar, baraba tatarları və s. zaman üzvi olaraq Rusiya imperiyasının bir hissəsi oldu. İndi bu xalqlar Rusiya Federasiyasının tərkibində uğurla inkişaf edir, slavyan xalqları ilə qismən assimilyasiya olunur və qarşılıqlı zənginləşir. Bu xalqların tarixi, orijinal mədəniyyəti, Şimalın sərt şəraitində həyat tərzi maraqlı və sərfəli turizm məhsulu ola bilər.

Türkiyə gənclərinin qədim əcdadların tarixinə böyük marağı ola bilər. Çoxmilyonlu əhalisi olan ölkə potensial olaraq böyük turist axını yarada bilər ki, onların da ata-baba yurdlarına tarixi maraqları ilə yanaşı, müəyyən iqtisadi maraqları da ola bilər. Bu, bir çox türkdilli dövlət qurumlarının daxil olduğu Qazaxıstan, Azərbaycan və Rusiya iqtisadiyyatına birbaşa investisiya yatırılmasına səbəb ola bilər.

Azərbaycanda turizm sənayesinin inkişafı üçün daha bir böyük potensial turistlər - hazırda Avropa, ABŞ və Kanadada yaşayan Türkiyədən gələn mühacirlər ola bilər. Türk etnoturizminin qastronomik, elmi, maarifləndirici, rekreasiya və ekoloji turizmlə birləşməsində böyük perspektivlər var. Son

illərdə təhsilin fundamentallaşdırılması və humanistləşdirilməsi ilə yanaşı, XXI əsrdə ali təhsilin prioritet istiqamətlərindən biridir. peşə təhsilinin yaşıllaşdırılmasına çevrilir. Təhsilin yaşıllaşdırılması zərurəti ətraf mühitə artan antropogen təsir, iqtisadiyyatın bütün sahələrində, xüsusən də postsovet respublikalarının iqtisadiyyatlarının innovativ inkişafı və modernləşdirilməsi şəraitində insanın artan rolu ilə diktə olunur.

Təklif etdiyimiz ekoloji maarifləndirmənin taktikası gənclərin təbiətlə bilavasitə tanışlığına, ona xas olan qanunauyğunluqların öyrənilməsinə və bu əsasda təbiətə səmimi sevginin formalaşmasına əsaslanır. Buna əsaslanaraq onlarda ətraf mühitin vəziyyətindən narahatlıq hissi yaranır və onun çirklənməsinin qarşısını almaq üçün şüurlu şəkildə səy göstərirlər. Şagirdlər cəmiyyətin gələcək fəal üzvləridir və planetdəki ətraf mühitin gələcək vəziyyəti onların ekoloji biliklərə nə qədər sahib olacağından çox asılı olacaq. Ekoturizm də buna öz töhfəsini verir.

Ümumi qəbul edilmiş təfsirdə ekoturizm, antropogen təsirlərə nisbətən nisbətən toxunulmamış təbii ərazilərə səfərə və ya çirklənmiş meşə ərazilərinin və ya çimərliklərin təmizlənməsinə yönəlmiş turizm formasıdır [4]. Çox vaxt bu, təbiətin sadə bir təfəkkürü və ya at sürmədir ki, bu da şübhəsiz ki, yeni nəsillərdə təbiət sevgisinin formalaşmasına kömək edir. Bununla belə, gözəl təbiətin təfəkkürü antropogen təzyiqdən xeyli əziyyət çəkən ətraf mühitin qorunması üçün narahatlıq hissi yaratmır.

İşğaldan azad olunmuş regionların sosial-iqtisadi profilinin təhlili bu regionlarda turizm sektorunun inkişaf etdirilməsi baxımından çox böyük imkanların olduğunu göstərir. Hesablamalar onu göstərir ki, qarşıdakı dövrdə rayonların ənənəvi iqtisadi fəaliyyət sferaları nəzərə alınmaqla inkişaf etdirilməsi gələcəkdə ölkənin kənd, dağ, xizək turizminin artırılmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Eyni zamanda işğaldan azad olunmuş regionlarda mövcud olan bol su və günəş ehtiyatları Azərbaycanın digər regionlarında da turizmin inkişafına müsbət təsir göstərəcəkdir.

Ənənəvi turizm növlərinin mövcudluğu ilə yanaşı, Azərbaycan turizmin yeni növlərinin - etnik-mədəni, kulinariya, təhsil, elmi və ekoloji turizm növlərinin yaradılması və metodik inkişafı üçün gözəl imkanlara malikdir. Azərbaycan ənənəvi beynəlmiləlçiliyə görə, bu xalqların hər birinin kulinariya xüsusiyyətlərini özündə əks etdirən zəngin orijinal mədəniyyət və adət-ənənələri, milli mətbəxi ilə çoxlu xalqların və millətlərin azad şəkildə yaşadığı və inkişaf etdiyi ölkədir. Landşaftların rəngarəngliyi, zəngin flora və faunası təhsil və elmi turizmin inkişafına imkan verəcək, əhalinin, xüsusilə gənclərin ekoloji biliklərini və ekoloji mədəniyyətini yüksəltməyə imkan verəcək. Antropomorfik landşaftlardan ətraf mühitin çirklənməsinin və tənəzzülünün nəticələrinin öyrənilməsi üçün istifadə oluna bilər ki, bunun əsasında normativ göstəricilər, çirklənmədən mühafizə və təmizlənmə üsulları, çirklənməyə nəzarət və qarşısının alınması üçün yeni alət və avadanlıqlar və s. işləyib hazırlamaq ətraf mühitin mühafizəsi və rasional istifadə məsələləri mümkündür..

Xəzər dənizinin böyük və hələ də istifadə olunmamış turizm potensialı var. Müxtəlif landşaftlara, iqlim xüsusiyyətlərinə, mineral sularına və palçıq klinikalarına, Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycan xalqlarının zəngin və rəngarəng tarixi, mədəni, etnik, kulinariya irsinə malik olan Xəzər sahilinin rekreasiya ehtiyatları burada yaşayanlar hələ də aktiv istifadə edilmir. Xəzər dənizi sahilləri boyunca hər bir ölkədə dayanacaqlarla kruiz uçuşları turistlərə burada yaşayan xalqların zəngin etnik-mədəni irsi ilə tanış olmağa, əsrlər boyu sınaqdan keçirilmiş orijinal müalicə üsullarından istifadə etməklə dincəlməyə və sağlamlıqlarını yaxşılaşdırmağa kömək edəcək. Xəzər dənizində çoxlu adalar, xüsusən də palçıq vulkanik mənşəli adalar var. Artıq qismən davam etdirilən bu adaların turizm və rekreasiya üçün inkişafı onların resurs potensialından daha səmərəli istifadə etməyə, çimərliklərin təşkili üçün Xəzər dənizinin daha təmiz sularından istifadə etməyə, bir çox su idman növlərini inkişaf etdirməyə imkan verəcək. Xəzər dənizinin balıq ehtiyatları - nərə və digər endemik və relikt balıq növlərinin müxtəlifliyi unikaldır. Xəzər dənizinin turizm və rekreasiya potensialından səmərəli və düşünülmüş şəkildə istifadə edilməsi Avropa və Asiyadan çoxlu sayda turisti bu regiona cəlb edəcək, Xəzəryanı dövlətlərin iqtisadiyyatının inkişafına töhfə verəcək, bu regionda münasibətlər sülhün və mehriban qonşuluğun möhkəmlənməsinə töhfə verəcək.

Turizmin inkişafı üzrə birgə fəaliyyət Xəzəryanı ölkələrin gənc mütəxəssislərinin yaxınlaşmasına töhfə verəcək, onlara təcrübə mübadiləsi aparmağı və qlobal turizm bazarında həmrəylik nümayiş etdirməyi öyrədəcək. Avropa və Asiyadan turist axını və onların bu ölkələrin reallıqları ilə tanış olması Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin vəziyyətini və problemlərini aparıcı KİV-lərdə və beynəlxalq təşkilatlarda daha yaxşı və obyektiv işıqlandırmağa imkan verəcək.

Bu ümumiləşdirici məqalədə təklif olunan yeni turizm növlərinin bütün aspektlərini əhatə etmək çətindir. Bu sahələr yeni materiallar və məlumatların cəlb edilməsi ilə əlavə işlənməni tələb edir. Müəllif məqalədə qaldırılan məsələlərə respublikanın və digər ölkələrin müvafiq dövlət strukturları və mütəxəssisləri tərəfindən diqqət yetiriləcəyinə ümid edirlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Кусков А.С. Основы туризма: учебник. М.: Кнорус, — С. 38–47.
2. Максутов Т. Туризм в Азербайджане: сейчас или никогда / Т. Максутов // Рынки и компании Азербайджана. — Баку, 2016.
3. www.azstat.org
4. Уокер Дж.Р. Управление гостеприимством. Вводный курс: учебник / Дж.Р. Уокер; пер. с англ. — М.: Юнити – Дана, 2006. — 880 с.

**Zaman İsmət oğlu Hüseynov**
Azərbaycan Texnologiya Universiteti
E-mail: huseynovzaman063@gmail.com

# SATIŞ KANALLARININ MÜƏYYƏN EDİLMƏSİNDƏ MARKETİNQİN ƏHƏMİYYƏTİ

**Xülasə**

Qeyd etdiyimiz kimi,müəssisənin bazardakı müvəffəqiyyətinin ən başlıca səbəblərindən biri satış şəbəkəsinin düzgün qurulmasıdır.Belə ki,müəssisənin ümumi mal dövriyyəsinin həcmi və onun artım dinamikası,alınan gəlirin norması və miqdarı bilavasitə satış şəbəkəsinin ölçülərindən və səmərəli işindən asılıdır.Odur ki,hər bir müəssisənin özünün satış şəbəkəsinin formalaşdırılması işinə xüsusi diqqət yetirilməlidir.Çünki,onun təsərrüfat fəaliyyətinin nəticələri bu işin təşkili səviyyəsindən çox asılıdır.

***Açar sözlər:*** *marketinq,satış kanalları,məhsulların bölüşdürülməsi,istehsalçı*
***Ключевые слова:*** *маркетинг,каналы сбыта,распространение продукции,производитель,*
***Keywords:*** *marketing,sales channels,product distribution,manufacturer*

Bildiyimiz kimi,bir çox müəssisələr öz məhsullarının satışında qarışıq satış kanallarından,yəni eyni zamanda həm birbaşa satış kanalından,həm də dolayı(vasitəçilərlə)satış kanalından istifadə edirlər.

Satış kanallarının seçilməsinə təsir edən ən mühüm amillərdən biri məhsulun xüsusiyyətləridir. Texniki cəhətdən mürəkkəb,iri qabaritli və ya ağır çəkili məhsulların satışında birbaşa satış kanallarından istifadə edilməsi daha effektlidir.Belə ki,texniki cəhətdən müərəkkəb avadanlıqların quraşdırılması xüsusi biliklər və satış sonrası texniki xidmət tələb edir.Bununla əlaqədar olaraq həmin avadanlıqların quraşdırılmasını ya istehsalçı müəssisələrin mütəxəssisləri həyata keçirir və yaxud bu işdə istehlakçılara kömək göstərir,həmçinin həmin mütəxəssislərə satış sonrası texniki xidmətin göstərilməsi üzrə onlara təlim keçirlər.İri qabaritli və ya ağır çəkili məhsulların birbaşa göndərilməsi isə vasitəçi müəssisələrdə yükləmə-boşaltma və saxlama xərclərini aradan qaldırmaqla satış xərclərinin səviyyəsinin aşağı salınmasına imkan verir.İnnovasiya məhsullarının bazara çıxarılması aqressiv irəlilədilmə səyləri tələb etdiyindən onların satışında da birbaşa kanallarından istifadə edilməsi daha məqsədəuyğundur.

Məlumdur ki,məhsulların bölüşdürülməsinin və satışının təşkilinin ən çətin və mürəkkəb mərhələsi satış kanallarının seçilməsidir.Çünki,müxtəlif satış kanallarında istehsalçının satış kanalı

üzərində nəzarətinin səviyyəsi,kanalın iştirakçıları tərəfindən göstərilən xidmətlərin sayı,satışla əlaqədar olan xərclərin səviyyəsi müxtəlif olduğundan onların effektliliyi də müxtəlif olur.Bu baxımdan satış kanallarının seçilməsinə təsir edən amillərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.Satış kanallarının seçilməsinə dörd qrup amillər:1) bazarın xüsusiyyəti;2) məhsulun xüsusiyyəti;3)müəssisənin xüsusiyyətilə əlaqədar olan amillər və 4) nəqliyyat-tədarükat xərclərinin məbləği təsir edir.

Bir çox müəssisələr öz məhsullarının satışında qarışıq satış kanallarından, yəni eyni zamanda həm birbaşa satış kanalından, həm də dolayı (vasitəçilərlə) satış kanalından istifadə edirlər. Belə ki, istehsalçı müəssisələr öz məhsullarını tələbatının həcmi böyük olan iri istehlakçılara satdıqda birbaşa satış kanalından,tələbatının həcmi az olan istehlakçılara satdıqda isə dolayı satış kanalından istifadə edirlər. Bu satış kanalı tələbatının həcmi müxtəlif olan istehlakçılara məhsul satan istehsalçı müəssisələrin satış fəaliyyətini daha səmərəli təşkil etməyə və onun effektliliyini yüksəltməyə imkan verir.Lakin, bu satış kanalından istifadə edilməsi zamanı birbaşa və dolayı satış kanallarının iştirakçıları arasında rəqabətin meydana çıxması təhlükəsi mövcuddur

Satış kanallarının həm müxtəlif səviyyəsinin iştirakçılarının, həm də kanalın hər bir səviyyəsinin müxtəlif iştirakçılarının hər birinin,bir sıra hallarda bütünlükdə satış kanalının ümumi məqsədinə uyğun gəlməyən xüsusi məqsədləri və maraqları mövcuddur.Bununla əlaqədar olaraq,məhsulların bölüşdürülməsi və satış strategiyasının hazırlanmasının ən vacib problemlərindən biri qeyd edilən kanal iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi və inteqrasiyası,səlahiyyətlərin bölüşdürülməsi,həmçinin bütünlükdə satış kanalına nəzarətin təşkil edilməsidir.Bu məqsədlə satış kanallarının və ya marketinq kanallarının təşkilinin üç formasından:ənənəvi marketinq sistemi,şaquli marketinq sistemi və üfüqi marketinq sistemindən istifadə edilir.

Ənənəvi marketinq sistemində satış kanalının hər bir səviyyəsinin iştirakçısı maksimum mənfəət əldə etməyə çalışan müstəqil təşkilat kimi fəaliyyət göstərir və bu iştirakçılardan heç biri kanal üzərində tam nəzarətə malik olmur. Hətta, bir sıra hallarda,onların hər birinin məqsədi satış kanalının məqsədinə uyğun gəlmir və satış kanalının ümumi effektliliyini azaldır.Ənənəvi marketinq sistemində,bir qayda olaraq,iştirakçılar arasında konfliktlər meydana çıxır.

Şaquli marketinq sistemində kanalın hər bir səviyyəsinin iştirakçısı kanalın ümumi məqsədinə nail olmaq,onun effektliliyini artırmaq,istehsal və satış xərclərini azaltmaq məqsədilə tam sistem kimi fəaliyyət göstərirlər.Bu məqsədlə onlar öz fəaliyyətlərini əlaqələndirir və inteqrasiya edirlər.Bu sistemdə kanalın lideri adlandırılan iştirakçı (istehsalçı və ya vasitəçilərdən biri) fəaliyyətin əlaqələndirilməsi səlahiyyətini öz üzərinə götürür və kanala nəzarət edir.Bunun sayəsində kanal iştirakçılarının bazara təsir imkanları artır və sinerqizm effekti yaranır.

Korporativ marketinq sistemində satış kanalı bütünlükdə onun hər hansı səviyyəsinin iştirakçısının birinə ya, istehlakçıya, ya da vasitəçilərdən birinə məxsus olur və ya iştirakçıların biri digər iştirakçıların nizamnamə kapitalında müəyyən paya malik olur.Kanal iştiakçılarının fəaliyyətinin əlaqələndirilməsi və ona nəzarət həmin iştirakçı tərəfindən həyata keçirilir.Məsələn, ayaqqabı istehsalçısı olan Bata və paltar istehsalçısı olan Rodier firmaları məhsullarının satışında özünün pərakəndə ticarət mağazalarından geniş istifadə edirlər

## ƏDƏBİYYAT SİYAHISI

**1.** A.T.Məmmədov “Marketinqin əsasları” Bakı 2007
**2.** F.Kotler “Marketinqin əsasları” Bakı 2003
**3.** Qolubkov E. P., Osnovı marketinqa, Uçebnik, M., Franspress,1999, s. 573-584
**4.** X.Yahudov “Müəssisənin marketinqi” Bakı-2002

**Nəzrin Etibar qızı Həsənzadə**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin magistrantı
E-mail: hasanzada.nazrin.98@gmail.com

## RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

İqtisadi nəzəriyyə klassiklərinin əsərlərində ümumilikdə risklərlə bağlı xüsusi məqamlar qeyd edilib. Onlar hesab edirdilər ki, sahibkarlıq riskli fəaliyyətdir. A.Smit "Xalqların sərvətlərinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərində bildirirdi ki, ən az mənfəət normasına sahib olmaq belə həmişə az və ya çox dərəcədə risklə əlaqədardır. Müxtəlif dövrlərdə risk anlayışının məzmununun izah edilməsi ilə əlaqədar iqtisad elmində aparılan müzakirələr, risk haqqında müxtəlif nəzəriyyələrin formalaşması ilə nəticələnmişdir. Bunlara müvafiq olaraq, riskin əsasən klassik və neoklassik nəzəriyyələri mövcuddur.

Klassik risk nəzəriyyəsinin görkəmli nümayəndələri Mil və Seniordur. Bu nəzəriyyəyə görə risk verdiyiniz bu və ya digər qərarın reallaşması nəticəsində baş verə bilən itkilərin gözlənilməsi ilə eyniləşdirilir. Neoklassik nəzəriyyə 2 maddəyə əsaslanır. Burada deyilir ki, qeyri müəyyənlik şəraitində fəaliyyət göstərən müəssisələr 2 əsas xüsusiyyəti özündə rəhbər tutmalıdır:

1. Gözlənilən mənfəətin ölçüsü;
2. Mümkün tərəddüdlərin kəmiyyəti.

Bu nəzəriyyə daha sonar Keyns tərəfindən təkmilləşdirilmiş və Keynsin təkmilləşdirmiş ilk neoklassik nəzəriyyəsi kimi iqtisadi risk nəzəriyyələri tarixinə daxil edilmişdir. Belə ki, bu nəzəriyyənin təkmilləşdirilməsinin məzmunu bundan ibarətdir ki, qeyri-müəyyənlik şəraitində qərarların qəbulu üçün sadəcə olaraq 9 mənfəətin gözlənilən səviyyəsindəki kənarlaşmalar deyil, həm də gözlənən mənfəət səviyyəsində özünü nəzərə almaq mütləqdir.

Risk anlayışına, XX əsrdəhələ Amerika tədqiqatçıları bu haqda yazdıqları müxtəlif ədəbiyyatlarda rast gələ bilərik. Buna müvafiq olaraq qeyd edə bilərik ki, ilk dəfə bu anlayışdan Frenk Nayt özünün "Risk, qeyri-müəyyənlik və gəlirlər" əsərində istifadə etmişdir. Risk anlayışını ilk dəfə olaraq elmi ədəbiyyata gətirən bu amerikalı tədqiqatçı, sanki o, öz növbəsində həm davamlı social iqtisadi təşkilatın hər hansı bir ümumi firmanın prinsiplərini tədqiq edərkən rəqabəti təbii qiymət nəzəriyyəsi ilə birgə baxmış və firmanın fəaliyyətinə daha xalis və qeyri xalis rəqabətli mühitdə izahını verərək mövcud fərqləri göstərmişdir. Bununla yanaşı, onu real həyatda xalis rəqabətli bazarın mövcud olmasını və qiymətlərin əmələ gəlməsi və idarə edilməsi prosesi zamanı firmaların daha çox risklə üzləşdiyini ifadə etmişdir. F.Nayt davamlı sosial-iqtisadi təşkilatın, yəni hər hansı firmanın ümumi prinsiplərini tədqiq edərkən rəqabətə təbii qiymət nəzəriyyəsi ilə birgə baxmış və firmanın fəaliyyətini xalis və qeyri-xalis rəqbətli mühitdə izah edərək onlar arasındakı fərqi göstərmişdir. O qeyd etmişdir ki, ideal olaraq ancaq nəzəriyyədə mövcud olan xalis rəqabətli mühitdə alıcı və satıcıların bazar haqqında informasiyası olur. Buna görə də, firmalar qiymətlərin idarə edilməsi zamanı heç bir çətinliklə rastlaşmır. Əsərin sonrakı fəsillərində F.Nayt real həyatda xalis rəqabətli bazarın mövcud olmadığını və qiymətlərin əmələ gəlməsi və onların idarə edilməsi zamanı firmaların qeyri-müəyyənliklə üzləşdiyini bildirir.

Bir çox iqtisadçılar "risk" haqqında müxtəlif fikirlər söyləmişlər. İqtisadçılar riski gözlənilən nəticənin əldə edilməməsi kimi qiymətləndirirdilər. Riyaziyyatçılar isa hesab edirdilər ki, risk müəyyən gözlənilməz neqativ hadisənin başvermə ehtimalıdır. A. Frimen və R. Dembo yazırdılar ki, risk investisiya portfelinin dəyərində bugünki vəziyyəti ilə gələcəkdə baş verə biləcək dəyişikliyin ölçüsüdür. R. M. Xeyns və S. A. Villyams isə riski vahid vaxt ərzində müəyyən vəziyyətdə baş verə biləcək nəticələrin dəyişməsi kimi qəbul etmişlər. Riskin aşağı salınması proqramının hazırlanması anında riskli qərarın psixoloji qavrayışını nəzərə almaq əsas şərtdir. Riskli vəziyyətdə qərar qəbul etmək psixoloji prosedurdur. Bu səbəbdən də, riskli vəziyyətdə qərar qəbulu zamanı insanın riyazi bilikləri ilə yanaşı psixoloji üstünlükləri də nəzərə alınmalıdır. Bunlara: şübhə, qətiyyət, aqressivlik, introversiya, qərarsızlıq, ekstroversiya, və s. daxildir.

Eyni risk dərəcəli vəziyyət fərqli insanlar tərəfindən müxtəlif formalarda qəbul edilir. Bunun üçün də, riskin dəyərləndirilməsi, maliyyənin yekun qərarının seçilməsi həmişə qərar qəbul edən insanlardan asılıdır. Ekstroversiya kənar insanlara, hadisələrə münasibət formasıdır. Bu özünü böyük səviyyəli ünsiyyətdə biruzə verir. İntroversiya təəssürat, şəxsi duyğu, his və fikirlərə münasibətdə yanaşmadır. İntroversiv şəxsiyyətdə ətraf mühitlə əlaqədəbir neçə stabil münasibət və davranış vardır, daxili normalara yardım, dalğınlıq. İntroversiv insanların hesabatı kənar faktorların gücündən asılı deyil.

Risk menecmentin təşkilinin əvəzsiz mərhələsi verilmiş fəaliyyətin həyata keçirilməsi üçün təşkil edilən tədbirlər, yəni bunların görülməsi üçün lazım ola biləcək maliyyə vəsaitlərininmənbəyinin və həcminin, konkret icraçıların, icra müddətinin və s. təyin edilməsidir.Risk menecmentin təşkilinin önəmliformalarından biri təyin edilmiş proqramın icrasının yoxlanılması, təyin edilmiş risk qərarının icrasının yekununun təhlili və son qiymətləndirilməsidir. Risk menecmentin təşkili sahibkarlıq zamanı risklərin idarə edilməsi orqanının müəyyən edilməsini tələb edir. Risklərin idarə olunması orqanı risk üzrə menecer, maliyyə meneceri və idarəetmənin uyğun aparatı ola bilər: vençur (riskli) investisiya şöbəsi, sığorta əməliyyatları şöbəsi, riskli investisya qoyuluşu şöbəsi və s.

Riskin mövcudluğu və onunla əlaqədar olaraq maliyyə itkilərinin obyektiv mövcud olduğu şəraitdə xüsusi bir mexanizmə, yəni riskin idarə edilməsi prosesinə xüsusi bir ləlabat hiss olunur. Bu mexanizm də təsərrüfat fəaliyyətində qərarların qəbulu və reallaşdırılmasında firma sahibkarının öz məqsədlərinə çatması nöqteyi-nəzərindən qarşıya çıxan risklərin dərindən araşdırılmasına və idarə edilməsinə xidmət göstərir. Risklərin idarə edilməsi prosesinin ilk mərhələsində risklər təhlil edilir və qiymətləndirilir. Sonra risklərə təsir metodları müəyyən edilir və bu metodların içərisində iqtisadi cəhəttən ən səmərəlisi seçilir. Ən səmərəli metod seçimindən sonra optimal qərar qəbul edilir və bu qərarın reallaşdırılması gedişində risklərə təsiretmə, yəni risklərin idarə edilməsi prosesi baş verir.

Burada əsas diqqəti cəlb edən mərhələ risk səviyyəsinin qiymətləndirilməsidir, ayrı-ayrı risklərin kəmiyyətcə təhlilidir. Bu zaman riskli situasiyaların və onların nəticələrinin başvermə ehtimalı, riskin səviyyəsi kəmiyyətcə müəyyən olunur, eləcə də konkret şəraitdə riskin yol verilən səviyyəsi müəyyənləşdirilir. İqtisadi risklərin təhlili zamanı nəzərdən keçirilən sistem və ya iqtisadi proses altsistemlərə bölünür və riyazi metodlardan istifadə etməklə sistemin hər bir elementi ilə əlaqədar qeyri-müəyyənlik təhlil edilməlidir. Belə təhlil risklə obyektin konkret tərkib hissəsi arasındakı asılılıq səviyyəsini və risklərin ümumi prosesə təsirini öyrənməyə imkan verir.

Beləliklə, riskin ardıcıl təhlilinin həyata keçirilməsi nəticəsində mümkün ola biləcək riskli situasiyaların baş verməsi və nəticəsi ehtimalı haqqında ümumi mənzərə yaranır. Baş verə biləcək riskin kəmiyyət yol verilən riskin kəmiyyət ölçüləri ilə müqayisə edildikdən sonra riskin idarə edilməsi strategiyası işlənib hazırlanır və bu strategiyanın da əsasında riskin mümkün qədər azaldılması üçün müvafiq tədbirlər müəyyənləşdirilir.

Riskin minimumlaşdırılması üçün müəyyən qaydada tədbirlər sistemi seçildikdən sonra həmin tədbirlərin səviyyəsinin kifayət qədər səmərəli olması haqqında konkret və ünvanlı qərar qəbul edilməlidir. Riskin minimumlaşdırılmasına yönələn tədbirlərin kifayət qədər səmərəli olduğu halda layihənin reallaşdırılması həyata keçirirlir. Lakin həmin tədbirlərin kifayət qədər səmərəli olmadığı halda isə layihənin reallaşdırılmasından məqsədə uyğun olaraq imtina edilir. İqtisadi risklərin qiymətləndirilməsi başlıca olaraq kəmiyyətcə təsərrüfat və sahibkarlıq fəaliyyətindəki itki və ya gəlirlərin müəyyən edilməsi ilə əlaqədardır. Riskin iqtisadi cəhətdən qiymətləndirilməsi üsulu nəzəri baxımdan iki parametrə əsaslanır. Bunlara mümkün itkilərin ölçüsü və onların ehtimalının müəyyən edilməsi daxildir. Bu isə o deməkdir ki, hər iki parapetrin kəmiyyətcə həcmi elə müəyyən edilməlidir ki, bunun da nəticəsində riskləri bir-birilə müqayisə etmək mümkün olsun.

Risklərin qabaqcadan, operativ təhlilinin əsas məqsədi bunun nəticələrinin qiymətləndirilməsidir. Müxtəlif tipli təsərrüfat subyektlərində fəaliyyət növləri üzrə seçilən saysız hesabsız əsas, əlavə risklərdən istifadə edildiyinə üçün, onların nəticələrinin təhlilində də digər üsullardan istifadə olunur. Nəticə etibarı ilə, risklərin nəticələrinin qabaqcadan və də sonradan təhlilində və bir çoxtədqiqat üsullarından istifadə olunur. Bu üsulları dəqiq araşdırmadan hansı riskin hansıüsullarla qiymətləndirilməsinin və dəqiq göstəricilərin əldə edilməsi mümkünsuzdür. Bazar iqtisadiyyatı

şəraitində bir çox maliyyə əməliyyatları olduqca əhəmiyyətli risklərlə əlaqədardır. Onlar həm əməliyyata başlamazdan əvvəl, həm də əməliyyatın icrası mərhələlərində risk səviyyəsinin qiymətləndirilməsini, onun həcminin müəyyən edilməsini tələb edir. Riskin dərəcəsi itkinin başlanması və eyni zamanda zərərin baş verməsi miqdarına aidtəhlilin nəticəsidir. Sahibkarın riski qoyulan investisyadan gözlənilən minimum və maksimum gəlirin miqdarının subyektiv ehtimalı kimi kəmiyyətcə xarakterizə edir. Bu hesablamada minimal və maksimal gəlirlər arasında diapazon çox olduqca riskin dərəcəsi də bir o qədər yuxarı olur.

Sonda onuda qeyd edək ki, risklərinin idarə olunması müəssisənin nə qədər yeni və ya uzun müddət fəaliyyət göstərməsindən asılı olmayaraq istənilən müəssisə və təşkilat üçün vacib diqqət yetirilməli olduğu bir məsələdir. Bu müəssisənin öz fəaliyyətinin mənfi və müsbət tərəflərini müəyyənləşdirmək, eyni zamanda onların aradan qaldırılması üçün zəruri tədbirlər görmək istənilən müəssisənin mənfəət əldə etməsi üçün ən vacib məsələdir.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Atakişiyev M. C. "Maliyyə menecmenti" Bakı. 2013.
2. Abbasov İ. M., Sadıqov R. F. "Menecment" Bakı. 2013
3. Bolgün E. ve AKÇAY B. "Risk Yönetimi" Ankara. 2012.
4. Kazımlı X., Quliyev İ. "İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi" Dərs vəsaiti. Bakı. 2011.

**Kəmalə Elçin qızı Xəlilova**
Azərbaycan Dövlət Aqrar universitetinin Magistrantı
E-mail: kxlilova@mail.ru

# TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN UÇOTU ZAMANI İSTİFADƏ OLUNAN ƏSAS ANLAYIŞLARIN VERGİ MƏCƏLLƏSİ VƏ 16 № Lİ BEYNƏLXALQ MÜHASİBAT UÇOTU STANDARTLARI ARASINDAKI FƏRQLƏR

## Xülasə

Tədqiqatın məqsədi müəssisələrin balansında olan torpaq, tikili və avadanlıqların ilkin dəyərinin müəyyən edilməsinin, kapitallaşdırılmasının, amortizasiya edilməsinin, silinməsinin və yenidənqiymətləndirilməsinin 16 №-li Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında uçotu və tətbiqidir.

Torpaq, tikili və avadanlıqların uçotu zamanı istifadə olunan əsas anlayışların vergi məcəlləsi və 16 №-li beynəlxalq mühasibat uçotu standartları arasındakı fərqlər.

Vergi uçotu dedikdə mühasibat uçotu kimi təsərrüfat əməliyyatlarının qeyd edilməsi yox, vergi bəyannamələrinin hazırlanması və vergi orqanına təqdim başa düşülür. Belə ki, mühasibat uçotu aparılmış təsərrüfat əməliyyatlarının sistem halına gətirilməsi, cəmləşdirilməsi və lazım olan istifadəçilərə standartlarda müəyyən edilmiş prinsiplər, keyfiyyət göstəricilərinə riayət edilməklə maliyyə hesabatları formasında çatdırılmasıdır. Vergi uçotu isə vergi məcəlləsinə əsasən müəyyən edilmiş vergilərin vergi ödəyicilərinin əldə etdikləri gəlirlərin onların mülkiyyətindən çıxaraq özgəninkiləşdirilmə şəklində məcburi, əvəzsiz və fərdi qaydada düzgün və ədalətli şəkildə alınmasıdır. Həmçinin Azərbaycan Respublikasının vergi məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasından, vergi məcəlləsindən və vergi məcəlləsinə əsasən qəbul edilmiş digər qanunverilicilik aktlarından ibarətdir. Digər qanunvericilik aktları dedikdə isə Azərbaycan Respublikasının hər hansı qanunlarında vergi məcəlləsinin müddəalarının tətbiq edildiyi hissələr, maddələr nəzərdə tutulur. Məsələn Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində vergi münasibətlərinə aid inzibati xətalar ilə əlaqədar hər hansı maddəni misal göstərmək olar. Beynəlxalq mühasibat uçotu standartları isə bizim ölkənin vergi məcəlləsindən fərqli olaraq prinsiplər əsasında qurulmuşdur. Yəni ki, standartlar bir növ mühasibat uçotunun tətbiqinə məsləhət xarakteri daşıyır,

vergi məcəlləsi isə məcbur edir. Standartların tətbiqi zamanı edilən bir çox səhvlər mühasibat uçotu subyektlərinin maliyyə itkisinə səbəb olmayan ola bilər, amma vergi məcəlləsində hər hansı verginin düzgün hesablanmaması, müəssisələrin vergi yükünün düzgün müəyyən edilməməsi cərimələrə, maliyyə sanksiyalarına səbəb ola bilər.

Mövzumuz əsas hissəsi olan torpaq, tikili və avadanlıqlar barədə vergi məcəlləsində də bir sıra müddəalar mövcuddur. Belə ki, Azərbaycan Respublikasının vergi məcəlləsində torpaq, tikili və avadanlıq anlayışı 16 №-li mühasibat uçotunun beynəlxalq standartından fərqli olaraq əsas vəsait ifadəsini anlayışını ifadə edir. Hansı ki, 16 №-li standarta görə torpaq, tikili və avadanlıqlar uzunmüddətli aktiv olmalı, etibarlı əsasla qiymətləndirilməli və bu aktivlə bağlı gələcək iqtisadi fayda olmalıdır. Vergi məcəlləsinin 13.2.17-ci maddəsində əks etdirildiyi kimi əsas vəsaitlər "Əsas vəsaitlər - istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, vergi məcəlləsinin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlər" dəyəri 500 manatdan yuxarı olmalıdır, istifadə müddəti 1 (bir) ildən artıq olan və amortizasiya olunmalı aktivlərdir. Bununla yanaşı Azərbaycan Respublikasının vergi məcəlləsi ilə 16 №-li mühasibat uçotunun beynəlxalq standartı arasında yuxarıda qeyd olunan fərqlə yanaşı, amortizasiya, təmir xərci, tanınma, ilkin dəyərinin müəyyən edilməsi, yenidən qiymətləndirmə və s. bu kimi anlayışlardada əsaslı fərqlər mövcuddur. Məsələn 16 №-li standartda torpaq, tikili və avadanlıqlarla əlaqədar mövcud olan əsas anlayışlar, vergi məcəlləsinin 13-cü maddəsində olan əsas anlayışlarla əhəmiyyətli dərəcədə fərqlənir. Bunlara aşağıdakıları misal göstərmək olar.

1.Aktivin balans dəyəri 16 №-li mühasibat uçotunun beynəlxalq standartına əsasən -"yığılmış amortizasiya və qiymətdən düşmə zərərləri çıxıldıqdan sonra aktivin balans hesabatında tanınan dəyəridir" anlayışını ifadə edir. Lakin vergi məcəlləsində bu anlayış əmlakın qalıq dəyəri anlayışı ilə əvəz edilmişdir. Anlayışın adında olan fərqlə yanaşı mahiyyətindədə fərq mövcuddur. Belə ki, vergi məcəlləsinin 13.2.22-ci maddəsinə əsasən əmlakın qalıq dəyəri- "əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəri" anlayışını ifadə edir. Yuxarıda qeyd olunanlardan göründüyü kimi, qalıq dəyəri standarta görə amortizasiya ilə yanaşı qiymətdən düşmə zərəri qədərdə azaldılır. Lakin vergi məcəlləsində isə bu anlayış mövcud deyildir.

2.Amortizasiya edilmiş dəyər standarta görə bu dəyər aktivin ilkin dəyərindən və ya bu dəyəri əvəz edən digər məbləğdən son qalıq dəyərinin çıxılmasından sonra əldə edilən dəyər başa düşülür. Lakin vergi məcəlləsinin əsas anlayışlar hissəsində ümumiyyətlə bu anlayış mövcud deyildir.

3.Standartda göstərilən əsas anlayışlardan biridə aktivlərin müəssisəyə xas olan dəyər anlayışıdır.Belə ki, standartda bu anlayış "aktivin davamlı istifadəsindən və istismar müddənin sonunda silinməsindən və ya öhdəliyin yerinə yetirilməsilə bağlı yaranması gözlənilən nağd vəsait axınının diskontlaşdırılmış dəyəridir" 16 №-li standart ifadə edir. Lakin vergi məcəlləsində bu anlayış mövcud deyildir.Burada diskontlaşdırılmış dəyər anlayışı pulun daxil olacağı andakı vəziyyətə həmin pul vəsaitinin qiymətləndirilməsi başa düşülür.

4. Digər anlayış isə ədalətli dəyər anlayışıdır.Belə ki, standarta əsasən bu anlayışın mahiyyəti "bir-birindən asılı olmayan, yaxşı məlumatlandırılmış və bu cür əməliyyatları həyata keçirməkdə maraqlı olan tərəflər arasında əməliyyatların icrası zamanı aktivlə əvəz edilməsi və ya öhdəliklərin əvəzində ödənilməsi mümkün olan vəsaitlərdir". 16 №-li standart.Vergi məcəlləsində bu anlayış məcəllənin 14.2-ci maddəsində əks etdirilən bazar qiyməti anlayışına bənzəyir. Lakin əsas anlayışlar hissəində ədalətli dəyər anlayışına yer verilməmişdir.

6. Standartda bir digər anlayış isə qiymətdən düşmə zərəridir. Bu anlayış standarta görə "aktivin xalis satış qiyməti və onun istifadə dəyərindən daha yüksək olan dəyəri" anlayışını ifadə edir. Bu anlayışada vergi məcəlləsində yer verilməmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (www.taxes.gov.az ),2022
2. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, 1yanvar 2013 il
3. IAS 16 Property, Plant and Equipment, IASB, revised 2004, para. 29.
4. IAS 36 Impairment of Assets, IASB, 2004

5. Hanlon, M. and, Heitzman S. (2010). A Review of tax research. Journal of Accounting and Economics. Vol: 50. 127-178.
6. www.muhasib.az

**Aysel Əhməd qızı Xudiyeva**
Azərbaycan Turizm və Menecment Universitetinin maqistrantı
E-mail :khudiyeva5@gmail.com

## ORDUMUZUN ŞANLI QƏLƏBƏSİNİN EKSKURSİYA MƏTNİNDƏ İŞIQLANDIRILMASI

### Xülasə

Məqalədə 2020-ci il qələbə qazanmış Azərbaycan ordusunu bütün dünyaya tanıtmaq və gələcək nəsillərə müzəffər ordunun şücaətini, igidliyini, qorxmazlığını çatdırmaq üçün mütəmadi olaraq ekskursiyaların təşkili vacibliyi diqqətə çatdırılmışdır. Ekskursiya zamanı qalib ordunun və Ali Baş Komandanın rəhbərlik etdiyi II Qarabağ müharibəsi zamanı uğurla həyata keçirdiyi hərbi əməliyyatların vacibliyi vurğulanmışdır.

Bütün dünyaya haqq səsimizi öz əməli sübuta yetirən II Qarabağ müharibəsi tarixin şanlı zəfər səhifəsidir.Bu zəfər səhifəsinin müəllifləri isə öz şücaəti, cəsurluğu ilə seçilən qəhrəman Azərbaycan ordusudur.Bu şanlı qələbə güclü Azərbaycan ordusunun davamlı mübarizə əzmi və rəşadətli orduya rəhbərlik edən Ali Baş Komandan İlham Əliyevin davamlı olaraq, hərb sahəsində, ordu quruculuğunda gördüyü işlər nəticəsində qazanıldı. İkinci Qarabağ müharibəsi də illərlə atılan addımların təzahürü hesab edilir. Ordumuzda olan ruh yüksəkliyi, texniki təchizatın davamlı təminatı, xalqımızın birliyi, iradəsi bu mübarizənin qalibiyyətlə nəticələndirdi.

Vətən sevgisi, doğma el-obaya bağlılıq, əzəli torpaqlarımızın düşməndən azad edilmə istəyi qələbəmizi xarakterizə edən şərtlərdən idi.Bir zamanlar baş verən Xocalı soyqırımı hadisələrini görməyən,şəhidlərimizin qisasını almaq hissi ilə böyüyən igidlər 44 günlük Vətən Müharibəsində düşmənə layiqli cavab verdi.Şanlı Azərbaycan ordusu, həm də xalqımız birlik göstərərək düşmən tapdağı altındakı torpaqları işğaldan azad etdilər.

İlk öncə qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan arasında atəşkəs prosesində üç mühüm fasilə yaranıb. Bunlardan birincisi 2016-cı ildə aprelin 2-də başlayan və aprelin 5-də sona çatan 4 Günlük Müharibədir (və ya Aprel Döyüşləri). Bu müharibə Azərbaycan ordusunun uğurlu hücum qabiliyyətinin nümayiş etdirildiyi çox mühüm döyüşdür. İkinci fasilə 2020-ci il iyulun 12-18-də Ermənistanın Tovuza hücumu ilə baş verib. Dağlıq Qarabağa bağlı olmayan və Azərbaycan-Ermənistan sərhədində yerləşən bu bölgəyə hücum dünya ictimaiyyətində də böyük əks-səda doğurdu. Hücum zamanı Azərbaycan ordusundan bir neçə əsgər, zabit və general-mayor Polad Həşimov şəhid olub. Hücumdan sonra Azərbaycanda vətəndaşlar küçələrə çıxaraq Azərbaycan rəhbərliyindən əməliyyata başlamağı tələb ediblər. Üçüncü ciddi toqquşma 2020-ci il sentyabrın 27-də Ermənistanın hücumu və Azərbaycan ordusunun əks hücumu ilə başladı. 44 gün davam edən bu müharibədə böyük itkilər verən Ermənistan məğlubiyyətlə barışaraq Azərbaycan torpaqlarından geri çəkilməli oldu.

Tovuzdakı münaqişələrdən çox keçməmiş Azərbaycan kəşfiyyatı Ermənistanın Qarabağda hücum planlaşdırdığı barədə məlumat aldı. Azərbaycan rəhbərliyi bu məsələ ilə bağlı məlumatları ictimaiyyətlə bölüşərkən hücumu dəf etmək üçün hər cür hazırlıqlara malik olduğunu vurğuladı. Bu kontekstdə müharibədən əvvəl inzibati idarələrdə edilən yeni təyinatlar və vəzifə dəyişiklikləri də diqqət çəkən başqa bir məsələdir. Bu inkişaf son dərəcə vacibdir və müharibədən əvvəlki tədbirlərin bir hissəsi kimi qəbul edilə bilər. Sentyabrın ortalarında Ermənistanın hücum planları ilə bağlı məlumatlar daha aydın oldu.

Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də səhər saatlarında əks hücuma başlayıb. Əks-hücuma başlayan Azərbaycan ordusu uğurlu hərbi əməliyyat idarəçiliyi sayəsində mühüm

mövqeləri öz nəzarəti altına alaraq irəliləməyə davam edib. Münaqişənin gedişatının necə olacağını qabaqcadan görə bilməyən Ermənistan ordusu aldığı zərbələrdən təəccüblənib. İlk hücumlarda 12-i hava hücumundan müdafiə sistemi məhv edilən Ermənistan ordusu Azərbaycan qüvvələrinin silahlı pilotsuz uçuş aparatları və helikopterlərlə uğurlu hücumları qarşısında böyük itki verərək mühüm mövqelərini tərk etməli oldu. Azərbaycan ordusu Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini işğaldan azad etməklə yanaşı, əsas yollarını da öz nəzarətinə götürüb. Digər diqqətçəkən məqam isə Azərbaycan ordusunun mülki erməni əhalisinə qarşı humanist münasibət göstərməsinə baxmayaraq, erməni silahlı birləşmələri Azərbaycana məxsus mülki yaşayış məntəqələrini hədəfə alıb.Bir-birinin ardınca ciddi məğlubiyyətlərə uğrayan Ermənistan, demək olar ki, beynəlxalq təşkilatların və böyük dövlətlərin qapılarına qaçır, onlardan kömək göstərmələrini xahiş edir və vəziyyətə müdaxilə etməklərini istəyirdi. Münaqişə tərəflərinə təqdim olunan atəşkəs təkliflərinə cavab olaraq Ali Baş Komadan İlham Əliyev vurğulayıb ki, Azərbaycan hökuməti yalnız o halda danışıqlar masası arxasına otura bilər ki, Ermənistan ordusu Azərbaycan torpaqlarını tamamilə tərk etsin və Paşınyan administrasiyası beynəlxalq ictimaiyyət qarşısında Azərbaycandan üzr istəsin.

Müharibə zamanı Azərbaycan və Ermənistan orduları arasında fikir ayrılıqları özünü büruzə verdi. Dinc əhaliyə atəş açmamaq, hərbi hədəfləri dəqiqliklə məhv etmək, mümkün qədər az itki ilə irəliləmək Azərbaycan ordusunun uğurunu təmin edən taktiki prinsiplər idi. Ermənistan hərbi maşınlarını daşımağa belə imkan tapmadan döyüş meydanından qaçaraq dinc əhaliyə hücum edərək Azərbaycanı yeni təxribata çəkmək istəyirdi. Lakin Azərbaycan ordusu əvvəldən qoyduğu prinsiplər çərçivəsində hərəkət edərək, tədbirli və sabit mövqeyini qoruyub saxladı. Müharibə zamanı Rusiya tərəfləri bir araya gətirərək, onlara atəşkəs imzalamağı təklif etdi.

Sentyabrın 27-dən noyabrın 9-dək olan müddətdə Azərbaycan ordusu iki yüz doxsandan çox yaşayış məntəqəsini işğaldan azad etdi. Nəhayət, Şuşanın işğaldan azad edilməsi Ermənistan rəhbərliyini məğlubiyyətlə barışmağa məcbur etdi. Qondarma Dağlıq Qarabağın lideri Arayik Arutyunyan “Münaqişələr eyni sürətlə davam etsəydi, bir neçə günə bütün Qarabağı itirərdik. İmzalanmış müqavilənin məcburi olduğunu və dəyişdirilə bilməyəcəyini etiraf etməsi” Azərbaycan ordusunun cəbhədəki qələbəsini ortaya qoyur.

Müharibə ərəfəsində Azərbaycanda xalq-ordu həmrəyliyi son dərəcə güclü olub, Azərbaycan xalqı yüksək vətənpərvərlik ruhu, qələbə əzmi və inamını nümayiş etdirib. Cəbhədə böyük itkilər verən Ermənistan davamlı olaraq ölkəmizə qarşı əks təbliğat apararaq, yalan məlumatlar çıxararaq, saxta ittihamlar irəli sürməklə dünya ictimaiyyətini və öz xalqını aldadaraq vaxt udmağa və bu müddətdə hadisələrin gedişatını dəyişməyə və üçüncü qüvvələri müharibəyə cəlb etməyə çalışıb.Azərbaycan ordusu isə öz gücünü göstərərək 4 oktyabr Cəbrayılı,9-u Hadrut qəsəbəsini,17-i oktyabr Füzulini,20-i Zəngilanı və 25 oktyabr isə Qubadlı işğaldan azad etmişdir. Getdikcə irəliləyən ordumuz noyabr ayında da mədəniyyət paytaxtımız olan Şuşanı düşmən tapdağından geri almışdır.

Lakin onların bununla bağlı gözləntiləri özünü doğrultmadı, əsgər, silah-sursat baxımından itkilər günü-gündən artdı və 8 noyabr 2020-ci il tarixində Şuşa şəhəri Azərbaycan ordusu tərəfindən işğaldan azad edildikdən sonra aciz qalan düşmən ordusu məğlubiyyəti qəbul etdi.

2020-ci il noyabrın 10-da Rusiyanın rəhbərliyi ilə qəbul edilən Üçtərəfli Bəyanat müharibəni dayandırdı və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını təyin etdi. Bu müqaviləyə əsasən, Ermənistan ordusu noyabrın 15-də Kəlbəcərdən, 20-də Ağdamdan, dekabrın 1-də isə Laçından çıxmağa razılaşdı. Kəlbəcərdən geri çəkilmə müddəti sonradan noyabrın 25-dək uzadıldı. Erməni ordusu ilə yanaşı, işğal olunmuş ərazilərdə yaşayan erməni köçkünləri də rayonu tərk edərək daşıya bildikləri qədər mal, tikinti materialları, taxta, heyvan yemi və s. Onları yük maşınları ilə Ermənistana aparıb, qoyub getdikləri evləri, meşələri yandırıblar.

Sentyabrın 27-də başlayan toqquşmalar 44 gün davam etmiş, Azərbaycan ordusu apardığı uğurlu əməliyyatlar nəticəsində böyük qələbə qazanmış, 286 kənd, 4 qəsəbə, 5 şəhəri Ermənistanın işğalından azad etmişdir.

II Qarabağ savaşı hərbi ekspertlərin diqqətini özünün strateji və taktiki nailiyyətlərinə, eləcə də texnoloji vasitələrdən istifadəsinə yönəldən son dərəcə maraqlı müharibədir. Gələcəkdə bu müharibə ilə bağlı müharibə mütəxəssislərinin maraqlı şərhlərinin şahidi ola biləcəyik.

Qələbə qazanmış Azərbaycan ordusunu bütün dünyaya tanıtmaq və gələcək nəsillərə müzəffər ordunun şücaətini, igidliyini, qorxmazlığını  çatdırmaq üçün mütəmadi olaraq ekskursiyaların təşkili vacib məqamlardan hesab edilir. Ekskursiya zamanı qalib ordunun və Ali Baş Komandanın rəhbərlik etdiyi II Qarabağ müharibəsi zamanı uğurla həyata keçirdiyi hərbi əməliyyatları ekskursantların diqqətinə çatdırmaq lazımdır.

Ekskursiya zamanı Şuşa döyüşlərini xüsusilə ilə vurğulamaq lazımdır. Beləliklə Şuşa hər bir azərbaycanlının canında, qəlbində yaşatdığı vətəndir. Hətta bir dəfə görə bilməyənlər üçün də bu belədir. 44 günlük müharibənin taleyini isə Şuşa müəyyənləşdirdi. Xəbərlər gəlməyə başladı ki, Azərbaycan əsgərləri Şuşaya yaxınlaşır. Xalq bilirdi ki, Şuşanı azad etmək asan olmayacaq çünki Şuşa dağların zirvəsində tikilmiş, çətin əldə edilə bilən qala idi.Bu qalaya isə Azərbaycan ordusu çətinliklə də olsa daxil ola bildi.

Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı qüvvələri "Dəmir yumruq" əməliyyatı adı altında işğal edilmiş ərazilərimizin azadlığı uğrunda 44 günlük şanlı tariximizi yazan zəfər yürüşünə başladı. Dərindən düşünülmüş hərbi strategiya, döyüş əməliyyatlarının məharətlə keçirilməsi, vəziyyəti nəzarətdə saxlamağa qadir olan döyüş taktikasi, Ali Baş Komandanın prosesi yüksək peşəkarlıqla idarə etməsi qələbəyə gedən yolumuzu daha da tezləşdirdi. Belə ki, düşmən bu ərazilərə faktiki, eyni zamanda praktiki cəhətdən bələd idi. Həmçinin, döyüşlərdə iştirak etmiş bir çox əsgər və zabitlərimiz bu coğrafiyada ilk dəfə idi ki vuruşurdu. Bizim qarşımızdakı ordu isə bu yerləri daha yaxşı tanıyırdı. Ermənistan pulsuz əldə etdiyi texnika və hərbi surstlar hesabına yüksək dərəcədə təminatlı orduya malik olsada ordularımızın onlara qarşı istifadə etdiyi pilotsuz uçuş aparatları (PUA), "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən və "Zərbə" dronlarından qaçışları mümkün olmamışdır. Əsasını Heydər Əliyevin qoyduğu ordu quruculuğumuz İlham Əliyevin təşəbbüsü ilə bu dövr ərzində inkişaf etdirilmiş, muasir standatlara cavab verən silahlar və artilleriya eyni zamanda müxtəlif tip qoşun növləri ilə düşmən ordusunun önünə çıxmışdı. Əsgər və zabitlərimiz bu 44 gün ərzində Ermənistanın 30 ilə yaxın bir müddətdə qurduğu istehkamları yararaq keçirdi. Davam edən müharibə dövründə isə 4 oktyabrda Cəbrayıl şəhəri, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhəri düşmən qüvvələrinin işğalından azad edildi. Bizim ekskursiya marşrutumuz da bu rayonların və şəhərlərin işğaldan azad olunması tarixi ardıcıllıqla davam edəcəkdir. Sonra isə, Fizulidən birbaşa Şuşaya hərəkət edən Ordumuzun qəhrəman övladları öz missiyasını yerinə yetirdi. Onlar Şuşa şəhərini böyük şücaət və mərdliklə azad etdilər. Belə ki, Azərbaycanın Xüsusi təyinatlıları dağlardan, meşələrdən, sıldırım qayalardan, yanğanlardan keçərək, düşmənin gözləmədiyi yerlərdən qalaya daxil oldular, əlbəyaxa döyüşdə düşməni məhv etdilər. 8 noyabrda Şuşanın işğaldan azad edilməsi tarixi bir nailiyyət idi. Bundan sonra düşmənin təslim olmaqdan qeyri yolu olmadı. Ermənistan ordusu demək olarki məhv edilmişdi, 10 mindən çox fərarisi olan Ermənistan ordularının yenilməzliyi haqqındaki mifi Azərbaycan ordusu məhv etdi, Azərbaycan ordusu öz gücünü göstərdi.[5]

Bundan əlavə Dəmir yumruq əməliyyatının yaddaşlara həkk olunması və gələcək nəsillər üçün örnək bir nümunə olduğunu çatdırmaq üçün Xocavənd rayonun Ağoğlan(Hadrut)qəsəbəsində Dəmir yumruq abidəsi ucaldılıb.Yumruğun üzərində əsgər təsvirləri və pilotsuz uçuş aparatlarını görmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. M.A.Pənahi, Rəftar Cəliloğlu, XVIII əsrin 90-cı illərində Qarabağ əhalisinin yadelli işğalçılara qarşı mübarizəsi tarixindən,Bakı, 2012.
2. Nazim Məmmədov, Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi, Bakı, 2016.
3. Şuşa-Qədim Azərbaycan Diyarı,Bakı,2009.
4. Vaqif Bayramov, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, Xalq qəzeti, məqalə, 2021, 29 iyul, s.1.
5. 525.az,https://525.az/news/158553-demir-yumruq-emeliyyatina-geden-yol

**Hüseyn Vadər oğlu İdriszadə, ADNSU**
E-mail: huseyn.adnsu@gmail.com

Elmi rəhbər: dosent **Sədaqət Vəli İbrahimova**
E-mail: ibrahimovasadagat06@gmail.com

# MÜASİR BAZAR İQTİSADİYYATI DÖVRÜNDƏ AZƏRBAYCANIN XİDMƏT SAHƏLƏRİNİN MÖVCUD FƏALİYYƏTİ VƏ PRİORİTETLƏRİ

**Xülasə**

"Müasir bazar iqtisadiyyatı dövründə Azərbaycan Respublikasının xidmət sahələrinin inkişafı, mövcud fəaliyyəti və gələcəyə dair prioritet məsələlər" adlı bu məqalədə xidmət sahəsi ilə bağlı dünya alimlərinin fikirləri, Azərbaycan Respublikasının son üç ilə aid iqtisadi vəziyyəti, xidmət sahələrinin inkişaf istiqamətləri, onların hazırki vəziyyəti ilə bağlı məsələlər qeyd olunmuşdur. Məqalədə Azərbaycan Respublikasının turizm, təhsil, səhiyyə, idman, sosial xidmətlərlə bağlı siyasəti, bu xidmət sahələri ilə bağlı Dövlət Statistika Komitəsinin rəsmi hesabatları yer almışdır.

**Açar sözlər:** innovasiya, xidmət, istehsal, məşğul əhali, turizm, təhsil, səhiyyə, idman.

Müasir dünyada hər bir ölkənin milli iqtisadiyyatında xidmət sahələrinin fəaliyyəti və hazırki vəziyyəti onun iqtisadi inkişaf səviyyəsini müəyyən edən əsas faktorlardandır. Bu sahənin dünya alimləri saysız iqtisadi tədqiqatlar aparmış və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün faydalı təkliflər irəli sürmüşdürlər. İlk öncə xidmətin nə olduğuna nəzər salaq. Xidmət nədir? F.Kotler xidmət haqqında belə demişdir: "O, ehtiyacların, tələbatların ödənilməsi məqsədilə tərəflər arasında mübadilə aləti rolunu oynayan, gözlə görülməyən, lakin iqtisadi dəyərə malik olan əmək fəaliyyətinin nəticəsidir." K.Lavkov isə qeyd edirdi ki, xidmət bazarda dəyər yaradan, öz istehlakçılarının arzu və istəklərinə nəzərən tənzimlənən, onların maraqlarına xidmət edən, müəyyən üstünlüklər yaratmaq qabiliyyətinə sahib olan iqtisadi fəaliyyətdir. R.Maleriyə görə, xidməti müəssisələr tərəfindən satış məqsədilə istehsal edilən qeyri-maddi aktivdir. K.Qrenro isə hesab edirdi ki, xidmətlər fiziki ölçülərə və meyarlara sahib olamayan, gözlə görülməyən, insanların qarşılıqlı kommunikasiyasına əsaslanan proseslərin cəmidir. Təkrar emalın makroiqtisadi modelinin müəllifi F.Kene qeyri-maddi istehsalın iqtisadiyyata rolunun çox cüzi olduğunu vurğulayaraq, əsas aparıcı istiqamətin kənd təsərrüfatı olduğunu bildirmişdir. Bu fikrin əksinə olaraq A.Smit cəmiyyətdə yer alan musiqiçilərin, hüquqşünasların, tacirlərin, rəssamların və.s əhalinin qeyri-məhsuldar işçilər qrupuna daxil olaraq milli iqtisadiyyata müəyyən mənada səmərə verdiyini açıqlayır.[7]

Tanınmış iqtisadçıların fikirlərini ümumiləşdirərək xidmətin tərifini bu şəkildə ifadə edə bilərik: Xidmət – faydalı iş əmsalının müsbət olmasına yönələn, hər hansı tələbatın ödənilməsini təmin edən fəaliyyətlərin məcmusudur.

Xidmətlərin inkişafı, həyat tsiklı və.s məsələlər xidmət bazarlarında tədqiq edilir və xidmət bazarının konyunkturası istehsal bazarından fərqlənir. Onun yaranması və inkişafı üçün müəyyən təbii şəraitin olması vacibdir:

- Ölkədə siyasi sabitliyin hökm sürməsi;
- Hüquqi bazanın təkmil olması;
- İnnovasiyaların tətbiqi üçün maliyyə resurslarının olması;
- İqtisadiyyatın dinamik olması;
- Demoqrafiya səviyyəsinin və əhali məşğulluğunun müsbət olması;

Elmi texniki tərəqqinin (ETT) sürətli inkişafı istehsal proseslərinin genişləndirilməsinə, yeni məhsulların yaradılmasına səbəb olur. Bütün bunların fonunda xidmət sahələri də inkişaf edir, çünki xidmət bazarı istehsal bazarından birbaşa asılıdır. İstehsal prosesinə tətbiq edilən innovasiyalar nəticəsində məhsulların daşınması, satışı və.s əməliyyatlar yeni növ xidmətlərlə müşaiyət olunur.

Dünya iqtisadiyyatına nəzər saldıqda şahidi oluruq ki, ölkədə xidmət sahələrinin inkişafını iki əsas göstəriciyə əsasən təhlil edirlər:

- Xidmət saəhlərinin ümumdaxili məhsuldakı (ÜDM) payı;
- Xidmət sahələrində çalışan məşğul əhalinin sayı.

Ən son məlumatlara əsasən deyə bilərik ki, ABŞ-da əhalinin 73, Almaniya Federasiyasında 41, İtaliyada 35%-i xidmət sektorunda çalışır. Azərbaycan Respublikasında xidmət sektorunda çalışanlar məşğul əhalinin 53%-ni təşkil edir. Ölkəmizdə xidmət sahələrinin ÜDM-dəki payı isə, 29%-dir ki, bu göstərici də, bu sahənin hələ də müəyyən çatışmazlıqlarının olmasını və yeni islahatlara ehtiyacı olduğunu sübut edir.

Qloballaşan bazar iqtisadiyyatı sistemində xidmət sahələrinin inkişafını sürətləndirən amillərə aiddir:

- Urbanizasiya səviyyəsinin yüksəlməsi;
- Adambaşına düşən gəlirlərin artması;
- İnkişaf etmiş ölkələrlə (İEÖ) iqtisadi münasibətlərin intensivləşməsi;
- Beynəlxalq ticarətin artması;
- Təqaüdçülərin xidmət sferasına cəlb edilməsi;
- Təhsil səviyyəsinin yüksəlməsi;
- İqtisadi islahatların aparılması fonunda milli iqtisadiyyatın dirçəlməsi;
- Sosial infrastruktur obyektlərinin dislokasiyasının genişləndirilməsi;
- Yeni texnologiya və innovasiya layihələrinin iqtisadiyyata tətbiq edilməsi;
- Yerli və xarici investorların sərmayə qoyuluşlarının artması və.s

Bu gün Azərbaycanda bu sahəyə dövlətin diqqət göstərməsinin şahidi oluruq. 2011-ci ildən bazar iqtisadiyyatı sisteminə keçən milli iqtisadiyyatımızda dövlətin özəlləşdirilmə siyasətinə verdiyi dəstək, 2014-cü ildən başlayaraq ÜDM-də qeyri-neft sektorunun çəkisinin artması bunu deməyə əsas verir.[8]

İndi isə, Azərbaycanda xidmət sahələrinin bu günkü vəziyyətinə və gələcəyə dair prioriet məqsədlərinə nəzər salaq.

Turizm. Azərbaycan Respublikasının təbii coğrafi mövqeyi, tarixi abidələri, rekreasiya imkanlarının çox olması bu gün turizmin inkişafına böyük təkan verməkdədir. Dövlət büdcəsində turizm gəlirləri ilə bərabər bu sektora sərf olunan xərclər də artmaqdadır. Bu da, öz növbəsində dövlətin bu sahəyə nə qədər maraq göstərməsinin nümunəsi kimi qiymətləndirilə bilər.

Məhz bunun nəticəsidir ki, 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi, elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması turizmin inkişafında yeni bir mərhələ oldu. O cümlədən bu sahə üzrə savadlı mütəxəssislərin hazırlanması məqsədilə prezidentin sərəncamı ilə Turizm və Menecment Universiteti yaradıldı. Bu islahatların davamı olaraq Azərbaycan Hotel Assosiasiyası, Bələdçilər Assosiasiyası, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası və bu kimi ictimai birliklərin yaradılması turizm sənayesində bir ilkdir [5].

Şanlı qələbəmizlə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra torpalarımızın işğaldan azad edilməsi ilə həmin bölgələrimizdə ağıllı kəndlərin salınması, flora və fauna örtüyünün bərpa edilməsi, hava limanlarının tikilməsi turizmin bərpasında böyük rol oynayacaqdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən qonşu ölkələrdən ölkəmizə gələn turistlərin sayı son 3 ildə aşağıdakı kimi olmuşdur. (Cədvəl 1)

**Cədvəl 1**

| Ölkələr | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Cəmi (bütün ölkələr üzrə) | 2 849 592 | 3 170 373 | 795.722 |
| Rusiya Federasiyası | 880.029 | 932 984 | 225.201 |
| Gürcüstan Respublikası | 610.556 | 725 465 | 184.228 |
| İran İslam Respublikası | 241.124 | 255 628 | 72.783 |
| Türkiyə Cümhuriyyəti | 291.499 | 316 628 | 160.504 |

Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhsil. Hər bir ölkənin inkişafında təhsilin rolu böyükdür. Təhsildə müvəffəqiyyət əldə edən xalqlar daim uğurlara imza atır və bu hər sahədə özünü göstərir. Azərbaycanda da təhsilə daim

diqqətlə yanaşılır. 2005-ci ildə təhsil müəssisələrinin latın qrafikalı ana dilində çap olunmuş kitablarla təmin edilməsi, dərsliklərin pulsuz paylanması, 2007-ci ildən bu günə qədər Dövlət Neft Fondunun maliyyə dəstəyi ilə minlərlə gəncin xaricə təhsil alması üçün göndərilməsi buna nümunədir. Bu gün Təhsil Nazirliyinə təqdim olunan plan yerlərinin sayında dövlət sifarişli yerlərin sayının hər il artırılması da dövlətin savadlı mütəxəssislər yetişdirməkdə və təhsilin inkişafında maraqlı olduğunun isbatıdır. Ali təhsilə dövlətin mühüm dəstəklərindən biri də "Təhsil Tələbə Krediti"-nin təsis edilməsi oldu ki, bu da, ödənişli əsaslarla təhsil alacaq tələbələrin maliyyə ehtiyaclarını qarşılamaqda onlara böyük kömək etmiş oldu.

Son 15 ildə Azərbaycanda 3500-dən çox ümumtəhsil məktəbi yenidən tikilmiş və bərpa edilmişdir. Hal-hazırda Azərvbaycanda 4400-dən çox ümumtəhsil məktəbi fəaliyyət göstərməkdədir.[3] Bunlara misal olaraq yaxın günlərdə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın Bakının Sabunçu rayonunda təmir-bərpa işlərindən sonra açılışını etdikləri 304 nömrəli tam orta məktəbin adını çəkə bilərik. Adı çəkilən məktəbdə təmirdən sonra sinif otaqlarının sayı artırılmış, yeni idman zalı, yeməkxana, laboratoriyalar şagird və müəllimlərin istifadəsinə verilmişdir.

Bu layihələr təkcə şəhər və rayonları deyil, ucqar dağ kəndlərinin məktəblərini də əhatə edir. Hər il müxtəlif kənd məktəbləri yenidən qurulur və ya müasir modul tipli məktəblərlə əvəz edilir.

Diqqət ayrılan sahələrdən biri də məktəbəqədər təhsil müəssisələri və bağçalardır ki, burada da mühüm infrastruktur yenilənmələrinin şahidi oluruq. Məktəbəqədər təhsil müəssisələrinin və uşaq bağçalarının Təhsil Nazirliyinin tabeliyinə verilməsi həmin müəssisələrin inkişafına müsbət təsir göstərəcəkdir.




Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 1. Ümumtəhsil müəssisələrində təhsil alanların sayı.**

Səhiyyə. Azərbaycan Respublikasında səhiyyə xidmətləri pulsuzdur. Bu gün ölkəmizin bütün rayonlarında və şəhərlərində dövlət xəstəxanaları, tibb məntəqələri, diaqnostika mərkəzləri, reabilitasiya mərkəzləri fəaliyyət göstərməkdədir. Azərbaycanda səhiyyə sahəsində idxalı azaltmaq və ixrac potensialını artırmaq məqsədilə dövlət elmi araşdırmalara külli miqdarda vəsaitlər ayırır. Naftalan neftinə, Naxçıcan Duzdağına, Kəlbəcər İstisuyuna, yüzlərlə şəfalı palçıq vulkanlarına ev sahibliyi edən Azərbaycanda bu sahənin inkişafına təbii olaraq hər bir şərait vardır.

Azərbaycan səhiyyə xidmətlərindəki inkişafa nəzər salaq. Bu sahədə aparılan islahatlardan ən mühümü Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin yaradılması olmuşdur. Bununla da Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri (müəyyən istisnalarla) 2020-ci ilin yanvar ayından TƏBİB-in tabeliyinə verilmişdir.

Elə həmin tarixdən etibarən qurumun tabeliyinə verilmiş tibb müəssisələrinin zəruri şərait və avadanlıqlar ilə təminatına başlanılmışdır.

2019-cu ilin dekabrından bütün dünyanı cənginə alan yeni növ koronavirus səhiyyə sahəsindən də təsirsiz ötüşmədi. Dünya səhiyyəsi və Azərbaycan fövqəladə vəziyyətlə üz-üzə qalmışdı. Buna baxmayaraq ölkəmizdə vaxtında görülən tədbirlər nəticəsində xəstəliklə mübarizə ən optimal səviyyədə idi. Bunun nəticəsidir ki, Azərbaycan bu bəladan ən az iqtisadi zərər və insan tələfatı ilə

qurtula bilən dövlətlərdən biri oldu. Ölkəmizdə iyulun 1-nə qədər karantin rejimi tətbiq edilməsinə baxmayaraq, bəzi qadağalar ləğv edilmiş və ya yumşaldılmışdır.

Pandemiya zamanında Azərbaycan Respublikası qısa müddət ərzində aşağıdakı tədbirləri görməkdə müvəffəq oldu:

- Koronavirusla mübarizə məqsədilə 13 modul tipli, 1 daimi xəstəxana istifadəyə verildi;
- Dövlət tibb müəssisələrində əlavə çarpayıların sayı 10 minə çatdırıldı;
- Ölkəyə Çin, Rusiya və Almaniyadan yeni növ virus əleyhinə vaksinlərin idxalına başlanıldı;
- Tibb müəssisələri virus əleyhinə müalicə vasitələri, xüsusi aparat və cihazlarla təmin edildi;
- Tibb müəssisələri 5300 kompüter, 6100 barkod cihazı, 2260 printerlə təmin edildi;
- 14 tibb müəssisəsi optik internetlə təmin edildi;
- Daxili tələbatı ödəmək, o cümlədən ixrac məqsədilə tibbi maska istehsalı zavodu istifadəyə verildi;

Xəstələrin, peyvənd olunanların qeydiyyatını aparmaq məqsədilə internet portalı istifadəyə verildi.

Azərbaycan Respublikası səhiyyə xidmətindəki islahatlarla bərabər Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə də öz tərəfdaşlığında nümunəvi ölkələrdən biri idi. Pandemiya zamanında ölkəmiz ÜST-ə 10 milyon dollar maliyyə yardımı etmiş, o cümlədən 30-dan çox ölkəyə humanitar yardım və dərman preparatları göndərmişdir. Həmin dövrdə sahibkarlara 2 milyard dollar maliyyə dəstəyi göstərilmişdir. Dünyada pandemiyanın davam etdiyi bir vaxtda Azərbaycan Qoşulmama Hərəkatının iclasında peyvəndlərin bərabər paylanılması və aztəminatlı ölkələrin humanitar yardımlardan kənarda qalmaması üçün qətnamə irəli sürmüş və bu qətnamə yekdilliklə qəbul edilmişdir. Sadalananlar ölkəmizdə və regionda Azərbaycanın humanitar ölkə olmasını deməyə əsas verir.

Səhiyyə xidmətlərində tətbiq olunan yeniliklərdən biri də icbari tibbi sığortadır. İcbari tibbi sığorta vasitəsilə vətəndaşlar xidmətlər zərfinə daxil olan bütün tibbi xidmətlərdən TƏBİB-in tabeliyindəki tibb müəssisələrində, həmin xidmətlərin göstərilməsi mümkün olmadıqda isə özəl klinikalarda bunlardan yararlana bilərlər.[6]

İdman. İdman sahəsi ölkəmizdə dövlət səviyyəsində dəstəklənir və bu sahə dövlət siyasətinin əsasını təşkil edir. Ulu öndər Heydər Əliyev hər zaman gənclərin asudə vaxtlarının səmərəli keçirməsini, onların sağlam yaşaması üçün idmanın rolunu və bunun dövlətin daim diqqət mərkəzində olmasını vurğulamışdır. 2000-ci il Sidney Yay Olimpiya Oyunlarının iştirakçılarını qəbul etdiyi zaman o, idmançılarımıza uğurlar arzulamış və onlarla fikirlərini bölüşmüşdür. Hər il Azərbaycanda 2 Fevral – Gənclər Günü kimi qeyd olunur.

Bu siyasətin davamı olaraq hər il regionlarda Olimpiya Komplekslərinin açılışına şahid oluruq ki, bu da ölkə gənclərinin sağlamlığına, onların idmana yönəlməsinə dəstəkdir. 1997-ci ildə Milli Olimpiya Komitəsinin sədri seçilən İlham Əliyev həmin vəzifəni icra etdiyi vaxtdan prezident olduğu zamanlarda da idmanın Azərbaycan Respublikasının dövlət siyasəti olduğuna diqqət çəkmişdir.

Ölkəmiz idman sahəsində beynəlxalq yarışlara ev sahibliyi edərək dünyada idman ölkəsi kimi tanınmağa müvəffəq olmuşdur. 2015-ci ildə I Avropa Olimpiya Oyunlarına ilk ev sahibliyini edən Bakıda möhtəşəm idman yarışları keçirildi. Həmin oyunların təşkilat komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi ilə Bakıda "Bakı Olimpiya Kompleksi", "Su İdmanı Sarayı", "Əl Oyunları Sarayı", "Gimnastika Arenası", "Heydər Əliyev adına İdman Kompleksi", idmançıların rahatlığını təmin etmək üçün "Atletlər kəndi" çox az bir müddətdə tikilib istifadəyə verilmişdir. 2016-cı ildən bu yana ölkəmiz həm də "Formula 1" yarışlarına ev sahibliyi edir. Bunlarla yanaşı 2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir.[4]

Sosial xidmətlər. Vətəndaşlara sosial xidmətlərin göstərilməsinin operativliyini təmin etmək üçün 13 iyul 2012-ci il, 685 saylı Fərmana əsasən "ASAN xidmət" yaradıldı. ASAN xidmət Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tabedir. İlk pilot mərkəz 29 dekabr 2012-ci ildə Bakıda fəaliyyətə başladı. Həmin mərkəzdə 9 dövlət orqanının 23 xidməti vətəndaşların ixtiyarına verilmişdi. Bu gün 21 ASAN mərkəzi fəaliyyət göstərir ki, onlardan 6-sı Bakı şəhərində, 15-i bölgələrdə fəaliyyət göstərir. 2020-ci ildə Kürdəmir, Ağcabədi, Tovuz və Balakən regional ASAN mərkəzlərinin açılışı olmuşdur. Son statistikaya görə mərkəzin göstərdiyi xidmətlərin sayı 44 milyondan çox olmuşdur.[1]




**Şəkil 2. 2021-ci ilin əvvəlinə ölkənin şəhər və rayonları üzrə əhalinin hər 10 000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı**

Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizdə fəaliyyət göstərən xidmət orqanlarından digəri DOST agentliyidir. Agentlik prezidentin 9 avqust 2018-ci il, 229 saylı Fərmanına əsasən yaradılmışdır. İlk DOST mərkəzinin açılışı 9 may 2019-cu ilə təsadüf edir. Hal-hazırda Bakı şəhəri üzrə 1, 2, 3, 4 saylı Bakı DOST mərkəzləri və 5 saylı Abşeron DOST mərkəzi fəaliyyət göstərməkdədir. 2025-ci ilin sonuna qədər mərkəzlərin sayının 17-ə və 55 rayon bölməsinin açılması nəzərdə tutulur. Bu qurum Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindədir. Əhalinin sosial təminat, məşğulluq, əlillik və.s məsələləri ilə bağlı xidmətlərini təklif edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://asan.gov.az
2. https://dost.gov.az
3. https://edu.gov.az
4. https://mys.gov.az
5. https://republic.preslib.az
6. https://sehiyye.gov.az
7. İ.Əliyeva, “Xidmət sahələrinin kommersiyası” (dərs vəsaiti), Bakı – 2016
8. S.İbrahimova, “Qeyri-neft sənayesinin iqtisadiyyatı” (dərslik), Bakı – 2020

**Turanə Cahangir qızı İsmayılova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
E-mail: turane.ismayilova.ifrit201@teams.dia.edu.az

# ELEKTRON MARKETİNQ SİSTEMİNİN TƏTQBİQİ VƏ ONUN PROQRAM TƏMİNATI

**Xülasə**

Proqramlaşdırma – proqram yaratmaqla bağlı nəzəri və praktiki yaradıcılıq sahəsidir. Dünyada 8500-ə yaxın proqramlaşdırma dili mövcuddur,  lakin ən çox istifadə olunan dillərin sayı 10-dan artıqdır. Bu, tələbatın az olması və nəticədə məhsulun zəif satılması, dil yaradıcıları ilə dil tapa bilməməsi və müxtəlif qüsurlardan qaynaqlanır. Çoxu bu cür düşünür və şərh edir: Pascal və DELPHI – öndədi! Ümumiyyətlə, ən yaxşı proqramlaşdırma dili Hello World sözündən daha əhəmiyyətli bir şey yaza biləcəyiniz bir dil hesab olunur. Bəzən insanlar eşidəndə ki, proqramçısan demək olar ki, hər şeyi edə biləcəyinizi düşünür – kompüterin təmirindən tutmuş proqram yazmağa qədər proqramçının ixtisaslaşmasına aid olmayan inanılmaz müxtəlif istəklərlə yanaşırlar. Hər şey – telefonda internet qurmaq və ya planşeti düzəltmək, hətta tozsoranı və televizoru düzəltməyi də təklif edirlər. Unutmayın ki, hər bir insanın, o cümlədən proqramçı da daxil olmaqla öz ixtisaslaşma fərqləri var. Dil dedikdə isə istənilən işarələr sistemini başa düşəcəyik. İşarə dedikdə isə informasiyanı ötürmək üçün xüsusi seçilmiş bir obyekt nəzərdə tutulacaq. Məsələn: kağızdakı hərf, əl işarəsi, sifətin ifadəsi, çeviricinin vəziyyəti və s. Bu çox ümumi bir tərif olduğundan bura heyvanların təbii dillərini, insanların dillərini də daxil etmək olar. Müxtəlif dillərin olması bir dildən başqa bir dilə tərcümə (translyasiya) problemini yaradır. Belə baxanda, bizim bütün fəaliyyətimiz bu və ya başqa mənada translyasiya ilə bağlıdır. Biz şüurumuzda olan daxili təsəvvürləri nitqə, hərəkətə və s. çeviririk və tərsinə.

**Açar sözlər:** *Elektron marketinq , proqramlaşdırma , proqram təminatı*

## Giriş

Rəqəmsal marketoloqların kodlaşdırma bacarıqlarını öyrənməsinin üç səbəbi bunlardır:

***Bu, marketinq alətlərinizi təkmilləşdirəcək***

Tamamilə fərqli insanlar komandasına müraciət etmədən şəklin ölçüsünü uğurla dəyişmək və ya mətni kursivləşdirmək gözəl olmazdımı? HTML haqqında sadəcə əsas biliyə sahib olmaq sizə bu kiçik dəyişiklikləri özünüz etməyə imkan verir, həm komandanız, həm də onların komandası üçün vaxta qənaət edirsiniz. Əslində, bir neçə proqramlaşdırma dili ilə tanışlıq bir çox əsas rəqəmsal marketinq taktikalarının effektivliyini artıra bilər. Məsələn, daha yaxşı görünən fərdi e-poçt kampaniyaları yaradın və bir az HTML və CSS bilikləri ilə əsas A/B testini həyata keçirin. JavaScript-in əsas anlayışı ilə siz Google Adwords-i avtomatlaşdıra bilərsiniz və bu, analitikanı yerləşdirməyə və izləməyə imkan verəcək JavaScript və HTML-dir.

***Bu, nəyin lazım olduğunu və nəyin mümkün olduğunu başa düşməyə kömək edəcək***

Çox əsas səviyyədə kodlamağı öyrənmək işlədiyiniz texnologiyanı anlamağa kömək edəcək. Rəqəmsal marketoloq kimi əlinizdə olan texnologiyalardan istifadə etmək kifayət qədər görünsə də, rəqabət üstünlüyünüz bu texnologiyaların necə işlədiyini başa düşməyinizdədir. Hətta mümkün olanı qavramaq, başqalarının etdiklərinə baxmaqdansa, müstəqil şəkildə ilham tapmaq imkanı verir. Kodlamağı öyrənmək sizə innovativ ideyaları həyata keçirmək üçün yeni imkanlar verəcək.

***Bu, tərtibatçılarla əlaqəni yaxşılaşdıracaq***

Yeni bir marketinq kampaniyası hazırlayarkən, planı yaradan rəqəmsal marketoloqlar ilə onu həyata keçirən veb tərtibatçıları arasında anlaşılmazlıqdan nə qədər problem yaranır? Bir neçə proqramlaşdırma dilinin əsaslarını öyrənmək və hətta linqo bilmək lazımsız yanlış ünsiyyətin qarşısını almaq üçün uzun bir yol keçə bilər. Prosesi başa düşmək vaxtınızdan və büdcənizdən maksimum yararlanmağa kömək edəcək; İdeyalarınızı həyata keçirəcək insanlarla məlumatlı

müzakirə aparmaq biliyə malik olmaq sizə xərc və vaxt çərçivəsində daha aydın danışmağa imkan verir.

**Nəticə**

Gəlin bununla üzləşək. İşlər, xüsusən də rəqəmsal sahədə daha çox fənlərarası xarakter alır. Keçən il, hibrid istedadlar axtaran dörddə bir milyondan çox iş elan edildi. Rəqəmsal marketoloqlar üçün tələb olunan bilik genişliyi hər gün böyüyür. Bəzi proqramlaşdırma dillərini peşəkarlara həvalə etmək lazım gəlsə də, HTML, CSS və hətta JavaScript-də əsas biliklər öz işlərində effektiv və yenilikçi olmağa çalışan rəqəmsal marketoloqlar üçün lazım olmadıqda faydalı alətlərə çevrilir.

Bəs niyə? Niyə bunu peşəkarların öhdəsinə buraxmayaq? Əgər kiçik bir şirkətdə və ya startapda işləyirsinizsə, onda siz artıq çoxlu papaqlar taxırsınız və əsas kodlaşdırma bacarıqlarını öyrənmək yalnız işinizi asanlaşdıracaq. Tərtibatçılar komandasına çıxışı olan rəqəmsal marketoloqlar üçün kodlamağı öyrənməyin işinizi də asanlaşdıracağına təəccüblənə bilərsiniz! Ən yaxşısı isə marketinqinizi daha innovativ və effektiv edəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. http://www.https://developia.az/edu/?p=14370.com/TERM/E/ERP.html.
2. https://www.correcttechno.az/proqramlasdirma/ .
3. https://www.ichanical.com/programming-languages-digital-marketing/

**Araz Fazil oğlu Qasımov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrantı
E-mail: araz.qasimov97@mail.ru

# RƏQƏMSAL XİDMƏTLƏRİN TURİZM XİDMƏTLƏRİNƏ VƏ OTEL BİZNESİNƏ İNTEQRASİYASI

Xidmətlərin rəqəmsal transformasiyası prosesi inkişaf etmiş regionlarda turizm sektorunda çalışan işçilərin karyera yüksəlişinə töhfə verməklə yanaşı, inkişaf etməkdə olan regionlardakı işçilərə peşədə özlərini ifadə etmək imkanı yaradır. Rəqəmsallaşdırma prosesləri və qeyri-adi turizm məhsullarının (məsələn, virtual reallıq) yaradılması ideyaları bütün dünyada turistlərin marağını artırmaq üçün turizm müəssisələrinin prioritetlərindən birinə çevrilmişdir. Xidmətlərin rəqəmsal transformasiyası proseslərinin mürəkkəbliyinə və qeyri-müəyyənliyinə baxmayaraq, turizm və mehmanxana müəssisələrinin işçilərinə, habelə turizmin və bütövlükdə otel biznesinin inkişafına müsbət təsir edəcək perspektivlər və real imkanlar müəyyən edir.

Rəqəmsal xidmətlər turizm xidmətlərinə və otel biznesinə inteqrasiya edib. Lakin təəssüf ki, iqtisadiyyatın turizm sektorunun subyektləri turizmdə baş verən yeni texnologiyalar və əsaslı dəyişiklikləri heç də həmişə qəbul etməyə hazır deyillər. Turizm və mehmanxana xidmətləri bu sahədə çalışan işçilərin işinin keyfiyyətindən çox asılı olduğundan, xidmətin rəqəmsal transformasiyası turizm bazarında ciddi nəticələrə gətirib çıxaracaq. Xidmətin rəqəmsal transformasiyası xidmətin təşkilinə, xidmət prosesinin mərhələlərinə, işçinin funksiyalarına, habelə bütövlükdə xidmət münasibətləri sisteminə yanaşmanın dəyişdirilməsini nəzərdə tutur.

Məsələn, turizm və qonaqpərvərlik sənayesində rəqəmsal idarə olunan xidmət bazarına ağıllı, iddialı, məsuliyyətli, təlim keçə bilən, bacarıqlı və yaradıcı işçilər lazımdır. Turizmdə rəqəmsallaşmanın geniş vüsət alması ona gətirib çıxaracaq ki, gələcəkdə turizm agenti, məsləhətçi, mühasib və s. kimi peşələrə ehtiyac qalmayacaq. Bununla belə, robotlar yaradıcılıq, ixtira, dizayn, proqramlaşdırma və özlərinə qulluq, istehsalın təşkili və tənzimlənməsini əvəz edə bilməyəcəklər. Bundan başqa, süni intellektə müxtəlif əxlaqi və mədəni normaları nəzərə alaraq etik qərarlar qəbul etmək hələ də öyrədilmir. Buna görə də, turizm təşkilatlarının axtaracağı yeni şərtlərə və vəzifələrə tez uyğunlaşmağı bacaran məhz yaradıcı və ixtiraçı işçilərdir.

Xidmətin rəqəmsal transformasiyasının inkişafının növbəti istiqaməti turizm və mehmanxana biznesində işçilərin işinin keyfiyyətinə təsir göstərir. Xidmətin rəqəmsal transformasiyası dövründə bir işçinin asanlıqla öyrənə, yeni texnologiyalara və iş şəraitinə uyğunlaşa biləcəyi çevik bacarıqları yüksək qiymətləndirilir. Bundan əlavə, rəqəmsal texnologiyaların meydana çıxması ilə əmək bazarında rəqabət qabiliyyətini artırmaq, eləcə də təşkilat daxilində karyera qurmaq üçün işçilər daim öyrənməli, yeni bilik və bacarıqlar əldə etməli, bunların yaranmasına nəzarət etməlidirlər. Beləliklə, "Həyat boyu öyrənmə" konsepsiyası turizm və qonaqpərvərlik işçiləri arasında getdikcə daha çox populyarlıq qazanacaq ki, bu da işçiləri fəaliyyət sahələrinə uyğun olaraq yeni bacarıqlara yiyələnməyə sövq edəcək.

İndi də işçilərin karyera yüksəlişi üçün daimi təlimə ehtiyac olduğunu başa düşməsi internetdə müxtəlif təlimlərin və onlayn məktəblərin (məsələn, turizm sahəsində - Hilton Universiteti) meydana çıxmasına təsir göstərmişdir. Kompüter və informasiya texnologiyalarının əsasları, yeni biznes meylləri üzrə biliklər və şəxsi keyfiyyətləri inkişaf etdirmək lazım gəlir. Bununla yanaşı, xidmətin rəqəmsal transformasiyası turizm və qonaqpərvərlik işçilərindən "rəqəmsal bacarıqlar" adlanan bacarıqları və ya yeni texnologiyalara uyğunlaşma, onlarla işləmək bacarığını təkmilləşdirməyi tələb edəcək. Bu bacarıqları ümumiləşdirmək və izah etmək üçün Kanada tədqiqatçıları rəqəmsal bacarıqların bir neçə kateqoriyanı əhatə etdiyi təsnifat müəyyən etmişlər:

− əsas savadlılıq, yazı, sənədlərdən istifadə və hesablama bacarıqlarını özündə əks etdirən fundamental bacarıqlar və işlərin uğurla yerinə yetirilməsi.

− komanda işi, ömür boyu öyrənmə, problemlərin həlli və əlaqələrin inkişafı kimi əsasən ötürülə bilən, çevik bacarıqları özündə birləşdirən bacarıqlar (Bu "çevik" bacarıqlar olmadan işçinin texniki potensialı tam reallaşdırıla bilməz).

− rəqəmsal texniki bacarıqlar kompüter və proqram təminatının istifadəsi, şəbəkə təhlükəsizliyinin tətbiqi və s.

Rəqəmsal məlumatları emal bacarıqları günümüzün rəqəmsal iş yerlərinin effektiv işləməsi üçün çox vacibdir. Bunlar informasiyanın axtarışı, sintezi, qiymətləndirilməsi, tətbiqi, yaradılması və ötürülməsi kimi informasiyanın emalı ilə bağlı yüksək səviyyəli koqnitiv (dərkediləbilən) bacarıqlardır. Buraya, digər şeylərlə yanaşı, informasiya və kompüter texnologiyaları sahəsində xüsusi ixtisas və peşələr əldə etmək üçün zəruri olan qabiliyyətlər daxildir.

Eyni zamanda, turizmdə robot avadanlıqların onlayn idarə edilməsi texnologiyaları hazırlanacaq ki, bu da ilkin mərhələdə çoxlu sayda onlayn operator tələb edəcək. Bundan başqa, gələcəkdə rəqəmsal texnologiyalar əlilliyi olan işçilərin xidmət bazarına daha yaxşı inteqrasiyasına imkan verəcək və onları uyğun və təhlükəsiz vakansiyalarla təmin edəcək. Bütün təhlükəli və sadə rutin işləri robotlar görəcək. İnsanlar asudə vaxtlarını başqa iş, istirahət, yaradıcılıq və s. üçün daha differensial şəkildə istifadə edə biləcəklər.

Gələcəyin turizm dektorunda işçi daha geniş bilik və bacarıqlara yiyələnməli olacaq. Beləliklə, turizm təşkilatları, məsələn, rəqəmsal texnologiyalardan istifadə edərək həm istehsal, həm də iqtisadi proseslərə nəzarət edə biləcək. Bir ixtisaslı mütəxəssisdən istifadə edərək maliyyə resurslarını optimallaşdıra biləcəklər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. A. A. Qurbanzadə Aqrar strukturun regional inkişaf modeli iqtisadi coğrafi konsepsiyası. Bakı. Elm 2004.
2. A. Şəkərəliyev, Q. Şəkərəliyev Azərbaycan Iqtisadiyyati: Realliqlar Və Perspektivlər
3. B.Ə.Bilalov, Ç.G.Gülalıyev – " Turizmin Əsasları " – Bakı – 2015
4. B.Ə.Bilalov – " Turizm Fəaliyyətinin Tənzimlənməsi " – Bakı – 2006, Mütərcim nəşriyyatı.
5. Ə. Arif – " Azərbaycan sənayesində xarici və daxili investisiyalardan səmərəli istifadə " - Bakı – 2004 4 .Ə.Q.Əlirzayev. "Turizmin iqtisadiyyatı və idarə edilməsi" 2010
6. Ə.Q. Əlirzayev S. İ. Aslanova "Turizmin inkişafının sosial iqtisadi problemləri" Bakı 2006.

**Nuray Fizuli Quluzadə**
Azərbaycan Turizm və Menecment Universiteti
E-mail: nurayguluzade@mail.ru

# TURİZMDƏ TƏHLÜKƏSİZLİK PROBLEMİ - AZƏRBAYCANDA TERRORA QARŞI MÜBARİZƏ VƏ TURİZMİN İNKİŞAFI

**Xülasə**

Texnologiyanın inkişafı, hava nəqliyyatının rahatlığı və qiymətlərin hər il azalması turistləri motivasiya edən faktorlardan olmuşdur.

Bu motivasiyaya baxmayaraq xarici ölkəyə getmə narahatlığa səbəb olacaq bir vəziyyətdir. Bu narahatlığın ən böyük qaynaqlarından biri terror hadisəsinin olma riskidir. Turizmi inkişaf etdirmək istəyən ölkə bu problemlərin qarşısını almaq üçün müxtəlif tədbirlər görməlidir. Bu tədqiqatımda ilkin olaraq ədəbiyyat analizi edilmiş və Türkiyədə olan terror hadisələrinin Türkiyə turizm sənayesinə necə təsir etdiyi göstərilmişdir. Eyni zamanda Azərbaycanda qarşısı alınmış terror hadisələrinin illərə görə məlumatları verilmiş və bu hadisələrin turist sayına necə təsir etdiyi statistik məlumatlarla göstərilmişdir. Sonda isə gələcəkdə davamlı turizm fəaliyyəti üçün hansı tədbirlərin görülə biləcəyi haqqında tövsiyyələr verilmişdir.

**Açar sözlər:** turizm, təhlükəsizlik, Azərbaycan.

## Giriş

Qloballaşmanın təsiri ilə sürətlə inkişaf edən turizm XX əsrin ikinci yarısından etibarən dünya iqtisadiyyatında ən vacib sektorlardan birinə çevrildi. Qloballaşma ilə birlikdə inkişaf edən nəqliyyat vasitələri, liberallaşdırılmış qlobal səyahətlər, inkişaf edən iqtisadiyyat və şaxələndirilmiş ödəniş vasitələri turizmin inkişafında mühüm rol oynadı. Dünyada turizm sahəsində olan sürətli inkişaf, bu sahədən daha çox pay almaq istəyən ölkələr arasında rəqabət yaratmışdır, Təəccübli deyil ki, məhz bu səbəblərdən 2019-cu ildə dünyada turistlərin sayı 1,5 milyard olmuşdur

Bütün bunlarla yanaşı, turist üçün təkcə maddi rahatlıq deyil, həm də psixoloji rahatlıq önəmlidir. Psixoloji rahatlıq üçün turizm xidmətləri göstərən ölkələr epidemiyalar, təbii fəlakətlər, müharibə və terror kimi hadisələrə görə tədbir görməlidir.

Turizm- terror arasındakı münasibəti hər iki tərəfdən, yəni, terror hadisələrinin qarşısının alınması və turizmə təsirini müxtəlif istiqamətlərdən araşdırmaq faydalıdır. Aşağıda bu mövzular müxtəlif başlıq altında araşdırılmış və turistik yerlərdə terror fəaliyyətlərini azaltmaq üçün hansı tədbirlərin alınması lazım olduğu haqqında tövsiyyələr verilmişdir.

Terror hadisələri qlobal iqtisadiyyatın önəmli hissəsi olan turizm sahəsinə də birbaşa və ya dolayı təsir etmişdir. Azərbaycanın da arasında olduğu çoxlu sayda ölkə hələ də terror təhdidi altında yaşamaqdadır. Çoxlu sayda məsum insanın həyatını itirdiyi terror hücumları nəticəsində turizm sənayesi və iqtisadiyyat ciddi zərər görür. Bu səbəblə terror hücumları və terrorizm anlayışı turizmə mənfi təsir göstərən ən vacib amillərdən biri olaraq qalır.

## Terror və terrorizm anlayışı

Beynəlxalq sahədə terror və terrorizm anlayışları tez tez qarşı qarşıya qalmasına baxmayaraq bu anlayışların tərifində ortaq bir fikir əldə edilməmişdir.

Latın dilində olan “terror” və “terrorist” sözləri “ alt üst edici, qorxu və dəhşət” mənalarına gəlir.

Azərbaycan dilində terrorçuluq - ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədi ilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədir.

Terrorizm ilk növbədə şiddətin bir formasıdır və zorakılıq anlayışı ilə əlaqələndirilir. Terrorizm daha ətraflı olaraq insanların normal həyatlarında, bəzi şəxsi mübahisələrində istifadə etdikləri fiziki

və ya qeyri-fiziki zorakılığın törəməsidir. Terror hadisələrində də insanların məqsədləri şiddət hadisələrindəki məqsədlə eynidir. Çünki şiddət hadisələri insanları qorxutmaq üçün yaradılan hadisələr və ya təşəbbüslərdir. Terrorun əsas hədəfi cəmiyyət üzərində qorxutma təsiri yaratmaqla yanaşı həm də bir dövlətin iqtisadi nizamını dəyişdirməyi və ya iqtisadiyyatına mənfi təsir göstərməyi hədəfləyən bir ölçü də daşıyır.

Terroristlərin hədəfləri fərqlənsə də, ümumilikdə istəkləri aşağıdakı üç məqsəd altında toplana bilər.

• Tanıtma: Terrorizm müəyyən bir məqsədi və səbəbi xalqa izah etmək üçün istifadə olunan vasitələrdən biridir. Terroristlər medianın diqqətini cəlb etmək istədiklərinə görə zərərin daha ağır ola biləcəyi şəhərləri seçirlər.

• Siyasi qeyri-sabitlik: Terroristlər öz hədəflərinə çatmaq üçün mövcud rejimin legitimliyini zəiflətmək məqsədi ilə institusional siyasi çərçivənin xaricində hərəkət edirlər.

• İqtisadiyyata zərər vermək: Terroristlər cəmiyyətə təzyiq göstərmək üçün maddi ziyan vurmağa çalışırlar.

**Terrorizm və turizm sənayesi arasındakı münasibətlər**

Terror aktlarının xüsusi ilə turistik bölgələri və turistləri hədəf almasının altında yatan fərqli səbəblər var. Bunlar aşağıdakı kimi sıralana bilər:

• Turistik bölgələrdə və ya şəhər mərkəzlərində edilən terror aktları ölkə iqtisadiyyatına böyük zərər vurur. 11 sentyabr hücumundan sonra hava yolu ilə olan səyahətlər olduqca riskli görünməyə başladı və təkcə Amerika aviaşirkətləri deyil, yerli iqtisadiyyata da ziyan vurdu.

• Turizm sahəsindən yüksək gəlir əldə edən ölkələrin iqtisadiyyatlarına zərər vermək məqsədi ilə terror aktları üçün turistlər hədəf alınır.

• Turistləri və ya turistik məkanları hədəfə almaq, terroristlər üçün dövləti hədəfə almaq deməkdir. Buna görə turizmə edilən hər hansı bir hücum birbaşa dövlətə edilmiş hesab olunur.

• Terroristlər vermək istədikləri mesajları asanlıqla çatdıra bilərlər, çünki bilirlər ki, turistlərə və turistik bölgələrə edilən hər bir hücum, yazılı və şifahi mətbuatda, milli və beynəlxalq səviyyədə geniş əks-səda doğuracaqdır.

• Bir ölkənin tarixini, coğrafiyasını və kimliyini əks etdirən muzey, tarixi yerlərin məhv edilməsi terroristlər üçün həm uğur həm də diqqəti öz üzərlərinə çəkməyin asan yoludur.

• Tətil müddətində turistlərin daha rahat olması üçün turizm bölgələrində təhlükəsizlik tədbirlərinin daha az olması terroristlərın bu bölgələri hədəf almasına səbəb olur.

• Xüsusilə radikal dini terror təşkilatları üçün xarici turistlər qərbin nümayəndələri olaraq görülür və terrorçuların əsas hədəfinə çevrilirlər.

Terrorizmin turizm sahəsinə təsirini müxtəlif ölkələrdən nümunələrlə göstərmək olar. Terrorun və təhlükə narahatlığının ingilislər üzərindəki təsiri özünü xüsusi ilə Türkiyə tətil planlarında göstərir. Kütlənin yarısı bu narahatlığa görə Türkiyəyə səyahət planlarını dəyişdirdiyini söylədi.

1200-dən çox insanın qatıldığı anketə görə insanların yarısından çoxu tətil üçün xarici ölkəyə gedəcəklərini bildirdi. 55% insan əvvəlki illərə nəzərən Türkiyəyə səyahət etməyəcəyini söylədi. Türkiyədəki hadisələrdən ən çox təsirlənən kütlə isə qadınlardır. Qadınların 59%-i təhlükə səbəbi ilə Türkiyəyə mənfi baxır.

Tədqiqatda AB-nin 26 ölkəsi və 13 Yaxın Şərq və Şimali Afrika ölkəsinin 2002-2013-cü illər arasında məlumatları müqayisəli şəkildə araşdırılmışdır. Bu ölkələrdə terror aktları ilə turizm arasındakı əlaqə araşdırılmışdır. Nəticədə, araşdırmanın empirik dəlilləri Orta Şərq və Şimali Afrika bölgəsindəki İslam ölkələrinin Avropa Birliyindəki 26 ölkədən daha çox terror aktlarından təsirləndiyi qənaətinə gəlir. Yaxın Şərq və Şimali Afrika ölkələrində turizmə terrorun mənfi təsiri 0,23 nisbətindədir.

**Azərbaycanda terrorizmə qarşı mübarizənin turizmin inkişafında rolu**

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» Fərmanı ilə dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti, mülkiyyət hüququ əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərin, rüşvətxorluq və korrupsiya hallarının qarşısının

alınması, bu istiqamətdə əməliyyat-xidməti fəaliyyətin həyata keçirilməsi üzrə Daxili İşlər Nazirliyinin və digər dövlət orqanlarının əsas vəzifələri müəyyən edilmiş və Nazirliyin strukturunda Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi yaradılaraq cinayətkarlığın ən təhlükəli formasına qarşı mübarizə yeni təşkilati əsaslar üzərində qurulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2004-cü il tarixli "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturunda dəyişikliklər edilməsi haqqında" 83 nömrəli Fərmanı ilə Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi baş idarə səlahiyyətli müəyyən edilmişdir. Baş İdarənin əsas funksiyalarını Azərbaycan Respublikasının qanunvericiliyi və Daxili İşlər Nazirliyinin müvafiq normativ-hüquqi aktları ilə müəyyən edilmiş qaydada mütəşəkkil cinayətkarlığa, o cümlədən terrorizm, banditizm, adamları girov götürmə və hədə-qorxu ilə tələb etmə cinayətlərinə, saxta pul və ödəniş sənədlərinin qanunsuz dövriyyəsinə, eləcə də mütəşəkkil cinayətkarlığın transmilli və digər növlərinə qarşı mübarizə, bu qəbildən olan cinayətlərin qarşısının alınması, açılması və istintaqı təşkil edir. Baş İdarənin strukturuna adamları girov götürmə və hədə-qorxu ilə tələb etmə cinayətləri ilə mübarizə şöbəsi, banditizm və digər təhlükəli cinayətlərlə mübarizə şöbəsi, saxta pul və ödəniş sənədlərinin qanunsuz dövriyyəsi ilə mübarizə şöbəsi, istintaq şöbəsi, təşkilati-analitik bölmə və digər əməliyyat, təminat qurumları daxildir.

2015 ci ildən etibarən Azərbaycan qapılarını turistlərin üzünə tamamı ilə açdı . Həmin ildən etibarən təhlükəszilik baxımından ilk sıralarda olan Azərbaycan tədbirlərini biraz daha artırdı. Bu artım ola biləcək terror hadisələrinin qarşısını öncədən almağı bacardı

1 Fevral 2016-cı il tarixindən etibarən Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Cənubi Koreya, Malayziya və Sinqapur vətəndaşları üçün Azərbaycan hava limanlarında viza tələblərini asanlaşdırdı. Bu qərar prezident İlham Əliyev tərəfindən turistləri təşviq etmək məqsədi ilə 2015-ci ilin birinci yarısında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin iclasında müəyyən edilmişdir. Eyni zamanda 95 ölkədən olan vətəndaşlar Asan Visa vasitəsi ilə onlayn viza almağabaşladılar.

Sosial təhlükəsizlik sisteminin (sosial security system) statistikasında 2016-cı il ərzində Azərbaycanda terror aktlarının qarşısının alınmasına dair məlumatlar var.

- 12 fevralda terrorizmə qarşı əməliyyatda 8 şübhəli həbs edilib. Onlardan bir neçəsi terrorla əlaqəli ittihamlarla mühakimə olunaraq həbsxanaya məhkum edildi.
- Oktyabrın 27-də SSS, silahlı atışma zamanı Azərbaycanda terror hücumları planlaşdırmaqda şübhəli bilinən iki nəfərin öldürüldüyünü, üçüncüsünün də yaralandığını elan etdi. SSS açıqlamasında bu şəxslərin Azərbaycanda silahlı bir qrup yaratdıqlarını və Azərbaycandan kənarda silahlı qarşıdurmalarda iştirak edən terror qruplarına beyət etdiklərini söylədi.
- Noyabrın 16-da Bakıdakı məhkəmə 7 nəfər Azərbaycan vətəndaşını İraq və Suriyada İŞİD və digər terror qruplaşmalarının silahlıları ilə birlikdə döyüşdükləri ittihamı ilə mühakimə etdi. Məhkəmə şübhəlilərə iki ildən 14 ilə qədər həbs cəzası verdi.
- Noyabrın 25-də Azərbaycanın Xaçmaz rayonunda SSS əməliyyatı zamanı bir terror şübhəlisi öldürüldü. Terrorist, Azərbaycandan kənarda silahlı qarşıdurmalarda iştirak edən bir terror təşkilatına rəhbərlik etməkdə və Azərbaycan vətəndaşlarını xaricdə döyüşmək üçün işə cəlb etməkdə şübhəli bilinirdi. SSS-nin açıqlamasında şübhəlinin qanunsuz olaraq odlu silah və partlayıcı maddə əldə etdiyi və terror hücumları və adam qaçırmağı planlaşdırdığı bildirilir.

2017-ci ildə Azərbaycan hüquq-mühafizə və təhlükəsizlik xidmətləri bir neçə potensial terror hücumunun qarşısını aldıqlarını bildirdilər. Bunlar:

- 27 yanvarda "dini ekstremist" şübhəli şəxslər polislərlə silahlı atışma zamanı öldürülüb.
- 28 Avqustda SSS, terror şübhəlisini tutmağa çalışarkən öldürdüklərini bildirdi. SSS, Terrorçunun xarici bir terror təşkilatından aldığı vəsaitlə silah və partlayıcı maddələr aldığını bildirdi.
- SSS oktyabrın 27-də bir neçə Azərbaycan vətəndaşını Suriya və İraqda döyüşməkdə şübhəli bilinərək saxladı.

2018-ci ildə Azərbaycan hüquq-mühafizə və təhlükəsizlik xidmətləri bir neçə potensial terror hücumunun qarşısını aldığını bildirdi. Bunlar:

- Noyabrın 14-də SSS 3 iyulda Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərinin keçmiş bələdiyyə başçısına edilən hücumdan sonra keçirilən əməliyyatlarda polisə müqavimət göstərərkən beş nəfərin öldüyünü və 60-dan çoxunun həbs olunduğunu bildirdi. Sonrakı nümayişlərdə iki polis məmuru da öldürüldü. Hökumət, hücumların bir Şiə "ekstremist sui-qəsdinin" bir hissəsi olduğunu bildirdi.
- 23 Noyabrda, mətbuata görə, SSS, Suriyada terrorçuları maliyyələşdirməkdə şübhəli bilinən üç şəxsin tutulduğunu bildirdi.

Dövlət organlarının mümkün terror hadisələrinə qarşı müəyyən tədbirlər görməsi turizmin inkişafında böyük rolu olmuşdur. Rəsmi statistikaya görə, Azərbaycana dünyanın 187 ölkəsindən turist gəlmişdir. Statistikaya əsasən 2016 cı ildə 2 044700 nəfər, 2017 ci ildə 2 milyon 700 nəfər, 2018 ci ildə 2 605 315 nəfər, 2019 ci ildə isə 2 863 531 əcnəbi Azəbaycanı ziyarət etmişdir.

**Nəticə**

Terrorizmlə turizm arasında əlaqədə, turizm sənayesini hədəf alan terror hadisələrinin beynəlxalq iqtisadiyyata və dünya turizm sənayesinə verdiyi zərərlərə baxıldıqda vəziyyətin nə qədər ciddi olduğu aydın olur. Beynəlxalq iqtisadiyyat baxımından böyük önəm kəsb edən turizm sənayesinin sülh və əmin-amanlıq mühitində inkişafı, terrorizm müharibə və siyasi baxımdan stabil olmayan şəraitində ölkə imicinin sarsılması ilə əlaqədar olaraq ölkəyə istiqamətlənmiş turizm tələbindəki azalma terror təşkilatlarının diqqətini bu istiqamətə yönəltmişdir.

Bu tədqiqat zamanı məlum olmuşdur ki 2016, 2017, 2018ci illərdə ölkəyə gələn əcnəbi turistlərin sayında artış yalnızca 2015 ci ildən etibarən Azərbaycan ərazisinə keçiddə viza rejimindəki sadələşmələr deyil, eyni zamanda həmin illərdə baş verməsi qaçınılmaz olan terror hadisələrinin qarşısının alınmasıda böyük təsir göstərmişdir.

Təəssüf ki, terror hadisələrinin qarşısının alınması tamamilə mümkün deyil. Ancaq qaçınılmaz olan terror hadisələrinin qarşısının maksimum alınması bu hadisələrin iqtisadiyyata vuracağı zərəri minimuma endirəcəkdir.

Turizm sənayesini hədəf ala biləcək terror fəaliyyətlərinin vəya turizm sənayesinə istiqamətlənmiş terror hadisələrində risqləri minumuma endirmək üçün qabaqlayıcı tədbirlər açağıdakı kimi ola bilər

- Turizm fəaliyyəti ilə məşğul olan şəxslər təhlükəsizlik təlimləri verilməlidir.
- Turizm müəsisələrində krizis və dərhal hərəkət planı hazırlanmalıdır
- Terror aktı sonrası turizm sənayesini dəstəkləmək üçün dövlət dəstəyi təmin edilməldir
- Terrorun qarşısının alınması üçün beynəlxalq əməkdaşlığa qoşulmaq lazım gəlir.
- Milli və beynəlxalq media vasitəsilə mənfi imic yaradanların əksinə pozitiv imic formalaşdırılması təmin edilməldir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, http://www.e-qanun.az/framework/3855
2. Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» Fərmanı, https://mia.gov.az/index.php?/az/content/272/
3. Azərbaycan Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/index.php 2020
4. International Tourism Growth Continues To Outpace The Global Economy, UNWTO,2020, 2
5. Merter AKINCI Ömer YILMAZ KOSBED, "International Terrorism as a Tourism Crisis: A Panel Data Analysis Based on Country Groups", 2015, 30: 51 – 76
6. Unsal, A. ve Keleş, R., Kent ve Siya-sal Şiddet, Ankara Üniversitesi, Si-yasal Bilgiler Fakültesi Yayınları: 1982, 507
7. Özerkmen, N. (2004). Terör, Terörizm ve Radikal İslamcı Terör, Ankara Üni-versitesi, Dil ve Tarih-Coğrafya Fa-kültesi Dergisi, 44(2), 242-265.
8. Tavares J. (2004). The open society assesses its enemies: shocks, disasters and terrorist attacks. Journal of Monetary Economics, 51(5), 1039-1070.

9. U.S. Department of state Country Reports on Terrorism (https://www.state.gov/reports/country-reports-on-terrorism-2016/JULY 19, 2017)
10. U.S. Department of state Country Reports on Terrorism (https://www.state.gov/reports/country-reports-on-terrorism-2017/SEPTEMBER 19, 2018)
11. U.S. Department of state Country Reports on Terrorism (https://www.state.gov/reports/country-reports-on-terrorism-2018/NOVEMBER 1, 2019)
12. Serçek, G. Ö., ve Serçek, S., "Turizm Sektörünün Gelişmesi Önündeki Engel: Terörizm. The Journal of Academic Social Science Studies",2016, 42, 431-444.
13. Acar ve Çetin, "Journal of Recreation and Tourism Research", JRTR 2017, 4 (1), 255-274
14. Karagöz, "terörizmin Türkiye`de turistler ve turizm gelirleri üzerine etkileri",
15. Akıncı ve Yılmaz, KOSBED, 2015, 30: 51 – 76

**Bahar Eldar qızı Quliyeva**
Azərbaycan Turizm və Menecment Universitetinin magistrantı
E-mail: guliyeva.bahar.2101@atmu.edu.az

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA MEHMANXANALARIN YARADILMASINDA ROLU

**Xülasə**

Məqalədə Azərbaycanda hotel və mehmanxanaların yaradılmasında Ulu Öndərin rolu qeyd edilmişdir. Məqaləni oxuduqca Heydər Əliyevin SSRİ dövründə və ölkəmiz müstəqillik qazandıqdan sonrakı dövrdə hakimiyyətdə olduğu illərdə turizm, o cümlədən qonaqpərvərlik sənayesinin inkişafında yaratdığı qanunvericilik və normativ-hüquqi baza haqqında da məlumat əldə etmək mümkündür. Burada Ulu Öndər yalnız hüquqi baza yaratmaqla kifayətlənməmiş, həmçinin ölkəmizin dünyada tanınmasına xidmətləri barədə qısa məlumat verilmişdir.

Heydər Əliyev 4 iyun 1999-cu il tarixində ilk dəfə ölkəmizdə "Turizm" haqqında Azərbaycan Respublikasının Qanununu qəbul etməklə bu sahənin daim diqqət mərkəzində, eləcə də iqtisadiyyatın, ölkənin inkişafının ayrılmaz hissəsi olduğunu vurğulamışdır.

Lakin Sovet hakimiyyəti dövründə də Ulu Öndərin rəhbər vəzifələrdə çalışdığı zamanlarda onun tapşırığı ilə regionlarda (100 yerlik, Zaqatala - 1970, Şuşa - 1972) fəaliyyət göstərən turizm bazalarında yenidənqurma işləri başa çatdırılmış, ekskursiya büroları (Xankəndi - 1971, Mingəçevir - 1972), turizm bazaları Bakıda "Azərbaycan" (1040 yerlik, 1973) və "Qarabağ" (342 yerlik, 1975), (342 yerlik, Qəbələdə "Qafqaz" və 400 yerlik, 400 yerlik, Nabranda "Dostluq" - 1975), və "Moskva" (1978) turist mehmanxanaları istifadəyə verilmişdir. Onun fəaliyyəti təkcə qeyd edilənlərlə yekunlaşmırdı. Sonrakı illərdə Naxçıvanda (1978), Lənkəranda (1980), Şirvanda, Qazaxda və Şamaxıda (1982) səyahətlər və ekskursiya büroları fəaliyyətə başlamışdır.

Bu cür mehmanxanalar hələ o dövrdə müxtəlif ölkələrdən səyahət və ya digər məqsədlə ölkəmizə gələn nümayəndə insanları, turist qruplarını qəbul etməklə qonaqpərvərlik sənayesinin, xüsusilə hotelçiliyin inkişafına təkan verirdi.

1983-cü ildə SSRİ Nazirlər Sovetində Heydər Əliyev sədrin birinci müavini vəzifəsində çalışdığı dövrdə birbaşa Xəzər dənizinin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılmasına təşəbbüs göstərərək 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərara uyğun olaraq ölkəmizdə 2000-ci ilədək olan müddəti də əhatə edən turizmin inkişafı sxemi qəbul olundu (1).

Qeyd etmək lazımdır ki, ölkəmiz müstəqillik qazandıqdan sonrakı dövrdə daha çox getmələr müşahidə olunurdu. Bunun əsas səbəblərindən biri yeni müstəqillik qazanmış bir ölkənin dirçəlmə dövrünün birdən-birə baş verməməsi, eləcə də ölkəyə gələnlərin olduqca az olması, beləliklə də ticarət obyektlərində arzuolunan, istəyə uyğun məhsulların olmaması idi.

Bütün sadalananların aradan qaldırılması məqsədilə turizmin dövlət, hakimiyyət səviyyəsində tənzimlənməsinə, eləcə də nəzarətdə saxlanılmasına, inkişafına nail olmaq prioritet məsələyə çevrilmişdi. Bu səbəbdən qəbul edilmiş Qanunun icrasına nəzarət üçün müvafiq icra hakimiyyəti orqanının yaradılmasına ehtiyac hiss edilirdi. Beləliklə, Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli sərəncamı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı və 18 sentyabr 2001-ci il tarixində Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman qəbul edildi (2). İslahatlar bununla yekunlaşmırdı, ölkəmiz eyni ildə Heydər Əliyevin danılmaz təşəbbüsü sayəsində Ümumdünya Turizm Təşkilatına ("Welcome to Azerbaijan" adlı xüsusi disk, "Turizm in Azerbaijan" adlı veb səhifə) üzv kimi qəbul edildi.

İnteryerdə müasir üslubların kateqoriyaları olduqca müxtəlifdir. İnteryer dizaynında müasir üslublar minimalizm, kitç, loft, art-deko, modernizm, postmodernizm və hay-tek kimi üslublarla təmsil olunur. Onlardan bəziləri klassik üslubun irsi (məsələn, modernizm, art deko), digərləri isə bəşəriyyətin futurizm (hi-tech) istəyi kimi yaradılmış və ya kitç kimi üslubların yaratdığı çərçivəyə etirazın təcəssümünə çevrilmişdir. Buna görə də, müasir üslubların dizaynı üçün ümumi qaydaları ayırmaq olduqca çətindir. Hay-tek müasir materialların istifadəsini nəzərdə tutur, kitç isə lüks və zənginliyin bütün simvolizmini özündə birləşdirərək, onu az qala absurdluq həddinə çatdırır [8, 27]. Bəlkə də müasir interyer üslublarının yeganə ümumi xüsusiyyəti insan təxəyyülünün tam azadlığıdır. Yalnız belə bir dizayn, göründüyü kimi, birlikdə ahəngdar görünə bilməyən təzahürləri birləşdirməyə imkan verir. İnteryerdəki müasir üslub hər bir dizayn detalında təcəssüm olunmuş ifadə, anilik, sərbəstlik və funksionallıqdır [1, 128].

Klassik üsluba misal olaraq isə yunan, qotik dizaynı, həmçinin barokko, rokoko, ampir və klassizmin interyerini göstərmək olar. Bu üslubların ümumi xüsusiyyətləri hər bir detalda mövcud olan əzəmət, dəbdəbə və aristokratiyadır. Onlar bahalı materialların, dəbdəbəli əşyaların, həmçinin qızıl və bürünc elementlərin istifadəsi ilə xarakterizə olunur.

Etnik cərəyanların ən məşhur nümunələri Afrika, Şərq, Misir və Yapon dizaynlarıdır. Onların əsas xüsusiyyəti orijinallıqdır. Etnik üslubda bəzək başqa bir ölkənin atmosferinə və mədəniyyətinə qərq olmağa imkan verir. Bu, xüsusilə otağı inanılmaz atmosferlə dolduran ərəb interyerində hiss olunur. Etnik dizayn təbii materiallardan, təbii rənglərdən, həndəsi və nəbati naxışlardan, həmçinin heyvan təsvirlərindən istifadə ilə xarakterizə olunur [7, 45].

Bədii obraz konkretdir və geniş təsvir xüsusiyyətlərinə malikdir. Bədii obraz bədii təsvirlər sisteminin obyektivləşdirilməsidir. Bədii obraz müəyyən mədəniyyətə və ya dövrə aid simvolla ifadə oluna bilər. Ona görə bədii obrazlılığın dərk edilməsi üçün geniş məlumatlılıq tələb olunur. Amma elə bədii obrazlar vardır ki, yarandığı zamandan asılı olmayaraq bütün bəşəriyyət üçün başa düşüləndir.

“Bədii obraz” anlayışı birmənalı şəkildə şərh olunmur. Dizayn və bədii obraz, demək olar ki, olduqca yaxın anlayışlardır. Dizaynda bədii obraz funksional və emosional məzmunu birləşdirən çoxşaxəli təzahürdür. Birincisi, elmi və yeni texnologiyalardan, ikincisi, emosional, fərdi-zaman, mənəvi-psixoloji, sosial və s. kimi amillərdən ibarət daha mürəkkəb konfiqurasiyanın birləşməsindən asılıdır.Dizaynda bədii obraz estetikada “bədii” və “estetik” kateqoriyaları arasındakı əlaqə kimi nəzərdən keçirilir. Mədəni ənənələri dirçəltmək və həyat tərzini işlərində əks etdirən dizaynerin nüfuzunu yüksəltmək üçün bədii obrazın “saf formada” tipoloji xüsusiyyətlərini müəyyən etmək və ondan son onilliklərdə yaradıcılıq fəaliyyətinə daxil olan, formalaşdırma texnologiyalarının bəzi deformasiyalarına və utilitar məhsulların formalaşmasında bədii yaradıcılığın rolunun kəskin şəkildə azalmasına səbəb olan kənar elementləri ayırmaq lazımdır [3, 24].

İnteryerin inkişafında bədii obrazın təkamülünü təhlil etməklə interyerin inkişafında hər bir tarixi dövrün xarakterik xüsusiyyətlərini və müasir insanın özünü orijinal bədii-obrazlı mühitlə əhatə etməyə artan tələbatını müəyyən etmək olar.Yuxarıdakıları təhlil edərək belə nəticəyə gəlmək olar ki, interyer dizaynında bədii və obrazlı başlanğıc dizaynerin şüurunda - onun fantaziyasında, yeni bir şey yaratmaq enerjisini uzaqgörənlik intuisiyası və əks etdirmək və sistemləşdirmək bacarığı ilə birləşdirən təxəyyülündə baş verir.

Bədii obraz yaratmaq üçün forma, rəng, faktura və s. kimi müəyyən bədii ifadə vasitələrindən istifadə olunur. Bədii ifadə vasitələrinin ustalıqla tətbiqi böyük ifadəlilik əldə etmək olur. Bədii obraz güclü plastiklik və faktura ilə seçilən elementləri birləşdirməklə ən təsirli vasitələrlə ifadə olunan, ən diqqət çəkən xüsusiyyətlərə malikdir. Bütün bunlar ritmik əvəzləmələr, rəng nisbətləri, materialların birləşməsi vasitəsilə təkmilləşdirilir [4, 73].

Bədii obrazın, daha doğrusu dizaynda bədii obrazın xüsusiyyətlərinə dairgeniş məlumatlar yoxdur. Belə ki, bu, dizaynda bədii obrazın sadəcə XX əsrin sonlarında aktuallaşmağa başlaması ilə bağlıdır.Mövcud vəziyyət digər kateqoriyalar arasında bu kateqoriyanın nisbətən yeni olması ilə müəyyən edilir.Hər bir incəsənət növündə obrazın yaradılması prosesi bir tərəfdən ümumi

xüsusiyyətlərə, ümumi əks etdirmə formalarına, digər tərəfdən emosional-obrazlı ifadəyə malikdir. Obrazın daxili mahiyyəti bütün təzahürlər üçün əsasən eyni qalır [6, 100].

Hal-hazırda dizaynerlər bədii obrazın xüsusiyyətlərinin interyerdə tətbiqi üçün XX əsrin incəsənətinə müraciət edirlər, burada dizayn texnikası və alətlərinin inkişafında yeni orijinal ideyaların mənbəyini görürlər. İncəsənət dizaynerləri yaradıcı şəkildə zənginləşdirir, onların emosional yükünü artırmağa kömək edir. Bədii obrazların yaradılmasının bədii üsul və vasitələrinin işlənib hazırlanmasında eksperimental sahə kimi avanqard sənətin nailiyyətlərinin öyrənilməsi dizaynerlərə yaradıcı təfəkkürün inkişafına imkan verir. Dizaynda müxtəlif üslub cərəyanlarının inkişaf tendensiyalarına mücərrəd rəssamların təsirinin xüsusiyyətlərini nəzərə almağa zərurət vardır [5, 15].

## ƏDƏBİYYAT SİYAHISI:

1. Adame S. Guide to the style of the "Arts and Crafts Movement"/ Per. from English. M.: JSC Publishing house "Rainbow", 2000.
2. Kalınkara, V. Konutta İç Dekorasyon. Teknik Yayınevi, Mühendislik Mimarlık Yayınları, 2001.
3. Mosin I.G. All about style and trends in contemporary art. World art. M.: Bestiari, 2013.
4. Özen, A. Mimari Sanal Gerçeklik Ortamlarında Algı Psikolojisi. Bilgi Teknolojileri Kongresi IV, Akademik Bilişim, 2006.
5. Pile J., Gura J. A history of interior design. Wiley, 2014.
6. Основы композиции, Образность: Учебное пособие/Отв.ред.А.А. Дубровин. М.: МГХПУ им. С.Г. Строганова, 2003.
7. Цветкова О.Е. Стили интерьера от классики до авангарда. Москва, 2010.
8. Хрусталева С. Стили в интерьере– М. – СПб, 2006.

**Mehparə Səttər qızı Orucova**
Azərbaycan Texniki Universiteti .Bakı .Azərbaycan
E-mail: orujova67@gmail.com

# ELEKTRON TİCARƏTİN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

**Xülasə**

Qloballaşan dünyada sürətli inkişafı yolu keçən informasiya texnologiyaları və internet rabitəsi biznes və ticarət tərəfdaşları, o cümlədən satıcılar və alıcılar arasında qarşılıqlı əlaqələrin yaranmasına, alıcıya və satıcıya öz yaşadığı yeri tərk etmədən real vaxt rejimində alış veriş etmək imkanı verir. Xüsusilə texnologiya məhsulları istehsal edən Amerika, Çin, Yaponiya və digər inkişaf etmiş ölkələrdə real vaxt rejimində ticarətdən istifadə imkanları getdikcə genişlənir. Elektron ticarət mal və xidmətlərin informasiya texnologiyaları və internetdən istifadə edilməklə qarşılıqlı formada alınması və satılmasıdır. Günümüzdə e-ticarətin qlobal iqtisadiyyata təsiri ölkələrin sosial-iqtisadi həyatında özünü göstərir.

**Açar sözlər:** elektron ticarət, texnologiya, real vaxt rejimi, plastik kart, satış

XX əsrin sonlarından başlayaraq informasiya texnologiyalarında baş verən tərəqqi iqtisadiyyatın bir çox sahələrinə öz təsirini göstərməyə başladı. İnternetin əhali arasında sürətli istifadə imkanları ticarətin müxtəlif sahələrində, o cümlədən elektron ticarətin yaranmasını şərtləndirmişdir. Elektron ticarət ilk dəfə internet rabitəsi üzərindən 1995-ci ildə həyata keçirilmişdir. Qlobal ticarət əməliyyatlarının internet üzərindən aparan elektron ticarətlə məşğul olan şirkətlərin sayı getdikcə artmaqdadır. Nümunə olaraq "Ebay", "Alibaba" "Amazon" və digər kompaniyaları göstərə bilərik. Xüsusilə son dövrlərdə qonşu ölkələrdə yaradılan elektron ticarət platformalarının geniş imkanlarının olmasə, o cümlədən nəqliyyat-loqistika-təchizat zəncirinin əlverişli olması, öz cəlbediciliyi ilə özünü göstərməkdədir. Elektron ticarətdən istifadə imkanlarının genişlənməsi fonunda ölkələrin sosial

iqtisadi həyatı dəyişməkdədir. Belə ki, elektron ticarət ölkənin fiskal və monetar siyasətinə, o cümlədən məşğulluq və işsizlik səviyyəsinə birbaşa təsir göstərən amillərdəndir. Son dövrlərdə ölkəmizdə elektron ticarətin tətbiqində yaranması gözlənilən risklərin minimallaşdırılması dövlət siyasətinin baçlıca hədəflərindəndir. Dünyada elektron ticarətin həcmi 2020-ci il üzrə 4,3 trilyon təşkil etmişdir.

**Elektron ticarət** ənənəvi olaraq bazarda alınıb satılan məhsulların alıcı- satıcı arasında təmas olmadan, informasiya texnologiyalarının yaratdığı geniş imkanlardan istifadə etməklə mal və xidmətləri rahat, sürətli və vaxt itirmədən əldə etməyi hədəfləyən ticarət formasıdır.

Avropa Birliyi e-ticarəti “internet üzərindən mal və xidmətlərin satışı”, OECD isə “internet üzərindən edilən kommersiya əməliyyatları” kimi müəyyən edir. Ümumdünya Ticarət Təşkilatı isə elektron ticarət, mal və xidmətlərin istehsalı, reklamı, telekommunikasiya şəbəkələri üzərindən satış və paylama prosesidir. [1]

Elektron ticarətdə biznes tərəfdaşları arasında ticarət əməliyyatlarının onlayn formada həyata keçirilməsi, eləcə də yaşayış yerinizi tərk etmədən əldə etmək istədiyiniz məhsulun bazar araşdırmasının aparılması, o cümlədən alıcının iqtisadi imkanlarının nəzərdə keçirilməsi, mal və xidmətləri rəqabət qabiliyyətliyinin ölçülməsi e-ticarətin əlverişliliyini bir daha irəli çəkir. Elektron ticarət müxtəlif ölkələrin bazarlarına sərhədsiz daxilolma və məhsullarla virtual tanışlıq, məlumat zənginliyi kimi əlverişli imkanlar yaradır.

**Elektron ticarətin sosial-iqtisadi tərəflərinə gəldikdə, e**lektron ticarətin yaranması mal və xidmətlərin alıcı və satıcı olan subyektləri üzərində sosial-iqtisadi təsirlərinin meydana çıxması ilə nəticələnmişdir. Ənənəvi bazar münasibətləri üzərində qurulmuş ticarət formasının elektron formaya keçidi subyektlər arasında bu münasibətlərin müsbət və mənfi cəhətlərinin müəyyən edilməsini zəruri edir. İlkin olaraq alıcı və satıcılar üzrə müsbət və mənfi tərəflərin müəyyən edilməsi həmin tərəflərin qruplaşdırımasını tələb edir.

**E-ticarətin alıcılar üzrə müsbət tərəfləri: o**nlayn kataloqlardan istifadə etməklə veb-saytlarda yaradılmış virtual vitrinlər vasitəsilə müfəssəl məlumatlar əldə etmək; endirimli kampaniyaların mövcudluğundan erkən məlumat almaq; gün ərzində 24 saat giriş imkanı əldə etmək; plastik kartla ödəniş əməliyyatlarının həyata keçirilməsi; məhsulun qiymətlərinin digər məhsullarla müqayisə etmək; vaxta qənaət və asan nəzərdən keçirmə.

**E-ticarətin alıcılar üzrə mənfi tərəfləri: m**əhsulları təmas ilə yoxlamaq mümkün deyil; onlayn satınalmalarda məxfilik və təhlükəsizlik; kredit kartları ilə fırıldaqçılıq; məhsulların qəbulunda gecikmələr: veb-saytda saxtakarlıq hallarının müşahidə olunması.

**E-ticarətin satıcılar üzrə müsbət tərəfləri:** müştəri bazasını artırmaqla potensial bazar payını artırmaq; Big Data-dan istifadə etməklə alıcıların tələblərini satışlarda nəzərə almaq; gün ərzində 24 saat satış imkanı əldə etmək; biznesin əhatə dairəsinin genişləndirilməsi; işçilərin xərclərinin azaldılması.

**E-ticarətin satıcılar üzrə mənfi tərəfləri: e**lektron ticarət infrastrukturu üçün əlavə xərclər (aparat və proqram təminatını mütəmadi olaraq yenilənməsi, dövri aralıqlarla vebsayta texniki qulluq); logistika imkanlarının məhdudluğu; təhlükəsizlik və kredit kartı problemləri; saxta sifarişlər.

Elektron ticarət əslində iqtisadi bir hadisə olmasına baxmayaraq, sosial və mədəni sahələrə də təsir edir. Bu növ ticarət; fiziki şəxslər, şirkətlər və cəmiyyətə müxtəlif təsirlər göstərdiyi görülür. Müştəri gözləntiləri bazarı yenidən müəyyən edir və ya yeni bazarlar yaradır. Elektron ticarəti qəbul edən şirkətlər uyğunlaşmaya və rəqabət üstünlüyünə nail olur.

Dünya iqtisadiyyatında, eləcə də dünya iqtisadiyyatına inteqrasiya edilmiş ölkələrdə elektron ticarətin aparılmasında mənfi cəhətlərin minimum səviyyəyə endirilməsi bu ticarət növünün sürətli inkişafına geniş imkanlar yaradır. Belə ki, elektron ticarətə olan təhdidlərin aradan qalxması istiqamətində atılan addımlar bu sahədə etibarlı biznes tərəfdaşlarının sayının artmasına, eləcə də ticarət dövriyəsinin artması ilə nəticələnəcəkdir.

**Əsas sosial və iqtisadi problemlər:** Elektron ticarətin tətbiqi bir çox ölkələrdə ölkə iqtisadiyyatına hərtərəfli təsirinin qiymətləndirilməsini vacib edir. Bu ticarət növünün tətbiqində dövlət nəzarətinin zəif təşkili bir çox hallarda dövlətdə kiçik və orta sahibkarlıq subyektlərinə təsir

edir, dövlət büdcəsinin gəlirlərinin azalmasına, ölkələrdə yaradılmış əlverişli rəqabət mühitinin pozulmasına, məşğulluq problemlərinin, o cümlədən işsizlik səviyyələrinin artmasına gətirib çıxara bilər. Bu məqsədlə dövlətlər müxtəlif formalarda bu ticarət formasına dövlət nəzarətini gücləndirməklə ölkə iqtisadiyyatına dəyə biləcək risklərin qarşısını almağı hədəflənməlidirlər.

Belə ki, elektron ticarətdən istifadə etməklə vergi ödəməkdən yayınma hallarınn baş verməsi dövlət büdcəsinin mədaxil elementlərinə birbaşa təsir göstərməklə dövlət tərəfindən həyata keçirilən digər sosial proqramların gecikməsinə səbəb ola bilər. Bu məqsədlə elektron ticarətdə dövlətlər tərəfindən yerli bazarın maraqları qorunmaq şərti ilə optimal vergi yükünün müəyyən edilməsi həyata keçirilməlidir. Həmin vergi yükü müəyyən edilərkən elektron ticarətə olan marağın və istehlakçıların hüquqlarının qorunub saxlanılması kimi amillər nəzərə alınmalıdır. Digər tərəfədən bu sahədə dövlət nəzarətinin olması daxili bazarın inkişafına və həmin bazarda çalışan işçi qüvvəsinin dayanıqlığına xidmət etməlidir.

Elektron ticarətin tətbiqi bazarda mal və xidmətləri satışını həyata keçirən satış təmsilçilərinə olan tələb azalmaqla, ölkədə işsizlik mühitinin artmasına gətirib çıxara bilər. Qeyd edilən işçi qüvvəsinin iş yerini itirməsi dövlət tərəfindən təxirəsalınmaz sosial tədbirlərin həyata keçirilməsini zəruri etməklə dövlət qarşısında əlavə maliyyə öhdəliklərinin yaranması ilə nəticələnə bilər. Eyni zamanda satış təmsilçilərinə olan tələbatın azalması fonunda anbarların idarə olunması üzrə işçi heyətinə tələb arta bilər. İşçi qüvvəsinə tələbatın azalması əmək bazarının strukturunda dəyişikliyin baş verməsi fonunda informasiya texnologiyaları üzrə ixtisaslara olan marağın artması ilə nəticələnə bilər. Ölkələrdə elektron ticarətin tətbiqi ilə əlaqədar olaraq ixtisaslı informasiya texnologiyaları üzrə mühəndislərə olan tələbat getdikcə artdığından, bu şəxslərin məşğulluğunun bu istiqamət üzrə təmin edilməsi daha məqsədəuyğundur. Qeyd edilən hallar daha çox mal və xidmətləri idxal edən ölkələr üzrə xarakterizə edilə bilər. Lakin elektron ticarət inkişaf etdiyi ölkələrdə mövcud vəziyyət nisbətən fərqli olaraq görünür.




Diaqramda göstərildiyi kimi, həm univermaqda, həm də mağazadan kənar pərakəndə satıcılarda məşğulluq 2012-ci ilin əvvəlinə qədər iqtisadiyyatla aşağı-yuxarı dəyişdi. Lakin bu zaman kəskin dəyişiklik oldu: iki seriya əks istiqamətdə hərəkət etməyə başladı. Həmin il univermaqlar şəbəkədə 200.000-dən çox işi ixtisar etdi, mağazadan kənar pərakəndə məşğulluq isə bu rəqəmin kiçik bir hissəsi qədər artdı. 2013-cü ilin əvvəlindən bu yana, univermaqlar şəbəkədə təxminən 80,000 işi ləğv etdi, mağazadan kənar pərakəndə satıcılar isə təxminən 100,000 iş yeri əlavə etdi. Bu tendensiyaların

hər ikisi heç bir azalma əlaməti göstərmir və əgər varsa, mart, may, iyun və iyul ayları kimi geniş yayılmış univermaqların bağlanması ilə bağlı son hesabatlar bu nümunənin 2017-ci ildə güclənəcəyini göstərir. [3]

Azərbaycan Respublikasında elektron ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, onun iştirakçılarının hüquq və vəzifələrini, digər məsələlərin tənzimlənməsi məqsədilə “Elektron ticarət haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Sözügedən qanunla elektron ticarətin prinsiplər, elektron ticarətin iştirakçılarına olan tələblər müəyyən edilmişdir.[2]

"2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsinə, iqtisadi dövriyyələri şəffaflaşdırmaqla nağd pul əməliyyatları ilə bağlı xərclərin, o cümlədən bankların və təşkilatların əməliyyat xərclərinin azalmasına hədəflənmişdir. Proqramın hədəflərindən biri də ölkəmizdə elektron ticarətin əhatə dairəsinin genişləndirilməsidir. Elektron ticarətin genişlənməsi üçün əsas şərt iqtisadi subyektlər arasında nağdsız əmliyyatlar üzrə dövriyyənin artmasına və əhalinin nağdsız ödəniş vərdişlərinin formalaşmasına nail olmaqdır.

Elektron ticarətin tətbiqinə yönəldilmiş bütün addımlar dövlətlər tərəfindən dəstəklənsə də, ilk növbədə sözügedən ticarətin ölkə iqtisadiyyatına təsiri imkanları qiymətləndirilməlidir. Ölkənin perspektiv inkişaf istiqamətləri müəyyən edilərkən mal və xidmətlərin ixracatçısı qismində çıxış etmək ölkənin rəqabət qabiliyyətli iqtisadiyyatının formalaşmasında mühüm rol oynadığından, idxaldan asılılığı minimuma endirməklə, ixrac yönümlü tədbirlərin həyata keçirilməsi əlverişli gəlir imkanları yaratmaqla elektron ticarətin inkişafına öz müsbət təsirini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Dijitalişletme”;(https://www.researchgate.net/profile/Cevdet-Kizil/publication/259484906_Dijital_Isletme_Digital_Business/links/5b27da0daca2727335b6d222/Dijital-Isletme-Digital-Business.pdf)
2. “Elektron ticarət haqqında” Azərbaycan Respublikası Qanunu http://www.e-qanun.az/framework/10406
3. https://libertystreeteconomics.newyorkfed.org/2017/10/how-is-online-shopping-affecting-retail-employment/

**Seyhun Osmanov**
Dövlət Gömrük Komitəsinin Akademiyası
Gömrük işinin təşkili / Dünya iqtisadiyyatı ixtisası
E-mail: osmanovseyhun@gmail.com

# TARİF ESKALASİYASI PRİNSİPİNƏ ƏSASƏN TƏTBİQ EDİLƏN GÖMRÜK RÜSUMLARININ VƏ DƏRƏCƏLƏRİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

**Xülasə**

Məqalədə Tarif Eskalasiyası prinsipinə əsasən Azərbaycan Respublikasında, Avropa İttifaqı ölkələri, ABŞ həmçinin Kanada ölkələrində tətbiq edilən bir sıra gömrük ödənişlərinin növləri həmçinin rüsum dərəcələrinin fərqliliklərindən bəhs ediləcək. Yaddan çıxarmaq olmazki istər Azərbaycan Respublikasında istərsədə digər sadaladığımız ölkələrdə bir sıra digər ölkələrlə aralarında bağlanmış Preferensial müqavilələrin şərtlərinə həmçinin müəyyən beynəlxalq təşkilatlara üzv olan zaman ordakı üzvlük şərtlərinə və s. prinsiplərə əməl olunduğu üçün ölkələr üzrə gömrük rüsumlarında da fərqliliklər labüddür. Növbəti hissələrdə araşdırma zamanı əldə olunan nəticələr və onların düzgün qiymətləndirilməsi zamanı yaranacaq üstünlüklər də bizə bu mövzu ilə bağlı bir sonrakı araşdırmalar üçün münbit zəmin yaratacaqdır, həmçinin araşdırmanın sonunda bu məsələnin istər ölkə istərsədə dünya səviyyəsində ticarət münasibətləri üçün nə qədər vacib olduğu məsələsinə toxunulacaqdır.

**Açar sözlər:** rüsum, tarif eskalasiyası, preferensial müqavilələr

## Giriş

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən 17 noyabr 2017-ci il tarixli 500 nömrəli "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri", 01.01.2018-ci il tarixindən etibarən advalor üsulda gömrük rüsum dərəcələri Azərbaycan Respublikasında tətbiq edilən rüsum dərəcələri 7 dərəcəli (0%, 0.5%, 1%, 3%, 5%, 10%, 15%) mərhələdən yeni 3 dərəcəli mərhələyə (0%, 5%, 15%) keçid etmişdir. Dünya təcrübəsinə uyğun olaraq ***tarif eskalasiyası prinsipinə*** əsaslanaraq, zəruri xammala 0% idxal rüsumunun tətbiqi nəzərdə tutulur və avadanlıqlar 5% , yarımfabrikatlar və son məhsullar üçün isə 15% rüsum dərəcələri şamil edilmişdir. [14]

Buna əsas səbəb ixracı stimullaşdırmaq və yerli malların xarici bazarlara çıxışına imkan yaratmaq və onların rəqabət qabiliyyətini, ixrac gömrük rüsumlarının və vergilərinin tətbiqini təmin edir. Azərbaycan Respublikasında 2018-2020-ci illərdə 0% tarif dərəcəsi tətbiq edilən mallar, ümumi malların təxminən 30 faizini təşkil edir.

Həmçinin yerli istehsalın xammala ehtiyacını ödəmək üçün uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 17 noyabr 2017-ci il tarixli 500 nömrəli "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri" qərarı ilə respublika ərazisindən aparılan bir sıra mallara ixrac gömrük rüsumları tətbiq edilir. Tətbiqin məqsədi ixrac gömrük rüsumları fiskal funksiyanı deyil, balanslaşdırma funksiyasını yerinə yetirmək üçündür. Beləliklə, dövlət belə rüsumlar tətbiq etməklə bu cür arzuolunmaz ixracın qarşısını alır, yerli sənaye sahələri üçün xammal çatışmazlığının aradan qaldırır.

Məsələni daha aydın başa düşmək üçün buna bir nümunə baxmaq lazımdır. Misal üçün Azərbaycan Respublikası və Türkiyə Cumhuriyyəti arasında bağlanan Preferensial müqavilə şərtlərinə əsasən bəzi məhsullar üzrə idxal gömrük rüsum dərəcləri 0% və ya normadan daha aşağı dərəcədə ola bilər amma bu hal Azərbaycan Respublikasının Preferensial müqavilə bağlamadığı digər ölkələrə aid deyildir. Həmçinin Kanada ölkəsinədə aid olan gömrük rüsumları qeyd edilən cədvəldə bir sıra beynəlxalq təşkilatlar üzrə gömrük ödənişlərindən azadolma və ya daha aşağı rüsumların tətbiqi qeyd edilmişdir

## Material və Metodika

Hazırda konkret ixrac gömrük rüsumları respublikada aşağıdakı bir sıra xammallara tətbiq edilir.

1990-cı illərin sonu, 2000-ci illərin əvvəlləri gömrük sistemində keçid dövrü kimi səciyyələnirdi və həmin illərdə orta tarif dərəcəsi 9-10 faiz olduğu halda, son 5 ildə bu rəqəm 4,5-5 faiz təşkil edirdi. Belə ki, tariflərin yenilənməsi, istehsal üçün zəruri olan xammal və komponentlərə tariflərin aşağı salınması emal sənayesinin inkişafı ilə yanaşı, orta və uzunmüddətli perspektivdə qeyri-neft sektorunda hazır məhsulların ixracını stimullaşdırıb və ölkənin iqtisadiyyatına müsbət təsir göstərmişdir. [15]

Orta tarifin aşağı salınmasının əsas səbəblərindən biri azad ticarət sazişi imzalayan ölkələrlə ticarət dövriyyəsinin artmasıdır. Müstəqillik əldə etdikdən sonra xarici ticarətin liberallaşdırılması və Müstəqil Dövlətlər Birliyindən (MDB) malların rüsumsuz ticarətinin aparılması məqsədilə 1992-ci ildə Azərbaycan Respublikası hökuməti ilə MDB-yə üzv dövlətlər (ermənistan istisna olmaqla) arasında Azad Ticarət Sazişləri imzalanmışdır, eləcə də bir sıra texniki maneələri aradan qaldırılmışdır. Beləliklə, fiskal siyasətin həyata keçirilməsi ilə yanaşı, azad ticarət konsepsiyasının tətbiqi xarici ticarətin balanslaşdırılmış gömrük tariflərinin tənzimlənməsinə təkan vermişdir. Tarif güzəştlərinin və üstünlüklərinin verilməsi, azad ticarət sazişlərinin bağlanması ticarət dövriyyəsinin artırılması ilə yanaşı, ölkə daxilində malların qiymətlərinin istehlakçılar üçün əlçatan olmasına xidmət edir.

Hazırda Azərbaycan Respublikası aşağıdakı ölkələrlə sərbəst (azad) ticarət müqavilələri imzalamışdır. Rusiya Federasiyası, Belarus Respublikası, Ukrayna, Qazaxıstan Respublikası, Gürcüstan, Türkmənistan Respublikası, Özbəkistan Respublikası, Tacikistan Respublikası, Moldova Respublikası, Qırğızıstan Respublikası. [16]

**Cədvəl 1**

**Mal növlərinə görə ixrac rüsum dərəcələri və məqsədi**

| XİFMN üzrə kod | Malların adı | İxrac rüsum dərəcələri | Məqsədi |
|---|---|---|---|
| **41** | Emal olunmamış Gönlər (Heyvan dərisi) | 1000 kq üçün 150-350 ABŞ dolları | Xammal və material çatışmazlığının aradan qaldırılması üçün |
| **44** | Oduncaq və ondan hazırlanan məmulatlar | 1m3 üçün 1000 ABŞ dolları | 1. Xammal və material çatışmazlığının aradan qaldırılması üçün<br>2. Qanunsuz ticarət fəaliyyətlərinin aradan qaldırılması<br>3. Ekoloji müdafiə |
| **72** | Qara metallar | 1 ton üçün 5-15 ABŞ dolları | Xammal və material çatışmazlığının aradan qaldırılması üçün |
| **74-80 (77 istisna)** | Əlvan metallar (mis, alüminium, qurğuşun, sink,qalay) | 1 ton üçün 15 ABŞ dolları | Xammal və material çatışmazlığının aradan qaldırılması üçün |

Həmçinin 25 fevral 2020-ci il tarixində “Azərbaycan Respublikası və Türkiyə Cumhuriyyəti arasında Preferential Ticarət Sazişi” imzalanıb (2021-ci il martın 1-dən qüvvəyə minib) və bu Sazişdə güzəştlərin tətbiqi nəzərdə tutulur. Bu sazişin həyata keçirilməsi iki ölkə arasında ticarət dövriyyəsinin artırılması və “Made in Azerbaijan” brendi ilə istehsal olunan mallara yüksək tarif dərəcələri ilə qorunan Türkiyə bazarına maneəsiz (rüsumsuz) çıxış üçün əlverişli şərait yaradır. Əlavə olaraq 1998-ci ildə dövlət büdcəsinə köçürülən gömrük ödənişlərinin həcmi 72 milyon ABŞ dolları təşkil edirdisə, 2008-ci ildə bu rəqəm 4,2 dəfə artaraq 304 milyon ABŞ dollarına, 2019-cu ildə isə 9 dəfə artaraq 652 milyon ABŞ dolları təşkil edib.

İndi isə bəzi mallar üzrə Azərbaycan Respublikası, ABŞ, Kanada və Aİ ölkələrində tətbiq edilən idxal (həmçinin ixrac) gömrük rüsum dərəcələrindəki fərqliliklərə toxunacayıq.

**Cədvəl 2**

**Ölkələr üzrə gömrük rüsum dərəcələri**

| XİFMN üzrə mal kodu (HS) | Azərbaycan | ABŞ | Kanada | Avropa İttifaqı |
|---|---|---|---|---|
| 4101203000(tökmə çuqun tullantıları və qırıntıları) | İdxal - 0%İxrac - 1 ton üçün 500 ABŞ dolları | İdxal – 2.4% və (0%)İxrac – 25% | İdxal – 0%İxrac – 2-10% | İdxal - 0%İxrac – q/y |
| 4401110000(iynəyarpaqlı növlərin) | İdxal - 0%İxrac – 1m3 üçün 1000 ABŞ dolları | İdxal – 0%İxrac – 20% | İdxal – 0%İxrac – q/y və (bəzi təşkilatlar 0%) | İdxal - 0%İxrac – q/y |
| 7204100000(yaş duzlu) | İdxal - 0%İxrac – 1 ton üçün 7 ABŞ dolları | İdxal – 0%İxrac – 1 ton üçün 0.75 sent | İdxal – 0%İxrac – 1 ton üçün 0.50 sent -1 dollar (bəzi təşkilatlar 0%) | İdxal - 0%İxrac – q/y |

Yuxarıda göstərilən mal kodları üzrə ümumi bir yanaşma aparsaq görərik ki Azərbaycan Respublikasıa daxil əksər ölkələrdə Tarif Eskalasiyası prinripinə uyğun olaraq həm xammala hazır məhsuldan fərqli olaraq 0 və ya daha aşağı gömrük rüsumları tətbiq edilir həmdə bu ölkələr yerli sənayeni yetərli xammalla təmin edə bilmək üçün idxal zamanı xammal və yarımfabrikatlara qarşı *rüsumsuz* vergi siyasəti həyata keçirirlər.

Həmçinin bu ölkələr arasında gömrük ödənişlərinin adın da və təyinatında da müxtəliklər vardır.

1) **Azərbaycan Respublikasında:**

- Yığılma üsuluna görə - Spesifik, Advalor, Kombinə edilmiş
- Vergiqoyma obyektinə görə - İxrac, İdxal, Tranzit
- Xüsusiyyətinə görə - Mövsümi, Antidempinq, Kompensasiya
- Mənşəyinə görə - Avtonom, Konvension, Preferensial
- Dərəcələrinə görə - Daimi, Dəyişkən
- Hesablanmasına görə - Nominal, Effektiv

2) **Beynəlxalq Təcrübədə:**

- Basic Customs Duty (BCD) - Əsas Gömrük Rüsumu
- Countervailing Duty (CVD) - Kompensasiya Rüsumu
- Additional Customs Duty or Special CVD - Əlavə Gömrük Rüsumu və ya Xüsusi Kompensasiya Rüsumu
- Protective Duty – Qoruyucu Rüsum
- Anti-dumping Duty – Anti-dempinq Rüsumu
- Education Cess on Custom Duty – Təhsil vergisi üzrə Gömrük Rüsumu

Müqayisədən görə bilərik ki, Azərbaycan Respublikasında tətbiq edilən əksər gömrük ödənişi növləri digər ölkələrin rüsumları ilə üst üstə düşür. Amma burda bəzi fərqlilikləri göz önündən qaçırmaq olmaz. Misal üçün Avopa İttifaqı ölkələrində və ya ABŞ-da Xüsusi gömrük rüsumu deyilən ayrıca bir rüsum növü yoxdur, bu ölkələrdə bəzi hallarda müəyyən siyasi və iqtisadi səbəblərdən aslı olaraq bilinən gömrük rüsumlarına əlavələr edilə bilir və ya həmin rüsumların dərəcələri dəyişidirilərək xüsusi növün yaradır. Məsələn: Xüsusi Kompensasiya Rüsumu və s. [11], [17].

Həmçinin Beynəlxalq təcrübədə ÜTT üzvü olan ölkələrdə əlavə bir sıra gömrük rüsum dərəcələrinidə qeyd etmək lazımdır. Kanada ölkəsinin gömrük rüsum dərəcələri siyahısında **MFN** (Ən Əlverişli Rejim) və **APT** (Tətbiq olunan Güzəştli Tariflər) dərəcələri də yer alırdı. Bu isə o deməkdir ki Azərbaycan Respublikası kimi Kanada ölkəsininin də bir sıra ölkələr və ya beynəlxalq təşkilatlarla bağladığı preferensial müqavilələr və ya azad ticarət zonası müqavilələri vardır və bunun hesabına bu ölkələrə idxal və ya ixrac olunan mallara fərqli gömrük rüsum dərəcələri tətbiq edilir.

**Nəticə**

Sonda qeyd etmək lazımdır ki istər ölkə təcrübəsindən istərsə də beynəlxalq təcrübədən əldə etdiyimiz məlumatlara əsasən istehsal prosesinin davamlı ola bilməsi həmçinin hazırlanan son məhsulun (əmtəə) istehlakçıların büdcəsinə uyğun olması üçün Tarif eskalasiyası prinsipinə əməl edilməlidir çünki bu prinsipin tələbləri hazırlanacaq məhsulun üzərinə əlavə xərclərin gəlməsinin qarşısını alır və ölkədəki istehsalçılar da bu müsbət amildən yararlanaraq daha çox və hər kəsin büdcəsinə uyğun məhsul istehsal edə biləcəklər.

## ƏDƏBİYYAT SİYAHISI:

1."Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 noyabr 2017-ci tarixli 500 nömrəli qərarı.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə 20 dekabr 2021-ci il tarixli 395 nömrəli qərarı

3. Amerika Birləşmiş Ştatları Harmonik Sistem cədvəli (14-cü düzəliş) – 2018 - ci il

4. Kanada Gömrük tarifinin departament konsolidasiyası (Elektron vəasit) 2018 –ci il

5. Avropa İttifaqının rəsmi gömrük ödənişləri jurnalı (Legislation) – 31 oktyabr 2018

**Mirismayil Nəsir oğlu ORUCOV**
E-mail: o.ismayil@mail.ru

# THE BASIC FUNCTIONS OF BUSINESS MANAGEMENT AND THEIR WAYS OF EXECUTING

**Abstract**

This paper presents strategic management as an important business management concept. It defines strategy and explains the key concepts in strategic management; strategic vision, objectives, strategy formulation, strategy implementation, evaluation and initiating corrective action. The research also focuses on the corporate governance aspect of strategic management; role of the board of directors in crafting and executing strategy. The different levels of pitching strategy are also discussed in this paper; corporate, business, functional and operational. All these concepts are examined with a view to highlight their importance in the effective and efficient management of business organizations. In an operating environment that is dynamic and highly competitive, business organizations need to appreciate the importance of crafting and effectively executing strategies that can help them create sustainable competitive advantage.

**Key Words**: Strategic Management, Vision, Objectives, Strategy Formulation, Strategy Implementation, Evaluation, Corporate Strategy, Business Strategy, Functional Strategy, Operational, Strategy.

## Introduction

To define strategy as "…management's action plan for running the business and conduction operations." They further assert that "a company's strategy consists of the,competitive moves and business approaches that managers are employing to grow the business, attract and please customers, compete successfully, conduct operations, and achieve the targeted levels of organizational performance." [1] Strategic management therefore entails the environmental scanning

process, strategy formulation, strategy implementation and monitoring, evaluation and review of the implementation process to ensure effective and efficient accomplishment of organizational long term objectives. Eden and Ackerman (1998) perceive strategy as 'a coherent set of individual discrete actions is support of a system of goals, and which are supported as a portfolio by a self-sustaining critical mass, or momentum of opinion in an organization.' Ackerman's "coherent set of individual discrete actions" may be equated to Thompson, Strickland and Gamble's "competitive moves and business approaches". The other common element between these authors in their definition of strategy is that its focus is sustainable achievement of targeted levels of organizational performance.

"Strategy depends on basic building blocks, which are used in attack, defense and maneuver. Strategy making relies on finding and executing new combinations of these blocks. In every age, technology and social organization limit the combinations. After sometime, these limits seem inevitable and hence natural. Strategists cease to question received wisdom and confine themselves to variations on accepted themes. It is therefore left to the great commanders, such as Napoleon, to innovate strategically by recognizing and bringing about new combinations."

Business strategy is all about what distinguishes it from all other kinds of business planning iin a word, competitive advantage. Without competitors there would be no need for strategy, for the sole purpose of strategic planning is to enable a company to gain, as efficient as possible, a sustainable edge over its competitors. Corporate strategy thus implies an attempt to alter a company's strength relative to that of its competitors in the most efficient way."

The first important aspect about strategy is that management needs to proactively craft how the organization's business will be conduct. They further assert that a clear and well thought out strategy is management's prescription for doing business, its road map to competitive advantage, its game plan for pleasing customers and improving financial performance. Secondly, they say that a strategy-focused enterprise is more likely to be a strong bottom line performer that a company whose management views strategy as secondary and puts its priorities elsewhere. Effective strategy formulation and execution have a significantly positive impact on revenue growth, earnings, and return on investment. [2,3]

The strategic management process can be summarized into two broad concepts, that is, strategy-making and strategy executing.

Developing a strategic vision of where the company needs to head and what its future product/market/customer technology focus should be. Setting objectives and using them as yardsticks for measuring company's performance and progress. Crafting a strategy to achieve the objectives and move the company along the strategic course that management has charted.

Implementing and executing the chosen strategy efficiently and effectively. Evaluating performance and initiating corrective adjustments in the company's long-term direction, objectives, strategy or execution in light of actual experience, changing conditions, new ideas and new opportunities. The defining characteristic of a well -conceived strategic vision is what it says about the company's future strategic course – "the direction we are headed and what our future product/market/customer/technology focus will be." They further distinguish between a strategic vision and a mission statement wherein they assert that 'a strategic vision portrays a company's future business scope ("where we are going") whereas a company's mission typically describes its present business purpose ("who we are, and what we do, and why we are here").[4]

It is important that organizations develop strategic visions because they set the critical direction in which the organization is supposed to go and how resources are effectively and efficiently allocated in pursuit of that set direction. This important aspect of visioning is captured by Walker (1996) who intimates that a common motivation for engaging in a visioning process is an awareness of the dissatisfaction with the way things currently are, or the direction in which things are heading. Over and above developing the strategic vision, it is also important to clearly communicate it to the rest of the members of the organization

The management process by which we pursue goals includes planning, organizing, leading, and controlling. These are "the how" a manager pursues organizational goals, and are universally known as the four functions of management. They stem from the work of a French mining administrator, Henri Fayol, who first identified management as a practice that could be improved through the use of five functions – planning, organizing, commanding, coordinating, and controlling. [5]

Planning is the systematic process of making decisions about goals and activities the organization will pursue (Bateman & Snell, 2013). To make a decision about the direction of an organization, the planning phase must begin with analyzing the environment. Without a solid understanding of the context, the manager would have no basis to provide future direction. The context gives a manager a point of reference for improvement, opportunity, and learning from past mistakes. For this reason, the planning function should begin with analysis. This analysis should consider both the internal factors such as culture, values, and performance of team members as well as the external factors such as competitive environment, legal regulations, economy, technology, social values, and demographics. The second component of planning is to use this analysis of the environment to build goals, activities, and objectives. For a major organization this might be the vision and mission statement of the organization. For a smaller organization this could be a year end, or season end goal. Some consider planning that point in your day or month that you step away from your desk, and think

about the direction of your organization. [6]This requires you to reflect on your organization's past, and determine how that impacts the direction going forward.

Organizing is the process of assembling and assigning the human, financial, physical, informational, and other resources needed to achieve goals (Bateman & Snell, 2013). The core of the organizing function is leveraging the resources to align with the determined goals. Organizing human resources means first of all attracting a labor force that can help you pursue your goal. Within the organization, managing the human element means assigning tasks, delegating authority, determining a structure and hierarchy. Organizing the financial resources equates to making sure your capital is being utilized to meet goals. If an organization decides they want to have a best-in-class customer service team, they better being willing to spend the money to attract people with the disposition towards serving others, and spend money on training, or a retreat to teach the agents the skillsets they need. Marshalling physical resources focuses on the effectiveness of where you place and how you use physical assets. An executive chef might rearrange a kitchen to improve process flow, food quality, or mitigate safety risks for example. Informational resources implies a leveraging and disseminating the organization's knowledge in meaningful ways to achieve goals. Connecting employees to how they contribute to the financial bottom line is a way of leveraging informational resources, as is using your company's proprietary algorithm to predict stock prices or develop new products.[7,8]

Leading is stimulating high performance by members of the organization (Bateman and Snell, 2013). This function is getting members of the organization on board with your plan. Normally, this means connecting with direct reports or teammates on a personal level. Understanding what drives individuals within the team allows a manager to design strategies around motivating, incentivizing, mobilizing, and arousing a desire to contribute. Imagine for a minute, that you analyzed the conditions of the organization, you determined a game plan to pursue and even directed resources to step in that direction. You have successfully implemented the planning and organizing functions. In this scenario, however, you did not give consideration to how your team or organization would be involved. Do they agree with your direction? Did they have input in the process? Do they feel valued as a team member? Do they understand their role in a successful outcome? All of these questions are answered by the degree to which a manager is engaged in the leading function. Having personal conversations, designing a bonus structure, or giving a rousing speech might all be considered leading the organization. [9]

Control is installing processes to guide the team towards goals and monitoring performance towards goals and making changes to the plan as needed (Batemen & Snell, 2013). Control does not always mean limited what the organization can do by having a hand in everything. 13 We might call this micro-managing, which is control in its extreme form. Healthy control processes involve putting systems in place to make sure your organization is on track to meet the goals you established in the planning process. Planning sets standards to compare against, and the control process is the dashboard that tells whether or not you are meeting the standard. For example, a grocery store might set a goal of reducing shrink (that's product lost to shoplifting, damage). They decide that they want to reduce their shrink loss by 50%. To achieve this plan, they will have to dedicate resources (more employees to monitor, rearrange loading dock). You already recognize that step as the organizing function. We then incentivize our employees by designing a bonus structure – i.e. if we collectively meet the goal, each employee shares in the savings. If we stop there, we would have no way of knowing if we met the goal. The control process solves this for us. The last step in the grocery store manager's managerial approach is to have each department head report their shrink loss at the end of the shift, and aggregate those in an excel spreadsheet. In this way, the manager can see if the rearrangement of the loading dock has reduced the number of damaged canned goods that was happening under the old

arrangement. The manager can make changes if they see that shrink is not improving even after hiring a greeter at the entrance. Monitoring performance is the first step in control. After see the progress towards goals, the next step is to make changes. In this way, the control process always leads a manager back to the planning phase of management. There are only two outcomes to the control process. You are making progress towards your goal, or you are digressing in your performance. If you reach your 14 Robert Lloyd and Wayne Aho goal, you will need to set new goals, which is the planning function. If you are not progressing towards your goal, you need to analyze the environment and determine why not. In this way the management functions are related and highly dependent upon each other, especially control and planning. [10,11]

According to Thompson, Strickland and Gable (2007), the strategy making task involves four distinct types or levels of strategy, each of which involves different facets of the company's overall strategy:

**1**. Corporate Strategy consists of the kind of initiatives the company uses to establish business operations in different industries, the approaches corporate executives pursue to boost the combined performance of the set of businesses the company has diversified into, and the means of capturing cross-cutting business synergies and turning them into competitive advantage. Senior corporate executives normally have lead responsibility for devising corporate strategy.

**2**.Business Strategy concerns the actions and the approaches crafted to produce successful performance in one specific line of business. The key focus is crafting responses to market circumstances and initiating actions to strengthen market position, build competitive advantage, and develop strong competitive capabilities. This level of strategy is for the manager in charge of the business.[12]

**3.**Functional-area Strategies concern the actions, approaches, and practices to be employed in managing particular functions or business processes or key activities within a business. This level represents strategies for functional departments within an organization such as marketing, finance, human resource management, and purchasing. The heads of functions are entrusted with the lead responsibility of crating functional strategies for their respective functional departments or sections.[13]

**4.**Operating Strategies concern the relatively narrow strategic initiatives and approaches for managing key operating units (plants, distribution centers, geographic units and specific operating activities with strategic significance (advertising campaigns, the management of specific brands, supply chain-related activities and Web site sales and operations.

These four levels of strategy largely relate to large corporate organizations that have more than one strategic business unit. In single-business entities, the corporate and business levels strategies are usually collapsed into one level – the business strategy, leaving these type of organizations with only three levels of strategy; business, functional and operational. Beckman and Rosenfield (2008) emphasize the importance of consistency or strategic fit not only in crafting strategy but also in implementation. They allude to Nath and Sudharshan (1994) who contend that there are three criticalelements that need alignment in strategy development/crafting; 1) internal alignment to the firm where the implementation of strategy focuses on obtaining fit between the strategy and the structure of the organization, 2) external to the firm, where the strategy formulation process seeks a fit between the firm's strategy and the environment in which it operates, and 3) internal-external fit, where the formulation and implementation of strategy are considered to be interactive elements.

In strategy execution, as in any other area of management, what gets measured gets done. Taking this one step further, what get measured and rewarded gets done faster.

After explaining the strategy and aligning the workforce to it, senior managers institute According to Thompson, Strickland and Gamble (2007), managing the strategy execution process includes the following principal aspects:

Staffing the organization with the needed skills and expertise, consciously building and strengthening strategy-supportive competencies and competitive capabilities, and organizing the work effort.[14]

Allocating ample resources to these activities critical to strategic success.

Ensuring that policies and procedures facilitate rather than impede effective execution. Using best practices to perform core business activities and pushing for continuous improvement. Organizational units have to periodically reassess how things are being done and diligently pursue useful changes and improvements.

Install information and operating systems that enable company personnel to better carry out their strategic roles day in and day out. Motivating people to pursue the target objectives energetically and, if need be, modify their duties and job behavior to better fit the requirements of successful strategy execution.[15]

Tying rewards and incentives directly to the achievement of performance of objectives and good strategy execution. Creating a company culture and work climate conducive to successful strategy execution. Exerting the internal leadership needed to drive implementation forward and keep improving on how the strategy is being executed. When stumbling blocks or weaknesses are encountered, management has to see that they are addressed and rectified in timely and effective fashion.

## Conclusion

The importance of strategic management in running business organizations cannot be over-emphasized. Developing a strategic vision which sets critical direction and guides resource allocation within the organization is key. Crafting strategy, effective implementation, monitoring, evaluating performance and developing corrective interventions where necessary, are some of the critical aspects that can assist organizations in creating and maintaining sustainable competitive advantage. The role of the board of directors in the crafting and execution of strategy is also a very important component of corporate governance. Organizational boards and management teams therefore need to give strategic management in all its facets the attention it deserves for ensuring superior performance in their respective industries.

**Миризмаил Насир оглу ОРУДЖОВ**
E-mail: o.ismayil@mail.ru

# ОСНОВНЫЕ ФУНКЦИИ УПРАВЛЕНИЯ БИЗНЕСОМ И СПОСОБЫ ИХ ВЫПОЛНЕНИЯ

**Аннотация**

В данной статье стратегическое управление представлено как важная концепция управления бизнесом. Он определяет стратегию и объясняет ключевые концепции стратегического управления; стратегическое видение, цели, формулирование стратегии, реализация стратегии, оценка и инициирование корректирующих действий. Исследование также сосредоточено на аспекте корпоративного управления стратегического управления; роль совета директоров в разработке и реализации стратегии. В этой статье также обсуждаются различные уровни стратегии питчинга; корпоративный, деловой, функциональный и оперативный. Все эти концепции рассматриваются с целью подчеркнуть

их важность в эффективном и действенном управлении бизнес-организациями. В динамичной и высококонкурентной операционной среде деловые организации должны осознавать важность разработки и эффективного выполнения стратегий, которые могут помочь им создать устойчивое конкурентное преимущество.

**Ключевые слова:** *стратегическое управление, видение, цели, формулировка стратегии, стратегия внедрение, оценка, корпоративная стратегия, бизнес-стратегия, функциональная стратегия, операционная стратегия.*

**Mirismayıl Nəsir oğlu ORUCOV**
E-mail: o.ismayil@mail.ru

## BİZNES İDARƏETMƏNİN ƏSAS FUNKSİYASI VƏ ONLARIN İCARƏ EDİLMƏ YOLLARI

### Xülasə

Bu məqalə strateji menecmenti mühüm biznes idarəetmə konsepsiyası kimi təqdim edir. O, strategiyanı müəyyənləşdirir və strateji idarəetmədə əsas anlayışları izah edir; strateji baxış, məqsədlər, strategiyanın formalaşdırılması, strategiyanın həyata keçirilməsi, qiymətləndirmə və düzəldici fəaliyyətə başlamaq. Tədqiqat həmçinin strateji idarəetmənin korporativ idarəetmə aspektinə diqqət yetirir; strategiyanın hazırlanmasında və həyata keçirilməsində direktorlar şurasının rolu. Pitçinq strategiyasının müxtəlif səviyyələri də bu yazıda müzakirə olunur; korporativ, biznes, funksional və əməliyyat. Bütün bu anlayışlar biznes təşkilatlarının effektiv və səmərəli idarə edilməsində əhəmiyyətini vurğulamaq məqsədilə araşdırılır. Dinamik və yüksək rəqabətli əməliyyat mühitində biznes təşkilatları davamlı rəqabət üstünlüyü yaratmağa kömək edə biləcək strategiyaların hazırlanması və effektiv şəkildə həyata keçirilməsinin vacibliyini dərk etməlidirlər.
**Açar sözlər:** *Strateji İdarəetmə, Vizyon, Məqsədlər, Strategiyanın Tərtib edilməsi, Strategiya İcra, Qiymətləndirmə, Korporativ Strategiya, Biznes Strategiyası, Funksional Strategiya, Əməliyyat, Strategiya.*

### References

1. Saunders M. and Lewis P. (2012, pages 201-216): "Doing Research in Business &Management – An Essential Guide to Planning Your Project".
2. Saunders M., Lewis P. and Thornhill A. 2009, Research Methods for Business Students. 5thEdition, Essex: Pearson Education Limited
3. Thompson Jr., A., Strickland III, A. J. and Gamble J. E. 2007, Crafting & Executing Strategy. 15th Edition, New York: McGraw-Hill Irwin
4. O'Brien F. A. and Dyson R. G.2007, Supporting Strategy, Framework, Methods and Models. West Sussex: John Wiley & Sons Limited
5. Gravetter F. J. and Forzano L. B.2009, Research Methods for the Behavioral Sciences. 3rd Edition, California: Wadsworth
6. Creswell J. W. 2009, Research Design. 3rd Edition, California: Sage Publications.
7. Beckman S. L. and Rosenfielf D. B. 2008, Operations Strategy: Competing in the 21st Century, New York: McGraw-Hill Irwin.
8. Phatak A. V., Bhagat R. S. and Kashlak R. J. 2009,International Management. 2nd Edition, New York: McGraw-Hill Irwin.
9. Rouse, W. B.2001, Essential Challenges of Strategic Management. New York: John Wiley & Sons, Inc.

10. Kim, W. C., and Mauborgne, R. “Blue Ocean Strategy: From Theory to Practice.” California Management Review 47, No. 3 (Spring 2005), pp. 105-121.

11. Mintzberg, H., Ahlstrand, B., and Lampel, J. Strategy Safari: A Guided Tour through the Wilds of Strategic Management. New York: The Press, 1998.

12. Harrison, E. Frank (1999). The Managerial Decision-Making Process (5th ed.). Boston: Houghton Mifflin.

13. McCall, Morgan W., Jr., & Kaplan, Robert K. (1990). Whatever it takes: The realities of managerial decision making (2nd ed.). Englewood Cliffs, NJ: Prentice-Hall.

14. Porter, Michael E. (1980). Competitive Strategy: Techniques for analyzing industries and competitors. New York: Free Press.

15. Porter, Michael E. (1985). Competitive advantage: Creating and sustaining superior performance. New York: Free Press.

**Tanrıverdi Paşa**
AMEA İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi
E-mail: *tpasha_50@mail.ru*

# MƏDƏNİ İRSİN QORUNMASI, BƏRPASI VƏ ONDAN İSTİFADƏNIN SOSİAL-İQTİSADİ TƏSİRLƏRİ

**Xülasə**

Məqalədə mədəni irsin qorunub saxlanması və bərpasının cəmiyyətin sosial-iqtisadi inkişafında əhəmiyyətinə dair nəzəri araşdırmalar şərh olunur, mədəni irsin dayanıqlı inkişafın əsas amili və gələcək prioteti kimi rolu, ölkənin sosial-iqtisadi inkişafına potensial təsir sahələri açıqlanır, mədəni irsin qorunub saxlanılması, bərpası və ondan istifadədə mövcud olan qqüsurlar, problemlər və məhdudiyyətlər göstərilir.

**Açar sözlər:** mədəi irs, mədəni irsin iqtisadiyyatı, mədəni irs obyektləri, mədəni irsin qorunması və bərpası, mədəni irsdən istifadə

**Giriş**

Son illərdə mədəni irs mühüm roluna, sosial həyatın bütün səviyyələrini əhatə etməsinə, eləcə də iqtisadi faydalarına görə ölkə iqtisadiyyatında və cəmiyyətində getdikcə daha vacib amil kimi qəbul edilir. Mədəni irsin qorunması - konkret inkişaf faktı və ya tarixi hadisə üçün əhəmiyyətli olan konkret strukturları, obyektləri və şəraiti qorumaqla ölkənin tarixi, mədəniyyəti və adət-ənənələri ilə əlaqə saxlamağın son dərəcə təsirli üsuludur. Eyni zamanda, mədəni irs müxtəlif sosial tərəfləri bir araya gətirmək, tolerantlıq, sabitlik və ekoloji problemlərdən xəbərdar olmaq məqsədi daşıyır, həminin mədəniyyət, turizm və xidmət sənayesi ilə bağlı bir sıra sektorlarda iqtisadi faydalar və məşğulluq imkanları yaradır. Yoxsulluğun azaldılması və sosial inklüzivlik sahəsində funksiyasını nəzərə alaraq, dövlət və qeyri-hökumət institutları və beynəlxalq mədəniyyət təşkilatları son vaxtlar mədəni irsin yerli, milli və qlobal səviyyədə davamlı inkişaf strategiyasına əsas amil və gələcək prioritet kimi daxil edilməsinə güclü təsir göstərirlər.

**Mədəni irsin ölkənin iqtisadi və sosial inkişafında rolunun artması**

Qlobal sivilizasiyanın təsiri yerli mədəniyyətə, yerli kimliyə və ənənələrə marağın bərpasına gətirib çıxarır. Bu əslində, suverenlik və mühafizəkarlığın da əsasında duran amillərdəndir. Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması nəinki daxili turizmin inkişafı üçün əsasdır, həm də ötən əsrdə çox bəlalar çəkmiş, təhrif edilmiş milli kimliyin özünün qismən yenidən qurulması məsələsidir.

Mədəni irs obyektləri insanın yaşam keyfiyyətinin yaxşılaşdırılmasının mühüm komponenti və ərazinin sosial-iqtisadi inkişafı üçün strateji resurslardan biridir. Onlar həm ənənəvi, həm də yeni fəaliyyət sahələrində iqtisadi artımın və məşğulluğun təmin edilməsi üçün effektiv stimula çevrilirlər.

Bundan əlavə, irs obyektləri insanın müəyyən bir əraziyə və mədəniyyətə daimi bağlanmasını formalaşdıraraq təhsil-tərbiyə funksiyasını yerinə yetirir. Bu, həm də əhalinin ərazilərin inkişafında daha yüksək fəallığına təkan verir. [1]

Mədəni irs, digər məsələlərlə yanaşı, iqtisadi fəal əhalinin kiçik şəhərlərdən və kənd yerlərindən iri şəhərlərə axınının azaldılmasına da təsir edir. Gələcəkdə mədəni irs, bölgələrdə, xüsusən kənd yerlərində turist cəlbediciliyinin artırılmasına və infrastrukturunun inkişafına yönəlmiş layihələrin işlənib hazırlanması və həyata keçirilməsi baxımından əhalinin fəallığını stimullaşdırmaqla, əhalinin fəal hissəsinin yerlərdə qalmasına da kömək edəcəkdir.

Mədəni irs, şəxsiyyət və sivilizasiyanın təşviqində rolu ilə həyati məqsədlərə çatmaqda prioritet ola bilər. Mədəni irsin bu xüsusiyyəti incəsənət və mədəni irsin milli xəzinəsi olan "Mühafizə olunmayan irsin və abidələrin, milli ənənələrin qorunub saxlanılması haqqında Xartiya"da yaxşı təsvir olunub və qeyd edilir ki, "Obyektlərin memarlıq irsinin qorunub saxlanması vətən hissinin, ölkənin qloballaşan dünyada yerinin və xarakterinin qorunub saxlanmasını təmin etməklə, cəmiyyətə "təkcə keçmişini qorumaq deyil, həm də gələcəyi müəyyən etmək imkanı" təklif edir. [4, s.113-133] Mədəni irs qorunub saxlanılarsa və təşviq edilərsə, həqiqətən də insanların həmrəyliyinə, milli özəlliklərinin və mənsubiyyət hissinin möhkəmlənməsinə töhfə verir və müxtəlifliyi, mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq edir, xalqlar arasında daha yaxşı anlaşma və hörmət yolu ilə sosial birlik yaradır. Mədəni irsin qorunub saxlanması - yerli mədəniyyətlərin, adət-ənənələrin, kimliklərin, eləcə də fərqliliklərin və ümumiliyin təbliği: icmaların zənginləşməsi, qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsi, tam və balanslaşdırılmış insan və ictimai-siyasi inkişafın təşviqi amili ola bilər. [7, s.122-127] Mədəni irs obyektləri yerli icmalar arasında ortaq tarixi və ümumi mədəni dəyərləri müəyyən etmək və təbliğ etməklə, sosial inklüzivliyin və birliyin güclənməsinə təsir göstərir. Ümumi dəyərlərin bölüşdürülməsi eyni qrupa aid olmaq hissini təşviq edir və yerli, regional və milli səviyyədə inteqrasiya, qürur, birlik və sabitliyin əsas elementinə çevrilir. [6, s.53-54]

Araşdırmalar və sorğular göstərir ki, Azərbaycanın şəhər və qəsəbələrinin sakinlərinin öz mədəni irsi ilə bağlılığına dair həm müsbət, həm də mənfi nümunələr vardır. Ekspert hesablamalarına görə, kiçik şəhərlərdə və qəsəbələrdə turizmin inkişafı əmək qabiliyyətli əhalinin 30 faizdən 70 faizə qədərini işlə təmin edə bilər. Bu gün Azərbaycanın ən çox turist axınlarının olduğu Şamaxı, İsmayıllı, Qəbələ, Quba, Qusar və digər rayonlar bu fikri təsdiq edir. Şuşaya, Ağdama və azad olunmuş digər rayonlara səfər etmək arzusunda olanların sayının durmadan artması da göz qabağındadır.

**Mədəni irsin qorunub saxlanılması və bərpasına dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi**

Hazırda mədəni irsin iqtisadiyyatında dövlət qurumlarının kifayət qədər diqqət yetirmədiyi əsas problem: mədəni irsə dövlət dəstəyinin, onun qorunub saxlanılması, o cümlədən təmir-bərpa işlərinin aparılması üçün tələb olunan büdcə vəsaitlərinin ayrılması zərurətinin əsaslandırılması; mədəni irs obyektlərinin bazar dövriyyəsinə çıxarılması, yəni abidələrin müasir iqtisadi şəraitdə kommersiya məqsədləri üçün uyğunlaşdırılmasıdır.

Mədəni irsin iqtisadiyyatı ilə bağlı nəzəriyyələrdən çıxarılan əsas nəticə ondan ibarətdir ki, fəaliyyəti uzunmüddətli iqtisadi artıma və insanların rifahının yaxşılaşdırılmasına yönəlmiş müasir dövlət, gələcək nəsillər qarşısında mədəni irsin qorunmasında öz məsuliyyətini dərk etməlidir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, bu sahəyə qoyulan dövlət sərmayələri tez geri qaytarılmır və buna görə də, bəzən dövlətin "uzaqgörən olmaması" çox vaxt istisnasız olaraq ani mənfəət əldə etmək arzusu ilə diktə olunur. Bu çətin şəraitdə, bir qayda olaraq, mədəni irs obyektlərinin şəhər iqtisadiyyatının inkişafına təsirlərinin qiymətləndirilməsi və müasir şəraitə uyğunlaşdırılmasının xüsusi təcrübəsi və ilə bağlı böyük praktiki potensiala malik olan tətbiqi işlər mühüm rol oynayır.

Mədəni irs özəl sektor, müstəqil biznes strukturları və kreativ məhəllələrin inkişafı baxımından regionların, şəhərlərin və kənd yerlərinin cəlbediciliyinin mühüm tərkib hissəsidir. Belə ki, Hamburqda aparılan araşdırmaya görə, kommersiya istifadəsinə uyğunlaşdırılmış mədəni və tarixi irs obyektləri biznesin yerləşdirilməsi baxımından çox məşhurdur: işəgötürənlərin 87%-i ofislərinii tarixi binaya köçürdükdən sonra iş mühitinin yaxşılaşdığını qeyd edib; müştərilərinin 73%-i belə

ofisin yerləşməsinə müsbət münasibət bildirib. [2, s.21, 161]

Konkret təcrübə də yeni iş yerlərinin açılmasından xəbər verir ki, onların da əksəriyyəti yerli əhali arasındandır. Bu zaman, xərclərin 70%-ə qədəri əməkhaqqına gedir, beləliklə, yatırılan vəsait regionda qalır, ərazinin investisiya cəlbediciliyinin yaxşılaşdırılmasında iştirak edir, həmçinin yerli biznes mühitinin, əsasən də kiçik biznesin inkişafına töhfə verir. [2, s. 162] Bundan əlavə, mədəni irs obyektlərinin təmiri və bərpasına bir qayda olaraq, yeni tikintiyə cəlb olunan işçi qüvvəsindən fərqli olaraq, daha yüksək ixtisaslı işçilər cəlb olunur ki, bu da, peşəkarlıq səviyyənin yüksəldilməsinə, peşəyə yaradıcı yanaşmaya və bununla da ümumilikdə insan potensialının təkmilləşdirilməsinə əlavə stimul verir.

Mütəxəssislərin qiymətləndirmələrinə görə, mədəni irs, onun qorunub saxlanması ilə bilavasitə bağlı olan 1 iş yerinə 26,7 dolayı iş yeri yaradır ki, bu da, məsələn, avtomobil sənayesində analoji göstərici (6,3 dolayı iş yeri) ilə müqayisədə xeyli çoxdur. Avropada mədəni irsin mühafizəsi sektorunda birbaşa işləyənlərin sayı 300 min nəfərə yaxındır, lakin əlaqədar sahələrdə iş yerlərinin yaradılmasına dolayı təsir 7,8 milyon nəfər olaraq qiymətləndirilir. Dünya Bankının məlumatına görə, 2001-ci ilə kimi tarixi binaların bərpasına qoyulan hər milyon dollar 31,3 iş yeri, sənaye istehsalına eyni miqdarda investisiya isə əmək bazarında cəmi 21,3 iş yeri yaradır. [8, s.22]

Makkenzi audit və konsaltinq şirkətinin (McKinsey and Company (2001)) hesabatına görə, Londonun cənub sahilindəki keçmiş sənaye zonasının yenidən qurulmasından sonra bu, Böyük Britaniyada ən çox ziyarət edilən üçüncü turizm məkanı olub. Eyni zamanda, 2100-3900 iş yeri açılıb, ölkə iqtisadiyyatına töhfə təxminən 75-140 milyon funt sterlinq təşkil edib ki, bunun da 50-70 milyon funt-sterlinqi birbaşa London iqtisadiyyatı ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən 2000-ci ilə qədər mehmanxana və iaşə obyektlərinin sayı 23% artmışdı. Bu, 1800-ə yaxın turizm xidməti iş yerinin yaradılması ilə nəticələnmişdi. [2, s.159-160]

Bundan əlavə, təmir-bərpa işləri yüksək əmək tutumluluğu (xərclərin 60-80% -i, yeni tikinti üçün isə yalnız 50%) ilə xarakterizə olunur. Mədəni irsin ayrı-ayrı komponentlərinin həyat dövrü 25-40 ildir, ona görə də, hər il tarixi binaların cəmi 2-3%-i bərpa işlərinə ehtiyac duyur. Mədəni irs obyektinin uyğunlaşdırılması, ona yeni funksionallıq verilməsi mədəni-tarixi daşınmaz əmlak obyektinin təsərrüfat dövriyyəsinə buraxılmasına imkan verir. [5, s.113-118]

Bu sahədə aparılan tədqiqatlar irs və mədəni turizm arasında birbaşa əlaqə olduğunu göstərir, belə ki, bu, ümumi dünya turizminin 37%-ni təşkil edir və onun illik artım tempi 15%-dir. Tarix və mədəniyyət abidəsinin öz ərazisinə çəkilən xərclər yalnız turistin bu ərazidə xərclədiyi ümumi məbləğin 6-10%-i təşkil edir. [5, s.6-7]

Amerika qeyri-kommersiya təşkilatının (Americans for the arts) məlumatına görə, bir mədəniyyət obyektinə ziyarət edənlər, ziyarətin özünə əlavə olaraq, yemək, suvenirlər, nəqliyyat, mənzil və s. xərclərinə hər adam və bir ziyarət başına orta hesabla 27,79 dollar xərcləyirlər. Üstəlik, yerli sakin üçün bu əlavə xərclər, gəlmə bir ziyarətçidən təxminən iki dəfə azdır ki, bu da, müvafiq olaraq 40,19 dollara qarşı 19,53 dollardır. Tədqiqatın nəticələri təsdiq edir ki, mədəni yerlərə səyahət edən turistlər daha çox pul xərcləyirlər, qonaqpərvərlik sənayesindən istifadə edirlər və yerli əhaliyə və ya yaxın ərazilərin sakinlərinə nisbətən daha uzun müddət qalmağa meyllidirlər, buna görə də, mədəni və tarixi irsin qorunması region ərazisinin sosial-iqtisadi inkişafının katalizatoruna çevrilir. [1, s.15-16]

Mədəni irsin qorunmasının digər nəticəsi, əlaqəli sahələrin - qonaqpərvərlik sənayesinin, nəqliyyat və kommunal infrastrukturun inkişafıdır. ABŞ-da Main Street layihəsinin həyata keçirilməsinin 35 ildən çox tarixi ərzində on minlərlə kilometr yol yenidən qurulmuş və ya tikilmiş, elektrik şəbəkələrinin, su təchizatının, qaz təsərrüfatının, kanalizasiya sistemlərinin texniki vəziyyəti və s. təkmilləşdirilmişdir ki, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşmasına və ərazinin investisiya cəlbediciliyinin artırılmasına xidmət etmişdir. "Mədəni irs obyekti özlüyündə, yalnız minimal dərəcədə iqtisadi dəyər daşıyır". [5, s.113]

Mədəni irs onun qorunmasına qoyulmuş kapitaldan yaxşı gəlir nümayiş etdirir və həm mədəni irsin qorunması ilə bilavasitə bağlı iqtisadi fəaliyyətlərdən, həm də mədəni irsin istifadəsinə yönəlmiş layihələrin həyata keçirilməsindən dolayı xarici təsirlər hesabına, dövlət vergi daxilolmalarını

əhəmiyyətli dərəcədə artıran generatorudur, bu isə öz növbəsində, yeni investisiyaların cəlb edilməsinə kömək edir.

1997-ci ildə Hollandiyada mədəni irsin mühafizəsi sahəsində Hollandiya siyasətinin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün tədqiqat aparılmışdır. Tarixi binaların sahibləri təmir-bərpa işləri üçün dövlət qrantları üçün müraciət edə bilərdilər. Nəticədə, dövlətin yatırdığı hər dollar 2,78 dollar investisiyaya yüksəlib, yəni mədəni irsin qorunması sahəsinə özəl investisiyalardan, sponsorluqdan və xeyriyyəçilikdən 1,78 dollar cəlb edilib. Hökumətin yatırdığı hər dollar 0,74 ABŞ dolları həcmində iqtisadi gəlirlə nəticələnib. Beləliklə, 1 dollar investisiya əslində dövlətə cəmi 0,26 dollara başa gəlib. [3, s.33]

Bundan əlavə, mədəni irsin nəticələrinin qiymətləndirilməsi onların dar miqyasda ölçülməsindən, əsasən turistlərin sayı baxımından qiymətləndirilməsindən və ya ziyarətçilərin növü, onların istehlakının xarakteri və qalma xərcləri baxımından, yerli səviyyədə daha diqqətlə təhlil edilməsindən asılı olaraq, fərqli şəkildə dəyərləndirilə bilər. Mədəni irs üzrə təşəbbüslərin yerli mədəni irsin unikallığına, yerli həyat tərzinə, regional və yerli ənənələrə "mədəni inteqrasiya" dərəcəsi də vacibdir, buna görə də, müxtəlif maraqlı tərəflərin, xüsusən də, yerli icmanın bacarıqlarına, resurslarına və ehtiyaclarına uyğun olmalıdır.

İqtisadi, sosial, mədəni və ekoloji inkişafın bütün aspektləri, eləcə də turizmin potensial qazancı və xərcləri (o cümlədən alternativ xərcləri) nəzərə alınmalıdır. Müxtəlif maraqlı tərəflərə aid olan nəticələrin və uğurlu inkişaf üçün tədbirlərin tapılması həm turizmə iqtisadi təsirə (birbaşa təsir, turizm multiplikatoru), həm də onun sosial dəyərinə və davamlılığına töhfə verə bilər.

**Müasir şəraitdə mədəni irs obyektlərinin qorunub saxlanılması, bərpası və ondan istifadə problemləri**

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək məqsədilə 1992-ci ildəт YUNESKO ilə əməkdaşlığa başlayıb. Azərbaycan artıq beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqun mərkəzinə və təşkilatçısına çevrilib. Azərbaycanda tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mədəni irsin qorunması və səmərəli idarə edilməsi ölkənin strateji inkişaf istiqamətlərindən biri kimi qeyd olunur. Bu Konsepsiyanı həyata keçirmək və milli mədəni irsin qorunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilib. Bu müddət ərzində Dövlət Proqramının icrası məqsədilə milli pasportların və xəritələrin hazırlanması, normativ bazanın gücləndirilməsi, abidələrin təbliği istiqamətində bir sıra işlər həyata keçirilib.

Son zamanlar Azərbaycan Respublikasında mədəni irs obyektlərinin (bundan sonra - MİO) qorunub saxlanılmasına və bərpasına, habelə onların potensialından şəhərlərin, qəsəbələrin və ərazilərin iqtisadi və sosial inkişafı üçün istifadə edilməsinə böyük diqqət yetirilir. Bu fəaliyyət, əhəmiyyətli maliyyə investisiyalarını da əhatə edir. Bərpa işlərinin və mədəni irs obyektlərinin saxlanması üzrə tədbirlərin görülməsi yalnız müxtəlif səviyyəli büdcələr hesabına ödənilə bilməz. Hazırda ən aktual olan, ciddi büdcə məhdudiyyətləri şəraitində MİO-nun qorunması və inkişafı üçün müxtəlif mənbələrdən maliyyə resurslarının birləşdirilməsi mexanizmlərinin axtarışıdır.

Azərbaycan memarlığının YUNESCO tərəfindən Ümumdünya mədəni irs siyahısına: Bakıda Şirvanşahlar Sarayı və Qız Qalası ilə birlikdə Köhnə Qala (2000); Qobustan qayaüstü rəsmlərinin mədəni mənzərəsi (2007); Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi (2019) daxil edilmişdir. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir.

Müasir sosial-iqtisadi münasibətlərdə mədəni irs obyektlərindən istifadə problemi təkcə Azərbaycanda deyil, malik olduğu mədəni irsi qoruyub saxlamağa çalışan bütün ölkələrdə də mövcuddur. MİO-ların xüsusi mülkiyyətçiyə aid olduğu dövlətlərdə həmin obyektdən istifadə

dövlətin və cəmiyyətin ciddi nəzarəti altında həyata keçirilir. Bir qayda olaraq, qanunla tarixi-mədəni dəyərə malik olan obyektlərdən istifadə qaydası və üsulu ilə bağlı bir sıra məhdudiyyətlər qoyulur. ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya və s. belə ölkələrdəndir. Azərbaycandanda bu mexanizmlər yenicə formalaşmağa başlayıb.

Mədəni irs abidələrin saxlanılması və istifadəsi təcrübəsi demək olar ki, həmişə bir sıra həll edilməmiş məsələlərlə üzləşir. Bu gün həm də memarlıq irsindən istifadə, onun saxlanılmasının ən yaxşı üsullarından biridir. Mədəni irsin qorunub saxlanması sahəsində Azərbaycan təcrübəsi də son zamanlar bir qədər intensivləşməyə məruz qalıb, lakin bir sıra məhdudiyyətlər qalmaqdadır:

- səthi institusionallaşma, dövlətin həddən artıq məsuliyyəti, funksiya və səlahiyyətlərin kifayət qədər aydın şəkildə bölüşdürülməməsi;
- ictimai təşkilatlar mədəni-tarixi irsin qorunub saxlanması üçün fəal işləməklə bir çox işlər görsələr də, çox vaxt onların təşkilati potensialı zəif olur və nəticədə, ancaq dar peşəkar xüsusiyyətlərə malikdirlər;
- bir sıra mədəni irs obyektləri dövlət orqanları ilə ictimai təşkilatlar arasında konstruktiv iş əlaqələrinin olmaması və həll edilməmiş münaqişələrlə xarakterizə olunur;
- mədəni irsin əhəmiyyətinin dərk edilməsinə yönəlmiş məqsədyönlü və sistemli təbliğat və izahat işinin kifayət qədər aparılmaması və onun qorunmasında bütün maraqlı tərəflərin əməkdaşlığının lazımi səviyyədə olmaması;
- peşəkar genişmiqyaslı tədbirin olmaması (Fransadakı Heritage Salonuna bənzəyən);
- daşınmaz irs anlayışı onun "insani ölçüsündən" - insanların həyat tarixi, adət-ənənələri, yerli icma ilə əlaqələri və s. ayrılır. Müvafiq olaraq, çox vaxt işin yalnız maddi tərəfinə diqqət yetirilir;
- fərdi sahibkarlarla maarifləndirmə işinə və onların tarixi obyektlərin uyğunlaşdırılması üçün mümkün istifadə və texnologiyaları ilə tanışlığına ehtiyac var.

Azərbaycanın bir çox kiçik şəhərlərində və kənd yerlərində nadir mədəni və təbiət irsi abidələri olsa da, məskunlaşma sistemindəki dəyişikliklər və mənfi demoqrafik meyillər səbəbindən, ərazinin mədəni inkişaf səviyyəsi kəskin şəkildə aşağı düşür. İqtisadi fəal əhalinin təkcə kənd yerlərindən deyil, həm də kiçik şəhərlərdən intensiv köçməsi baş verir, nəticədə, mədəni landşaftın davamlılığı pozulur, nəinki nadir tarix və mədəniyyət abidələrinin mövcudluğu, həm də bütün kənd yerlərinin sosial-iqtisadi inkişafının perspektivləri itirilir. Təcrid olunmuş və ucqar ərazilərə çevrilən kiçik və xırda kəndlərin sayı artır, iri şəhərlərlə kənd yerləri arasında "sivilizasiya" mədəni fərqlər daha da güclənir. Belə bir şəraitdə, mədəni irs Azərbaycanın bir çox əraziləri üçün dirçəliş və yeni sosial-iqtisadi şəraitə uyğunlaşma üçün əsas mənbəyə çevrilə bilər. Bunun üçün mədəni irsin kapitallaşdırılması və onun obyektlərindən istifadənin səmərəliliyi artırılmalıdır.

**Nəticə**

Mədəni irsin təbliği, irs xidmətlərinin göstərilməsi, irs institutlarının fəaliyyəti nəticəsində gəlir əldə edilməsi və bu sahədə xeyli insanın məşğulluğa cəlb edilməsi sayəsində mədəni irsdən istifadənin birbaşa iqtisadi nəticələri var.

Mədəni irsin dövlət sektorunda gəlirlərə və daşınmaz əmlak bazarına təsirlə yanaşı müəyyən bir bələdiyyə və ya regionda gəlir, texniki xidmət və iş yerlərinin yaradılmasına dolayı və birbaşa multiplikasiya təsirləri də mövcuddur.

Mədəni irsin qorunmasının digər nəticəsi, əlaqəli sahələrin - qonaqpərvərlik sənayesinin, nəqliyyat və kommunal infrastrukturun inkişafıdır.

Mədəni irs üzrə təşəbbüslərin yerli mədəni irsin unikallığına, yerli həyat tərzinə, regional və yerli ənənələrə "mədəni inteqrasiya" dərəcəsi də vacibdir, buna görə də, müxtəlif maraqlı tərəflərin, xüsusən də, yerli icmanın bacarıqlarına, resurslarına və ehtiyaclarına uyğun olmalıdır.

Bu fəaliyyət, əhəmiyyətli maliyyə investisiyalarını da əhatə edir. Bərpa işlərinin və mədəni irs obyektlərinin saxlanması üzrə tədbirlərin görülməsi yalnız müxtəlif səviyyəli büdcələr hesabına ödənilə bilməz. Hazırda ən aktual olan, ciddi büdcə məhdudiyyətləri şəraitində MİO-nun qorunması və inkişafı üçün müxtəlif mənbələrdən maliyyə resurslarının birləşdirilməsi mexanizmlərinin axtarışıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Arts and Economic Prosperity III. The economic impact of nonprofit arts and culture organizations and their audiences. National report. 2007. P. 15–16 // URL: http://www.AmericansForTheArts.org
2. Cultural Heritage Counts for Europe Report. Krakow, 2015. P. 21, 161.
3. Economics and Heritage Conservation. Los Angeles: The Getty Conservation Institute, 1998.. P. 33
4. Musgrave R. A. The Theory of Public Finance. New York; London, 1959
5. Tailor R. House of Lords Library notes LLN-2015–0049 // National Lottery Contribution to Sport, Culture, Charities and National Heritage.
6. Литвинова О.Г. Зарубежный и отечественный опыт сохранения историко-культурного наследия в конце XX – начале XXI века //Вестник Томского государственного архитектурно-строительного университета. 2010. № 4. С. 47–48.
7. Эрмитаж для города и горожан: результаты оценки экономического и социального вклада музея в жизнь Санкт-Петербурга. СПб.: Европейский университет в Санкт-Петербурге, 2014. С. 30.

**Amin Allahverdi oğlu Rustamli**
Azərbaycan Dövlət Aqrar Universiteti, Doktorant
E-mail:amin.rustemli@mail.ru

## ALİ TƏHSİL SİSTEMİNİN XƏRC KOMPONENTİNİN AZALDILMASI YOLLARI

**Xülasə**

Xərclər dövlət büdcəsinin ən mühüm xüsusiyyətlərindən biridir. Xərclər sistemi vasitəsilə milli gəlirin əhəmiyyətli hissəsinin yenidən bölüşdürülməsi həyata keçirilir, dövlətin təsərrüfat proseslərinə müdaxiləsi, dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsi həyata keçirilir. Büdcənin xərcləri dövlətin öz funksiyalarını yerinə yetirməsi ilə əlaqədar yaranan məsrəflərdən ibarətdir. Onlar dövlətin pul vəsaitlərinin Fondunun bölüşdürülməsi və ondan müxtəlif istiqamətlər üzrə istifadə olunması ilə bağlı iqtisadi münasibətləri ifadə edirlər.

Dövlət büdcəsi xərclərinin iqtisadi mahiyyəti onu göstərir ki, bu xərclər iqtisadi siyasətin fəal alətinə xidmət edir. Onların köməyi ilə dövlət yenidən paylayıcı proseslərə, milli gəlirin artmasına, iqtisadiyyatın struktur tənzimlənməsinə, təsərrüfatın ayrı-ayrı sahələrinin və sektorlarının inkişafına, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına təsir göstərir. Təhsil müəssisəsinin əlavə vəsaitlərin cəlb edilməsi onun büdcə sistemindən maliyyələşdirilməsinin normativlərinin və mütləq ölçülərinin azalmasına səbəb olmur. Bunlardan ən vacibi isə ali təhsil sisteminin xərcləridir ki, bunun komponentinin azaldılması yolları da məhz məqaləmin mövzusunu təşkil edir.

**Açar sözlər:** ali təhsil, bakalavr, əmək bazarı, rəqəmsallaşdırma, xərc, büdcə, komponent.

### Giriş

**Mövzunun aktuallığı:** Dövlətin təhsilə qoyduğu investisiyalar əhəmiyyətli iqtisadi nəticə versə də, ölkələrin müxtəlif qrupları üçün ali, orta və ilkin təhsilə qoyulan sərmayənin təsiri müxtəlifdir. Əmək bazarı ilə ali təhsil sistemi arasında disbalans pedaqoji mühitdə müzakirə üçün yüksək aktuallığa malikdir. Struktur problemlərinin aradan qaldırılması xüsusilə iqtisadi böhran şəraitində mürəkkəb vəzifədir.

**İşin məqsədi:** ümumtəhsil məktəblərinə xərclərin planlaşdırılması və maliyyələşdirilməsi metodikasının öyrənilməsi və onların əsasında təhsil müəssisələrinin saxlanmasına büdcə xərclərinin optimallaşdırılması üzrə təkliflərin hazırlanması.

**İşin vəzifəsi:**Ali təhsil ocaqlarında Boloniya modelinə keçməsi bir çox amillərlə mürəkkəbləşib. Bu məqamda əlavə vəzifə mütəxəssis buraxılışının strukturunda islahatların aparılmasının

zəruriliyinə çevrilib, çünki onların sırasında əmək bazarında böyük həddən artıq bolluq, digərlərində isə çatışmazlıq müşahidə olunub.

**Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri həll etmək lazımdır:**

1) təhsil müəssisəsinin saxlanması üçün xərclərin tərkibini müəyyən etmək və müəyyən etmək;

2) təhsil xərclərinin tərkibini, məzmununu və maliyyələşdirmə mənbələrini araşdırmaq;

3) ümumi təhsil məktəbləri üçün xərclərin planlaşdırılması və maliyyələşdirilməsi qaydasını araşdırmaq;

4) ümumtəhsil məktəbinin xərclərinin smetası üzrə xərclərin optimallaşdırılması üzrə təkliflərin hazırlanması.

**Ali təhsil sisteminin xərc komponentinin azaldılması yolları**

İnkişaf etmiş ölkələrdə təhsilin bütün növlərinə xərclərin artması iqtisadiyyatın artmasına gətirib çıxarır, özü də orta və ali təhsildən gələn gəlir daha yüksəkdir. İnkişaf etməkdə olan ölkələr üçün ali təhsil xərclərinin artması böyük effekt verir. Dövlətin təhsilə çəkdiyi xərclər daha yüksəkdir və büdcə xərclərinin əsas payı əhatə edir (Məmmədov H.2011). Hətta ali təhsil müəssisələrinin çoxu dövlət tərəfindən saxlanılır. Məsələn, Anglo-Sakson ölkələrində özəl xərclərin payı üçdə birindən çox deyil və ibtidai məktəb büdcədən demək olar ki, tamamilə maliyyələşdirilir. Dövlət həm satınalmaları, həm də personalın saxlanmasını maliyyələşdirir, bu vəsaitlər yalnız ödənişli əsaslarla təhsillə qismən örtülür(Ağayev R. və Mehtiyev A.,2010). Bundan başqa, təhsilin yüksək səviyyəsi sağlamlıqlarına daha məsuliyyətli münasibət, cinayətkarlığın azaldılması və daha böyük tolerantlıq deməkdir. Buna baxmayaraq, makro səviyyədə təhsildən qayıtmanın qiymətləndirilməsində çətinliklər yaranır. Müxtəlif tədqiqatlardakı qiymətləndirmələr əhəmiyyətli dərəcədə fərqlənir. Bəzi hallarda iqtisadi artımın təhsil xərclərinin payından asılılığı göstərilir, bəzilərində isə bu cür əlaqənin olmadığı iddia edilir, bəziləri onu yalnız yoxsul ölkələrə münasibətdə aşkar edirlər. Bununla yanaşı, hətta zəngin dövlətlər də büdcə xərclərinin prioritetlərini ayırırlar. Yoxsul ölkələr üçün isə qısamüddətli və ya ortamüddətli perspektivdə iqtisadi inkişafa təsiri nəzərə alınmaqla, təhsilin ayrı-ayrı sahələrin maliyyələşdirilməsinin seçilməsi xüsusilə diqqət yetirilir(Məmmədov H.2011). Bir qayda olaraq, iqtisadçılar ali təhsilin xərclərini həm təhsil alanlara, həm də bütövlükdə cəmiyyətə investisiya kimi qiymətləndirirlər. Bu xərclər zamanı müəyyən xərclər çəkir, lakin uzunmüddətli perspektivdə yaxşı nəticələr verir. Tələbələr üçün bu xərclər birbaşa təlim və tədris materiallarına çəkilən xərclərdən, həmçinin mümkün qazanclardan təhsil əvəzinə imtina nəticəsində yaranan dolayı xərclərdən ibarətdir. İqtisadiyyatın inkişafının müasir mərhələsində mərkəzləşdirilmiş maliyyə resursları dövlətə ictimai istehsalın lazımi templərini və nisbətlərini təmin etməyə, onun sahə və ərazi strukturunun təkmilləşdirilməsinə, iqtisadiyyatın sahələrinin birinci növbəli inkişaf proqramları üçün zəruri məbləğdə vəsait formalaşdırmağa, böyük sosial dəyişikliklər aparmağa imkan verir. Kadr hazırlığını texniki peşə litseyləri, orta ixtisas məktəbləri (kolleclər) və ali təhsil müəssisələri (ali məktəblər) həyata keçirirlər. Hazırda bazar iqtisadiyyatının tələblərinə əsaslanaraq kadrların yenidən hazırlanması sistemi getdikcə daha mühüm yer tutur. Ölkədə formalaşmış sistemi dövlət və qeyri-dövlət ali təhsil. Büdcə ayırmaları əsasən dövlət təhsil müəssisələrinə göndərilir. Onlar iqtisadiyyatın və ölkənin qeyri-istehsal sahəsinin inkişafı üçün lazım olan bütün ixtisaslar üzrə kadrlar hazırlayırlar(Ağayev R. və Mehtiyev A.,2010). Təlim aşağıdakı formalarda həyata keçirilir: gündüz, axşam, qiyabi. Tələbələrin orta illik sayından, maddi təminat normalarından, müəllimlərin əmək haqqı dərəcələrindən və digər əlamətlərdən asılı olaraq onların fəaliyyətinin spesifik şəraitini nəzərə alaraq ali məktəblərə xərclər hər biri üzrə ayrılıqda müəyyən edilir.Ali məktəbin əsas maliyyə sənədi büdcə ayırmalarının ümumi həcmini, hədəf istiqamətini və rüblük paylanmasını müəyyən edən smetadır. Nazirliklər və idarələr tabeliyində olan ali təhsil müəssisələrinə haqq, Təqaüd Fondu, əsaslı təmir, kapital qoyuluşları, avadanlıq və inventarın alınması üçün haqq Fondu üzrə ayırmalar ayırmaqla smetaları təsdiq edirlər. Qalan xərclər üzrə xərclər ümumilikdə "digər xərclər" sətri üzrə təsdiq edilir, maddələr üzrə isə onları universitetin rektoru ümumi xərclər çərçivəsində bölüşdürür.Maliyyə mərkəzləşdirilməsi sayəsində pul vəsaitləri iqtisadi və sosial inkişafın həlledici sahələrində cəmləşir, dövlətin iqtisadi və sosial siyasətinin uğurla həyata keçirilməsinə şərait yaradır. Eyni şəkildə, cəmiyyət təhsil sisteminin subsidiyalaşdırılması və real sektorda insan və maddi

resurslardan istifadə etməkdən imtina xərcləri həyata keçirir. Buna görə təhsilə və elmə sərmayə qoymadan yoxsulluqdan xilas olmaq və digər ölkələrin istehsalçıları ilə uğurla rəqabət aparmaq mümkün deyil(http:// www.yeniazerbaycan.com). Bundan başqa, artan rəqəmləşdirmə prosesi informasiya texnologiyalarının yayılmasını təmin edən sahələrdə kifayət qədər mütəxəssis hazırlığının zəruriliyinə səbəb olub(Ağayev R. və Mehtiyev A.,2010). Ali təhsil sahəsində dövlət siyasəti bakalavr təhsilinin ən populyar proqramları üzrə təhsil alanların sayını dəyişdirmiş və təhsil haqqının formalarından asılı olaraq, onların strukturuna təsir göstərmişdir (John Dewey,1997). Tədqiqat zamanı müəyyən edilib ki, daha populyar hüquqlara - hazırlıq üzrə təhsil alanların ümumi sayı – iqtisadiyyat, menecment və hüquqşünaslıq azalıb, lakin onlar öz liderliyini qoruyub saxlamışlar, özü də bu ixtisaslar üzrə tələbələrin strukturunda müqavilə əsasında təhsil alanların sayı üstünlük təşkil edir. Bununla yanaşı, iqtisadiyyatın tələbləri ali təhsil sisteminin kifayət qədər sürətli reaksiyasına səbəb olmuş və dilçilik, informasiya sistemləri və texnologiyaları, defektoloji təhsil sahəsində təhsil alanların sayının artmasına səbəb olmuşdur(Ağayev R. və Mehtiyev A, 2010). Dövlət dəstəyi nəticəsində ümumi sayın azalmasına baxmayaraq, təhsil alanların strukturunda hazırda iqtisadiyyatda daha çox tələb olunan peşələr üzrə büdcə və məqsədli tələbələrin payı artıb: tikinti, elektroenergetika və elektro - texnika, aqro-mühəndis, informatika və hesablama texnikası, tətbiqi informatika. Büdcə müəssisələrinin effektiv idarə edilməsi və büdcə və büdcədənkənar vəsaitlərin səmərəli istifadəsi təhsil proseslərinin keyfiyyətinə birbaşa təsir göstərir. Büdcə proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı kəmiyyət xarakteristikasına malik təşkilati, iqtisadi, texniki digər tədbirlər kompleksini təşkil edir(Ağayev R. və Mehtiyev A, 2010). Tədbirlər planında büdcə proqramının həyata keçirilməsi ilə bağlı konkret tədbirlər və tədbirlər göstərilir ki, bu tədbirlər nəzərdə tutulduğu routines (mövcud olduğu halda), məsul İcraçılar (tabeliyində olan dövlət müəssisələri və ya büdcə proqramları inzibatçısının özü) və illər üzrə hər bir tədbirin icra müddəti göstərilir.Təhsil müəssisələri növbəti maliyyə ili üçün Təhsil Nazirliyinə büdcə ərizəsi (gəlir və xərclər smetası) təqdim edir və büdcə öhdəlikləri və gəlir və xərclər Smetası limitləri çərçivəsində xərc və ödənişləri həyata keçirmək hüququna malikdir(Ağayev R. və Mehtiyev A, 2010).

məktəbəqədər təhsilin alınmasını təmin edən müəssisələrdə bir uşağın saxlanılması üçün pul vəsaitlərinin normativi;

-bir tələbənin təhsil almasını təmin edən müəssisələrdə təhsil xərclərinin normativi;

-ümumi əsas və ümumi orta təhsil səviyyələrində xüsusi təhsil almasını təmin edən müəssisələrdə bir şagirdin təlim-tərbiyə xərclərinin normalaşdırılması;

-bir tələbənin peşə-texniki təhsil almasını təmin edən müəssisələrdə təhsil almasına çəkilən xərclərin büdcə təminatının normativi və.s

Ümumilikdə, ali məktəbin maliyyəsini müasir təhsil texnologiyaları nəzərə alınmaqla ali məktəbin uğurlu inkişafı üzrə vəzifələri yerinə yetirmək məqsədilə mərkəzləşdirilmiş və mərkəzləşdirilmiş pul vəsaitləri fondları formalaşdırılan pul münasibətlərinin məcmusu kimi təqdim etmək olar.

Hər hansı bir sahədə xərclərin planlaşdırılması prosesi onların tərkibinin və strukturunun konkret fəaliyyət növü üzrə öyrənilməsini əsas kimi nəzərdə tutur (Ağayev R. və Mehtiyev A, 2010).

Təhsil üzrə büdcə xərcləri 17,9% artacaq - 2016-ci ilin büdcəsində bu məqsədlər üçün 4,27 mlrd.manata yaxın vəsaitin ayrılması planlaşdırılırdı.

2018 - ci il üçün büdcə layihəsində təhsil xərclərinin strukturunda məktəbəqədər təhsilə 376,86 mln.manat, ümumi təhsilə 2,11 mlrd. manat, orta və peşə təhsilinə isə müvafiq olaraq 78,4 və 58,83 mln. manat təşkil edib.

Bundan başqa, ali təhsilə 60 mln.manata yaxın, əlavə təhsilə 4,92 mln. manat, təhsil sahəsində tətbiqi tədqiqatlara 8,05 mln. manat ayrılması planlaşdırılır. Digər təxminən 2,13 mlrd. manat digər təhsil müəssisələrinə və bu sahədə tədbirlərə hesablanıb.

Diqaramdan da göründüyü kimi, 2020 ci ilin rəsmi faiz dərəcələrindən -rəsmi proqnozlara görə, 2022-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri, təxminən, 25,88 mlrd.manat təşkil edəcək və 2021-ci illə müqayisədə 4,7% artacaq. Bununla yanaşı, dövlət büdcəsinin xərcləri 29,77 mlrd.manat səviyyəsində planlaşdırılıb ki, bu da cari ildən 5,7% çoxdur. Bununla da büdcədə 3,12mlrd.manatdan bir qədər artıq kəsir formalaşır - bu, 1,5% azdır, nəinki 2021-ci ildə.

**Diaqram 1.**

**2013-2020 –ci il büdcə layihəsində təhsil xərcləri**




Mənbə: Azərbaycan Statistika Komitəsi

Beləliklə, 2022-ci il üçün dövlət büdcəsinin xərcləri strukturunda təhsil xərclərinin payı 18% təşkil edəcək ki, bu da dövlətin vətəndaşlara keyfiyyətli təhsilə çıxışı təmin etdiyini göstərir Məmmədov H.,2020).

Vəsaitlər dövlət sifarişi ilə təhsil alan tələbələrin sayının 109 835 nəfərə çatmasına, ölkədə tələbələrin ümumi sayının isə 182 min nəfərə çatmasına sərf olunacaq. Xərclərin maddəsində əhalinin Sosial kateqoriyasına həssas olan 23 minə yaxın tələbənin təhsil alması üçün vəsait göstərilir. Bundan başqa, Azərbaycan Respublikası Prezidenti İlham əliyevin sərəncamı ilə tələbə təhsil kreditləri Fondunun nizamnamə kapitalı 104 milyon manata qədər artırılacaq (Məmmədov H.,2020).

**Nəticə**

Yuxarıda göstərilənlərdən belə nəticə çıxarmaq olar ki, təhsil xərcləri işçi qüvvəsinin təkrar istehsalı üçün lazım olan xərclərin bir hissəsi kimi çıxış edir. Təhsil xərclərinin maliyyələşdirilməsinin əsas mənbələri dövlət büdcəsinin vəsaitləridir. Ali təhsil müəssisələrinin maliyyələşdirilməsində onların ödənişli xidmətlərin, istehsalat və elmi fəaliyyətin, habelə təşkilatların və vətəndaşların vəsaitlərinin təhsilindən əldə etdikləri gəlirlər mühüm yer tutur. Respublika və yerli səviyyələrdə təhsilin maliyyələşdirilməsi üçün büdcədənkənar məqsədli fondlar yaradıla bilər. Belə qənaətə gəlmək olar ki, təhsil sisteminin idarə edilməsi dövlət-ictimai xarakter daşıyır. Mühasibat uçotu və hesabat metodologiyasında vahid yanaşmaların təmin edilməsi məqsədi ilə təhsil sahəsində dövlət sosial standartlarının faktiki tətbiqi barədə məlumat təqdim edilərkənali təhsil sahəsində dövlət sosial standartlarının pul ifadəsində müəyyən edilmiş normativlərinin hesablanması qaydası haqqında Təlimat hazırlanmışdır. Ali təhsil müəssisələri ali təhsilin yeni tendensiyalarına və vəzifələrinə uyğun inkişaf etməlidirlər, lakin eyni zamanda keyfiyyətin təminatı vasitəsilə maliyyə sabitliyinin qorunub saxlanılmasını unutmamalıdırlar. Ümumilikdə, ali məktəbin maliyyəsini müasir təhsil texnologiyaları nəzərə alınmaqla ali məktəbin uğurlu inkişafı üzrə vəzifələri yerinə yetirmək məqsədilə mərkəzləşdirilmiş və mərkəzləşdirilmiş pul vəsaitləri fondları formalaşdırılan pul münasibətlərinin məcmusu kimi təqdim etmək olar.

Hər hansı bir sahədə xərclərin planlaşdırılması prosesi onların tərkibinin və strukturunun konkret fəaliyyət növü üzrə öyrənilməsini əsas kimi nəzərdə tutur.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Qarşılıqlı Əlaqələrinin İnkişaf Perspektivləri. ATİB/TİKA, Bakı – 2009

2.Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. Yeni Azərbaycan qəzeti, 13 yanvar 2011-c il,

3.Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası 4. Azərbaycan Respublikasında təhsil siyasətinə dair müxtəlif dövlət proqramları və qanunvericilik aktları

4.Ağayev R. və Mehtiyev A. Azərbaycanda orta təhsil sisteminin Cənubi Qafqaz, Baltik və Şərqi Avropa ölkələrilə müqayisəli tədqiqi. İqtisadi Təşəbbüslərə Yardım İB, Bakı – 2010

5. Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. Yeni Azərbaycan qəzeti, 2022, onlayn: http:// www.yeniazerbaycan.com/Musahibe_e7357_az.html

6. Ağayev R. və Mehtiyev A. Azərbaycanda orta təhsil sisteminin Cənubi Qafqaz, Baltik və Şərqi Avropa ölkələrilə müqayisəli tədqiqi. İqtisadi Təşəbbüslərə Yardım İB, Bakı – 2010

7.John Dewey. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: NY, 1997

8.Ned Z. Lawrence. Shift Your Paradigm: Educational Policies for Developing Countries. OUP: New York, 2002

9.http:// www.yeniazerbaycan.com/Musahibe_e7357_az.html

10. Телешова И.Г. Образование и человеческое развитие. В кн. «Человеческое развитие: новое измерение социальноэкономического прогресса». Под общ. ред. проф. В.П. Колесова. М: Права человека, 2008

11. Малейка Аббасзаде: «Органы образования должны опережать время». Интервью. 1news.az, 01 may 2014, onlayn: http://1news.az/ interview/20140501111654324.html

**Nurlan Rüstəm oğlu Rüstəmli**
Azərbaycan Turizm ve Menecment Universitetinin II kurs magistrantı
E-Mail: rustamli.nurlan.2001@atmu.edu.az

# MEHMANXANA XİDMƏTLƏRİ SƏNAYESİNDƏ MÜŞTƏRİ YÖNÜMLÜLÜYÜN İNKİŞAF MEYARLARI

**Xülasə**

Məqalədə mehmanxana xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə inkişaf meyarları vurğulanır. "Mehmanxana xidmətlərinin keyfiyyəti" anlayışı, müştərilərə xidmətdə texniki və funksional keyfiyyətin nisbəti təhlil edilir.

Müasir biznesdə müəssisələrin müştəri yömümlülüyü onun müştəri ehtiyaclarını dərindən dərk etmək və effektiv şəkildə təmin etmək yolu ilə əlavə mənfəət əldə etmək qabiliyyətini müəyyən edir. Məqalədə otel müəssisəsinin uzunmüddətli perspektivdə sabit mənfəət əldə etməyə imkan verən müştəri yönümlü siyasətin vacibliyindən bəhs edilir.

**Açar sözlər:** otel xidmətləri, keyfiyyət, müştəri diqqəti, mənfəət, müştəri loyallığı.

Son dövürlərdə turizm sənayesi müasir dünya iqtisadiyyatında mühüm yer tutur, həmçinin iqtisadi fəaliyyətin ən sürətlə inkişaf edən və kifayət qədər gəlirli növlərindən biri olmuşdur. İqtisadiyyatda turizm mühüm amil kimi insanın həyat səviyyəsinin yüksəldilməsinə və onun mənəvi zənginləşməsinə kömək edən, habelə cəmiyyətdə sosial rifahın və mədəniyyətin göstəricisidir.

Turizminin inkişafının potensial dinamizmi obyektiv olaraq xidmət bazarının mehmanxana sektoru üçün yerləşdirmə obyektlərinin növlərinin genişlənməsi ilə bağlıdır. Yerləşdirmə xidmətləri turizm sənayesinin, xüsusən də regional turizmin əsas sahəsidir və bu obyektlərinin əsas elementi mehmanxanadır. Qeyd etmək lazımdır ki, mehmanxana bazarının fəaliyyətinin səmərəliliyi mehmanxana sənayesinin infrastruktur obyektlərinin mövcudluğundan asılıdır. Mehmanxana biznesi orada müştərilərə yerləşdirmə və şəxsi xidmətlərin peşəkar şəkildə göstərilməsi ilə əlaqəli bir işdir.

Otel biznesi müəyyən xidmət növlərinin satışına yönəlmiş sahibkarlıq fəaliyyətidir. Bu günün qonaqları otellərdən daha yüksək səviyyəli və yüksək xidmət standartları gözləyirlər. Otel biznesinin təcili ehtiyacı otel müştəriləri üçün keyfiyyətli xidmət üçün yeni yanaşmaların inkişafıdır.

Bazar iqtisadiyyatı şəraitində yaşayış obyektləri bir-biri ilə rəqabət aparır və buna görə də onlar öz imicini yaxşılaşdırmaqda və cəlbediciliyini artırmaqda maraqlıdırlar. Bu baxımdan göstərilən mehmanxana xidmətlərinin keyfiyyəti turistləri cəlb etməklə yanaşı, yerləşdirmə obyektinin reytinqinin yüksəldilməsində mühüm amil olmaqla əsas rol oynayır.

İqtisadi həyatın sabitləşməsi, biznesdə böhran hadisələrinin aradan qaldırılması ölkəmizdə mehmanxana sənayesinə müsbət təsir göstərir və nəticədə mehmanxana sənayesinin vəziyyəti davamlı inkişaf mərhələsindədir. Mehmanxana nömrələrinin artması, müxtəlif mülkiyyət formalı yeni mehmanxana müəssisələrinin yaranması istiqamətində davamlı tendensiya müşahidə olunur. Daha çox müştəri cəlb etmək və mənfəəti artırmaq üçün otellər əlavə xidmətlərin çeşidini genişləndirirlər [1].

Müasir mehmanxana müştərilərini cəlb etmək və saxlamaq üçün onlar üçün başa düşülən və cəlbedici olan müəyyən xidmət standartlarına zəmanət verməlidir. Xidmət standartları müvafiq dövlət orqanları və ya təsərrüfat birlikləri tərəfindən hazırlanmış təsnifat sistemləri ilə müəyyən edilir.

Müasir bazar şəraitində mehmanxana biznesinin səmərəliliyi mehmanxana xidmətlərinə tələbatdan asılıdır. Həmçinin yüksək rəqabət mühitində mehmanxana xidmətlərinə sabit tələbatın təmin edilməsi kifayət qədər çətin, lakin həll edilə bilən bir vəzifədir. Bu problemin həlli alətlər toplusudur ki, onlardan biri müştəri yönümlü yanaşmadır [1].

Mehmanxananın fəaliyyətində müştəri yönümlü yanaşmanın praktiki olaraq tətbiqi üçün müştəri yönümlü yanaşmanın tətbiqi mərhələlərini öyrənmək lazımdır [4].

Ümumiyyətlə, müştəri yönümlü yanaşmanın tətbiqi müəssisənin bazarda rəqabət qabiliyyətinin səviyyəsini artırır, çünki məhz yüksək keyfiyyətli xidmət istehlakçı üçün otel xidmətlərini seçərkən həlledici amil olur [1]. Müştəri yönümlü yanaşmanın həyata keçirilməsi xidmət standartının yaradılması və həyata keçirilməsidir. Bu, müştərilərin ehtiyaclarını müəyyən etmək və xidmət strategiyasını hazırlamaq üçün müxtəlif yollarla yaxşı təşkil edilmiş ünsiyyəti tələb edir. İşçilərə xidmət standartlarına ciddi riayət etməkdə dəstək olmaq üçün səlahiyyətli motivasiya sistemi ilə dəstəklənən kadrların ixtisas səviyyəsini sistematik şəkildə artırmaq lazımdır.

İstehlakçıya təsir edən meyarların və onların mehmanxana ilə “münasibəti” prosesinə təsir dərəcəsinin müəyyən edilməsi, konkret mehmanxanada müştəri yönümlü idarəetmə prosesinin təkmilləşdirilməsinin əsas tendensiyalarını müəyyən etməyə kömək edəcək və təkliflər toplusunu yaradacaqdır. Bunun üçün lazımi üsul və vasitələr. Qeyd etmək lazımdır ki, Rusiya mehmanxana bazarı üçün xarakterik olan ümumi inkişaf tendensiyalarına və onları müəyyən edən amillərə baxmayaraq, hər bir sənaye müəssisəsi müştərilərlə qarşılıqlı əlaqəni yaxşılaşdırmaq yollarını özü üçün xüsusi olaraq müəyyənləşdirməlidir. Bu, otelin hədəf bazarının xüsusiyyətləri, onun kateqoriyası, yerləşməsi, işin mövsümiliyi və bir sıra digər spesifik parametrlərlə bağlıdır.

Qonaqpərvərlik sənayesində müştəri diqqəti uzunmüddətli əlaqələr qurmaq və mənfəət əldə etmək üçün müştəri münasibətlərini idarə etmək üçün vacib bir vasitədir.

Qonaqpərvərlik sənayesində müştəri diqqətinin rolu təkcə müştərini cəlb etmək deyil, həm də müştərini saxlamaqdır. Mehmanxana müəyyən müddətə yerləşdirmə xidmətləri göstərir. Qonağın mehmanxanaya qayıdıb-qayıtmayacağı isə qonaqların ehtiyaclarının ödənilmə dərəcəsindən asılıdır. Mehmanxana kompleksində təmin edilməsi vacib olan əlavə xidmətlərin siyahısından asılıdır [1]. Əlavə xidmətlərin müxtəlifliyi təkcə müştərinin ehtiyaclarını ödəmək deyil, həm də ümumi qəbul edilmiş xidmət standartlarından kənara çıxmaq, yəni bu ehtiyacları gözləmək istəyini göstərir. Nəhayət, qonaqlar öz fərdi tələblərinə cavab verən daha rahat mehmanxanada qalmağa üstünlük verəcəklər. Çətinlik hər bir qonaq üçün bütün lazımi şərtlərin seçilməsindədir. Beləliklə, müştəri yönümlü yanaşmanın tətbiqi qonaqların fərdi ehtiyaclarını ödəməyə, oteldə yerləşməni artırmağa və müvafiq olaraq mənfəəti artırmağa imkan verəcəkdir.

Mehmanxananın fəaliyyətində müştəri yönümlü yanaşmanın praktiki olaraq tətbiqi üçün onun tətbiqi mərhələlərini öyrənmək lazımdır [3]. Ümumiyyətlə, müştəri yönümlü yanaşmanın tətbiqi müəssisənin bazarda rəqabət qabiliyyətinin səviyyəsini artırır, çünki məhz yüksək keyfiyyətli xidmət istehlakçı üçün mehmanxana xidmətlərini seçərkən həlledici amil olur [6]. Beləliklə, müştəri yönümlü yanaşmanın həyata keçirilməsi xidmət standartının yaradılması və həyata keçirilməsidir. Bu, müştərilərin ehtiyaclarını müəyyən etmək və xidmət strategiyasını hazırlamaq üçün müxtəlif yollarla yaxşı təşkil edilmiş ünsiyyəti tələb edir. İşçilərə xidmət standartlarına ciddi riayət etməkdə dəstək olmaq üçün səlahiyyətli motivasiya sistemi ilə dəstəklənən kadrların ixtisas səviyyəsini sistematik şəkildə artırmaq lazımdır.

Müştəri mərkəzli yanaşmanın tətbiqi müştəri ehtiyaclarının təhlili ilə başlamalıdır. Rəy əldə etməyin ən sərfəli və asan yollarından biri otelin onlayn bronlaşdırma saytında rəyləri təhlil etməkdir. Saytda qonaqlar otel haqqında onun üstünlüklərini və çatışmazlıqlarını göstərən və xidmət səviyyəsini səkkiz kateqoriya üzrə on ballıq şkala ilə qiymətləndirərək rəy yaza bilərlər - rahatlıq, təmizlik, pulsuz wi-fi, səhər yeməyi, pulun dəyəri, yer, personal. Hər bir otel ümumi orta xal alır. Bu göstərici həm otel axtaran və bron edən qonaqlar, həm də qonaqların xidmətə münasibəti haqqında məlumatları təhlil edən sahibkarlar üçün məlumat mənbəyidir.

Ümumiyyətlə, müştərilərin ehtiyacları haqqında məlumatların təhlili əsasında hər bir mehmanxana üçün mühüm xidmət parametrlərini, məsələn, səhər yeməyi və ya internetə qoşulma keyfiyyətinin yaxşılaşdırılması, komfort səviyyəsinin yüksəldilməsi kimi parametrləri müəyyən etmək mümkündür.[8] "Qiymət/keyfiyyət nisbəti" meyarına görə qonaqların aşağı reytinqləri olduqda, otel qiymət siyasətinə yenidən baxmalıdır. “Personal” meyarı üzrə aşağı ballar mehmanxananın kadr siyasətində problemlər olduğunu göstərir və bu istiqamət mehmanxana xidməti strategiyasının formalaşmasında prioritet olmalıdır.

İstehlakçıların ehtiyaclarını öyrənərkən şifahi sorğular və anketlər kimi digər əks əlaqə kanallarından istifadə etmək lazımdır. İnternet rezervasiya saytında otel qonaqlarının rəylərinin təhlili ən əlçatan məlumat mənbəyidir.[6] Otelin fəaliyyətinə xidmət standartlarının tətbiqi işçilərin yüksək keyfiyyətli xidmət vərdişlərinə praktiki təlim keçməsini nəzərdə tutur. Yerli mehmanxana müəssisələrinin işçilərinin müştəri yönümlülük səviyyəsi kifayət qədər yüksək deyil, ona görə də müştəri yönümlülük təliminə xüsusi diqqət yetirilməlidir. Bu, hazırda ən təsirli kadr hazırlığı vasitələrindən biridir [1].

Xidmət standartlarının tətbiqi işçilərin motivasiya proqramları ilə dəstəklənməlidir. İlk növbədə müəssisənin işçiləri daxili müştərilər hesab edilməlidir.[8] Bu yanaşmanın əsas məqsədi maddi və qeyri-maddi həvəsləndirmələri özündə birləşdirən “kompensasiya paketi” şəklində işçilərin yüksək keyfiyyətli xidmət göstərməyə marağını artıran əlverişli iş şəraitinin yaradılmasıdır.

Müştəri yönümlü yanaşmanın həyata keçirilməsində son mərhələ, istehlakçıların ehtiyaclarına yönəlmiş xüsusi korporativ mədəniyyətin mehmanxana müəssisəsinin işinə tətbiqidir. Korporativ mədəniyyətin formalaşması komandanın yaradılması prosesindən başlayır [6]. Otel şirkətinin əməkdaşlarından ibarət sıx bağlı komanda yüksək keyfiyyətli xidmətin əlverişli mühitini yaradaraq xidmətin sürətinin və keyfiyyətinin artmasına öz töhfəsini verir.

Xidmətlərin keyfiyyətinin şərhinə müxtəlif yanaşmalar mövcuddur. İlk növbədə, keyfiyyət anlayışı istehlakçının tələbatını ödəyən xidmətin xassələrinin və xüsusiyyətlərinin məcmusu kimi şərh olunur. Xidmət keyfiyyəti - istehlakçının müəyyən edilmiş və ya nəzərdə tutulan ehtiyaclarını ödəmək qabiliyyətini təyin edən bir xidmətin xüsusiyyətlərinin məcmusudur. Keyfiyyətin müştərinin məmnunluq hissini artıran qüsurların olmamasına aiddir. Həmçinin xidmət keyfiyyət həm texniki, həm də funksional olaraq görülə bilər. Texniki keyfiyyət xidmətin maddi komponentidir. Mehmanxana xidmətinin texniki keyfiyyəti otağın, infrastrukturun (mebel, yataq dəstləri, memarlıq, binanın dizaynı və s.) və digər maddi xidmətlərin (məsələn, yeməklərin çeşidi və keyfiyyəti) keyfiyyətidir. Qonaq xidməti göstərən qurumla qarşılıqlı əlaqədə olur və xidmətin “texniki keyfiyyətini” müəyyən edir.

İstehlakçının otel işçiləri ilə dəfələrlə qarşılıqlı əlaqədə olduğu xidmətin göstərilməsi "funksional keyfiyyət" anlayışı ilə xarakterizə edilə bilər. Funksional keyfiyyət, "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" Qanununa uyğun olaraq, proses və xidmətin xüsusiyyətlərinin məcmusu kimi başa düşülən xidmətin göstərilməsi prosesinin xidmət keyfiyyətidir. Buna görə də, funksional keyfiyyətin təmin edilməsində əsas rol mehmanxana müəssisəsinin personalına verilir. Otel işçiləri aşağıdakı parametrlərlə xarakterizə olunur:

- şəxsi keyfiyyətlər;
- təhsil və hazırlıq səviyyəsi;
- motivasiya və kadrların idarə edilməsinə yanaşmalar

Mehmanxana xidmətinin keyfiyyəti xidmətə istehlakçı tərəfindən müəyyən edilmiş və ya gözlənilən standartlara, qonağın yaşayış və ya yerləşməyə dair istək və fərdi ehtiyaclarına, təminatlarına cavab vermək imkanı verən xassələrin və xüsusiyyətlərin müəyyən məcmusudur.

Müştəri tərəfindən xidmətin qəbulu və qiymətləndirilməsi prosesi konkret qonağın formalaşdırdığı gözləntilər və onun xidmət haqqında təsəvvürləri səbəbindən subyektivdir. Təsdiq edilmiş standartlar əsasında müştəriyə göstərilən xidmətlər onun xidmətin keyfiyyəti haqqında fikirlərini müəyyən şəkildə korrektə edir. Mehmanxana xidmətinin qeyri-maddiliyi öz xarakterinə görə onların keyfiyyətini obyektiv qiymətləndirməyə və təsdiq etməyə imkan vermir.

Xidmət keyfiyyətinin bu komponentləri qonağa həm mənfi, həm də müsbət təsir göstərə bilər, texniki və funksional keyfiyyət isə bir-birini əvəz edə bilməz, lakin onlardan birinin çatışmazlıqları digərinin artan səmərəliliyi ilə kompensasiya edilə bilər. Təcrübə göstərir ki, mehmanxana müəssisələrinin rəhbərliyi keyfiyyətin artımını stimullaşdırmır, əksinə, xidmətlərin ayrı-ayrı komponentlərinə, məsələn, otaqların rahatlığına, əsas və əlavə xidmətlərin çeşidinin genişləndirilməsinə diqqət yetirir. Beləliklə, praktikada keyfiyyət idarəetmə sisteminin ən sadə və ucuz elementləri həyata keçirilir. [2]

Otel xidmətinin funksional keyfiyyətini yaxşılaşdırmaq üçün vasitələrdən biri müştəri diqqətidir. Hal-hazırda "müştəri diqqəti" termini biznes və akademiyada çox populyardır. Bir otel şirkətinin müştəri diqqəti, uzunmüddətli perspektivdə davamlı mənfəət əldə etməyə yönəlmiş və üç meyara əsaslanmışdır. Müştərilər - otel xidmətlərinin istehlakçıları ilə münasibətləri idarə etmək üçün bir vasitədir:

- əsas səriştə,
- hədəf müştərilər
- mövqelərin bərabərliyi [3].

Otel müəssisəsinin strateji müştəri yönümlülüyünün əsas məqsədləri bunlardır:

- müştəri loyallığının yaradılması (məmnun müştəri təkrar sifarişlərin tezliyini və həcmini artırır);
- əlavə istehlak dəyəri olan məhsulların yaradılması;
- əlavə istehlak dəyəri olan məhsulların satışı hesabına satış marjasının artması

İstehlakçıya təsir edən amillərin və onların mehmanxana ilə "münasibəti" prosesinə təsir dərəcəsinin müəyyən edilməsi konkret mehmanxanada müştəri yönümlü idarəetmə prosesinin təkmilləşdirilməsinin əsas tendensiyalarını müəyyənləşdirməyə kömək edəcək və bunun üçün zəruri metodlar və alətlər toplusunu təklif edəcəkdir. Qeyd etmək lazımdır ki, mehmanxana bazarına xas olan ümumi inkişaf meyllərinə və onları müəyyən edən amillərə baxmayaraq, hər bir sənaye müəssisəsi müştərilərlə qarşılıqlı əlaqəni yaxşılaşdırmaq yollarını özü üçün xüsusi olaraq müəyyənləşdirməlidir. Bu, otelin hədəf bazarının xüsusiyyətləri, onun kateqoriyası, yerləşməsi, işin mövsümiliyi və bir sıra digər spesifik parametrlərlə bağlıdır.

Mehmanxananın fəaliyyətində müştəri yönümlü yanaşmanın praktiki olaraq tətbiqi üçün tətbiqi mərhələlərini öyrənmək lazımdır [4].

İqtisadçıların, istehlakçı loyallığı məsələsinə marağına baxmayaraq, bu konsepsiyanın nə olduğu barədə hələ də konsensus yoxdur. Bir çox müəlliflərin təriflərinə əsasən "loyallıq" anlayışından belə nəticəyə gələ bilərik ki, "loyallıq" istehlakçı ilə şirkət arasında uzunmüddətli münasibəti nəzərdə tutur.

Dünya üzrə 20-dən çox filialı olan "Bain & Company" konsaltinq şirkətinin analitikləri ilk dəfə olaraq istehlakçı loyallığını elan ediblər. Araşdırmalar əsasında belə qənaətə gəliblər ki, müştərilərin loyallığı göstəriciləri arasında əlaqə var. Tədqiqatçılar F.F. Reyxeld özünün "Sədaqət effekti: İqtisadi artımın, mənfəətin və davamlı dəyərin hərəkətverici qüvvələri" [5] monoqrafiyasında təşkilatın effektiv işinin əsas prinsiplərini, yəni istehlakçıya fərdi yanaşmanı, daimi təşviqat fəaliyyətini və məhsuldarlığın təkmilləşdirilməsini vurğulamışdır və gələcəkdə bu prinsiplər bir çox aparıcı beynəlxalq şirkətlərin işinin əsasını təşkil edirdi. Bir çox ekspertlər sadiq müştəriləri aşağıdakı növlərə ayırmağı təklif edirlər [6] (Cədvəl 1.2.).

**Cədvəl 1**

**Sadiq müştərilərin növləri**

| Sadiqliyin (loyallığın) növləri | İstehlakçı davranışının xüsusiyyətləri |
|---|---|
| Sadiqliyin olmaması | Həyat dəyərlərinə, inanclarına və həyat tərzinə görə istehlakçı məhsullara/xidmətlərə sadiq ola bilməz |
| Saxta sadiqlik | Şirkətin müştərisindən təkrar alış-veriş etməsinə baxmayaraq, onun məhsullarına/xidmətlərinə bağlılıq səviyyəsi aşağıdır |
| Gizli Sadiqlik | Şirkətdən satınalma səviyyəsi yüksək deyil, lakin şirkətə və onun məhsullarına/xidmətlərinə bağlılıq dərəcəsi əhəmiyyətlidir |
| Əsl Sadiqlik | Müəyyən bir şirkətdən məhsul/xidmətlərin yüksək tezliyi, onun məhsullarına/xidmətlərinə yüksək səviyyədə bağlılıq, eləcə də həmkarları, qohumları və tanışları arasında satan şirkətə müsbət münasibətin yayılması |

Müştəri məmnuniyyəti adətən ilkin gözləntilər ilə alınmış məhsulun (xidmətin) faktiki keyfiyyəti arasındakı uyğunluq kimi başa düşülür. Bununla belə, otel xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi olduqca çətin məsələdir, çünki xidmətlərin qeyri-maddilik və digər xüsusiyyətləri istehsalçıya tam nəzarəti həyata keçirməyə, həmçinin aşağı xidmətlərdən imtina etməyə imkan verən dəqiq müəyyən edilmiş keyfiyyət standartlarının inkişafına imkan vermir. Nəticədə, mehmanxana xidmətlərinin keyfiyyətini elan edilmiş standartlara cavab verən müəyyən obyektiv xüsusiyyətlər sistemi kimi deyil, istehlakçı tərəfindən qəbul edilməsi baxımından nəzərdən keçirmək məqsədəuyğundur. [3]

Qonaqpərvərlik sənayesində həqiqi sadiq müştərilərin formalaşması birdən-birə baş vermir, bu, müştərinin gözləntilərinə cavab verməli, eləcə də konkret bir istiqamətə yönəldilməlidir. İstənilən mehmanxana təkcə xidmətləri deyil, həm də daimi olaraq, qonaqla bütün qarşılıqlı əlaqə prosesində mehmanxananın müsbət imicini formalaşdırır və bununla da müştərilərin mehmanxanaya və onlara göstərilən xidmətlərə sədaqətini artırmağa çalışır.

Müştəri yönümlü müəssisələrin tədqiqinə həsr olunmuş mövzları təhlil edərkən müəssisənin müştəri ehtiyaclarını ödəməyə yüksək dərəcədə oriyentasiyasını göstərən amilləri müəyyən etməyə imkan verir. Bu amillərə aşağıdakılar daxildir: [4]

- ən dəyərli müştərilərlə işləmək üçün xüsusi texnologiyaların inkişafına əsaslanan müştəri bazasının seqmentasiyası;
- müştəri bazasının formalaşdırılması siyasətinin mövcudluğu, onun məqsədlərini, prioritetlərini, resurslarını müəyyən etməyin əsas yolları;
- personalın müştərilərlə işinə dair reqlamentlərin və məcəllələrin, müştəri hüquqları məcəlləsinin və onun riayət olunmasına, bütün satış nöqtələrində müştərilərlə yüksək keyfiyyətli qarşılıqlı əlaqə tələblərinə riayət olunmasına nəzarət sisteminin yaradılması;
- İnternet xidmətindən istifadə edən müştərilərlə ünsiyyətin təşkili;
- işçilərin müntəzəm peşəkar inkişafının təşkili;
- müştəri xidmətinin keyfiyyətinin monitorinqi, müştərilərin göstərilən xidmətlərdən məmnunluğunun qiymətləndirilməsi

Otel müəssisələri üçün müştəri bütün funksional şöbələrin işinin nəticəsidir. İnsanlar şirkət işçilərindən nəzakət, məhsul haqqında bilik, kömək və həvəs istəyirlər. Müştəri yönümlülüyü müştərilərin ehtiyaclarını ödəmək üçün bütün resursların və bütün işçilərin konsentrasiyasıdır.

Gələcəkdə, mehmanxana xidmətləri sahəsində müştəri mərkəzliliyinin öyrənilməsinin bir hissəsi olaraq, işçilərin inkişaf proqramları ilə otel müəssisəsinin müştəri mərkəzlilik səviyyəsi arasında əlaqənin daha ətraflı öyrənilməsi tələb olunur.[6] Mehmanxana sənayesində daxili marketinqin inkişafı məsələlərinin həllinə, habelə işçilərin müştəri diqqətinin qiymətləndirilməsi üsullarının öyrənilməsinə ehtiyac var.

Son dövürlərdə ölkəmizdə mehmanxana sənayesinin inkişafı yüksəlir və bu gün onların gəlirliliyi ofis, pərakəndə və digər ticarət obyektləri ilə bərabərdir. Olkədə işgüzar fəaliyyəti ilə əlaqədar olaraq, gələn işgüzar turistlər, o cümlədən xarici vətəndaşlar getdikcə daha çox səfər edir və bu, həm də otel biznesinin inkişafı üçün geniş imkanlar açır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Сивчикова, Т.Ю. Индустрия гостеприимства: учеб. пособ. / Т.Ю. Сивчикова, Н.С. Носова.– М.: ИТК Дашков и К, 2013. – 272 с.
2. Барчуков, И.С. Гостиничный бизнес и индустрия размещения туристов: учебное пособие / И.С. Барчуков, Л.В. Баумгартен, Ю.Б. Башин, А.В. Зайцев. -3-е изд., перераб. — М.: КНОРУС, 2016. — 168 с.
3.Бедяева Т.В. Технология обслуживания потребителей гостиничных услуг: учеб. пособ. / Т.В. Бедяева, Г.Г. Воронцова. – СПб.: КОСТА: Гранд-Технолоджи, 2008.
4. Волков Ю.Ф. Экономика гостиничного бизнеса: учеб. пособ. / Ю.Ф. Волков. – Ростов н/Д: Феникс, 2010.
5. Воробьев В.К. История развития гостиничного бизнеса в России / В.К. Воробьев, Н.С. Голигузова // Наука, образование и культура. – 2016. – № 12. – С. 115−123.
6. Гаврилова А.Е. Клиентоориентированный сервис в сфере гостеприимства // Научная сессия ГУАП. - СПб.: Санкт-Петербургский государственный университет аэрокосмического приборостроения, 2019. — С. 92-95.

**Gülbəs Rəsul qızı Rüstəmova i. f. d.**
Sumqayıt Dövlət Universitetinin
"Dünya iqtisadiyyatı və marketinq kafedrasının" dosenti,
E-mail: rrufet1979@mail.ru

# MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏLƏRİN BİZNES KONSEPSİYALARININ HAZIRLANMASINDA RƏQƏMSAL MARKETİNQİN ROLU

**Xülasə**

**Rəqəmsal marketinq** məhsulların, xidmətlərin onlayn yolla hədəflənən kütləyə sata bilmək və marketinq taktikalarını həyata keçirmək baxımından çox zəruridir. Məqalədə rəqəmsal marketinqin mahiyyəti, əsas alətləri, növləri və kanalları tədqiq edilmişdir. Offlayn və onlayn məkanlarda internet, mobil yayım, yerli şəbəkələr və müxtəlif rəqəmsal cihazların tətbiqi ilə baş verən işlər, biznes prosesləri təhlil olunmuşdur.

***Açar sözlər:*** *marketinq, rəqəmsal marketinq, internet marketinq, rəqəmsal marketinqin növləri, rəqəmsal marketinqin kanalları*

Müasir şəraitdə biznes sferası rəqabətin güclənməsi ilə xarakterizə olunur. Dünya iqtisadiyyatının rəqəmsallaşması, texnoloji və sosial mədəni mühitin inkişafı, bazarda istehlakçılarla yeni qarşılıqlı əlaqə və təsir alətlərinin axtjarışının vacibliyini şərtləndirir. Uzun illər ərzində şirkətlər istehsal etdikləri məhsul və xidmətlərin təşviqində müxtəlif vasitələrdən istifadə etmişlər. Hazırda onlar marketinq fəaliyyətinin yeni formasının – rəqəmsal marketinqin yaranmasına təkan verən yeni idarəetmə alətlərini qəbul etmək məcburiyyətindədirlər ki, bununla sabitliyi təmin etmək və dəyişikliliyə daha tez reaksiya vermək iqtidarında olsunlar. Beləliklə yeni rəqəmsal metodlar, informasiyaların işlənməsi və emalı marketinq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin əsas mənbəyinə çevrilmişdir [1].

Şirkətlərin müştəri və təchizatçıları ilə qarşılıqlı əlaqələri daha da sadələşməklə biznes qaydaları yenidən qurulur. Bu baxımdan elektron ticarətin inkişafı dünya iqtisadiyyatının qloballaşması ilə sıx bağlıdır [2].

**Rəqəmsal marketinq hazırda iri müəssisə və şirkətlərin öz məhsullarını və xidmətlərini satmaq, müştərilərə tanıtmaq və məhsulların irəlilədilməsi ilə bağlı** digər məqsədlər üçün istifadə etdikləri önəmli bir vasitəyə çevrilmişdir. Son illərin təcrübəsi göstərir ki, rəqəmsal marketinqi öz satış strategiyalarına daxil edən şirkətlər rəqibləri ilə müqayisədə daha üstün nəticələrə sahib olmuşlar. Bu gün şirkətlər üçün rəqəmsal marketinqin vacibliyi onunla izah edilə bilər ki, o, bir çox onlayn marketinq strategiyası (məsələn, SEO, PPC, məzmun marketinqi, sosial media marketinqi və s.), ətraflı hədəfləmə

və fərdiləşdirmə seçimləri, davamlı kampaniya performans rəyi və s. təklif edir. 2020-ci ilin statistikasına görə dünyada reklama çəkilən xərclər 605 milyard dollar təşkil etmişdir, 55% alıcı məhsul və xidmətlər haqqında öz araşdırmalarını onlayn üzərindən edir. Elektron ticarət saytlarına 43% onlayn trafiki Google axtarışlarında tapmaq olar [3].

Rəqəmsal marketinq istehlakçı üstünlüklərini anlamaq və təhlil etmək, ehtiyacları müəyyənləşdirmək və qarşılıqlı təsir təcrübəsini öyrənmək və təkmilləşdirməklə rəqəmsal texnologiyaların potensialından istifadə edərək müxtəlif metodları tətbiq etməklə mənfəət əldə etmək məqsədilə şirkətlərin həyata keçirdiyi marketinq fəaliyyətidir [4].

Rəqəmsal marketinqin əsas xidmət sahələrinə bunları aid edə bilərik: Sosial media marketinqi – əsasən Facebook, Google Places,Yelp, Instagram, LinkedIN, Pinterest kimi məhşur axtarış platformaları üzərindən aparılan marketinq strategiyaları toplusudur.

SEO xidməti (Axtarış saytının optimallaşdırlması) – vasitəsilə şirkətin axtarışlar zamanı ilk sətirlərdə görünməyini təmin etmək mümkündür. SEO xidməti haqqında göstərilən statistikalar onun nə qədər vacib bir iş olduğunun bariz bir nümunəsidir. *Tək Google axtarış sistemində 2019-cu ildə 2,3 trilyon axtarış edilib.* **Birinci səhifədə ilk 5-ci yerdə görünən markalar, axtarışın 67,6%**-*ni əldə edir. İnsanların 81%-i alış-veriş zamanı qərar verərkən, məlumat üçün onlayn axtarışlara əhəmiyyət verirlər. Axtarışların 75%-i zamanı heç kim ikinci səhifəyə keçid etmir.*

**SEM xidməti** (Axtarış sistemi marketinqinin qısaldılmış adı) – vasitəsilə axtarış sistemlərində həmin şirkəti axtaran insanlara reklamın görünməsini təmin etmək mümkündür.

**PPC** (Klik başına ödəmə) – axtarış platformalarında reklam büdcəsinin necə xərcləməsidir.

**İnflunser marketinq**– şirkətin biznesinin hədəf kütləsinə uyğun tanınmış şəxslərlə işləməsidir.

**Kontent Marketinq– dizayn** – logo, sosial media paylaşım dizaynları və s. hazırlamaqla şirkətin markasının hekayəsini, xidmətlərini və gələcək planlarını daha ətraflı izah etməsi üçün istifadə olunur.

**E-mail marketinq**– mail ünvanı üzərindən marketinq siyasətinin və satışın həyata keçirilməsini nəzərdə tutur.

Hər bir şirkətin öz hədəfinə uyğun rəqəmsal marketinq planları vardır. Rəqəmsal marketinqi internet marketinqə nisbətən daha geniş anlayış kimi qəbul etmək olar. Belə ki, o, məhsulların irəlilədilməsində bütün internet kanallarından istifadəyə əsaslanır. Rəqəmsal və yaxud interaktiv marketinq ənənəvi kanallar istisna olmaqla onlayn, eyni zamanda oflayn vəziyyətlərdə baş verən müvafiq rəqəmsal kommunikasiyanın formalaşmasını özündə birləşdirir. O, kommunikasiyanın yaradılması üçün məlumat – kommunikasiya texnologiyasının tətbiqinə əsaslanaraq bütövlükdə cəmiyyət, istehlakçılar, tərəfdaşlar üçün əhəmiyyət kəsb edən çatdırılma və təklif mübadiləsini həyata keçirir [5].

Müasir rəqəmsal texnologiyalardan istifadə etməklə şirkətin maketinq strategiyasını gücləndirmək və satış dövriyyəsini artırmaq imkanı vardır. Rəqəmsal marketinq strategiyasının birinci mərhələsində hədəflərin müəyyən olunması durur. Bu mərhələdə biznesin hədəflərinə uyğun olaraq digital-strategiya formalaşdırılır, daha sonra hədəf auditoriya və hadisələr müəyyənləşdirilir. Növbəti mərhələdə unikal təklif formalaşdırılır və şirkətin malik olduğu rəqəmsal alət və kanallar diqqətlə təhlil edilir. Daha sonra kontent strategiyanın inkişaf mərhələsinə başlanılır. Şirkətin hədəflərindən uzaqlaşmamaq şərtilə auditoriyaya kontent çatdırılır. Beləliklə bütün bunlardan sonra strategiyanın həyata keçirilməsi mərhələsi başlayır. Hər mərhələ üçün nəticələrin yoxlanılması da vacib şərtdir.

**Cədvəl 1.**

| № | Fərq meyarları | İnternet marketinq | Rəqəmsal marketinq |
|---|---|---|---|
| 1 | Hədəf aiditoriyasına təsir sferasına görə | Onlayn | Onlayn və offlayn |
| 2 | Yayılma kanalları | İnternet kanalları | Rəqəmsal kanlların bütün növləri (internet, mobil tətbiqetmələr, rəqəmsal reklam, oyun konsolları) |
| 3 | Hədəf auditoriyası | İnternetə qoşulma imkanı olan hər kəs | İnternetə qoşulma imkanı olan hər kəs + offlayn auditoriyanı onlayn bazara cəlb etmək |
| 4 | Auditoriya ilə əlaqə imkanları | E-mail, lendinq, sayt, reklamlar (axtarış, bannerlər və s. ) | E-mail, lendinq, sayt, reklamlar (axtarış, bannerlər və s. ) + rəqəmsal televiziya, onlayn oyunlarda reklamlar, mobil tətbiqetmələr, messenjerlər, interaktiv ekranlar, POS-terminallar |

Rəqəmsal marketinqin üstünlüklərini həm də marketinq kompaniyasının nəticələrinin aydın olması və eyni vaxtda düzəlişlərin edilməsinin mümkünlüyü ilə də əlaqələndirə bilərik. Bundan başqa ənənəvi reklamla müqayisədə daha aşağı xərclərin olması bu marketinq növünün vacibliyini şərtləndirən əsas amillərdən biridir.

Rəqəmsal marketinqin bir sıra əlavə üstünlükləri də vardır ki, bunlardan biri də brendin avtoritetinin yüksəldilməsinə imkan verməsidir. Əgər bir brendin sosial mediada paylaşımı çox olarsa, onun haqqında müzakirələr də çoxalmış olacaq, beləcə brendin populyarlığı da artır və müştəri bazarı genişlənmiş olur. İnternet marketinqlə rəqəmsal marketinqi fərqləndirən əsas cəhətləri belə qruplaşdıra bilərik:

Rəqəmsal marketinqə klassik yanaşmada 6D konsepsiyası əsasında baxmaq olar ki, bu konsepsiyanın elementlərinə aşağıdakıları daxil etmək olar:

- Digital Customer – rəqəmsal istehlakçı, yəni alıcının istehlakçı davranışının öyrənilməsi əsasında “rəqəmsal portretinin” yaradılması, “rəqəmsal iz ”;
- Digital Competition – bu özündə rəqəmsal rəqabət elementlərini birləşdirir. Belə ki, rəqiblərin təhlili saytların internet aktivliyi, sosial şəbəkələrdə nəşr və səhifələrin təhlili ilə bağlı rəqəmsal marketinq alətlərinin tətbiqi əsasında çox asanlaşır;
- Dijital Communication – yəni rəqəmsal əlaqə özündə internet saytları, sosial şəbəkələr, mobil tətbiqlər, SMS və messenjerlər vasitəsilə malların təşviqinə əsaslanır;
- Digital product – rəqəmsal məhsul rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan xüsusi bir məhsulun hazırlanması;
- Digital pricing – rəqəmsal qiymətqoyma internetdə internet xidmətləri vasitəsilə müasir müxtəlif ödəniş texnologiylarından istifadə etməklə böyük miqdarda məhsul və xidmət təklifinin təhlili əsasında qiymətqoymanı nəzərdə tutur;
- Digital distribution – elektron ticarət logistik əməliyyatlar üçün izləmə sistemlərindən, həmçinin malların çatdırılması üçün pilotsuz təyyarələrdən istifadə edərək malların internet üzərindən sifariş verilməsi və çatdırılmasını nəzərdə tutur.

Rəqəmsal marketinqin üsul və vasitələrini nəzərdən keçirdikdə aydın olur ki, bunlara əsasən girişi təmin edən internet və cihazlar, lokal şəbəkələr, mobil cihazlar, rəqəmsal televiziya və onlayn radio, interaktiv ekranlar və digər rəqəmsal alətləri aid etmək olar.

Rəqəmsal marketinq çərçivəsində internetdə müxtəlif reklamlar yerləşdirilir, passiv təbliğ üçün müxtəlif planlı məzmunlar yaradılır, sosial şəbəkələrdə təşviqlə məşğul olurlar, müxtəlif tanınmış şəxsiyyətlərin, ekspertlərin fikirlərini dərc edirlər, SEO – resursların optimallaşdırlmasını və s. yerinə yetirirlər ki, bütün bunlar da rəqəmsal marketinqin əsas üsullarından biri olan internet və cihazlar vasitəsilə baş verir. İnformasiya sistemləri istifadəçilərinin tam hüquqlu ünsiyyəti və onları maraqlandıran məlumat mübadiləsi lokal şəbəkələrdən, əsasən müəssisələrin və şəhər ərazilərinin daxili kompüter şəbəkələrindən istifadə edilməklə təmin edilir. Qeyd etmək lazımdır ki, adətən bir kanal coğrafi baxımdan fərqli auditoriyalara yönəlmiş məhsul və xidmətlərin reklamlarının yayılması üçün istifadə edilir.

Rəqəmsal marketinqin əsas vasitələrindən biri təqdimatı əsasən SMS paylanması yolu ilə həyata keçirilən mobil cihazlardır ki, bu cür poçtlar mövcud olan müştəri bazası və ya müstəqil telefon nömrələri kolleksiyaları ilə həyata keçiriə bilər. Hazırda geniş yayılmış ən populyar cihazlardan kənar proqramlarda reklamların yerləşdirilməsini, müxtəlif tətbiqetmələrin və proqramların quraşdırlmasını qeyd etmək olar. E-poçt marketinq kampaniyasından və ya veb saytdan istifadəçilər üçün fərdi bir təcrübə yaratmaq daha yaxşı marketinq nəticələrinə səbəb ola bilər. Abunəçinin keçmiş satınalma davranışına əsaslanan məhsulları tövsiyə edən bir e-poçt başqa bir satışa səbəb ola bilər.

Rəqəmsal marketinq çərçivəsində rəqəmsal televiziya və onlayn radio ilə təbliğ metodu vasitəsilə telefonda tətbiqetmələrlə ikinci ekran texnologiyası ilə inteqrasiyasına, internet reklamla sinxronlaşdırlmasına imkan vermişdir. Rəqəmsal televiziya kanallarında ən çox yayılan rəqəmsal

marketinq formatı reklam fasilələrində yayımlanan qısa videoçarxlardır. Bəzi hallarda isə "qaçan sətirlər"dən və s. istifadə olunur.

Rəqəmsal medianın əsas növlərindən hesab edilən interaktiv ekranlar, POS terminallar tədricən standart xarici reklamları aradan çıxararaq istehlakçılara birbaşa təsir edən və eyni zamanda onların alış verişinə kömək edən vasitədir. İnteraktiv ekranlara reklam məqsədləri üçün quraşdırılmış rəqəmsal bannerlər də aid edilir ki, hər hansı saytlarda qrafik bannerlər yerləşdirilir.

Rəqəmsal marketinqin əsas vasitələrindən biri də rəqəmsal alətlər hesab edilir. Onlar məlumatı toplayaraq digər daşıyıcılara ötürən cihazlara deyilir ki, bunlardan "ağıllı saatlar", fitnes bilərzikləri, "ağıllı" idman ayaqqabılarını misal çəkmək olar.

Dünyada milyonlarla insan internetdən, telefonlardan istifadə edir. Bu isə rəqəmsal marketinq üçün faydalıdır. Belə ki, müxtəlif sosial media vasitələrindən, digər rəqəmsal marketinq alətlərindən istəfadə edməklə şirkətlər özləri haqqında məlumat vermək imkanına malik olurlar. İnsanlar da ehtiyac duyduqları xidmət və yaxud hər hansı məhsulu sürətli şəkildə tapıb sifariş edə bilirlər.

Rəqəmsal marketinqin bir vasitəsi də istənilən növdə bədii əsər yaratmaq və çoxaltmaq məqsədilə istifadə olunan kompüterlər, tabletlərdir ki, bunları "rəqəmsal art" alətləri də adlandırmaq olar. Bu rəsm, səs, animasiya, video, oyun, veb-sayt, alqoritm, performans və ya müxtəlif quraşdırmalar ola bilər. Hazırda bir çox ənənəvi sənət növləri rəqəmsal texnologiyalara inteqrasiya olunmaqdadır. Bunun da nəticəsidir ki, ənənəvi sənətlə rəqəmsal media arasındakı xətt pozulur. Bu tanıtım kanalı müasir rəqəmsal texnologiyalardan istifadə edərək yayımlana və ya yaradıla bilən hər hansı bir sənət əsərinin istifadəsini nəzərdə tutur. Bu metod hazırda ən çox marka işlərində, brend istehsalının istifadəsində fəal işlənməkdədir.

Nəticə olaraq qeyd edə bilərik ki, respublikamızda rəqəmsal texnologiyalardan istifadə səviyyəsi getdikcə artmağa başlamışdır. Buna baxmayaraq müəssisə və şirkətlərdə bu sahədə ixtisaslaşməış marketoloqların sayı kifayət qədər deyil və müəssisələrin əksəriyyətində marketinq strategiyası mövcud deyildir. Bəzi müəssisələr veb-sayt yaratmaq və media reklamları təşkil etməklə kifayətlənirlər. Məhsul və xidmətlərin rəqəmsallaşması marketoloqlara yaxşı fürsətlər açır ki, onlar bu imkandan şirkətlərdə yararlanmaqla yaxşı nətəcələr əldə edə bilər və rəqiblərini üstələyə bilərlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Рыбников, А. М. Цифровой маркетинг в современном бизнесе / А. М. Рыбников // Эффективное управление экономикой: проблемы и перспективы: Сборник трудов VI Всероссийской научно-практической конференции, Симферополь, 15–16 апреля 2021 года / Научн. ред. В. М. Ячменевой, редколлегия: И.М. Пожарицкая, Р.А. Тимаев, Т.И. Воробец. – Симферополь: Общество с ограниченной ответственностью «Издательство Типография «Ариал», 2021. – С. 392-397.
2. Nəcəfova, Ç. M. Beynəlxalq ticarət əlaqələri sistemində elektron ticarətin mahiyyəti / Ç. M. Nəcəfova // Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. – 2021. – Vol. 17. – No 1. – P. 78-81.
3. https://www.thedrum.com/
4. Колодник, Т. Развитие теории цифрового маркетинга / Т. Колодник // Наука и инновации. – 2021. – № 1(215). – С. 53-57. – DOI 10.29235/1818-9857-2021-1-53-57.
5. А.В. Катаев, Т.М. Катаева, И.А. Названова. Digital – маркетинг. Учебное пособие. Ростов –на –Дону, Таганрог, 2020 - 161 с.

**Vəfa Xanlar qızı Rüstəmova**
AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi
E-mail: vefa.rustamova2022@mail.ru

# İNNOVASIYALI IQTISADI INKIŞAFDA ELMI – TƏDQIQAT MÜƏSSISLƏRINDƏ XIDMƏT SAHƏLƏRININ INKIŞAF ISTIQAMƏTLƏRI

**Xülasə**

Dünyada yeni texnologiyanın istehsalata tətbiqinin sürətlənməsi, elmi – tədqiqat sahələrinin işinə də öz təsirini göstərmişdir. Bu baxımdan, elmi – tədqiqat müəssisləri infrastrukturunun yeni tələblər əsasında qurulması aktual məsələlərdən hesab olunur.

Məqalənin əsas mövzusu, elmi – tədqiqat müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və bu sahədə xidmət sektorunun inkişaf istiqamətlərinin, innovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssislərinin yenidən qurulması, mövcud problemlərin yaranma səbəblərinin təhlili əsas götürülmüşdür. Eyni zamanda, elmi – tədqiqat müəssislərində yeni tədqiqat sahələrinin yaranması, bu sahəyə dövlət dəstəyinin zəruriliyi vurğulanmışdır.

Nəticədə, elmi – tədqiqat müəssislərin fəaliyyət növlərinə əsasən üç sahənin: elmi tədqiqatlar və işləmələri, kadrların hazırlanmasını, elmi-texniki xidmətlər sferasının təhlili əsas götürərək, Respublikanın gələcək iqtisadi inkişafında əhəmiyyətli rol oynayan xidmət sahəsinin iki istiqamətdə inkişaf yolu göstərilmişdir. Elmi – tədqiqat müəssisləri infrastrukturunun yeni tələblər əsasında qurulmasının səmərəliliyin təhlili, elmi müəssisə və təşkilatlarının strukturunun öyrənilməsi üçün, sonda təkliflər verilir.

**Açar sözlər:** xidmət sahələri, innovasiyalı iqtisadi inkişaf, elmi-tədqiqat müəssisələri, kadr hazırlığı, ali təhsil müəssisələri.

## Giriş

İnnovasiyalı iqtisadi inkişafda, elmi – texniki tədqiqatların surətlə inkişafı və bu sahəyə artan tələbat, elmi – tədqiqat müəssislərinin yenidən qurulmasını zəruri etmişdir. Elmi – tədqiqat müəssislərinin fəaliyyətin tənzimlənməsi üçün dövlət səviyyəsində layihələr işlənib hazırlamnasına baxmayaraq, bu sahədə bir çox problemlər qalmadadır. Məhz bu baxımdan bu sahənin tədqiq olunması, elmi inşişafı baxımından, aktual məsələlərdən hesab olunmaqdadır.

Həm dünya səviyyəsində, həm də dövlət səviyyasəində, elmi fəaliyyətinin münasib infrastrukturun yaradılması baxımından, görülən tədbirlərə əlavə olaraq, dünyada yeni texnologiyanın istehsalata tətbiqi sürətlənmişdir. İstehsalın, tədqiqat proqramları ilə birgə inkişafı inanılmaz uğurların yaranmasına gətirib çıxardır.

İnnovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi elmi müəssisələrinin tərkibində formalaşır. Bu sahənin səmərəliliyin təhlil etmək üçün, elmi müəssisə və təşkilatlarının strukturunun təhlili elm və texnologiyanın inkişaf tempinin öyrənilməsi lazımdır. Bu baxımdan, elmi – tədqiqat müəssisləri infrastrukturunun yeni tələblər əsasənda qurulması lazımdır. Belə ki, elmi – tədqiqat müəssislərin fəaliyyət növləri genişdir və bu sahədə elmi – tədqiqat müəssisləri üç böyük sahəyə bölünür.

**Qrafik 1**




Mənbə: Qrafik müəllif tərəfindən hazırlanmışdır.

İqtisadi inkişafda elmi – tədqiqat müəssisləri infrastrukturunun yenidən qurulması prosesində innovasiyaların xidmətləri genişdir. Elmi fəaliyyətin təkmilləşdirilməsində informasiya texnologiyası məlumatların, mətnlərin, şəkillərin, səslərin toplanması, saxlanması, işlənməsi, axtarışı, ötürülməsi, təqdim edilməsində mikroelektronika tətbiq edən texnologiya xidmətləri göstərir.

Elm inkişaf etdikcə elmin öz nəticələri sənaye sahəsində daha çox tətbiq etdirilir. Bu səbəbdəndir ki, bir çox inkişaf etmiş sənaye ölkələri, elm tutumlu məhsullar istehsalında gərgin rəqabət aparırlar. Elmi – tədqiqat müəssisləri fəaliyyəti sənaye sahələri ilə sıx bağlıdır. Elmin bu sahəsi müasir dövrdə inkişaf etməkdə olan dövlətlərin diqqət mərkəzindədir. Hal-hazırda Elmi – tədqiqat müəssisləri fəaliyyət növlərində yüksək texnologiyalı xidmətlərin qruplaşdırılması, texnoloji səviyyəyə görə, daha da təkmilləşdirilir.

Elmi – tədqiqat müəssislərində aparılan tədqiqatların əhəmiyyətini artırmaqla yanaşı, bu sahənin fəaliyyəti müxtəlif növ ehtiyatların istehlakına səbəb olmaqla, onun sosial-iqtisadi səmərəliliyindən, onun kəmiyyət və keyfiyyətindən, istifadə dərəcəsindən asılıdır. Elmi – tədqiqat müəssislərinin fəaliyyəti milli sərvətin, mənəvi dəyərlərin yaradılmasında əhəmiyyətli rol oynayır. Bu inkişaf ona gətirib çıxardır ki, elmi – tədqiqat müəssislərində çalışanların sayı artır. Buna misal olaraq, göstərə bilərik ki, Azərbaycanda tədqiqat və işləmələrlə məşğul olan heyətin sayı, 2020 – ci ildə 2000-ci ilə nisbətən 4713 nəfər atrmışdır. Nəzərə asaq ki, 2000-ci ildə elmi - tədqiqat və işləmələrlə məşğul olan müəssisələrin sayı 137 olduğu halda, 2020-ci ildə 127 müəssisə təşkil etmişdir ki, bu da 10 müəssisənin azalması deməkdir. Bu onu göstərir ki, elmi tədqiqatla məşğul olmaq istəyən kadrların sayı artmışdır. [1]

Elmi tədqiq müəssisələrini fəaliyyətini təmin eənəsas elemnt, elm və təhsil strukturlarının bir - biri ilə qarşılıqlı əlaqəsidir. Bu qarşılıqlı əlaqə, ali məktəblərin kadr potensialını inkişaf etdirməyə, elm və elmə xidmət sahələrində tədrisin məzmununu, təhsil texnologiyaları metodlarını yeniləşdirməyə imkan verir. Bu baxımdan, elmi – tədqiqat müəssisləri infrastrukturunun dünya elmi – tədqiqat sahəsinə inteqrasiyasını qurmaq üçün, elmi - tədqiqat və işləmələrlə məşğul olan məssisələrdə xidmət strukturu yeni tələblər əsasında qurulmalıdır. Bu sahələrdə yaranmış əlaqəsizliyi aradan qaldırılmasına yönəldilmiş tədbirlərin hazırlanması və mərhələlər üzrə həyata keçirilməsi tələb olunur.

Son illər ərzində dövlət tərəfindən həyata keçirilən islahatlar nəticəsində, respublikamızda innovasiyanın inkişafı üçün əlverişli mühüt yaradılmışdır. Bu yaranmış imkanlardan istifadə edərək, elmi – texniki müəssisə və təşkilatlarda innovasiya fəaliyyətinin genişləndirilməsi və tətbiqinin sürətləndirilməsi məqsədi ilə bu sahənin inkişafında xidmət sahələrinin yenilənməsi tələb olunur.

Dövlət tərəfindən qəbul olunmuş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”da qloballaşan dünyada innovasiya fəaliyyətinin dünya standartları səviyyəsində, innovatik yeniliklərin yaranmasına xüsusi diqqət verilməsinin labüdlüyü qeyd edilməklə yanaşı, bu proqrama ölkədə fəaliyyət göstərən elmi – tədqiqat müəssisə və təşkilatlarında, elmi - tədqiqatları daha çox innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsində şərait yaradan amil kimi baxılması lazımdır. Elmi sferada bu effekti qloballaşmanın “müsbət yüklü” effekti kimi qiymətləndirirlər. [2]

Bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin surətlə dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi bazarlada yeni növ məhsulalrın çıxmasına zəmin yaradır. Bu da öz növbəsində, hər bir ölkənin innovasiya sahəsindəki uğurlarında asılıdır. Qabaqcıl texniki standartlardan və idarəetmə mexanizmindən yeni metodlar yaradılması baş verir.

Bu prosesin ardı olaraq, ölkəmizdə innovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssislərin fəaliyyətini stimullaşdıran “Elmi fəaliyyət haqqında” qanun layihəsi elmi fəaliyyətin subyektlərinin və vəzifələrində, elmi fəaliyyətin maliyyələşdirilməsi məsələsinə baxmaqla, elm və təsilin yeni mərhələdə inkişafına zəmin yaratmşdır. Elmi fəaliyyətin idarə olunması xidmət sahələrinin daha da təkmilləşməsinə gətirib çıxartmalıdır. Yenilik ilk öncə, idarəetmə mexanizminin dəyişməsindən asılıdr.

Azərbaycan Respublikasında elm və təhsil müəssislərinin sayı, strukturu müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsi üçün xeyli işlər görülməkdədir. Dövlət tərəfindən verilən xüsusi diqqət nəticəsində, bu gün də bu təhsil müəssisələri inkişaf etməkdədir.

Lakin bu sahədə inkişafla ahəngdar olmaya çatmayan sahələr də var ki, bu da tədqiqat və işləmələri yerinəyetirən təşkilatlarla və burada çalışan heyyətin sayının standatrdan kənar olduğu görünməsidir. Qeyd edilən bu məsələnin həll olunmaması gələcəkdə bir çox problemin yaranmasına səbəb ola bilər.

**Cədvəl № 1**

**Azərbaycan Respublikasında elm və təhsilin müəssislərinin sayı [1]**

| | 2000 | 2005 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı | 140 | 146 | 137 | 133 | 132 | 127 |
| O cümlədən elmi-tədqiqat təşkilatları | 95 | 97 | 89 | 88 | 88 | 86 |
| ali təhsil müəssisələri | 25 | 33 | 9 | 39 | 39 | 37 |
| digər | 17 | 16 | 39 | 6 | 5 | 4 |

Cədvəldən göründüyü kimi, 2000- ci ilə nisbətən 2020 – ci ildə tədqiqat və işləmələri yerinə yetirən 13 təşkilat azalmışdır. Eyni zaanda, 2000- ci ilə nisbətən 2020 – ci ildə elmi – tədqiqat təşkilatlrında tədqiqat və işləmələri yerinə yetirən 9 təşkilat azalmışdır. Bu göstəricilərin işində yalnız, 2000- ci ilə nisbətən 2020 – ci ildə ali təhsil müəssisələrində tədqiqat və işləmələri yerinə yetirən 12 müəssisə artmışdır. Digər elmi – tədqiqat və işləmələri yerinə yetirən təşkilatların göstəricisini də nəzərə alsaq, onda bu sahədə yaranmış roblemlərin olduğunu görərik və bu sahədə ciddi işlər görülməlidir.

Yuxarıda göstərilən problemə səbəb aşağıdakı amillərin mövcud olmasıdır:

- elmi – tədqiqat sahəsində çalışanların sayının əhəmiyyətli dərəcədə azalması;
- elmi tədqiqat müəssisələrini yeni standartlara cavab verməməsi və inkişafdan geri qalmasıdır;
- ali təhsil müəssisələrində elmi tədqiqat və işləmələrə marağın azması;
- bu sahəyə cəlb olunmuş kadrlarla təminatın zəif olması;
- elmi təşkilatlarda müasir elmi avadanlıqladan istifadənin olmaması və ya zəif olması;
- ümumi tələblərə nəzərən, tədqiqata və işləmələrə ayrılan maliyyə vəsaitinin azlıq təşkil etməsi;
- elmi tədiqiqat müəssisələrinin xarici əlaqələrinin zəif olması;
- elmi tədqiqat müəssisələrinin apardığı tədqiqatların istehsalata tətbiqinin olmaması və ya çox zəif olması;
- tədqiqat və işləmələr üzrə xərclərdə xidmət xərcinin az olması;
- müəssisənin innovasiya fəaliyyəti xərclərinin intensivliyinin aşağı olması;
- istər sənaye, istər sə də elmi – tədqiqat müəsssiə və təşkilatlarda innovasiya fəaliyyətinə büdcə maliyyələşdirilməsinin aşağı olması;
- yeni texnologiyaların istehsalının olmasına çalışılmaması;
- yeni texnologiyaların yaradılması və tətbiqi səviyyəsinin elmi-tədqiqat müəssisə və təşkilatlarda aşağı olması.

Nəzərə almaq lazımdır ki, elmi tədqiqat müəssisələrində elmi işçilər ölkənin elmi potensialının əsas tərkib elementi hesab olunur. Məhz bu baxımdanda, kadr potensialından tam istifadə edilməsi, elmi – tədqiqat müəssislərinin işini xarakterizə edir.

Elmin bütün sahələri üzrə (təbii, texniki və ictimai) təcrqbə və tədqiqatiar aparılır. Bu sahədə məlumat bazası kimi, il ərzində elmi-tədqiqat müəssisə təşkilatlar tərəfindən təqdim edilmiş hesabatların göstəricisi əsas götürülür. Burada, beynəlxalq standartları əsas götürərək, təşkilatların struktuasının formalaşmasında elmi kadrlardan istifadə edilir.

Bu sazam, elmi kadrların əməli fəaliyyətinin əhatə dairəsi aşağıdakı sahələri əhatə edir:

1. İşləmə və elmi-tədqiqatları yerinə yetirən elmi təşkilatlar;
2. Konstruktor təşkilatları;
3. Ali təhsil müəssisələri;
4. Sənaye müəssisələri;
5. Elmi-tədqiqatı yerinə yetirən sair təşkilatlar;
6. Ylm və elmi xidmət sahələri.

Müasir dövrdə elmi – tədqiqat müəssiə və təşkilatlarda idarəetmə sisteminin dəyiməsi, mütəxəssislərdən gözlənilən tələblərdə də özünü göstərir. Yeni kompetensiaların yiyələndirilməsi bütün sahələrdə hazırlanan mütəxəssislərə (xüsusən də magistratura səviyyəsində olan) sahəyə uyğun müxtəlif proqramlar tədris edilir. [3, 82]

Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasının əhəmiyyətini nəzərə alaraq, bu yeni innovativ biliklər və təcrübələrin əldə edilməsi ölkəmizin gələcək inkişafı üçün olduqca əhəmiyyətli rol oynayır. Bunu biz inkişaf etmiş ölkələrin təcrübəsində də görürük. Bu eyni zamanda, elm və təhsilin yeni bir inkişaf mərhələsinə keçməli olduğunu göstərən amildir.

Məhz bu baxımdan da, tədqiqat və işləmələri yerinə yetirən müəssisə və elmi tədqiqat sahəsində mütəxəssislərin hazırlanması əsasən iki istiqamətdə:

1. Müxtəlif sahələrdə innovativ proseslərin idarəetməsini təmin edən mütəxəssislərin hazırlanması;
2. Elmi – tədqiqat sahələri üzrə tədqiqatçıların hazırlanmasını əhatə edir.

Göstəriln bu sahələr biri digərinin tərkibi olmaqla, elmi – tədqiqat sahəsində idarəetmə sahəsində qoyulan tapşırıqdan asılı olaraq, innovativ fəaliyyətin təmin edilməsinə uyğun çoxpilləli, yüksək ixtisaslı mütəxəssislərin hazırlanma sistemini yaradaraq, idarəetmə prosesini yüksək səviydə inkişafına nail olur. Hal - hazırda bu bir nəzəri təhlil olmasına baxmayaraq, idaretmə sahəsində mühüm rol oynaya bilər. Bütün bu deyilənləri ümumiləşdirərək belə bir qərara gəlmə olar ki, innovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssisləri infrastrukturunun yenidən qurulmasına dair təklif və tövsiyələrin hazırlanması üçün mühüm təxirəsalınmaz tədbirlərin görünməsi vacibdir.

**Nəticə**

İnnovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssisləri infrastrukturunun yenidən qurulması zamanı bir çox problemlərin olduğu müəyyən olunmuşdur. Bunlar aşağıdakılardır:

Innovasiyalı iqtisadi inkişafda elmi – tədqiqat müəssisləri infrastrukturunun yenidən qurulmasına, elmi – tədqiqat müəssisləri infrastrukturunun mükəmməl olmaması, elmi fəaliyyət sahəsində çalışanların, elmi kadrların sayının azması, elmi – tədqiqat müəssisə və təşkilatların lamaratoriya və təcrübə sahələrinin lazımi avadanlıqla təmin edilməməsi, tədqiqat və işləmələrin zəif olması, bu sahəyə ayrılan maliyyə vəsaitinin az olması, elmi fəaliyyətlə məşğul olanlar kadr potensialının əmək haqqının aşağı olması kimi amillər təsir edir edir.

Bu baxımdan, innovasiyalı iqtisadi inkişafda elmi - tədqiqat müəssisləri infrastrukturunun istiqamətlərinin elmi-nəzəri aspektlərinin inkişafı üçün aşağıdakı təklif və tövsiyələr işlənmişdir:

- Ölkədə elmi tədqiqatların sahələrin maliyyələşmədə, maddi-texniki təchizatda və kadr hazırlığında digər sahələrə nisbətən üstünlüyə malik olmasını təmin etmək;
- inkişaf etmiş ölkələrlə elmi əməkdaşlığı artırmaq;
- Azərbaycan Respublikasında elmi - tədqiqatların müasir dünya elminin inkişaf səviyyəsi və tələbləri əsasında müəyyənləşdirilməklə yanaşı, daxili tələbatların nəzərə alınmasını təmin etmək.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Azərbaycanın Statistik Göstəricilər, https://www.stat.gov.az/source/education/
2. Azərbaycan 2020: Çəkəcəyə baxış İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı. https://e-qanun.az/framework/25029
3. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində nəşr olunmuşdur, Davamlı İnkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli, BAKI – ELMİN İNKİŞAFI FONDU – 2018, səh. 251.
4. Muradov Ş.M. "İnsan potensialı; əsas meylər reallıqlar, problemlər", Bakı-"ELM", 2004, 656 s.
5. AKİf MUSAYEV. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı. "Azərbaycan Universiteti" nəşriyyatı, 2014. -184 s.
6. A.H.Tağıyev. İnnovasiya. Bakı , 2011.
7. Трусь А.А., «Психология управления»: Высшая школа; Минск; 2014, стр. -187
8. Таренко В. Управление персоналом, корпоративный мониторинг, психодиагностика: Тесты для отбора персонала. – К.: Ника-Центр, 2002. – 240 с.

**Rzazadə T.N.**
Bakı Slavyan Universitetinin magistrantı
E-mail: rzazadatural92@gmail.com

# KİBERCİNAYƏT SOSİAL TƏHLÜKƏLƏR VƏ HÜQUQİ TƏNZİMLƏNMƏNİN OBYEKTİ KİMİ

**Xülasə**

Risklərin əsas xüsusiyyəti onların həmişə mövcud olmasıdır. Risklər istənilən fəaliyyətin qeyd-şərtsiz atributudur: siz heç nəyə 100% əmin ola bilməzsiniz. Risk menecerinin qarşısında duran mühüm vəzifələrdən biri təşkilatın risk profilini müəyyən etməkdir. Əslində, bu, bir təşkilatın idarə edə biləcəyi tipik risklərin siyahısının tərtib edilməsindən gedir, bunlar azalan tezlik və ya mümkün itkilərin ölçüsündə azalma ardıcıllığı ilə təşkil edilir. Risklərin idarə edilməsi bir mahnı və ya hətta bütöv bir simfoniya yaratmaqla müqayisə edilə bilən yaradıcı bir prosesdir.

**Açar sözlər:** menecment, risk, metod, risklərin azaldılması

İdarəetmədə risklərin idarə edilməsinin ilkin mərhələsi riskləri, riskli investisiyanın məqsədini müəyyən etməkdir. Risk məqsədi əldə edilə bilən nəticədir. Bura mənfəət, gəlir, uduş və s. ola bilər. Riskli investisiyanın məqsədi eyni zamanda maksimum mənfəət əldə etməkdir. Risklə əlaqəli hər hansı bir hərəkət həmişə məqsədyönlüdür. Risklə əlaqəli fəaliyyətlərin məqsədinin olmaması da onun qərarını mənasız edir. Riskin və riskli investisiyaların məqsədi dəqiq, tam və risk və kapitalla müqayisə edilə bilən olmalıdır.

Risklərin idarə edilməsinin təşkilində vacib məqamlardan biri ətraf mühit haqqında məlumatların olmasıdır. İstənilən qərarın əsasında nə dayanır. Bu tip məlumatların təhlili və risklərin təyin edilməsinin hesablanması ilə hadisənin baş vermə ehtimalını, eləcə də riskin səviyyəsini və dərəcəsini düzgün

müəyyən etmək mümkündür. Risklərin idarə edilməsi fiziki şəxslərin əmlakını və maliyyə resurslarını təhlükə altına qoyan risk dərəcəsinin düzgün başa düşülməsi deməkdir. Sahibkarın biznesini təhdid edən risk səviyyəsini bilməsi çox vacibdir.

Riskin idarə olunmasının 4 əsas metodu var: [3; s. 24]

- İmtina metodu
- Nəzarət metodu
- Sığortalama metodu
- Udulio metodu

İmtina üsulu riskdən yayınma adlanır. Lakin maliyyə sahibkarlığı üçün bu üsul bəzən mənfəətin azalmasına səbəb olur.

Sığorta metodunun mahiyyəti ondan ibarətdir ki, investor riskin sıfıra endirilməsini təmin etmək üçün əvvəlcədən gəlirin bir hissəsindən imtina etməyə hazır olmalıdır.

Udulio metodunun mahiyyəti itkiləri tanımaq və onları sığortalamaqdan imtina etməkdir. Udulio metodu itkilər minimal olduqda istifadə olunur.

Maliyyə riskinin həll edilməsinin konkret metodunun seçilməsi vaxtı aşağıdakı prinsiplər götürülür: [4; s. 88]

- öz xüsusi kapitalının artıq riskə getmək olmaz;
- azı əldə etmək üçün çoxla riskə getmək olmaz;
- riskin nəticələrini qabaqcadan nəzərə almaq lazımdır.

Qeyd olunan prinsiplərin praktikada tətbiqi göstərir ki, hər zaman konkret risk üçün mümkün olan maksimum zərəri hesablamaq lazımdır. Sonra bu zərərin məbləği müəssisənin risk altında olan kapitalının məbləği ilə müqayisə olunur, sonra isə bütün mümkün itkilər müəssisənin konkret maliyyə resurslarının ümumi məbləği ilə müqayisə edilir.

Daha sonra mövcud riskin iflasa gətirə biləcəyi müəyyən oluna bilər. Ətraf mühitlə bağlı məlumatlar əsasında riskli investisiyaların müxtəlif formaları hazırlanır və potensial gəlirlər və risk səviyyələri müqayisə edilərək qiymətləndirilir. Bu, risk səviyyəsini azaltmaqla yanaşı, düzgün taktiki strategiya və risklərin idarə edilməsi metodunu seçməyə imkan verir. [1; s. 32]

Riskin azaldılması proqramının hazırlanmasının əsas şərti risk qərarının psixoloji qavrayışını nəzərə almaqdır. Riskli vəziyyətdə qərar qəbul etmək psixoloji prosedurdur. Bu səbəbdən riskli vəziyyətdə qərar qəbul edərkən riyazi biliklərlə yanaşı, insanın psixoloji üstünlüklərini də nəzərə almaq lazımdır. Bunlara: şübhə, qətiyyət, aqressivlik, introversiya, qərarsızlıq, ekstraversiya və s. daxildir.

Risk səviyyəsi ilə eyni vəziyyət müxtəlif insanlar tərəfindən fərqli şəkildə qəbul edilir. Buna görə də risklərin qiymətləndirilməsi, son maliyyə qərarının seçimi həmişə qərar verən insanlardan asılıdır. Ekstraversiya kənar şəxslərə və hadisələrə münasibət formasıdır. Bu, özünü genişmiqyaslı ünsiyyətdə göstərir. İntroversiya təəssüratlara, şəxsi hisslərə, duyğulara və düşüncələrə yanaşmadır. İntrovert şəxsiyyətin ətraf mühitə münasibətdə bir neçə sabit münasibət və davranışı, daxili normaları dəstəkləməsi, xəyalpərəstliyi var. İntrovertlərin hesabatı xarici amillərin gücündən asılı deyil.

Risklərin idarə edilməsinin təşkilində əvəzedilməz mərhələ bu fəaliyyətin həyata keçirilməsi üçün həyata keçirilən tədbirlər, yəni onların həyata keçirilməsi üçün zəruri ola biləcək maliyyə resurslarının mənbəyi və miqdarı, konkret icraçılar, icra müddətləri və s.dir.

Riskin bir çox xarakterik xüsusiyyətləri var: [5]

- Qeyri-müəyyənlik: risk, sadəcə hadisələrin gedişatının bir sıra istiqamətdə inkişafetmə ehtimalı olduğu zaman mövcuddur;
- Zərər: risk, sadəcə hadisələrin gedişatının itkiyə və ya digər neqativ nəticələrə səbəbolma ehtimalı olduğu zaman mövcuddur;
- Analiz imkanı: risk, sadəcə hadisənin "gözləyənlər"i tərəfindən subyektiv rəy formalaşdığı zaman və gələcək dövr üçün hadisələr kəmiyyət və keyfiyyət üzrə qiymətləndirildiyi zaman mövcuddur;
- Əhəmiyyətlilik: risk, sadəcə gözlənilən hadisə əməli əhəmiyyətə malik olduğu zaman mövcuddur.

Risklərin idarə olunması mənfi nəticələrin ehtimalını azaltmağa və qərar qəbulu zamanı mümkün itkiləri minimuma endirməyə yönəlmiş idarəetmə qərarlarının qəbulu və həyata keçirilməsi prosesidir.

Risklərin idarə olunması zəruri biznes mədəniyyətini və infrastrukturunu yaratmaqla aşağıda göstərilən məqsədlərə nail olmağa yönəlmişdir: [5]

- Risklərin yaranmasının başlıca səbəb və amillərinin tədqiqatı, ortaya çıxarılması;
- Risklərin müəyyən olunması, analizi, qiymətləndirilməsi;

- Həyata keçirilən qiymətləndirilmə əsasında qərarın qəbul olunması;
- Risk əleyhinə idarə edici təsirlərin hazırlanması;
- Risklərin münasib səviyyəyə qədər endirilməsi;
- Risklərin idarə edilməsi ilə əlaqədar nəzərdə tutulan proqramın həyata keçirilməsinin təşkil edilməsi;
- Planlaşdırılmış işlərin icrasının yoxlanması;
- Risk qərarlarının nəticələrinin analizi, qiymətləndirilməsi.

Riskin azaldılması metodları arasında aşağıda göstərilənlər xüsusi yer tutur: [2; s. 28-29]

1. Sistemsiz risk seçin. "Patronsuz" qaydasına əsasən qeyri-sistem riskinin seçilməsi o deməkdir ki, bu risklər müəssisənin özündən asılıdır. Təhlildən sonra ən uyğun olanı seçilir. Bu, ilk növbədə, müəssisənin potensialının əlaqəsiz fəaliyyətlər arasında bölünməsini nəzərdə tutur. Sistemsiz risk seçimi müəssisəni genişləndirmək və əlavə mal və ya xidmətlər əldə etmək deməkdir. Bu halda müəssisə üçün risk azalır. Yəni belə bir riskin baş verməsinə imkan vermək lazımdır ki, onunla mübarizə aparmaq mümkün olsun.

2. Riskin layihə iştirakçıları arasında bölüşdürülməsi. Bu, riskdən qaçmağın bir yoludur. Bundan əlavə, risk iştirakçıya ötürülməlidir ki, o, riski idarə edə bilsin. Çünki bütün iştirakçılar eyni komandadadır və gəlir başqalarının deyil, onlarındır. Bu iş bütün iştirakçıların tam razılığı ilə layihə planında və müqavilə sənədlərində təsdiq edilir. Adətən satıcı və alıcı, ya da müştəri və podratçı. Bu zaman tərəflərin müxtəlif maraqlarına görə vəziyyətin simulyasiyası üçün məlum oyun nəzəriyyəsindən istifadə edilir.

3. Özünü sığorta. Birinci halda şirkət sığorta şirkətinə (şirkətinə) müraciət edir və sığorta pulunu ödəyir. İkinci halda o, özünü sığortalayır. Lakin bizdə, eləcə də xarici şirkətlərdə layihənin tam sığortalanması üçün kifayət qədər imkanlar yoxdur. Layihə üçün vəsait toplamaqda çətinlik çəkən respublika onu sığortalamaqda çox çətinlik çəkir. Bu həm də nüfuzlu sığorta şirkətlərinin olmaması ilə bağlıdır.

4. Dəqiq, əlavə, zəruri və dolğun məlumat. Hər bir məlumat pul deməkdir. Bu məlumat şəxsi təhlil əsasında, məxfi şəkildə və açıq mənbədən əldə oluna bilər.

5. Sərmayəni məhdudlaşdırın. Banklar bunu müfəssəl hesabat tərtib etdikdən sonra konkret bir müəssisəyə tətbiq edirlər.

6. Ehtiyatları toplayın. Bu daha çox yayılmış yoldur. Beləliklə, şirkət dəyərini 7-12 faiz artıraraq layihəni həyata keçirməyə çalışır. Risk baş verdikdə onun bir hissəsi artıq məbləğlə kompensasiya edilir, baş vermədiyi zaman isə əlavə ehtiyat kimi müəssisənin gəlirində qalır.

Ümumiyyətlə, riski azaltmaq üçün seçilmiş vasitələr diqqətlə araşdırılmalı, məsuliyyətə cəlb olunmalıdır. Bu, özlüyündə risklərin idarə olunması deməkdir.

## Ədəbiyyat siyahısı

1. İsmayılov B.V., "Strateji menecment", Bakı, "Təhsil", 2018, 296 səh.
2. Kazımlı X., Quliyev İ., "İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi", Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2011, 187 səh.
3. Bolgün E., Akçay B., "Risk Yönetimi" Ankara, 2012, 457 s.
4. Fıkırkoca M., "Bütünsel risk yönetimi", Ankara, 2013, 216 s.
5. https://economy.gov.az/article/risklerin-idare-olunmasi/22763

**Kəmalə Xəlil qızı Yusifova**
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,
baş müəllim, Azərbaycan Dillər Universiteti
E-mail: yusifovakemale38@gmail.com

# QEYRİ-NEFT SEKTORUNDA AQROTURİZMİN İNKİŞAFI

## Xülasə

Müstəqilliyini bərpa etmiş Azərbaycanın iqtisadiyyatının strukturunda digər sahələrlə müqayisədə neft sektorunun müqayisəli üstünlüyü bu sektorun daha yüksək templə inkişafını şərtləndirmişdir. Neft amilinin qlobal tərəddüdlərə həssaslığı artırması və bir sıra digər səbəblər milli iqtisadiyyatın inkişafında struktur məsələlərini gündəliyə çıxarmışdır. İqtisadiyyatın birqütblü inkişafının, ölkə

ixracının neftdən asılılığının aradan qaldırılması, qeyri-neft sektorunun üstün inkişafı məsələləri gündəlikdədir.

Ölkənin karbohidrogen ehtiyatlarına yeni yanaşmaların zəruriliyini və prioritetliyini bəyan edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının qeyri-neft sektorunun üstün inkişafı xəttini bəyan etmişdir. Bir sözlə, müasir dövrdə milli iqtisadiyyatın qarşısında duran mühüm vəzifələrdən biri qeyri-neft sektorunun üstün inkişaf etdirilməsidir.

Neft və qaz Azərbaycan iqtisadiyyatının inkişafında həlledici rol oynamışdır. Bu sərvətlərin müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycan xalqının maraqları baxımından iqtisadi dövriyyəyə cəlb edilməsi olduqca mürəkkəb və çətin bir şəraitdə baş vermişdir. Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanın nəinki iqtisadi təhlükəsizliyi, hətta suverenliyi ciddi təhdidlərlə üzləşmişdi. Xarici və daxili qüvvələrin ciddi təzyiqlərinin artdığı, ölkənin çətin iqtisadi və sosial vəziyyətdə olduğu bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və titanik əməyi sayəsində 1994-cü ilin 20 sentyabrında imzalanmış "Əsrin müqaviləsi" milli neft strategiyasının reallaşdırılmasının həlledici addımı oldu. Ümummilli Liderin əsasını qoyduğu və reallaşdırmağa başladığı milli neft strategiyasının hər bir mərhələsi çətin, şərəfli və taleyüklü hadisələr kimi tarixə düşmüşdür.

Azərbaycanın qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından istifadə proseslərinin səmərəli təşkili məsələləri, kənd ərazilərinin dayanıqlı inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir iqtisadi reallığın əsas məqamlarından biri xidmətə istiqamətlənmiş iqtisadiyyatın üstün inkişafıdır. Əmtəələrin dominantlığı modelindən xidmətlərin dominantlığı modelinə keçən müəssisələrin xüsusi çəkisinin artmasını şərtləndirən amillər sırasında innovasiyaya açıqlıq özünəməxsus rol oynayır. Xidmətin müxtəlif növlərinin, o cümlədən turizm fəaliyyətinin təşkilində müşahidə olıunan fəallığın, ilkin yanaşmada həlledici dərəcədə innovasiyaya həssaslıq və investisiya axınlarının çevikliyi ilə əlaqədar olduğunu söyləmək olar.

Digər amillərin əhəmiyyətini azaltmadan, qeyd edək ki, sürətli inkişaf imkanlarına malik xidmət sahəsi kimi aqroturizmin qeyri-neft iqtisadiyyatının digər sahələrinə müsbət təsirini şərtləndirən amillər sırasında investisiya axınlarının vektorlarına çevik təsir imkanları, tələbin stimullaşdırılmasının az xərclə başa gəlməsi və əlbəttə kreativ yanaşmalar üşün potensial poliqonun mövcudluğu xüsusi olaraq qeyd edilməlidir. Burada bir məqamı da qeyd etməyi lazım bilirik. Turizmin inkişafına vəsait ayrılmalarının yuxarı həddindən danışarkən, bəzi mənbələrdə milli iqtisadiyyatın xidmət iqtisadiyyatına çevrilmə təhlükəsi nəzərə alınmalıdır [1]. İstehsal ölkəsi olan Azərbaycan üçün xatırlanan məqamın aktuallığı ayrıca bir tədqiqat mövzusu ola bilər.

Turizm sahələrinin, o cümlədən aqroturizmin potensialının reallaşdırılması, hətta ilkin yanaşmada belə qeyri-neft sektorunun inkişafına ciddi təkan verə bilər. Birinci fəsildə qeyd edildiyi kimi, bu baxımdan, xarici təcrübədə kifayət qədər inanadırıcı dəlillər vardır. Azərbaycan öz torpaqlarını azad etdikdən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafına xüsusi diqqət yetirməkdədir. Milli iqtisadiyyatın, xüsusilə onun qeyri-neft sektorunun inkişafında aqroturizmin inkişafı və səmərəli təşkili istiqamətləri barədə aşağıdakıları xülasə etmək olar. Hər şeydən əvvəl, onu qeyd edək ki, aqroturizm potensialının qiymətləndirilməsi, tələbi şərtləndirən əsas amillərin xarakteristikası, turist xidmətlərinin qiymətlərinin əmələ gəlməsi proseslərinin müştəri məmnuniyyəti baxımından çevikliyinin təmin edilməsi sahənin qeyri-neft sektorunda rolunu artıra bilər.

Mühüm tarixi-mədəni əhəmiyyət kəsb edən obyektlərin, milli sərvət hesab edilən qədim yaşayış məskənlərinin, tarixi şəxsiyyətlərə məxsus məqbərələrin, onların həyat və yaradıcılığını əks etdirən ev muzeylərinin təbliği üzrə turist marşrutlarının müəyyən edilməsi olduqca mühüm əhəmiyyətli fəaliyyət istiqamətidir. Məsələ ondadır ki, Azərbaycan öz ərazilərini azad etməklə yanaşı, öz mədəni və tarixi abidələrini də erməni təcavüzündən qorumalı, iki əsrə yaxın bir dövr ərzində düşmənin yalan üzərində qurulmuş informasiya müharibəsinin fəsadlarını aradan qaldırmalıdır. Ermənilərin üç onillik ərzində törətdiyi ekoloji terrorun nəticələrinin aradan qaldırılması uzun müddət tələb edəcəkdir. Bu

işdə kənd turizminin rolu artırılmalı, təbiət abidələrinin, landşaft elementlərinin, hidroloji obyektlərin istifadəsi əsasında turizm obyektləri yaradılmalıdır.

Kənd ərazilərində insanların yaşayış tərzi, adət-ənənələri, o cümlədən, mərasimləri ilə tanışlığın təşkili aqroturizmin təşkili elementi kimi özlüyündə az əhəmiyyətli deyildir. Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinə qayıdan yerli əhalinin öz adət və ənənələrini bərpa etməsi prosesi ilə tanışlıq bu baxımdan, xüsusi maraq turizmi istiqaməti kimi kənd turizminin müxtəlif növlərinin inkişafında kreativ yanaşmalara rəvac verə bilər.

Qeyri-neft sektorunun aparıcı sahələrindən biri kimi aqrar sahənin inkişafında turistlərin kənd təsərrüfatı işlərində iştirakı mühüm əhəmiyyət kəsb edir. Bu işin təşkili yerli kənd təsərrüfat sistemi ilə tanışlıqla, kəndin ənənəvi məhsulların hazırlanan yeməklərlə qidalanmaqla, mədəni tədbirlərdə iştirakla və s. müşaiyət olunur. Konkret halda mədəni tədbirlərin, festivalların, sərgilərin, aqroturizmin daha geniş arealda inkişafı məqsədi ilə biznes tərəfdaşlarının tapılması üçün mühüm vasitə və platforma olmaq perspektivi realdır. Ümumiyyətlə, Azərbaycan üçün aqroturizmin inkişaf vektorunun müəyyən edilməsi məsələsi, hazırda gündəlikdə olmalıdır. Belə ki, "dünyanın bir çox ölkələri, özləri üçün aqroturizmin bu və ya digər inkişaf vektorunu müəyyən ediblər" [2].

Qeyri-neft sektorunun inkişafında aqroturizmin potensialından səmərəli istifadənin təşkili məqsədilə həyata keçirilməli tədbirləri xarakterizə edərkən, ilk növbədə münasib və rahat turist mühitinin təmin edilməsi, xidmətin keyfiyyəti və qiyməti arasında tələbin artırılması meyarları baxımından optimal nisbətin yaradılması əsas istiqamətlərdən hesab edilməlidir.

Regional və qlobal enerji təhlükəsizliyinin təminatında rolu artan, enerji marşrutlarını şaxələndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi üzrə Sazişin müddəti 2050-ci llədək uzadılmışdır. Tarixə "İki əsrin müqaviləsi" kimi düşən həmin müqavilə milli neft strategiyasının yeni uğurları üçün təməl olmuşdur. Milli neft strategiyasının həyata keçirilməsi nəticəsində böyük miqdarda vəsait milli iqtisadiyyatın digər sahələrinin də inkişafına və şaxələndirilməsinə əlverişli şərait yaratmışdır. Azərbaycanın bütün regionlarında infrastruktur yenidən qurulmuşdur. Bu məqsədlə həyata keçirilmiş regionların sosial-iqtisadi inkişafı üzrə dörd dövlət proqramı həlledici rol oynamışdır.

Qeyri-neft sektorunun üstün inkişafı milli iqtisadiyyatın yeni strukturunun formalaşması məsələlərinin kompleks həllini nəzərdə tutur. Bu məqsədlə, haqqında danışılan sektoru formalaşdıran sahələrdə innovasiyalı fəaliyyət dəstəklənməli, resurslardan, xüsusilə insan resurslarından istifadənin yeni paradiqması formalaşdırılmalı, ixrac yönümlü fəaliyyət təşviq edilməli, kənd ərazilərində çoxfunksiyalı fəaliyyətin müxtəlif növlərində, o cümlədən turizmin inkişafında dövlət-özəl bölmə tərəfdaşlığı dəstəklənməlidir. Sadalanan istiqamətlər, əlbəttə bütün imkanları və onların reallaşdırılması prioritetlərini əhatə etmir. Həll edilməli problemlərin əhatə dairəsi daha böyük, gündəlikdə olan məsələlərin spektri daha genişdir.

Regional inkişafın müxtəlif səviyyələrində olan ərazilərdə, qeyri-neft sektorunun inkişafı imkanları fərqli olduğu kimi, burada aqroturizm potensialından istifadənin səmərəliliyini şərtləndirən amillərin mühityaratma qabiliyyəti də fərqlidir. Odur ki, aqroturizmin qeyri-neft sektorunun inkişafındakı rolunu qiymətləndirmək üçün haqqında danışılan potensialın hərtərəfli xarakteristikası üçün zəruri təhlillər aparılmalıdır. Yaşıl iqtisadiyyatın inkişafının prioritet istiqamət olduğu hazırki dövrdə qeyri-neft sektorunun üstün və dayanıqlı inkişafında turizm fəaliyyətlərinin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Turizmin, o cümlədən aqroturizmin iqtisadi səmərəliliyini təhlil edən tədqiqatçılar sahənin inkişafının iqtisadiyyatın digər sahələrinin, o cümlədən qeyri-neft sektoruna aid sahələrin dayanıqlı inkişafına təsiri məsələlərinə xüsusi diqqət yetirirlər [3]. Həmin diqqətin və araşdırmaların nəticəsi olaraq xülasə edilmiş müddəalar aqroturizmin milli iqtisadiyyatın, o cümlədən onun qeyri-neft sektorunun müxtəlif sahələrində iqtisadi fəallığın yüksəldilməsində rolunun artdığını söyləməyə kifayət qədər əsas verir. İşgüzar fəallığın aqroturizmin inkişafı sayəsində təşviq edilməsi əlaqədar sahələrin dayanıqlı fəaliyyətinə, bu və ya digər dərəcədə xidmət edir.

Turizm fəaliyyətinin inkişafı və kənd ərazilərində məşğulluq səviyyəsi arasında qarşılıqlı əlaqənin tədqiqi, bu əlaqənin nəinki mövcudluğu, habelə məşğulluğun strukturuna ciddi müsbət təsir etmək iqtidarında olduğu barədə fikir söyləməyə imkan verir. Haqqında danışılan göstəricilər arasında əlaqələrin ikitərəfli xarakteri, əhəmiyyətli dərəcədə aşağıdakı amillərlə şərtlənir. İlk növbədə, artıq

qeyd edildiyi kimi kənd turizminin inkişafı əlavə iş yerləri və ya əlavə məşğulluq yarada bilir. Məşğulluq səviyyəsinin aqroturizmə təsirinə gəldikdə isə, bu kadrlara münasibətdə daha tələbkar olmağa, yəni onlara hazırlıq səviyyəsinə görə münasibət bildirməyə imkan verir. Sirr deyildir ki, aqroturizm obyektləri olan təsərrüfatlarda mehmanxana, səyahət, qonaqpərvərliyin digər istiqamətləri üzrə az-çox dərəcədə hazırlığı olan kadrları tapmaq çətin və ya qeyri-mümkündür. Məşğulluğun səviyyəsinin yüksəldilməsi üzrə həyata keçirilən tədbirlər, əksər hallarda ixtisasartırma və ya ixtisas dəyişmə təlimləri ilə müşayiət olunduğundan, aqroturim sahəsində də kadrların ilkin hazırlığına rəvac verilməsi, heç də nadir hal deyildir.

Aqroturizmin inkişafı müvafiq infrastruktur elementlərinin sistem əmələ gətirməsi prosesini sürətləndirir. Bu isə əslində həmin prosesin iştirakçılarının məhsul və xidmətlərinə tələbi artırmaqla yanaşı, innovasiya infrastrukturunun təşəkkülünü təşviq etmiş olur. Məsələ ondadır ki, aqroturizm təkcə ekzotik cəhətləri ilə deyil, həm də müasir texnoloji tələblərə uyğunluğu ilə cəlbedici olmalıdır. Sonuncu tələblər sırasında isə, istirahət məkanından asılı olmayaraq, turist üçün rəqəmsal inkişaf tempinin aşağı düşməməsi hesab edilə bilər.

İqtisadi artım amili kimi aqroturizmin təsir dairəsində müşahidə edilən dəyişikliklər xarakterizə olunur. Əlbəttə, Azərbaycanda da qeyri-neft sektorunun inkişafında turizm, o cümlədən aqroturizm potensialından səmərəli istifadənin prioritetləri müəyyən edilərkən, valyuta mənbəyi olmaq əlaməti diqqətdən kənarda qalmamalıdır.

Aqroturizmin milli iqtisadiyyatın qeyri-neft sektorunun müxtəlif sahələrində iqtisadi fəallığa təsiri, özünü ilk növbədə aşağıdakı istiqamətlərdə büruzə verir:

- müxtəlif fəaliyyət sahələrinin nəticələrinə, başqa sözlə, məhsul və xidmətlərə tələbin təşviqi;
- kənd ərazilərində maliyyə resurslarına çıxışın asanlaşdırılmasına dair məlumatlandırma sisteminə münasibətin yaxşılaşması;
- özəl investorların potensial aqroturizm obyektləri kimi aqrar istehsal subyektlərinə marağının və investisiya qoyuluşlarının artması;
- indiyə qədər yalnız kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan subyektlərin çoxfunksiyalı status əldə etmək məqsədilə innovasiyalara həssaslıq səviyyəsinin yüksəlməsi və s.

Qeyri-neft sektorunun üstün inkişafının təşviqi sisteminin hazırlanması, o cümlədən sektorun inkişaf imkanlarının, biznes və investisiya mühitinin qiymətləndirilməsi, üstün inkişaf prioritetlərinin əsaslandırılması nəticəsində müvafiq konsepsiyalar, strategiya və proqramlar işlənib hazırlanmışdır. O cümlədən, Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir [5].

Turizmin ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına təsiri, inkişafın tempi və proporsiyalarından, bu və ya digər sahənin üstün inkişafı strategiyasının mövcudluğundan və bu kimi bir sıra digər amillərdən asılıdır. Bazar araşdırmalarının vektoru və xarakteri də bu baxımdan, müəyyən əhəmiyyət kəsb edir. Məsələ ondadır ki, aqroturizmin inkişafı sayəsində qeyri-neft sektoru məhsullarına və xidmətlərinə tələbin təşviqi meyarlarının reallaşdırılması üçün aparılan bazar araşdırmaları məqsədli bazar formalaşdırmağı nəzərdə tuta bilər. Təcrübədə aqroturizmin ərazilərdə iqtisadi fəallığa dəstək imkanlarının müəyyən edilməsinə yönəlik digər hallar da müşahidə olunur.

Turizm, o cümlədən aqroturizm fəaliyyəti, artıq qeyd edildiyi kimi, əksər ölkələrin və onun ayrı-ayrı bölgələrinin iqtisadi inkişafına birbaşa və dolayı təsir göstərir. Araşdırmalar göstərir ki, həmin təsir özünü daha çox qeyri-neft sektorunun nəqliyyat, ticarət, ictimai iaşə, əyləncə sənayesi, sığorta, bank və maliyyə xidmətləri, rabitə və s. kimi sahələrində büruzə verir. Böyük ehtimalla söyləmək olar ki, aqroturizmin inkişafı üçün əlverişli biznes və investisiya mühiti sadalanan və bir sıra digər sahələrin birgə inkişafında, xüsusilə insan kapitalına münasibətdə multiplikasiya effekti yarada bilər [4].

**Nəticə**

Aqroturizmin qeyri-neft sektorunun müxtəlif sahələrində iqtisadi fəallığa təsiri istiqamətlərə aşağıdakılar aid edilməlidir: digər fəaliyyət sahələrinin nəticələrinə, başqa sözlə, məhsul və

xidmətlərə tələbin təşviqi; kənd ərazilərində maliyyə resurslarına çıxışın asanlaşdırılmasına dair məlumatlandırma sisteminə münasibətin yaxşılaşması; özəl investorların potensial aqroturizm obyektləri kimi aqrar istehsal subyektlərinə marağın və investisiya qoyuluşlarının artması; indiyə qədər yalnız kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan subyektlərin, çoxfunksiyalı status əldə etmək məqsədilə innovasiyalara həssaslıq səviyyəsinin yüksəlməsi.

Qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından səmərəli istifadənin təşkili üçün aşağıdakı məsələlər həll edilməlidir: aqroturizmin və ərazinin rekreasiya potensialının birgə inkişafı üçün müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi; sahənin maliyyəyə çıxışının dəstəklənməsi tədbirlərinin sürətləndirilməsi; aqroturizm bazarı iştirakçılarının könüllü şəkildə təşkilatlanmsı üçün əlverişli şəraitin yaradılması; kadr hazırlığı prosesinin institusional dəstəklənməsi; müvafiq məlumatlandırma sisteminin nəticəyönümlüyünün təmin edilməsi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Gössling S., Peeters P., Ceron J.P., Dubois G., Patterson T., Richardson R.B. The eco-efficiency of tourism. Ecol. Econ. 2005, 54: Pages 417-434
2. Ekanayake E., Long A.E. Tourism development and economic growth in developing countries. Int. J. Bus. Financ. Res. 2012, 6: Pages 61-63
3. Tang C.F. Is the tourism-led growth hypothesis valid for malaysia? A view from disaggregated tourism markets. Int. J. Tour. Res. 2011, 13: Pages 97-101)
4. Scheyvens R., Russell M. Tourism and poverty alleviation in Fiji: Comparing the impacts of small-and large-scale tourism enterprises. J. Sustain. Tour. 2012, 20: Pages 417-436
5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.

**Лятифова Эльнура Шакир гызы**
**Западно-Каспийский Университет**
**E-mail: elnura.latifova@bk.ru**

# ПУТИ РЕШЕНИЯ ПРОБЛЕМ БРЕНД-МЕНЕДЖМЕНТА И АДМИНИСТРИРОВАНИЯ В ПОСТКРИЗИСНЫХ УСЛОВИЯХ

**Резюме**

Основной целью темы является изучение проблем посткризисного периода и анализ их негативного влияния на мировой рынок. Также важно проанализировать,каким образом компании могут выйти из этой ситуации в рыночных условиях. Основная цель обсудить возможные решения в рыночных условиях и возможные направления для мирового рынка.

**Ключевые слова:** бренд, кризисная ситуация, производитель,покупатель,мировой рынок.

## Введение

В настоящее время в экономической литературе нет единого мнения о сущности бренда, нет и общепринятого определения. Универсальность концепции бренда означает, что у каждого автора есть своя интерпретация этой проблемы. С этой точки зрения возникает понятие путаницы в терминологической группе: товарный знак, торговая марка, товарная марка, бренд. Одним из факторов, усложняющих этот вопрос, является увеличение в последнее время количество товаров под торговой маркой не только товаров, но и людей, территорий и так далее. Ознакомьтесь с классификацией. Однако более детальное рассмотрение этого вопроса позволяет выстроить цепочку ссылок, где бренд является последним звеном. Исторически сложилось, что появился первый бренд. В процессе последнего превращения знака из имущественного символа-штампа в бренд изменилась его

сущность. Марка торгового знака стала отправной для формирования товарного знака, а далее для формирования бренда.

**Литературный обзор**

Ф. Котлер определяет «торговую марку» как «название, знак, символ, рисунок или комбинацию», идентифицирующие товары или услуги продавца или группы продавцов и отличающие их от товаров и услуг конкурентов [1]. Важной частью этого определения является то, что бренд может применяться, когда на рынке имеется более одного продукта соответствующего типа, т. е. он является конкурентоспособным. В противном случае в товарном знаке нет необходимости, потому что нет необходимости делать выбор. Это первая функция, которую выполняет бренд, вторая функция того же определения: идентификация или характеристика товара и производителя. Это определение товарного знака считается основополагающим или классическим.

По Ф. Котлеру, бренд состоит из нескольких элементов: бренда, торгового знака и товарного знака. Название бренда является частью знака в виде букв, которые необходимо произносить; товарный знак — визуально узнаваемая часть бренда; Товарный знак обеспечивает правовую защиту бренда. Единство отдельных элементов бренда составляет сущность этого значения и позволяет отличить его от других брендов.

Использование каждого конкретного элемента или их комбинации определяется особенностями рынка. На современном рынке производителям недостаточно использовать только названия, логотипы и средства правовой защиты в качестве этикеток для продуктов. На мой взгляд, этот набор элементов не полностью объясняет концепцию бренда. Таким образом, Е.П. Голубков придерживается позиции Ф. Котлера, точно так же раскрывает понятие товарного знака и его общие элементы, отмечая при этом фирменное наименование, товарный знак и торговый знак [2]. Многие маркетологи согласны с Котлером и Голубковым. По мнению некоторых авторов, товарный бренд представляется более сложным понятием, не ограничивающимся наименованием, визуальным образом и правовой охраной. Идентичность, содержание и границы товарного знака — это идея, которая позволяет определить другие аспекты. В частности, рассмотрим работы Дж. Эванса и Б. Бермана. Авторы предлагают оценивать товарный знак как наименование, знак или символ (или их сочетание), идентифицирующие товары и услуги продавца или продавцов [3].

Такая интерпретация позволяет выбрать только одну из функций бренда: идентификацию или характеристику товара и производителя. Вопреки определению Ф. Котлера, высвобождается такая важная составляющая бренда, как отличие от конкурентов. На мой взгляд, это ограничивает суть бренда.

Однако в своей работе Дж. Эванс и Б. Берман выделяют не три элемента товарного знака, а четыре: фирменное наименование, фирменный логотип, торговый образ и товарный знак. Таким образом, торговая марка наполняется коммерческой характеристикой, такой как «личный имидж». В этом случае образ (имидж) украшает бренд определенными категориями, чувствами и особенностями человека и облегчает его узнавание людьми. Грамотно сформированный имидж повышает узнаваемость и память о бренде, открывая перед производителями дополнительные возможности на конкурентном рынке. Однако есть и другие аспекты бренда, которые могут выступать в качестве конкурентного преимущества. В связи с этим следует отметить позицию К. Келлера.

К. Келлер описывает шесть элементов бренда: название, логотип или символы, персонаж, мотив, слоган, упаковка [4]. Следует отметить, что при решении вопроса о правовой охране товарного знака автор не включает этот аспект отдельно, в определение марки или сочетания элементов, а рассматривает его отдельно. Можно сделать вывод, что один из элементов, выделенных К. Келлером как характер, может быть охарактеризован «образом личности», показанным Дж. Эвансом и Б. Берманом.

**Оснавная часть**

В результате добавляются такие аспекты, как мотив концепции бренда (музыкальное произведение, сопровождающее образ бренда), слоган (слово, объясняющее преимущества бренда) и упаковка (оболочка для товара). Таким образом, по-видимому, по мнению авторов, количество элементов бренда может быть разным.

Однако расширенная трактовка бренда создает для производителя большие возможности в формировании комплекса маркетинга, тем самым повышая его конкурентное преимущество на рынке. Таким образом, с точки зрения общих элементов бренда он выглядит как многофункциональная концепция.




**Рисунок 1. Элементы товарного знака**

Можно сделать вывод, что товарный бренд состоит из фирменного наименования, товарного знака, торгового знака, личного образа, мотива, слогана и упаковки. Бренд — это концепция, которая сочетает в себе название бренда, товарный знак, торговую марку, торговую форму (личное изображение), слоган и мотив упаковки и предназначена для того, чтобы отличать бренды от других брендов и идентифицировать продукты или услуги одного поставщика или нескольких поставщиков. (рисунок 1)

При объединении имени, значка, товарного знака, мотива, слогана, упаковки после создания совокупного товарного знака он регистрируется в соответствии с законодательством и окончательно становится товарным знаком. После определения концепции бренда нельзя упускать из виду один из основных и важных элементов – потребительский элемент. Потому что все элементы бренда отражаются в мозгу потребителя в виде бренда. Существование бренда считается невозможным без потребителя.

Потребитель производит положительное или отрицательное впечатление о товаре.

К. Келлер отличает его от других товаров, удовлетворяющих аналогичные потребности, рассматривая товарный знак как единственное вспомогательное свойство товара (совокупность вспомогательных признаков).

Вспомогательные свойства бывают рациональными (ощущаемыми, конкретными) и эмоциональными (неосязаемыми, абстрактными). Определяет необычные функции рационального продукта. Эмоциональное свойство определяет его образ [4] и уникальность восприятия бренда: «По К. Келлеру, потребитель является средством общения между товаром и производителем.

В этой цепочке взаимодействие возникает при организации определенного образа, формируется у потребителя, а затем ложится в основу покупательского стиля. А если образ негативный, то и покупательский опыт, соответственно, становится негативным; и, наоборот, положительный имидж помогает завоевать доверие потребителей, увеличивая количество лояльных клиентов. В результате покупатель приобретает средство для удовлетворения как

своих материальных потребностей, так и в то же время приобретает определенные «эмоциональные свойства».

Интересна и позиция Н. Тесакова, он двояко подходит к концепции бренда в своей работе.

1) Первая описывает торговую марку продавца, тем самым определяя отношения между торговой маркой и производителем товара.

2) Во-вторых, бренд общается с потребителем.

В первом случае автор рассматривает торговый знак как товарный знак: «Товарный знак является объектом интеллектуальной собственности, активом компании и средством отличия ее продукции от других аналогов и повышения прибыльности компании».

Во втором случае он рассматривается как средство удовлетворения потребностей потребителя: «Бренд — это товар или услуга, упрощающие процесс выбора между однородными товарами, удовлетворяющими определенные физические и эмоциональные потребности» .

Таким образом, можно договориться о двусторонней связи в понятии бренда. Соответственно, можно выделить ряд аспектов, ограничивающих торговый бренд и товарный бренд.

Что такое «бренд»?

Значение слова «бренд» почти такое же, как и определение торговой марки, за исключением одного признака: отличительные черты и описания торговой марки, помимо выделения товара среди конкурентов, товар имеет определенную популярность среди целевой аудитории.

«Бренд – имя, влияющее на покупателей,становясь критерием покупки» [3]

Другими словами, бренд – это известный бренд, привлекающий внимание и любовь потребителей. Отличие бренда от марки- элементы его фирменного стиля, фирменное наименование, слоган узнаются потребителем, а поскольку он остается лояльным к определенной части рынка, возникает спрос на товары под его логотипом.

«Самое «узаконенное» определение бренда принадлежит Американской ассоциации маркетинга ( American Marketing Association – AMA): «Имя, термин,знак,символ , дизайн или комбинация всего этого, предназначенные для идентификации товаров или услуг одного продавца или группы продавцов, а также для отличия товаров или услуг от товаров или услуг конкурентов»[4].

Бренд становится брендом через маркетинговую коммуникацию. Товарная марка становится брендом, когда о нем узнает потребитель (в рекламе, на витрине, когда о нем вспоминают друзья. Как видите, марка становится брендом после узнаваемости. Чем выше узнаваемость марки, тем выше популярность бренда.

2020 год не стал удачным стартом для многих отраслей, а также для всемирно известных брендов. Во всех странах, находящихся в условиях локаута из-за эпидемии коронавируса, повсеместные ограничения на поездки и закрытие производства стали обычным явлением. Такие сектора, как глобальная экономика, туризм и цепочки поставок, были полностью фрагментированы. Вирус коронавируса поставил перед брендами ряд проблем. Можно сказать, что глобальные темпы роста сильно пострадали. Изменение поведения потребителей при принятии защитных мер против вируса имело серьезные социальные и экономические последствия. Одним из самых негативных последствий пандемии является нехватка продуктов и нарушение цепочек поставок. Учитывая, что Китай является фабрикой для всего мира, мы можем сказать, что существовал серьезный кризис в поставках брендов компаниям по всему миру, производственные мощности которых зависят от Китая.

Кризис развивался и усугублялся день ото дня.

Краткосрочные меры реагирования на кризис пока также очень важны. С точки зрения операций, большинство брендов немедленно справлялись с ситуацией, но были лиготовы мы к долгосрочным последствиям этого кризиса? Если мы обсудим некоторые из краткосрочных и долгосрочных эффектов, мы увидим, что потеря одного является приобретением другого. В то время как многие рынки сбыта находились в затруднительном положении (туристический

сектор), интернет-магазины переживают бурный рост. Ожидалось , что бренды товаров для здоровья и социального обеспечения должны были иметь лучшие перспективы роста в ближайшие годы благодаря увеличению инвестиций в здравоохранение и санитарию. Такие случаи говорят о том, что это были самые тяжелые времена для владельцев брендов и маркетологов. Эпидемия COVID-19 усугубляла такие опасения, и в условиях рынка крупные бренды и многие компании пытались найти новый выход. Продажи были отложены, торговые центры и рестораны закрыты, кинотеатры закрыты, улицы опустели, путешествия подошли к концу. Это была уникальная возможность для многих компаний. Поскольку все больше и больше людей во всем мире оставались дома, у брендов есть аудитория, которая прилипает к своим телевизорам или экранам мобильных устройств, которые потребляют много контента. В эти неопределенные времена бренды осторожно искали наиболее рентабельные способы доставки продуктов и услуг.

Эта широкая клиентская база, которая кажется удобной для сокращения расходов на маркетинг, являлась лишь краткосрочным решением, которое привело к долгосрочным результатам. Основная стратегия брендов в этот период — быть с потребителями, повышать ценность их жизни и завоевывать их доверие. Важно было поддерживать имидж бренда на рынке. Практически все факторы, влияющие на процесс совершения покупок и принятия решений потребителями с потенциальной клиентской базой, изменились, покупательная способность потенциальной клиентской базы в период пандемии была очень низкой. В те трудные времена мы видели, как технологии набирают силу. Поскольку мероприятия и конференции тестировали онлайн-альтернативы, потребовались серьезные инновации для создания рабочих мест в технологическом секторе, как обычно. Было сложно воспроизвести личные возможности для бизнеса или сети с прямыми трансляциями, Многим брендам необходимо было подготовить сотрудников для работы из дома. В то время как маркетинговые и брендовые агентства, похоже, лучше были оснащены в этом отношении, растущая потребность в удаленном взаимодействии во время пандемии только заставила бренды инвестировать в развитие лучшей инфраструктуры для удаленной работы. Бренды электронной коммерции использовали мощь таких технологий и алгоритмов, чтобы ограничить количество единиц, которые можно было заказать, чтобы предотвратить агрегацию.

Антикризисное управление не является незнакомым термином для многих брендов, но неопределенность вокруг COVID-19 являлась первой для всех нас. Кризисный буклет, который, возможно, существовал несколько недель назад, теперь принадлежал другой эпохе, и даже самые гибкие рекламодатели, привыкшие разрабатывать свои стратегии и адаптировать рекламодателей в режиме того времени, задавались вопросом: «Как мы можем провести этот сложный период с меньшим ущербом?

Многие мировые бренды предприняли ряд шагов для защиты имиджа своего бренда в посткризисной ситуации, стимулирования продаж и преодоления кризиса с минимальным ущербом, рассмотрим некоторые из них.

Как бренду, существующему более века, Ford пришлось нелегко во время пандемии. Чтобы признать привлекательность момента, компания направила свою рекламу, чтобы объяснить, как они сталкивались с глобальными кризисами в прошлом, например, разрабатывая военную технику во время Второй мировой войны, а также взяли на себя обязательства по борьбе с COVID-19. Производя дефицитное медицинское оборудование. Новые рекламные объявления «Создано для охвата» и «Создано сейчас» были основаны на многовековой приверженности компании потребителям и ответственности.

По словам Эндрю Джорджеску, главы отдела контент-маркетинга Ford в США, которые он высказал в то трудное время «117 лет выносливости научили нас тому, что мы можем пройти через это. Но это критическое время, которое требует действий и сотрудничества. Чтобы выполнить свои обязательства, компания поддерживает потребителей, испытывающих финансовые трудности, через платежную программу Ford Credit. Walgreens Walgreens, одна из крупнейших аптек в США и признанный лидер в области здравоохранения, адаптировала

серию коротких информативных видеороликов «Спросите фармацевта», которые отвечали на общие вопросы клиентов о COVID-19. Бренд также превратил существующую кампанию по электронной почте в видеорекламу, чтобы объяснить, как люди могут воспользоваться онлайн-услугами по уходу и бесплатной доставкой по рецепту за короткий период времени. Наконец, он впервые ввел испытания, чтобы помочь решить проблему, с которой сталкивались многие сообщества из-за ограниченного доступа к тестам на COVID-19.

**Заключение**

В итоге, учитывая текущую рыночное положение и непростые времена брендов и методы борьбы в этот период, можно сказать, что из китайского опыта пандемии и роли брендов можно извлечь некоторые уроки. Без более глубокого понимания культуры бренды сейчас и в мире COVID-19 смогли побороться за создание осмысленной, оригинальной и интуитивно понятной марки. Бренды должны были быть более требовательными, более заинтересованными и более внимательными единомышленниками в этом мире. И бренды, и потребители стремительно движутся к новой эре коммуникации.

## СПИСОК ЛИТЕРАТУРЫ:

1. Котлер Ф. Основы маркетинга: Пер. с англ. – М.: «Бизнес-книга», «ИМА-Кросс. Плюс», ноябрь 1995. 702 с.

2. Эванс Дж.Р., Берман Б. Маркетинг. Пер. с англ. – М.: Сирин, 2002 г., 308с.

3. Тесакова Н. Юридическая защита брендов. // «Бренд- менеджмент» — №3, 2006 (© Издательский дом Гребенников) 22 с.

4.Бренд. Боевая машина бизнеса./ Виктор Тамберг, Андрей Бадьин.- М.:ОЛИМП БИЗНЕС.2005, 13с.